ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

cild 92, №4, 2025 ISSN 2409-8817

ELMİ əsərlər

НАУЧНЫЕ ТРУДЫ

SCIENTIFIC WORKS

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
ALİ ATTESTASİYA KOMİSSİYASI

https://doi.org/10.69682/arti.2025.92.4
https://archive.org/details/scientific-works.-volume-92-no-3-2025 – Internet Archive
https://journals.indexcopernicus.com/search/details?id=122986 – Index Copernicus
https://journalseeker.researchbib.com/view/issn/2409-8817 – Researchbib
https://www.slideshare.net/slideshow/scientific-works-volume-92-3-2025-pdf/280916086– SlideShare
https://www.calameo.com/read/007335995731e850898b1 – Calameo

ISSN 2409-8817
E-ISSN 3078-2813
DOI: 10.69682

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

ELMİ ƏSƏRLƏR

cild 92, № 4, 2025

НАУЧНЫЕ ТРУДЫ

том 92, № 4, 2025

SCIENTIFIC WORKS

volume 92, № 4, 2025

“Elmi əsərlər” 1934-cü ildən çıxır
İldə 6 nömrə nəşr olunur
Redaksiyanın ünvanı:
Bakı şəhəri, Zərifə Əliyeva küçəsi, 96

Tel: 493-96-21, 493-30-06

Azərbaycan Respublikasının Təhsil İnstitutu Elmi şurasının iclasının qərarı ilə nəşr edilir.

Təsisçi: Azərbaycan Respublikasının Təhsil İnstitutu
"Elmi əsərlər" məcmuəsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin
11 iyul 2002-ci il tarixli 23 №-li əmri ilə qeydə alınmışdır.

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə tövsiyə edilən nəşrlər siyahısına daxil edilmişdir.

Baş redaktor:
Akif Abbasov – *pedaqogika elmləri doktoru, professor*

Baş redaktorun müavini:
Hümeyir Əhmədov – *pedaqogika elmləri doktoru, professor*

Baş redaktorun müavini:
İlham Cavadov – *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

Məsul katib:
İradə Əmirəliyeva – *pedaqogika üzrə fəlsəfə doktoru*

Redaksiya heyəti: **Emin Əmrullayev**, **Elnur Əliyev**, kimya ü.f.d., **Rüfət Əzizov**, siyasi.elm.ü.f.d. **Anar Nağıyev**, ped.ü.f.d., dos. **Ənvər Abbasov**, ped.e.d., prof. **Vidadi Xəlilov**, ped.e. d., prof. **Fərahim Sadıqov**, ped.e.d., prof. **Hikmət Əlizadə**, psixol.e.d., prof. **Ramiz Əliyev**, ped.e.d., prof. **İntiqam Cəbrayılov**, ped.e.d. **Piralı Əliyev**, ped.e.d., prof. **Mübariz Əmirov**, ped.e.d., prof. **Novruz Musayev**

Redaksiya Şurası:
B.H. Əliyev (AMEA-nın müxbir üzvü, psixol. e.d., prof., Azərbaycan)
A.N. Rəhimov (Bakı Qızlar Universitetinin təsisçisi, ped.e.d., prof., Azərbaycan)
A.K. Kusainov (Kazaxıstan Pedaqoji Elmlər Akademiyasının prezidenti, ped.e.d., prof., Almatı)
O.M. Topuzov (Ukrayna Milli Pedaqoji Elmlər Akademiyasının vitse-prezidenti, Pedaqogika İnstitutunun direktoru, ped.e.d., prof., Kiyev)
İ.X. Karimova (Tacikistan Təhsil Akademiyasının vitse-prezidenti, ped.e.d., prof., Düşənbə)
V. Briller (Kolumbiya Universitetinin Ali təhsilin sektor təhlili üzrə icraçı direktoru, Dr., prof. (Nyu-York)
S.P. Lomov (Moskva DPU-nun kafedra müdiri, RTA-nın akademiki, ped.elm.dok., prof., Moskva)
Y.P.Zinçenko (Moskva Dövlət Universitetinin psixologiya fakültəsinin dekanı, psixologiya elmləri doktoru, professor, Moskva)
Ə.Ə. Şahin (Hacettepe Universitetinin professoru, Türkiyə)
Y. Romanenko (dövlət idarəetmə elmləri doktoru, professor, Ukrayna)
A.S. Sidenko (Sosial İdarəetmə Akademiyasının aparıcı elmi işçisi, ped.e.d., prof., Moskva)
N.V. Naumova (Samara Humanitar Akademiyasının kafedra müdiri, psixol. ü.f.d., dosent, Samara)
Tran Mai Uos (Banking Universitetinin baş müəllimi, fəlsəfə doktoru, dosent, Vyetnam)

Redaksiya: Lalə Məmmədli, Dinarə Əsədova, Günel Quluzadə, Şükür Aslanov

© ARTİ, 2025

Published by the decision of the Academic Council of the Institute of Education of the Republic of Azerbaijan

Founder: Institute of Education of the Republic of Azerbaijan
The collection "Research Papers" was registered by order No. 23 of July 11, 2002 of Ministry of Justice of the Republic of Azerbaijan

"Research Papers" has been published since 1934.

Frequency of publication: 6 issues per year. "Research Papers" are included in the list of publications recommended by the decision of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan

Editor in Chief:
Akif Abbasov – *doctor of pedagogical sciences, professor*

Deputy Editor in Chief:
Humeyir Ahmadov – *doctor of pedagogical sciences, professor*

Deputy Editor in Chief:
Ilham Javadov – *doctor of philosophy in pedagogy, associate professor*

Executive Secretary:
Irada Amiraliyeva – *doctor of philosophy in pedagogy*

Editorial board: **Emin Amrullaev, Elnur Aliyev**, Ph.D. in chemistry **Rufat Azizov**, Ph.D. in political sciences **Anar Naghiyev**, Ph.D. in ped., assoc. –prof. **Anvar Abbasov**, dok.of ped. sciences, prof. **Vidadi Khalilov**, dok.of ped. sciences, prof. **Farahim Sadigov**, dok.of ped. sciences, prof. **Hikmat Alizade**, dok.of psychol. sciences, prof. **Ramiz Aliyev**, dok.of ped. sciences, prof. **Intigam Jabrayilov**, dok.of ped.sciences **Pirali Aliyev**, dok.of ped. sciences, prof. **Mubariz Amirov**, dok.of ped.sciences, prof. **Novruz Musayev**

Editorial Council:
B.H. Aliyev (Corresponding Member of National Academy of Sciences of Azerbaijan, doc. of psychological sciences, prof., Azerbaijan)
A.N. Rahimov (founder of Baku University for Girls, doctor of ped. sciences, prof., Azerbaijan)
A.K. Kusainov (President of the Kazakhstan Academy of Pedagogical Sciences, doctor of ped. sciences, prof., Almaty)
O.M. Topuzov (Vice-President of the National Academy of Pedagogical Sciences of Ukraine, Director of the Institute of Pedagogy, doctor of ped. sciences, prof., Kiev)
I.Kh. Karimova (Vice-President of Academy of Education of Tajikistan, doctor of ped. sciences, prof., Dushanbe)
B.Briller (Executive director of Higher Education Sector Analysis at Columbia University, Dr. prof., New York)
S.P. Lomov (Head of the department of the Moscow Pedagogical State University, Academician of the Russian Academy of Education, doctor of ped. sciences, prof., Moscow)
Y.P. Zinchenko (Dean of the faculty of psychology at Moscow State University, Doctor of psychology, prof., Moscow)
A.A. Shahin (professor at Hacettepe University, Turkiye)
Y. Romanenko (doctor of sciences in public administration, professor, Ukraine)
A.S. Sidenko (Leading researcher of the Academy of Social Management, doctor of ped. sciences, prof., Moscow)
N.V. Naumova (Head of the department of the Samara Humanitarian Academy, doctor of philosophy in psychology, Samara)
Tran Mai Uoc (Senior lecturer, Banking University, PhD, associate professor, Vietnam)

© IERA, 2025

Публикуется решением Ученого Совета Института Образования Азербайджанской Республики

Учредитель: Институт Образования Азербайджанской Республики
Сборник «Научные труды» зарегистрирован приказом № 23 от 11 июля 2002 г. Министерства Юстиции Азербайджанской Республики

«Научные труды» издается с 1934 года.

Периодичность издания: 6 номеров в год.
«Научные труды» включены в список публикаций, рекомендованных решением Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики

Главный редактор:
Акиф Аббасов – *доктор педагогических наук, профессор*

Заместитель главного редактора:
Гумеир Ахмедов – *доктор педагогических наук, профессор*

Заместитель главного редактора:
Ильхам Джавадов – *доктор философии по педагогике, доцент*

Ответственный секретарь:
Ирада Амиралиева – *доктор философии по педагогике*

Редакционная коллегия: **Эмин Амруллаев**, **Эльнур Алиев**, док.ф. по хим. **Руфат Азизов**, док.ф. по полит.н. **Анар Нагиев**, док.ф. по пед., доц. **Энвер Аббасов**, док. пед.н., проф. **Видади Халилов**, док. пед.н., проф. **Фарахим Садыгов**, док. пед.н., проф. **Хикмет Ализаде**, док. психол. н., проф. **Рамиз Алиев**, док. пед.н., проф. **Интигам Джабраилов**, док. пед.н. **Пирали Алиев**, док. пед.н., проф. **Мубариз Амиров,** док. пед.н., проф. **Новруз Мусаев**

Редакционный совет:
Б.Г. Алиев (чл.-корр. НАНА, док. психол.н., проф., Азербайджан)
А.Н. Рагимов (учредитель Бакинского Университета для Девушек, док. пед.н., проф., Азербайджан)
А.К. Кусаинов (президент Казахстанской АПН, док. пед.н., проф., Алматы)
О.М. Топузов (вице-президент НАПН Украины, директор Института Педагогики, док. пед.н., проф., г. Киев)
И.Х. Каримова (вице-президент АО Таджикистана, док. пед.н., проф., Душанбе)
В. Бриллер (исполнительный директор по анализу сектора Высшего Образования Колумбийского Университета, д-р, проф., Нью-Йорк)
С.П. Ломов (зав.кафед. Московского ПГУ, акад. РАО, док. пед.н., проф., Москва)
Ю.П.Зинченко (декан психологического факультета МГУ, доктор психологических наук, профессор, Москва)
А.А. Шахин (профессор Университета Хаджеттепе, Турция)
Е. Романенко (доктор наук по государственному управлению, профессор, Украина)
А.С. Сиденко (вед. науч. сотруд. Академии Социального Управления, док. пед.н., проф., Москва)
Н.В. Наумова (зав. кафед. Самарской Гуманитарной Академии, док.ф.. по психол., Самара)
Tran Mai Uoc (старший преподаватель Университет Банкинга, д. филос., доц., Вьетнам)
Редакция: Лала Мамедли, Динара Асадова, Гюнель Гулузаде, Шукюр Асланов

© ИОАР, 2025

Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Decree of the President of the Republic of Azerbaijan on the celebration of the 100th anniversary of Bakhtiyar Vahabzade

Распоряжение Президента Азербайджанской Республики о праздновании 100-летнего юбилея Бахтияра Вагабзаде

2025-ci ilin avqust ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, dramaturq, ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, akademik Bəxtiyar Mahmud oğlu Vahabzadənin anadan olmasının 100 ili tamam olur.

Bəxtiyar Vahabzadə mübariz şəxsiyyəti və çoxşaxəli fəaliyyəti ilə XX əsrin ikinci yarısından etibarən Azərbaycan bədii-ictimai fikir tarixinə parlaq səhifələr yazmış qüdrətli simalardandır. Onun Vətənə, millətə və doğma ana dilinə sonsuz məhəbbət ifadə edən, dərin poetik-fəlsəfi düşüncələrlə zəngin irsi daim mədəni-mənəvi dəyərlərə ehtiram, milli azadlıq ideallarına bağlılıq və istiqlal məfkurəsinə sədaqət hissi aşılamışdır. Sənətkar ədəbi və elmi yaradıcılığını uzun illər pedaqoji fəaliyyəti ilə uğurla əlaqələndirərək, bir neçə nəslin milli təfəkkürünün formalaşmasında müstəsna rol oynamışdır. Bəxtiyar Vahabzadə ictimai xadim kimi xalqın taleyüklü məsələlərinə münasibətdə həmişə əsl ziyalı mövqeyi nümayiş etdirmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli ədəbi fikir xəzinəsinə qiymətli töhfələr bəxş etmiş söz ustası Bəxtiyar Vahabzadənin 100 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli ədəbi fikir xəzinəsinə

qiymətli töhfələr bəxş etmiş söz ustası Bəxtiyar Vahabzadənin 100 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1.Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 21 fevral 2025-ci il

BƏXTİYAR VAHABZADƏ – 100
BAKHTIYAR VAHABZADE – 100
БАХТИЯР ВАГАБЗАДЕ – 100

UOT 371

Akif Nurağa oğlu Abbasov,
Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi,
pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim
https://orcid.org/0000-0002-9210-7141
E-mail: prof.akif@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(4).7-10

BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA ANA MÖVZUSU ŞAGİRDLƏRİN TƏRBİYƏSİ VASİTƏSİ KİMİ

Akif Nuragha Abbasov,
scientific secretary of the Institute of Education of the Republic of Azerbaijan
doctor of pedagogical sciences, professor, Honored teacher

THE THEME OF THE MOTHER IN THE WORKS OF BAKHTIYAR VAGABZADE AS A MEANS OF PUPILS UPBRINGING

Акиф Нурага оглы Аббасов,
ученый секретарь Института Образования Азербайджанской Республики,
доктор педагогических наук, профессор, заслуженный учитель

ТЕМА МАТЕРИ В ТВОРЧЕСТВЕ БАХТИЯРА ВАГАБЗАДЕ КАК СРЕДСТВО ВОСПИТАНИЯ УЧАЩИХСЯ

Xülasə. Bəxtiyar Vahabzadə Azərbaycanın görkəmli şairidir. O həm də istedadlı alimdir, ədəbiyyatşünasdır. Hər iki sahədə uğurlu fəaliyyət ngöstərib. Bəxtiyar Vahabzadə yaradıcılığı güclü tərbiyələndirici, təsilləndirici və imkanlara malikdir. Bu məqalədə şairin ana mövzusunda yazdığı şeirləri və "Atılmışlae" poeması üzərində dayanılır. Şairin anaya həsr olunmuş şeirləri şagirdlərdə anaya məhəbbət tərbiyəsində mühüm vasitə kimi nəzərdən keçirilir.
***Açar sözlər**: ana, anaya məhəbbət, anaya məhəbbətin tərbiyə edilməsi, təlim prosesi, sinifdənxaric tədbirlər*

Abstract. Bakhtiyar Vahabzade is an outstanding Azerbaijani poet. He is also a talented scholar and literary critic. He has achieved success in both fields. Bakhtiyar Vahabzade's work has a powerful educational, upbringing and educating potential. This article examines the poet's poems dedicated to his mother . The poet's poems dedicated to his mother are considered as an important way for cultivating love for mother in students.
***Keywords:** mother, love for mother, cultivating love for mother, educational process, extracurricular activities*

Аннотация. Бахтияр Вахабзаде – выдающийся азербайджанский поэт. Он также талантливый учёный и литературовед. Он добился успеха в обеих областях. Творчество Бахтияра Вахабзаде обладает мощным образовательным, воспитательным и образовательным потенциалом. В данной

статье рассматриваются стихотворения поэта, посвящённые матери. Стихи поэта, посвящённые матери, рассматриваются как важное средство воспитания любви к матери у учащихся.

***Ключевые слова**: мать, любовь к матери, воспитание любви к матери, образовательный процесс, внеклассная работа*

Bəxtiyar Vahabzadə xalqımızın Azərbaycana, dünya mədəniyyətinə, türk aləminə bəxş etdiyi çox qüdrətli şəxslərdən, şəxsiyyətlərdəndir. O, görkəmli ədəbiyyatşünas alim (AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor) olmaqla yanaşı misli bərabəri olmayan söz ustası, şairdir. İstedadlı alim olsa da, şeirə çox bağlı idi. Şairlyini hətta alimliyindən üstün tutardı. Bu barədə yazıb da: "Qoyar dizinin altına, alim Bəxtiyarı şair Bəxtiyar".

Şeirə, şeiriyyətə vurğunluğun dərəcəsinə bir baxın! Hamamıza məlumdur ki, Bəxtiyar Vahabzadə çox yaxşı alim idi, 1947-ci ildən müəllim kimi fəaliyyət göstərirdi. Başqa işlə məşğul olmanmışdı. Ömrünün sonuna kimi Bakı Dövlət Universitetinin professoru idi. Gözəl nitqə sahiblənmişdi, mühazirələrindən doymaq olmurdu. Amma şairliyə böyük dəyər verirdi.

Bəxtiyar Vahabzadə sözün qüdrətindən çox faydalanmağı, nəzərdən keçirdiyi məsələləri ustalıqla, böyük sənətkarlıqla mənalandırmağı çox yaxşı bacarırdı.

Şair çox möhtəşəm uğurlara ona görə nail olurdu ki, onda məsuliyyət hissi son dərəcə qüvvətli idi, özünə qarşı olduqca tələbkar idi, əlinə qələm alanda məntiqə söykənirdi. Odur ki, qəlbləri fəth edir, oxucunu düşündürürdü, ona yol göstərirdi. Bəxtiyarın qənaətlərindən çoxları yararlanırdı. Yazıb yaradır, sözlə dünyanı fəth edirdi. Dünya ondan razı idi, oxucular da onu sevirdi, o isə özündən razı deyildi:

Narahatam, narazıyam,
Ömrüm boyu özümdən.
Bizim sənət dünyasının,
Qırıq telli sazıyam.
Bircə ondab razıyam ki,
Özümdən narazıyam.

Dahi şairdəki təvazökarlığa bax! Belə etirafı Bəxtiyar qayəli, Bəxtiyar hünərli şəxsiyyətlər edə bilərlər.

Bəxtiyar Vahabzadənin bədii yaradıcılığı son dərəcə çoxşaxəlidir. Çoxsaylı poemaları, pyesləri, saysız-hesabsız şeirləri var. Hamısı uğurlu, bitkin, heyratamiz, tərbiyələndirici, təhsilləndirici, düşündürücü. Əsərləri müxtəlif mövzulara həsr olunub. Hər biri xüsusi tədqiqatın, araşdırmanın mövzusudur.

Biz bu məqalədə qürdətli şairin öz anasına, ümumiyyətlə, analara həsr etdiyi şeirləri üzərində dayanmaq istəyirik. Ana mövzusu ananın özü kimi müqəddəsdir. Ana bizə həyat, döşündən süd verib. Bizi böyüdüb, boya-başa çatdırıb, çinar boy edib. Təhsilimiz, sağlamlığımız, təhlükəsizliyimiz qayğısına qalıb.

Analaın fədakarlığı tükənməz və əvəzedilməzdir. Hər birimiz anaya səcdə qılmağa borcluyuq. Bəxtiyar Vahabzadə demişkən, "Ana həyat verir, öz övladına, Həm də öz ömründən ömür bağışlayır". Şairin "Ana hədiyyəsi" şeirində ana namaz qılan vəziyyətdə təsvir olunub. O, əlini göylərə qaldırır Allaha yalvararaq xahiş edir:

– Ya rəbbim! – deyə:
– Sənsən xəlq eliyən göyləri, yeri,
Candan şirin olur bala, ay Allah.
Sən mənim ömrümdən kəsib illəri,
Balamın ömrünə cala, ay Allah! (1, s. 16).

Ana öz ömrünü balasına hədiyyə verir. Şair ananın sözlərini, arzularını yüksək sənətkarlıqla mənalandırır. Onun istəyinin, diləyinin nə qədər önəmli olduğunu diqqətə çatdırır. Bildirir ki:

"Çoxdur bu dünyada hədiyyə... ancaq
Ömürdən hədiyyə görməmişəm mən.

İstərəm, bir ana, bir bala sözü
Lüğətdə sözlərin önündə gedə.
Uca olduğundan ananın özü
Ucadır, böyükdür hədiyyəsi də" (1, s. 16).

Bəxtiyar Vahabzadənin başqa şeiri "Məmin anam" adlanır. Şair anansının savadsız olduğunu, lakin mənəviyyatca çox zəngin, nümunəvi olduğunu bildirir. Şeirlə ntanışlıqdan görünür ki (*bu, təbii ki, Bəxtiyarın öz qənaətidir*) savadsız olmaq hələ heç nə demək deyildir. Əsas cəhət yüksək insani keyfiyyətlərə sahiblənmək, namuslu, ismətli, sədaqətli, qayğıkeş, mehriban, doğruçul, humanist, vəfalı, nümunəvi davranışlı olmaqdır.

Ana təhsil gtörməyib, heç adını da yaza bilmir. Nə olsun? Elə savadlılar var ki, başabəladırlar. Əsas odur ki, insan öz hərəkəti, duruşu, davranışı, qarşılıqlı münasibətləri, ünsiyyət tərzi ilə nümunə göstərsin, hörmət və nüfuz qazansın.

Bəxtiyar Vahabzadı demişkən:
Savadsızdır,
Adını da yaza bilmir
Mənim anam...
Ancaq mənə,
Say öyrədib,
Ay öyrədib,
İl öyrədib;
Ən vacibi:
Dil öyrədib
Mənim anam...
Bu dil ilə tanımışam
Həm sevinci,
Həm də qəmi...
Bu dil ilə yaratmışam
Hər şeirimi,
Hər nəğməmi.
Yox, mən heçəm,
Mən yalanam,
Kitab-kitab sözlərimin
Müəllifi – mənim anam!.. (1, s. 52-53)

Bizim hər birimiz ömrümüz boyu anamızı yanımızda görmək istəyirik (*anaya, ataya vəfasız çıxan, xəyanətkar mövqe tutan şəxslərdə var)*. Vaxtlı-vaxtsız ananı itirmək insan üçün böyük itki, böyük dərd olur. Belə deyim var: "İnsan atadan deyil, anadan yetim qalır". Həmin sözlərdə dərin həqiqət vardır. Hər bir şəxsin həyatında hər iki valideynin böyükm rolu var. İnsan neçə müəyyən yaşda olmasına baxmayaraq həmişə yaşında olmasından asılı olmayaraq onun ataya da, anaya da eyni dərəcədə ehtiyacı var. Fəqət, gəlin etiraf edək, övlada münasibətdə ananın fədakarlığı ölçüyəgəlməzdir.

Odur ki, anasının dünyadan köçməsi şairi yandırıb-yaxır. Hisslərini, dərdini şeirin dililə bildirir:

Anam öldü!
Bizə dedi əlvida!
bir duyan, hiss eləyən insan
Yatağında daş oldu.
Heçliyə doğru axan
Bir axına qoşuldu.
Anamın əvəzi başdaşı oldu,
Kölgəsi özüylə yanaşı oldu...

Bir ay tamam oldu,
düz bir ay, bir gün
Gəldim qəbiristana... anamla deyil,
Onun başdaşıyla görüşmək üçün.
"Yuxun şirin olsun" – deyərdin mənə,
"Yuxun şirin olsun" – deyimmi sənə?

Dünən nəfəsiylə səni isidən
Bu gün buza dönüb, daşa dönübdür.
Dünən nəfəsiylə səni isidən
Bu gün buza dönüb, daşa dönübdür
(1, s. 18-19).

İllər keçsə də ana unudulmur, ana yaddan çıxmır. Həmişə hörmətlə, məhəbbətlə yad olunur, xatirələrdə canlandırılır, yaddaşlarda qalır.

Bəxtiyar Vahabzadənin "Atılmışlae" poeması da diqqətəlayiqdir. Qız isməti, qadın namusu, şəxsi ləyaqət və şərəf hissi ön plana çıxır. Sevgidə aldanılan, ailə qurmadan ismətini ləkələyən qız hamilə qalır. Oğlan onu atır. Doğduğu körpə ilə qalan qızın (qadının) ağlı başına gəlir. Nə qədər böyük səhvə yoil verdiyini anlayır, xəcalətindən yerə girməyə hazırdır. Təhsil almaq üçün şəhərə gəlib. Valideynlərinin gümanı ondadır. Qızlarının yaxşı mütəxəssis olub el-obasına qayıtmağını səbirsizliklə gözləyirlər. Qız isə onların ümidlərini mdoğrultmayıb. Nikah münasibətinə girməmiş, ailə qurmamış artıq uşaq sahibidir. Düşdüyü vəziyyəti ata-anasına necə başa salacaq. Qonşular, qohumlar onun barəsində nə düşünəcək, onu ismətsiz sanacaqlar. Şair bütün bunları fikirləşən qızın hiss-həyəcanlarını, düşüncələrini, planlarını aşağıdakı şəkildə nəzmə çəkir:

Körpəni aramla bükdü qundağa,
Basdı sinəsinə qalxdı ayağa...
Ümidə yas tutub, ağlayır güman,
Xeyiri şərləyir, şərə "dost" deyir.
Sevilib, sonra da atıldığından
O da balasını atmaq istəyir.
Ancaq... durdu yenə, duruxdu yenə,
Körpəni astaca qoydu yatağa.
Sıxdı döşlərini süd şüşəsinə,
Əmziklə bir yerdə bükdü qundağa.
O, qalxmaq istədi, yenə döyükdü.
O, bir də düşündü son niyyətini.
Bildi ki, şüşəylə birgə o, bükdü
Sonuncu analıq məhəbbətini.

Poemada təsvir olunan qız ana olub. Lakin övladından yaxa qurtarmaq istəyir. İstəməsə də, buna borcludur. Vəziyyət bunu tələb edir *("Sevilib, sonra da atıldığından o da balasını atmaq istəyir"*).

Qız övladı üçün qida tədarükü görür, döşündən süd sağır və şüşəni qundağa, körpənin yanına qoyur. Başa düşür ki, (*şair demişkə*) "şüşəylə birgə o, sonuncu analıq məhəbbətini də bükür".

Müxtəlif sinif şagirdləri ilə ümumtəhsil məktəblərində tərbiyəvi işlərin həyata keçirilir. Həm təlim prosesində, həm də sinifdənxaric tədbirlər zamanı. Təlim prosesində ayrı-ayrı fənlərin tədrisi prosesində, sinifdənxaric tədbirlərdə – söhbətlər, müzakirə və disputlar, tematik axşamlar gedişində.

Sinifdənxaric tədbirlərdə Səməd Vurğunun, Cəfər Cabbarlının "Ana" şeirləri ilə yanaşı Bəxtiyar Vahabzadənin anaya həsr edilmiş şeirləri də nəzərdən keçirilir. Bəxtiyar Vahabzadənin ana şeiri ilə Səməd Vurğunun "Ana" şeiri həmahəng səslənir. Səməd Vurğun da Bəxtiyar kimi anasına yas turur:

Sən bir günəş idin, doğdum da, batdın,
Yazıq evladını qəmlərə atdın.
Bir cavab ver, hanki murada çatdın
Torpaqlarda neçə zamandır, ana!

Bir ah çəksəm sənsiz, qopmazmı tufan?
Əzizim anacan, gözüm anacan!
Yumuq gözlərini aç da bir oyan,
Şimdi zaman başqa zamandır, ana!

Yıxılıb payinə öpmək istərəm,
Analıq mehrini görmək istərəm,
Səni görmək üçün ölmək istərəm,
Təsəlim ah ilə fəğandır, ana! (4)

"Atılmışlar" poeması isə ayrıca müzakirə mövzusudur. Bu mövzu gənc nəslin ailə həyatına və gələcək övladlarının tərbiyəsi işinə hazırlanması problem ilə sıx surətdə bağlıdır.

Aparılmış sistemli, məqsədyönlü iş nəticəsində şagirdlərdə anaya, analığa dərin hörmət və məhəbbət hissləri qüvvətlənir.

Problemin aktuallığı. Bəxtiyar Vahabzadə yaradıcılığında anaya həsr edilmiş şeirlərdən anaya məhəbbət hissinin tərbiyələndirilməsi aktuallığı ilə seçilir.

Problemin yeniliyi. Bəxtiyar Vahabzadənin anaya həsr edilmiş şeirləri vasitəsi ilə şagirdlərdə anaya məhəbbət hissləri aşılanır.

Problemin praktik əhəmiyyəti. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

Ədəbiyyat

1. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri 2 cilddə. 1-ci cild. Bakı: Öndər, 2024, 328 s.
2. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri 2 cilddə. 2-ci cild. Bakı: Öndər, 2024, 320 s.
3. Səməd Vurğun. Ana. https://yazarlar.az/2021/04/30/s%C9%99m%C9%99d-vurgun-ana-seiri/
4. Cəfər Cabbarlı. Ana. https://portal.azertag.az/az/node/8554

Redaksiyaya daxil olub: 05.06.2025

UOT 37.

Xurşud Cəlil qızı İsmayılova,
Azərbaycan Dövlət İqtisad Universitetinin
Azərbaycan dili kafedrasının baş müəllimi
https://orcid.org/0000-0001-5171-0166
E-mail: ismayılova@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(4).11-14

Könül Tariyel qızı İbrahimova,
Azərbaycan Dövlət İqtisad Universitetinin
Azərbaycan dili kafedrasının baş müəllimi
E-mail ibrahimova.konul74@gmail.com

BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA VƏTƏN SEVGİSİ VƏ MƏNƏVİ-ƏXLAQİ DƏYƏRLƏR

Khurshud Jalil Ismayilova,
senior lecturer at Azerbaijani language department of Azerbaijan State University of Economics

Konul Tariyel Ibrahimova,
senior teacher at Azerbaijani language department of Azerbaijan State University of Economics

LOVE FOR THE HOMELAND AND SPIRITUAL-MORAL VALUES IN THE WORKS OF BAKHTIYAR VAHABZADEH

Хуршуд Джалил гызы Исмаилова,
старший преподаватель кафедры Азербайджанского языка Азербайджанского Государственного Экономического Университета

Кѐнуль Тариел гызы Ибрагимова,
старший преподаватель кафедры Азербайджанского языка Азербайджанского Государственного Экономического Университета

ЛЮБОВЬ К РОДИНЕ И ДУХОВНО-НРАВСТВЕННЫЕ ЦЕННОСТИ В ТВОРЧЕСТВЕ БАХТИЯРА ВАХАБЗАДЕ

Xülasə. Məqalədə Bəxtiyar Vahabzadənin yubileyi kontekstində onun yaradıcılığının tərbiyəvi aspektləri geniş təhlil olunur. Məqsəd, böyük şairin irsini mənəvi-tərbiyəvi dəyərlər fonunda təqdim etmək və onun əsərlərinin bu günün gəncləri üçün necə aktual olduğunu göstərməkdir. Qeyd olunur ki, müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Bəxtiyar Vahabzadə qədim və zəngin ədəbi ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində möhkəm mövqe tutub. Fəlsəfi-poetik məzmunu olan bu ustadın yaradıcılığı insanı mənəvi ucalığa səsləməkdə davamlı olaraq böyük rol oynamış, milli poeziyada və ədəbi-sosial düşüncədə vətənpərvərlik ruhunun güclənməsinə, müstəqillik ideyalarının zənginləşməsinə xidmət etmişdir. Məqalədə qeyd olunur ki, tarixi-mədəni dəyərlərə hörmət və doğma dilin saflığının qorunması Bəxtiyar Vahabzadənin fəaliyyətinin əsas istiqamətlərindən biri olmuşdur.
Açar sözlər: *əsərlər, tərbiyəvi, ictimai, mənəvi, milli poeziya, ana obrazı*

Abstract. The article, in the context of Bakhtiyar Vahabzadeh's anniversary, provides a detailed analysis of the educational aspects of his work. The goal is to present the legacy of the great poet in the light of spiritual and educational values and to show how relevant his works are for today's youth. It is noted that Bakhtiyar Vahabzadeh, an outstanding representative of modern Azerbaijani literature, has secured a firm place in the history of Azerbaijani literature with its ancient and rich traditions. The philosophical and poetic

content of the master's creativity has continuously played an important role in calling people to spiritual elevation, contributing to the strengthening of patriotic spirit in national poetry and enriching literary and social thought with ideas of independence. The article also emphasizes that respect for historical and cultural values and the preservation of the purity of the native language were among the main directions of Bakhtiyar Vahabzadeh's activities.

Keywords: *works, educational, social, spiritual, national poetry, image of the mother*

Аннотация. В статье в контексте юбилея Бахтияра Вахабзаде подробно анализируются воспитательные аспекты его творчества. Цель – представить наследие великого поэта в свете духовно-воспитательных ценностей и показать, насколько актуальны его произведения для современной молодёжи. Отмечается, что выдающийся представитель современной азербайджанской литературы Бахтияр Вахабзаде занял прочное место в истории азербайджанской литературы с её древними и богатыми традициями. Философско-поэтическое содержание творчества мастера постоянно играло важную роль в призыве человека к духовному возвышению, способствовало укреплению патриотического духа в национальной поэзии и обогащению литературно-общественной мысли идеями независимости. В статье также подчёркивается, что уважение к историко-культурным ценностям и сохранение чистоты родного языка являлись одними из основных направлений деятельности Бахтияра Вахабзаде.

Ключевые слова: *произведения, воспитательный, общественный, духовный, национальная поэзия, образ матери*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda deyilir:

"2025-ci ilin avqust ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, dramaturq, ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, akademik Bəxtiyar Mahmud oğlu Vahabzadənin anadan olmasının 100 ili tamam olur.

Bəxtiyar Vahabzadə mübariz şəxsiyyəti və çoxşaxəli fəaliyyəti ilə XX əsrin ikinci yarısından etibarən Azərbaycan bədii-ictimai fikir tarixinə parlaq səhifələr yazmış qüdrətli simalardandır. Onun Vətənə, millətə və doğma ana dilinə sonsuz məhəbbət ifadə edən, dərin poetik-fəlsəfi düşüncələrlə zəngin irsi daim mədəni-mənəvi dəyərlərə ehtiram, milli azadlıq ideallarına bağlılıq və istiqlal məfkurəsinə sədaqət hissi aşılamışdır. Sənətkar ədəbi və elmi yaradıcılığını uzun illər pedaqoji fəaliyyəti ilə uğurla əlaqələndirərək, bir neçə nəslin milli təfəkküründün formalaşmasında müstəsna rol oynamışdır. Bəxtiyar Vahabzadə ictimai xadim kimi xalqın taleyüklü məsələlərinə münasibətdə həmişə əsl ziyalı mövqeyi nümayiş etdirmişdir".

Sərəncama əsasən, Mədəniyyət Nazirliyinə Elm və Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirmək tapşırılıb. Nazirlər Kabineti isə bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir [1].

Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri olan Bəxtiyar Vahabzadə XX əsr poeziyasının parlaq simalarındandır. O, təkcə söz sənətinin ustadı deyil, eyni zamanda bir müəllim, tərbiyəçi, vətənpərvər və xalqına tərbiyəvi, ictimai və mənəvi sahələrin bayramıdır. Onun yaradıcılığı bu gün də gənc nəslin vətənə bağlı ziyalı kimi də tanınır. Bəxtiyar Vahabzadənin yubileyi yalnız ədəbi aləmin deyil, həm də sevgi, milli kimlik, əxlaq və insanlıq prinsipləri ilə formalaşmasında mühüm rol oynayır.

Bəxtiyar Vahabzadə 1925-ci ildə Nuxa (Şəki) şəhərdə anadan olmuşdur. O, uşaqlıq və gənclik illərini Azərbaycanın mürəkkəb tarixi-siyasi şəraitində yaşamış, bu illərdə formalaşan şəxsiyyətinin əsas dayaqları milli dəyərlər, azadlıq ideyası və xalq sevgisi olmuşdur. Gələcək şair 9 yaşında paytaxt Bakı şəhərinə köçmüş və 1947-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. 1945-ci ildə o, Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş və 40 ildən çox həm yaradıcılıqla məşğul olmuş, həm də Bakı Dövlət Universitetində dərs demişdir.

B. Vahabzadə poeziyasında ilk baxışdan sadə görünən mövzular – ana, vətən, dil, xalq – əslində dərin mənəvi və ictimai məna daşıyır. Şair təkcə milli mövzularla kifayətlənməmiş, eyni zamanda insanın daxili aləmini, mənəvi bö-

yüklüyünü və şəxsiyyət kimi kamilləşməsini də ön plana çəkmişdir.

Bəxtiyar Vahabzadənin yaradıcılığında milli mənsubiyyət və mənəvi kamillik əsas istiqamətlərdən biridir. Onun "Ana dili", "Vətən", "Ana hədiyyəsi", "Gülüstan" kimi əsərləri təkcə poetik dəyər daşımır, həm də tərbiyəvi məzmun kəsb edir.

"Ana dili" şeirində şair dilin sadəcə ünsiyyət vasitəsi deyil, həm də milli ruhun daşıyıcısı olduğunu göstərir:

Dil açanda ilk dəfə ana söyləyərik biz,
"Ana dili" adlanır bizim ilk dərsliyimiz.
İlk mahnımız laylanı anamız öz südüylə
İçirir ruhumuza bu dildə gilə-gilə.

Bu misralar gəncləri ana dilinə sevgi və hörmət ruhunda böyütmək üçün mühüm ideyalar verir. Şairin fikrincə, öz dilini sevən insan öz millətinə də dərin bağlılıq hissi duyur.

Bəxtiyar Vahabzadənin poeziyası vətənpərvərlik ruhunda tərbiyənin əsl məktəbidir. Onun "Gülüstan" poeması tarixi parçalanmanın ağrı-acılarını ifadə etməklə yanaşı, vətən birliyi və milli həmrəyliyin vacibliyini vurğulayır:

"Heydər baba, göylər qara dumandı,
Günlərimiz bir-birindən yamandı.
Bir-birindən ayrılmayın, amandır,
Yaxşılığı əlimizdən aldılar,
Yaxşı bizi yaman günə saldılar.

Bir uçaydım bu çırpınan yelinən,
Qovuşaydım dağdan aşan selinən,
Ağlaşaydım uzaq düşən elinən.
Bir görəydim ayrılığı kim saldı,
Ölkəmizdə kim qırıldı, kim qaldı".

Bu misralar gənc nəslə tarixini unutmamağı, milli bütövlüyü qorumağın hər bir vətəndaşın borcu olduğunu xatırladır. Bəxtiyar müəllim və şair olaraq daim gənclərə çağırış edirdi ki, onlar azadlıq ruhu ilə yaşamalı, ədalət və haqq uğrunda mübarizə aparmalıdırlar [2].

XX əsrin 60-cı illərində Azərbaycan ədəbiyyatı kommunist ideologiyasından müəyyən qədər uzaqlaşa bildi və ədəbi fəaliyyət sahəsində milli ruh özünü göstərməyə başladı, baxmayaraq ki, bu əsərlər ümumiyyətlə siyasətdən uzaq idi. Yalnız Bəxtiyar Vahabzadə xalqın parçalanmış taleyini əks etdirən bir əsər – "Gülüstan" poeması ilə çıxış etdi. Bu əsər XIX əsrin əvvəllərində Rusiya və İran arasında bölünərək Şimal və Cənub Azərbaycana çevrilmiş Azərbaycan xalqının taleyini əks etdirirdi. 1962-ci ildə bu əsərə görə şair "güclü millətçi" kimi tanınıb Azərbaycan Dövlət Universitetindən qovulmuşdur.

Şair sovet rejimi altında müxtəlif əzablar çəkən, milli varlığını itirən xalqın kədərini ifadə edirdi. Bəxtiyar Vahabzadə böyük poemalarında və pyeslərində xalqının dərdlərini tarixi kontekstə daxil edir və ya hadisələri başqa ölkələrə aid edirdi. Sovet diktaturasını birbaşa ifşa edən əsərləri isə SSRİ-nin dağılmasından sonra "Sandıqdan səslər" başlığı altında nəşr etdirmişdir.

Bəxtiyar Vahabzadə yaradıcılığında ailə mövzusuna da böyük önəm verirdi. "Ana hədiyyəsi" şeiri bu mənada xüsusilə seçilir. Şairin ana obrazı vasitəsilə çatdırdığı məna – ailəyə bağlılıq, valideynə hörmət, ailə birliyinin qorunması kimi mühüm tərbiyəvi prinsipləri özündə əks etdirir:

Anam namaz üstə əl açıb göyə
Allaha yalvarır "ya rəbbim! - deyə:
- Sənsən xəlq eliyən göyləri, yeri,
Candan şirin olur bala, ay Allah.
Sən mənim ömrümdən kəsib illəri,
Balamın ömrünə cala, ay Allah!
Bu nədir? Arzuya, diləyə bir bax,
Gör bir nələr keçir ana qəlbindən?
Çoxdur bu dünyada hədiyyə... ancaq
Ömürdən hədiyyə görməmişəm mən

Bu cür poetik nümunələr ailə daxilində əxlaqi prinsiplərin qorunmasına, sevgi və anlayışın əsas dəyər kimi qəbul edilməsinə xidmət edir.

Bəxtiyar Vahabzadənin yaradıcılığının tərbiyəvi aspektləri çoxşaxəlidir və Azərbaycan ədəbiyyatında mühüm yer tutur. Onun şeirləri həm mənəvi-əxlaqi, həm də vətənpərvərlik ruhunda tərbiyəvi təsir göstərir. Bəxtiyar Vahabzadənin yaradıcılığının əsas tərbiyəvi aspektlərini bir neçəsini qeyd etmək olar:

Milli-mənəvi dəyərlərin təbliği. Vahabzadə əsərlərində Azərbaycan xalqının milli dəyərlərini, tarixini, adət-ənənələrini ön plana çıxarır, bu dəyərlərin qorunub saxlanmasını vurğulayır. Onun şeirləri gənclərdə milli şüurun, milli qürurun formalaşmasına xidmət edir.

Ana dilinə sevgi və hörmət. Şair ana dilinin qorunması və inkişafı məsələsini hər zaman diqqətdə saxlayır. Ana dilinə olan hörmət və sevgi onun yaradıcılığının tərkib hissəsidir, bu da oxucuda dilə qarşı məhəbbət və ehtiram hissi oyadır.

Vətənpərvərlik ruhunun aşılanması. B. Vahabzadənin poeziyası Vətənə, torpağa, xalqı-

na olan sonsuz sevgini əks etdirir. Onun əsərləri oxucuda vətənpərvərlik hissini gücləndirir, milli birlik və həmrəyliyi təşviq edir.

İnsanpərvərlik və humanizm. Şairin yaradıcılığında insanın mənəvi yüksəlişi, insan hüquqları və azadlıqlarının müdafiəsi əsas mövzulardandır. O, insanın iç dünyasına, əxlaqi dəyərlərə böyük önəm verir.

Ədalət və azadlıq idealları. B. Vahabzadə azadlıq, ədalət və bərabərlik kimi universal dəyərləri tərənnüm edir, zülmə, haqsızlığa qarşı çıxır.

Mənəvi tərbiyə və insanın daxili aləminin zənginləşməsi. Şairin əsərləri oxucunu düşünməyə, mənəvi və əxlaqi dəyərlər üzərində təfəkkür etməyə sövq edir, insanın daxili dünyasını zənginləşdirir.

Tarixi yaddaşın qorunması. B. Vahabzadə xalqın tarixi yaddaşının, keçmişinin qorunub saxlanmasının əhəmiyyətini vurğulayır, gənc nəsillərə tarixini tanımağı və dəyərləndirməyi təlqin edir.

Sadaladığımız tərbiyəvi aspektlər Bəxtiyar Vahabzadənin yaradıcılığını təkcə ədəbi deyil, həm də əxlaqi və mədəni irsin daşıyıcısı kimi mühüm edir. Onun əsərləri gənc nəsillərin formalaşmasında, onların vətəninə, dilinə və insanlığa bağlılığının artırılmasında əvəzsiz rol oynayır.

Bəxtiyar Vahabzadənin tərbiyəvi rolu təkcə şeirlərində deyil, həm də uzun illər universitetdə pedaqoji fəaliyyətində də özünü göstərmişdir. Onun dərsləri sadəcə ədəbiyyatın öyrənilməsi deyil, həyatın mənasının dərk olunması üçün bir məktəb idi. O, tələbələrinə hər zaman deyirdi:

"Ədəbiyyat yalnız söz deyil, əqidədir. Yazılan hər misra insan ruhunun bir tərbiyəsidir."

Şairin vətəndaş mövqeyi, prinsipiallığı və xalq sevgisi ona böyük nüfuz qazandırmışdır. Bu xüsusiyyətləri gənclərə nümunə kimi təqdim etmək, onlara dürüstlük və ləyaqət haqqında örnək göstərmək baxımından olduqca dəyərlidir [5].

Bəxtiyar Vahabzadənin yubileyi bizə təkcə böyük bir ədibin həyat və yaradıcılığını xatırlatmaq üçün deyil, həm də onun mənəvi mirasını təbliğ etmək üçün bir fürsətdir. Onun əsərləri tərbiyəvi baxımdan zəngin bir xəzinədir. O, poeziyası ilə insanları düşündürür, şəxsiyyət olaraq isə insanlara yol göstərirdi.

Gənc nəslin vətənə, ailəyə, dilə və xalqına bağlı böyüməsində Bəxtiyar Vahabzadənin ədəbi irsi bu gün də öz rolunu oynamaqdadır. Onun yubileyi münasibətilə keçirilən tədbirlər, ədəbi müsabiqələr və şeir gecələri bu mənəvi irsin gənclərə daha da yaxınlaşdırılmasına xidmət edir.

Biz bu böyük şəxsiyyətin irsinə sahib çıxmalı, onu oxumalı, öyrənməli və gələcək nəsillərə ötürməliyik. Çünki Bəxtiyar Vahabzadə sadəcə bir şair deyil – bir mənəviyyat məktəbidir.

Problemin elmi yeniliyi. Müasir tərbiyə sistemi, gənclərin şəxsiyyət kimi formalaşması, təhsil və ideoloji proseslərdə ədəbi irsin rolu baxımından yenidən və kompleks şəkildə araşdırılması ilə bağlıdır.

Problemin aktuallığı. Bugünkü qloballaşan dünyada gənclər xarici təsirlərə daha çox məruz qalır, bu isə milli dəyərlərdən uzaqlaşma riskini artırır. Bəxtiyar Vahabzadənin poeziyası –vətənə sevgi, dilə hörmət, ailəyə bağlılıq, azadlıq və vicdan kimi dəyərləri aşılayaraq bu boşluğu doldura biləcək güclü tərbiyə vasitəsidir. Bu məqalənin aktuallığı, yalnız bir şairin yubileyini qeyd etməkdə deyil, onun mənəvi mirası vasitəsilə gəncləri daha vətənpərvər, mənəviyyatlı və öz milli dəyərlərinə sadiq bir ruhda yetişdirməyə xidmət etməsindədir.

Problemin praktik əhəmiyyəti ondadır ki, o yalnız bir ədəbiyyat nümunəsinin təhlili deyil, həm də gənclərin şəxsiyyət kimi formalaşmasına, milli-mənəvi dəyərlərlə böyüməsinə, təhsil və mədəni tədbirlərin təşkilinə **birbaşa töhfə verən tətbiq edilə bilən mənbədir**.

Ədəbiyyat

1. https://president.az/az/articles/view/68214
2. Vahabzadə, B. Seçilmiş əsərləri. [12 cilddə, III cild] / B. Vahabzadə. -Bakı: Elm, -2009. - 577 s.
3. Vahabzadə, B. Seçilmiş əsərləri. [12 cilddə, IV cild] / B. Vahabzadə. -Bakı: Elm, -2009. - 662 s.
4. Cavad, H. Kamillik zirvəsi / H. Cavad. -Bakı: Azərnəşr, -2009. -376 s.
5. Qarayev, Y. Poeziya və nəsr / Y. Qarayev. -Bakı: Yazıçı, -1979. -198 s.
6. Vahabzadə, B. Payız düşüncələri / B. Vahabzadə. -Bakı: Yazıçı, -1981. -375s.
7. Qarayev, Y. Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər / Y. Qarayev. -Bakı, -2000. -737s.

Redaksiyaya daxil olub: 05.06.2025

UOT 37.

Aygün Nizami qızı Abdullayeva,
Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kollecinin müəllimi
https://orcid.org/0009-0000-3947-8966
E-mail: aygunnizamiqizi@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(4).15-18

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ: SUVEREN DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİNİN TƏMƏLİ VƏ KONSTİTUSİYA DÜŞÜNCƏSİNİN BAŞLANĞICI

Aygun Nizami Abdullayeva,
lecturer at the Costruction College under Azerbaijan University of Architecture and Construction

THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC: THE BEGINNIG OF SOVEREIGN STATEHOOD TRADITIONS AND THE FORMATION OF CONTITUTIONAL THOUGHT

Айгюн Низами гызы Абдуллаева,
преподаватель Строительного Колледжа при Азербайджанском Архитектурно-Строительном Университете

АЗЕРБАЙДЖАНСКАЯ ДЕМОКРАТИЧЕСКАЯ РЕСПУБЛИКА: ОСНОВА ТРАДИЦИЙ СУВЕРЕННОЙ ГОСУДАРСТВЕННОСТИ И НАЧАЛО КОНСТИТУЦИОННОГО МЫШЛЕНИЯ

Xülasə. Bu məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin formalaşdırdığı suveren dövlətçilik prinsipləri və həmin dövrdə konstitusiya düşüncəsinin təşəkkül tapması məsələsi təhlil olunur. Tarixi mənbələr və dövrün hüquqi sənədləri əsasında, Cümhuriyyətin milli hüquq sistemi quruculuğunda atdığı addımların əhəmiyyəti izah edilir. Araşdırmada, dövlətçilik ənənələrinin sonrakı dövrlərə təsiri və müasir hüquqi təfəkkürün ideya kökləri də ayrıca diqqət mərkəzindədir. Məqalə, gənc tədqiqatçılar və tarix-hüquq sahəsində çalışanlar üçün konseptual yanaşma təqdim edir.
Açar sözlər: *Azərbaycan Xalq Cümhuriyyəti, dövlətçilik, suverenlik, konstitusiya düşüncəsi, hüquqi islahatlar, milli hüquq irsi*

Abstract. The article analyzes the principles of sovereign statehood formulated by the Azerbaijan Democratic Republic and the formation of constitutional thought during this period. Based on archival documents and historical and legal analysis, the significance of the political and legal steps taken by the republic is revealed. The study also focuses on the influence of statehood traditions on later periods and the ideological roots of modern legal thought. The article presents a conceptual approach for young researchers and those working in the field of history and law.
Keywords*: Azerbaijan Democratic Republic, statehood, sovereignty, constitutional thinking, legal reforms, national legal heritage*

Аннотация. В статье анализируются принципы суверенной государственности, сформулированные Азербайджанской Демократической Республикой, и формирование конституционной мысли в этот период. На основе архивных документов и историко-правового анализа раскрывается значение политико-юридических шагов, предпринятых республикой. Исследование также фокусируется на влиянии традиций государственности на более поздние периоды и идеологических корнях современ-

ной правовой мысли. Статья представляет собой концептуальный подход для молодых исследователей и тех, кто работает в области истории и права.

Ключевые слова: *Азербайджанская Демократическая Республика, государственность, суверенитет, конституционное мышление, правовые реформы, национальное правовое наследие*

Tarixi yaddaş milli kimliyin formalaşmasında, hüquqi və siyasi şüurun təşəkküründə əsas sütunlardan biridir. Bu baxımdan Azərbaycan Xalq Cümhuriyyəti (AXC) nəinki milli istiqlal ideyasının gerçəkləşməsi, həm də hüquqi dövlətçilik ənənələrinin əsasının qoyulması baxımından müstəsna tarixi hadisə kimi qiymətləndirilir. Cəmi 23 ay mövcud olsa da, Cümhuriyyət bu qısa müddətdə dövlətin strukturlaşması, konstitusiya düşüncəsinin formalaşması və hüquqi institutların yaradılması istiqamətində çoxşaxəli addımlar atdı [1, s.28]

XX əsrin əvvəllərində Cənubi Qafqazda cərəyan edən siyasi proseslər fonunda formalaşan AXC, yalnız müstəqilliyini elan etməklə kifayətlənmədi, eyni zamanda hüquqi cəmiyyətin əsas sütunlarını müəyyənləşdirməyə çalışdı. Məhz bu cür yanaşma tədqiqatın obyektiv zərurətini ortaya qoyur: AXC dövründə suveren dövlətçilik prinsiplərinin necə qurulduğu və konstitusiya düşüncəsinin hansı ideoloji və hüquqi zəmin üzərində təşəkkül tapdığı sualları aktuallıq kəsb edir [2, s.42].

Mövzu ilə bağlı bir sıra araşdırmalarda əsas diqqət dövlətçiliyin təşkilati əsaslarına yönəlib. Lakin konstitusiya düşüncəsinin formalaşması və hüquqi ənənələrin təşəkkülü daha çox ümumi şəkildə işıqlandırılmışdır. Bu məqalənin əsas məqsədi məhz bu sahədə yeni yanaşma təqdim etmək, konstitusiya təfəkküründün AXC dövründəki təməl elementlərini ayrıntılı şəkildə təhlil etməkdir.

Tədqiqat tarixi-müqayisəli və analitik yanaşma metodu əsasında qurulmuşdur. Mənbə olaraq arxiv sənədləri, dövrün mətbu orqanları və müasir elmi ədəbiyyatlar əsas götürülmüşdür. Məqalənin yeniliyi ondadır ki, burada konstitusiya düşüncəsi sadəcə hüquqi kateqoriya olaraq deyil, eyni zamanda ictimai-siyasi və ideoloji prosesin məhsulu kimi təhlil edilir.

1918-ci il 28 may tarixində Tiflisdə elan olunan Azərbaycan Xalq Cümhuriyyəti (AXC), Şərqdə və İslam dünyasında "İlk Parlamentli Respublika" kimi tarixə düşdü. XX əsrin əvvəllərində imperiya idarəetmə sistemlərinin dağılması fonunda meydana çıxan bu siyasi qurum, ilk növbədə xalqın milli və siyasi iradəsinə əsaslanan yeni idarəçilik modelinin formalaşdırılmasını qarşısına məqsəd qoydu [3, s.22].

Cümhuriyyətin yaranma zərurəti təkcə geosiyasi xaosdan irəli gəlmirdi; bu, eyni zamanda Azərbaycanın intellektual və siyasi elitasının artıq uzun illərdir hazırladığı milli müstəqillik konsepsiyasının tarixi məntiqi nəticəsi idi. Hələ 1905–1917-ci illər inqilabları zamanı formalaşmağa başlayan milli ideya, 1918-ci ilin mayında konkret siyasi formaya düşdü [2, s.18].

AXC-nin Tiflisdə elan olunması və ilk qərarların orada qəbul edilməsi həmin dövrün mürəkkəb siyasi mənzərəsinin təzahürü idi. Bakı şəhərinin hələ bolşevik-daşnak qüvvələrinin nəzarətində olması, hökumətin müvəqqəti olaraq Gəncədə yerləşməsinə səbəb oldu. Bu isə yeni dövlətin həm daxili, həm də xarici təhlükələrə qarşı mübarizə aparmalı olduğunu göstərirdi [4, s.72].

Yeni dövlətin ilk konstitusiya sənədi funksiyasını yerinə yetirən "İstiqlal Bəyannaməsi" hüquqi baxımdan mühüm sənəd idi. Bu sənəd dövlətin quruluş prinsiplərini, idarəetmə formasını, vətəndaşların hüquq və azadlıqlarını bəyan edərək, faktiki olaraq gələcək konstitusion sistemin ideoloji təməlini qoydu [4, s.53]. Bəyannamədə göstərilən "bütün millətlərə milli-mədəni muxtariyyətin tanınması", "vətəndaşların hüquq bərabərliyi" və "xalq hakimiyyəti" kimi müddəalar bu baxımdan xüsusi əhəmiyyət kəsb edir [5, s.38].

AXC hökuməti qısa müddət ərzində müstəqil dövlətin atributlarını formalaşdırmağa nail oldu. Milli ordu yaradıldı, bayraq, pul vahidi, təhsil və məhkəmə sistemləri quruldu, diplomatik nümayəndəliklər açıldı. Bütün bunlar sübut edir ki, Azərbaycan Xalq Cümhuriyyəti yalnız siyasi bəyanatlarla yox, konkret institusional addımlarla suveren dövlətçiliyin əsaslarını qoymuşdur [1, s.78].

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə ölkədə yalnız siyasi müstəqillik deyil, eyni zamanda hüquqi düşüncənin, konstitusiya mədəniyyətinin təməli qoyulmuş oldu. Bu proses ani baş verməmişdi – XIX əsrin sonlarından başlayaraq milli ziyalıların maarifçilik fəaliyyətləri, hüquqi dövlət ideyasını tədricən ictimai düşüncəyə gətirmişdi.

Əhməd bəy Ağaoğlu, Hüseyn bəy Zərdabi, Əlimərdan bəy Topçubaşov kimi maarifçi və hüquqşünaslar öz yazılarında yalnız azadlıq və milli kimlik deyil, həm də hüquqi institutların möhkəmləndirilməsinin zəruriliyini vurğu-

layırdılar. Bu baxımdan AXC dövründə hüquqi dövlət anlayışı sadəcə nəzəri fikirlər səviyyəsində qalmayıb, praktik addımlarla reallaşdırılmağa başlanmışdı [6.s.62].

1918-ci ildə qəbul edilən "İstiqlal Bəyannaməsi" konstitusion hüququn ilkin forması olmaqla yanaşı, demokratik cəmiyyətin əsaslarını bəyan edirdi. Onun 6 bəndində ifadə olunan prinsiplər – hakimiyyətin xalqdan qaynaqlanması, hüquq bərabərliyi, milli azlıqlara muxtariyyət hüququnun verilməsi və digər müddəalar gələcək konstitusiya modelinin nüvəsini təşkil edirdi.

AXC dövründə hüquq sisteminin müasirləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar da konstitusiya düşüncəsinin təkamülünü sürətləndirirdi. Şəriət və adət hüququ ilə yanaşı, Qərb hüquq sisteminin prinsipləri də tətbiq olunurdu. Bu, xüsusilə Müsəlman Şərqində ilk dəfə olaraq qadınlara seçki hüququnun verilməsi ilə öz əksini tapdı [7, s.101]. Həmin qərar təkcə gender bərabərliyi kontekstində deyil, hüquqi dünyagörüşün yetkinlik səviyyəsi baxımından da inqilabi mahiyyət daşıyırdı.

Qısa ömrünə baxmayaraq, AXC dövründə hazırlanan qanun layihələri və hüquqi aktlar sonrakı dövrdə – 1921 və 1925-ci il Azərbaycan SSR konstitusiyalarında, həmçinin 1995-ci il Azərbaycan Respublikasının Konstitusiyasında ideya baxımından əks olundu [8, s.134]. Bu mənada, AXC hüquqi dövlətçilik ənənəsinin başlanğıcı və müstəqil konstitusiya düşüncəsinin ilk dayaq nöqtəsi kimi tarixə düşür.

Qeyd edilməlidir ki, bu düşüncə təkcə yazılı hüquqi aktlarla məhdudlaşmayıb; cəmiyyətin dövlətə münasibəti, idarəetmədə iştirak imkanları və hüquqi şüurun formalaşması ilə müşayiət olunmuşdur. Bu isə AXC-nin qısa zaman ərzində böyük hüquqi-mədəni sıçrayışa səbəb olduğunu sübut edir.

Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi irsi müstəqil Azərbaycan Respublikasının konstitusiya quruculuğunda yalnız tarixi fakt deyil, həm də ideoloji və hüquqi baza kimi çıxış edir. 1991-ci ildə dövlət müstəqilliyi bərpa olunduqdan sonra, hüquqi sistemin formalaşmasında AXC-nin siyasi və hüquqi təcrübəsinə xüsusi önəm verildi [9, s.158].

1995-ci il Konstitusiyasının hazırlanması prosesində AXC-nin "İstiqlal Bəyannaməsi", qəbul olunmuş qanun aktları və idarəetmə mexanizmləri araşdırıldı və bəzi prinsipial elementlər – hakimiyyət bölgüsü, hüquq bərabərliyi, vətəndaş azadlıqları – müasir Konstitusiyanın ideya nüvəsində öz yerini tapdı [10, s.114]. Məsələn, Konstitusiyanın preambulasında Azərbaycanın "demokratik, hüquqi və dünyəvi dövlət" olduğu vurğulanır ki, bu anlayışın kökləri AXC-nin elan etdiyi dövlət modelində axtarılmalıdır.

AXC dövründə ilk dəfə tətbiq olunan seçki hüququ, qadınların siyasi iştirak imkanı, müstəqil məhkəmə sisteminin təşkili və milli azlıqların hüquqlarının tanınması kimi elementlər, bu gün Azərbaycan Respublikasının hüquqi sistemində əsas təməl prinsiplərdir. Bu prinsiplər təkcə qanunvericilik sahəsində deyil, eyni zamanda idarəetmə, seçki mexanizmləri, məhkəmə hakimiyyəti və hüquqi maarifləndirmə kimi sahələrdə də özünü göstərir.

AXC-nin konstitusiya mirası bu gün yalnız hüquqşünaslar və tarixçilər üçün yox, eyni zamanda siyasi rəhbərlik üçün də dəyərli örnəkdir. Heydər Əliyev 1990-cı illərin ortalarında AXC irsinə istinad etməklə dövlətçiliyin legitimlik əsaslarını gücləndirdi və hüquqi islahatların strateji yönünü müəyyənləşdirdi. Bu yanaşma, sonrakı dövrlərdə aparılan məhkəmə-hüquq islahatlarında da öz əksini tapdı.

Azərbaycan Respublikasında müasir hüquqi düşüncə ilə klassik dövlətçilik prinsiplərinin vəhdəti, əslində, AXC-nin ideoloji ruhunun yaşadıldığının göstəricisidir. Bu, həm tarixi yaddaşın qorunması, həm də hüquqi sistemin milli köklərə söykənməsi baxımından strateji əhəmiyyət daşıyır.

Problemin aktuallığı. Azərbaycan Respublikasının müstəqilliyi fonunda milli hüquqi irsin öyrənilməsi və tətbiqi son dərəcə aktualdır. AXC-nin konstitusiya ideyalarının müasir hüquqi sistemdəki yeri, milli dövlət quruculuğunun gələcəyi baxımından fundamental əhəmiyyətə malikdir. Globallaşmanın və beynəlxalq hüququn təsirləri fonunda milli hüquq sisteminin köklərinə dönüş bu gün daha da zəruridir.

Problemin yeniliyi. Məqalədə fərqli olaraq yalnız hüquqi mənbələrə istinad edilməmiş, həm də konstitusiya düşüncəsinin tarixi-fəlsəfi və ictimai təməlləri geniş şəkildə təhlil olunmuşdur. AXC-nin hüquqi irsi ilə 1995-ci il Konstitusiyası arasında paralellər aparılmış və bu əlaqələrin struktur səviyyədə necə daşıyıcı funksiyalar gördüyü izah edilmişdir. Bu yanaşma, problemin araşdırılmasında yeni bir baxış bucağı təqdim edir.

Problemin praktik əhəmiyyəti. Araşdırmanın nəticələri hüquq, tarix və siyasi elmlər sahəsində fəaliyyət göstərən tədqiqatçılar üçün faydalı olmaqla

yanaşı, hüquqi təhsil, konstitusiya hüququnun tədrisi və hüquqi maarifləndirmə sahəsində də tətbiq oluna bilər. Eyni zamanda dövlət qurumları və siyasətçilər üçün AXC-nin hüquqi irsindən istifadə, hüquqi strategiyanın milli əsaslara söykənməsi baxımından faydalı olacaqdır.

Ədəbiyyat

1. Əhmədov, İ. Azərbaycan Xalq Cümhuriyyəti: Qısa tarixi oçerk. / İ. Əhmədov. – Bakı: Elm, -1992. – 205 s.
2. Mahmudov, Y. Azərbaycan Xalq Cümhuriyyəti: hüquqi-siyasi əsaslar. / Y. Mahmudov. – Bakı: Elm və təhsil, -2007. – 312 s.
3. Əliyev, C. Azərbaycan Xalq Cümhuriyyəti və dövlət quruculuğu məsələləri. / C. Əliyev. – Bakı: Adiloğlu, 2008. – 240 s.
4. Məmmədov, Z. Azərbaycan diplomatiyası tarixi. / Z. Məmmədov. – Bakı: Qanun, -2015. – 418 s.
5. Həsənov J. Azərbaycan Xalq Cümhuriyyəti: beynəlxalq vəziyyət və daxili siyasət. – Bakı: Elm, 1993. – 184 s.
6. Əliyeva S. Azərbaycan hüquqi düşüncəsinin inkişafı. – Bakı: Maarif, -2003. – 180 s.
7. Məmmədov, Z. Azərbaycan hüquq tarixi. / Z. Məmmədov. – Bakı: Qanun,- 2010. – 290 s.
8. Rzayev, H. Konstitusiya hüququnun əsasları. / H. Rzayev – Bakı: Hüquq, -2015. – 360 s.
9. Məmmədov R. Müstəqil Azərbaycan Respublikasının konstitusiya əsasları. – Bakı: Hüquq, -2001. – 280 s.
10. Əliyev, A. 1995-ci il Konstitusiyası: hüquqi əsaslar və ideoloji təsir. / A. Əliyev. – Bakı: Qanun, -2015. – 240 s.

Redaksiyaya daxil olub: 05.06.2025

UOT 37.01.

Hikmət Əbdül oğlu Əlizadə,
pedaqogika üzrə elmlər doktoru, professor
Azərbaycan Dillər Universiteti
https://orcid.org/0000-0002-5434-3602
E-mail: hikmet56@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(4).19-26

Xalidə Rövşən qızı Hüseynzadə,
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0007-3244-2187
E-mail: khalida.rovshan@arti.edu.az

AZƏRBAYCANDA TƏDQİQAT UNİVERSİTETLƏRİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ: ELMİ POTENSİALIN GÜCLƏNDİRİLMƏSİ

Hikmet Abdul Alizada,
doctor of pedagogical sciences, professor
Azerbaijan University of Languages

Khalida Rovshan Huseynzade,
doctorial student in the program of doctor of philosophy
at the Institute of Education of the Republic of Azerbaijan

DEVELOPMENT PROSPECTS OF RESEARCH UNIVERSITIES IN AZERBAIJAN: STRENGTHENING SCIENTIFIC POTENTIAL

Хикмет Абдул оглы Ализаде,
доктор педагогических наук, профессор
Азербайджанский Университет Языков

Халида Ровшан гызы Гусейнзаде,
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики

ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ИССЛЕДОВАТЕЛЬСКИХ УНИВЕРСИТЕТОВ В АЗЕРБАЙДЖАНЕ: УКРЕПЛЕНИЕ НАУЧНОГО ПОТЕНЦИАЛА

Xülasə. Müasir dövrdə ölkələrin sosial-iqtisadi inkişafında ali təhsilin, xüsusən də tədqiqat yönümlü universitetlərin rolu sürətlə artır. Tədqiqat universitetləri yalnız tədris fəaliyyəti ilə məhdudlaşmayaraq, elmi tədqiqatların aparılması və innovasiyaların tətbiqi baxımından cəmiyyətin inkişafına mühüm töhfə verir. Tədqiqat universitetinə keçid üçün institusional, akademik və infrastruktur sahələrində müəyyən meyarlara cavab verilməsi xüsusi önəm kəsb edir. Azərbaycanda tədqiqat universitetlərinin inkişafı milli təhsil siyasətinin prioritetlərindəndir və bu istiqamətdə əsas meyarlar kimi elmi nəşrlərin beynəlxalq indeksləşməsi, doktorantura potensialı, qrant layihələrində iştirak və müasir tədqiqat infrastrukturunun mövcudluğu müəyyən olunub. Bu məqalədə tədqiqat universitetləri konsepsiyası, beynəlxalq təcrübə və milli siyasət yanaşmaları araşdırılır, o cümlədən, bilik əsaslı iqtisadiyyatın qurulmasında bu universitetlərin əhəmiyyəti vurğulanır.

***Açar sözlər**: Azərbaycan, ali təhsil, tədqiqat universiteti, elmi potensial, innovasiya*

Abstract. In the modern era, the role of higher education particularly research-oriented universities in the socio-economic development of countries is rapidly increasing. Research universities go beyond traditional teaching functions and play a crucial role in advancing scientific research and applying innovations, thereby making significant contributions to societal progress. Transitioning to a research university model requires meeting specific criteria in institutional, academic, and infrastructural areas. In Azerbaijan, the development of research universities is among the priorities of national education policy. Key criteria in this regard include international indexing of scientific publications, doctoral program capacity, participation in grant-funded projects, and the availability of modern research infrastructure. This article explores the concept of research universities, examines international experiences and national policy approaches, and highlights the importance of these universities in building a knowledge-based economy.
Keywords: *Azerbaijan, higher education, research university, scientific potential, innovation*

Аннотация. В современную эпоху роль высшего образования, особенно исследовательских университетов, в социально-экономическом развитии стран стремительно возрастает. Исследовательские университеты, не ограничиваясь только учебной деятельностью, вносят значительный вклад в развитие общества через научные исследования и внедрение инноваций. Для перехода к исследовательскому университету особенно важно соблюдение определенных критериев в институциональной, академической и инфраструктурной сферах. Развитие исследовательских университетов в Азербайджане является одним из приоритетов национальной образовательной политики, и в этой области основными критериями являются международная индексация научных публикаций, потенциал аспирантуры, участие в грантовых проектах и наличие современной исследовательской инфраструктуры. В статье рассматриваются концепция исследовательских университетов, международный опыт и подходы национальной политики, а также подчеркивается значение этих университетов для создания экономики, основанной на знаниях.
Ключевые слова: *Азербайджан, высшее образование, исследовательский университет, научный потенциал, инновации*

Tədqiqat universitetləri müasir ali təhsil və elm sisteminin strukturunda strateji əhəmiyyətə malik olan xüsusi tipli ali təhsil müəssisələridir. Bu universitetlər yalnız təhsil müəssisəsi olmaqla kifayətlənmir, eyni zamanda cəmiyyətin sosial, iqtisadi və texnoloji inkişafında strateji rol oynayan beyin mərkəzləri kimi çıxış edirlər. Qlobal miqyasda elm və təhsilin inteqrasiyasını təşviq edən tədqiqat universitetləri, yüksək ixtisaslı kadrların hazırlanması, innovativ tədqiqatların həyata keçirilməsi və bu tədqiqatların praktiki tətbiqi baxımından xüsusi əhəmiyyət daşıyır. Belə universitetlərin formalaşması və inkişafı, yalnız milli elmi potensialın gücləndirilməsi ilə məhdudlaşmır, həm də ölkənin beynəlxalq elmi ictimaiyyətdə tanınmasına, qlobal reytinqlərdə yer almasına və iqtisadi inkişafının dayanıqlı əsaslar üzərində qurulmasına mühüm töhfə verir.

Ümumilikdə, tədqiqat universiteti yüksək keyfiyyətli təhsilin təmin olunmasına xidmət edən, tədqiqat fəaliyyətinə xüsusi önəm verilən, bu missiyanın təşviq edildiyi və dəstəkləndiyi, həmçinin bu məqsədə uyğun daxili sistemlər və idarəetmə mexanizmləri ilə təchiz olunmuş ali təhsil müəssisəsidir [1, s. 112]. Buna görədir ki, tədqiqat universitetləri yalnız tədris fəaliyyəti ilə deyil, daha çox elmi tədqiqatların həyata keçirilməsi və yeni biliklərin yaradılmasına üstünlük verirlər. Bu universitetlərin müasir dövrdəki inkişafı, həm yerli, həm də beynəlxalq səviyyədə təhsil ilə elmin sintezini təmin edən təsirli strukturların formalaşmasını tələb edir. Hazırda ölkəmizdə də tədqiqat universitetlərinin yaradılması aktuallaşmışdır. Bu universitetlərə qoyulan tələblər, ölkənin təhsil və elm sisteminin beynəlxalq səviyyədə tanınması üçün böyük əhəmiyyət daşıyır. Bu universitetlər, yüksək ixtisaslı mütəxəssislərin yetişdirilməsi, elmi tədqiqatların keyfiyyətinin artırılması və elmi yeniliklərin iqtisadiyyata tətbiqi sahəsində mühüm töhfələr verir. Davamlı iqtisadi inkişafa nail olmuş ölkəmizdə iqtisadiyyatın sonrakı inkişafında tədqiqat universitetləri pay sahibi ola bilərlər. Tədqiqat universitetlərinin yaradılması ilə əlaqədar olaraq, bu gün Azərbaycanın təhsil sistemində müxtəlif yanaşmalar tətbiq edilir, beynəlxalq əməkdaşlığa geniş yer verilir. Bu addım Azərbaycanın dünya miqyasında elmi nailiyyətlərə imza atmasına, beynəlxalq reytinqlərdə yüksəlməsinə və ölkə iqtisadiyyatının müxtəlif sahələrində inkişafın sürətlənməsinə şərait yaradır.

Tədqiqat universitetləri yalnız təhsil sahəsində deyil, həm də ölkənin sosial-iqtisadi inkişafı, elmi tədqiqatları və innovasiyaları ilə əlaqəli olan müxtəlif sahələrdə müstəsna bir əhəmiyyət kəsb edir. Bu sahədə atılacaq addımlar Azərbaycanın elmi və təhsil infrastrukturunun inkişafında yeni dövrün başlanğıcına çevriləcəkdir.

Beynəlxalq təcrübə göstərir ki, bu gün tədqiqat universitetləri hər bir ölkənin ictimai, sosial və iqtisadi inkişafında əhəmiyyətli rol oynayır və bu müəssisələr yeniliklərə açıq, yaradıcı və kəşf etməyə meyilli qurumlar kimi qiymətləndirilir [2, s. 214]. Onlar:

- dünya miqyasında yüksək səviyyəli standartlara çatmağı əsas məqsəd kimi seçən və özünəməxsus fikirləri və prinsipləri ilə fərqlənən xüsusi müəssisələrdir [3, s. 56];
- yalnız təlim-tədris fəaliyyəti ilə deyil, əsasən tədqiqat işlərinin üstünlük təşkil etdiyi qurumlardır [4, s. 230-231];
- yüksək intellektual səviyyəyə malik insanları tədqiqatlar aparmaq məqsədilə əməkdaşlığa cəlb etməyi özünün əsas məqsəd və missiyası olaraq müəyyənləşdirən universitetlərdir [5, s. 24];
- əsasən doktorantura səviyyəsində təhsil xidmətləri təklif edir, elmi işçilər (professorlar) tədqiqatçılıq bacarıqları və apardıqları tədqiqatların keyfiyyəti əsasında işə qəbul edilir və fəaliyyətləri dövründə apardıqları tədqiqatlara uyğun olaraq mükafatlandırılırlar. Bu universitetlərdə maddi resursların əksər hissəsi tədqiqat işlərinə ayrılır [3, s. 53].

Tədqiqat universitetlərinin yaranma tarixi. Tədqiqat universitetlərinin tarixi inkişafına nəzər saldıqda, yaranma tarixinin XIX əsrin əvvəllərinə təsadüf etdiyi aydın olur. Bu prosesin əsası Almaniyada, 1818-ci ildə Berlində V. fon Humboldt tərəfindən yaradılan Berlin Universiteti ilə qoyulmuşdur [6, s. 114]. Vilhelm fon Humboldtun yanaşmasına görə, universitetlər Almaniyanın milli və elmi inkişafını birbaşa təşviq etməli idi. Onun inqilabi konsepsiyası yeni yaradılan və ya yenidən təşkil olunan alman universitetlərində tədqiqat fəaliyyətlərinin genişlənməsinə və alimlərin hazırlanmasına şərait yaradaraq, ölkənin müasir dövlət kimi formalaşmasına mühüm töhfə vermişdir [6, s. 114]. Bu universitetin əsas məqsədi tədris və tədqiqatın inteqrasiyasını təmin etmək olmuşdur. Humboldt modelinə görə, universitet yalnız bilik ötürən qurum deyil, həm də yeni biliklər yaradan elmi tədqiqat mərkəzidir. Bu yanaşma sonradan bütün dünyada tədqiqat universitetlərinin formalaşmasına və inkişafına təsir etmişdir. 1862-ci ildən etibarən ABŞ, daha sonralar isə Yaponiya alman universitet modelinin müəyyən xüsusiyyətlərini əsas götürərək, onları yerli tələbatlara uyğunlaşdırmaqla özünəməxsus ali təhsil modelini formalaşdırmışdır [6, s. 114]. Bunun nəticəsi olaraq, XIX əsrin sonlarında və XX əsrin əvvəllərində ABŞ-da tədqiqat universitetləri sürətlə inkişaf etməyə başlamış və bu prosesdə Con Hopkins Universiteti (1876) mühüm rol oynamışdır. Con Hopkins Universiteti Alman modelini mənimsəyərək, elmi tədqiqatların mərkəzləşdirilməsinə və doktorantura təhsilinə önəm vermişdir. Bununla yanaşı, Massaçusets Texnologiya İnstitutu (MIT) və Harvard Universiteti kimi qurumlar da tədqiqat fəaliyyətlərinə xüsusi diqqət yetirdilər. Amerika tədqiqat universitetlərinin mühüm xüsusiyyətlərindən biri dövlət və özəl maliyyə mənbələrindən geniş istifadə etmələri idi. ABŞ universitetləri sənaye ilə sıx əməkdaşlıq edərək, elmi innovasiyaları tətbiq sahələrinə yönəltmiş, bu da onların qlobal rəqabət qabiliyyətini artırmış və tədqiqat universitetlərinin dünya miqyasında tanınmasına şərait yaratmışdır.

XX əsrin ortalarından başlayaraq Avropa ölkələrində və Asiyada da tədqiqat universitetləri inkişaf etməyə başlamışdır. Xüsusilə, İngiltərədə Oksford və Kembric kimi tarixi universitetlər tədqiqat yönümlü fəaliyyətlərini daha da gücləndirmiş, Fransa, Almaniya və digər Avropa ölkələrində isə dövlətin dəstəyi ilə yeni tədqiqat mərkəzləri yaradılmışdır. Asiyada isə Yaponiya, Çin və Cənubi Koreyada tədqiqat universitetləri qlobal elm məkanında önəmli mövqe əldə etmişlər. O cümlədən, Çin universitetləri son illərdə elmi nəşrlərin sayına və keyfiyyətinə görə dünya reytinqlərində yüksək mövqelərə sahib olmuşdur. Bu gün tədqiqat universitetləri təkcə elmi biliklərin inkişafı ilə deyil, həm də texnologiya transferi, innovasiya və iqtisadi inkişafla sıx əlaqəlidir. Onlar qlobal çağırışlara cavab vermək üçün multidissiplinar tədqiqatlara və beynəlxalq əməkdaşlığa xüsusi önəm verirlər.

Beləliklə, tədqiqat universitetlərinin yaranma tarixi və inkişaf mərhələləri onların müasir ali təhsil sistemindəki əvəzolunmaz rol oynadığını təsdiq edir. Bu universitetlər elmi biliklərin yaradılması və tətbiqi prosesində aparıcı

mövqe tutaraq, cəmiyyətin sosial-iqtisadi inkişafına mühüm töhfə verirlər.

Tədqiqat universitetlərinin əsas xüsusiyyətləri. Tədqiqat universitetlərinin uğurlu fəaliyyəti üçün bir sıra amillərin harmonik şəkildə əsas kimi qəbul edilməsi zəruridir. Bu amillər tədqiqat universitetlərinin inkişafını və keyfiyyətini təmin edən əsas istiqamətləri əhatə edir və onları ənənəvi universitetlərdən fərqləndirir.

Tədqiqat universitetləri fundamental və tətbiqi tədqiqatların paralel şəkildə aparılmasına, tədqiqat yönümlü tədris mühitinin yaradılmasına, geniş akademik fənn spektrinin təqdim edilməsinə və yüksək səviyyəli tədqiqat proqramlarının (magistratura və doktorantura) üstünlük təşkil etməsinə əsaslanır. Qlobal perspektivə malik olmaq və xarici maliyyə mənbələrinə çıxış imkanları da tədqiqat universitetlərini fərqləndirən əsas xüsusiyyətlərdəndir. Bunlar tədqiqat universitetlərinin elmi fəaliyyət və innovasiya sahəsindəki uğurlarını təmin edən əsas faktorlardır [7, s. 16].

Beynəlxalq reytinq sistemlərində yüksək mövqelərə sahib tədqiqat universitetlərinə xas olan bəzi xarakterik xüsusiyyətlər vurğulanır. Bütün uğurlu tədqiqat universitetləri akademik iyerarxiyanın ən yüksək pilləsində yerləşir və öz missiyalarına uyğun olan lazımi dəstəyi əldə edirlər. Buna görə də, onlar fərqləndirilmiş akademik sistemin vacib bir hissəsi sayılırlar. Yaponiya və ABŞ-dan başqa, tədqiqat universitetləri əksər ölkələrdə dövlət müəssisələri kimi fəaliyyət göstərirlər. Son illərdə bəzi ölkələrdə özəl tədqiqat universitetləri qurulsa da, özəl sektorların bu universitetlərə dəstəyi nisbətən məhdud olmuşdur. Tədqiqat universitetləri adətən elmi-tədqiqat institutları ilə kəskin rəqabətin müşahidə olunmadığı və əksinə, bu qurumlarla universitetlər arasında əməkdaşlıq münasibətlərinin mövcud olduğu mühitlərdə daha səmərəli şəkildə formalaşır və inkişaf edir. Bu yanaşma, rəqabətin innovativ fəaliyyətləri stimullaşdırdığı fikri ilə ziddiyyət təşkil etsə də, tədqiqat funksiyalarının ayrı-ayrı qurumlar arasında parçalanması nəticəsində yüksək elmi potensiala malik mütəxəssislərin universitet mühitindən uzaqlaşması və bu səbəbdən istedad ehtiyatının zəifləməsi ehtimalı artır. Məhz bu səbəbdən bir sıra ölkələrdə ali təhsil müəssisələrinin elmi potensialını gücləndirmək məqsədilə universitetlərlə tədqiqat institutları arasında institusional inteqrasiyanı təşviq edən strateji yanaşmalar formalaşdırılır və tətbiq olunur.

Tədqiqat universitetləri yüksək maliyyə tələb edən müəssisələrdir. Onlar ən yaxşı akademik heyəti və tələbələri cəlb etmək, qabaqcıl tədqiqat və tədrisi həyata keçirmək üçün digər universitetlərdən daha çox maliyyə resurslarına ehtiyac duyurlar. Bu, nəticə etibarilə hər bir tələbəyə xərclənən vəsaitin daha yüksək olmasına səbəb olur. Müəllim heyətinə yüksək maaşların verilməsi, eləcə də maddi yardıma ehtiyacı olan tələbələrə təqaüdlərin verilməsi tədqiqat universitetlərinin əsas xərcləri arasındadır.

Tədqiqat universitetləri öz missiyalarını yerinə yetirə bilmək üçün uyğun infrastruktura da ehtiyac duyurlar. Bu tədris binaları, müasir kitabxanalar və inkişaf etmiş laboratoriyalar şəklində təmin olunur. Beləliklə, tədqiqat universiteti mürəkkəb bir struktura sahib olan, özünəxas missiyası və strateji əhəmiyyəti olan bir təhsil müəssisəsidir [8, s. 322].

Fikirlərimizi Liverpul Universitetinin ali təhsilin idarə edilməsi üzrə professoru Con Taylorun yanaşması ilə ümumiləşdirmək istərdik. Onun fikrincə, uğurlu tədqiqat universitetlərini fərqləndirən əsas xüsusiyyətlər bunlardır: fundamental və tətbiqi tədqiqatların paralel şəkildə həyata keçirilməsi, elmi tədbirlərin çoxluğu, akademik fənlərin geniş spektri, magistratura proqramlarının ümumi tədris prosesində yüksək paya malik olması, tədqiqat fəaliyyətindən əldə edilən gəlirlərin səviyyəsinin yüksəkliyi və beynəlxalq əməkdaşlıq imkanlarının genişliyi [7, s. 30]. Qeyd olunan göstəricilər, tədqiqat universitetlərinin elmi potensialının gücləndirilməsi, funksional dayanıqlığının təmin olunması və qlobal rəqabət qabiliyyətinin artırılması baxımından əsas meyarlar kimi dəyərləndirilir [9, s. 7].

Azərbaycanda tədqiqat universitetlərinin təşkili. Müasir elmi və texnoloji inkişaf kontekstində ali təhsil sisteminin transformasiyası zərurəti tədqiqatyönlü universitetlərin rolunu daha da aktuallaşdırmışdır. Belə universitetlərin təşkili, təhsil və tədqiqat sahələrinin sinerji əsasında inkişaf etdirilməsini təmin etməklə, ölkənin sosial-iqtisadi və texnoloji modernləşmə prosesində mühüm rol oynaya bilər. Bu kontekstdə, Azərbaycanda tədqiqat universitetinin formalaşdırılması yalnız elmi mühitin inkişafı baxımından deyil, həm də milli innovasiya

sisteminin əsas dayaqlarından biri kimi strateji əhəmiyyət daşıyır.

Tədqiqat universitetlərinin formalaşması müasir dövrdə ölkələrin intellektual və iqtisadi inkişafında əhəmiyyətli rol oynayır. Onların uğurlu inkişafı üçün strateji yanaşmaların tətbiqi, maliyyə resurslarının artırılması və beynəlxalq əməkdaşlığın genişləndirilməsi vacibdir [10, s. 67]. Eyni zamanda, müasir texnologiyaların tətbiqi və yüksək ixtisaslı kadrların hazırlanması da bu prosesin ayrılmaz tərkib hissəsidir. Tədqiqat universitetlərinin potensialından səmərəli istifadə edilməsi elm və təhsilin vəhdətində böyük nailiyyətlərə yol açır. Dünya ölkələri tədqiqat universitetləri ilə əlaqədar müxtəlif yanaşma və siyasətlər tətbiq edirlər. Hər bir ölkədə olduğu kimi, ölkəmizdə də tədqiqat universitetlərinin yaradılması və bu universitetlərə qoyulacaq tələblərin müəyyənləşdirilməsi inkişafda mühüm rol oynayacaq məsələlərdəndir. Azərbaycan Respublikasında insan kapitalının inkişafı sahəsində ali təhsil müəssisələrinin beynəlxalq səviyyədə keyfiyyət baxımından rəqabətə davamlı olmasının vacibliyi 2021-ci ildə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində xüsusi olaraq qeyd edilib [11, s. 5]. Sənəddə növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş Milli Prioritetin (dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi) reallaşdırılması əsas kimi dəyərləndirilir. Milli prioritetlərin reallaşdırılması təhsilin növbəti inkişaf mərhələsinə keçidi, ölkəmizdə tədqiqat universitetlərinin yaradılmasını zəruri edir.

Belə ki, tədqiqat universitetlərinin yaradılması elmi-tədqiqat fəaliyyətinin canlanmasına və ali təhsilin pillələri arasında varisliyin təmin olunmasına şərait yaradır. Tədqiqatların magistratura və doktorantura səviyyəsində mərhələli şəkildə həyata keçirilməsi, onların keyfiyyətinin yüksəlməsinə və elmi fəaliyyətin sistemli şəkildə təşkili ilə nəticələnir [12, s. 171]. Onu da qeyd etmək lazımdır ki, tədqiqat universitetinin əsasını yaradıcılıq funksiyası və bu əsasda innovasiyaların yaranması təşkil edir. İnnovasiyaların "istehsalata tətbiqi universitetin nüfuzunu və cəmiyyət üçün əhəmiyyətini yüksəldir. Bu proses universitetin həm kadr hazırlığı keyfiyyətini artırır, həm də elm və təhsilin vəhdətində elmi nəticələrin kommersiyalaşdırılmasını mümkün edərək, həm gəlir əldə etmək, həm də innovativ mütəxəssislər yetişdirmək imkanlarını genişləndirir" [13, s. 3].

Tədqiqat universitetlərinin fəaliyyətlərini davam etdirə bilmələri üçün adekvat və davamlı maliyyə resurslarına malik olmaları zəruridir. Bununla yanaşı, bu tip universitetlər əhəmiyyətli dərəcədə gəlir əldə etmək potensialına da sahibdirlər. Sözügedən potensial, əsasən "universitet–sənaye–dövlət" əməkdaşlığı çərçivəsində gerçəkləşdirilir. Belə ki, sənaye müəssisələrinin verdikləri sifarişlər əsasında həyata keçirilən layihələr universitetlərə əlavə maliyyə mənbələri qazanmaq imkanı yaradır.

Eyni zamanda, tədqiqat və inkişaf sisteminin səmərəli təşkili və davamlı inkişafı üçün universitet–sənaye–dövlət əməkdaşlığı çərçivəsinin institusional şəkildə formalaşdırılması mühüm əhəmiyyət daşıyır. Bu model, elmi potensialın gücləndirilməsi, innovativ fəaliyyətlərin təşviqi və əldə edilən tədqiqat nəticələrinin praktik sahələrdə tətbiqi baxımından strateji əhəmiyyətə malikdir. Tədqiqat və inkişafın təşviqində universitet–sənaye–dövlət əməkdaşlığının effektivliyi isə hər bir tərəfin üzərinə düşən funksiyaları və motivasiya mexanizmlərini tam və məqsədyönlü şəkildə yerinə yetirməsindən asılıdır [14, s. 125].

Beləliklə, Azərbaycanın ali təhsil müəssisələrinin beynəlxalq rəqabətə davamlılığının təmin olunması və XXI əsrin tələblərinə uyğunlaşdırılması strateji əhəmiyyət kəsb edən prioritet məsələlərdən biridir. Ölkəmizdə tədqiqat universitetlərinə dair tələblər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 dekabr tarixli, 610 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinə 'Tədqiqat universiteti' statusu verilməsi üçün Tələblər" sənədi əsasında müəyyən edilir və tənzimlənir [15, s. 1]. Azərbaycanda ali təhsil müəssisələrinə "Tədqiqat universiteti" statusunun verilməsi müəyyən elmi-pedaqoji və institusional meyarların yerinə yetirilməsi ilə şərtləndirilir. Bu meyarlar ali təhsil müəssisələrinin elmi potensialının artırılması, elmtutumlu fəaliyyətin genişləndirilməsi və beynəlxalq akademik rəqabətə inteqrasiya baxımından mühüm əhəmiyyət kəsb edir. İlk növbədə, tədqiqat universiteti statusuna iddialı

ali təhsil müəssisəsində fundamental, tətbiqi və eksperimental elmi tədqiqatların həyata keçirilməsi üçün zəruri infrastrukturun mövcudluğu tələb olunur. Bu, elektron kitabxanaların, müasir maddi-texniki bazanın, elmtutumlu avadanlıqlarla təchiz edilmiş və digər ali məktəblərlə birgə istifadə oluna bilən elmi mərkəzlərin fəaliyyətini əhatə edir. Belə bir infrastruktur, elmi fəaliyyətlərin effektiv təşkili və innovasiya potensialının reallaşdırılması baxımından zəruridir. İkinci vacib məqam, elmi fəaliyyətin nəticələrinin beynəlxalq elmi ictimaiyyət tərəfindən tanınması ilə bağlıdır. Belə ki, son bir təqvim ilində Web of Science (WOS) və SCOPUS kimi nüfuzlu beynəlxalq elmmetrik bazalarda yayımlanan məqalələrin ümumi respublika üzrə sayının azı 10 faizinin həmin ali təhsil müəssisəsinin əməkdaşları tərəfindən dərc olunması əsas göstərici kimi qəbul edilir. Bu, ali məktəbin elmi məhsuldarlığını və beynəlxalq səviyyədə görünüklüyünü əks etdirir. Digər tərəfdən, doktorantura səviyyəsində kadr hazırlığını təmin etmək məqsədilə hər bir ixtisas üzrə azı beş professor və ya dosentin elmi rəhbərlik funksiyasını yerinə yetirə bilməsi tələb olunur. Bu, elmi rəhbərlik institutunun gücləndirilməsi və elmi kadrların keyfiyyətli hazırlanması baxımından xüsusi önəm daşıyır. Bundan əlavə, ali təhsil müəssisəsində ən azı bir dissertasiya şurasının fəaliyyət göstərməsi də zəruri sayılır. Bu struktur, elmi işlərin müdafiəsinin təşkilinə və elmi dərəcələrin verilməsinin təmin olunmasına xidmət edir. Tədqiqat universiteti statusuna namizəd ali məktəblərdə magistratura səviyyəsində təqdim olunan ixtisaslaşmaların beynəlxalq akkreditasiyadan keçməsi də əsas meyarlardan biridir. Bu, təhsil proqramlarının keyfiyyətinə beynəlxalq səviyyədə verilən etimadın göstəricisidir və məzunların qlobal əmək bazarında rəqabətqabiliyyətliliyini artırır. Plagiatın qarşısının alınması məqsədilə ali təhsil müəssisəsində səmərəli anti-plagiat sisteminin tətbiqi də vacib şərtlərdən hesab olunur. Bu sistem, elmi və akademik dürüstlüyün qorunmasına, orijinal tədqiqatların təşviqinə xidmət edir. Nəhayət, son beş il ərzində elm sahəsində yerli və beynəlxalq donorlar tərəfindən maliyyələşdirilən azı 20 qrantın əldə olunması, ali təhsil müəssisəsinin elmi fəaliyyətlərinin maliyyə dayanıqlığını və layihə potensialını nümayiş etdirən əsas göstəricidir. Bu tələblər, tədqiqat universitetlərinin formalaşdırılmasında strateji çərçivə rolunu oynayır və onların milli təhsil sistemində innovativ və elmtutumlu inkişaf modelinə çevrilməsinə zəmin yaradır.

Nəticə.

Müasir dövrdə dünya ölkələrində tədqiqat universitetlərinin fəaliyyətinin keyfiyyət standartlarına uyğunlaşdırılması və bu statusun əldə olunması məqsədilə müxtəlif islahatlar və təşəbbüslər həyata keçirilir. Qloballaşan və rəqabətin gücləndiyi şəraitdə ali təhsil müəssisələrinin beynəlxalq miqyasda rəqabətə davamlılığının təmin olunması, onların XXI əsrin çağırışlarına uyğunlaşdırılması strateji əhəmiyyət kəsb edən prioritet istiqamətlərdən biridir. Bu baxımdan, Azərbaycanda da tədqiqat universitetlərinin yaradılması və inkişaf etdirilməsi ölkənin elmi-təhsil potensialının gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Tədqiqat universitetləri yalnız elmi tədqiqatların keyfiyyətinin artırılmasına deyil, eyni zamanda yüksək ixtisaslı, analitik düşüncə tərzinə malik və əmək bazarının tələblərinə cavab verən kadrların hazırlanmasına xidmət edir. Bu cür universitetlərdə təhsil alan tələbələr nəzəri biliklərlə yanaşı, praktiki bacarıqlar da qazanmaqla əmək fəaliyyətinə daha hazırlıqlı şəkildə qoşulurlar. Elm və təhsilin sintezini təmin edən bu modellər innovativ texnologiyaların tətbiqi və yayılmasında, eləcə də bilik iqtisadiyyatının formalaşmasında əsas rol oynayır.

Azərbaycanda tədqiqat universitetlərinin formalaşdırılması üçün bir sıra vacib amillərə diqqət yetirilməsi zəruridir. İlk növbədə, mövcud ali təhsil müəssisələrinin elmi potensialının gücləndirilməsi, müasir və innovativ infrastrukturun yaradılması, elmi kadrların hazırlığı və onların davamlı inkişafı üçün əlverişli mühitin təmin olunması əsas hədəflər sırasındadır. Bununla yanaşı, beynəlxalq akademik əməkdaşlığın genişləndirilməsi və qlobal elmi şəbəkələrə inteqrasiya da bu prosesin mühüm komponentlərindəndir.

Tədqiqat universitetlərinin yaradılması təkcə təhsil sektorunun inkişafına deyil, həm də ölkənin sosial və iqtisadi tərəqqisinə əhəmiyyətli töhfə verə bilər. Elmi innovasiyaların təşviqi və tətbiqi, yüksək texnologiyaların yerli şəraitə uyğunlaşdırılması, bilik əsaslı iqtisadiyyatın formalaşdırılması bu universitetlərin fəaliyyət spektrinə daxil olan əsas istiqamətlərdəndir. Nəticə etibarilə, Azərbaycanda tədqiqat universitetlərinin

inkişafı ölkənin beynəlxalq elmi ictimaiyyətdə tanınmasına, qlobal elmi proseslərdə iştirakının genişlənməsinə və uzunmüddətli strateji məqsədlərə çatmasına xidmət edəcəkdir.

Problemin aktuallığı. Müasir dövrdə biliklərə əsaslanan iqtisadiyyatın formalaşması, innovasiyayönlü inkişaf strategiyalarının həyata keçirilməsi və rəqabətqabiliyyətli insan kapitalının yetişdirilməsi üçün elmi-tədqiqatların və ali təhsil müəssisələrinin rolu mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, tədqiqat universitetlərinin inkişafı milli innovasiya sisteminin gücləndirilməsi və ölkənin dayanıqlı inkişafı baxımından strateji prioritetlərdən birinə çevrilmişdir. Azərbaycan Respublikasında son illərdə ali təhsilin beynəlmiləlləşdirilməsi, elmi fəaliyyətin stimullaşdırılması və universitetlərin dünya reytinqlərində mövqelərinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılsa da, tədqiqat universitetlərinin formalaşması və elmi potensialın effektiv səfərbər olunması hələ də bir sıra problemlərlə üzləşir. Elmi-tədqiqat fəaliyyətinə ayrılan maliyyə resurslarının məhdudluğu, akademik heyətin elmi məhsuldarlığının yetərli olmaması, universitet-sənaye əməkdaşlığının zəif inkişafı və innovasiyayönlü tədris-institut strukturlarının çatışmazlığı bu sahədə mövcud çağırışlardandır. Beynəlxalq təcrübə göstərir ki, tədqiqat universitetləri yalnız təhsil və tədris mərkəzləri deyil, eyni zamanda iqtisadi artımın və texnoloji tərəqqinin əsas drayverləridir. Buna görə də Azərbaycanda tədqiqat universitetlərinin inkişaf perspektivlərinin araşdırılması və bu sahədə elmi potensialın gücləndirilməsinə yönəlik strategiyaların hazırlanması aktuallıq kəsb edir. Bu, ölkənin ali təhsil sisteminin rəqabətqabiliyyətliyinin artırılması, milli innovasiya potensialının genişləndirilməsi və elmi-texniki tərəqqinin sürətləndirilməsi üçün mühüm elmi və praktik əhəmiyyət daşıyır.

Problemin elmi yeniliyi. Tədqiqat universitetləri həmçinin yüksək ixtisaslı mütəxəssislərin yetişdirilməsi ilə əhəmiyyətlidir. Digər tərəfdən, tədqiqat universitetlərinin yaradılması, təhsil sistemində islahatların həyata keçirilməsini, beynəlxalq təcrübənin nəzərə alınmasını və müasir tələblərə uyğun yeni akademik strukturların formalaşmasını zəruri edir. O cümlədən, mövcud universitetlərin elmi potensialını gücləndirmək və bu sahədə müasir tələblərə cavab verən infrastrukturun formalaşdırılması olduqca vacibdir.

Problemin praktik əhəmiyyəti. Tədqiqat universitetləri elmi biliklərin istehsalçısı və ötürücüsü kimi çıxış edərək sənaye ilə elmi əməkdaşlığı genişləndirə və innovasiyaların tətbiqini sürətləndirə bilər. Tədqiqat fəaliyyətinin intensivliyi universitetlərin beynəlxalq reytinqlərdə irəliləməsinə səbəb olur ki, bu da ölkəyə xarici tələbələrin və beynəlxalq layihələrin cəlbini artırır. Tədqiqat universitetlərinin tətbiqi elmlər sahəsində fəaliyyət göstərməsi sahibkarlar və sənaye nümayəndələri ilə daha sıx əməkdaşlıq yaratmağa şərait yaradır, bu isə innovativ məhsul və xidmətlərin yaranmasına təkan verir.

Ədəbiyyat

1. Owen-Smith, J. Research universities and the public good: Discovery for an uncertain future. / J. Owen-Smith. – California: Stanford University Press, - 2018. – 232 p.
2. Crow, M. M. The research university as comprehensive knowledge enterprise: A prototype for a new American university. / M. M. Crow. - University Research for Innovation, - 2010. – 211 p.
3. Altbach, P. G., & Salmi, J. The road to academic excellence: The making of world-class research universities. / P. G. Altbach & J. Salmi. - World Bank Publications, - 2011. – 363 p.
4. Jalote, P., Jain, B. N., & Sopory, S. Classification for research universities in India. / P. Jalote, B. N. Jain & S. Sopory. - Higher Education, - 2020. – 225-241.
5. Andreatta, B. Navigating the research university: A guide for first-year students. / B. Andreatta. – Cengage Learning, - 2011. – 288 p.
6. Altbach, P. G. Peripheries and centres: Research universities in developing countries. / P. G. Altbach. - Higher education management and policy, - 2007. - 19(2), – 111 p.
7. Taylor, J. Managing the unmanageable: The management of research in research-intensive universities. / J. Taylor. - Higher Education Management and Policy, - 2006. - 18(2), – 9 p.
8. Altbach, P. G. Advancing the national and global knowledge economy: The role of research universities in developing countries. / P. G. Altbach. - Studies in higher education, - 2013. - 38(3), – 316-330 p.
9. Ataşov. B. X. Azərbaycanın dövlət elm siyasətinin yeni prioriteti: universitetlərdə elmi fəaliyyətin inkişafı. / B. X. Ataşov. - Kooperasiya jurnalı, - 2023. - №4 (71), – 5-13 s.
10. Altbach, P. G. The past, present, and future of the research university. / P. G. Altbach. - Economic and Political weekly, - 2011. – 65-73 p.

11. Azərbaycan 2030: sosial iqtisadi inkişafa dair Milli Prioritetlər // Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir – Bakı: Qanun, – 2021, – 12 s.
12. Nuriyev. M. Ə. Ali təhsil müəssisələrinin "tədqiqat universiteti" statusu alması günün tələbidir. / M. Ə. Nuriyev. - Azərabycan Respublikasının Dövlət Statistika Komitəsi Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzi. İnnovativ inkişaf: statistikadan iqtisadiyyata II reespublika elmi-praktik konfransının materialları, - 2022. – 171-175 s.
13. Əlizadə H. Ə. Müasir dövrün təhsil modeli - Tədqiqat universiteti. // Azərbaycan müəllimi. -2024, 10 may. – 8 s.
14. Zeynallı, L. V. Azərbaycan Respublikasında sənayedə insan kapitalının inkişafının stimullaşdırılması mexanizmlərinin təkmilləşdirilməsi: / iqtisad üzrə fəlsəfə doktoru dissertasiyası / - Bakı, 2023. – 148 s.
15. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ali təhsil müəssisələrinə "Tədqiqat universiteti" statusu verilməsi üçün Tələblər"in təsdiq edilməsi haqqında qərarı // Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 610 nömrəli qərarı ilə təsdiq edilmişdir. – Bakı: Qanun, – 2017, – 1 s.

Redaksiyaya daxil olub: 05.06.2025

İlham Ağaqardaş oğlu Cavadov,
Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini,
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
https://orcid.org/0009-0004-8522-320X
E-mail: i.cavadov@arti.edu.az
https://doi.org/10.69682/arti.2025.92(4).27-31

TƏHSİLİN KEYFİYYƏTİ: MƏKTƏBDAXİLİ İDARƏETMƏNİN YENİ PRİORİTETLƏRİ

Ilham Ağhagardash Javadov,
deputy director of the Institute of Education of the Republic of Azerbaijan,
doctor of philosophy in pedagogy, associate professor

QUALİTY OF EDUCATİON: NEW PRIORITIES OF INTRA-SCHOOL MANAGEMENT

Ильхам Агагардаш Джавадов,
заместитель директора Института Образования Азербайджанской Республики,
доктор философии по педагогике, доцент

КАЧЕСТВО ОБРАЗОВАНИЯ: НОВЫЕ ПРИОРИТЕТЫ ВНУТРИШКОЛЬНОГО УПРАВЛЕНИЯ

Xülasə. Məqalədə müasir ümumtəhsil məktəbinin sosial tələblərə cavab verən və cəmiyyətin dəyişən ehtiyaclarına uyğun şəkildə inkişaf edən açıq sistem kimi rolu təhlil olunur. Buna görə də, təhsilin keyfiyyətinin yüksəldilməsi idarəetmənin çevikliyi və maraqlı tərəflərin iştirakı ilə birbaşa əlaqələndirilir. Eyni zamanda təhsilin keyfiyyətinin təmin olunması təhsil sisteminin səmərəli idarə olunmasından, bu sahədə iştirakçılıq və çevik yanaşmaların tətbiqindən birbaşa asılı olduğu qənaətinə gəlinmişdir.
Açar sözlər: *təhsilin keyfiyyəti, şagird nailiyyəti, keyfiyyət göstəriciləri, təhsil mühiti, məktəb idarəçiliyi*

Summary. The article analyzes the role of a modern comprehensive school as an open system that meets social demands and develops in accordance with the changing needs of society. Therefore, improving the quality of education is directly linked to the agility of management and the participation of stakeholders. At the same time, it was concluded that ensuring the quality of education directly depends on the effective management of the education system, the application of participatory and agile approaches in this area.
Keywords: *quality of education, student achievement, quality indicators, educational environment, school management*

Резюме. В статье анализируется роль современной общеобразовательной школы как открытой системы, отвечающей социальным запросам и развивающейся в соответствии с изменяющимися потребностями общества. В связи с этим повышение качества образования напрямую связывается с гибкостью управления и участием заинтересованных сторон. Одновременно сделан вывод, что обеспечение качества образования напрямую зависит от эффективного управления системой образования, а также от применения в этой сфере подходов, основанных на участии и гибкости.
Ключевые слова: *качество образования, достижения учащихся, показатели качества, образовательная среда, управление школой*

Müasir ümumtəhsil məktəbi sosial sifarişlərə cavab verən və cəmiyyətin daim dəyişən ehtiyac və tələblərinə uyğun şəkildə inkişaf edən açıq sistemdir. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu məktəblər qarşısında konkret məqsəd və vəzifələr müəyyənləşdirir [1]. Lakin bu məqsədlərin reallaşdırılması üçün maddi-texniki bazanın möhkəmləndirilməsi, müəllimlərin peşəkar inkişafı, məktəbin gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsi, eləcə də cəmiyyətin sosial sifarişlərinə cavab verən təhsil modelinin qurulması istiqamətində məktəblərə müstəqil qərarvermə imkanı verilməlidir.

Təhsil sisteminin təkmilləşdirilməsi, ilk növbədə, onun səmərəli idarə olunmasından ası-

lıdır. İdarəetmənin səviyyəsi təkcə təhsilin keyfiyyətinə deyil, bütövlükdə Azərbaycan cəmiyyətinin inkişaf perspektivlərinə də birbaşa təsir göstərir. Əvvəllər tətbiq olunan mərkəzləşdirilmiş idarəetmə modeli bu gün artıq yerini regional, rayon və məktəb səviyyəsində həyata keçirilən daha çevik və yerli şəraitə uyğunlaşdırılmış idarəetmə formalarına vermişdir.

2013-cü ildə ölkə başçısı cənab İlham Əliyev tərəfindən təsdiq olunmuş "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda təhsil sisteminin modernləşdirilməsi, təhsilin keyfiyyətini müasirləşdirən zamanı fundamental dəyərləri saxlamaq, şəxsiyyətin, dövlət və cəmiyyətin tələblərinə uyğun təhsil qurmaq əsas məqsəd olaraq qarşıya qoyulmuşdur [2].

Bu gün təhsilin keyfiyyəti anlayışı yalnız Azərbaycan üçün deyil, bütün dünya ölkələri üçün prioritet məsələyə çevrilmişdir. İnkişaf etmiş dövlətlər təhsilin gələcəyi ilə bağlı ciddi narahatlıq keçirir və onun keyfiyyətinin yüksəldilməsi istiqamətində intensiv şəkildə düşünürlər. Məsələnin aktuallığı ondan irəli gəlir ki, müasir dövrün qlobal problemləri insan həyatının şərtləri və tələbləri ilə sıx şəkildə bağlıdır. Bu baxımdan, ümumtəhsil məktəblərinin bu günə qədər əldə etdiyi nailiyyətlərin qorunub saxlanılması və inkişaf etdirilməsi üçün, mövcud çətinliklərə baxmayaraq, əsas diqqət şəxsiyyətin hərtərəfli formalaşmasına yönəldilməlidir.

Təhsil prosesinin subyekti məktəbin rəhbəri, müəllim, şagird və valideynlərdir. Onların fəaliyyətinin əlaqələndirilməsi üçün çalışmaq lazımdır. Bunun üçün onlar təhsil prosesi ilə bağlı bütün fəaliyyətlərə birlikdə cəlb olunmalı və idarəetmədə fəal iştirak etməlidirlər.

Bu gün təhsilin və təhsil müəssisələrinin keyfiyyətinin yüksəldilməsi üçün bir çox səmərəli üsullar mövcuddur. Şagird nailiyyətlərinin qiymətləndirilməsi, təhsil prosesinin sistemli monitorinqi və məktəbdaxili nəzarət bu üsulların əsas komponentləri kimi çıxış edir.

Təhsilin keyfiyyətinin idarəolunması isə təhsil idarəçiliyinin ümumi strukturunun mühüm tərkib hissəsidir. Burada əsas məsələ, idarəetmənin mərkəzləşmiş formada deyil, çevik və iştirakçılıq prinsiplərinə əsaslanan yanaşmalarla həyata keçirilməsidir. Çünki vahid mərkəzdən idarəetmə modeli çox zaman çətinliklər və gecikmələr yaradır. Əksinə, təhsildə maraqlı tərəflərin müəllimlərin, valideynlərin, şagirdlərin və dövlətin maraqlarını uyğunlaşdırmağı bacaran rəhbər şəxs daha səmərəli və dayanıqlı nəticələr əldə edə bilər.

Müasir iqtisadi münasibətlər, demokratik və hüquqi dövlətə keçid, bazar iqtisadiyyatının inkişafı məzunlar qarşısında yeni tələblər qoyur. Təhsil cəmiyyətdə insanın arxayın olduğu yeganə dəyərə çevrilir. Keyfiyyətli təhsil cəmiyyətin və iqtisadiyyatın yenidən formalaşmasına zəmin yaradır.

Təhsilin keyfiyyəti çoxtərəfli anlayışdır. Ümumi mənada "keyfiyyət" hansısa məhsul və ya xidmətin xüsusiyyətlərinin qoyulmuş standartlara nə dərəcədə cavab verməsi ilə müəyyən edilir. Başqa mənada keyfiyyətə məqsədin nəticə ilə münasibəti də demək olar [6-7].

Prof. Hamlet İsaxanlı "Təhsildə keyfiyyət konsepsiyası və Amerika təcrübəsi" adlı məqalədə "keyfiyyət", "təhsilin keyfiyyəti" anlayışları haqqında çox dəyərli fikirlər söyləmişdir [3, s.54.]. "Keyfiyyət davamlı inkişafa yönələn sistem və üsulların hökm sürməsidir, zəruri işlərin mümkün qədər vaxtında görülməsidir. Keyfiyyət və yeniləşmə, yəni innovasiya bir-biri ilə sıx əlaqədədir, bir-birindən asılıdır." [3, s.54.]

"Keyfiyyət bir prosesdir və bu baxımdan keyfiyyətin artırılması konsepsiyası keyfiyyətin təminatı və ya keyfiyyətə nəzarətdən daha vacibdir." [3, s.54.]

"Keyfiyyət hamının iştirakıdır, komanda işinin təşkili və nəticəsidir. Təhsildə keyfiyyət təhsilə baxış sistemidir mövqedir, daxili mədəniyyətdir." [3, s.54.]

"İnsan fəaliyyətinin müxtəlif sahələrində olduğu kimi, təhsildə də keyfiyyət yüksək standartlara malik olmaqdır, fərqli, istisna xüsusiyyətdir, əla deməkdir." [3, s.53.]

Göründüyü kimi, müəllif keyfiyyəti statik bir göstərici kimi deyil, davamlı inkişafa yönəlmiş sistemli fəaliyyətlər toplusu kimi təqdim edir. Onun fikrincə, keyfiyyət sadəcə nəzarət və təminat anlayışlarından ibarət deyil, bütün iştirakçıların (müəllim, şagird, rəhbərlik və s.) birgə əməkdaşlığına əsaslanan bir prosesdir. Bu prosesin səmərəliliyi isə vaxtında və düzgün qərarların qəbulundan, komandada işləmə bacarığından və yeniliyə açıqlıqdan asılıdır. Eyni zamanda, təhsildə keyfiyyət yalnız xarici göstəricilər və standartlarla deyil, məktəbin daxili mədəniyyəti, təhsilə olan yanaşması və ümumi baxış sistemi ilə də müəyyən olunur. Bu baxım-

dan, keyfiyyət həm əla nəticə, həm də bu nəticəyə aparan yolun özü kimi dəyərləndirilir.

Keyfiyyət anlayışı təhsil sitemində müxtəlif auditoriyaların anlaya biləcəyi birmənalı termin deyil. Şagirdlər təhsilin keyfiyyətini məktəbdaxili şərait, müəllim-şagird münasibəti ilə əlaqələndirir. Valideynləri onu övladlarının gələcək inkişafına zəmin yaradan fərdi inkişaf kimi dəyərləndirir. Müəllimlər üçün təhsilin keyfiyyəti onları qane edən tədris planı, normal iş şəraiti, tədris materialları ilə təmin olunmadır. Gələcək işəgötürənlər təhsilin keyfiyyətini məzunlarda müstəqil qərarvermə qabiliyyətini formalaşdıran bilik, bacarıq və vərdişlərin olmasını yüksək qiymətləndirirlər [5].

Bu fərqli yanaşma onu göstərir ki, təhsil sistemində keyfiyyətin yüksəldilməsi üçün bütün bu müxtəlif tələblər nəzərə alınmalı və balanslaşdırılmış yanaşma tətbiq edilməlidir.

Elmi ədəbiyyatın öyrənilməsi, məktəb təcrübəsi, məktəb rəhbərliyi ilə əməkdaşlıq, direktor, müəllim və təhsil işçiləri ilə görüş, problemin dərindən tədqiqi belə deməyə əsas verir ki, təhsilin vacib məsələlərindən biri şagirdin müstəqil tədqiqat aparmaq bacarığı, özünü və yaradıcılığını kəşf etməsi, müəllimlə olan düzgün münasibətidir. Ancaq bilik, bacarıq və vərdişlərin formalaşdırılması müstəqil məqsədə çevrilə bilməz. Çünki təkcə bunlar şəxsiyyətin normal inkişafı və formalaşması üçün kifayət etmir. Müasir cəmiyyətdə var olmaq üçün bu bacarıqlar sosiallaşmalı və onlardan istifadə etmək imkanları genişləndirilməlidir. Buradan da göründüyü kimi, keyfiyyətli təhsil elə bir təhsildir ki, onun nəticəsində şagird yüksək intellektə malik, inkişaf etmiş və müstəqil şəxsiyyətə çevrilir. Keyfiyyətli təhsil şəxsi keyfiyyətləri inkişaf etdirən, fərdi potensialı üzə çıxaran təhsildir.

Bu gün ümumtəhsil məktəblərində təhsil prosesi hələ də ənənəvi təhsildə olduğu kimi məlumatların ötürülməsinə və mənimsənilməsinə yönəlib. Bu isə o deməkdir ki, humanist, şəxsiyyətyönümlü, şagirdin potensialını üzə çıxaran təhsil hələ də reallaşmır. Müəllimin bütün gücü öyrənmənin məhsuldarlığını artırmağa yönəlib. Bu zaman şagirdin intellektual bacarıqları, şəxsiyyəti, aktiv dərketməsi bütünlüklə inkişaf etmir.

Belə olduğu təqdirdə təhsilin keyfiyyətinin qiymətləndirilməsi ən çətin pedaqoji problemə çevrilir. Çünki, təhsilin keyfiyyətinin qiymətləndirilməsində əlaçı və zərbəçi şagirdlərin say çoxluğunun meyar kimi qəbulu hələ keyfiyyətli təhsildən xəbər vermir. Buradan da göründüyü kimi bu gün keyfiyyətinin qiymətləndirilməsi üçün istifadə olunan metod və formalar tam obyektiv qiymətləndirmə aparmağa kömək etmir, çünki nəyi qiymətləndirməli olduğumuzu tam bilmirik.

Rus tədqiqatçısı M.M. Potaşnik təhsilin keyfiyyətini məqsədlə nəticə arasındakı əlaqədə görür. Onun fikrincə, məktəbin səmərəli idarə olunması yalnız tam, operativ, etibarlı məlumatlara, dəqiq nəticələrə və təhsilin bütün subyektləri arasında qurulmuş əlaqəyə əsaslandıqda mümkündür [8].

Bu yanaşmadan da aydın olur ki, təhsilin keyfiyyəti təhsilin məqsəd və vəzifələrinə uyğun şəkildə müəyyən olunmuş nailiyyət səviyyəsidir. Təhsildə keyfiyyət meyarları isə əsasən hansı pedaqoji yanaşmanın və hansı təhsil sisteminin əsas götürüldüyündən asılı olaraq dəyişir.

Təhsilin keyfiyyəti ilə əlaqədar aparılmış nəzəri təhlillər nəticəsində deyə bilərik ki, təhsilin keyfiyyəti müasir dövrdə təkcə nəticələrə əsaslanan göstərici deyil, eyni zamanda prosesin səmərəliliyini, iştirakçıların qarşılıqlı əməkdaşlığını və təhsil sisteminin cəmiyyətin dəyişən ehtiyaclarına uyğunlaşma qabiliyyətini əhatə edən kompleks bir anlayışdır. Aparılan təhlillər göstərir ki, təhsilin keyfiyyəti yalnız şagirdin nailiyyətləri ilə deyil, eyni zamanda bu nailiyyətlərə aparan idarəetmə modelləri, pedaqoji yanaşmalar, müəllim və məktəb rəhbərliyinin peşəkarlığı, təhsil mühitinin əlverişliliyi və təlim prosesinin təşkilati mexanizmləri ilə də sıx bağlıdır.

Təhsilin keyfiyyətinin yüksəldilməsi üçün ilk növbədə çevik, iştirakçılığa əsaslanan və lokal ehtiyaclara cavab verən idarəetmə mexanizmlərinin tətbiqi vacibdir. Bütün maraqlı tərəflərin (müəllimlərin, valideynlərin, şagirdlərin və dövlətin) birgə iştirakı təhsil sisteminin dayanıqlı inkişafı üçün əsas şərtdir. Həmçinin, təhsilin keyfiyyətinə yalnız nəticə yönümlü deyil, şəxsiyyətyönümlü və prosesə əsaslanan bir yanaşma zəruridir. Bu baxımdan, şagirdin sosiallaşma bacarığı, tədqiqatçılıq fəaliyyəti, yaradıcılığı və dəyərlərlə zəngin şəxsiyyət kimi formalaşması keyfiyyətli təhsilin əsas göstəricilərindən biri kimi qəbul edilməlidir.

Aparılan təhlillər göstərir ki, təhsilin keyfiyyətinə təsir edən amillər müxtəlif sahələri əhatə edir və kompleks xarakter daşıyır. Bu amilləri aşağıdakı əsas qruplar üzrə təsnif etmək olar:

1. Fizioloji amillər: Bu amillər şagirdlərin fiziki və psixofizioloji vəziyyəti ilə bağlıdır. Sağlamlıq durumu, rifah səviyyəsi, şəxsi gigiyena və təmizlik vərdişləri, fiziki hazırlıq səviyyəsi, yaş və bioloji yetkinlik dərəcəsi kimi faktorlar tədris prosesində iştirakın səmərəliliyinə birbaşa təsir göstərir. Məsələn, zəif fiziki vəziyyətdə olan və ya xroniki xəstəliklərdən əziyyət çəkən şagirdlər dərslərdə tam iştirak edə bilmir, bu isə onların nailiyyətlərinə mənfi təsir edir.

2. Şagirdin şəxsi keyfiyyətləri: Təhsil prosesində fərdi xüsusiyyətlər xüsusi əhəmiyyət kəsb edir. Buraya intellektual səviyyə, məntiqi düşünmə və problem həll etmə bacarığı, diqqət və yaddaşın gücü, ünsiyyət və əməkdaşlıq bacarığı, motivasiya, məsuliyyət, nizam-intizam, emosional dayanıqlılıq kimi keyfiyyətlər daxildir. Bu xüsusiyyətlər şagirdin öyrənməyə münasibətini və nəticədə əldə etdiyi bilik səviyyəsini müəyyən edir.

3. Məktəbdaxili amillər: Təhsilin keyfiyyətinə təsir edən mühüm amillərdən biri də məktəbdaxili pedaqoji və təşkilati mühitdir. Bu mühit – müəllimlərin peşə hazırlığı və metodik bacarıqları, idarəetmənin səmərəliliyi və çevikliyi, maddi-texniki bazanın səviyyəsi, təlim metodlarının müasirliyi və uyğunluğu, qiymətləndirmə sisteminin ədalətliliyi və inkişafyönümlülüyü, məktəbdaxili münasibətlərdə qarşılıqlı hörmət və əməkdaşlıq, psixoloji mühit və təhlükəsizlik şəraiti kimi əsas komponentlərdən ibarətdir. Məktəbdaxili pedaqoji və təşkilati mühitin bu komponenetləri birbaşa təhsil prosesinə təsir göstərir və ümumilikdə təhsilin keyfiyyətini formalaşdırır.

4. Xarici amillər: Bu amillər şagirdin yaşadığı sosial və mədəni mühitlə, həmçinin makrosəviyyədə baş verən ictimai proseslərlə bağlıdır. Təhsildən kənar xarici təsirlər, ailə mühiti, siyasi və iqtisadi vəziyyət, mədəni dəyərlər, dini və etnik amillər, həmçinin ümumilikdə cəmiyyətin təhsilə münasibəti bu qrupa aiddir. Məsələn, ailədə təhsilə önəm verilməsi və ya cəmiyyətin elmə münasibəti şagirdin motivasiyasına ciddi təsir göstərə bilər.

Buradan da göründüyü kimi, təhsilin keyfiyyəti yalnız məktəbdaxili proseslərlə deyil, eyni zamanda şagirdin fərdi xüsusiyyətləri və ətraf mühit faktorları ilə də sıx bağlıdır. Bu səbəbdən təhsil siyasəti hazırlanarkən və məktəb mühiti təşkil edilərkən bu amillərin hər biri nəzərə alınmalı, onların balanslı şəkildə inkişafı üçün şərait yaradılmalıdır.

Beləliklə, təhsilin keyfiyyəti bir məqsəd deyil, davamlı inkişafa yönəlmiş çoxistiqamətli bir prosesdir. Bu prosesin səmərəli həyata keçirilməsi isə təhsilə sistemli yanaşma, elmi əsaslandırılmış idarəetmə, peşəkar pedaqoji kollektiv və şagirdin mərkəzdə olduğu təhsil fəlsəfəsini tələb edir.

Problemin aktuallığı. Təhsilin keyfiyyətinin təmin edilməsi hər zaman təhsil siyasətinin əsas prioritetlərindən biri olmuşdur və bu məsələ bu gün də öz elmi-pedaqoji və sosial aktuallığını saxlayır.

Problemin yeniliyi. İlk dəfə olaraq təhsilin keyfiyyəti maraqlı tərəflərin baxış bucağından kompleks və sistemli şəkildə təhlil olunur.

Problemin praktik əhəmiyyəti. Məqalə doktorantlar, dissertantlar, magistrantlar və məktəb rəhbərləri üçün faydalı metodik baza rolunu oynaya bilər.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2009-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. https://e-qanun.az/framework/18343
2. Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası". https://president.az/az/articles/view/9779
3. İsaxanlı H.A. Təhsildə keyfiyyət konsepsiyası və Amerika təcrübəsi. https://hisaxanli.org/wp-content/uploads/2024/02/tehsildekeyfiyyetkonsepsiyasi.pdf
4. Mehrabov A.O. Azərbaycan Təhsilin müasir problemləri. Bakı, Mütərcim, 2007, 448 səh.
5. Mehrabov A.O., Cavadov İ.A. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı, Mütərcim, 2007, 189 səh.
6. Javadov, Ilham. (2024). BASİC FACTORS AFFECTİNG THE QUALİTY OF GENERAL EDUCATİON. Ижтимоий-гуманитар фанларнинг долзарб муаммолари / Актуальные проблемы

социально-гуманитарных наук / Actual Problems of Humanities and Social Sciences.7. 290-296. DOI:10.58224/2618-7175-2024-7-290-296
7. Javadov, Ilham. (2025). THE IMPACT OF THE USE OF INNOVATIVE TECHNOLOGIES ON THE MANAGEMENT OF EDUCATION QUALITY IN COMPREHENSIVE SCHOOLS. Ижтимоий-гуманитар фанларнинг долзарб муаммолари / Актуальные проблемы социально-гуманитарных наук / Actual Problems of Humanities and Social Sciences. 4. 164-169.
8. Поташник М.М. Управление качеством образования. М.: Педагогическое общество России, 2001, 448 с.

Redaksiyaya daxil olub: 04.07.2025

UOT 37.01.

Lamiyə İlqar qızı Hacıyeva,
Gəncə Dövlət Universitetinin
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0004-1527-8600
E-mail: lhajiyeva92@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(4).32-35

ƏSAS SƏRİŞTƏLƏR VƏ ONLARIN QRUPLAŞDIRILMASI

Lamiya Ilgar Hajiyeva,
doctoral student in the program of doctor of philosophy of Ganja State University

KEY COMPETENCES AND THEIR GROUPING

Ламия Ильгар гызы Гаджиева,
докторант по программе доктора философии Гянджинского Государственного Университета

КЛЮЧЕВЫЕ КОМПЕТЕНЦИИ И ИХ ГРУППИРОВАНИЕ

Xülasə. Məqalədə göstərilir ki, dünyada əsas sərişt ələrin vahid razılaşdırılmış siyahısı yoxdur. Sərişt ələr - ilk növbədə, vətəndaşların hazırlanması üçün cəmiyyətin sifarişindən irəli gəlir. Müasir sərişt ələr İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının, həmçinin Avropa Şurasının keçirdiyi beynəlxalq simpoziumlarda müəyyən edilmiş və qarşılıqlı razılaşmalar yolu ilə qəbul olunmuşdur. Bu sərişt ələr əsasən aşağıdakılardan ibarətdir: öyrənmək, axtarmaq, fikirləşmək, əməkdaşlıq etmək, işə başlamaq, adaptasiya olunmaq bacarıqları. Azərbaycan üçün Rusiya və Avropa təhsil tendensiyaları hər zaman əhəmiyyətli olmuşdur. Bununla yanaşı Azərbaycan başqalarından fərqli olaraq "şəxsi" konsepsiyasından əl çəkmir və tərəfdarları bunu milli ənənələrin səciyyəviliyi ilə əlaqələndirirlər.
Açar sözlər: *sərişt ələr, intellektual fəaliyyət, sərişt ələrin Avropa variantı, təhsil sərişt ələri, sərişt ələr qrupu*

Abstract. The article shows that there is no single agreed list of key competencies in the world. Competencies, first of all, come from the public demand for the preparation of citizens. Modern competencies were defined at international symposia held by the Organization for Economic Cooperation and Development, as well as the Council of Europe, and were adopted on the basis of mutual agreements. These competencies mainly consist of the following: learning skills, search, thinking, cooperation, initiation of activities, adaptation. Russian and European educational trends have always been important for Azerbaijan. At the same time, Azerbaijan, unlike others, does not abandon the concept of a "personal approach", the supporters of which associate it with the peculiarities of national traditions.
Key words: *competencies, intellectual activity, European version of competencies, educational competencies, group of competencies*

Аннотация. В статье показано, что в мире нет единого согласованного перечня ключевых компетенций. Компетенции, в первую очередь, исходят из общественного запроса на подготовку граждан. Современные компетенции были определены на международных симпозиумах, проводимых Организацией Экономического Сотрудничества и Развития, а также Советом Европы, и были приняты на основе взаимных соглашений. Эти компетенции в основном состоят из следующих: навыки обучения, поиска, мышления, сотрудничества, начала деятельности, адаптации. Российские и европейские образовательные тренды всегда были важны для Азербайджана. При этом Азербайджан, в отличие от других, не отказывается от концепции «личностного подхода», сторонники которого связывают его с особенностями национальных традиций.
Ключевые слова: *компетенции, интеллектуальная деятельность, европейский вариант компетенций, образовательные компетенции, группа компетенций*

Aparılmış genişmiqyaslı araşdırmanın sayəsində məlum olur ki, dünyada əsas sərişt ələrin vahid razılaşdırılmış siyahısı yoxdur. Sərişt ələr - ilk növbədə, vətəndaşların hazırlanması üçün

cəmiyyətin sifarişindən irəli gəldiyi üçün, belə bir siyahı əsasən müəyyən bir ölkədə və ya bölgədə cəmiyyətin razılaşdırılmış mövqeyi ilə müəyyən edilir. Belə bir razılaşma əldə etmək isə hər zaman mümkün olmur. Məsələn, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı və İsveçrə və ABŞ-ın Milli Təhsil Statistika İnstitutları tərəfindən həyata keçirilən "Əsas səriştələrin müəyyənləşdirilməsi və seçilməsi" adlı beynəlxalq layihəsinin gedişində əsas səriştələrin ciddi tərifi hazırlanmamışdır [1, s. 48]. Avropa Şurasının "Avropa üçün əsas səriştələr" mövzusu üzrə simpoziumu zamanı əsas səriştələrin aşağıdakı ilkin siyahısı müəyyən edilmişdir.

Əsas səriştələr üzrə Avropa variantı:

- öyrənmək: öz bilikləri arasında əlaqələr yaradaraq, onları nizamlamaq; şəxsi öyrənmə üsulları hazırlamaq; öz təlimi ilə müstəqil məşğul olmaq; təcrübədən yararlana bilmək; problemi həll etmək bacarığı;

- axtarmaq: müxtəlif məlumat bazalarını sorğulamaq; ekspertdən məsləhət almaq; ətrafdakılarla sorğu aparmaq; informasiya əldə etmək; sənədlərlə işləmək və onları təsnif etmək bacarığı.

- fikirləşmək: cəmiyyətin inkişaf aspektinə bu və ya digər dərəcədə tənqidi yanaşmaq; keçmiş və müasir hadisələr arasında əlaqələr yaratmaq; cətinliklərə dözməyi bacarmaq; təlim və iş şəraitində siyasət və iqtisadiyyatın vacibliyini görmək; diskussiya zamanı öz mövqeyini qoruyub, fikrini yürütməyi bacarmaq.

- əməkdaşlıq etmək: qrupda işləmək və əməkdaşlıq etmək bacarığı; qərarlar qəbul etmək-münaqişələr və fikir ayrılıqlarını həll etmək; razılaşma əldə etmək bacarığı; müqavilə hazırlamaq və bağlamaq bacarığı;

- işə başlamaq: layihəyə qoşulmaq; məsuliyyət daşımaq; kollektivə və ya qrupa qoşulmaq, ona töhfələr vermək; həmrəylik nümayiş etdirmək; öz işini təşkil etmək bacarığı; hesablayıcı və modelləşdirmə vasitələrindən istifadə bacarığı;

- adaptasiya olunmaq: yeni informasiya və kommunikasiya texnologiyalarından istifadə etmək bacarığı; sürətli dəyişikliklər qarşısında çeviklik göstərmək; çətinliklər qarşısında dözümlülük nümayiş etdirmək; yeni həll yolları axtarıb tapmaq bacarığı.

Azərbaycan üçün Rusiya və Avropa təhsil tendensiyaları hər zaman əhəmiyyətli olmuşdur. Bununla yanaşı Azərbaycan başqalarından fərqli olaraq "şəxsi" konsepsiyasından əl çəkmir və tərəfdarları bunu milli ənənələrin spesifikliyi ilə əlaqələndirirlər. Lakin ölkəmiz təhsilin inkişafındakı ümumi proses və tendensiyalardan kənarda qala bilməz və qalmamalıdır. Bu mənada təhsildə səriştələrin gücləndirilməsi tendensiyası istisna ola bilməz. Sözsüz ki, yuxarıda sadalanan əsas səriştələri konkretləşdirərkən mövcud vəziyyəti nəzərə almaq lazımdır. Aşağıda qeyd olunan əsas şəriştələr ümumi təhsilin məqsədinə, şəxsiyyətin sosial təcrübəsinin strukturuna, habelə müasir cəmiyyətdə həyati və praktiki fəaliyyət vərdişləri, sosial təcrübə əldə etməyə imkan verən şagird fəaliyyətinin əsas növlərinə əsaslanır. Bu mövqelərə və aparılan tədqiqatlara əsaslanaraq aşağıda qeyd olunan əsas səriştələr qrupunu müəyyən etmək olar:

- vacib konseptual səriştələr. Bu şagirdin önəm verdiyi dəyərlərlə, yaşadığı mühitə münasibətlə, orada öz rolu və vəzifələrini dərk etmək, məqsədyönlü hərəkət və addımlar müəyyən etmək üçün qərarlar qəbul etmək bacarıqları ilə şərtlənir. Mövcud səriştələr tədris prosesi və digər fəaliyyət növləri zamanı şagirdin özünüdərk etmə mexanizmlərini təmin edir. Şagirdin şəxsi təhsil yolu və bütövlükdə həyat fəaliyyəti proqramı məhz onlardan asılıdır.

- ictimai-mədəni səriştələr: Milli və ümumbəşəri mədəniyyət sahəsinə dair əldə olunmuş bilik və təcrübələr; bəşəriyyətin, ayı-ayrı xalqların və insan həyatının mənəvi-əxlaqi əsasları; ictimai-sosial hadisə və ənənələrin, ailənin mədəni əsasları; insan həyatında elmin və dinin rolu; məişət və mədəni istirahət sahələrində səriştələr, məsələn, asudə vaxtın səmərəli təşkilinin üsullarına yiyələnmək də bura aiddir. Bura həm də dünyanın qlobal və mədəni problemlərinin dərk olunmasına qədər şagirdin dünya mənzərəsini dərk etməsi üzrə təcrübəsi də daxildir.

- tədris-idrakı səriştələr. Bu ümumi tədris, metodoloji, məntiqi fəaliyyətin elementlərini özündə birləşdirən müstəqil idrak fəaliyyəti sahəsində şagirdlərin səriştələrinin məcmusudur. Bura məqsədəmüvafiqlik, planlaşdırma, analiz, refleksiya, özünüqiymətləndirmə işinin təşkili üzrə üsullar daxildir. Öyrənilən obyektə münasibətdə şagird bilavasitə ətraf reallıqlarla bağlı biliklər əldə edir, qeyri-adi situasiyalarda tədris-idraki problem və hadisələrlə bağlı texnikaya yiyələnmək kimi kreativ vərdişlər qaza-

nır. Bu sərişlər çərçivəsində funksional bacarığa (məktəbdə əldə edilmiş biliklərin şagirdin həyatda tətbiq etmək bacarığı) verilən tələblər müəyyən olunur: mücərrəd və konkret olanları fərqləndirmək bacarığı, ehtimal etmək, statistiklik və digər idraki metodlardan istifadə etməklə ölçmə bacarıqlarına yiyələnmək;

- informasiya sərişləri. Bura tədris fənləri, təhsil sahələri, həmçinin ətraf mühitlə bağlı informasiyalar üzrə fəaliyyət sərişləri, müasir informasiya vasitələri (telefon, televizor, maqnitofon, faks, kompüter, printer, modem və s.) və informasiya texnologiyalarına yiyələnmək (auidio-video yazılışı, elektron ünvan, SMİ, internet) kimi şərişlər də daxildir.

- kommunikativ sərişlər. Bu şərişlər müxtəlif dilləri bilmək, ətraf aləmlə, insanlarla ünsiyyət yaratmaq, keçmiş hadisələri araşdırmaq; müxtəlif sosial rollara yiyələnmək, kollektivdə, qrupda işləmək vərdişlərini əhatə edir. Şagird özünü təqdim etməyi, məktub, ərizə yazmağı, anket doldurmağı, sual verməyi, diskussiya aparmağı və s. bacarmalıdır. Bu sərişləri mənimsəmək üçün təhsilin istənilən pilləsində (tədris prosesi zamanı öyrənilən hər bir fənn çərçivəsində) şagirdlər üçün zəruri və kifayət qədər real olan ünsiyyət obyektləri və onlarla işləmək üsulları qeydə alınır.

- sosial-əmək sərişləri. Bura, vətəndaş, müşahidəçi, seçici, təmsilçi, istehlakçı, tələbatçı, istehsalçı, ailə üzvü kimi öz rolunu icra etmək sərişlərini, həmçinin hüquqi və iqtisadiyyat məsələləri ilə bağlı öz hüquqlarını bilmək və vəzifələrini peşəkarcasına həll etmək bacarıqlarını aid etmək olar. Bu sərişlərə, eyni zamanda, əmək bazarındakı vəziyyəti təhlil etmək, şəxsi və sosial mənfəətlərə uyğun hərəkət etmək, əmək və mülki münasibətlər etikasına malik olmaq kimi bacarıqlar da daxildir.

- şəxsi özünütəkmilləşdirmə sərişləri fiziki, mənəvi və intellektual cəhətdən özünü inkişafetdirməyə, emosional özünütənzimləmə və özünədəstək üsullarını mənimsəməyə yönəldilmişdir. Şagirdlər öz maraqlarına və imkanlarına uyğun fəaliyyət metodlarına yiyələnirlər ki, bu da onların davamlı özünü dərk etmək prosesində, müasir insan üçün zəruri olan şəxsi keyfiyyətlərin inkişafında, psixoloji savad, təfəkkür və davranış mədəniyyətinin forma-laşmasında ifadə olunur. Bu sərişlərə şəxsi gigiyena qaydaları, öz sağlamlığına qayğı, cinsi savad, daxili ekoloji mədəniyyət və təhlükəsiz həyat tərzi üsulları daxildir. Beləliklə, əsas sərişlərin rolu cəmiyyətin özü tərəfindən diktə olunur və təhsilə dair müasir normativ sənədlərdə qeyd olunur.

Müxtəlif yanaşmalar çərçivəsində hazırlanmış uşaq idraki inkişafının əsas və eksperimental cəhətdən əsaslandırılmış nəzəriyyələrinə baxaq. Bu sahədə toplanmış elmi materialları nizama salmaq üçün biz idraki inkişafın təbiətinin şərhindəki hər biri müəyyən konseptual xətt ilə xarakterizə olunan bir neçə əsas yanaşmanı vurğulayacayıq:

1) genetik yanaşma (K. Bertalanfi, J. Piaje, Q. Ayzenk);

2) sosio-mədəni yanaşma (A. Bandura, L.S. Vıqotski, A.P. Luriya, A.V. Zaparojeç və b.);

3) prosessual-fəaliyyət yanaşması (A.V. Bruşlinskiy, L.A. Venqer, P.Y. Qalperin, A.N. Leyontiyev, S.L. Rubinşteyn, N.F. Talızina və b.);

4) təhsilləndirici yanaşma (D.B. Boqayavlenskaya, Z.İ. Kalmıkova, E.H. Kabanova-Meller və b.);

5) struktur səviyyəli yanaşma (B.Q. Ananyev və b.)

İsveçrə psixoloqu və "genetik epistemologiya"nın banisi J. Piaje tərəfindən hazırlanmış konsepsiya uşaqların təfəkkürünün inkişafı prosesinin dərk edilməsinə böyük təsir göstərmişdir. Onun fikrincə, intellektin inkişafı praktik fəaliyyət prosesində uşağın müxtəlif əşyalarla əlaqəsi zamanı baş verir. Uşağın zahiri fəallığı əvvəlcə ətraflı və ardıcıl baş verir. Müxtəlif situasiyalarda təkrarlar vasitəsilə hərəkətlər sxematikləşir və simvolik vasitələrin (imitasiya, oyun, nitq və s.) köməyi ilə daxili müstəviyə keçərək idraki (zehni) əməliyyatlara çevrilir. Bu nəzəriyyəyə görə, əməliyyat "daxili hərəkətdir", xarici obyektiv hərəkətin yenilənməsinin, interyerləşdirilməsinin məhsuludur, digər hərəkətlərlə vahid bir sistemə uyğunlaşdırılır, əsas xüsusiyyəti isə geri çevrilmədir (hər bir əməliyyat üçün simmetriklik və əks əməliyyat xasdır). J. Piaje [5] uşağın intellektual inkişafının dörd mərhələsini müəyyən edir:

1. Zehni inkişaf səviyyəsinin sensomotor mərhələsi. Bu mərhələ uşaq anadan olandan 2 yaşa qədər olan bir dövrü əhatə edir və uşağın ətraf aləmi dərk edib, qavraması bacarığı ilə xarakterizə olunur.

2. Əməli təfəkkür mərhələsi. 2-7 yaşı əhatə edir və bu mərhələdə uşağın nitqi yaranır, onda əyani təsəvvürlər formalaşır.

3. Əşyalarla aparılan konkret əməliyyatlar mərhələsi. Bu mərhələ 7-8 yaşdan 11-12 yaşa qədər uşaqlar üçün xarakterikdir.

4. Mücərrəd əməliyyatlar mərhələsi. Bu mərhələ isə 11-12 yaşdan 14-15 yaşa qədər uşaqları əhatə edir. Bu mərhələdə uşaqlar məntiqi mühakimələr yürüdərək, zehni əməliyyatlar yerinə yetirirlər.

C. Qilforda görə, [3] intellektual inkişaf aşağı mərhələdən daha yüksək mərhələyə keçiddir. İnkişafın əvvəlki mərhələsi həmişə sonrakı mərhələni hazırlayır. Beləliklə, konkret əməliyyatlar mücərrəd əməliyyatlar üçün əsas rol oynayır və onların bir hissəsini təşkil edir. İnkişaf zamanı sadəcə aşağı pillənin daha yüksək səviyyə ilə əvəz olunması deyil, daha əvvəl formalaşmış strukturların daha yüksək səviyyədə inteqrasiyasının baş verməsidir. Bu halda əvvəlki mərhələ yenidən qurulur və daha mürəkkəb intellektual təhsilin tərkib hissəsinə çevrilir [3, s.123-126].

J. Piajenin interiorizasiya (fransızca interiorisation - xaricdən içə keçmə, latınca – daxili mənalarını verir) nəzəriyyəsi sonrakı inkişafını fərqli şəkildə L.S. Vıqotskinin mədəni-tarixi inkişaf nəzəriyyəsində tapmışdır [2]. Onun fikrincə uşağın intellektual inkişafının spesifikliyi ondan ibarətdir ki, o, ictimai-tarixi qanunlarının təsirinə tabedir və tarixən insanlar tərəfindən hazırlanmış iş forma və üsullarının uşaqlar tərəfindən mənimsəməsi yolu ilə həyata keçirilir. L.S. Vıqotski yazırdı: "Bütün ali psixi funksiyalar sosial nizamın daxili əlaqələridir. Onların tərkibi, genetik quruluşu, fəaliyyət tərzi - bir sözlə, bütün təbiəti sosialdır... psixi proseslərə çevrildikdə belə, kvazisosial olaraq qalır"[2, s.146].

Problemin aktuallığı. Araşdırmamızla kiçikyaşlı məktəblilərin intellektual və yaradıcı səriştələrinin inkişafı prosesinin təkmilləşdirilməsi zərurəti ilə bu prosesin təşkili üçün şəraitin kifayət qədər nəzəri və metodik inkişafı arasında müasir təhsilin xarakterik ziddiyyətini müəyyən etmiş olduq. Müəyyən edilmiş ziddiyyət tədqiqatın aktuallığını söyləməyə imkan verdi

Problemin elmi yeniliyi. Kiçikyaşlı məktəblilərin intellektual və yaradıcı səriştələrinin xüsusiyyətləri, o cümlədən təqlid yolu ilə mənimsənilən evristik zehni hərəkətləri yerinə yetirmək qabiliyyəti və hazırlığı, müstəqil düşünmə, təhsil tapşırıqlarının dərk edilməsinin orijinallığı ibtidai sinif şagirdlərinin inteqrasiya olunmuş tədris və tədrisdənkənar fəaliyyətlərinin tədris və yaradıcı fəaliyyətə çevrilməsini təmin edir.

Problemin praktiki əhəmiyyəti kiçikyaşlı məktəblilərin intellektual və yaradıcı səriştələrinin formalaşması üçün hazırlanmış innovativ texnologiyanın təhsil praktikasına tətbiqi, müasir məktəbdə uşaqların təliminin səmərəliliyi üçün pedaqoji şərtlərin aşkar edilməsi ilə müəyyən edilir.

Ədəbiyyat

1. Əliyev, R.İ. Humanist psixologiya / R.İ. Əliyev. – Bakı: ADPU-nun nəşriyyatı, – 2023. – 197 s.
2. Выготский Л.С. Мышление и речь / Л.С. Выготский // Собр. соч. – М.: Педагогика, 1982. т. 2. – 342 с.
3. Гилфорд, Дж. Структурная модель интеллекта /Дж. Гилфорд // Психология мышления. – М.: Прогресс, 2015. – 244 с.
4. Зак А.З. Интеллектика. Систематический курс развития мыслительных способностей учащихся 1-4 классов: книга для учителя /А.З. Зак. – М.: Интеллект-Центр, 2005. – 408 с.
5. Пиаже Ж. Психология интеллекта /Ж. Пиаже// Пиаже Ж. Избр. произв. – М.: Междунар. Пед. Академия, 2004. – 680 с.

Redaksiyaya daxil olub: 10.06.2025

UOT 378:371.3

Арзу Расим гызы Меликова-Искендерзаде,
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики
преподаватель Азербайджанского Университета Языков
https://orcid.org/0009-0003-8108-644X
E-mail: arzu_melikova_1992@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(4).36-40

ФОРМИРОВАНИЕ ПРОЕКТНОЙ КУЛЬТУРЫ СТУДЕНТОВ

Arzu Rasim qızı Məlikova-İsgəndərzadə,
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə doktorantı
Azərbaycan Dillər Universitetinin müəllimi

TƏLƏBƏLƏRİN LAYİHƏ MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASI

Arzu Rasim Malikova-Isgandarzada,
doctoral student in the program of doctor of philosophy at the
Institute of Education of the Republic of Azerbaijan
teacher at the Azerbaijan University of Languages

FORMATION OF PROJECT CULTURE OF STUDENTS

Аннотация. В статье рассматривается вопрос формирования проектной культуры студентов, анализируется понятие «проектная культура», выделяются ее составные элементы, показаны методологические подходы к формированию проектной культуры студентов, а также обозначены направления деятельности по ее формированию.
Ключевые слова: *проектная культура студентов, процесс формирования проектной культуры, методологические подходы, компоненты, направления, составные элементы*

Xülasə. Məqalədə tələbələrin layihə mədəniyyətinin formalaşdırılması məsələsi araşdırılır, “layihə mədəniyyəti” anlayışı təhlil edilir, onun tərkib elementləri vurğulanır, tələbələrin layihə mədəniyyətinin formalaşdırılmasına metodik yanaşmalar göstərilir və layihə mədəniyyətinin formalaşdırılması üçün fəaliyyət istiqamətləri göstərilir.
Açar sözlər: *tələbələrin layihə mədəniyyəti, layihə mədəniyyətinin formalaşması prosesi, metodoloji yanaşmalar, komponentlər, istiqamətlər, tərkib elementləri*

Abstract. The article discusses the issue of forming a project culture of students, analyzes the concept of "project culture," identifies its component elements, shows methodological approaches to the formation of a project culture of students, outlines the areas of activity for the formation of a project culture of students.
Key words: *project culture of students, the process of project culture formation, methodological approaches, components, directions, components*

Современное общество Азербайджана, характеризующееся постоянным движением, изменчивостью, требует формирования и доминирования нового типа культуры – проектной, позволяющей студенту идти с цифровым временем, быстро реагировать на социальные изменения. Потому что на сегодняшний день особенно значимым становится поиск новых подходов к подготовке специалистов, обладающих не только про-

фессиональными, но и общекультурными компетенциями. В связи с этим перед отечественными высшими учебными заведениями стоит стратегическая задача по реализации доступности качественного высшего образования, соответствующего требованиям инновационного развития экономики, современным потребностям общества и каждого студента, формирования его проектной культуры в сфере его профессиональной подготовки.

Проектная культура – это, прежде всего, воспитание личности, способной проектировать личную жизнь на основе разработки и реализации других личностно-значимых проектов: технических, научных, социальных. Потому проектная культура выступает базовой характеристикой личности. При этом Д.А. Крылов [2] отмечает, что она отражает классификацию проектных технологий и автономность проектирования как вида деятельности. Перспективы обновления образовательного пространства делают настоятельной задачу подготовки профессионала, способного к проектированию собственной деятельности в различных социокультурных ситуациях, готового находить пути решения возникающих проблем, вырабатывать особую стратегию профессионального мышления, поведения и деятельности.

В настоящее время в современном образовании формирование и становление культуры личности, ее ценностно-смысловое определение выделяются в качестве одного из основных приоритетов: образование выступает как сложный культурный процесс развития и саморазвития студентов, как культурная деятельность субъектов, неоднородное культурное пространство взаимодействия сферы образования и других социальных сфер, прежде всего – культуры. Итак, проектирование становится определяющей стилевой чертой сознания и бытия студентов во всех сферах их жизнедеятельности, являясь условием развития их творческих способностей.

Отметим, что в научном аппарате общей педагогики на основе анализа иерархии понятийных связей между терминологическими единицами: «культура», «культура личности», «культура деятельности», «культура проектной деятельности», «проектная культура студентов», «проектная культура специалиста» проектная культура студентов определена как самостоятельное понятие. Потому что в современном обществе, развитие которого характеризуется необычайной подвижностью, изменчивостью, проектный тип культуры начинает доминировать, прослеживается соединение технократического и гуманного, исследовательского и прогностического, информационно-образовательного и социально-преобразовательного начал, а это приводит к тому, что каждому студенту необходимо овладеть проектной деятельностью в ее различных вариантах.

Следовательно, формирование проектной культуры – это эффективное творческое развитие студента, сформированность его коммуникативных и организаторских способностей, информационных умений, субъектной позиции, ценностно-эстетического отношения к среде жизнедеятельности, повышение качества профессиональной подготовки и, повышение уровня его проектной культуры. Следует, что процесс формирования проектной культуры осуществляется посредством самостоятельной работы студентов, которая проходит индивидуально или группами, в зависимости от цели, объема и выбранной тематики проекта, уровня сложности и уровня умений студентов. Формирование проектной культуры студентов встраивается в учебно-воспитательный процесс вуза как необходимый элемент в системе подготовки конкурентоспособного специалиста.

Обзор научно-педагогической литературы показывает, что в научную речевую практику понятие «проектная культура» в сочетании с субъектами-студентами высших школ вошло с появлением устойчивого интереса к различным видам проектирования: технического, педагогического, дизайнерского. Теоретики и практики в научно-педагогической среде проектную культуру студентов рассматривают как одно из значимых условий развития образовательной политики.

Основанием процесса формирования проектной культуры является субъектная позиция студента, которая подразумевает личностную значимость для студента процесса и

результатов проектирования, его творческую активность в проектной деятельности.

Структура проектной культуры содержит следующие компоненты: аксиологический, проектно-деятельностный, личностно-творческий, которые позволяют установить ее составные элементы: мировосприятие, когнитивность, мастерство, поведение, психологическую готовность.

Компонент «мировосприятие» связан с отношением студентов к процессу проектирования вообще, с оценкой результатов проектной деятельности. В этот компонент входит способности личности, которые активизируют ее природные дарования, необходимые в процессе проектной деятельности, а также интерес студентов к творческому проектированию.

Компонент «когнитивность» представляет комплекс всевозможных знаний студентов из его проектной деятельности, помогающие ему определить этапы и пути воплощения в жизнь идею проектной деятельности.

Компонент «мастерство» характеризуется владением студентами технологиями и техниками, методами и средствами проектной деятельности. Это компонент представляет собой систему аналитических, прогностических, эвристических, технологических, проективных, реализационных, контрольных, коррекционных и коммуникативных умений. Наличие у студента данного комплекса умений говорит о его функциональной готовности к проектной деятельности.

Компонент «взаимодействие» складывается из системы эстетических, технологических, экономических, экологических норм и правил, тесно связан с процессом творчества, индивидуальным и групповым. Поведение складывается из сложившегося образа проектного взаимодействия личности с окружающей средой.

Компонент «психологическая готовность» с учетом соблюдения основных принципов проектной деятельности (функционализма и минимализма) мобилизует ресурсов личности студента на выполнение проектной деятельности, его готовность находить и использовать нестандартные технологии и методы решения задач проектирования в учебном процессе.

Формирование проектной культуры студентов осуществляется в трех направлениях:

1) Предметное направление – это основное направление формирования проектной культуры студентов, реализуемое в учебном процессе по всем дисциплинам учебного плана. Это направление позволяет студентам освоить основы наук, что служит базой для их профессиональных знаний и умений по проектированию. Базовыми формами осуществления формирования проектной культуры студентов в предметном направлении являются лекции, семинары, практические и лабораторные занятия. Различного рода задания на проектирование, всевозможные упражнения, игры, проводимые во время занятий по дисциплинам, курсовые проекты по дисциплинам и направлениям позволяют достичь обозначенной цели.

2) Метапредметное направление обобщает разрозненные представления разных наук (в рамках учебных дисциплин). Задачами дисциплин является обобщение этих представлений в единое целое, тем самым определяя суть, этапы проектирования в целом.

3) Ситуационное направление ориентировано на формирование проектной культуры в ходе проектных ситуаций, требующих от студентов быстрого творческого и оригинального решения, возникающих каждый день случайно как в учебное, так и внеучебное время. Решение студентами ситуационных задач способствует приобретению ими самостоятельного личностного опыта проектирования.

Анализ структуры проектной культуры, направлений ее формирования у студентов позволяет определить этапы формирования проектной культуры как условия эффективности в этом направлении.

Первый этап − эмоционально-когнитивный, который складывается из системности знаний студентов в области проектирования, позитивного эмоционального восприятия проектной деятельности. Второй этап − деятельностно-практический, который включает навыки проектных работ студентов. Третий этап − мотивационно-ценностный, который представлен интересом и мотивацией к проектной деятельности студентов.

Основными стратегическими ориентирами в проектировании и формировании проектной культуры студентов являются следующие методологические подходы:

- культурологический, обосновывающий содержание, как набора видов социокультурного опыта, освоение которых обеспечивает готовность студента к вхождению в современный мир культуры и социум;

- деятельностный, актуализирующийся в различных видах профессиональной деятельности в процессе формирования целостной личности студента, обладающей высоким уровнем проектной культуры;

- системный, заключающийся в рассмотрении процесса формирования проектной культуры с позиций целостной системы составляющих ее компонентов в многообразии их связей и отношений;

- компетентностный, определяющий цели и результаты образовательного процесса в виде компетенций будущего специалиста;

- личностно-ориентированный, при котором личность рассматривается как ценностное ядро системы образования, как внутренний источник активности индивида, осуществляющий познание окружающего мира посредством рефлексии.

- культурологический подход позволяет рассматривать различные аспекты сущности человека как субъекта культуры – сознание, самосознание, духовность, нравственность, творчество как грани целостного культурного человека.

- структурно-функциональный подход используется для обоснования структуры феномена проектной культуры и определения его функций. С помощью данного подхода определяется состав компонентов модели, сущность и особенности становления каждого из них.

- аксиологический подход позволяет изучать явление формирования проектной культуры через исследование закономерностей процесса присвоения общечеловеческих ценностей.

- синергетический подход применим при характеристике социально - педагогического пространства, в котором происходит становление исследуемого феномена.

Резюмируя методологические подходы к процессу формирования проектной культуры студента следует, что личностно-проектная культура студента раскрывается в процессе его самореализации, в само становлении и раскрытии им всех своих индивидуальных потенций как фактор его творческого характера проектной деятельности.

Вывод. Обобщая содержание вышеизложенное, можно сформулировать научно-теоретический вывод о том, что процесс формирования проектной культуры студентов характеризуется следующими особенностями, а именно проектная культура студента: составляет часть его профессиональной культуры; постоянно связана с его активной деятельностью, в которой он планирует, изобретает, прогнозирует и т.д.; отображает специфическую характеристику его личности, определяет ее способность и возможность к осуществлению профессиональной деятельности; представляет собой систему жизненных ценностей, разрешающую ему ориентироваться в пространстве проектной деятельности, выявлять актуальные приоритеты, соответственно специалисту цифрового образования.

Актуальность статьи. На современном этапе одним из условий модернизации системы высшего образования Азербайджана является вовлеченность студентов в социально значимую проектную деятельность с целью формирования их проектной культуры, в которой субъектная позиция студента выступает как качество личности, характеризующего конкурентоспособного выпускника высшей школы в будущем высококвалифицированного специалиста в соответствие с новыми требованиями мирового уровня.

Научная новизна статьи. Научная новизна в целом подтверждается новым направлением для отечественной педагогики, в которой проектная культура студентов рассматривается как вопрос складывания исследовательского взгляда на процесс формирования проектной культуры студентов и результатов успеха собственного проектирования.

Практическая значимость статьи. Материалы по формированию проектной культуры студентов могут быть использованы как полезный педагогический материал в образовательной практике в сфере учебно-воспитательного процесса высших учебных заведений.

Литература:

1. Гнездюкова, А.А. Формирование проектной культуры студентов в образовательном пространстве вуза. / А.А. Гнездюкова, Д.Е. Зеленина. - Москва: Успехи современного естествознания, - 2013. - 23-26 с.
2. Крылов, Д.А. Модель формирования проектной культуры будущего педагога в условиях современного вуза / Д.А. Крылов. - Москва: Вестник, - 2015. - 31-36 с.
3. Кирьякова А.В. Теория ориентации личности в мире ценностей // - Ориенбург: Шаг в науку, – 1996. №1, - с. 187.
4. Сластенин, В.А. Формирование профессиональной культуры учителя / В.А. Сластенин. - Москва: Просвещение, - 1993. - 175 с.
5. Стенина, Т.Д. Становление проектной культуры студентов / Т.Д. Стенина. - Ульяновск: УЛГТУ, - 2011. - 228, 243 с.
6. Abbasov, A.N. Milli əxlaq və ailə etikası: Orta ixtisas məktəbləri üçün dərslik / A.N. Abbasov. - Bakı: Mütərcim, - 2013. - 324 s.

Redaksiyaya daxil olub: 22.05.2025

UOT 378

Ramilə Babək qızı İsmayılxanova,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Ümumi pedaqogika kafedrasının müəllimi
https://orcid.orq/0009-0007-6566-4499
E-mail: devinismayilxanova@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(4).41-44

AYRI-AYRI YAŞ DÖVRLƏRİNDƏ ŞAGİRDLƏRİN PEŞƏ YÖNÜMÜNÜN ƏSAS MƏRHƏLƏLƏRİ

Ramila Babak Ismayilkhanova,
teacher of department of General pedagogy at Azerbaijan State Pedagogical University

THE MAIN STAGES OF VOCATIONAL ORIENTATION OF PUPILS AT DIFFERENT AGE PERIODS

Рамиля Бабек гызы Исмаилханова,
преподаватель кафедры Общей педагогики
Азербайджанского Государственного Педагогического Университета

ОСНОВНЫЕ ЭТАПЫ ПРОФЕССИОНАЛЬНОЙ ОРИЕНТАЦИИ УЧАЩИХСЯ РАЗНЫХ ВОЗРАСТНЫХ ГРУПП

Xülasə. Müəllif yazmış olduğu bu məqalədə müasir dövrün ən aktual məsələsinə toxunmuşdur. Məqalədə hər bir yaş dövründə şagirdlərin peşəyönümü prosesinin mərhələ-mərhələ necə həyata keçirilməsini göstərmişdir. Onun fikrincə I-IV, V-IX və X-XI siniflərdə peşəyönümü işlərinin xüsusiyyətləri və həyata keçirilməsi məsələləri tamamilə fərqlidir. Müəllif qeyd edir ki, hər hansı peşəyə meyl göstərmək o peşəyə məhəbbətin göstəricisidir. Şagirdlər nə qədər kiçik vaxtlarından istənilən peşələr haqqında məlumat alsalar gələcəkdə bu onların düzgün peşə seçmələrinə və öz həyatlarını düzgün istiqamətləndirmələrinə səbəb ola bilər. Hər bir fənn müəllimi və yaxud sinif rəhbəri şagirdləri istehsalatın bütün sahələri ilə tanış etməli, bütünlüklə peşələr və ixtisaslar haqqında maarifləndirməlidir. Müəllifin fikrincə gələcəkdə təhsilini davam etdirməyə can atan hər bir şagird sevdikləri peşələr üzrə təhsil aldıqdan sonra fəaliyyət göstərəcəkləri əmək kollektivləri ilə sıx əlaqə yaratmalı və onların iş prinsipi ilə maraqlanmalıdırlar.
Açar sözlər. *Peşəyönümü, peşə, ixtisas, özünüdərk, özünütərbiyə, özünüqiymətləndirmə, metod, maraq, qabiliyyət, bacarıq*

Abstract. This article addresses one of the most pressing issues of our time: vocational orientation. The author outlines how the process of guiding students toward suitable careers unfolds progressively across different age groups. She argues that the nature and implementation of vocational guidance vary significantly across grades I–IV, V–IX, and X–XI. According to the author, a student's inclination toward a particular profession reflects their genuine interest in it. The earlier students are introduced to a variety of professions and given relevant information, the greater the likelihood that they will make informed career choices and pursue fulfilling professional paths in the future. The article emphasises that every subject or homeroom teacher has a responsibility to acquaint students with diverse fields of work and to provide comprehensive education about various professions and specialisations. The author further asserts that students who plan to continue their education should establish strong connections with the professional environments in which they hope to work, and take an active interest in the principles and practices of those professions.
Keywords: *vocational orientation, profession, specialty, self-awareness, self-education, self-assessment, method, interest, ability, skill*

Аннотация. В данной статье рассматривается одна из самых актуальных проблем нашего времени: профессиональная ориентация. Автор поэтапно описывает процесс профессиональной ориентации учащихся в разных возрастных группах. Утверждается, что особенности и реализация профессиональной ориентации значительно различаются в I–IV, V–IX и X–XI классах. По мнению автора, склонность учащихся к определённой профессии отражает их подлинный интерес к ней. Раннее знакомство учащихся с различными профессиями и предоставление им соответствующей информации увеличивает вероятность осознанного карьерного выбора и профессиональных успехов в будущем. В статье подчёркивается, что каждый предметник или классный руководитель несёт ответственность за знакомство учащихся с различными областями работы и предоставление всестороннего образования о различных профессиях и специальностях. Автор далее утверждает, что учащиеся, которые планируют продолжить своё образование, должны установить прочные связи с профессиональной средой, в которой они намерены работать, и проявлять активный интерес к принципам работы этих профессий.

Ключевые слова: *профессиональная ориентация, профессия, специальность, самосознание, самообразование, самооценка, метод, интерес, способность, умение*

Ölkəmizdə ibtidai təhsil I-IV sinifləri və 6-10 yaş qruplarını əhatə edir. Bu dövrdə şagirdlərin həyatında bir çox dəyişikliklər baş verir. Yəni, uşaqların oyun dövrü təlim əməyi ilə əvəz olunur.

Bu dövr 6-10 yaşlı şagirdlərin inkişafında psixoloji və fizioloji dəyişikliklər dövrüdür. Şagirdlərin hafizəsi, diqqəti, maraq dairələri, təfəkkürü, əzələlərinin inkişafı və boylarında sürətli artım baş verir. Ona görə də onlarda bu dəyişiklikləri düzgün istiqamətləndirmək üçün onlara qayğı və diqqət artırılmalıdır.

İbtidai sinif müəllimləri qarşısında təlim əməyini daha maraqlı təşkil etmək üçün bir çox tələblər qoyulur. Bu tələblər də onların şagirdləri peşəyə istiqamətləndirmədə mühüm əhəmiyyətə malikdir.

Gələcək peşə seçimində şagirdlərin tələbatlarının, qabiliyyətlərinin, meyl və maraqlarının nəzərə alınması hələ ibtidai sinifdən başlamalıdır. Çünki aşağı sinif şagirdlərinin təbiət, cəmiyyət, ətraf mühit haqqında elmi biliklərə yiyələnmələri bu dövrdən başlanır. Onlar hətta bir çox peşələr haqqında müəyyən təsəvvürlərə ibtidai sinifdən yiyələnirlər.

Bildiyimiz kimi, hər hansı peşəyə meyl göstərmək o peşəyə məhəbbətin göstəricisidir. Şagirdlər nə qədər kiçik vaxtlarından istənilən peşələr haqqında məlumat alsalar gələcəkdə bu onların düzgün peşə seçmələrinə və öz həyatlarını düzgün istiqamətləndirmələrinə səbəb ola bilər.

Bəzən tələbələrlə söhbət əsnasında məlum olur ki, onların seçdikləri peşəyə istiqamətləndirilməsi hələ ibtidai sinifdən başlamış və kiçik yaşlarından bu peşəni seçməklə seçdikləri peşəyə ürəkdən bağlanmışlar.

Hətta yuxarı sinifdə aparılan peşəyönümü işləri özünəməxsus xüsusiyyətləri ilə ibtidai sinifdə aparılan peşəyönümü işlərindən əsaslı şəkildə fərqlənir. Odur ki, kiçik yaşlı məktəblilərə verilən məlumatlar bir yox, bir neçə peşələr üzrə aparılmalı və yalnız tanışlıq xarakterli olmalıdır.

Kiçik yaşlı şagirdlərlə aparılan peşəyönümü işlərinə bir neçə tələb qoyulur ki, bunları əsas göstərə bilərik: a- onlarda əməyə və əmək adamlarına hörmət hissi aşılamaq; b- onları cəmiyyətin əmək üzərində qurulduğuna və əməyin insan həyatının əsası olduğuna inandırmaq; c- xalq təsərrüfatı, əmək fəaliyyəti və müxtəlif peşələr haqqında şagirdlərdə maraq oyatmaq; d- şagirdlərin qabiliyyətlərini və maraqlarını öyrənmək.

Bu tələblərin reallaşdırılmasında müəllim şagirdlərə öz fənni üzrə elmi bilikləri öyrətməli, əmək təlimi məşğələləri təşkil etməli, şagirdləri sinifdən və məktəbdənkənar tədbirlərə cəlb etməlidir. Bundan əlavə kiçik yaşlı şagirdlərin əmək adamları, elm və incəsənət xadimləri, yazıçı və şairlərlə görüşünü təşkil etməlidir. V-VII sinif şagirdlərinin peşəyönümü işlərində ibtidai sinifdən çox az fərqi vardır. Qeyd edək ki, yeniyetməlik və gənclik dövründə şagirdlərin bir çox fərqli fizioloji xüsusiyyətləri meydana çıxır. Yəni bu dövrdə onlarda az da olsa gəncliyin bəzi xüsusiyyətləri özünü göstərir. Belə ki, psixi və fiziki inkişaflarında dəyişikliklər baş verir. Dərs zamanı onlar elmi bilikləri şüurlu şəkildə dərk etməyə başlayırlar. Şagirdlərin təfəkkür tərzi də öz inkişafını bu dövrdən başlayır. Onlarda V-VII siniflərdən fiziki əməyə maraq yaranır. Odur ki, şagirdlərlə peşəyönümü işlərini təşkil edərkən bir çox xüsusiyyətlər də hökmən nəzərə alınmalıdır.

Bu dövrdə şagirdlərdə müxtəlif peşələr üzrə təsəvvürlər yaradılmalıdır. Çünki bu yaş dövründə şagirdləri peşələr haqda aldıqları biliklər qane etmir. Bunun əsas səbəbi odur ki, onların keçdikləri fənlərin çeşidi artmış olur və onların inkişaf səviyyələri peşələr üzrə elmi bilikləri əldə etməyi tələb edir. Bu halda fənn müəllimləri təlim prosesində şagirdlərin peşələr haqqında olan təsəvvürlərini zənginləşdirirlər.

V-VII siniflərdə müxtəlif peşələrə istiqamətləndirmə meylləri daha da güclənir. Odur ki, yenilikçi fənn müəllimi bu cəhətə daha çox diqqət etməlidir. Yəni, bu yaş qrupunda olan şagirdlərin bacarıqlarına, meyl və maraqlarına, qabiliyyətlərinə uyğun gələn fəaliyyətə cəlb edilməlidirlər. Bunun üçün onları hər növ fəaliyyətə cəlb etmək üçün münbit şərait yaradılmalıdır.

Yaradılan şəraitdə şagirdlər öz "güclərini sınayır", əgər istədiklərinə nail olarlarsa gələcək peşə seçimində uğur qazana bilərlər.

Hal-hazırda məktəblərdə şagirdlər seçdikləri peşələrə uyğun təşkil edilən məşğələlərdə iştirak edirlər və müsbət nəticə əldə etdikdə isə onun sevinci ilə yaşayırlar. Sonra öz işlərində uğur qazanan şagirdlər işlərini həm məktəblərdə, həm də məktəbdənkənar tərbiyə müəssisələrində təşkil edilən dərnəklərdə daha da genişləndirirlər. Belə olduğu təqdirdə onların bacarıq və qabiliyyətlərinin inkişafı sürətlənir.

V-VII siniflərdə aparılan peşəyönümü işlərinin ən mühüm xüsusiyyətlərindən biri də keçirilən fənlərin xalq təsərrüfatı ilə birbaşa əlaqəli olmasıdır. Odur ki, fənnindən asılı olmayaraq bütün fənn müəllimləri tədris etdiyi fənnin əməklə, həyatla, xalq təsərrüfatı ilə nə qədər əlaqədar olduğunu şagirdlərə izah etməlidirlər.

Qeyd edək ki, bu yaş qrupuna aid olan şagirdlərin politexnik dünyagörüşünün inkişafı da müəllimlərdən asılıdır. Ona görə də texniki peşə məktəblərinin, idarə və müəssisələrin məktəblərlə əlaqəsi gücləndirilməlidir. Tez-tez məktəblilərin bu müəssisələrə ekskursiyasını təşkil etməklə onların peşəyə istiqamətləndirilməsini gücləndirmiş olarıq.

Növbəti yaş qrupu VIII-IX sinifləri əhatə edir. Şagirdlərinin idraki prosesləri bu dövrdə daha sürətlə inkişaf edir ki, hətta onlar ətrafdakı insanların hərəkət və davranışlarına tənqidi yanaşaraq və mənfi və ya müsbət rəylərini söyləyirlər.

Artıq bu dövr şagirdlərin hisslərinin inkişaf dövrüdür. Onlarda vətənpərvərlik, qəhrəmanlıq hissləri özünü göstərir. Tarixi, qəhrəmanlıq filmlərinə və bu mövzuda yazılan əsərlərə daha çox maraq göstərirlər. Hətta biz bu hisslərin mənfur düşmənlərə qarşı 44 günlük Vətən müharibəsində şahidi olduq. Çox məktəbli evdən qaçmaq, səngərlərdə əsgərlərimizlə çiyin-çiyinə vuruşmaq əzmində olduqlarını söyləyirdilər. Televiziyada, canlı həyatda, şəhid tabutu, qazilərimizi görən şagirdlər özlərini onların yerinə qoymaq, hətta şəhid olmaq istədiklərini dilə gətirirdilər. Biz deyərdik ki, bu da o yaş dövrünün yaratdığı ülvi hisslərdir.

Bu yaş qrupuna daxil olan məktəblilər müstəqil olmağa cəhd edir, daha çox texnika ilə maraqlanır, hərəkətlərində, müxtəlif davranışlarında macəralara, romantikliyə qapılır, belə mövzularda yazılan kitablar oxuyur, sevdikləri, seçdikləri peşələr haqda fikirlərini söyləyirlər.

Şagirdlər arasında cinsi fərqlər də bu dövrdə özünü büruzə verir. Belə ki, zəriflik qızları özünə cəlb etdiyindən daha çox zərif peşələri seçməyi üstün tuturlar. Oğlanların seçimi isə çox vaxt mexanika, texnika ilə bağlı olan peşələrdir. Odur ki, VIII-IX sinif yaş qrupuna aid oğlanlarda ən optimal metodlardan istifadə edərək peşəseçmə işlərində forma və metodlar fəallaşdırılmalı, özünütərbiyə işləri gücləndirilməli, öz potensialına, gücünə və imkanına verdikləri qiymət dəqiqləşdirilərək reallıqlar üzə çıxarılmalı, maraqlarının olduğu peşələrə onlarda inam yaradılmalıdır.

VIII-IX sinif şagirdləriylə peşəyönümü işi təşkil edərkən yaşadıqları bölgə (rayon, kənd), peşə tələbatları hökmən diqqət mərkəzində saxlanılmalıdır. Bu dövrdə şagirdlərə ağır və yüngül sənaye, kənd təsərrüfatı, xalq təsərrüfatı haqda müxtəlif bilgilər verilməlidir. Bu bilgilər nə qədər inandırıcı olarsa o sahələrə şagirdlərin maraqları daha da artar.

Hər bir fənn müəllimi və yaxud sinif rəhbəri şagirdləri istehsalatın bütün sahələri ilə tanış etməli, bütünlüklə peşələr və ixtisaslar haqqında maarifləndirməlidir.

Son sinif şagirdləri (X-XI sinif şagirdləri) ilə aparılan peşəyönümü işləri tamamilə fərqlidir. X-XI siniflərdə ümumi orta təhsil artıq başa çatmaq üzrədir. Bu siniflərin şagirdləri hərəkət və davranışlarını analiz edir, özlərini düzgün dərk edir, davranışlarında yol verdikləri müsbət və mənfi hərəkətlərin fərqinə varır. Onlarda öz gələcəklərini anlamaq, həyat yollarını düzgün

qurmaq kimi düşüncələr formalaşır. Hərəkət və davranışlarını qiymətləndirir və digər şəxslərin onlara verdikləri qiymətlərlə müqayisə etməyə səy göstərirlər. Əgər yol verdikləri bir nöqsan varsa onu düzəltməyə çalışırlar, lazım gəldikdə müəllimlərindən və valideynlərindən məsləhətlər alırlar. Bir sözlə özünütərbiyəyə çalışırlar.

Yaşlarına uyğun şəkildə X-XI sinif şagirdləri incəsənətə, ədəbiyyata, bədii kitablara, teatra, texniki elmlərə və yaxud lirik musiqilərə maraq göstərirlər. Bu sinfin şagirdləri ilə həyata keçirilən peşəyönümü işlərinin digər xüsusiyyətlərindən biri də onların əməyə psixoloji cəhətdən hazırlanmasıdır. Yəni şagirdlər seçdikləri ixtisasın tələbləri ilə onların psixoloji imkanlarının üst-üstə düşdüyünü dərk etməlidirlər. Əks təqdirdə seçdikləri peşəni sevə bilməzlər. Bu da onu deməyə əsas verir ki, şagird seçdiyi peşəni sevməli və ona ürəkdən bağlanmalıdır.

Bəzən sevmədiyi peşəyə yiyələnən tələbə artıq peşənin verdiyi tələbləri qəbul edə bilmir, onlarda mənəvi yorğunluq yaranır. Gələcəkdə ya bu peşəni yarıda buraxırlar, ya da təhsil müddəti başa çatdıqdan sonra başqa sahələr üzrə fəaliyyət göstərirlər. Burdan belə nəticəyə gəlmək olur ki, heç bir şagirdə məcburi ixtisas seçdirmək olmaz.

Şagirdlərin peşəyönümü prosesinə sinifdənkənar və məktəbdənkənar tədbirlər də əsaslı şəkildə müsbət təsir göstərir. Odur ki, bu tip tədbirlərin təşkili və həyata keçirilməsi üçün ümumtəhsil məktəbləri ciddi iş aparmalıdırlar.

Ümumtəhsil məktəblərinin, orta ixtisas məktəblərinin, texniki peşə məktəblərinin, ictimaiyyət və istehsalat müəssisələrinin və ali məktəblərin şagirdlərin peşəyönümü prosesində əlbir işləməsi xüsusilə X-XI sinif şagirdlərinin peşə seçimində mühüm amildir. Gələcəkdə təhsilini davam etdirməyə can atan hər bir şagird sevdikləri peşələr üzrə təhsil aldıqdan sonra fəaliyyət göstərəcəkləri əmək kollektivləri ilə sıx əlaqə yaratmalı və onların iş prinsipi ilə maraqlanmalıdırlar.

Peşəyönümünün bu son etapında məktəbin bütün müəllim kollektivi bu işə daha da ciddi yanaşaraq hər bir şagirdin şüurlu şəkildə öz maraq və qabiliyyətinə uyğun peşə seçmələrinə şərait yaratmalıdırlar.

Sonda onu da qeyd etmək lazımdır ki, hal-hazırda peşəyönümü elə bir mərhələyə çatdırılmalıdır ki, bu proses hər bir şagirdin həm yaş, həm də fərdi xüsusiyyətlərinin nəzərə alınması ilə həyata keçirilsin.

Problemin aktuallığı. Ümumtəhsil müəssisələrində şagirdlərin peşəyə istiqamətləndirilməsi ən aktual problem kimi pedaqoji kollektivin qarşısında dayanmışdır. Məktəbin bütün müəllim kollektivi bu işə daha da ciddi yanaşaraq gələcəyin qurucusu olan hər bir şagirdin şüurlu şəkildə öz maraq və qabiliyyətinə uyğun peşə seçmələrinə şərait yaratmalıdırlar.

Problemin elmi yeniliyi . Hər hansı peşəyə meyl göstərmək o peşəyə məhəbbətin göstəricisidir. Şagirdlər nə qədər kiçik vaxtlarından istənilən peşələr haqqında məlumat alsalar gələcəkdə bu onların düzgün peşə seçmələrinə və öz həyatlarını düzgün istiqamətləndirmələrinə səbəb ola bilər.

Problemin praktik əhəmiyyəti. Gələcəkdə təhsilini davam etdirməyə can atan hər bir şagird sevdikləri peşələr üzrə təhsil aldıqdan sonra fəaliyyət göstərəcəkləri əmək kollektivləri ilə sıx əlaqə yaratmalı və onların iş prinsipi ilə maraqlanmalıdırlar.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası / Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir. -Bakı: Qanun, 2013.
2. Kazımov, N.M. Ali məktəb pedaqogikası / N.M. Kazımov -Bakı: Çaşıoğlu, -2011.
3. Verdiyeva Ə.İ. Məktəbdənkənar tərbiyə müəssisələrində şagirdlərin peşəyönümünün məzmun, forma və yollar: pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyası /-Bakı, 1998. -154 s.

Redaksiyaya daxil olub: 10.06.2025

UOT 371

Elvira Haqverdi qızı Kərimova,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya fakültəsinin dekan müavini,
fəlsəfə doktoru proqramı üzrə doktorant
https://orcid.org/0009-0000-3052-1040
E-mail:elvira.karimova83@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(4).45-49

TƏLİM PROSESİNDƏ MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNİN QURULMASINDA ƏMƏKDAŞLIQ PEDAQOGİKASININ TƏSİR ÜSULLARI

Elvira Haqverdi Karimova,
deputy dean of the faculty of History and geography
at Azerbaijan State Pedagogical University,
doctoral student in the program of doctor of philosophy

METHODS OF INFLUENCING COLLABORATIVE PEDAGOGY IN BUILDING TEACHER-STUDENT RELATIONSHIPS IN THE LEARNING PROCESS

Эльвира Хагверди гызы Керимова,
заместитель декана факультета Истории и географии
Азербайджанского Государственного Педагогического Университета,
докторант по программе доктора философии

МЕТОДЫ ВОЗДЕЙСТВИЯ ПЕДАГОГИКИ СОТРУДНИЧЕСТВА НА ФОРМИРОВАНИЕ ВЗАИМООТНОШЕНИЙ МЕЖДУ УЧИТЕЛЕМ И УЧЕНИКОМ В УЧЕБНОМ ПРОЦЕССЕ

Xülasə. Elmi məqalədə əməkdaşlıq pedaqogikasının şagird şəxsiyyətinin formalaşdırılmasına təsir istiqamətləri göstərilmişdir. Bu zaman müəllif müəllim-şagird əməkdaşlığının uğurlu şəkildə təşkilinə təsir göstərən amilləri, məktəb pedaqogikasında yeni bir istiqamət kimi meydana gələn əməkdaşlıq metodikasının tətbiqi zamanı fərqli təsir üsullarını üzə çıxarmışdır. C. Hopkins tərəfindən işlənib hazırlanmış müəllim-şagird əməkdaşlığının formalaşmasına yönəldilən Student Team Learning (STL, komandada təlim) metodu, onun müsbət və mənfi tərəfləri, komanda oyunu üsulu, əməkdaşlıq təliminin təşkili ilə bağlı digər bir yanaşma cooperative learning və ondan istifadə yolları öz əksini tapmışdır. Eyni zamanda təlim-tədris prosesində müəllim-şagird əməkdaşlığının şagirdin qabiliyyətlərinin inkişaf etdirilməsinə təsiri imkanlarını ortaya qoyan mərhələlər və bu mərhələlərlə əməkdaşlıq üsullarının həyata keçirilməsi istiqamətləri ilə tanış olmaq mümkündür. Bu prosesdə müəllimin pedaqoji ustalığı və qrupu idarəetmə xüsusiyyətləri vacib amillər olaraq göstərilmişdir.
Açar sözlər: *müəllim, şagird, əməkdaşlıq, pedaqogika, üsul, ünsiyyət*

Abstract. The scientific article shows the directions of influence of cooperative pedagogy on the formation of student personality. At the same time, the author reveals the factors influencing the successful organization of teacher-student cooperation, different methods of influence during the application of the cooperative methodology, which has emerged as a new direction in school pedagogy. The Student Team Learning (STL, team learning) method developed by J. Hopkins, aimed at the formation of teacher-student cooperation, its positive and negative sides, the team game method, another approach to the organization of cooperative learning, cooperative learning, and ways to use it are shown. At the same time, the stages that reveal the possibilities of the influence of teacher-student cooperation on the development of student abilities

in the learning process and the directions of implementing cooperation methods at these stages are shown. In this process, the teacher's pedagogical mastery and group management characteristics are shown as important factors.
Keywords: *teacher, student, cooperation, pedagogy, method, communication*

Аннотация. В научной статье показаны направления влияния педагогики сотрудничества на формирование личности ученика. В это время автором были выявлены факторы, влияющие на успешную организацию взаимодействия учителя и ученика, а также различные методы воздействия при применении методики сотрудничества, которая возникла как новое направление в школьной педагогике. Показаны разработанный Дж. Хопкинсом метод Student Team Learning (STL), направленный на формирование сотрудничества учителя и учеников, его положительные и отрицательные стороны, метод командной игры, еще один подход к организации кооперативного обучения, кооперативное обучение и способы его использования. При этом показаны этапы, раскрывающие возможности влияния сотрудничества учителя и ученика на развитие способностей учащихся в процессе обучения и направления реализации методов сотрудничества на этих этапах. В этом процессе важными факторами являются педагогическое мастерство учителя и навыки управления группой.
Ключевые слова: *учитель, ученик, сотрудничество, педагогика, метод, общение*

20-ci əsrin 80-ci illərindən başlayaraq inkişaf etməyə başlayan əməkdaşlıq pedaqogikası birinci növbədə müəllim və şagird münasibətlərinin demokratik əsaslarla formalaşmasını, şagirdin fəallığının artırılmasını, təhsilverənlərin və təlim alan subyektlərin bərabər tərəflər kimi müəyyənləşməsini özündə ehtiva edir. Bütün bunlarla yanaşı, o, eyni zamanda, şagirdin cəmiyyət üçün yararlı şəxsiyyət olaraq yetişdirilməsini qarşıya məqsəd olaraq qoyur.

Əməkdaşlıq pedaqogikası, həmçinin ümumi pedaqoji istiqamət kimi bütün fənlərin tədrisi prosesində öyrədilən mövzunun mahiyyətinin daha dərindən açılmasına şərait yaradır. Bu zaman təlim prosesində müəllim-şagird, şagird-şagird münasibətlərinin əməkdaşlıq əsasında qurularaq hər bir kəsin öz üzərinə düşən cavabdehliyinin dərk etməsinə imkan yaranır. Müəllimlə şagird arasında qurulmuş uğurlu əməkdaşlıq şagirdin bir şəxsiyyət olaraq inkişafına, digər insanlarla sağlam münasibətlər qura bilməsinə təsir göstərir. Bu prosesdə müəllim yalnız fasilitator (bələdçi) deyil, həm də psixoloq və tərbiyəçi qismində iştirak edir.

Əməkdaşlıq pedaqogikası özündə şagirdə şəxsiyyətyönlü və fərdi yanaşmanı ehtiva etdiyi üçün təlim prosesində müəllimin şagirdə onun bilik və bacarıqlarının, fərdi psixoloji xüsusiyyətlərinin imkanlarını nəzərə alaraq yanaşmasını tələb edir.

O, şagirdin mənəvi dəyərlərinin formalaşmasına, ətrafdakı insanları dərk etməsinə, gələcəkdə məsuliyyətli vətəndaş kimi yetişməsinə təsir edir. Təlim prosesində müəllim şagirdə istiqamət verir, hansı mənbələrdən istifadənin əhəmiyyətli olduğunu göstərir, müxtəlif təlim vəsaitləri ilə mövzunun yadda qalmasına kömək edir. Bu zaman sinif şagirdlərinin qarşılıqlı kömək əsasında fəal iştirakına şərait yaradılır. Nəticədə, güclü və zəif şagird anlayışı fəal kollektiv anlayışı ilə əvəz edilir. Bu mənada məktəblərdə təlim-tədris prosesində əməkdaşlıq pedaqogikasının tətbiqi xüsusi aktuallıq kəsb edir.

Hər bir müəllim şagirdləri ilə münasibətlərinin uğurlu olub-olmamasını düşünür. Təlim prosesində bir çox müəllimlərin fikrinə görə, müəllim-şagird əməkdaşlığını aşağıdakı hallarda uğurlu hesab etmək olar.

1. Müasir dövrdə şəxsiyyətin yiyələndiyi bilik və bacarıqların həyata keçirilməsinə şərait yaradıldıqda;

2. Öz şəxsi "Mən"ini dərk olunmasına imkan verildikdə;

3. Şəxsiyyətin gələcək inkişafı üçün perspektivlər açıldıqda.

Buradan belə bir nəticəyə gəlmək olur ki, müəllim-şagird əməkdaşlığı hər iki tərəfin–həm müəllimin, həm də şagirdin inkişafına yönəldikdə səmərəli hesab edilə bilər (Shevchenko, 1991).

Əməkdaşlıq pedaqogikasında müəllimin inkişafı dedikdə, onun dərsini-tədris prosesini daha da təkmilləşdirməsini, müntəzəm surətdə öz üzərində işləyərək şəxsi biliyini və bacarığını artırılmasını, təlim və tədris prosesi ilə bağlı yeniliklərdən xəbərdar olmasını və s. nəzərdə tutulur. Bu qeyd olunanlar müəllimin özünəinam hissini daha da artırır, onun şagirdlərlə səmərəli əməkdaşlıq qura bilməsinə, həmçinin bilik və bacarıqlarının inkişafına kömək edir.

Müəllim-şagird əməkdaşlığında təhsilalanın fərdi qabiliyyətlərinin inkişafı onun özünə inamının formalaşdırılmasını, həmçinin ünsiyyət bacarıqlarının təkmilləşdirilməsini, istedadının üzə çıxarılmasını özündə ehtiva edir.

Məktəb pedaqogikasında yeni bir istiqamət kimi meydana gələn əməkdaşlıq metodikasının tətbiqi zamanı fərqli təsir üsulları təqdim edilir. Minnesota Universitetinin pedaqoqları R.Conson və D.Conson, Koliforniyada C.Arons qrupu və Tel-Aviv Universitetində Ş. Şaran qrupu tərəfindən işlənilmiş bu metodika bir neçə təlim üsullarını özündə birləşdirir.

1. Onlardan birincisi müəllim-şagird əməkdaşlığının formalaşmasına yönəldilən Student Team Learning (STL, komandada təlim) üsulu adlanır. Bu təlim üsulu C. Hopkins tərəfindən işlənib hazırlanmışdır. Onun, ilk növbədə, təşkil olunması vacib mərhələ hesab edilir. Həmcinin icracı kollektivin dörd nəfərlik qruplara bölünərək təlimləndirilməsini nəzərdə tutur. Qrup daxilində dərsi izah edən müəllim şagirdlərin mövzunu bir-birinə qarşılıqlı kömək əsasında dərk etmələrini təklif edir. Eyni zamanda qrupa daxil olan hər bir şagirdə xüsusi tapşırıq verilməsi, yaxud ardıcıl olaraq tapşırığın yerinə yetirilməsi təklif olunur. Hər bir şagird qrup daxilində ona etibar olunan məsələni digərlərinə izah edir və bütövlükdə prosesə qrup tərəfindən nəzarət edilir. Bütün qruplar verilən tapşırıqları yerinə yetirdikdən sonra hamının iştirakı ilə birgə müzakirə aparılır. Daha sonra müəllim onlara test tapşırıqları verir. Şagirdlər fərdi olaraq test üzərində işləyirlər. Fərdi işlərə görə qiymətlər ümumiləşdirilir və qrupun ümumi qiyməti elan olunur. Bu zaman zəiflərlə güclülər yarışmır, hər bir kəs ona aid olan tapşırığı yerinə yetirməklə öz işini yerinə yetirir. Bu zaman həm güclü, həm də zəif şagirdlər qrupa eyni bal gətirə bilirlər (Gorbovskaya, 1987).

Tarix fənnini tədris edərkən bu üsuldan istifadə olunması faydalı hesab edilir. Çünki təcrübələr də göstərir ki, bu üsul ayrı-ayrı tarixi hadisələrin təhlilinə həmçinin şagirdin hadisələrə və faktlara şəxsi münasibətinin formalaşmasına daha çox imkan yarada bilir. Eyni zamanda, mövzunun kollektiv şəkildə müzakirəsi onun öyrənilməsi keyfiyyətini yüksəldə bilir. Eləcə də hər komanda üzvündə yarış həvəsi oyadır və marağına səbəb olur.

2. Əməkdaşlıq metodikasında, eyni zamanda, komanda oyunu üsulundan da geniş istifadə olunur. Bu zaman müəllim dərsi izah etdikdən sonra şagirdlərin məsələyə münasibətini üzə çıxarmaqdan ötrü qruplar təşkil edilir və mütəmadi olaraq komandalar arasında yarış turnirləri keçirilir. Təşkil olunmuş turnirlərdə bərabər biliklərə malik üç nəfər şagirddən ibarət "turnir masaları" təşkil olunur. Hər bir qalib öz komandasına eyni bal gətirir, daha çox bal toplayan komanda qalib elan edilir.

3. Əməkdaşılıq təliminin təşkili ilə bağlı digər bir yanaşma cooperative learning adlanır. E. Aronson tərəfindən 1978-ci ildə hazırlanıb və Jigsaw adlandırılıb. Bu üsul vasitəsilə şagirdlər altı nəfərlik qruplarda birləşir və verilən tapşırıq üzərində (məntiq, yaxud mahiyyətlə bağlı) çalışırlar (Gorbovskaya, 1987).

Məsələn, tarix dərsinin təlimi prosesində tarixi hadisənin əhatəli mənimsənilməsi məqsədilə 6 nəfərin hər biri hadisə, məsələn, II Dünya müharibəsi ilə bağlı fərqli məqamları özündə əks etdirən elmi faktlarla zəngin olan informasiya toplayır. Sonra isə müxtəlif qruplardan olan, lakin mövzunun onlara aid hissəsi ilə bağlı məsələləri araşdıran şagirdlə görüşür, əldə etdikləri elmi faktları bir-birinə ötürürlər. Bu proses "ekspertlərin görüşü" adlanır. Daha sonra onlar öz qruplarına dönür və topladıqları informasiyanı digər qrup üzvlərinə də ötürürlər. Digər qrup üzvləri də özlərinə aid informasiya haqqında məlumat verirlər.

Beləliklə, hamı hadisə haqqında daha geniş məlumat əldə etmiş olur. Dəftərlərində qeydlər aparan qrup üzvləri çalışır ki, hər kəs öz işini məsuliyyətlə yerinə yetirsin. Çünki bu, onların qiymətlərinə təsir edir. Bu zaman müəllim, demək olar ki, heç bir səy göstərmir. Komandanın hər bir üzvü ayrılıqda və komanda şəklində hesabat verirlər. Nəticədə müəllim qrupun istənilən üzvünə ümumi mövzu ilə bağlı hər hansı bir sual verə bilər.

R. Slavin 1986-cı ildə əməkdaşlıq təlimi ilə bağlı "Jigsaw-2" yeni bir üsulunu işləyib hazırlamışdır. Burada qrup üzvlərinin sayı 4-5 nəfərə təşkil edirdi. Artıq qrup üzvləri mövzunun ayrı-ayrı hissələrini deyil, bütöv mövzunu komanda şəklində araşdırırdılar. Hər bir qrup üzvü II Dünya müharibəsi haqqında ümumi elmi məlumat toplayırdı. Ayrı-ayrı qruplardan olan ekspertlər görüşür, sonda hər bir şagird yoxlanaraq qiymətləndirilirdi. Qrup üzvlərinin qiymətləri toplanılır

və daha çox bal əldə etmiş qrup qalib hesab olunaraq mükafatlandırılırdı (Gorbovskaya, 1987).

Müəllim-şagird əməkdaşlığının yaradılması məqsədilə qeyd edilən təlimin təşkili formalarından hər biri tətbiq oluna bilər. Aydındır ki, təlim üsulları təlim prosesində müəllim və şagirdlərin müvafiq məqsədlərə doğru istiqamətlənmiş qarşılıqlı fəaliyyətini müəyyən edir. Bütün təlim üsulları məqsədə və fəaliyyət sisteminə, gözlənilən müvafiq nəticələrə xidmət göstərir. (Musayeva, 2018).

Mövcud təcrübələrə əsasən belə qənaətə gəlmək olar ki, təlim-tədris prosesində müəllim-şagird əməkdaşlığının şagirdin qabiliyyətlərinin inkişaf etdirilməsinə təsiri imkanlarının aşağıda göstərdiyimiz mərhələlərdə həyata keçirilməsi mümkün ola bilər:

1-ci mərhələ. Dərs və mövzu müəyyən olunur.

Standart: Mövzuya uyğun materiallar toplanılır.

Məqsəd və eyni zamanda məqsədlər müəyyən olunur.

İş forması qrup işi kimi müəyyənləşir.

İş üsulu (metodları) seçilir.

Resurslar: dərslik, şəkillər, marker, iş vərəqləri, İKT.

İnteqrasiya: Yaxın fənlərin əlaqələndirilməsi

Dərsin gedişi:

Motivasiya: İKT, yəni slayd şagirdlərə nümayiş etdirilir. Mövzu ilə bağlı şagirdlərə suallar verilir. Cavablar dinlənildikdən sonra mühazirə mətni izahlı şəkildə oxunaraq əlavə məlumatlar verilir. Mövzu ilə bağlı mühüm məsələlərə diqqət yetirilir.

Tədqiqat aparmaq üçün sinif qruplara bölünür (məs. 1-ci qrup: A, 2-ci qrup: B, 3-cü qrup: C, 4-cü qrup: D, hər bir qrupa ad verilir və iş vərəqləri paylanılır, tədqiqat sualı səsləndirilir.

Tədqiqat sualı: Hər bir qrupa mövzu ilə bağlı müqayisəli təhlilə əsaslanan tədqiqat sualı verilir.

Məlumatın mübadiləsi: Müəyyən edilmiş zaman kəsiyində şagirdlər cavabları hazırlayır və ayrı-ayrı qruplar formasında təqdim edirlər.

Məlumatın müzakirəsi: Cavablar diqqətlə dinlənilir, əlavələr olunur və müzakirə edilir.

Nəticə və ümumiləşdirmə: Nəticədə şagirdlər tərəfindən müzakirələrin nəticələrinin toplanması, analizi, sintezi həyata keçirilir.

Ümumi müzakirədə şagirdlər müəyyən mövzu haqqında ətraflı məlumat toplaya bilirlər.

Yaradıcı tətbiqetmə və ya ev tapşırığı: Mövzu ilə bağlı esse yazılması tapşırılır.

Qiymətləndirmə: Təqdimatın əhatəliliyinə, vaxtdan düzgün istifadə edilməsinə, tapşırığın vaxtında və düzgün yerinə yetirilməsinə, qrup üzvlərinin hər birinin mövzu ilə bağlı məlumatlılıq səviyyəsinə, yəni əməkdaşlığın düzgün qurulmasına və öz fikrini çatdırma bacarıqlarına görə aparılır. Ümumi nəticəyə verilən qiymət bütün qrup üzvlərinə aid edilir.

Bu təlim prosesində müəllim qrupların hər bir üzvünün ümumi müzakirədə iştirak etməsinə imkan yaratmaqla, hər bir qrup üzvünün bildiklərini sərbəst şəkildə və daha dolğun ifadə etməsi üçün esse yazmağı tapşırmaqla onların müstəqillik qabiliyyətlərinin inkişafına kömək edir.

Göründüyü kimi, təlim prosesində müəllim məqsədə nail olmaq (əməkdaşlıq yaratmaq və müstəqillik qabiliyyətlərini inkişaf etdirmək) üçün həm qrupla iş, həm də fərdi iş metodlarından birlikdə istifadə edir. Başqa sözlə, müəllimin dərs prosesində fəal təlimə, onun müxtəlif forma və metoduna müraciət etməsi şagirdlərin təfəkkürünü inkişaf etdirməklə yanaşı, onlarda kəşf olunanı özü üçün yenidən kəşf etməsinə stimul yaradır. (Veysova, 2007).

Nəticə olaraq qeyd etmək olar ki, əməkdaşlıq pedaqogikasının tətbiqi şagirdin hadisə və faktlara müstəqil fikrinin formalaşmasına, ayrı-ayrı tarixi şəxsiyyətlərin həyat və fəaliyyətini daha səmərəli şəkildə araşdırmasına və fikir yürütməsinə imkan yaradır. Bu zaman müəllimin demokratik münasibəti şagirdlərin ona inamını gücləndirir və birgə iş prosesinə müsbət təsir göstərir. Bu prosesdə müəllimin pedaqoji ustalığı və qrupu idarəetmə xüsusiyyətləri vacib amillər kimi təzahür edir.

Bu metoddan istifadə edilməsinin üstün tərəfləri müəllim-şagird, şagird-şagird əməkdaşlığının qurulması, hər bir şagirddə müstəqilliyin – sərbəst bilik əldə etmək, debat və diskussiyalarda öz fikrini çəkinmədən ifadə etmək və öz mövqeyini göstərmək üçün şəraitin yaradılmasıdır.

Problemin aktuallığı. Şagird şəxsiyyətinin formalaşdırılmasında müəllim-şagird münasibətlərinin həlledici rolu onun bu gün də aktual olduğunu göstərir. Xüsusilə əxlaqi-mənəvi, hissi-emosional cəhətdən şagirdlərin inkişafına davamlı təsir göstərir.

Problemin elmi yeniliyi. Şagird qabiliyyətinin meydana çıxarılmasında müəllim-şagird əməkdaşlığının yaranması və onun mərhələlərlə həyata keçirilməsi innovativ yanaşma kimi əhəmiyyət daşıyır.

Problemin praktik əhəmiyyəti. Müəllim-şagird əməkdaşlığı zəruri pedaqoji texnologiya kimi təlim-tədris prosesinin əsasında dayanır. Həmçinin pedaqoji prosesin səmərəli və effektiv qurulmasına praktik əhəmiyyətlilik baxımından ciddi təsir göstərir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil Haqqında Qanunu. -Bakı: Hüquq ədəbiyyatı, -2010.
2. Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı. -Bakı: Adiloğlu, -1999.
3. Ağayev, Ə., Eminov, A., İsayev, İ. Pedaqogika.- Bakı: Adiloğlu, -2006.
4. Abbasov Ə., Cavadov İ. Təhsilin inkişafı üzrə Dövlət Strategiyası :perspektivlər və vəzifələr. Bakı: Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi, -2015.
5. Ağamalıyev, R. Azərbaycan təhsili XXI əsrə doğru: idarəetmə, prioritetlər, islahatlar. -Bakı: Təhsil, -1998.
6. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan tarixi fənni üzrə Təhsil Proqramı (Kurikulumu) (V-XI siniflər). -Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu, -2013, -144 s.
7. Fominova, A.N., Shabanova, T.L. (2013). Pedagogicheskaya Psikhologiya: Uchebnoye posobiye, 2-ye izd., pererab., dopoln., -320 s.
8. Gorbovskaya, O.I. Problemnoye obucheniye na urokakh istorii. -Saratov: Izd. Saratovskaya universiteta, -1987. -240 s.
9. İsmayılova, Ü. Təlim prosesində yeniyetmələrdə müstəqilliyin inkişaf etdirilməsi //Azərbaycan Respublikasının Təhsil İnstitutu, Elmi Əsərlər, -2018. Cild 85, №, -s.73-78.
10. Kristian, B. (2021). A child was born for us. https://www.paoline. org/ wpcontent/uploads/2021/12/LetteraSG_Natale-2021_eng.pdf
11. Mehrabov, A.O. Müasir təhsilin konseptual problemləri.- Bakı: Mütərcim, -2010.
12. Musayeva, A. Mətnlə işin təşkilində əyani vasitələrin rolu. Azərbaycan Respublikasının Təhsil İnstitutu, Elmi Əsərlər, -2018. Cild 85, №3, -s.154-158.
13. Paşayev, T. Müəllim fəaliyyətinin qiymətləndirilməsi məsələləri. -Bakı: ARTPİ-nin Elmi əsərləri - 2011. № 2, -s.37- 41
14. Rabinovich, F.M., Baller, E.E., Golubenko, Y.S., Krylova, O.K. (1983). Rolevaya igra–effektivnyy priyem obucheniya govoreniyu. IYA-IYASH, №6, -s. 48-52.
15. Shevchenko, S.D. Shkol'nyy urok: kak nauchit' kazhdogo. -Moskva: Vlados, -1991. -174 s.
16. Veysova, Z. Fəal \İnteraktiv təlim: müəllimlər üçün vəsait. -Bakı: Unicef, -2007. -149 s.
17. Yusifova, S. Valideyn dəstəkləyici mühitin yaradılmasında mühüm amil kimi. Kurikulum, -2020. №3, -s.49-52.

Redaksiyaya daxil olub: 10.06.2025

UOT 37.011.33

Rəqsanə İsmayıl qızı Məmmədova,
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə doktorantı
E-mail: raqsanamva@gmail.com
https://orcid.org/0009-0008-7316-4539
https://doi.org/10.69682/arti.2025.92(4).50-56

ƏXLAQİ-MƏNƏVİ DƏYƏRLƏRİN İNSAN HƏYATINA VƏ ŞƏXSİYYƏTİN FORMALAŞMASINA TƏSİRİ: MÜTƏFƏKKİRLƏRİN BAXIŞLARI ƏSASINDA

Raghsana Ismayil Mammadova,
doctorial student in the program of doctor of philosophy of the
Institute of Education of the Republic of Azerbaijan

THE IMPACT OF MORAL AND SPIRITUAL VALUES ON HUMAN LIFE AND PERSONALITY DEVELOPMENT: BASED ON THE VIEWS OF THINKERS

Рагсана Исмаил гызы Мамедова,
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики

ВЛИЯНИЕ НРАВСТВЕННО-ДУХОВНЫХ ЦЕННОСТЕЙ НА ЖИЗНЬ ЧЕЛОВЕКА И ФОРМИРОВАНИЕ ЛИЧНОСТИ: НА ОСНОВЕ ВЗГЛЯДОВ МЫСЛИТЕЛЕЙ

Xülasə. Əxlaqi-mənəvi dəyərlər cəmiyyətin inkişafında və fərdlərin formalaşmasında mühüm rol oynayır. Bu dəyərlər uşaqlıqdan aşılanmalı və ailə, məktəb, cəmiyyət birlikdə bu istiqamətdə çalışmalıdır. Filosoflar və psixoloqlar (Erikson, Locke, Rousseau, Dewey, Vıqotski, Freire və b.) əxlaqın insan inkişafındakı əhəmiyyətini vurğulamışlar. Klassik mütəfəkkirlər əxlaqi tərbiyəni ictimai harmoniyanın təməli saymışlar.

Azərbaycan ziyalıları və "Molla Nəsrəddin"çilər maariflənmə yolu ilə cəmiyyətin oyanmasına çalışmışlar. Ədəbiyyatda iblis və şeytan obrazları əxlaqsızlığın simvolu kimi təqdim olunur. İnsan həm mələk, həm də şeytani sifət daşıya bilər, onu ucaldan əxlaq və mənəviyyatdır. Əxlaq və mənəviyyat insanın azadlığının, özünüdərk və kamilliyinin təməlidir. Böyük şəxsiyyətlərə görə, sevgi, təmiz əxlaq və saf mənəviyyat insanlığın əsasıdır. Əxlaqi dəyərlərlə yaşayan insan həm özünü, həm də cəmiyyətini ucaldır.

Açar sözlər: *əxlaqi-mənəvi dəyərlər, şəxsiyyətin formalaşması, mənəviyyat, əxlaq fəlsəfəsi, bəşəri dəyərlər, dəyərlər*

Abstract. Moral and spiritual values play a vital role in the development of society and the formation of individuals. These values must be instilled from childhood, with the family, school, and society working together in this direction. Philosophers and psychologists (Erikson, Locke, Rousseau, Dewey, Vygotsky, Freire, and others) have emphasized the importance of morality in human development. Classical thinkers regarded moral education as the foundation of social harmony.

Azerbaijani intellectuals and the "Molla Nasraddin" movement sought to awaken society through enlightenment. In literature, the images of the devil and Satan are portrayed as symbols of immorality. A human can possess both angelic and demonic traits, but it is morality and spirituality that elevate them. Morality and spirituality are the foundations of human freedom, self-awareness, and perfection. According to great individuals, love, pure ethics, and sincere spirituality are the basis of humanity. A person who lives by moral values elevates both themselves and their society.

Key words: *moral-spiritual values, personality development, spirituality, moral philosophy, universal values, values*

Аннотация. Нравственно-духовные ценности играют важную роль в развитии общества и формировании личности. Эти ценности должны прививаться с детства, и семья, школа, общество должны действовать совместно в этом направлении. Философы и психологи (Эриксон, Локк, Руссо, Дьюи, Выготский, Фрейре и др.) подчеркивали значение нравственности в развитии человека. Классические мыслители считали нравственное воспитание основой общественной гармонии.

Азербайджанские интеллигенты и представители журнала «Молла Насреддин» стремились пробудить общество через просвещение. В литературе образы дьявола и шайтана представлены как символы безнравственности. Человек может нести в себе как ангельские, так и дьявольские черты, но его возвышает нравственность и духовность. Мораль и духовность – основа свободы, самопознания и совершенства человека. По мнению великих личностей, любовь, чистая мораль и искренняя духовность являются основой человечности. Человек, живущий по нравственным ценностям, возвышает как себя, так и общество.

Ключевые слова: *нравственно-духовные ценности, формирование личности, духовность, философия морали, общечеловеческие ценности, ценности*

Cəmiyyətin inkişafında və fərdlərin formalaşmasında əxlaqi-mənəvi dəyərlər mühüm rol oynayır. Bu dəyərlər insanın davranışlarını tənzimləyən, onun ictimai mühitə uyğunlaşmasını təmin edən və şəxsiyyət kimi yetişməsinə yardım edən əsas amillərdəndir. Tarix boyu mütəfəkkirlər əxlaqi-mənəvi dəyərlərin insan həyatına təsiri haqqında müxtəlif baxışlar irəli sürmüş və onların əhəmiyyətini vurğulamışlar.

Fərdin mənəvi keyfiyyətlərinin inkişafı onun şəxsiyyət kimi formalaşmasında əsaslı rol oynayır. Uşaqlıqdan mənimsənilən əxlaqi dəyərlər insanın sosial münasibətlərində, qərar qəbuletmə prosesində və ümumi həyat fəlsəfəsində mühüm yer tutur.

Psixoloq Erik Erikson şəxsiyyətin inkişaf mərhələlərində əxlaqın önəmini vurğulayaraq bildirmişdir ki, dəyərlərin erkən yaşlarda aşılanması insanın gələcək həyat tərzini və davranış modelini müəyyən edir. Bu baxımdan ailə, məktəb və cəmiyyət birlikdə çalışaraq gənc nəslin sağlam əxlaqi dəyərlərlə formalaşmasına töhfə verməlidir.

Yeni dövrdə təhsil və tərbiyə məsələləri daha çox rasional yanaşmalar əsasında təhlil olunmuşdur. John Locke və Jean-Jacques Rousseau kimi filosoflar insan tərbiyəsinin onun gələcək həyatında həlledici rol oynadığını vurğulamışlar.

Locke "Ağ lövhə" (Tabula Rasa) nəzəriyyəsi ilə tanınır və hesab edirdi ki, insanın biliyi və şəxsiyyəti anadangəlmə deyil, həyat boyu əldə edilən təcrübələr nəticəsində formalaşır. O, düzgün tərbiyənin insanın əxlaqi dəyərlərini formalaşdırdığını və onu faydalı bir cəmiyyət üzvü etdiyini bildirirdi.

Rousseau isə "Emil və ya tərbiyə haqqında" adlı əsərində təlim və tərbiyənin insan təbiəti ilə uzlaşmalı olduğunu müdafiə edirdi. Onun fikrincə, uşaqların mənəvi inkişafı üçün onları sərbəst düşünməyə və təbiətə uyğun tərbiyə almağa yönəltmək lazımdır. O, məcburi tərbiyənin əvəzinə, uşaqların öz təcrübələri vasitəsilə əxlaqi dəyərləri mənimsəməsinin daha effektiv olduğunu qeyd edirdi. [5, s.78-83]

Müasir dövrdə təhsil fəlsəfəsi əxlaqi dəyərlərin qorunması və inkişaf etdirilməsi üzərində qurulmuşdur. John Dewey, Lev Vıqotski və Paulo Freire kimi mütəfəkkirlər tərbiyənin insan və cəmiyyət üçün əsaslı əhəmiyyət kəsb etdiyini vurğulamışlar. [4, s.110-113]

John Dewey-in fikrincə, təhsil yalnız nəzəri bilikləri ötürmək deyil, həm də əxlaqi dəyərləri praktik həyatla birləşdirməkdir. O, demokratiyanın inkişafı üçün etik tərbiyənin vacibliyini qeyd etmişdir.

Lev Vıqotski isə sosial mühitin insanın tərbiyəsində və inkişafında əsas rol oynadığını vurğulamışdır. Onun fikrincə, insanın əxlaqi və mənəvi inkişafı kollektiv öyrənmə və sosial qarşılıqlı əlaqə vasitəsilə mümkün olur.

Paulo Freire isə "Azadlıq təhsili" nəzəriyyəsində təhsil sisteminin insanın əxlaqi şüurunu formalaşdırmalı olduğunu bildirirdi. O, təhsilin məqsədinin yalnız informasiya vermək deyil, həm də insanları mənəvi cəhətdən inkişaf etdirmək olduğunu vurğulamışdır.

Filosoflar və alimlər əxlaqi dəyərlərin insan həyatına təsiri ilə bağlı müxtəlif nəzəriyyələr irəli sürmüşlər. Aristotel əxlaqı xoşbəxtliyin və kamilliyin əsası kimi görmüş, insanın fəzilətli olması üçün əxlaqi prinsiplərə əməl etməli olduğunu bildirmişdir. Konfutsi isə cəmiyyətin harmoniya içində olması üçün mənəvi dəyərlərin əsas rol oynadığını vurğulamış və bunların nəsildən-nəslə ötürülməsinin vacibliyini qeyd etmişdir. [2, s.278-288]

İslam fəlsəfəsində əxlaqi dəyərlər insanın ruhən və cismən saflaşmasının əsası kimi qəbul edilir. İmam Qəzzali mənəvi dəyərləri insanın qəlbindəki nur kimi təsvir etmiş və onları inkişaf etdirməklə kamilliyə çatmağın mümkün olduğunu bildirmişdir. Qərb filosoflarından Kant isə insanın əxlaqi öhdəliklərə sahib olduğunu və hərəkətlərini vicdanına uyğun qurmasının vacibliyini önə çəkmişdir.

Böyük mütəfəkkirlər R. Natron, R.S. Volson, S. Halli, A. Pengeviç, N.K. Qonçarov, M. Axundov, S. Şirvani və başqaları mənsub olduqları xalqların inkişafı uğrunda geniş aspektdə maariflənmələri, savadsızlığın aradan qaldırılması, məktəblər açılması uğrunda davamlı və sistemli mübarizələr aparmışlar.

Azərbaycanda "Molla Nəsrəddin"çilərin (M. Cəlilin, Ə. Haqverdiyevin, N. Vəzirovun, M.Ə. Sabirin) xidmətləri danılmazdır. Onların ideyaları və praktik fəaliyyətləri nəticəsində xalq idrak etməyə başladı: qaranlıqdan işığa, elmsizlikdən elmə, cəhalətdən maarifə, azadlığa ilkin addımlar atıldı. Maraqlıdır ki, M. Cəlillə Fridrik Nitşe ideyaları arasında xəyali qohumluq əlaqələri duyuldu.

Dünyanın hazırkı sivilizasiyası zəmanələrin ayrı-ayrı qatlarında minlərlə məğrur, cəfakeş qəvvasların, bir-birini əvəzləyən nəsillərin zəka nurunda möhkəmlənərək kvint-essensiya forması almışdır. Ağıl və zəkanın qüdrətindən doğan mənəvi sərvətlər zəmanələrin dərin qatlarında özünə məskən salmışdır. Bu adi məsələ deyil. Yaşayıb yaradan tək-tək dühaların düşüncələr toplusudur. Onlar uzun bir zəncir kimi uzanıb gələn, əxlaqi-mənəvi düşüncələr bankını zənginləşdirən nəsillərin sərvətidir.

Dünya və Azərbaycan ədəbi düşüncəsində (Hote, Defo, Svifi, Fildinq, Ə. Haqverdiyev, H. Cavid, Y.B. Çəmənzəminli, A. Rəhimov) yaradıcılıqlarında İblis və Şeytan obrazlarının təsvirinə yer ayrılıb. Əslində bunların hər ikisi yaramaz insan tipləridir. Bizə elə gəlir ki, əxlaq-mənəvi dəyərlər mövqeyindən onların xarakterlərinə toxunmaq yerinə düşər. Davranış və düşüncə tərzlərindən asılı olaraq iblis və şeytan simvollaşdırılır. Gedişləri və məqsədləri başqa-başqa olsalar da, onların əqidə və amalları, əməllərinin son nəticəsi də şərtidir, ziyanxorluqdur. Bu yolla onlar yaramazlıqların-əxlaqsızların mənəviyyatsızlıqların "insan-iblis", "şeytan-insan" təbiətini açmağa xidmət eləyirlər. görkəmli psixoloqlardan K. Yunq "Kölgə", Z. Freyd "İd…", K. Xomi İblis və şeytanın hər ikisini insanın qaranlıq tərəfi adlandırır. Bu yazıda iblis və şeytan obrazlarına müraciət etməkdə məqsədimiz hər ikisini əcaib insan şəxsində nifrət doğuracaq fəaliyyətlərini axtarmaq niyyəti güddüyümüzü çatdırmaq olmuşdur.

Professor, yazıçı-dramaturq Ağarəhim Şeytanı belə səciyyələndirir: "Şeytan gah qiyafəsi mələk, gah da görkəmi nebət olan bir vücud, özü hiylə, əməlləri şər! Törətdikləri cinayət! Arxası dəhşət və fəlakət! Həzləri iztirab. Fəaliyyəti sərhədsiz!..

– İblis nədir?

– Şeytana nəzərən məqsəd və əhatəsi məhdud, hissi və duyğusu çılğın! Yalnız özünü düşünən riyakar! Sifətdən-sifətə girən, qəlbləri sıxan, ruhları çaşdıran, günahsızları ovsunlayan qaragüruh!

Bəs insan nədir?!

İnsan rəngdən rəngə boyanan məxluq!

– Özlüyündə hakimi mütləq! İddiasında çabalayan zalım!.. Kimisi mələk, ancaq məni dəhşətli üfunət! Para üçün fitnə fəsad! Nəzəriyyəsi ulu Qüdrət! Əməli şeytan ya da iblis! Başla ürək, ürəklə dil arasında şıdırğı rəqs edən məddah!.. Kimisi də zəki! İnsanı insan edən Ulu ruh! Ümumi məzmun –şeytan da, iblis də, mələk də insan! [6, 158-165]

İnsan ali məxluqdur. Filosofa görə, o, yerin də, göyün də, əşrəfidir. Onun nazik, zərif, həssas dərisi də, vissi-vücüdünü lərzəyə gətirən sinirləri də özünün əxlaqi-mənəvi möhtəşəmliyinin təminatçılarıdır. Dünyaya çeşidli, al-əlvan naxışlar salan da, yaradıcı ruhun törədicisi də, yalnız və yalnız zəngin mənəviyyatdır. O adama əta yolu ilə verilmir. İnsan öz əxlaqı –mənəviyyatı ilə insandır. Dünyanın bütün gözəllikləri və həzzləri onun əxlaq və mənəviyyat üzərində təşəkkül tapır. Əxlaqi-mənəvi dəyərlərə yiyələnməyən insan heç vaxt azad ola bilməz. Azadlıq sözdə deyil, əməldə, ruhda, qanda və candadır. Sağlam əqidədə və sağlam düşüncədədir. Özünüdərkdir, böyük fəzilətdir. Kamillik zirvəsi özünüdərkdir. Bunlarsız şəxsiyyətin formalaşmasından söhbət gedə bilməz. Əxlaq və mənəviyyat insanın əqidə sağlamlığıdır. [1, s.190-195]

İnsanın əxlaqı, elmi, mənəviyyatı isə ruhdur. Ürfan fəlsəfəsinin nümayəndələrinə görə mənəviyyat Allaha etiqadla bağlıdır. V. Şkovski O. Şpanqler, P. Enqeller, S. Mixalkov, Y.A. Ko-

menski və başqalarına görə əxlaqsız nə həyat, nə də mənəviyyat var.

Ruhun qidası daim zənginləşən, durmadan təkmilləşən həyatı biliklərlə, köklə, irslə gələn parlaq ideyalar insan adlı kəhkəşanın içini doldurmaqdan, zənginləşdirməkdən keçmişdir. Bunun əksi baş verdikdə, yaxud insan əxlaqını, öz mənəviyyatını təkmilləşdirməklə məşğul olmadıqda özünü çox zaman içində yaşadığı cəmiyyətə qarşı qoyur, kimlərisə fiziki cəzaya, mənəvi iztirablara düçar eləyir, sonra da nalayiq hərəkətlərinə, naqis davranışlarına görə özünü məzəmmətləyir. Həyat tam mənası ilə sübut etmişdir ki, düzgün əxlaq və saf mənəviyyat insanın cəmiyyət qarşısındakı borcu və məsuliyyətidir. Qəbahətlərinə görə, özünüintihar, özünücəzalandırma insanlığın başlıca məziyyətidir. Cəzalandırma dedikdə heç də o qənaətə gəlmək olmaz ki, insan özünə fiziki cəza verməlidir, özü üçün intihara qapılar açmalıdır. Əsla yox… Heç olmasa, ən azından utanc hissi keçirməlidir. Qəbahəti üçün üzr istəməyi bacarmalıdır. Doğrudur, qəbahətin də, əxlaqsızlığın da həddi var… Özünü təkmilləşdirmə eyni zamanda cəmiyyəti təkmilləşdirmədir.

Böyük dühalara görə, sevgi, məhəbbət, təmiz əxlaq və saf mənəviyyatdan keçir. Sevgi, məhəbbət olmayan yerdə əsəb, nifrət doğular. Qaragüruhlar başlanar. Fəlakət qapıları açılar. Nəticədə insanda heyvani hisslər təzahür eləyər… "Bir budaqda oturub min budağı silkələyər". Həyat fəlsəfəsi tam sübut eləyir ki, insan ümumbəşəri varlıqdı. Onun materialı digər canlılara nisbətən çox qəlizdir. Mürəkkəbdir, çoxüzlüdür. Ağlı-qaralıdır… O özünü təkmilləşdirən də, özü-öz içinə ağlın gözü ilə baxan da yeni, ağlagəlməz bir varlığa çevrilir. İnsanlıq insaniliyə dönür. O ilahi varlıq adlanan böyük qüdrətin də sevimlisinə çevrilər. Bəşəriyyətin də, şəxsin də ruhuna qida verər. Belə olduqda əxlaq da, mənəviyyat da insan əzəmətini ən möhtəşəm zirvədə qərar tutdurar. Heç də təsadüfi deyildir ki, bəşər övladı yarandığı gündən üzünü günəşə tutub, özünü mənən onun ilıq şüalarından isindirməyə çalışıb. O şüalar da, o isindirmələr də, obrazlı desək, əxlaq və mənəviyyat təcəssümünü insan adlı varlıqlara ötürür… Bu sadaladıqlarımız daim insanı bir problemə qarşılaşdırıb. O problem nədir? [7, s. 77-90]

Oxuduqlarımdan, eşitdiklərimdən, həyati müşahidələrimdən, ən həssas duyğularımdan belə qənaətə gəlmişəm ki, əxlaqı saflıq və mənəvi zənginlik şəxsiyyətin formalaşmasının özünü dərkinə aparan yolun ilkin başlanğıcıdır. İnsan, özünü təkmilləşdirdikcə, özü də bilmədən aliləşməyə doğru addımlarını atır, müdriklər demişkən, bəşər tarixindən min illərdi üzü bəri gələn təmizliyə, əxlaqi keyfiyyətlərinin inkişafına can atır, "Özünü dərk et, onda bütün kainatı da, Allahı da dərk etmiş olarsan" qənaətinə gəlir. Mən cəsarətlə deyərdim ki, özünüdərk əxlaq və mənəviyyat dərslərindən keçir. Onun müstəsna dayağı bəşəriyyətin insanilik ruhunda təkmilləşməsidi. Əlbəttə, bu bəşəriyyətin hünərpərvərliklə əldə elədiyi düzgün təhsil, normal tərbiyədən qida alır. Onun ruhundan zinətlənir. Haldanhala düşən müasir dünya, bəşəriyyət heç bir zaman indiki qədər kəskin, ziddiyyətli, qaragüruh, narahat, böhranlı mövqeyə çəkilməmişdir. Bizim fikrimizcə, bundan çəkilməyin bircə yolu var. O, da düzgün təhsil, tərbiyə sistemini həqiqi əxlaqi-mənəvi istiqamətə yönlətmədir. Bu gün bəşəriyyət ciddi sınaqlar qarşısındadı.

Bir çox ənənəvi dəyərlərin üstündən istəsək də, istəməsək də xətt çəkməli oluruq. Şübhəsiz ki, bütün bunlar öz məzmununa uyğun yollar, metodlar tələb eləyir. Bəşəriyyət daha möhtəşəm və mükəmməl axtarışlar məcburiyyətindədir. Onun hədəfi, zənnimizcə, yeni təfəkkür, yeni insan yetişdirməkdir. Bu isə möhtəşəm əxlaq, ülvi mənəviyyatdan keçir. Belə olduğu halda insan təfəkkür baryerini yalnız mükəmməl təhsil və mükəmməl tərbiyə ilə aşa bilər.

Dünyanın görkəmli məfkurə sahibləri Sokrat, Platon, Hannibal, Kromvel, Vova de Raod, A.F. Loman, Stendal və başqaları tarixən öz yaradıcılıqlarında əxlaq və mənəviyyat məsələlərini, şəxsiyyətin formalaşdırılması cəhdlərini daim önə çəkmişlər. Bəzən də onu Allahın insani bəxşeyişi kimi dəyərləndirmişlər. Onlara görə, insanın inkişafı onun boyu-buxunu, həyatdakı mövqeyi, maddi imkanı ilə ölçülmür. İnsanın inkişafi özünün özünə, əxlaqına və mənəviyyatına verdiyi dəyərdir. Əbdülvahid İbn Rəşad, Filip, A.D. Loman… Allah-insan yaradıcılığındakı fərqləri və ümumi ideyaları əxlaq-mənəviyyat baxımından şərh etmişlər. Görkəmli dramaturq Esxil Promoteyi yaradarkən, Allahdan od oğurlayarkən onun ağlının qüdrətinə, əsaslanmışqdır.

Əxlaqi-mənəvi saflığı Promoteyə əsas vermişdi ki, oğurluq nə qədər qeyri-əxlaqi düşüncə olsa da, odun bəşər övladına ötürülməsindəki

fəaliyyətində naqislik, əndazəsizlik görməmiş, yer kürəsindəki zülmətlərə işıq, nur bəxş etmişdir. Doğrudur, o, bu əməlinə görə bədəlini alır. Allah ona ən ağır cəzanı verir. Bədənini və ciyərini yırtıcı quşların ixtiyarına verir. Böyük Füzuli Promoteydən fərqli olaraq bəşəriyyətin eşqini, məhəbbətini əxz edərək Leyli və Məcnunun simasında Allaha ərməğan edir. Onlardan sonra da böyük əzəmət, düha sahibləri bu mütəfəkkirlərin ideyalarına sadiqliklərini göstərməyə çalışmışlar. Avropa və Qərb yazarları hələ vaxtı ilə möhtəşəm əsərlərini (romanlarını) əxlaq və mənəviyyat müstəvisində cəmiyyətə ötürmüşlər. Hər biri insan qəlbinin rütbəsi səviyyəsinə qalxmışlar. Oxucuları da onların yaradıcılığına öz rəğbətlərini bildirmişlər.

"Model insan" insanlığın tacıdır – deyirlər. Onda ən ali dəyərlərin, fəzilətlərin cövhərləri toplanır. Bütün əxlaqi-mənəvi dəyərləri, insani keyfiyyətləri özündə təcəssüm etdirən, onu təcrübəsinə tətbiq eləyən şəxs içərisində yaşadığı cəmiyyətdə model olmaqla həm də şəxsiyyətdir. Sənətindən, peşəsindən, vəzifəsindən, məzhəbindən asılı olmayaraq hamı insandır. Hər kəsin öz istəyi, öz arzusu var. Həyata öz şəxsi tələbi var. Biz nə qədər haqdan, ədalətdən, insanın, xalqın, millətin və eləcə də cəmiyyətin ümumi mənafeyindən danışsaq da, "mən də varam" deyə hökm eləsək də, ürfan fəlsəfəsindən mühazirə oxusaq da, cürbəcür mülahizələr yürütsək də, izimiz yalın, rəngimiz tutqun, boyamız bilinməyən qat-qat təbəqələri olan örtük altındayıq. Bütün hallarda təbəqələrin, örtüklərin kölgəsi altında oyunlar qururuq. Çox danışırıq düzlük, həqiqət, ədalət və hikmət fəlsəfəsindən. Ona olan sonsuz sevgimizdən, məhəbbətimizdən. [3, s.161-167]

Heç də təsadüfi deyildir ki, əlahiddə qələm sahibləri öz bədii əsərlərində bu və ya digər şəkildə əxlaq və mənəviyyat ənənələrini davam etmişlər. O cümlədən Dante, Kamyu, T. Man, M.F. Axundzadə, Mirzə Cəlil, M.Ə. Sabir və s.

Müasir dövrdə pedaqoq alim, yazıçı-dramaturq Ağarəhim "Qüdrətdən doğan nur" fəlsəfi essesində, "Ulu kəndim", "Meteor parçası" povestlərində, "Səfalət", "Girdab" və s. Romanlarında öz sevimli qəhrəmanlarını əxlaqi-mənəvi müstəvidə oxucularına sevdirməyə qadir olmuşdur.

Əxlaq, mənəviyyat məsələsi görkəmli filosofların Sokrat, Platon, Aristotel, Fərabi, Kant, Ferbax və başqalarının da düşüncə və tədqiqat obyektləri olmuşdur. Hər biri ayrı-ayrılıqda insan, onu müəyyənləşdirən atributlar, dünyaya baxışlar sistemi, dünyagörüşləri haqqında bu gün də əhəmiyyətini qoruyub saxlayan ideyalar irəli sürmüşlər. Onlara görə, irrasionallıq İnsan və Yaradanın xarakterik cəhətləridir. İnsan nəcib hiss və həssas duyğuludur, – həm də hirsli, emosional və ehtiraslıdır.

Bir çox ədiblər (Leonardo Da Vinci, Koromvel, Dostoyevski, Tolstoy, Denri Didro, Vilson, Pestalotsi və başqaları) psixoloqlar (C. Kelli, A. Bandura, D. Rotter…) tədqiq etdiyimiz problemlə əlaqədar tutarlı fikirlər söyləmişlər. Onların qənaətləri budur ki, təhsil və tərbiyə əxlaq və mənəviyyatdan ayrılmaz olmaqla, həm də onların inkişafında təcrübəyə yönəli başlıca cəhətlərdir.

Həqiqi insan xüsusi ölçü-biçi, nizam və qaydaları bütün fəaliyyətlərində əks etdirməyə çalışır. Bu əksərən onlar üçün mətin iradə, təcrübə, qabiliyyət, zəhmətə qatlaşma, emosiya… tələb edir. Böyük psixoloq V.M. Veçterviç əxlaqi və mənəvi cəhətdən inkişaf etmiş, şəxsiyyət səviyyəsinə qalxmış, insanlara xüsusi diqqətlə yanaşmışdır. F. Lazerski V.M. Bexterevіç fikirlərini bir qədər də aktuallaşdırır.

İnsan əxlaq və mənəviyyatında sosial-psixoloji determinasiyasını müəyyənləşdirmək imkanlarını əlavə edir. Onların təhtəlşüurdan asılılığına da toxunur. K. Yunq onun analitik psixologiyasında, arxetiplər nəzəriyyəsində əxlaq və mənəviyyat probleminə də toxunur. Əxlaq və mənəviyyatla bağlı Z. Freyd və K. Yunqun ideyaları arasında müəyyən oxşar və fərqli cəhətlər də özünü göstərir. Bu psixoloqların ideyalarında simmetrik və mütənasibliyi də görməmək olmaz. Freyd təhtəlşüuru önə çəkir.

K. Yunq onun tam əksinə getməsə də, kollektiv də kollektiv təhtəlşüuru irəli çəkir. Freydə görə, təhtəlşüurdakı bu psixoloji hallar insanın özünün xəbəri olmadan onun ruhu həyatında, davranışlarında, başqa sözlə, əxlaq və mənəviyyatında müəyyən rol oynayır.

K. Yunqun bu problemə yanaşması daha əhatəli olmaqla, eyni zamanda daha fəlsəfi xarakter daşıyır. O, arxetiplər nəzəriyyəsində yazır "Əcdadlarımızın dünya və eləcə də əxlaq və mənəviyyat haqqındakı təsəvvürləri zaman keçdikcə dəyişir, yeniləri ilə əlaqələnir, nəsillərin təhtəlşüuruna enərək əbədi qalır və irsən nəsildən-

nəslə ötürülür… İnsan şüur səviyyəsində olaraq hər bir şeyi, təhtəlşüur səviyyəsində isə başqa şeydir. Axetip olaraq insanlar bir-birlərinə daha yaxınlaşır, nəinki şəxsiyyət olaraq…"

Həmin ideyalar pedaqoji psixologiyada iki cür şərh olunur. Təfəkkür və təxəyyül mürəkkəb və müxtəlif situasiyalarda idrak fəaliyyətinin zəruri komponentləridir. Həmin amil psixoloji elmi düşüncədə iki cür şərh olunur. Birincisi, həyatı intuisiya (Platon, Şopenhauer, Mel de. Brak Berson…) dərk olunması, ikincisi isə dini-estetik intuisiya və onun metafizik mahiyyətinin (Ksenofan, Sokrat, Avqust…) açılmasıdır. Pedaqoji ideya sahiblərinə görə, əxlaq və mənəviyyata, təhsilə və tərbiyəyə irsiyyətin, pis vərdişlərin mövhumatın təsiri böyükdür.

Əxlaq və mənəviyyat problemi demək olar filosof və pedaqoqların ən çox məşğul olduğu sahələrdəndir. Y.A. Komenski, K.D. Uşinski, A.S. Makarenko, Ə.Ş. Həşimov, A.N. Abbasov, Ə.Ə. Ağayev və başqaları əxlaq və mənəviyyatın tarixi aspektlərinə toxunmuş, onun prinsiplərini, vəzifələrini milli zəmində müəyyənləşdirməyə çalışmışlar. Professorlar H.B. Bayramov və F.N. İbrahimov əxlaq və mənəviyyat məsələsinə düşündürücü aspektdən yanaşırlar. Biz həmin əsəri növbəti bölmədə təhlil edəcəyimizi nəzərə alaraq, burada onun üzərində uzun-uzadı danışmağa lüzum sanmırıq.

Şüurun imkanları hüdudsuzdur. Fasiləsiz olaraq o yeni-yeni maddi və mənəvi informasiyalarla yüklənir, analiz-sintez edilir, təkmilləşir, inkişaf edir. Biz yuxarıda da qeyd etdiyimiz kimi "Mənəviyyat qan yaddaşıdır" hökmünü qəbul etsək, təhtəlşüurda özünə yer tapan şeylərin itib-batdığını, iz qoyduqlarını nəzərə alsaq, deyə bilərik ki, onların hər biri irsən, nəsildən-nəslə əcdadımıza ötürülür. Qan yaddaşımıza ötürdüyümüz folklor detalları zaman keçdikcə bir növ daşlaşır. Gələcək düşüncələrin yuvasına çevrilir. Bu duyumlar insanların əxlaqında özünə əhəmiyyətli yer tapır. İnsanın formalaşması, məzmununun və xarakterinin təkmilləşməsi, dəyərləndirilməsi uğrunda aparılan cəhdləri onun mənəviyyatında müsbət rezonans verir. Təcrübə göstərir ki, dünya inkişaf etdikcə onun mahiyyətinə uyğun olaraq insan da dəyişir. Başqa sözlə, yeni məzmun yeni ağıl, yeni düşüncə yeni baxışlar tələb edir.

Əxlaq və mənəviyyat insani dəyərlərin qarşılıqlı dialektik əlaqəsi olan iki komponentdir. Bunun cövhərlərinin təhsil və tərbiyə işinə bacarıqla tətbiqidir. Müasir dünyada gedən deqradasiyalar, pul imperiyasının gün-gündən çiçəklənməsi, cəmiyyətdə gedən erroziyalar, insanlar arasında insaniliyin itirilməsi, ünsiyyət və ülfətin pozulması… təhsil və tərbiyənin məzmununda yeni keyfiyyət dəyişmələrinin aparılmasını böyük zərurətlə tələb edir.

Jean Piaget əxlaqi inkişafı uşaq və gənclərin təfəkkürlərinin inkişafı ilə əlaqələndirir. O, uşaqların əxlaqi anlayışlarının və qərarlarının zamanla necə dəyişdiyini və inkişaf etdiyini öyrənmişdir. Piaget, uşaqların ilkin mərhələlərdə yalnız cəza və mükafat sisteminə əsaslandığını, ancaq sonradan ədalət, dürüstlük və digər əxlaqi prinsipləri anlamağa başladığını göstərmişdir. Bu nəzəriyyə, əxlaqın təlimin və pedaqoji təsirin bir hissəsi olaraq necə inkişaf etdiyini vurğulayır.

Vıqotskinin sosial inkişaf nəzəriyyəsinə görə, əxlaqi və mənəvi dəyərlər uşaqların sosial mühitdə öyrəndikləri davranışlar və münasibətlər vasitəsilə inkişaf edir. Vıqotsky, uşaqların əxlaqi dəyərləri yalnız ailə və məktəbdən deyil, həm də cəmiyyətin müxtəlif sosial institutlarından öyrəndiklərini bildirir. Onun fikrincə, uşaqların əxlaqi inkişafı, sosial mühitdəki qarşılıqlı əlaqələrlə sıx bağlıdır və müəllimlər və valideynlər bu inkişafda əsas rol oynayır.

Cəmiyyətdə humanitar elm sahələrinin inkişafı üçün yeni əxlaq və mənəviyyatı keyfiyyətcə gücləndirəcək istiqamətlərin genişləndirilməsi və araşdırılması üzrə işləri intesivləşdirir. Bununla əlaqədar Azərbaycanda humanitar elm sahələrinin, təhsilin, tərbiyənin inkişafında da ciddi keyfiyyət dəyişiklikləri aparılmalı, köhnə fikirlərdən, yarıtmaz, şablon düşüncələrdən, plagiat xarakterli əsərlərdən əl çəkilməlidir. Başqa sözlə, insandan insan yetişdirmək gələcək nəsilləri insanilik ruhunda tərbiyə etməyə, əxlaqi-mənəvi dəyərlərini yüksəltməyə, qapılar açmağa şərait yaradan təhsil məzmununun formalaşdırılmasıdır.

Təhsil sistemi uşaqlara və gənclərə yalnız akademik biliklər verməklə kifayətlənməməli, eyni zamanda onları mənəvi baxımdan yetişdirməlidir. Müəllimlər və valideynlər uşaqlara dürüstlük, əməkdaşlıq, empatiya və məsuliyyət kimi dəyərləri aşılamaq üçün pedaqoji yanaşmalardan istifadə etməlidirlər. Finlandiya, Yaponiya və Almaniya kimi ölkələrin təhsil sistemində əxlaqi-mənəvi tərbiyənin xüsusi yer tutması bu

cəmiyyətlərin uzunmüddətli inkişafına töhfə verir.

John Dewey təhsil sistemində əxlaqın əsas yer tutmalı olduğunu qeyd etmişdir. Onun fikrincə, məktəblər yalnız bilik ötürməklə kifayətlənməməli, uşaqların əxlaqi şüurunu və etik dəyərlərini formalaşdırmalıdır. UNESCO-nun son illərdə apardığı araşdırmalar göstərir ki, əxlaqi dəyərlər üzərində qurulmuş təhsil sistemi daha inklüziv və davamlı inkişaf üçün zəmin yaradır.

Əxlaqi-mənəvi dəyərlər cəmiyyətin və fərdlərin inkişafında mühüm rol oynayır. Onların qorunması və yeni nəsillərə ötürülməsi üçün təhsil sisteminin və sosial institutların üzərinə böyük məsuliyyət düşür. Gələcək nəsillər üçün daha dayanıqlı və harmonik bir cəmiyyət qurmaq məqsədilə əxlaqi-mənəvi dəyərlərə daha çox diqqət yetirilməlidir.

Beləliklə, əxlaq və mənəviyyatyönlü təhsil və tərbiyənin optimal təşkili bütövlükdə əxlaqi keyfiyyətlərin bütün komponentlərinin dərindən elmi əsaslarla, düşünülmüş sistemlə mənimsənilməsinə böyük güc verir. Bunun üçün problemin mahiyyətinin dərk olunması, kurikulum və dərsliklərin, pedaqoji ədəbiyyatın, məktəb təcrübəsinin öyrənilməsi, öyrənənlərin potensial imkanlarının araşdırılması, təlimin metod və priyomlarının təkmilləşdirilməsi mikromühitin (ailə, məktəb, radio, televiziya və s.) nəzərə alınması şəxsiyyətin əxlaqına təsiri və intellektual səviyyəsinin müəyyənləşdirilməsi problemin həllində mütləq nəzərə alınmalıdır.

Problemin aktuallığı. Müasir dövrdə insanın mənəvi və əxlaqi tərbiyəsi cəmiyyət üçün xüsusi əhəmiyyət kəsb edir. Qloballaşma və informasiya bolluğu şəraitində gənclər arasında əxlaqi dəyərlərin itməsi müşahidə olunur. Ailə və məktəb kimi əsas tərbiyəverici institutların bu sahədə rolu zəifləməkdədir. Əxlaqi zəiflik sosial məsuliyyətsizlik, empatiya çatışmazlığı və ictimai etimadsızlıq kimi problemlərə yol açır. Bu səbəbdən, insan tərbiyəsində mənəviyyat və əxlaq anlayışlarının yenidən gündəmə gətirilməsi vacibdir. Problemin həm pedaqoji, həm də sosial aspektdə araşdırılması zəruridir.

Problemin elmi yeniliyi. Mövzuya müasir elmi yanaşma onu fərqli aspektlərdən dəyərləndirməyə imkan verir. Əxlaq və mənəviyyat artıq yalnız fəlsəfi deyil, həm də psixoloji və pedaqoji baxımdan təhlil olunur. Tədqiqatda bu dəyərlərin insanın sosiallaşmasına və psixoloji inkişafına təsiri araşdırılır. Yeni yanaşma interdisciplinar – yəni çoxşaxəli – yanaşma ilə əlaqədardır. Elmi yenilik həm də təhsil sistemində əxlaqi tərbiyəyə dair yeni modellərin işlənməsində əks olunur. Bu baxımdan, mövzu tədqiqatçılar üçün aktual və yenilikçi bir sahədir.

Problemin praktik əhəmiyyəti. Əxlaqi tərbiyə insanın cəmiyyətə uyğunlaşmasında və sosial davranışlarının formalaşmasında mühüm rol oynayır. Bu tədqiqat müəllimlər və valideynlər üçün əxlaqi tərbiyə metodlarını təkmilləşdirməyə imkan verir. Məktəblərdə və ailələrdə mənəvi dəyərlərin təşviqi uşaqlarda məsuliyyət, empatiya və hörmət kimi keyfiyyətlərin inkişafını dəstəkləyir. Nəticələr təlim proqramlarına, maarifləndirici tədbirlərə və davranış problemlərinin qarşısının alınmasına tətbiq oluna bilər. Problemin praktikliyi həm təhsil sisteminə, həm də ictimai münasibətlərə müsbət təsir göstərir. Bu səbəbdən mövzu yalnız nəzəri deyil, gündəlik həyat üçün də aktualdır.

Ədəbiyyat

1. Tusi, N. Əxlaqi-nasiri / N. Tusi. - Bakı: Elm, - 1989. - 256 s.
2. Əlizadə, Ə.Ə. Sosial pedaqogika: Dərs vəsaiti. / Ə.Ə. Əlizadə, P.M Mahmudova. - Bakı: BDU, - 2013. - 368 s.
3. Abbasov, A.N. Pedaqogika: Dərs vəsaiti. /A.N. Abbasov. - Bakı: Mütərcim, - 2010. - 344 s.
4. Abbasov, A.N. Milli əxlaq və ailə estetikası / A.N. Abbasov. - Bakı: Mütərcim, -2016. - 324 s.
5. Əhmədov, H.H. Pedaqogika / H. H. Əhmədov. - Bakı: ABU, - 2006. - 292 s.
6. Rəhimov, A.N. Qüdrətdən doğan nur / A.N. Rəhimov. - Bakı: Mütərcim, - 2021. -396 s.
7. Rəhimov, A.N. Zəka simfoniyası / A.N. Rəhimov. - Bakı: BAPQS, - 1999. -123s.

Redaksiyaya daxil olub: 03.06.2025

UOT 378.4:303.722

Nigar Rəhman qızı Hüseynova,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
https://orcid.org/0009-0004-8637-9054
E-mail: nigar.amrah@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(4).57-60

TƏHSİL SİSTEMİNİN İDARƏ EDİLMƏSİNDƏ TƏTBİQ OLUNAN İNNOVATİV MODELLƏR

Nigar Rahman Huseynova,
lecturer at
Azerbaijan State Pedagogical University,

INNOVATIVE MODELS APPLIED IN THE MANAGEMENT OF THE EDUCATION SYSTEM

Нигяр Рахман гызы Гусейнова,
преподаватель Азербайджанского Государственного Педагогического Университета

ИННОВАЦИОННЫЕ МОДЕЛИ, ПРИМЕНЯЕМЫЕ В УПРАВЛЕНИИ СИСТЕМОЙ ОБРАЗОВАНИЯ

Xülasə. Ölkə miqyasında idarəetmə innovasiyalarının səmərəliliyinin meyarları kimi şagirdlərin tədris-şəxsiyyət nailiyyətlərini şərtləndirən təhsil fəaliyyətinin keyfiyyətinin təmin edilməsinə istiqamətlənmək yaxşı olardı. Təhsil sisteminin idarə edilməsi səviyyəsində innovativ davranış strategiyası aktiv-öyrəşmədən aktiv-uyğunlaşmaya qədər dəyişdirilə bilər. Birinci halda idarə sistemi təhsilin daxilində dəyişikliyə doğru istiqamətlənir, xarici, sosial, mədəni, hüquqi, iqtisadi mühitin dəyişikliklərinə uyğunlaşdırmağa yönəlir. İkinci halda idarə səviyyəsində innovasiya yalnız xarici mühitin tələbinə uyğun olaraq, təhsil sisteminin dəyişilməsinə istiqamətlənmiş deyil, həm də təhsil məqsədlərinin həyata keçirilməsi üçün onun imkanlarından istifadə etmək məqsədilə təhsil üçün xarici mühitə təsir edir. Fəal-adaptasiyaedici innovasiya strategiyası cəmiyyətdə dəyişilmənin yüksək sürətinə daha uyğundur. Təhsilin idarəetmə orqanları digər regional sistemlərə münasibətdə sifarişçi sifətilə çıxış etdiyi zaman o, təhsildə dövlət siyasətinin həyata keçirilməsinin aparıcı üsulunu özü təmsil edir. Bununla da təhsil sistemi daxilində mühitin dəyişilməsi üçün şərait yaratmaqla təhsil üçün xarici mühitə məqsədyönlü təsir imkanları həyata keçirilir. Sistemli strategiya perspektivdə təhsil tələblərinin dəyişikliklərini proqnozlaşdırır, orta müddətli və daha uzaq perspektivə proqram-məqsədli planlaşdırma metodundan istifadə edir, bütövlükdə təhsili yenidən təşkil etməyə imkan verən prioritet həlqələri, hissələri müəyyənləşdirir, müxtəlif yeniliklər arasında əlaqəni, uzlaşmanı təmin edir.
Açar sözlər: *innovativ yanaşmalar, təhsil, inkişaf, tədris prosesi*

Abstract. It would be good to focus on ensuring the quality of educational activities that determine the educational and personal achievements of students as criteria for the effectiveness of management innovations on a national scale. At the level of management of the education system, the strategy of innovative behavior can be changed from active-learning to active-adaptation. In the first case, the management system is oriented towards changes within education, aimed at adapting to changes in the external, social, cultural, legal, economic environment. In the second case, innovation at the management level is not only aimed at changing the education system in accordance with the requirements of the external environment, but also affects the external environment for education in order to use its capabilities to implement educational goals. The active-adaptive innovation strategy is more suitable for the high pace of change in society. When the management bodies of education act as a customer in relation to other regional systems, it represents the leading method of implementing state policy in education. Thus, by creating

conditions for changing the environment within the education system, the possibilities of purposeful influence on the external environment for education are realized. A systematic strategy predicts changes in educational requirements in the future, uses a program-targeted planning method for the medium and longer term, identifies priority areas and parts that allow for the reorganization of education as a whole, and ensures the connection and coordination between various innovations.
***Keywords**: innovative approaches, education, development, educational process*

Аннотация. Целесообразно было бы сосредоточиться на обеспечении качества образовательной деятельности, определяющей образовательные и личностные достижения обучающихся как критерии эффективности управленческих инноваций в масштабах страны. На уровне управления системой образования стратегия инновационного поведения может быть изменена с активно-обучающей на активно-адаптационную. В первом случае система управления ориентирована на изменения внутри образования, адаптируя его к изменениям внешней, социальной, культурной, правовой и экономической среды. Во втором случае инновации на уровне управления направлены не только на изменение системы образования в соответствии с требованиями внешней среды, но и оказывают воздействие на внешнюю для образования среду с целью использования ее возможностей для достижения образовательных целей. Активно-адаптивная инновационная стратегия больше подходит для высоких темпов изменений в обществе. Когда органы управления образованием выступают в роли заказчиков по отношению к другим региональным системам, они сами представляют собой ведущий метод реализации государственной политики в сфере образования. Таким образом, создавая условия для изменения среды внутри системы образования, реализуются возможности целенаправленного воздействия на внешнюю среду образования. Системная стратегия прогнозирует изменения образовательных потребностей в долгосрочной перспективе, использует программно-целевой метод планирования на средне- и долгосрочную перспективу, выявляет приоритетные направления и части, позволяющие реорганизовать образование в целом, обеспечивает связь и координацию между различными инновациями.
***Ключевые слова:** инновационные подходы, образование, развитие, учебный процесс*

Pedaqoji menecment təhsil prosesinin subyektlərinin maraqları, tələbləri, ehtiyacları və motivləri istiqamətlərini xarakterizə edir. Pedaqoji menecmentin məqsədi – təhsil müəssisəsinin idarə edilməsinin optimallaşdırılmasıdır. Optimal idarəetmə insanlara diqqətlə yanaşmanı, onların ləyaqət və üstünlüklərini, imkanlarını nəzərə almağı tələb edir. Təhsil müəssisəsində bütün proseslər əlaqəli olur, çünki o, pedaqoji prosesdir. Ona görə də, bu sistemin idarə edilməsi nə qədər effektiv olarsa, hər bir şagird və pedaqoq bir o qədər çox müvəffəqiyyət əldə edər. Təhsil müəssisəsinin əsas məqsədləri məhz idarəetmə vasitəsilə həyata keçirilir. Ümumiyyətlə, orta ümumtəhsil müəssisələrinin idarə olunmasında həmişə müəyyən problemlər olmuşdur, lakin cəmiyyətin inkişafı, təhsil sahəsində islahatların həyata keçirilməsi, dünya təhsil sisteminə inteqrasiya və s. ilə əlaqədar olaraq problemlər də çoxalır və işin təkmilləşdirilməsi sahəsində görüləcək işlərin sayı artır. Bunun üçün həmin problemlərin həll edilməsi sahəsində müvafiq addımların atılması üçün öncə onların aşkara çıxarılması, müəyyən edilməsi vacibdir [1].

İdarəetmənin elmi əsasını elmi biliklər sistemi təşkil edir. Elmi biliklər idarəetmə praktikasının nəzəri əsasını təşkil edir. Ümumiyyətlə, idarəetmə dedikdə məqsədəuyğun qərarlar qəbul etməyə, idarə olunan obyekti təşkil etməyə, ona nəzarət etməyə, tənzimləməyə yönəldilmiş fəaliyyət, düzgün informasiya əsasında işin təhlili və onun yekunlaşdırılması başa düşülür. Bioloji, texniki, sosial sistemlər idarəetmə obyekti ola bilərlər. Sosial sistemlərin növlərindən biri ölkə, şəhər, rayon və s. miqyasında fəaliyyət göstərən təhsil sistemidir. Respublikanın Elm və Təhsil Nazirliyi, şəhər, rayon təhsil şöbələri idarəetmə sisteminin subyektləri kimi çıxış edirlər. Mürəkkəb, dinamik sosial sistem olan ümum-təhsil orta məktəbi məktəbdaxili idarəetmənin obyektidir. Məktəbdaxili idarəetmə optimal nəticələr əldə etmək üçün tam pedaqoji prosesin iştirakçılarının məqsədyönlü, şüurlu qarşılıqlı təsiridir.

Hazırkı dövrdə dünyanın bir çox ölkələrində gənc nəslin təhsili və tərbiyəsi çox önəmlidir. Həmçinin, ABŞ, Qərbi Avropa, Yaponiya, Rusiya və digər nüfuzlu ölkələrin təhsil idarəçiliyi təcrübəsinə qazandırılan qazanclar və töhfələr bütün dünya ölkələrinə təsir göstərmişdir.

Dünyada təhsilin idarə olunmasına dair elmi məlumatlar da Azərbaycan təhsil sistemində geniş müzakirə mövzularından biri olmuşdur. Bu cəhətdən əksər ölkələrin Avropa təhsil sahəsinə inteqrasiyası ilə əsas çıxış yolu hər bir ölkə-

nin təhsilini özünəməxsus xüsusiyyətlərinə uyğun müəyyənləşdirmək idi.

Bu gün dünya vahid deyil, ona görə də vahid təhsil modeli ola bilməz. Bununla belə, biz ölkələri az və çox inkişaf etmiş ölkələrə bölürük, onlardan nümunə götürmək üçün ən vacib olanları seçirik və nəticədə müasir inkişaf etmiş cəmiyyətdə istənilən insan nümunəsi müəyyən edilə bilər. Azərbaycanın böyük ölkələrdə təhsil tarixi özünün zəngin ənənələri, qüdrətli ideyaları, mütəfəkkirləri, parlaq əməlləri, təhsil islahatları ilə tanınır. İstər X-XI əsrlərdə, istərsə də orta əsrlərdə, istər XIX əsrdə, istərsə də ötən əsrin əvvəllərində sosial-mədəni fikir sahəsində dəyişikliklər, cəmiyyətdə oyanış, təhsilin sayəsində inkişaf etdi.

Müasir dövrdə dünyanın təhsil meridianında baş verən sürətli dəyişikliklər Azərbaycan təhsilinə və onun idarə edilməsinə öz təsirini göstərmişdir. Bu təsir bu gün də davam edir. Müstəqil Azərbaycan özünün dünyəvi milli və humanist təhsil sistemini yaratmağa çalışır.

İslahat fəaliyyəti kimi 90-cı illərdən başlanan bu maarifləndirmə işinin əsas məqsədi müasirliyə nail olmaq, dünya inkişaf tendensiyalarına inteqrasiya etmək, yeni düşüncə tərzinə malik yaradıcı şəxsiyyətin formalaşdırılması olmuşdur. Bu yaradıcılıq prosesində innovasiyaların səmərəliliyi, onların öyrənilməsi və fəaliyyətinin yüksəldilməsi əsas vəzifə kimi qəbul edilmişdir. Bu səbəbdən də dünya təhsil ocaqlarında yaxşı olan hər şey tədqiq edilmiş, fikirlərdən süzülmüş və bütün bunların əsasında Azərbaycan üçün faydalı və vacib olan təhsilin idarə edilməsi mexanizmlərinin yaradılmasına çalışılmış və bu iş hələ də davam edir. Bütün digər sahələrdə olduğu kimi, təhsilin idarə edilməsində də köklü irəliləyişlər əldə edilmişdir.

Dünya universitetlərində ən mühüm inkişaf tendensiyalarından biri təhsilin qloballaşmasıdır. Bir çox ölkələrin təhsil sistemləri vahid təhsil sahəsi və təhsil standartları yaratmağa çalışır. III minilliyin birinci onilliyində Azərbaycanın təhsil, siyasi, iqtisadi və s. sahələrdə böyük dəyişikliklər, yeniliklər olub həmçinin bu sahələrdə müəyyən uğurlar əldə edilmişdir.

Azərbaycanda təhsilin dünya təhsil sisteminə, xüsusən də Avropa təhsil məkanındakı ali təhsil ocaqlarına inteqrasiyası prosesi Prezident İlham Əliyevin Bolonya Bəyannaməsinin tələblərinin həyata keçirilməsinin sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında imzaladığı mühüm sənəddir.

Dünyada ali təhsilin inkişafının ən mühüm tendensiyalarından biri təhsilin qloballaşmasıdır. Bir çox ölkələrin təhsil sistemləri vahid təhsil sahəsi və təhsil standartları yaratmağa çalışır. Bu prosesin əsas amili Azərbaycanın 2005-ci ildə qoşulduğu Boloniya prosesidir. Son zamanlar Azərbaycanda təhsil, siyasi, sosial, iqtisadi və s. sahələrdə böyük dəyişikliklər, yeniliklər olub və bu sahələrdə müəyyən uğurlar əldə edilmişdir.

Ölkəmizdə kurikulum islahatı aparılır və cəmiyyətimizin bütün sahələrində olduğu kimi təhsil sahəsində də yeni təhsil standartları tətbiq edilir. Kurikuluma dair hərtərəfli biliyi ümumi təhsili və dünyanın müxtəlif universitetlərini öyrənməklə əldə etmək olar. Əgər biz Amerika və Qərbi Avropa ölkələrinə yaxınlaşmaq istəyiriksə, ona necə yanaşmaq barədə düşünməli və ya bu ölkələrin təhsil və idarəetmə təcrübəsinin strukturunu və təkamülünü daha dərindən araşdırmalıyıq. İnkişaf etmiş Avropa ölkələrində təhsilin idarə edilməsi təcrübəsinin yoxlanılması, idarəetmənin təşkili, metod və prinsiplərlə tanışlıq, xarici təhsil ekspertlərinin rəyləri və s. bizə lazım olan nəticəyə diqqət yetirməyə imkan verir.

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının üçüncü strateji istiqaməti "təhsildə hesabatlı, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasını nəzərdə tutur. Bu istiqamətə qabaqcıl beynəlxalq təcrübə əsasında təhsil sisteminin tənzimlənməsi və idarə edilməsinin müasirləşdirilməsi, təhsil müəssisələrində nəticəyönlü və şəffaf idarəetmə modelinin yaradılması, keyfiyyətin təminatı və təhsilin idarə olunması üçün yeni məlumat və hesabat sistemlərinin yaradılması kimi məqsədlər daxildir" [6]

İnkişaf etmiş dünya ölkələrinin təcrübəsindən aydın olur ki, təhsildə idarəetmənin ictimailəşməsi prosesi sürətlənməkdədir.

Məktəbi idarəetmə nəzəriyyəsi məktəbdaxili menecment nəzəriyyəsi ilə əhəmiyyətli şəkildə tamamlanır. Menecerin (məktəbi idarə edən) fəaliyyəti öz əməkdaşlarına hörmət və etibar əsasında, işdə uğur qazanmaq üçün onlara şərait yaratmaq əsasında qurulur [5].

Məktəb pedaqoji sistemdir və elmi idarə etmənin obyektidir. Bu, təhsili təşkil edənlərin,

rəhbər şəxslərin, müəllimlərin, şagirdlərin məqsədlərini müəyyənləşdirmək və nəticələrə nail olmaq üçün şəraiti yaratmaq, məzmunu seçmək, təhsil-tərbiyə işində müxtəlif vasitələrdən, forma və metodlardan istifadə etmək deməkdir. Belə halda idarəetmə pedaqoji sistemin məqsədə uyğunluğunu və bu sistemi təşkil edən komponentlərin yeniləşməsinə səmərəli təsir göstərmək imkanını saxlayır. Pedaqoji sistemdə müəllimlərlə şagirdlərin birgə fəaliyyəti mühüm amildir. Məktəbin məqsədi şəxsiyyətin mədəni inkişafının əsasını formalaşdırmaqdır. Bu əsas intellektual, əxlaqi, estetik, əmək, ekoloji, hüquqi və şəxsiyyətin digər mədəni aspektlərini birləşdirir. Ümumi məqsəd təhsil-tərbiyə işinin ayrı-ayrı istiqamətləri üzrə məqsədlərdə konkretləşdirilir.

Təhsil sisteminin innovativ idarə edilməsində məqsədə uyğun hissələri müəyyənləşdirən yalnız əsas istiqamətləri ayırırıq. Təhsil sisteminin öz işlərinin layihələşdirilən, planlaşdırılan, arzu olunan nəticələrini özündə birləşdirən, təmsil edən fəaliyyətinin məqsədləri təhsil xidmətlərinin fərdi istehlakçılarının – şagirdlərin və valideynlərin, bütövlükdə cəmiyyətin ehtiyacları, tələbləri ilə təyin olunur, bu isə təhsilin əsas sifarişçisinin – dövlətin simasında təhsilin təminatını və sosial vacib minimumunu müəyyənləşdirir. Ümumi təhsilin sosial məna ifadə edən son məqsədi məzunların sosial, iqtisadi, professional, mədəni və digər sistemlərə uğurla qoşulmasına imkan yaradan belə tədris-şəxsi nailiyyətlərin şagirdlər üçün təmin edilməsidir. Dünənki məktəblilərin bazar münasibətlərinin reallıqlarına fəal uyğunlaşmaya hazır olmaları və sosial cəhətdən qəbul edilən yollarla öz imkanlarına uyğun adekvat statusu təmin etmələrinə təhsil müəssisələrinin fəaliyyətinin əsas məqsədi və ölkənin davamlı inkişafının əsas şərti kimi baxmaq lazımdır. Bu məqsəd təhsildə idarəetmə innovasiyalarının istiqamətlərini, məzmununu və nəticələrini müəyyən etməlidir [4]. O, innovativ idarəetmə fəaliyyətləri sistemində digər məsələlərdən, hissələrdən də asılıdır. Təhsilin idarə edilməsinin innovativ modelinin işlənib hazırlanması, xüsusilə də həyata keçirilməsi ərazi, tədris müəssisələri, ayrı-ayrı pedaqoqlar səviyyəsində tədris fəaliyyətinin keyfiyyətinin monitorinq sisteminin hazırlanmasını tələb edir. Ölkə səviyyəsində yalnız təhsilin vəziyyətində meydana çıxan tendensiyaların təhlili əsasında əsaslı idarəetmə innovasiyaları mümkündür.

Problemin aktuallığı. Bu məqalənin aktuallığı ondan ibarətdir ki, təhsil sisteminin innovativ idarəetmə modelinin işlənib hazırlanması sahəsində yeniliklər hər zaman gündəmdədir.

Problemin elmi yeniliyi. Bu mövzuda geniş araşdırmalar aparılmış və bu tədqiqatlar məqalədə öz əksini tapmışdır.

Problemin tətbiqi əhəmiyyəti. Bir çox pedaqoqlar elm sahəsində çalışan elm xadimləri bu mövzu ilə bağlı tədqiqatlarında bu materialdan istifadə edə bilərlər.

Ədəbiyyat

1. Hüseynzadə, R.L. Pedaqogika. / R.L. Hüseynzadə, Z.M. Əzizova, S.H. Əliyev, Ü.M. Verdiyeva. – Bakı: Mütərcim, – 2021. – 488 s.
2. İbrahimov, F. Pedaqogika. Dərslik / F. İbrahimov, R. Hüseynzadə. – Bakı: Mütərcim, –c.I. – 2013. – 708 s.
3. İsgəndərova, S. Tədris prosesində motivasiya sahəsinin idarə olunmasının psixoloji xüsusiyyətləri. // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 85, № 3, – 2018. səh.187-190
4. Qasımova, L., Mahmudova R. Pedaqogika. Dərslik / L. Qasımova, R. Mahmudova. -Bakı: Çaşıoğlu, – 2012. – 548 s.
5. Paşayev, Ə. Pedaqogika: Yeni kurs. Dərs vəsaiti / Ə. Paşayev, F. Rüstəmov. – Bakı: Nurlan, – 2007. – 464 s.
6. Rüstəmov, F.A. Ali məktəb pedaqogikası: Dərslik / F. Rüstəmov, T. Dadaşova. – Bakı: Nurlan, – 2007. – 568 s.

Redaksiyaya daxil olub: 03.06.2025

UOT 372.851

Firidə Firudin qızı Mustafayeva,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Şamaxı filialının kafedra müdiri, pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.orq/0000-0001-8264-9097
E-mail: firide.mustafayeva@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(4).61-65

ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA TƏFƏKKÜR BACARIQLARININ ƏHƏMİYYƏTİ

Firida Firudin Mustafayeva,
head of the department of the Shamakhi branch of
Azerbaijan State Pedagogical University,
doctor of philosophy in pedagogy

THE IMPORTANCE OF THINKING SKILLS IN THE FORMATION OF PERSONALITY

Фирида Фирудин гызы Мустафаева,
заведующий кафедрой Шамахинского филиала Азербайджанского Государственного Педагогического Университета, доктор философии по педагогике

ЗНАЧЕНИЕ НАВЫКОВ МЫШЛЕНИЯ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ

Xülasə. İbtidai siniflərdə riyaziyyatın sərbəst şəkildə mənimsənilməsində şagirdlər müəyyən çətinliklə qarşılaşırlar. Bu çətinlik məsələnin müstəqil surətdə həll edilməsində daha çox özünü göstərir. Kiçik məktəblilər məsələ şərtində təsvir edilən konkret situasiyanın qeyri mühüm tərəflərindən ayrılaraq oradakı mücərrəd riyazi asılılıqları müstəqil ayırmaqda çətinlik çəkirlər. Həmin çətinliyi aradan qaldırmaq və prosesi asanlaşdırmaq üçün bu mücərrəd asılılıqları maksimal dərəcədə konkretləşdirməyə imkan verən təlim üsulunun tapılması zəruridir. Belə üsullardan biri təlimdə qrafik təsvirlərdən istifadə edilməsi ola bilər.
Açar sözlər: *qrafik təsvir, təfəkkür, əyanilik, ibtidai sinif, problemli situasiya*

Abstract. In elementary grades, students encounter certain difficulties in independently mastering mathematics. This difficulty is most evident in independently solving the problem. Younger schoolchildren have difficulty separating the unimportant aspects of the specific situation described in the problem statement and independently separating the abstract mathematical dependencies therein. In order to overcome this difficulty and facilitate the process, it is necessary to find a teaching method that allows these abstract dependencies to be maximally concretized. One of such methods may be the use of graphic images in teaching.
Key words: *graphic image, thinking, visuality, elementary school, problem situation*

Аннотация. В начальных классах учащиеся сталкиваются с определенными трудностями при самостоятельном освоении математики. Эта трудность становится еще более очевидной при самостоятельном решении задач. Младшие школьники испытывают трудности в самостоятельном выделении абстрактных математических зависимостей в конкретной ситуации, описанной в условии задачи, отделении ее от несущественных аспектов. Чтобы преодолеть эту трудность и упростить процесс, необходимо найти метод обучения, позволяющий максимально конкретизировать эти абстрактные зависимости. Одним из таких методов может стать использование графических представлений в обучении.
Ключевые слова: *графическое изображение, мышление, наглядность, начальный класс, проблемная ситуация.*

Qrafik ifadə riyazi asılılıqların mücərrəd və ümumiləşdiril miş ifadəsidir. Eyni zamanda o, konkret planda məsələ həllini əyaniləşdirməyin müəyyən növlərindən biridir. Bu konkretlik də öz növbəsində tamamilə nisbidir. Psixoloji ədəbiyyatda qeyd edildiyi kimi, artıq əyani obrazın özü təfəkkürdə müəyyən sxematikliyə gətirilir. Əyani obrazın qrafik təsvirlərdə bu sxematikləşməsi konkretlik xarakterini itirmədən ən tam yekunlaşmaya çevrilir. Mücərrədlik və konkretliyin qrafik ifadələrdə bu şəkildə birləşməsi məsələ həll edərkən təfəkkür prosesində mücərrəddən konkretə, həmçinin, tərsinə, konkretdən, əyanidən daha mücərrədə keçdikdə qrafik təsvirlərdən istifadə etmək bacarığı şagirdlərə riyazi asılılıqları daha asan müəyyən etməyə, analiz və sintezin müəyyən şəraitdə ümumiləşmiş metoduna çevrilə bilər.

Məktəblilərdə qrafiklər üzərində əməliyyat aparmaq bacarıqlarının əmələ gəlməsi hazırkı şəraitdə xüsusi əhəmiyyət kəsb edir. Problem situasiyanı qrafik təsvir formasında təqdim etmək, qrafik ifadədə problemin həllini görmək – «çertyoju oxumaq» kimi mühüm politexnik bacarıqları bir qayda olaraq, şagirdlərdə sistematik şəkildə formalaşmır.

Maddi aləmin dərk olunması prosesi obyektiv reallığı dərk etməyin dialektik yolu olan canlı müşahidədən, mücərrəd təfəkkürə, ondan da praktikaya prinsipi ilə səciyyələnir. Deməli idrak cisim və hadisələrin canlı surətdə müşahidə etməkdən başlayaraq özünün daha yüksək pilləsinə – mücərrəd təfəkkür səviyyəsinə yüksəlir. İdrak özünün yüksək pilləsinə çatıncaya qədər bir sıra mərhələlərdən keçir.

Təfəkkür prosesində insan qanunauyğun əlaqələr və asılılıqları təsadüfi əlaqələr və asılılıqlardan fərqləndirir, ayrı-ayrı hallardan ümumi hallara keçir, varlığı ümumiləşmiş halda əks etdirir.

Təfəkkürün köməyilə bilavasitə bizə təsir etməyən əlaqə və münasibətləri də dərk edə bilirik. Deməli, təfəkkür cisim və hadisələr arasındakı qanunauyğun əlaqə və asılılıqların ümumiləşmiş və vasitəli inikasından ibarət olan mürəkkəb idrak prosesidir. Təfəkkürün bir neçə xarakterik xüsusiyyəti vardır. Həmin xüsusiyyətlərlə təfəkkür başqa psixi proseslərdən, xüsusən, duyğu və qavrayışlardan fərqlənir. Bu xüsusiyyətlər aşağıdakılardır:

a) Təfəkkür varlığın ümumiləşmiş inikasıdır. Onun ümumilik dərəcəsi digər psixi proseslərin ümumiliyindən keyfiyyətcə fərqlənir;

b) Təfəkkür varlığın vasitəli inikasıdır. İnsan bilavasitə duyub qavraya bildiyi cisim və hadisələri təfəkkürün köməyi ilə asanlıqla dərk edir, cisim və hadisələr arasındakı qanunauyğun əlaqələri müəyyən edir, həyatda və praktik fəaliyyətdə cisim və hadisələrdən müvəffəqiyyətlə istifadə edir;

c) Təfəkkür dillə vəhdət təşkil edir, onları bir-birindən ayırmaq və ya eyniləşdirmək mümkün deyildir. Təfəkkür dil materiallarında ifadə olunur. Bu, varlığı daha ümumiləşmiş şəkildə əks etdirməyə imkan verir.

Təfəkkür həmişə müəyyən sualdan başlayıb, bu suala cavab axtarmaq prosesində cisim və hadisələr arasındakı əlaqə və münasibətlər əks etdirilir. Yəni, təfəkkür müəyyən sualda ifa də olunan məsələlərin həll edilməsi ilə bağlı olan idrak prosesidir. Təfəkkür müəyyən məsələnin həllinə, suala cavab tapmağa yönəlmiş olduğundan məqsədyönlü idrak prosesi hesab edilir. Deməli, qarşıya çıxan suala cavab vermək təfəkkürün əsas məqsədidir. Lakin hər bir suala cavab tapmaq bilavasitə mümkün olmur. Bunun üçün müxtəlif biliklərdən, təsəvvürlərdən, anlayışlardan, üsul və qaydalardan istifadə olunur. Bunlardan istifadə etməklə müəyyən əqli əməliyyatlar aparılır. Müəyyən faktlar seçilib təhlil edilir, lazım olanları götürülür, qalanları isə rədd edilir.

Nəhayət, insana aydın olur ki, nəyi bilir, nəyi isə hələ bilmir, hansı təsəvvür və anlayışlardan istifadə etmək olar, hansılardan yox. Məsələni həll etməyə müvəffəq olan insan özü üçün yeni rabitələr sistemi yaradır ki, bu sistem də onun əldə etdiyi biliklərin məzmununu təşkil edir. Deməli, yeni əlaqələrin, rabitələrin yaranması insanın qarşıya çıxan yeni məsələləri həll etməsi deməkdir.

Nəzərə almaq lazımdır ki, qarşıya çıxan məsələnin həlli müxtəlif yollarla həyata keçirilir. Yəni, hər bir fikir prosesində müxtəlif əməliyyatlardan (müqayisə, ümumiləşdirmə, analiz, sintez və s.) istifadə edilir. Lakin bəzi məsələlərin həllində insan birdən-birə düzgün nəticəyə gələ bilmir. Çox zaman bu, qarşıya qoyulan sualın düzgün olmaması ilə əlaqədardır. Əlaqələrin düz gün yaradılmamasından da səhvlər əmələ

gələ bilər. Təfəkkür cisim və hadisələr arasındakı əlaqələri aşkar etmir və ayrı-ayrı hallardan ümumi hallara keçir, yəni varlığı ümumiləşmiş şəkildə əks etdirir. Ən sadə ümumiləşdirmə ilk və ən sadə məfhumlar (hökmlər, əqli nəticələr) yaradılması göstərir ki, insan aləmin daha dərin obyektiv əlaqələrini dərk edir.

Deməli, insan məhz təfəkkür vasitəsilə ətraf varlığı daha dərindən, tam və dəqiq şəkildə əks etdirir, ətraf aləm haqqında müəyyən biliyə malik olur. Həyat təcrübəsində və ya bilavasitə fəaliyyət zamanı həmin biliklərdən istifadə edir.

Məktəblilərin təlim fəaliyyətində də təfəkkürün böyük əhəmiyyəti vardır. Çünki fəaliyyətin hər bir növü (təlim, oyunvə s.) müəyyən sualın, problemin, fikri və ya əməli məsələnin həllini tələb edir. Buna görə də təfəkkür hər bir fəaliyyətin planlaşdırılması və yerinə yetirilməsi üçün zəruridir. Aydındır ki, təfəkkür olmadan şagirdlər heç bir təlim materialını dərindən dərk edə bilməzlər, onları sadəcə olaraq qavrayar, mahiyyətini isə başa düşə bilməzlər. Buna görə də təlim prosesində şagird təfəkkürünün inkişaf etdirilməsi çox böyük əhəmiyyətə malikdir. Təlim şagirdlərdə fikri fəaliyyətin ümumi metodlarını inkişaf etdirməlidir. Başqa sözlə, təlim məktəblilərə zehni bacarıq verməlidir.

Digər tərəfdən uşağın eşitdiyi sözlər konkret fəaliyyətlə birləşməlidir. Bununla da uşaqların konkret fəaliyyəti üçün zəmin yaranmış olur. Təfəkkür fəaliyyəti isə məsələlərin həlli üçün əsas vasitəyə çevrilir.

Bununla yanaşı, uşaqların təfəkkürünü inkişaf etdirməküçün müxtəlif variantlı məsələlərdən də istifadə olunmalıdır. Bu,uşaqların qavrayışının ümumiləşməsinə, öyrəndikləri hərəkətləri tətbiq etmək bacarıqlarına yiyələnmələrinə səbəb olar. Belə bır şərait yaradıldığı halda uşaqlarda təfəkkürün başlanğıc formaları daim inkişaf edə bilər.

Riyazi təfəkkür dedikdə:

1) insanın konkret riyaziyyat elmini dərk etməsi prosesində və ya riyaziyyatın başqa elmlərə, texnikaya, xalq təsərrüfatına və s. tətbiqi prosesində dialektik təfəkkürün baş verdiyi forma

2) riyaziyyat elminin öz təbiəti, onun real gerçəklik hadisələrinin dərk edilməsinə tətbiq edilən metodları, həmçinin bu zaman istifadə edilən ümumi təfəkkür üsulları ilə bağlı xüsusiyyətləri başa düşülür.

Göründüyü kimi, riyazi təfəkkür, ümumiyyətlə, təfəkkürün məxsus olduğu xarakteristikaya tam cavab verir. Bütün elmi mücərrədləşmələr təbiəti daha dərindən, tam əks etdirir. Mükəmməl riyazi təfəkkür hər şeydən əvvəl dialektik təfəkkürdür. Riyazi təfəkkür dialektik təfəkkür olmaqla təbii elmi təfəkkürdür və ona görə də elmi təfəkkürə məxsus olan bir çox xassələrə malikdir.

Təbii elmi təfəkkür elmi problemlərin həllinin ona uyğun olan bacarıqlar tərəfdən mərhələlərlə həyata keçirilməsi ilə xarakterizə oluna bilər. Belə bacarıqların məcmusu aşağıdakı elementlərdən ibarət olan təbii idrak metodunu təyin edir:

- problemin dərk olunması, onun dəqiq təyin edilməsi və başqa problemlərdən ayrılması; verilmiş problemlə bağlı bütün vəziyyətlərin öyrənilməsi;
- problemin həllinin axtarılmasının planlaşdırılması; onun ən böyük ehtimal olunan həllinin seçilməsi;
- hipotezin yoxlanılması üzrə eksperimentin planlaşdırılması və keçirilməsi;
- nəticələrin əsaslandırılması və keçirilməsi;
- həllin optimal üsulunun seçilməsi;
- eyni faktların fəaliyyət göstərdiyi yeni situasiyalarda nəticələrin yayılması.

Riyazi təfəkkür prosesində təfəkkürün müəyyən keyfiyyətləri (çeviklik, fəza təsəvvürü, zəruri olanları seçmək bacarığı və s.) fəal iştirak edir və təfəkkürün bu xüsusiyyətləri elmi təfəkkürün keyfiyyətləri adlanaraq xüsusi didaktik əhəmiyyət malikdirlər.

Təfəkkürün çevikliyi dərketmə probleminin həlli üsullarını məqsədə uyğun şəkildə dəyişdirmək bacarığı, problemin bir həll yolundan digərinə keçidin asanlığı; istifadə edilmiş fəaliyyət üsullarının sərhədlərindən çıxmaq bacarığı; verilən şərtlərin dəyişdirilməsi ilə problemin yeni həll üsullarının tapılması; yeni biliyin mənimsənilməsi və təcrübənin toplanması hüdudlarında mənimsənilmiş biliklər sistemini dəyişdirmək bacarığı ilə xarakterizə olunur. Təsadüfi deyildir ki, təfəkkür çevikliyini A. Eynşteyn «Yaradıcılığın xarakterik cizgisi» adlandırmışdır.

Təfəkkürün çevikliyinin antipodu təfəkkürün kütlüyü vəya şablonluğudur. Təfəkkürün şablonluğu ixtiraçılıq, yaradıcılıq fəaliyyətində olduqca ciddi maneədir və çox vaxt təlimin nəticəsi kimi özünün göstərir və bir çox şagirdlər

üçün xarakterikdir. Qeyri şablon təfəkkürün inkişafının ən yüksək səviyyəsi təfəkkürün orijinallığıdır. Təfəkkürün orijinallığı hər şeydən əvvəl təfəkkürün dərinliyinin nəticəsi kimi özünü göstərir. Təfəkkürün dərinliyi ən mühüm olanı ikinci dərəcəlidən ayırmaq, mühakimənin məntiqi strukturunu müəyyən etmək, «inama əsasən» qəbul olunma ilə ciddi isbat olunanı ayırmaq, riyazi mətndə əsas olanları seçib götürmək bacarığında istifadə olunur. Hər hansı problemin həlli zamanı məqsədə yönəltməklə əməliyyatların seçilib səmərəli həyata keçirilməsi cəhdi, həmçinin ona çatmaq üçün ən qısa yolu axtarmaq cəhdləri təfəkkürün məqsədyönlülüyünü xarakterizə edir. Bu keyfiyyət şagirdlərə bir sıra məsələləri daha əlverişli üsulla həll etməyə imkan verir.

Təfəkkürün məqsədyönlülüyü şəxsiyyətin hər şeyi bilmək istəyi kimi mənəvi keyfiyyəti ilə sıx əlaqədardır. Hər şeyi bilmək istəyi məhz öz məqsədyönlülüyü səbəbi üzrə insanın biliyini və təcrübəsini zənginləşdirir.

Təfəkkürün nəzərdən keçirilən bütün keyfiyyətləri yalnız təfəkkür fəallığının təzahür etməsi ilə baş verə bilər. Təfəkkürün fəallığı hər hansı problemin həllinə yönəldilmiş cəhdin daimiliyi, qoyulan problemi hökmən həll etmək həvəsi, onun həllinə müxtəlif yanaşmaların öyrənilməsi, şərtlərin dəyişdirilməsindən asılı olaraq bu problemin qoyuluşunun müxtəlif variantlarının tədqiq edilməsi ilə xarakterizə olunur.

Şagirdlərin təfəkkür fəallığı, həmçinin eyni bir məsələni müxtəlif üsullarla həll etmək həvəsi, eyni bir riyazi anlayışın müxtəlif tərifləri, alınan nəticənin tədqiq edilməsinə müraciət və s. ilə ifadə edilir. Riyaziyyatda təlimin keyfiyyəti və səmərəliliyi yalnız şagirdlərin proqramda nəzərdə tutulan bilik, bacarıq və vərdişlər sisteminə yiyələnməsi ilə deyil, həmçinin onların riyazi inkişaf səviyyəsi, biliklərə yiyələnmənin hazırlıq dərəcəsi, məktəb riyaziyyat kursunun məzmununa daxil olan məlumatlardan əsas olanlarını müəyyənləşdirib mənimsəmək və yadda saxlamaq bacarığının formalaşdırılması ilə müəyyən edilir. Beləliklə, şagirdlərdə təfəkkürün müəyyən keyfiyyətləri, səmərəli tədris əməyinin vərdişləri, idrak marağının inkişafı formalaşmalıdır. Ona görə də məktəbdə riyaziyyat təliminin təkmilləşdirilməsinin çoxsaylı problemləri içərisində şagirdlərdə riyazi təfəkkürün formalaşdırılması və inkişaf etdirilməsi böyük əhəmiyyət kəsb edir.

Tədris fənni kimi riyaziyyatın xüsusiyyəti elədir ki, onun təlimi şagirdlərin təfəkkürünün inkişafına güclü təsir göstərir. Şagirdlərin təfəkkürünün inkişafı isə təlim fəaliyyəti prosesində təfəkkür üsullarının formalaşdırılması ilə sıx bağlıdır. Bu təfəkkür üsulları (analiz, sintez, ümumiləşdirmə, mücərrədləşdirmə) elmi tədqiqatda, xüsusilə riyaziyyatın təlimi prosesində (o cümlədən, məsələ həllində) özünü açıq-aydın spesifik metodlar kimi göstərir. Ənənəvi təlimdən fərqli olaraq müasir təlim şagirdlərin təfəkkürünün inkişafını idarəedici prosessor, təfəkkürün əsas üsullarını isə mənimsəmənin xüsusi obyekti etmək cəhdi ilə xarakterizə olunur. Riyaziyyat elminin və riyaziyyatın təlimi metodikasının təkamülü dövründə «riyazi təfəkkür» anlayışına daxil edilən məzmun dəyişmiş və riyaziyyatın təlimi prosesində təfəkkürün inkişafı probleminin rolu əhəmiyyətli dərəcədə də artmışdır.

Şübhə yoxdur ki, təlim və inkişaf arasında müəyyən əlaqə mövcuddur. Bu əlaqədən danışarkən tanınmış kibernetik A.A. Feldbaum psixoloqların fikirlərinə şərik çıxaraq qeyd edir ki, təlim və inkişaf məsələlərini bir-birindən ayırmaq olmaz. Fikrini davam etdirərək o, yazmışdır: «Məlumatlar yığımının təlim prosesində rolu böyükdür, lakin həlledici deyildir. İnsan onun keyfiyyətlərinin təkmilləşdiyi bazada çoxlu konkret faktları unuda bilər. Lakin bu keyfiyyətlər yüksək səviyyəyə çatmışsa, onda insan mürəkkəb məsələlərin öhdəsindən gələcəkdir.

Problemin elmi yeniliyi. İbtidai siniflərin riyaziyyat kursunun təlimində şagird təfəkkürünün inkişafına qrafik təsvir vasitələrinin təsir imkanları araşdırılmış, təlimin səmərəliliyini təmin edən qrafik təsvirlərdən istifadə edilməsinin imkan və yollarını göstərilmişdir.

Problemin praktik əhəmiyyəti ondan ibarətdir ki, riyaziyyatın təlimində ibtidai sinif şagirdlərinin təfəkkürünün inkişaf etdirilməsində qrafik təsvirlərdən səmərəli istifadə edilməsinə dair məqalədə irəli sürülən ideyalar və metodik tövsiyələrdən çoxsaylı ibtidai sinif müəllimləri faydalana bilərlər.

Problemin aktuallığı. Son illər Respublikamızda təhsilə, xüsusən, ibtidai siniflərdə riyazi təhsilə dövlətin qayğısı və tələbləri artmaqdadır. Azərbaycanda təhsilin dünya ölkələri təhsilinə inteqrasiyası davam edir. Müasir mərhələdə ibtidai siniflərin riyaziyyat kursu təliminin vəzifələri şagirdlərdə yalnız hesablama və ölçmə bacarıqlarının əldə edilməsi ilə məhdudlaşmır. Kiçik məktəblilərdə yalnız mücər-

rəd təfəkkür deyil, həm də konkret təfəkkür məhdud dərəcədə inkişaf etdiyindən konkret təfəkkürün daha mürəkkəb formalarının inkişaf etdirilməsi məqsədi ilə təlimin sonrakı mərhələsində də əyanilikdən istifadə edilməsi zəruridir.

Ədəbiyyat

1. Əlizadə, X. Düşün tap. / X. Əlizadə. – Bakı, – 2003. - s. 38-43
2. Kazımov, Z., Tağıyeva, S. Riyaziyyat təlimində inkişafetdirici çalışmalardan istifadə yolları (I-IV siniflər). / Z. Kazımov, S. Tağıyeva. – Bakı, – 2017. -s. 56-65
3. Mustafazadə, S.V. 3-4 sinifdə riyaziyyat kursunda inkişafetdirici məsələlərin rolu və əhəmiyyəti. – Bakı, – 2017. - s. 97-102
4. Богомолова, О.Б. Логические задачи. / О.Б. Богомолова. – Москва, – 2013. – 277 с.
5. Mustafayeva, F.F. Riyaziyyat təlimində inkişafetdirici çalışmalardan istifadə yolları (I-IV siniflər). / F.F. Mustafayeva. – Bakı, – 2019. - s.122-136
6. Mustafayeva, F.F. Riyaziyyat təlimində qrafik təsvirlərdən istifadə (I-IV siniflər) /. – Bakı: Elm və təhsil, – 2019. - s.77-81

Redaksiyaya daxil olub: 10.06.2025

UOT 372.851

Valeh Mahmud oğlu Məmmədov,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi
https://orcid.orq/0009-0009-6631-5295
E-mail: memmedovvaleh41@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(4).66-69

Musa Tapdıq oğlu Rzayev,
Azərbaycan Dövlət Pedaqoji Universitetin baş müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.orq/0000-0002-5141-177X
E-mail: musa.rzayev.73@mail.ru

MODUL DAXİL OLAN BƏRABƏRSİZLİKLƏRİN ÖYRƏDİLMƏSİ TƏCRÜBƏSİNDƏN

Valeh Mammad Mammadov,
senior lecturer at
Azerbaijan State Pedagogical University

Musa Tapdig Rzayev,
senior lecturer at Azerbaijan State Pedagogical University,
doctor of philosophy in pedagogy

FROM THE EXPERIENCE OF TEACHING INEQUALITIES INCLUDED IN THE MODULE

Валех Мамед оглы Мамедов,
старший преподаватель Азербайджанского Государственного Педагогического Университета

Муса Тапдыг оглы Рзаев,
старший преподаватель
Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике

ИЗ ОПЫТА ОБУЧЕНИЯ НЕРАВЕНСТВАМ, ВХОДЯЩИМ В МОДУЛЬ

Xülasə. Məqalə məktəb riyaziyyat təliminin "Cəbr və funksiyalar" məzmun xəttinə daxil olan bərabərsizliklər mövzusunu əhatə edir. Modul daxilində bərabərsizliklərin həlli ilə əlaqədar məktəb müəllimləri və şagirdləri müəyyən çətinliklərlə rastlaşırlar. Bu məqsədlə modul daxil bərabərsizliklərin həlli yolları həm nəzəri həm də praktik cəhətdən geniş şəkildə şərh edilmişdir. Digər tərəfdən məqalədə buraxılış sinifləri və qəbul imtahanına hazırlaşan abituriyentlərin riyaziyyatdan imtahanda qarşılaşdıqları modul daxil olan bərabərsizliklərin həllinə aid bəzi çalışmaların həlli verilmişdir. İş təcrübəsində əldə olunmuş nəticələrdən istifadə olunmuşdur.

***Açar sözlər**: modul, bərabərsizlik, eynigüclü, standart, interval, üsul, çətinlik, dərəcə, çalışma, tənlik, müsbət və mənfi, funksiya, ədəd oxu*

Abstract. The article covers the topic of inequalities included in the content of "Algebra and Functions" in school mathematics education. School teachers and students encounter certain difficulties in solving inequalities within the module. For this purpose, the ways of solving inequalities included in the module are widely explained both the oretically and practically. On the other hand, the article provides solutions to some exercises related to solving inequalities included in the module that final year students and applicants preparing for the entrance exam encounter in the mathematics exam. The results obtained in work experience were used.

Keywords: *modulus, inequality, equipotent, standard, interval, method, difficulty, degree, exercise, equation, positive and negative, function, number reading*

Аннотация. В статье рассматривается тема неравенств, входящая в содержание курса «Алгебра и функции» школьного математического образования. Школьные учителя и учащиеся сталкиваются с определенными трудностями при решении проблем неравенства в рамках модуля. Для этой цели способы решения модульных неравенств были подробно объяснены как теоретически, так и практически. С другой стороны, в статье приводятся решения некоторых заданий на неравенства, входящих в модуль экзамена по математике, с которыми сталкиваются абитуриенты, готовящиеся к выпускным и вступительным экзаменам. Были использованы результаты, полученные в ходе производственной практики.

Ключевые слова: *модуль, неравенство, равносильный, стандарт, интервал, метод, сложность, степень, упражнение, уравнение, положительное и отрицательное, функция, чтение чисел*

Hazırda şagirdlər buraxılış və qəbul imtahanı verməlidirlər. Bu heç də asan deyildir, çünki burada ancaq son sinfin materialı yox, həm də VII-XI siniflərin proqramı materiallarını əhatə edən çalışmalar daxil edilir.

Şagirdlər üçün adi olmayan bir çox tapşırıqlar əvvəlkilərdən fərqli olur. Elə ona görə də müəllimlərin qarşısında yeni məsələlər durur:-yeni materialı öyrətməklə yanaşı, əvvəlki mövzular da təkrar olunmalıdır. Bu çətinliklri yox etmək üçün müəllimlərə bəzi metodik köməklik göstərməyə çalışacağıq.

Əslində imtahanlarda təklif olunan çalışmalar çətinliyinə görə müxtəlif olmuşdur, lakin biz həmin çalışmaların həllinin müxtəlif üsulla və səmərəli aparılması üçün çətinlik dərəcəsi olan nümunələri göstərməyə çalışacağıq. Burada şagirdlərin həm buraxılış, həm də qəbul imtahanlarında qarşılaşdıqları müxtəlif məsələləri əhatə edəcəyik. Bu çalışmaların həllində müxtəlif ideyalardan istifadə olunduğu əhatə olunacaqdır. Tənlik və bərabərsizliklərin eynigüclü olması üçün aşağıdakı münasibətləri qısa göstərək:

1. Əgər$f(x), g(x), h(x)$ funksiyaları X çoxluğunda təyin olunmuşdursa, onda həmin çoxluqda $f(x) < g(x) \Leftrightarrow f(x) + h(x) < g(x) + h(x)$;

$f(x) = g(x) \Leftrightarrow f(x) + h(x) = g(x) + h(x)$ doğrudur.

2. Əgər X çoxluğunda $h(x) > 0$ olarsa, onda həmin çoxluqda. $f(x) < g(x) \Leftrightarrow f(x) \cdot h(x) < g(x) \cdot h(x)$ olar. Yəni bərabərsizliyi müsbət funksiyaya vursaq, bərabərsizliyin işarəsi dəyişmir.

3. Əgər X çoxluğunda $h(x) \neq 0$ olarsa, onda həmin çoxluqda, $f(x) = g(x) \Leftrightarrow f(x) \cdot h(x) = g(x) \cdot h(x)$ doğrudur.

4. Əgər X çoxluğunda $h(x) < 0$ olarsa, onda X çoxluğunda $f(x) < g(x) \Leftrightarrow f(x) \cdot h(x) > g(x) \cdot h(x)$ doğrudur. Yəni bərabərsizliyi mənfi funksiyaya vursaq, bərabərsizliyin işarəsi əksinə dəyişir.

5. Əgər X çoxluğunda $f(x) \geq 0, g(x) \geq 0$ olarsa, onda X çoxluğunda

$f(x) < g(x) \leftrightarrow f^2(x) < g^2(x)$; $f(x) = g(x) \leftrightarrow f^2(x) = g^2(x)$,

$f(x) \leq g(x) \leftrightarrow f^2(x) \leq g^2(x)$ doğrudur [1].



Əgər bərabərsizliyin sağ və sol tərəfləri müxtəlif işarəlidirsə, onda bərabərsizliyi kvadrata yüksəltmək olmaz, çünki alınan bərabərsizlik əvvəlki bərabərsizliklə eynigüclü olmaya bilər: $-2 < 3$ və $4 < 25$; $-8 < 5$ və ya $64 < 25$

Çox vaxt modul daxil olan bərabərsizliklərin həlli üçün ədəd oxunu elə aralıqlara bölmək lazım gəlir ki, modul işarəsi altındakı funksiya hər bir aralıqda işarəsini müsbət müsbət və ya mənfi olduğunu saxlasın. Burada hər bir aralıqda bərabərsizliyi modulsuz yazmaq olar. Belə olduqda modula açılması deyilir.

$|f(x)| < g(x), |f(x)| > g(x), |f(x)| > |g(x)|$ şəklindəki bərabərsizlikləri üçün $f(x)$ və $g(x)$ funksiyalarının işarələrindən istifadənin mənasının olmaması eynigüclülük şərtində istifadə olunur [1].

Hər hansı a nöqtəsində $f(x) < g(x)$ bərabərsizliyi ödənilir, onda $-g(a) > 0$ və $|f(a)| < g(a)$ olar.

Onda, $-g(a) < f(a) < g(a)$ bərabərsizliyi ödənilir, ədəd oxunda göstərək, və ya əksinə hər hansı a nöqtəsində $-g(a) < f(a) < g(a)$ bərabərsizliyi ödənilir.

Onda, əvvəlcə $-g(a) < g(a) \Leftrightarrow g(a) \Leftrightarrow g(a) > 0$, sonra $|f(a)| < g(a)$ olar. Nəticədə, $|f(x)| < g(x) \Leftrightarrow -g(x) < f(x) < g(x) \Leftrightarrow \begin{cases} f(x) < g(x) \\ f(x) > -g(x) \end{cases}$ (1) olar. İndi isə misal nümunəsinə baxaq: Misal. $|x-a| + |x-2| + a - 4 \le 0$ bərabərsizliyinin a-nın bütün qiymətlərində doğru olduğunu göstərin.

$|x-a| + |x-2| + a - 4 \le 0 \Leftrightarrow |x-a| \le 4 - a - |x-2| \Leftrightarrow$

$\Leftrightarrow \begin{cases} x - a \le 4 - a - |x-2|, \\ x - a \ge a - 4 + |x-2| \end{cases} \Leftrightarrow \begin{cases} |x-2| \le 4 - x, \\ |x - 2 \le x - 2a + 4| \end{cases} \Leftrightarrow$



$$\Leftrightarrow \begin{cases} x - 2 \le 4 - x \\ x - 2 \ge x - 4 \\ x - 2 \le x - 2a + 4 \\ x - 2 \ge 2a - x - 4 \end{cases} \Leftrightarrow \begin{cases} x \le 3, \\ a \le 3, \\ x \ge a - 1 \end{cases}$$

Ədəd oxu üzərində göstərək; Bərabərsizliyin həlli $[a-1; 3]$ olar.

$a > 3$ olduqda həlli yoxdur, $a \in (-\infty; 3]$ olduqda $a - 1 \le x \le 3$ olar. $|f(x)| > g(x)$ şəklində olan bərabərsizliyə baxaq;

• Əgər $g(x) < 0$ olarsa,onda modul mənfi olmayan qiymət alır və həmişə ixtiyari mənfi ədəddən böyük olur.

• Əgər $g(x) \ge 0$ olarsa,onda $\begin{bmatrix} f(x) > g(x) \\ f(x) < -g(x) \end{bmatrix}$ bərabərsizliklər çoxluğu ədəd oxu üzərindəki kimi olar.

Və yaxud tərsinə hər hansı $x = a$ nöqtəsində $\begin{bmatrix} f(a) > g(a) \\ f(a) < -g(a) \end{bmatrix}$ olduğu nəzərə alınır.



• Əgər $g(a) < 0$ olarsa,onda $|f(a)| > g(a)$ bərabərsizliyi ödənilir.

• Əgər $g(a) \ge 0$ olarsa, (şəkildən göründüyü kimi) $\big||x^2 + 5 - 18| - x^2\big| \ge 18 - x$ bərabərsizliyinin həllinə baxaq:

Əvvəlcə bərabərsizliyi çevirək;

$$\big||x^2 + 5 - 18| - x^2\big| \ge 18 - x \Leftrightarrow \begin{bmatrix} |x^2 + 5 - 18| - x^2 \ge 18 - x, \\ |x^2 + 5 - 18| - x^2 \le 18 + 2; \end{bmatrix}$$

$$\Leftrightarrow \begin{bmatrix} |x^2 + 5x - 18| \ge x^2 - x + 18, \\ |x^2 + 5x - 18| \le x^2 + x - 18; \end{bmatrix} \Leftrightarrow \begin{bmatrix} x^2 + 5 - 18 \ge x^2 - x + 18, \\ x^2 + 5 - 18 \le -x^2 + x - 18; \\ x^2 + 5 - 18 \le x^2 + x - 18, \\ x^2 + 5 - 18 \ge -x^2 - x + 18 \end{bmatrix}$$

$$\Leftrightarrow \begin{bmatrix} x \ge 6, \\ x(x+2) \le 0; \\ \begin{cases} x \le 0 \\ (x+6)(x-3) \ge 0 \end{cases} \end{bmatrix} \Leftrightarrow \begin{bmatrix} x \ge 6 \\ x \in [-2; 0], \\ x \le -6. \end{bmatrix}$$

Cavab: $(-8; -6] \cup [-2; 0] \cup [6; \infty.)$ [4]

• İndi $|f(x)| < |g(x)|$ şəklindəki bərabərsizliyin həllinə baxaq:

Əvvəlcə $|f(x)| - |g(x)|$ fərqinə baxaq. O, istənilən işarəli ola bilər, $|f(x)| + |g(x)|$ cəmi həmişə mənfi olmayacaq, fərqin cəmə hasili bərabərsizliyin işarəsini dəyişməyəcək. Buradan aşağıdakı qaydalar alınar.

• $|f(x)| - |g(x)|$ modulların fərqinin işarəsi,

$(|f(x)| + |g(x)|) \cdot \big(f(x) - g(x)\big)$ hasilinin işarəsi ilə eynidir. Buradan, xüsusi halda;

• g(x)≥ 0 olduqda, $|f(x) - g(x)|$ işarəsi $\big(f(x) - g(x)\big) * (f(x) + g(x))$ hasilinin işarəsi ilə eyni olar. Beləliklə, eynigüclülük haqqında yeni şərt alınar. $|f(x)| < |g(x)| \Leftrightarrow \big(f(x) - g(x)\big) \cdot \big(f(x) + g(x)\big) < 0.$ (3)

(3)-ün tətbiqinə aid çalışmaya baxaq:

$|4x^3 - x + 7| \leq |2x^3 + 5x + 3|$ həll edin.

$$|4x^3 - x + 7| \leq |2x^3 + 5x + 3| \Leftrightarrow (6x^3 + 4x + 10) * (2x^3 - 6x + 4) \leq 0$$
$$\Leftrightarrow (3x^3 + 2x + 5)(x^3 - 3x + 2) = (x + 1)(3x^2 - 3x + 5)(x - 1)(x^2 + x - 2)$$
$$\leq 0 \Leftrightarrow (x - 1)^2(x + 1)(x + 2) \leq 0.$$

İntervallar metodu ilə həll etsək $x \in [-2; -1] \cup \{1\}$ olar [2].

Riyaziyyat dərslərində çalışmalar həllində riyaziyyata xüsusi meyl və maraq göstərən şagirdlərlə işlədikdə müsbət nəticə əldə etmək olur. Şagirdlərin heç də əksəriyyəti maraq göstərmir, onu da nəzərə almaq vacibdir. Çünki hazırda heç də bütün müəllimlər, şagirdlərini elmi ideyaları dərindən öyrətməyə səy göstərmir. Səbəbləri araşdırılmalı məsələlərdir. Yaradıcı müəllimlərimiz çoxdur, çətinliklərə iş prosesində üstün gələcəklər.

Problemin aktuallığı. Bu gün abituriyentlərin rast gəldikləri ən böyük çətinliklərdən biri modul daxilində bərabərsizliklərin həllidir. Bu nöqteyi-nəzərdən hazırlanmış məqalə öz aktuallığı ilə xüsusi əhəmiyyət kəsb edir.

Problemin elmi yeniliyi. Müxtəlif üsullardan istifadə edərək modul daxilində bərabərsizliklərin həlli gələcək tələbələrin elmi-praktik vərdişlərinin yüksəldilməsinə, onların gələcək təhsillərini uğurla həyata keçirməsinə və yaxud mənimsəmənin optimallığını təmin etməyə müsbət təsir edir.

Problemin praktik əhəmiyyəti. Məqalə hazırlıq kurslarında çalışan müəllimlər və şagirdlər üçün o cümlədən, tədqiqatçılar üçün faydalıdır.

Ədəbiyyat

1. Elementar cəbr: Ali məktəblər üçün dərs vəsaiti / A.S. Adıgözəlov, N.Z. Hacıyev, X.S. Həsənova, M.T. Rzayev- Bakı: Elm və təhsil,–2012.- 347 s.
2. Osmanov, Ə.C., Riyaziyyatdan qəbul imtahanlarında təklif olunmuş məsələlər: Metodik vəsait. / Ə.C. Osmanov, İ.K. Məhərov. -Bakı: Maarif,-1991. -256 s.
3. Ömərov A.C. Bərabərsizliklər. Metodik vəsait. /A.C. Ömərov. -Bakı: Tərəqqi, -2010. -56 s.
4. Колесникова С.И. Математика. Интенсивный курс / С.И. Колесникова. -Москва: Педагогика, -2004. -405 с.

Redaksiyaya daxil olub: 02.06.2025

UOT 372.853

Севиндж Хазай гызы Джалилова,
доцент
Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике,
https://orcid.org0000-0002-4753- 2835
E-mail: sevinjjalilova@yahoo.com
https://doi.org/10.69682/arti.2025.92(4).70-77

ПРИНЦИПЫ МОДУЛЬНОСТИ В РЕАЛИЗАЦИИ ИНТЕГРИРОВАННОГО ОБУЧЕНИЯ ФИЗИКЕ

Sevinc Xazay qızı Cəlilova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru

FİZİKA FƏNNİNİN İNTEQRASİYA OLUNMUŞ TƏDRİSİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ MODULLAŞDIRMA PRİNSPLİƏRİ

Sevinj Xazay Jalilova
associate professor at Azerbaijan State Pedagogical University
doctor of philosophy in pedagogy

MODULARITY PRINCIPLES IN THE IMPLEMENTATION OF INTEGRATED PHYSICS EDUCATION

Аннотация. В статье представлены результаты исследования, цель которого заключалась в обосновании необходимости соблюдения принципа модульности в реализации интегрированного обучения физике студентов педагогического направления подготовки. Исследование продолжает изучение педагогической стратегии интегрированного обучения, результаты которого представлены нами в другой статье, и представляет в качестве результата непосредственно механизм модулирования образовательного процесса в вузе. Новизна исследования определяется его результатами, открывающими возможность для формирования педагогического инструментария и разработки посредством него алгоритма построения теоретических и практических занятий. Результат исследования указывает на возможность преодоления выявленных в образовательной системе противоречий путем поэтапного решения ряда задач алгоритмизации содержательного блока дисциплины. В образовательной практике результат исследования могут быть использованы при организации образовательного процесса в последовательности его реализации с целью повышении качества профессиональной подготовки учителей физики.

Ключевые слова: *физика; моделирование; модульность обучения; структурная декомпозиция графа упорядочения*

Xülasə. Məqalədə pedaqoji ixtisas hazırlığı üzrə təhsil alan tələbələrin fizika fənni üzrə inteqrativ tədrisin həyata keçirilməsində modul prinsipinin gözlənilməsinin zəruriliyinin əsaslandırılmasına yönəlmiş tədqiqatın nəticələri təqdim olunub. Tədqiqat, nəticələri bizim digər məqaləmizdə təqdim olunmuş inteqrativ tədrisə dair pedaqoji strategiyanın öyrənilməsinin davamıdır və ali təhsil müəssisəsində tədris prosesinin modelləşdirilməsi mexanizmini birbaşa nəticə kimi təqdim edir. Tədqiqatın yeniliyi onun nəticələri ilə müəyyən olunur, bu nəticələr isə pedaqoji alətlərin formalaşdırılmasına və bu alətlər vasitəsilə nəzəri və praktiki dərslərin qurulması üçün alqoritmin hazırlanmasına imkan yaradır. Tədqiqatın nəticələri təhsil sistemində aşkar edilmiş ziddiyyətlərin aradan qaldırılmasının mümkünlüyünü, fənnin məzmun blokunun mərhələli şəkildə alqoritmləşdirilməsi yolu ilə bir sıra vəzifələrin həllini göstərir. Tədris praktikasında bu tədqiqatın

nəticələri fizika müəllimlərinin peşə hazırlığının keyfiyyətini artırmaq məqsədilə tədris prosesinin mərhələli həyata keçirilməsi ardıcıllığında təşkilində istifadə oluna bilər.

***Açar sözlər**: fizika; modelləşdirmə; modul tədris; sıralama qrafının struktur dekompozisiyası*

Abstract. The article presents the results of a study aimed at substantiating the necessity of adhering to the modularity principle in the implementation of integrated physics education for students majoring in pedagogical specialties. The study continues the exploration of the pedagogical strategy of integrated learning, the results of which were presented in our previous article, and introduces, as its main outcome, a mechanism for modeling the educational process in higher education institutions. The novelty of the research lies in its outcomes, which provide opportunities for the development of pedagogical tools and, through them, the construction of an algorithm for organizing theoretical and practical classes. The results of the study demonstrate the possibility of overcoming contradictions identified within the education system by step-by-step algorithmization of the content blocks of the discipline. In educational practice, the findings of this study can be used to organize the educational process in a phased sequence, with the aim of improving the quality of professional training of physics teachers.

***Keywords:** physics; modeling; modular teaching; structural decomposition of precedence graph.*

Постановка проблемы. На сегодняшний день остаются нерешенными противоречия между многообразием учебных дисциплин по предметной подготовке и отсутствием в предметной подготовке будущих педагогов механизмов междисциплинарной интеграции компетенций. При этом интеграция физики ориентирована на повышение качества обучения: она позволяет достичь наполнения содержания дисциплин новой тематикой и материалами, применять специальные практико-ориентированные задачи с реальными ситуациями, которые могут быть решены за счет использования метода моделирования реальных объектов на персональном компьютере.

Методологические подходы для решения исследовательской проблемы. Теоретико-методологические основы развивающего обучения были обоснованы выдающимся отечественным психологом Л.С. Выготским. Последователи ученого А.Н. Леонтьев, П.Я. Гальперин разработали психологическую теорию деятельности, в которой идеи Л.С. Выготского получили дальнейшее развитие. Внедрение развивающего обучения в начальной школе было осуществлено Л.В. Занковым, а позднее Д.Б. Элькониным и В.В. Давыдовым в практике организации экспериментальных школ.

Технология развивающего обучения базируется на обозначенной концепциях развивающего обучения, которая была З.И. Калмыковой, Е.Н. Кабановой, Г.А. Цукерман, И.С. Якиманской, Г.К. Селевко и другими исследователями. Идея концепции базируется на различных аспектах развития человека и определенных мотивационных компонентах.

Исследовательская часть. Междисциплинарная (межпредметная) интеграция предполагает расширение возможностей обучения за счет стройной комбинации знаний, материала, информации, блоков и элементов самых разных учебных предметов и дисциплин. При этом содержание курсов далеко не всегда кажется близким при первом приближении. В этом случае требуется определенный «интегратор», системообразующий элемент [1], которым, по нашему мнению, может выступить межпредметная задача, основанная на интеграции компетенций [2].

Исследователи сегодня утверждают, что в научно-методической, научно-педагогической литературе крайне недостаточно внимания уделяется вопросам реализации междисциплинарного курса по физике в системе высшей школы с позиций методики и организации преподавания [3]. Сейчас преподавание физики как дисциплины в разных вариациях названия является привычной практикой на гуманитарных направлениях подготовки и специальностях, однако объем, тематическое содержание курса зависят от учебного плана [6]. Можно сделать вывод о том, что вопросы реализации междисциплинарности в преподавании физики решаются непосредственно на локальном уровне – в зависимости от позиции кафедры к преподаванию или от реализуемого отдельными представителями профессорско-преподавательского состава подходом, который отра-

жается в рабочей программе как организационно-управленческом документе и в образовательном процессе.

При таком подходе к проблеме исследования, можно предположить, что включение в образовательный процесс межпредметных задач содействует расширению образовательного пространства [8], а интеграция компетенций позволяет оптимальным образом устанавливать связи между учебными дисциплинами, что содействует расширению кругозора обучающихся, приобретению опыта решения межпредметных задач.

Цель исследования заключается в алгоритмизации педагогических действий в интегрированном обучении физике студентов педагогического направления подготовки.

Система доказательства и научного обоснования. С нашей точки зрения в качестве более действенного инструмента представления графа является ***матрица смежности***, позволяющей выявить наличие или отсутствие логической взаимосвязи между ее компонентами. В случае высокой плотности графов целесообразнее использовать разреженную матрицу, требующей объем памяти «nxn», где n - число вершин графа.

В случае неплотных графов, представление графа может быть осуществлено посредством списка пар, количество которых полностью соответствуют его ребрам: 2m, где m - число ребер графа. Однако названный способ имеет свои ограничения, которые заключаются в большом количестве предпринимаемых шагов (процедур). Согласно нашему представлению лучшим решением в описываемых ситуациях является отражение графа в виде списков инцедентности, что позволяет существенно сэкономить память [7]. В этом случае ограничением будут являться временные затраты, требующие поочередного сравнения компонентов из списка для установления наличия или отсутствия взаимосвязи между нами. В качестве вывода, нами достигнуто понимание необходимости применения всего разнообразия способов представления графа в зависимости от конкретной ситуации. В нашем случае наиболее целесообразным следует считать использование матричной формы, выстроенной методами структурного анализа на основе обработки последовательностей лингвистических переменных.

Изначально, вершины графа G (T, R) нами пронумерованы по количеству вершин. Все графы были подвергнуты проверки на отсутствие замкнутых циклов - средств контроля правильности создания *содержательно-целевой модели*, как модели содержания обучения на основе *графового представления* [4].

Данный подход к планированию и непосредственному *моделированию методической системы обучения физике студентов педагогических направлений* позволяет установить ведущие типы компонентов ее содержания через распределение тем, предусмотренных учебной программой дисциплины на автономные, базовые, промежуточные и завершающие классы, создав так называемый резерв тем, предусматривающих самостоятельное изучение студентами. *Базовые темы* мы положили в основу содержательных линий дисциплины, образуя в иерархической структуре содержания дисциплины *первый уровень* [5].

Распределение всей совокупности осваиваемых студентами тем осуществлялось с опорой на механизм определения вершин граф. Так, *автономные темы* устанавливались путем выявление вершин с отсутствием входящих и исходящих ребер (в матрице - поиск пар строк и столбцов, имеющих одни нули). В том случае, когда в матрице вершина графа приравнена к нулю, а строка с этим же номером включает в себя компонент, приравниваемый к нулю и выше, тема вводится в класс, относимый к *базовым элементам* (только исходящие ребра). Оставшиеся элементы объединяются в *промежуточные и завершающие компоненты*, составляя, таким образом, уровни иерархии:

– *базовые темы* – группа первого уровня;

– *промежуточные темы* – группы второго и последующих уровней;

– *завершающие темы* – группы предпоследнего уровня;

– *темы для самостоятельного освоения студентами* – вершина иерархии.

В рамках процедуры распределения мы получаем разбиение множества T на уровни

иерархии, характеристиками которой выступает следующие параметры: две темы ti и tj из уровней Ljt и Lm (к<ш) не нарушают отношение частичного порядка R:

$$(\forall t_i \in L_k,\ \forall t_j \in L_m)\ (k<m \Rightarrow (t_j, t_i) \notin R)$$

При формировании каждого нового уровня осуществляются проверочные мероприятия, целью которых выступает установление наличие элементов в массиве тем. В случае отсутствия элементов констатируется о завершении построения иерархической структуры. При созданной структуре, отражающей содержание обучения *физике студентов педагогических направлений*, приступается к организации его последовательности в создаваемой нами программе. Отличительной особенностью каждого уровня в этом случае является порядок следования базовых элементов:

– первоначально генерируются элементы базовых элементов (уровень L_1);

– в дальнейшем дописывается последующие элементы множества тем уровня L_2;

– завершается построение структуризацией автономных тем затем уровня L_3.

Принцип модульности, заложенный в основание нашего механизма организации обучающего процесса, обуславливает первоначальное построение содержательных линий дисциплины, которое в свою очередь, диктует необходимость обращения к следующим требованиям используемому алгоритму действий:

– последовательности разделяются запятой элементы, не находящиеся в отношении порядка R;

– базовые элементы получают обозначение: t_1^b, t_2^b … t_k^b (первый уровень);

– элементы второго уровня (L_2) обозначаются, как t_1^2, t_2^2, … t_m^2;

– элементы последнего уровня (L_n) - t_1^n, t_2^n, … t_S^n.

На рисунке 1 - одна из последовательностей, в которой сущность алгоритма сохранена и отображена в виде граф упорядочения - последовательность изложения учебного материала. Вершины графа, которые не имеют входящих ребер, выделены темным цветом.



Рисунок 1 – Структурная последовательность (составлено автором)

В ходе сортировки граф элементы базового уровня t_1^b перебираются с другими элементами одного уровня, находящимися в отношении R. Первый компонент размещен в начале последовательности - t_1^b, за которым следует элемент t_1^2 – завершающий. Выявленный второй элемент, находящийся в отношении R с базовым элементом t_1^b (ближайшей позицией) - t_5^2 - второй уровень иерархии и следующий элемент - t_2^3, помещаемый непосредственно за ним.

Далее t_1^4 размещаем за t_5^2 (ближайшая позиция к t_2^3), а t_1^5 - следующий элемент за t_1^4, предшествующий t_1^5 – завершающему компоненту по отношению к базовому - t_1^b. На данном этапе завершается процесс сортировки (см. рисунок 2).



Рисунок 2 – Первый этап структурной декомпозиции графа упорядочения (составлено автором)

Далее, производится процедура построения цепочки элементов, опирающейся на второй элемент базового уровня t_2^b. По завершению данного этапа, элемент t_3^b будет взаимосвязан отношением частичного порядка R с предшествующими последовательностями. По результатам структурной декомпозиции графа упорядочения мы получаем последовательность, отраженную на рисунке 3.



Рисунок 3 – Содержательные линии дисциплины

Опираясь на базовые элементы модели *содержательных линий дисциплины*, был достигнут следующий результат: $t_1^b\ t_2^b\ \dots\ t_{k1}^b$, $t_1^2,\ t_2^2\ \dots\ t_{m1}^2,\ t_1^n\ ,\ t_2^n\ \dots\ t_{s1}^n$, состоящий из 1 элемента (1 = k + m + … + s). По завершению сортировки графа упорядочения мы получаем модель *методической системы обучения физичке студентов педагогических направлений* с прослеживаемой содержательной линией, позволяющей нам приступать к формированию оптимальных последовательностей модулей дисциплины.

Для выявления модулей содержания обучения мы обратились к инструменту, предоставляемому *преобразованной матрицей смежностей*, при которой строка и столбец с номером i, соответствуют элементу, стоящему на i месте допустимой последовательности. Система содержания обучения представлена нами, как S = <T, R>, в которой элементы множества T (темы) обозначены цифрами. Первоначально, мы формирует группы объектов системы, связанных между собой отношением порядка R, заменив их для обобщения на подсистемы S_i, назвав их *внешними модулями системы*, характеризуемых такими свойствами, как автономность, базовость, промежуточнось, свойство быть завершающим. На рисунке 4 очевидно существование трех подсистем:

– первая подсистема S_1 = (9, 8, 7, 6);
– вторая подсистема S_2 = (2, 10, 3, 12, 11);
– третья подсистема S_3 = (1, 5, 4).

	9	8	7	6	2	10	3	12	11	1	5	4
9	■	■	■	■								
8	■	■	■	■								
7	■	■	■	■								
6	■	■	■	■								
2					■	■	■	■	■			
10					■	■	■	■	■			
3					■	■	■	■	■			
12					■	■	■	■	■			
11					■	■	■	■	■			
1										■	■	■
5										■	■	■
4										■	■	■

Рисунок 4 - Система содержания обучения (преобразованная матричная форма)
Условные обозначения: окрашенные блоки матрицы - внешние модули системы Si, S2, S3.

Внешние модули - автономны, поэтому их последовательность оптимальна в любом случае. С целью предотвращения нарушений взаимосвязей при случайно допущенной их не выявленности выдвигается требование минимального разрыва между всеми связанными модулями, в соответствии с формулой $\Sigma (k_j - k_i) = \min$, k_j, k_i - порядковые номера модулей S_i, S_j, при $k_j > k_{i+1}$ при $A_{ij}=1$; $k_1 \neq k_j$, при $i \neq j$, где A - матрица смежностей графа G (M, P) (M - множество модулей, P – отношение частичного порядка следования модулей дисциплины). Введение в выстраиваемую модель автономных тем осуществляется непосредственно экспертами, действия которых опираются на имеющиеся научно обоснованные представления: $t_1 \pm Qt_j$, где t_1 и t_j, - имена тем, Q - бинарное отношение со значением из диапазона от «t_i неотъемлемая часть t_j» до «t_i полностью исключает t_j» [2].

На завершающем этапе моделирования осуществляются мероприятия по оптимизации модулей дисциплины путем приведения к соответствию фиксируемых данных с первоначально заданными критериями. В качестве подобных критериев выступает требование о минимальном суммарном временном разрыве, которое может быть допустимым между темами. Предлагаемая система содержания обучения дисциплины S = <T, R> включается отобранные экспертами темы, пронумерованные от 1 до 33. Следует обратить внимание на отсутствие замкнутости в контурах граф, что позволяет осуществить структурирование иерархической системы (см. рисунки 5-6), предусматривающей 120 структурно последовательностей, как алгоритм последовательности изложения содержания обучения, в которой темным цветом выделены базовые темы, серым цветом - промежуточные и завершающие темы.



Рисунок 5 – Иерархически упорядоченная структура содержания

Резерв (автономные темы)					2	6	8	11	19	24	26	33
32	30	18	17	7	1	4	13	15	22	14	20	31
9	10	23	25	27	5	12	16	3	21	28	29	

Рисунок 6 – Оптимальная последовательность представления содержания дисциплины

Новая последовательность (см. рисунки 7-8) получается по результату структурной декомпозиции граф, в которой отмечены базовые элементы (темы) выстроены в цепочки взаимосвязанных компонентов, в совокупности представляющих содержательную линию дисциплины.



Рисунок 7 - Модель взаимосвязей в дисциплине



Рисунок 8 - Преобразованная матрица смежностей системы содержания дисциплины

Базовые элементы, отображенные под номерами 17 и 18, а также соответствующие им темы образуют содержательную линию, обладающую четкой иерархической структурой с четырьмя подсистемами - внешними модулями системы:

1) S_1 - (32, 13, 14, 10, 12);
2) S_2 = (30, 27, 5, 28, 3);
3) S_3 = (18, 22, 17, 4, 31, 9, 16, 21, 29);
4) S_4 = (7, 20, 23, 25, 1,1 5).

Полученные в виде последовательностей результаты ($S_1 - S_2$, $S_3 - S_4$ / $S_3 - S_4$, $S_1 - S_1$), указывающих на оптимальную последовательность компонентов (модулей) методической системы содержания обучения физике студентов педагогических, позволили выделить ведущие направления:

1) подсистема S_i, связанная с освоением базовых знаний математики и математического мышления;

2) подсистема S_2, связанная со специальным разделом физики (подсистема S2);

3) подсистема S_3, связанная с основами информатики;

4) подсистема S_4, связанная с освоением информационных технологий.

Темы, включенные в перечисленные подсистемы, отражены в приложении 1. Структурирование содержания обучения физике студентов педагогических направлений с ориентацией на их математическую подготовку в соответствии с содержательными линиями дисциплины, сохраняющая логику изложения учебного материала, а реализация принципа модульности - сформировать учебную программу, отвечающие образовательным потребностям современности.

Результаты исследования. В настоящем исследовании нами достигнута сформулированная цель исследования – алгоритмизация педагогических действий в интегрированном обучении физике студентов педагогического направления подготовки., с указанием требований, предъявляемых к формированию содержания информационной подготовки будущих учителей физики с использованием дистанционных форм и методов и закрепление их на уровне государственных стандартов в процессе обучения физике. В качестве результата исследовательской деятельности должна выступать технология реализации содержания профессиональной

подготовки, и программа ее реализации путем формализованных методов.

Актуальность проблемы. Результат исследования актуален найденной возможностью преодоления выявленных в образовательной системе противоречий путем поэтапного решения ряда задач алгоритмизации содержательного блока дисциплины.

Новизна проблемы. Новизна исследования определяется его результатами, открывающими возможность для формирования педагогического инструментария и разработки посредством него алгоритма построения теоретических и практических занятий.

Практическая значимость проблемы. В образовательной практике результаты исследования могут быть использованы при организации образовательного процесса в последовательности его реализации с целью повышении качества профессиональной подготовки учителей физики.

Литература

1. Гавенко, Н. В. Основные формы и методы реализации интегративного подхода на уроках иностранного языка / Н. В. Гавенко // Конструктивные педагогические заметки. – 2024. – № 12-1 (21). – С. 5-12.
2. Жукова, Н. . Контексты адаптивной обработки многомерных измерений параметров пространственно-соотнесенных объектов / Н.А. Жукова // Актуальные проблемы инфотелекоммуникаций в науке и образовании (АПИНО 2014): III Международная научно-техническая и научно-методическая конференция: сборник научных статей, Санкт-Петербург, 25–26 февраля 2014 года. – Санкт-Петербург: Санкт-Петербургский государственный университет телекоммуникаций им. проф. М.А. Бонч-Бруевича, 2014. – С. 465-471. – EDN SWZBAX.
3. Игнатова, О. Г. Применение бинарных уроков по математике как фактор достижения требований обновленных ФГОС ООО / О. Г. Игнатова // Наука и школа. – 2024. – № 2. – С. 83-94.
4. Сенькина, Г. Е. Цифровые системы для сопровождения деятельности обучающихся и учителя: результаты опроса и постановка проблемы проектирования / Г. Е. Сенькина, К. В. Осипян // Вестник Нижегородского государственного лингвистического университета им. Н.А. Добролюбова. – 2023. – № 64. – С. 318-341. – DOI 10.47388/2072-3490/lunn2023-64-4-318-341. – EDN NIMNFB.
5. Asrizal, & Festiyed. (2022). Effects of STEM-based learning materials on knowledge and literacy of students in science and physics learning: A metaanalysis. Journal of Physics: Conference Series, 2309, 012063. https://doi.org/10.1088/1742-6596/2309/ 1/012063
6. Melisa, M., Susilowati, E., & Dewantara, D. (2021). Development of electronic modules based on STEM to train students' creativity: Validity and practicality analysis. Berkala Ilmiah Pendidikan Fisika [Physics Education Scientific Periodical], 9(3), 335. https://doi.org/10.20527/bipf.v9i3.10440 N, A.,
7. Mueva A. V., Krupskaya Y. V., Sidorova L. V., Abeeva O. N., Krasnorutskaya N. G., Natyrova E. M. (2021). Interdisciplinary Integration In Professional Training Of Future Teacher. In D. K. Bataev, S. A. Gapurov, A. D. Osmaev, V. K. Akaev, L. M. Idigova, M. R. Ovhadov, A. R. Salgiriev, & M. M. Betilmerzaeva (Eds.). Social and Cultural Transformations in The Context of Modern Globalism. European Proceedings of Social and Behavioural Sciences. 117:1093-1099.
8. Xojayev A. M. O., Raxmonov I. X. (2022). Pedagogical Methods Of Teaching Mathematics In Distance Learning. Texas Journal of Multidisciplinary Studies. 7:352–355.

Redaksiyaya daxil olub: 13.06.2025

Ülviyyə Vahid qızı Nağıyeva,
Bakı şəhəri, "Ankara məktəbi" məktəb-liseyin fizika müəllimi,
"Metamorfoz" İctimai Cəmiyyətin təsisçisi
E-mail: ulya.seyidova2307@gmail.com
Orcid: https://orcid.org/0009-0005-3556-8063
https://doi.org/10.69682/arti.2025.92(4).78-82

ŞAGİRDLƏRİN FİZİKA FƏNNİNƏ MARAĞININ FORMALAŞMASINDA PEDAQOJİ, PSİXOLOJİ VƏ STATİSTİK AMİLLƏRİN ROLU

Ulviyya Vahid Naghıyeva,
physics teacher at "Ankara-School" Lyceum School in Baku,
founder of the "Metamorfoz" Public Society

THE ROLE OF PEDAGOGICAL, PSYCHOLOGICAL AND STATISTICAL FACTORS IN FORMING STUDENTS' INTEREST IN PHYSICS

Ульвия Вахид гызы Нагиева,
учитель физики школы-лицей «Анкара», г. Баку,
основатель общества «Metamorfoz»

РОЛЬ ПЕДАГОГИЧЕСКИХ, ПСИХОЛОГИЧЕСКИХ И СТАТИСТИЧЕСКИХ ФАКТОРОВ В ФОРМИРОВАНИИ ИНТЕРЕСА УЧАЩИХСЯ К ФИЗИКЕ

Xülasə. Məqalədə Azərbaycan təhsil sisteminin Finlandiya, Cənubi Koreya, Yaponiya və Sinqapur kimi qabaqcıl ölkələrin təhsil sistemləri ilə müqayisəsi aparılır. Əsas məqsəd marağın formalaşmasına təsir göstərən başlıca komponentləri müəyyənləşdirmək və sistemli yanaşma əsasında təkmilləşdirmə istiqamətləri təklif etməkdir. Nəticədə müəllim hazırlığı, kurikulumun çevikliyi, psixoloji mühit və texniki imkanların inteqrasiyasının vacibliyi ön plana çıxarılır.
Açar sözlər. *fizika təhsili, şagird marağı, metodika, təhsil sistemi, beynəlxalq müqayisə, psixoloji amillər*

Abstract. The article compares the education system of Azerbaijan with the education systems of such developed countries as Finland, South Korea, Japan and Singapore. The main goal is to identify the main components that influence the formation of interest and to suggest areas for improvement based on a systemic approach. As a result, the importance of teacher training, curriculum flexibility, psychological environment and integration of technical capabilities is emphasized.
Keywords*: physics teaching, student interest, methodology, education system, international comparison, psychological factors*

Аннотация. В статье сравнивается система образования Азербайджана с системами образования таких развитых стран, как Финляндия, Южная Корея, Япония и Сингапур. Основная цель – выявить основные компоненты, влияющие на формирование интереса, и предложить направления для совершенствования на основе системного подхода. В результате подчеркивается важность подготовки учителей, гибкости учебных программ, психологической среды и интеграции технических возможностей.
Ключевые слова*: преподавание физики, интерес учащихся, методология, система образования, международное сравнение, психологические факторы*

Giriş. Fizika fənni məktəb təhsilində analitik düşüncə, səbəb-nəticə əlaqələrinin qurulması və təbiət hadisələrinin elmi əsaslarla izahı baxımından mühüm rol oynayır. Lakin müşahidələr göstərir ki, bir çox məktəblərdə şagirdlərin bu fənnə marağı heç də yüksək deyil. Bu vəziyyət yalnız fənnin mürəkkəbliyi və ya şagirdlərin fərdi istəksizliyi ilə deyil, daha geniş – pedaqoji, psixoloji və sistemik amillərin kompleks təsiri ilə bağlıdır.

Maraq öyrənmənin əsas hərəkətverici qüvvəsidir. Şagirdlər fənnə maraq göstərmədikdə

tədris prosesi passiv öyrənmə səviyyəsində qalır və uzunmüddətli bilik formalaşmır. Belə hallarda nə müasir metodlar, nə də texniki vasitələr gözlənilən nəticəni vermir. Bu səbəbdən fənnə marağın formalaşması təkcə müəllimin vəzifəsi deyil, ümumi təhsil sisteminin funksional göstəricisidir.

Qabaqcıl təhsil modellərinə malik olan Finlandiya, Cənubi Koreya, Yaponiya və Sinqapur kimi ölkələrdə təhsilin uğurlu nəticələri, məhz marağa əsaslanan, şagirdmərkəzli və tətbiqyönlü sistemlərlə əlaqələndirilir. Bu ölkələrdə müəllim hazırlığı, tədris mühiti, kurikulumun quruluşu və psixoloji dəstək mexanizmləri birbirini tamamlayır.

Azərbaycanda isə fizika fənninin tədrisi hələ də əsasən nəticəyə deyil, prosesə və formal göstəricilərə yönəldilmiş vəziyyətdədir. Bu fərqlər şagird marağının niyə aşağı olduğuna aydınlıq gətirir.

Maraq anlayışının elmi əsasları. Şagirdin fənnə marağı onun öyrənmə nəticələrində əsaslı rola malikdir. Deci və Ryanin (1985) irəli sürdükləri özünü təyinetmə nəzəriyyəsinə görə, maraq daxili motivasiyanın mühüm göstəricisidir və öyrənməyə emosional bağlılıqla nəticələnir. Onların araşdırmalarına əsasən, şagirddə maraq yarandıqda öyrənmə daha dərindən və davamlı olur.

Bruner (1966) isə kəşf etmə yolu ilə öyrənmə modelində marağın yalnız nəticəyə deyil, öyrənmə prosesinə olan bağlılığa diqqəti yönəltmişdir. Vıqotskinin (1978) proksimal inkişaf zonası nəzəriyyəsi isə şagirdlərə uyğun çətinlik səviyyəsində verilən tapşırıqların marağı və öyrənmə motivasiyasını artırdığını göstərir.

Fizika fənninin xüsusiyyətləri və pedaqoji yanaşmalar. Fizika fənni abstrakt düşüncə, məntiq və riyazi modelləşdirmə tələb etdiyi üçün, tədrisdə istifadə olunan metodikalar marağın formalaşmasında həlledici rol oynayır. Araşdırmalardan görünür ki, interaktiv metodlar (simulyasiyalar, layihə əsaslı öyrənmə, qrup işi) ənənəvi şifahi izahdan daha yüksək nəticələr verir (Hake, 1998).

OECD (2018) hesabatına əsasən, təcrübi və real həyatda tətbiq edilə bilən dərsin məzmunu məktəblilərin fizika fənninə marağını əhəmiyyətli dərəcədə artırır. Kemberin (2004) tədqiqatlarından görünür ki, tədrisdə "mənayönlü" və "sual mərkəzli" yanaşmalar şagirdin tədrisə emosional bağlanmasını artırır.

Qabaqcıl ölkələrin təcrübəsinə nəzər

Finlandiyada: Kurikulum şagirdin maraq dairəsinə uyğun çevik şəkildə təşkil olunur. Təcrübə əsaslı öyrənmə ön plandadır. Müəllim hazırlığı elmi əsaslıdır və psixoloji-pedaqoji yanaşmaları əhatə edir.

Cənubi Koreyada: Yüksək tədris disiplini ilə yanaşı, texnologiya əsaslı tədris modelləri yayğındır. İnteraktiv platformalarla fizika dərslərində motivasiya və vizual dərk gücləndirilir.

Yaponiyada: Fizika dərslərində sualvermə və fikir paylaşımı əsas tədris komponentidir. Öyrənmə yavaş, dərin və düşünməyə əsaslanan şəkildə həyata keçirilir.

Sinqapurda: Şagirdin maraq səviyyəsinə uyğun fərqli modullar təklif olunur. STEM və rəqəmsal laboratoriyalar məktəb səviyyəsində standartlaşdırılmışdır.

Azərbaycanda: Kurikulum və dərs resursları hələ də formal və nəticəyönlü məzmunu özündə birləşdirir. Şagird fərqlilikləri və maraq səviyyələri dərs planlamasında az nəzərə alınır. Texniki baza məktəblər arasında qeyri-bərabərdir və bu, metod seçimlərinə təsir göstərir.

Strateji kontekst: Elm və texnologiya əsrində millətlərin taleyi. XXI əsrdə artıq güclü dövlət anlayışı təkcə iqtisadi və hərbi potensialla deyil, elmi-texniki intellektlə ölçülür. Demoqrafik artımın həndəsi silsilə ilə getdiyi və resursların məhdudlaşdığı bir dünyada artıq məkan deyil, zəka üstünlük təşkil edir. Rəqəmsal əsrdə dövlətlərin sərhədləri süni intellekt, kvant texnologiyası və biotexnologiya ilə cızılır.

Belə bir mühitdə dövlətin öz mövcudluğunu qoruması üçün əsas resurs təbii sərvətlər deyil, yetişdirdiyi düşünən və tətbiq edən beyinlərdir. Bu baxımdan təhsil artıq sosial xidmət deyil, strateji təhlükəsizlik məsələsidir.

Əgər bir millət bu texnoloji irəliləyiş yarışında yalnız müşahidəçi qalırsa, onun gələcəkdə qərar vermə və təsir göstərmə imkanları azalır. Bu isə tədricən iqtisadi və mədəni asılılıq, daha sonra isə ideoloji zəiflik və milli süqut riskini yaradır.

Bu prosesdə xüsusilə fizika, kimya, biologiya, informatika və texnologiya fənləri yalnız dərs mövzusu deyil, milli müqavimət silahıdır. Bu sahələrdə yüksəliş təkcə alim yetişdirmək deyil, eyni zamanda müstəqil düşüncə, elmi bacarıq və qlobal rəqabətə hazır vətəndaş formalaşdırmaq deməkdir.

Metodologiy. Təqdim etdiyimiz məqalə nəzəri-analitik xarakter daşıyır və müqayisəli təhlil metodu əsasında qurulmuşdur. Məqsəd şagirdlərin fizika fənninə marağının formalaşmasına təsir edən əsas amilləri pedaqoji, psixoloji və sistemik baxımdan araşdırmaq və Azərbaycanın mövcud vəziyyətini qabaqcıl ölkələrin təcrübələri ilə müqayisə etməkdir.

Tədqiqatın tipi və yanaşması. Məqalə deskriptiv (təsviri) və analitik metodologiya əsasında qurulmuşdur. Araşdırmada faktlara əsaslanan müşahidələr, elmi ədəbiyyatın təhlili və funksional müqayisə modelindən istifadə olunmuşdur.

Məlumat mənbələri. Yerli və beynəlxalq elmi məqalələr, statistik hesabatlar, təhsil strategiyaları. Müxtəlif ölkələrin təhsil sistemlərini təqdim edən rəsmi hökumət və UNESCO, OECD materialları. Təhsil üzrə aparılmış empirik tədqiqatlar, müəllim və şagird davranışlarına dair psixoloji modellər.

Müqayisə modelu. Müqayisə aşağıdakı 4 əsas amil əsasında aparılmışdır:

Amil	Azərbaycan	Finlandiya	Cənubi Koreya	Yaponiya	Sinqapur
Müəllim hazırlığı	✦	✓	✓	✓	✓
Kurikulum və dərs yükü	✦	✓	✦	✓	✓
Motivasiya və psixoloji mühit	✦	✓	✦	✓	✓
Resurs və texniki baza	✦	✓	✓	✓	✓

✓ Güclütətbiq

☒ Zəif və ya qeyri-bərabər tətbiq

Bu model həm şagird marağının formalaşmasına bilavasitə təsir edən əsas sahələri göstərir, həm də Azərbaycanın hansı sahələrdə inkişaf potensialına malik olduğunu önə çıxarır.

Metod məhdudiyyətləri. Tədqiqat empirik sorğu və ya eksperimentə əsaslanmadığı üçün faktiki statistik dəlillərdən daha çox elmi ədəbiyyat və sistemli müşahidələrə əsaslanır. Bu səbəbdən nəticələr sosial-analitik xarakter daşıyır, lakin real praktikaya əsaslanmışdır.

Təhlil və müzakirə. Bu hissədə şagirdlərin fizika fənninə marağını formalaşdıran əsas amillərin dörd istiqamətdə təhlili aparılır: müəllim hazırlığı, kurikulum və təlimin təşkili, motivasiya və psixoloji mühit, eləcə də resurs və texniki baza. Müqayisə əsasında əsas fərqliliklər və inkişaf ehtiyacları müəyyən olunur.

Müəllim hazırlığı və pedaqoji sərişta. Azərbaycanda fizika müəllimlərinin pedaqoji hazırlığı hələ də qeyri-bərabər səviyyədədir. Ənənəvi metodlara üstünlük verilir, müəllimlərin əksəriyyəti şagirdin fərdi xüsusiyyətlərini və maraq səviyyəsini nəzərə alan metodlardan sistemli şəkildə faydalanmırlar. Finlandiyada isə, müəllim olmaq üçün magistratura təhsili və pedaqoji seçimdən keçmək vacibdir. Müəllimlər öyrədici deyil, öyrənmə mühitinin meneceri kimi çıxış edirlər. Sinqapurda müəllimlər üçün davamlı ixtisasartırma proqramları və öyrənən icmalar mövcuddur. Koreyada müəllim statusu ictimai nüfuz baxımından yüksəkdir və bu da onların iş motivasiyasına müsbət təsir göstərir.

***Nəticə*:** Azərbaycanda müəllim hazırlığı diqqət mərkəzindədir, lakin metodik yenilənmə və şagirdmərkəzli təlim yanaşmalarının tətbiqi hələ geniş yayılmayıb.

Kurikulum və dərs yükü. Azərbaycan məktəblərində kurikulum hələ də bir çox hallarda informasiya yüklü və nəticəyə yönəlikdir. Şagirdlər fizikanı sınaqlar və qiymətləndirmə üçün öyrənir, real həyatla əlaqə çox zəifdir.

Finlandiyada dərslərə daha az vaxt ayrılır, amma dərin, kontekstual və tədqiqat əsaslıdır. Yaponiya və Koreyada fizika mütləq fənn kimi qəbul olunur və praktik laborator məşğələlərlə dəstəklənir. Sinqapurda isə dərs mövzuları şagird maraqlarına uyğun modul sistemilə təşkil olunur.

***Nəticə**:* Azərbaycanda kurikulum şablon və formal yanaşmadan çıxarılmalı, mənayönlü və tətbiq əsaslı olmalıdır.

Şagird motivasiyası və psixoloji mühit. Motivasiya marağın təməlidir. Lakin Azərbaycanda fizika fənninin "çətin" və "yalnız istedadlılara uyğun" olduğu düşüncəsi yayğındır. Bu, aşağı motivasiyalı şagirdləri passivləşdirir.

Finlandiya və Sinqapurda təlim prosesində psixoloji təhlükəsizlik, təşviqedici ünsiyyət və

uğursuzluğa dözümlülük mədəniyyəti mövcuddur. Yaponiya siniflərində müəllimlər "şagirdin öz cavabını kəşf etməsi" üçün şərait yaradır. Koreyada isə motivasiya sosial mədəniyyətlə (rəqabət və uğur mərkəzli təhsil) təmin edilir.

Nəticə: Azərbaycanda müəllimlər motivasiya amillərini idarə edə biləcək psixoloji və metodik hazırlığa yiyələnməlidirlər. Marağın olmamasının səbəbi bəzən metod yox, münasibətdir.

Resurslar və texniki baza. Resurs çatışmazlığı Azərbaycanda fizika tədrisini əngəlləyən başlıca məsələlərdəndir. Müasir laboratoriya, simulyator və interaktiv dərs vasitələri məktəblərin bir çoxunda ya yoxdur, ya da natamam haldadır.

Sinqapur və Koreyada rəqəmsal təlim resursları geniş tətbiq edilir. Finlandiyada məktəblər arasında resurs fərqi yoxdur. Hər bir məktəb eyni keyfiyyətli vəsaitlə təmin olunur. Yaponiya isə təkrar, müşahidə və əyani vasitələrlə öyrənməni prioritet sayır.

Nəticə: Azərbaycanda texniki baza bərabərləşdirilməli və müəllimlər bu texnologiyadan istifadə üçün praktik təlimlərə cəlb olunmalıdırlar.

Nəticə və tövsiyələr

Nəticə. Nəzəri-analitik təhlil göstərdi ki, fizika fənnini ilə bağlı şagird marağına təsir edən amillər bir-biri ilə sıx əlaqəli və sistemik xarakter daşıyır. Sadəcə dərs metodunun dəyişməsi ilə bu marağı formalaşdırmaq mümkün deyil. Əgər məqsədimiz bu sahədə uğur qazanmaqdırsa, məktəbdən başlayaraq sistemin bütün səviyyələrində sinxron dəyişikliklər tələb olunur.

Müəllimlərin metodik hazırlığı, kurikulumun çevikliyi, motivasiya mühitinin yaradılması və texniki imkanların təmin olunması – bütün bunlar ayrı-ayrı deyil, vahid öyrənmə mühitinin dayaqlarıdır. Qabaqcıl ölkələrin təcrübəsindən görünür ki, bu sahələr arasında tarazlıq qurulduqda, nəticə də sabit və dayanıqlı olur.

Elmi, texniki və texnoloji baxımdan yüksəliş – artıq bir seçim deyil, milli mövcudluğun şərtidir. Demoqrafik və texnoloji sürətlə dəyişən dünyada yalnız elmi baza ilə silahlanmış cəmiyyətlər gələcəyin formalaşmasında söz sahibi olacaqdır. Fizika, kimya, biologiya, informatika kimi sahələrdəki yüksəliş bu mübarizədə təhsilin strateji silahıdır.

Tövsiyələr:

1. Müəllim hazırlığı təkmilləşdirilməlidir: Fizika müəllimləri üçün metodik və psixoloji hazırlıq proqramları genişləndirilməli, təlimlər yalnız formal deyil, praktik olmalıdır.

2. Fənn kurikulumu yenilənməlidir: Məzmun daha çox düşünmə, tətbiq və həyatla əlaqəyönlü qurulmalı, mətəblilər üçün fizika dərsləri real kontekstə oturdulmalıdır.

3. Motivasiya sisteminə dəstək verilməlidir: Şagirdin marağını artırmaq üçün dərs mühiti təhlükəsiz, təşviqedici və məktəbli mərkəzli olmalıdır. Müəllimlər bunun üçün emosional bacarıqlara sahiblənməlidirlər.

4. Texniki baza bərabərləşdirilməlidir: Məktəblər arasında resurs fərqləri minimuma endirilməli, interaktiv dərs vasitələri və virtual laboratoriyalar bütün şagirdlər üçün əlçatan olmalıdır.

5. Qlobal təcrübə izlənməli və uyğunlaşdırılmalıdır: Finlandiya, Yaponiya, Koreya və Sinqapur kimi ölkələrin effektiv modelləri Azərbaycan təhsil reallığına uyğunlaşdırılmış formada tətbiq olunmalıdır.

Yekun fikir:

Fizika tədrisində uğur mövzuların sayı ilə deyil, şagirdin o dərsi niyə öyrəndiyini dərk etmə faizinə görə ölçülür. Marağın formalaşması isə yalnız müəllimin deyil, eyni zamanda təhsil sisteminin ümumi səviyyəsinin göstəricisidir. Bu baxımdan, atacağımız hər addım sadəcə təhsil üçün yox, millətin gələcəyi üçün strateji investisiyadır.

Problemin aktuallığı. Sürətlə dəyişən və rəqabətyönlü müasir dünyada cəmiyyətlərin inkişafı düşünən və yaradan beyinlərin yetişdirilməsi ilə birbaşa bağlıdır. Texnologiya ilə əhatələnmiş mühitdə böyüyən məktəblilərin elm fənlərinə, xüsusilə fizika kimi fundamental sahələrə marağının artırılması zərurətə çevrilmişdir.

Problemin yeniliyi. Demoqrafik artımın sürətlənməsi, resursların qeyri-bərabər paylanması, təbii fəlakətlərin artması və insan amilinin özünə belə təhlükə yaratdığı bu dövrdə insan (homo sapiens) məhz beyninin funksionallığı və dəyişmə qabiliyyəti sayəsində mövcud düzəni dəyişməyə çalışır. Bunu zamanında, təxminən yüz il öncə, dərk edən inkişaf etmiş ölkələr artıq bu sahədə sabit yol qət ediblər. Təəssüf ki, biz bu yarışa bir qədər gec qoşulmuşuq. Elə bu səbəbdəndir ki, bu gün gənclərimiz Avropa, Amerika, Yaponiya, Çin və Koreya kimi ölkələrə axın edir. Bu sadəcə bir statistika deyil, ciddi siqnaldır. Düşünən beyinlərin bir dəfəlik itirilməsi təhlükəsi ilə üz-üzəyik. Bəli, müəyyən təhsil siyasətləri həyata keçirilir, lakin bu, hələ də kifayət etmir. Məhz bu səbəblə təhsildə keyfiyyət məsələsi fizika fənninə

də şamil olunmalı və bu fənn gələcəyə hazırlığın mühüm vasitəsinə çevrilməlidir.

Problemin praktik əhəmiyyəti. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

Ədəbiyyat

1. Vygotsky, L. S. Mind in Society. Harvard University Press, 1978.
2. Deci, E. L., & Ryan, R. M. (1985). Intrinsic Motivation and Self-Determination in Human Behavior. Plenum, 1985.
3. OECD. Education at a Glance: OECD Indicators. OECD Publishing.
4. Ministry of Education, Finland. Education System Overview, 2020.
5. Singapore Ministry of Education. Teaching and Learning Framework, 2021.

Redaksiyaya daxil olub: 09.07.2025

UOT 372.891

Oqtay Kamil oğlu Alxasov,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0007-1615-2681
E-mail: oqtay.alxasov@adpu.edu.az
https://doi.org/10.69682/arti.2025.92(4).83-87

COĞRAFİYA TƏDRİSİNDƏ MƏKAN-ZAMAN TƏFƏKKÜRÜNÜN FORMALAŞDIRILMASININ PSİXOLOJİ-PEDAQOJİ ASPEKTLƏRİ

Ogtay Kamil Alkhasov,
associate professor of Azerbaijan State Pedagogical University,
doctor of philosophy in pedagogy,

PSYCHOLOGICAL AND PEDAGOGICAL ASPECTS OF THE FORMATION OF SPATIAL-TEMPORAL THINKING IN TEACHING GEOGRAPHY

Огтай Камиль оглы Алхасов,
доцент Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике

ПСИХОЛОГО-ПЕДАГОГИЧЕСКИЕ АСПЕКТЫ ФОРМИРОВАНИЯ ПРОСТРАНСТВЕННО-ВРЕМЕННОГО МЫШЛЕНИЯ В ОБУЧЕНИИ ГЕОГРАФИИ

Xülasə. Coğrafi anlayışların formalaşdırılması şagird fəaliyyətinin təşkilində vacib mərhələdir. Fənnin məzmununda aparıcı yer tutan məkan və zaman anlayışlarının siniflər üzrə inkişafına diqqət yetirilməlidir. Coğrafi təfəkkürün inkişafı üçün bu anlayışların dərketmə mərhələləri şərh edilmiş, mənimsənilməsi səviyyələri haqda məlumat verilmişdir. Məqalədə anlayışların formalaşdırılmasının ümumidən fərdiyə gedən yolu nəzərdən keçirilir.
Açar sözlər: *məntiqi təfəkkür, coğrafi məkan, reproduktiv səviyyə, kreativ səviyyə, evrestik səviyyə, xəritənin legendası, əqli fəaliyyət*

Abstract. The formation of geographical concepts is an important stage in organizing Students activities. Attention should be paid to the development of the concepts of space and time, which occupy a leading place in the content of the subject, across different grade levels. The stages of teaching these concepts and the levels of their acquisition are explained to support the development of geographical thinking. The article examines the process of concept formation from the general to the individual.
Keywords: *logical thinking, geographical space, reproductive level, creative level, heuristic level, map legend, cognitive activity.*

Аннотация. Формирование географических понятий является важным этапом в организации деятельности учащихся. Понятия пространства и времени занимают ведущее место в содержании географии и следует уделять внимание развитию этих концепций по классам. В статье рассматриваются пути формирования понятий от общего к единичному. Дается информация об этапах понимания и уровнях освоения для развития географического мышления.
Ключевые слова: *логическое мышление, географическое пространство, репродуктивный уровень, творческий уровень, эвристический уровень, легенда карты, мыслительная деятельность*

Məktəb coğrafiyasının elmi səviyyəsinin yüksəldilməsində şagirdlərin məkan-zaman təfəkkürlərinin formalaşdırılmasına xüsusi diqqət yetirmək lazım gəlir.

Məktəbdə təlim prosesində şagirdlərin düşüncələrinin inkişaf dərəcəsini nəzərə almaq vacibdir. Nəzərə alsaq ki, yeni kurikulumda coğrafiyadan alt standartların siniflər üzrə inkişaf etdirilməsi və dərsliklərdəki mətn materialları, fəaliyyət tapşırıqları bütövlükdə şagirdlərin təfəkkürlərinin inkişafına yönəldilmişdir.

Psixoloqlar belə hesab edirlər ki, coğrafi təhsil uşaq təfəkküründün həcmini üç mərhələdə genişlənməsinə gətirib çıxarır. İlk əvvəl nəyi görməyibsə və nəyi eşitməyibsə, həmin vasitələr haqqında düşüncələr yaranır. Sonradan təfəkkürün həcmi genişlənir, əvvəlcə məkan, sonra isə zaman anlayışları genişlənir. Təfəkkürün bu cür genişlənməsi tədricən təfəkkürün xarakterinin də dəyişməsinə gətirib çıxarır.

Təfəkkür həcmcə tədricən artaraq qavramadan irəli keçir, daha da abstrakt olur ki, hətta sadə oxunuş, yaddaşdan yüksək olur. Yəni coğrafiya şagirdləri yerli qavramaların şagirdlərin təfəkkürlərinin genişlənməsi ona gətirib çıxarır ki, təfəkkür qavramadan ayrılır. Təfəkkür getdikcə daha çox əyanilikdən çıxır və daha çox abstrakt olur, miqyasına görə genişlənir və öz məzmununa sığmır.

Daha doğrusu sözlü təfəkkürü obrazlı məzmunla, müxtəlif informasiya mənbələri ilə zənginləşdirmək lazımdır. Sinifdən sinfə keçdikcə şagird təfəkkürü həcmcə daha da genişləndirilməli, daha az əyaniliyə əsaslanmalı və daha çox abstrakt olmalıdır. Eyni zamanda daha çox məzmun daşımalıdır.

Şagirdlərdə məkan təfəkkürlərinin formalaşdırılmasında başlanğıc mərhələ onların coğrafi təsəvvürləri durur. Coğrafi təsəvvür və anlayışların formalaşdırılması təlim və tədris prosesinin əsasını təşkil edir. Metodiki ədəbiyyatda və praktikada coğrafi anlayışların formalaşdırılmasına daha çox diqqət yetirilsə də coğrafi təsəvvürlərin formalaşdırılmasına az yer verilir. Dərslərdə coğrafi təsəvvürlərin və təxəyyüllərinin inkişafına az diqqət yetirilir.

Coğrafi təsəvvürlər – obyekt və hadisələrin xəyali görmə obrazlarından metodiki ədəbiyyatda təsəvvürlərin yaddaş və təxəyyül formaları ayrılır. Coğrafiyanın öyrənilməsində daha çox təxəyyül təsəvvürlərinin formasının böyük əhəmiyyəti vardır. Psixoloqların tədqiqatları şagirdlərdə məkan təsəvvürlərinin inkişafını siniflər üzrə izləməyə imkan verir.

Ətraf aləmin dərk edilməsində hisslər, qavrama və təsəvvürlər bir-birini tamamlayır. Məsələn, Yer kürəsi haqqında ilkin təsəvvürlərin formalaşdırılması bir neçə mərhələdən keçir. İlkin təsəvvürlər ondan ibarətdir ki, kiçik yaşlı məktəblilər Yer üzərində gördüklərini qəbul edirlər. Onun üzərində ot bitir, gəzirik, ev tikilir və s. Daha sonra yerin üzərində görülən işləri qəbul edirlər - onun üzərində əkirlər, sulayırlar, qazırlar və s. Növbəti mərhələdə yerdə becərilmə işləri aparılması, bizə qida verməsi kimi təsəvvürlər artırılır. Bitkilərin yetişdirildiyi, qidanın mənbəyi kimi öyrənilir. Növbəti siniflərə keçdikcə şagirdlərdə coğrafi təsəvvürlər formalaşır – fırlanır, üzərində dəniz, şay, dağ və s. yerləşir. Sonrakı mərhələdə coğrafi təsəvvürlər tarixi inkişafın əsasında formalaşır və tədricən yer haqqında kosmoloji təsəvvürlərə keçir.

Aşağıdakı cədvəldə şagirdlərin coğrafi təsəvvürlərinə formalaşdırılmasının xüsusiyyətləri göstərilmişdir.

Cədvəl

Coğrafi təsəvvürlərin formalaşdırılmasının xüsusiyyətləri

Coğrafi təsəvvür	Siniflər	Təsəvvürün məzmunu	Şagird təfəkküründün genişlənməsi mərhələləri
Günəş haqqında	I -IV	Günəşin bilavasitə Yer kürəsinə və təbiətinə, insanlara təsiri	Əyanilik
	V-VIII	Günəşin hərəkəti, vəziyyəti, böyüklüyü, quruluşu, illik və sutkalıq dəyişməsi	Coğrafi
	IX-XI	Günəş sisteminin tarixi inkişafı	Tarixi
Yer kürəsi haqqında	I-IV	Yer kürəsi məhsul istehsalçısı kimi	Əyani
	V-VIII	Yer böyük kürədir, üzərində dağlar və dənizlər	Coğrafi

	IX-XI	Yer Günəş sisteminin bir planetidir. Planetin inkişaf tarixi	Tarixi Kosmoloji
Çöl haqqında	I-IV	Böyüklüyü, fauna və florası	Əyani
	V-VIII	Çöl zonası	Coğrafi
	IX-XI	Çölün təsərrüfat fəaliyyətində istifadə edilməsi	Sosial-iqtisadi və tarixi
İnsanlar haqqında	I-IV	İnsanların xarakterik məşğuliyyəti, həyat tərzləri	Əyani
	V-VIII	İnsan təbiətin bir hissəsi kimi xalqların müxtəlifliyi	Coğrafi
	IX-XI	İnsanın mənşəyi, onun gələcəyi	Tarixi

Məktəbdə tədris olunan fənlər içərisində coğrafiya şagirdlərin məkan təfəkkürlərinin formalaşdırılmasında mühüm yer tutur. Coğrafi informasiya vasitələrinin çoxluğu, müəllimdən, dərslikdən, xəritədən, kütləvi informasiya vasitələrindən alınan məlumatlar nəinki şagirdlərin təfəkkürlərinin həcmini artırır, eyni zamanda onları daha məzmunlu edir. Odur ki, bu məsələ haqqında metodik yanaşmalar işlənilərkən nəzərə almaq lazımdır ki, coğrafi təsəvvürlər çox abstraktdır. Onlar yüksək dərəcədə ümumiləşdirilmiş xarakterə malikdir. Buna görə də çox müxtəlif coğrafi informasiya mənbələrindən istifadə edərək bu təsəvvürləri obrazlı məzmunla zənginləşdirmək lazımdır.

Coğrafi təsəvvürlər bütöv, kompleks xarakterə malikdirlər və sinifdən-sinfə keçdikcə onlar xırda elementlərə parçalanmır. Əksinə getdikcə daha ümumiləşmiş forma alırlar.

Yuxarı siniflərə doğru coğrafi təsəvvürlər daha da genişlənir və daha geniş məzmun alır. Aşağı siniflərdə təsəvvürlərdə obyektin özü və ya onun üzərində aparılan iş ön plana çıxır. Orta yaş dövründə ön plana obyektin özü aparılan əməliyyatlar, xarakterik cəhətləri digər obyektlərlə əlaqəsi çıxır. Yuxarı siniflərdə isə obyektin mövcud olduğu mühitdəki əlaqələrə, münasibətlərə daha çox aksent edirlər.

Coğrafi təsəvvürlərin digər mühüm xüsusiyyəti ondan ibarətdir ki, onlar bir qayda olaraq ümumidən fərdiyə doğru sonra isə yenidən ümumiyə doğru formalaşdırırlar. Məsələn, ilk əvvəl Dünya okeanı haqqında təsəvvürlər, sonra isə onun hissələri haqqında təsəvvürlər formalaşdırılır. Yenidən bu hissələrin daxil olduğu yerlərə qayıdılır. Eyni şeyi çöl anlayışı haqqında da demək olar. Çöl anlayışından sonra materiklərdə və regionlarda ölkələrdə çöl və onların tipləri vasitəsi ilə yenidən çöl anlayışına qayıdırıq. Beləliklə, coğrafi təsəvvürlərin formalaşdırılmasında hissələrə (detallara) bölünmə və diferensasiya prosesləri gedir, amma ümumiləşdirmə aparılmır. Odur ki, təsəvvürlər ümumi və kompleks qalırlar.

Coğrafi təsəvvürlərin bir xüsusiyyəti də onların xarakteristikasının "kəmiyyət tərkibli" olmasından ibarətdir. Çünki , onların formalaşdırılması zamanı bu obyektlərin ölçüləri haqqında sual ortaya çıxır. Günəşin, Yer kürəsinin, dağın, çayın, dənizin və s. ölçüləri bunu tələb edir.

Məkan təsəvvürləri onların kəmiyyət cəhətdən xarakteristikasını tələb edir. Xüsusi ilə bu göstəricilər müqayisə üçün lazımdır.

Beləliklə, dərketmənin **birinci mərhələsində - empirik mərhələsində** məkan və zaman özünə məxsus bir formada əyani vasitə kimi çıxış edir. Dərketmənin **ikinci mərhələsində - elmi-nəzəri mərhələsində** ön plana coğrafi proses və hadisələrin səbəblərinin izah edilməsi çıxır. Daha sonra hadisələrin ümumi, təkrarlanan tendensiyalarının aşkar edilməsi, eləcə də məntiqi olaraq öngörmə, proqnozlaşdırma, onların məkan daxilində mümkün inkişafları baş verir.

Əgər empirik düşüncə üçün "insan – obyekt və hadisələrin təsviri" sxemi qəbul edilərsə, elmi-nəzəri düşüncə üçün isə "insan-obyekt və hadisələr – onlar arasında əlaqələrin nəzəri modeli" sxemi irəli sürülə bilər.

Psixoloqlar öz tədqiqatlarında şagirdlərin intellektual fəallığında keyfiyyətcə 3 fərqli səviyyə ayırırlar: Bu səviyyələri şərti olaraq "reproduktiv", "evristik" və "kreativ" kimi adlandırmaq olar.

Reproduktiv səviyyə passiv olması öz fəaliyyətində ona kənardan verilənləri təşəbbüskarlıq olmadan qəbul etməsi ilə seçilir. Öz fəaliyyətini təhlil edərək qarşıya qoyulan məsələləri müqayisə edərək yenisini aşkar edirsə, buradan yeni biliklər əldə edirsə bu səviyyə **evristik səviyyə** hesab olunur. **Kreativ səviyyə** (yaradıcı

deməkdir) daha yüksək səviyyədir. Bu səviyyə üçün empirik şəkildə əldə olunan qanunauyğunluq son halda düşünmə prosesində müstəqil tədqiqat məqsədinə çevrilməsi xarakterikdir.

Psixoloqların göstərdiyi kimi şagirdlərin əqli fəaliyyətləri bu fəaliyyətin həyata keçirildiyi priyomlar və ya vasitələrin köməyi ilə baş verir. Əqli fəaliyyət priyomları dedikdə "əqli əməliyyatlar sistemi – (təhlil, analiz), tərkib (sintez)", ümumiləşdirmə və s. başa düşürük ki, onun köməyi ilə verilən tapşırıqlar həll edilir. Əqli fəaliyyətə yiyələnmək az məqsədyönlü priyomların daha rasional metodlarla əvəz olunması yolu ilə həyata keçirilir.

Əqli inkişaf dedikdə bura təkcə əldə olunan biliklər deyil, həmçinin düşüncənin yaxşı işlənilmiş və möhkəmləndirilmiş priyom və vasitələri də daxildir. Onlar özündə intellektual xarakterli bacarıq və vərdişləri əks etdirir. Bu priyomlar 2 əsas şərtə müvafiq gəlməlidir: 1) əvvəlki biliklərin səviyyəsinə və 2) şagirdlərin əqli inkişaf səviyyəsinə.

Metodiki tədqiqatlarda göstərilir ki, şagird fəaliyyətinin artırılması dərketmə mərhələlərinə əsasən aparılmalıdır. Məsələn, ilk əvvəl məqsədyönlü müşahidələr aparılmalıdır. Faktiki materiallar toplanılmalı, sonra faktların, hadisələrin təhlili, ayrı-ayrı hadisələrin izahı verilməlidir. Daha sonra səbəb-nəticə əlaqələri çıxarılır, müqayisə edilir, ümumiləşdirilmiş nəticələr göstərilir.

Şagird fəaliyyətinin artırılması mərhələlərinin vəziyyətini kartoqrafik materiallarla işə aid cədvəldə izləyə bilərik.

Kartoqrafik materialların inkişaf mərhələləri	Xəritələrlə işin mərhələləri	Şagird fəaliyyətinin artırılması mərhələləri
Məhəldə cəhət təyini (günəşə, ulduza, kosmosa və s.)	Xəritənin oxunması və başa düşülməsi	Xəritə üzrə məhəldə cəhət təyini
Coğrafi koordinatların təyini	Xəritə ilə "səyahət"	Coğrafi koordinatların təyin edilməsi
Marşrutun təsviri	Xəritələrin tutuşdurulması	Xəritə üzrə hadisə və proseslərin əsas cəhətlərinin öyrənilməsi
Xəritə üzrə məsafələrin təyin edilməsi	Kontur xəritələrin doldurulması	Xəritəyə əsasən məsafələrin təyin edilməsi
Məhəldə ölçü işləri	Sadə xəritələrin və xəritə-sxemlərin tutuşdurulması	Xəritələrin müqayisəsi və tutuşdurulması, məhəldə ölçü işləri
Modelləşdirmə		Kartoqrafik modelləşdirmə

Coğrafi bilik mənbələri çox müxtəlif ola bilər. Müəllimin canlı sözü, xəritə, statistik materiallar və s. Məhz coğrafi bilik mənbələri tədris fənninin predmetini, onun spesifikasını müəyyən edir və şagirdlərin dərketmə fəaliyyətlərinin əsasında durur.

Coğrafi bilik mənbələrini şərti olaraq 3 qrupa bölmək olar – sözlü, əyani və praktik bilik mənbələri.

Sözlü bilik mənbələrinə şifahi və yazılı şəkildə olan sözlər daxildir.

Əyani bilik mənbələrinə şəkil, foto, kinofilmlər, audio vizual vasitələr və s. Göstərmək olar.

Coğrafi biliklərin **praktik mənbələrinin** əsasında coğrafiyanın spesifik elmi metodlarının tətbiq edilməsi nəticəsində şagirdlərin fəaliyyəti ilə əldə olunan biliklər durur. Bura kartoqrafik, statistik, çöl tədqiqatları, interaktiv multimedia, geoinformasiya proqramları, coğrafi modelləşmə və s. daxildir. Qeyd edilən metodları coğrafi tapşırıqların yerinə yetirilməsi zamanı tətbiq etməklə alınan biliklərin mənbəyi məhz belə adlandırıla bilər.

Coğrafiyanın təlimi prosesi təkcə coğrafi bilik mənbələrinə görə müəyyən edilmir. Burada həmçinin şagirdlərin və müəllimin fəaliyyətlərinin xarakteri də həlledici hesab olunur. Bilik və bacarıqların mənimsənilməsində şagirdlərin müstəqil fəaliyyəti üç səviyyədə təşkil oluna bilər.

Birinci səviyyə təlimin təşkili zamanı müəllimin bilik və bacarıqları hazır səviyyədə verməsi ilə xarakterizə olunur. Məlumatlar şagirdlər tərəfindən (reproduktiv) sadəcə təkrarlanır.

İkinci səviyyə -təlimdə əldə olunmuş bilik və bacarıqların "analoq" üzrə, hazır təlim situasiyasına tətbiq etməklə yeni həll variantlarının axtarışı kimi xarakterizə edilir (qismən-axtarış).

Üçüncü səviyyə üzrə təlimin təşkili zamanı şagirdlərin müstəqil fəaliyyəti bilik və ba-

carıqların əldə olunmasının yeni təlim situasiyasına, onlara tanış olmayan təlim şəraitinə tətbiqi ilə bağlıdır (axtarış və ya tədqiqat).

Məsələn, xəritə üzərində iş aparılmasının birinci səviyyəsində şagirdlərdən xəritədən faktiki məlumatları əldə etmək, müəyyən obyektlərin yerini xəritədə müəyyən etmək tələb olunur.

İkinci və üçüncü səviyyələr üzrə işin gedişində isə xəritələr üzrə müqayisə aparmaq, onları tutuşdurmaq, xəritə əsasında təsviri tərtib etmək, xəritədə bilavasitə təsvir edilməyən coğrafi hadisələrin öyrənilməsi və modelləşdirilməsi, xəritə-sxem və s. hazırlanması lazım gəlir.

Ümumiyyətlə isə ikinci və üçüncü bilik səviyyəsi üzrə işin aparılması zamanı şagirdlərin müxtəlif bilik mənbələri ilə iş priyomlarına yiyələnməsinə nail olunmalıdır. Belə tədris işinə şagirdlərin statistik cədvəlləri oxumaq priyomu, xəritələri tutuşdurmasına, qrafikin, diaqramın qurulmasına, kartoqramların tərtib edilməsinə, coğrafi proses və hadisələrin müqayisəsinə aid priyomları göstərə bilərik.

Şagirdlərin bu tipli tədris işi priyomlarının formalaşdırılmasına dair xüsusi fəaliyyət tapşırıqları üzərində işinin təşkili coğrafiyanın təliminin təkmilləşdirilməsinin ən mühüm yollarından biridir.

Qeyd etmək lazımdır ki, statistik cədvəllər, diaqram və qrafiklər üzərində tədris işi priyomları onların qurulması və tərtib edilməsi əsasında aparılır.

Coğrafiya fənni üzrə formalaşdırılan əksər tədris priyomları fənlərarası əlaqəyə əsaslanır. Bəzi priyomlar isə fəndaxili əlaqəyə malikdir. Məsələn, iqtisadi-coğrafiya xəritələrinin oxuması priyomu aşağı siniflərdə xəritənin oxunması priyomuna istinad edilərək formalaşdırılır.

- Xəritənin adını oxuyun, onun miqyasını və proyeksiyasını müəyyən edin;
- Xəritənin legendasını öyrənin;
- Xəritədə nəyin təsvir edildiyini və hansı ərazini əhatə etdiyini müəyyən edin;
- Xəritədə lazım olan obyektləri tapın;
- Onların nə ilə xarakterizə edildiyini danışın.

Yuxarı siniflərdə fiziki, iqtisadi və s. xəritələrin tutuşdurulmasına daha çox diqqət yetirilməlidir. Məsələn, ölkələrin və ya regionun kənd təsərrüfatının ixtisaslaşdırılmasını izah edərkən kənd təsərrüfatı xəritəsi ilə aqroiqlim xəritələrini tutuşduraraq nəticə çıxarmaq lazımdır.

Problemin aktuallığı. Müxtəlif coğrafi bilik mənbələrindən istifadə edərkən başlıca məqsəd şagirdlərin dərketmə qabiliyyətlərini inkişaf etdirilməsi olmalıdır. Bu zaman qismən və tam şəkildə müstəqil bilik əldə olunması əsas məqsəd olmalıdır. Prosesin gedişində şagirdlərin fənn bilikləri əsasında tədris priyomlarına yiyələnmələri həyata keçirilməlidir.

Nəticə olaraq göstərmək olar ki, orta yaş dövründə (11-14 yaş) şagirdlərdə coğrafi (məkan) təfəkkürlər inkişaf edir, tədricən həcmcə artır, təfəkkür qavramadan üstün olur və daha abstrakt olur. Bu yaş dövrünü psixoloqlar coğrafi (məkan) təfəkküründün inkişaf dövrü adlandırırlar.

Problemin yeniliyi. Coğrafi anlayış və təsəvvürlər yüksək dərəcədə ümumiləşmiş xarakterə malikdir və odur ki, daim coğrafi informasiya mənbələrinin köməyi ilə obrazlı məzmunla zənginləşməsi tələb olunur. Onlar, dediyimiz kimi bütöv və kompleks xarakterə malik olduğu üçün, təlim prosesində hissələrə parçalanmır və daha ümumiləşmiş olurlar.

Problemin praktiki əhəmiyyəti. Coğrafi anlayış və təsəvvürlərin digər mühüm xüsusiyyəti ondan ibarətdir ki, onlar ümumidən fərdiyə doğru gedirlər. Sonra yenidən ümumiyə doğru gedilir. Beləliklə, detallaşma və differensasiya prosesi baş verir ki, ümumiləşmə fərdiləşmə keçmir, kompleks olaraq qalır.

Coğrafi anlayış və təsəvvürlərin başqa xarakterik xüsusiyyəti onların formalaşmasında kəmiyyət və müqayisə cəhətlərinin aparılmasıdır.

Ədəbiyyat

1. Alxasov, O.K. Coğrafiyanın tədrisi metodikası. / O.K. Alxasov. -Bakı: Təhsil Nəşriyyatı, -2013. -127 s.
2. Seyfullayeva, N.S. Coğrafiyanın tədrisi metodikası, / N.S. Seyfullayeva. -Bakı: ELM, -2011. -193 s.
3. Душина, И.В. Методика обучения географии в общеобразовательных школах. / И.В. Душина. -М.: Академия, -2008. -98 с.

Redaksiyaya daxil olub: 05.06.2025

UOT 372.891

Arzu Aydın qızı Aslanova,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
https://orcid.org/0009-0007-7291-1929
E-mail: aa.aslanova@adpu.edu.az
https://doi.org/10.69682/arti.2025.92(4).88-91

COĞRAFİYANIN TƏDRİSİNDƏ MÜSTƏQİL İŞLƏRİN TƏŞKİLİ YOLLARI

Arzu Aydin Aslanova,
teacher at Azerbaijan State Pedagogical University

WAYS OF ORGANIZING INDEPENDENT WORK IN TEACHING GEOGRAPHY

Арзу Айдын гызы Асланова,
преподаватель Азербайджанского Государственного Педагогического Университета

ПУТИ ОРГАНИЗАЦИИ САМОСТОЯТЕЛЬНЫХ РАБОТ ПРИ ОБУЧЕНИИ ГЕОГРАФИИ

Xülasə. Coğrafiya fənni üzrə kurikulum şagird fəaliyyətinin yüksəldilməsini, onlarda həyati bacarıqların formalaşdırılmasını tələb edir. Müstəqil işlər bu cəhətdən tədris prosesində həlledici rola malik olmuşdur. Müstəqil işlər coğrafiya dərslərini tədris priyomlarının möhkəmləndirilməsinə, şagirdlərin yeni bilikləri müstəqil qazanmalarına imkan yaradır. Müstəqil işlərin tərtib olunması zamanı onların hansı tələblərə cavab verməli olduğuna, onların təsnifatı və yerinə yetirilmə ardıcıllığına diqqət yetirilmişdir.
Açar sözlər: *tədris işi priyomu, praktik işlər, əqli fəaliyyət üsulları, məntiqi çalışmalar, yeni təlim situasiyası*

Abstract. The geography curriculum requires enhancing student activity and developing their life skills. Independent work plays a crucial role in the teaching process in this regard. It contributes to reinforcing teaching techniques in geography lessons and enables students to acquire new knowledge independently. When designing independent tasks, attention has been paid to the requirements they must meet, their classification, and the sequence in which they should be completed.
Keywords: *teaching approach, practical work, mental activity methods, logical exercises, new learning situation*

Аннотация. Куррикулум по географии требует повышения активности учащихся и формирования у них жизненных навыков. В этом отношении решающую роль в учебном процессе играют самостоятельные работы. Они способствуют закреплению методов преподавания на уроках географии и позволяют учащимся самостоятельно приобретать новые знания. При разработке самостоятельных работ было обращено внимание на требования, которым они должны соответствовать, их классификацию и последовательность выполнения.
Ключевые слова: *приём учебной работы, практические работы, методы умственной деятельности, логические упражнения, новая учебная ситуация*

Məktəb şagirdlərin bilikləri müstəqil şəkildə əldə etməsində maraqlıdır. Bunun üçün şagirdlərin dərin və möhkəm biliklərə yiyələnmələri, onların müstəqil işlərinin təşkili vacibdir. Şagirdlər biliklərə o zaman daha yaxşı yiyələnirlər ki, müstəqil fəaliyyətlərini həyata keçirə bilsinlər. Yəni tədris materiallarının mənimsənilməsində müstəqil şəkildə işləyə bilmirsə onların əldə etdikləri daha çox formal xarakter daşıyır, bu bilikləri özlərinin praktik həyat fəaliyyətlərində istifadə edə bilmirlər. Odur ki, tədris prosesində müstəqil işlərin düzgün təşkil edilməsi səbəb-nəticə əlaqələrinin daha yaxşı başa düşülməsinə, anlayışlar arasındakı məntiqi əlaqələrin izah edilməsinə səbəb olar. Bu da öz növbəsində elmi biliklərin daha dərindən mənimsənilməsini, biliklərin möhkəmləndirilməsini təmin etmiş olur.

Coğrafiya fənninin tədrisinin ən mühüm vəzifələrindən biri şagirdlərdə geniş dünya görüşlərinin formalaşdırılmasından ibarətdir. Bu məqsədə nail olunması üçün şagirdlərin müstəqilliyinin təmin edilməsi, tədris tapşırıqlarının müstəqil şəkildə yerinə yetirmələrinə nail olunması lazım gəlir. Dünyagörüşü baxımından çox qiymətli tədris materialları, tapşırıq və suallar şagirdlərin şüurlu qavramasından, onların fikir və hisslərindən, praktik fəaliyyətlərindən keçmirsə bu biliklər yaxşı mənimsənilməyəcək. Bu onunla əlaqədardır ki, dünyagörüşü ideyaları da anlayışlar kimi əzbərlənə bilməz, bu faydasız olar.

Məsələn, şagirdlər başa düşməlidirlər ki, Yer kürəsini əhatə edən coğrafi təbəqə obyektiv olaraq mövcuddur, onları təşkil edən təbii komponentlər də bir-biri ilə qarşılıqlı əlaqədə və qarşılıqlı münasibətdədirlər, daim dəyişir və inkişaf edirlər. Bu o vaxt həyata keçə bilir ki, şagirdlər özləri hadisə və proseslər arasındakı qarşılıqlı əlaqələri müəyyən etsinlər, özləri ümumiləşdirmələr aparsınlar, nəticə çıxarsınlar.

Müstəqil işlər təşkilinin çox böyük tədris əhəmiyyəti olmasına baxmayaraq müəllimlərin fəaliyyətində geniş yer tutmur. Müstəqil işlər geniş tətbiq edilməməsi ilə yanaşı, daha çox biliklərin möhkəmləndirilməsi məqsədi ilə istifadə olunur, yeni biliklərin qazanılmasında az müraciət olunur. Məsələn, xəritə üzrə işlərin çoxu təsviri xarakter daşıyır, xəritəyə əsasən relyefin, iqlimin və s. təsvir edilməsi tələb olunur. Bu zaman relyefin, iqlimin və yaxud hər hansı bir ərazinin xüsusiyyətlərinin izah edilməsi, səbəb-nəticə əlaqələrinin açılması soruşulmur. Yəni şagirdlərin fikri, zehni fəaliyyətlərinə yüklənməsinə istinad, təsir edilmir. Belə bir halın yaranmasının başlıca səbəbi ondan ibarətdir ki, müstəqil işlərin məzmununda daha çox ikinci dərəcəli sual və tapşırıqlar yer alır. Bu da öz növbəsində coğrafi qanunauyğunluqların, mövcud əlaqələrin, aparıcı anlayışların mənimsənilməsinə mane olur. Metodiki cəhətdən də işlərin keçirilməsində ardıcıllıq təmin olunmur, tapşırıqların mərhələli şəkildə çətinləşdirilməsinə riayət edilmir.

Qeyd etmək lazımdır ki, coğrafiya fənni üzrə yeni kurikulumun və yeni dərsliklərin tətbiq edilməsi bu problemi daha aktual edir. Fəal dərsin təşkili məhz şagirdlərin müstəqil işlərindən, onlarda müstəqilliyin təmin edilməsindən keçir.

Hər hansı bir müstəqil işi yerinə yetirməklə şagirdlər müvafiq bilik və bacarıqlarını nümayiş etdirirlər. Odur ki, müstəqil işlərə yeni biliklərin əldə edilməsi, onların təkmilləşdirilməsi vasitəsi kimi baxmaq lazımdır. Praktik işlərdən fərqli olaraq müstəqil işlər proqram materiallarında göstərilmir. Bəzən müstəqil işləri praktik işlərlə qarışdırırlar ki, bu halda müstəqil işlərin tədris prosesində rolunu azaltmış oluruq.

Yeni fənn kurikulumunun coğrafiya fənninin qarşısına qoyduğu vəzifələrə uyğun olaraq şagirdlərin həyata hazırlanması məqsədi ilə müstəqil işlərin yerinə yetirilməsində nəzəri biliklərin səviyyəsinin yüksəldilməsinə nail olmaq lazımdır. Bu məqsədlə aşağıdakı işləri həyata keçirmək lazımdır (1):

1. Birinci şərt müstəqil işlərin məzmunu yenidən nəzərdən keçirilməlidir ki, burada coğrafi qanunauyğunluqları, səbəb-nəticə əlaqələrini, anlayışların mənimsənilməsini, biliklərin sistemləşdirilməsini tələb edən sual və tapşırıqlar üstünlük təşkil etsin.

2. İkinci şərt isə tapşırıqların yerinə yetirilməsi üsullarının təkmilləşdirilməsi ilə əlaqədardır. Şagirdlərin əqli fəaliyyətlərini tələb edən, onların elmi metodlarla tanış edilməsi kimi fəaliyyətlərə qoşulması lazım gəlir.

3. Tapşırıqların yerinə yetirilməsi zamanı şagirdlərin yaradıcılıq, dərketmə qabiliyyətlərinin gücləndirilməsinə diqqət yetirilməlidir.

Müstəqil işlərdən danışarkən təkcə onların qarşısında duran vəzifələri təhlil etməklə kifayətlənmək olmaz. Eyni zamanda onların növlərini də təsnifat etmək lazım gəlir. Müstəqil işləri müxtəlif nöqteyi-nəzərdən də təsnifat etmək olar.

Yaradıcılıq fəaliyyətinin aşkar edilməsinə görə şagirdlərin müstəqillik dərəcəsinə əsasən müstəqil işləri təsnifat etmək olar. Bu zaman tapşırıqlar 3 qrupa bölünür (2).

1. Biliklərin hazır şəkildə (müəllimin izah etdiyi və ya dərslikdə olduğu kimi) təkrarlanmasına aid çalışmalar;

2. Əldə olunmuş bilik və bacarıqların hazır tədris situasiyasına tətbiq edilməsinə aid çalışmalar;

3. Bilik və bacarıqların yeni tədris situasiyasına tətbiq edilməsinə aid çalışmalar;

Məntiqi təfəkkürün inkişafı idrak qabiliyyətləri baxımından müstəqil işləri hər hansı əqli fəaliyyət priyomlarına görə fərqləndirmək olar.

Bu cəhətdən müstəqil işləri aşağıdakı kimi fərqləndirmək mümkündür:

1. Oxşar və fərqli cəhətlərinə görə müqayisələrin aparılması . Bu zaman oxşarlıq və fərqliliyin səbəblərini də göstərmək vacibdir.

2. Səbəb-nəticə əlaqələrinin açılmasına görə;

3. Nəticələrin açılmasını göstərməklə təhlilin aparılması;

4. Ümumiləşdirici priyomların formalaşdırılması (nəticələri ilə)

Didaktik məqsədlərinə görə müstəqil işlərin qruplaşdırılması da metodik cəhətdən maraq doğurur. Bu qruplaşmanı aşağıdakı kimi göstərə bilərik:

1. Baza bilik və bacarıqlarının aşkar edilməsi;

2. Öyrənilmiş tədris materiallarının möhkəmləndirilməsi;

3. Yeni bilik və bacarıqların əldə olunması;

4. Bilik və bacarıqların təkrarı və ümumiləşdirilməsi;

5. Bilik və bacarıqların yoxlanılması.

Müstəqil işlərin yerinə yetirilməsi zamanı çoxlu sayda tədris materialları və vasitələrindən istifadə olunur. Bu vasitələrə çoxlu sayda xəritələr, dərslik və dərs vəsaitləri, paylama materialları və s. misal göstərmək olar. Odur ki, müstəqil işləri bilik mənbələrinə görə də təsnif etmək olar. Bu halda şagirdlərin tədris işi priyomlarını mənimsəməsi səviyyəsi də nəzərə alınmalıdır. Bu mənada müstəqil işlərin başqa bir qrupunu da göstərə bilərik (3):

1. Xəritə ilə işin təşkili;

2. Dərsliklə işin təşkili;

3. Paylama materialları ilə işin təşkili (şəkillər, faydalı qazıntı nümunələri, herbari və s.);

4. Rəqəm və statistik materiallarla iş;

5. Əlavə oxu materialları ilə iş;

6. Eyni vaxtda müxtəlif bilik mənbələri ilə iş;

7. İnternet və İKT materialları ilə iş.

Hər bir bilik mənbəyi ilə müstəqil işlərin təşkili zamanı şagirdlərin müxtəlif iş priyomlarının tətbiq olunduğu tapşırıqlara üstünlük verilməlidir. Bunun üçün bir neçə nümunəni misal göstərə bilərik:

- Mövzunun mətninin, planının (əvvəl sadə, sonra genişləndirilməsi) tərtib olunması. Bu halda şagirdlər anlayışların əsas əlamətlərini mənimsəyirlər, dərsliklə iş priyomuna yiyələnirlər.

- Mətndən coğrafi hadisə və nəticələrin səbəblərini yazmaq, həmçinin səbəblərin nəticələrini qeyd etmək, bu zaman birbaşa və əks əlaqələrin mənimsənilməsi.

- Dərsliyin rəqəm materiallarına əsasən iqlim tiplərini, dağların hündürlük tiplərini müəyyən etməklə dərsliyin rəqəm materialları ilə iş priyomları formalaşdırılır.

- Dərslikdəki və ya atlasdakı iqlim diaqramına əsasən iqlim tipini müəyyən etmək.

- Müxtəlif coğrafi obyektləri (relyef, iqlim, çay) dərsliyin mətni və illüstrasiyalar əsasında müqayisə etmək. Bu tipli tapşırıqlar həm nəzəri materialların mənimsənilməsinə, həm də əqli fəaliyyət priyomlarının formalaşdırılmasına xidmət edir.

- Müstəqil işlərin daha səmərəli olması, məktəblilərin tədris fəaliyyətlərinin müxtəlif sahələrini əhatə etməsi, onların idrak müstəqilliyinin inkişafına təsir etməsi üçün tərtib olunan çalışmalar aşağıdakı əsas tələblərə cavab verməlidir (4):

1. Əsas anlayışları, səbəb-nəticə əlaqələrini, dünyagörüşü ideyalarını özündə əks etdirməlidir, yəni coğrafiya kurslarının məqsədlərinə müvafiq olaraq tərtib olunmalıdır.

2. Biliyin bütün komponentlərini əhatə etməlidir (faktları, ümumi və xüsusi anlayışları, səbəb-nəticə əlaqələrini, qanunauyğunluqları, təbiət və cəmiyyətin qarşılıqlı təsiri məsələlərini, tədris işi priyomlarını, əqli fəaliyyət priyomlarını)

3. Müxtəlif bilik mənbələri ilə (xəritə, dərslik, rəqəm materialları və s.) işləmək bacarıqlarının formalaşdırılmasını təmin etməlidir.

4. Şagirdlərin dərketmə qabiliyyətlərinin, müstəqilliyinin, yaradıcı təfəkkürlərinin inkişafına səbəb olmalıdır.

5. Şagirdlərdə maraq oyatmalı, daha az vaxt aparmalıdır

6. Bilik və bacarıqların formalaşdırılması mərhələlərini əks etdirməlidir. Ona görə ki, şagirdlərin müstəqil işləri anlayışların, tədris işi priyomlarının formalaşdırılmasının ayrılmaz tərkib hissəsidir.

Didaktik xüsusiyyətlərindən asılı olaraq müstəqil işlərin təşkili və keçirilməsinin metodikası da fərqlidir. Müstəqil işlərin təşkilinin ən vacib şərtlərindən biri tapşırıqların tədricən çətinləşdirilməsi və şagirdlərin müstəqilliklərinin artırılmasından ibarətdir. Müstəqil işlərin yerinə yetirilməsi biliklərin tətbiqi və tədris işi priyom-

larının tətbiqindən asılıdır. Odur ki, müstəqil işlərlə işləmək bacarıqlarının formalaşdırılması da anlayış və tədris işi priyomlarının formalaşdırılması ilə oxşardır və üç mərhələdən keçərək həyata keçirilir. Bu mərhələlərin hər biri müəllim və şagird fəaliyyətlərinin uyğunlaşdırılması ilə xarakterizə edilir.

Müstəqil işlərin təşkilində birinci mərhələ onun yerinə yetirilməsinin nümunə əsasında aparılması ilə, bilikləri tanış situasiyaya tətbiq edilməsi ilə xarakterizə edilir. İş başlıca olaraq nəzəri materialların və ayrı-ayrı tədris priyomlarının möhkəmləndirilməsi məqsədi ilə aparılır. Müəllimin fəaliyyəti ondan ibarət olur ki, işin yerinə yetirilməsinə dair təlimat verir, bilik mənbələri ilə necə işləmək lazım olduğunu izah edir, hansı ardıcıllıqla iş aparılmalı olduğunu bildirir.

İkinci mərhələ üçün bilik və tədris priyomlarının yeni təlim situasiyasına tətbiq etmələri xarakterikdir. Burada yeni biliklərin əldə olunması geniş yer tutur. Əvvəlki mərhələdən fərqli olaraq müəllim şagirdlərə işin gedişi haqqında məlumat vermir, yalnız onun məqsədini bildirir, şagirdlər özləri coğrafi xarakteristikanın planını verir, işin ardıcıllığını açır və tapşırığı müstəqil yerinə yetirirlər.

Üçüncü mərhələ isə müstəqil işlərin yerinə yetirilməsini, daha çox müstəqil fəaliyyətin göstərilməsi ilə seçilir. Digər mərhələlərlə müqayisədə müəllimin ümumi göstərişinin olması ilə fərqlənir. Daha çox yeni biliklərin əldə olunması ilə xarakterizə edilir. Tematik xəritələrlə müstəqil işləyərək şagirdlər bir çox təbii obyektləri sərbəst şəkildə özləri öyrənə bilirlər.

Problemin aktuallığı. Müasir dövrdə təhsil prosesində şagirdlərin müstəqil düşünmə və öyrənmə bacarıqlarının inkişaf etdirilməsi əsas prioritetlərdən biridir. Coğrafiya fənninin tədrisində müstəqil işlərin təşkili şagirdlərin araşdırma qabiliyyətini gücləndirir və biliklərin praktik tətbiqinə şərait yaradır. Tədrisdə bu yanaşmanın tətbiqi coğrafi biliklərin dərinləşdirilməsinə və XXI əsr bacarıqlarının formalaşmasına mühüm töhfə verir.

Problemin yeniliyi. Beləliklə, tapşırıqları yerinə yetirərkən, mərhələlər keçdikcə müəllim və şagirdlərin fəaliyyətləri də dəyişir. Yəni birinci mərhələdə müstəqil işlərin yerinə yetirilməsi zamanı müəllim müəyyən təlimat və izahat verirdisə, sonrakı mərhələdə bu yalnız qısa göstərişlə yekunlaşır və şagirdlər daha müstəqil fəaliyyət göstərirlər.

Problemin praktiki əhəmiyyəti. Coğrafiya dərslərində müstəqil işlər şagird fəaliyyətinin daha geniş sahəsini əhatə edir. Bura təkcə müstəqil yerinə yetirilən praktik işlər aid deyil, onun qarşısında şagirdlərin müstəqilliyinin inkişaf etdirilməsi, bilikləri müstəqil əldə etməyi öyrənmələri, yaradıcı düşünmək kimi vəzifələr qoyulmuşdur. Bu da son nəticədə şagirdlərin həyata hazırlanmasına xidmət edir.

Ədəbiyyat

1. Alxasov, O.K. Coğrafiyanın tədrisi metodikası. / O.K. Alxasov. -Bakı: Təhsil Nəşriyyatı, -2013. -155 s.
2. Seyfullayeva, N.S. Coğrafiyanın tədrisi metodikası, / N.S. Seyfullayeva. -Bakı: ELM, -2011. -87 s.
3. Душина, И.В. /Методика обучения географии в обшеобразовательных школах. / И.В. Душина . -М.: Академия, -2008. -107 s.
4. www.edu.gov.az

Redaksiyaya daxil olub: 05.06.2025

UOT 372.857

Əliyənnağı Məhəmmədtağı oğlu Məhərrəmov,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti
https://orcid.org/0000-0002-6752-7136
E-mail: aliyannagi.maharramov@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(4).92-96

BİOLOGİYA TƏLİMİNDƏ LABORATORİYA İŞLƏRİNİN ZƏRURİLİYİ, TƏLİM KEYFİYYƏTİNƏ TƏSİRİ İMKANLARI

Aliyannaghi Mahammadtaghi Maharramov,
associate professor of Azerbaijan State Pedagogical University

THE NECESSITY OF LABORATORY WORK IN BIOLOGY TEACHING, IMPACT ON THE QUALITY OF TEACHING

Алияннаги Магомедтаги оглы Магеррамов,
доцент Азербайджанского Государственного Педагогического Университета

НЕОБХОДИМОСТЬ ЛАБОРАТОРНЫХ РАБОТ В ПРЕПОДАВАНИИ БИОЛОГИИ, ВОЗМОЖНОСТИ ВЛИЯНИЯ НА КАЧЕСТВО ОБУЧЕНИЯ

Xülasə. Məqalədə elm və texnikanın inkişafı ilə səciyyələnən indiki zamanda insanın formalaşması, təlimin dövrün ehtiyaclarına uyğun qurulması mühüm vəzifə kimi vurğulanır. Qeyd edilir ki, kurikulumun tətbiq olunduğu ölkəmizdə biologiyanın tədrisi sahəsində müəyyən problemlər qalır ki, onlardan da biri laboratoriyalardan düzgün istifadə edilib-edilməməsidir. Məqalədə digər bir problemə də münasibət bildirilir, belə ki, biologiya müəllimləri laborator dərslərinə qeyri-ciddi yanaşırlar. Lazımi avadanlıqların, əyani vasitələrin olmaması da şagirdlərin laborator dərslərinə maraq göstərməməsinə şərait yaradır. Mövzunun fəaliyyət bölməsində, yəni laboratoriya işində İKT-dən lazımınca istifadə olunmur, virtual laboratoriyalar kölgədə qalır. Deyilən bu problemin, çatışmamazlıqların həlli yolları məqalədə araşdırılır, müəyyən təkliflər verilir. Biologiya müəllimləri tədris prosesində, həm də tərbiyəçidir, şagirdlərdə dünyagörüşü formalaşdırırlar. Belə bir nəticəyə gəlinir ki, laboratoriya işlərinin təlim keyfiyyətinə çox böyük təsiri vardır, mənimsəməni asanlaşdırır, verilən bilik uzun müddət yadda qalır. Biologiya fənləri üzrə aparılan laboratoriya işlərində qarşıya qoyulan məsələlərin həlli müasir tələblərə uyğun həyata keçirilərsə, təlimdə yüksək keyfiyyət əldə etmək olar.
***Açar sözlər**: laboratoriya, təcrübələr, təlim metodları, bioloji proseslər, tədqiqatçılıq bacarıqları*

Abstract. The article emphasizes the importance of shaping a person and organizing training in accordance with the needs of the times in the current era, which is characterized by the development of science and technology. It is noted that in general education schools, as in the country where the curriculum is applied, certain problems remain in the field of biology teaching, one of which is whether laboratories should be used correctly, which also plays an important role in the teaching of biology subjects. The article also addresses another problem, namely, biology teachers do not take laboratory lessons seriously. The lack of necessary equipment and visual aids also creates conditions for students not to show interest in laboratory lessons. In the activity section of the topic, that is, in laboratory work, ICT is not used properly, virtual laboratories remain in the shadows. The article examines the ways to solve this problem and shortcomings, and certain proposals are made. Biology teachers are also educators in the teaching process, they form the worldview of students. It is concluded that laboratory work has a great impact on the quality of teaching. Studying the activity section of the topic facilitates assimilation, the knowledge given is remembered for a long time. If the solution of the problems posed in laboratory work in biology subjects is carried out in accordance with modern requirements, high quality in training can be achieved.

***Key words**: laboratory, experiments, training methods, biological processes, research skills*

Аннотация. В статье подчеркивается, что в современную эпоху, характеризующуюся развитием науки и техники, формирование личности и организация образования в соответствии с потребностями эпохи являются важными задачами. Отмечено, что, как и в стране, где реализуется курикулум, в сфере преподавания биологии в общеобразовательных школах сохраняются определенные проблемы, одной из которых является необходимость правильного использования лабораторий, играющих важную роль в преподавании предметов биологии. В статье также рассматривается еще одна проблема, а именно то, что учителя биологии не относятся серьезно к лабораторным занятиям. Отсутствие необходимого оборудования и наглядных пособий также приводит к тому, что учащиеся не проявляют интереса к лабораторным занятиям. В практической части предмета, а именно в лабораторных работах, ИКТ не используются в должной мере, а виртуальные лаборатории остаются в тени. В статье рассматриваются пути решения этой проблемы и недостатки, а также даются некоторые предложения. Учителя биологии не только участвуют в учебном процессе, но и формируют мировоззрение учащихся. Сделан вывод о том, что лабораторные работы оказывают большое влияние на качество образования. Изучение практической части темы облегчает усвоение, и полученные знания запоминаются надолго. Если решения задач, поставленных в лабораторных работах по предмету биологии, будут реализованы в соответствии с современными требованиями, можно достичь высокого качества обучения.

***Ключевые слова:** лаборатория, эксперименты, методы обучения, биологические процессы, исследовательские навыки*

Elm və texnikanın inkişafı ilə səciyyələnən indiki zamanda insanın formalaşması, təlimin dövrün ehtiyaclarına uyğun qurulması mühüm vəzifə kimi qarşıya qoyulmuşdur. Bu vəzifəni tələb olunan səviyyədə yerinə yetirmək üçün müasir təlim texnologiyalarından, interaktiv öyrənmə metodlarından optimal dərəcədə istifadə etmək, təlimdə müəllim-tələbə, tələbə-tələbə əməkdaşlığı şəraitində fəaliyyət göstərmək, proqram və dərslikləri təlimin yeniləşən məzmununa və standartlarına uyğunlaşdırmaq, təkmilləşdirmək vacib sayılır.

Müasir müəllim hazırlığının məzmun və forması informasiya texnologiyalarının sürətli inkişafı ilə uzlaşdırılır. Ümumiyyətlə, təhsil sistemi real praktikanı qabaqlamalı, müəllim hazırlığının məzmunu bu günə yox, sabaha yönəlməli, bu sahənin inkişaf perspektivləri nəzərə alınmalıdır. Müəllim hazırlığı sistemində fənlərin tədrisi metodikaları xüsusi yer tutur, gələcək mütəxəssisləri pedaqoji fəaliyyətin elmi əsasları ilə silahlandırır, onlarda zəruri peşə keyfiyyətləri, bacarıq və vərdişləri formalaşdırır.

Kurikulumun tətbiq olunduğu ölkə kimi ümumtəhsil məktəblərində biologiyanın tədrisi sahəsində müəyyən problemlər qalır. Belə problemlərdən biri laboratoriyalardan düzgün istifadə edilib-edilməməsidir ki, bu da biologiya fənlərinin tədrisində vacib rol oynayır. Bu zaman şagird müəyyən canlıları, onlarda baş verən anatomik, fizioloji dəyişiklikləri əyani olaraq müşahidə edirlər.

Digər bir problem biologiya müəlliminin metodlardan səmərəli istifadə edib-etməməsi problemidir. Hazırda biologiya təlim metodları və priyomları Ə.M. Hüseynov tərəfindən aşağıdakı kimi təsnif edilmişdir (1, s.85).

I. Məlumat vermə (şifahi) metodlar;

II. Əyani metodlar;

III. Axtarış metodları;

IV. Praktik metodlar.

Biologiya müəllimi qeyd olunmuş metodlardan istifadə edən zaman çətinlik çəkir və ya uğursuz tətbiq edir ki, bu da dərsin səmərəliliyini gözəçarpacaq dərəcədə aşağı salır. Problemin yaranmasının başlıca səbəblərindən biri də biologiya müəlliminin laboratoriya dərslərinə qeyri-ciddi yanaşmasıdır. Müəllimlər dərsləri laboratoriyada tədris etmək əvəzinə biologiya kabinetinə və ya sinifdə nağıl kimi izah etməyi üstün tuturlar. Bəzən laboratoriya dərslərinin normal keçilməsi problemi özünü məktəblərdə (xüsusən də rayon və kənd məktəblərində) lazımi avadanlıqların və əyani vasitələrin olmamasında əks etdirir. Təəssüflər olsun ki, X-XI sinifdə təhsil alan əksər şagirdlər laboratoriya dərslərinə maraq göstərmirlər. Onlar mövcud təhsil sisteminin tələblərinə müvafiq olaraq test həll etməklə və bunun nəticəsində ali məktəblərə qəbul olunmaqla öz vəzifələrini bitmiş hesab edirlər. Biologiya dərslərinə bu cür yanaşma laboratoriya dərslərini şagirdlər üçün arxa plana keçirir.

Əksər ümumtəhsil məktəblərimizdə fəal təlim metodları, bu metodların laboratoriya

dərslərində tətbiq olunması qənaətbəxş deyildir. Deyilənlərlə yanaşı İKT-dən də lazımınca istifadə olunmur, elektron dərsliklər, virtual laboratoriyalar kölgədə qalır.

Biologiyada elə mövzular var ki, onun dərk edilməsi laboratoriya təcrübələrinin aparılmasını tələb edir. Belə mövzular əsasən bioloji prosesləri (tənəffüs, qidalanma, maddələr mübadiləsi, çoxalma, inkişaf və s.) əks etdirənlərdir.

Şagirdlər təcrübəni ekranda izləyir, onun gedişinə, aparılması qaydalarına diqqət edir. Onun təşkili xüsusiyyətlərini, avadanlıqlarla, cihazlarla davranış qaydalarını müşahidə edir. Gördüklərini həyata keçirir və lazımi nəticələr alırlar. Dərsin belə təşkili təcrübənin aparılmasında şagirdləri həyəcanlandırmır, onlar cihaz və avadanlıqlarla tanış olur, onların iş mexanizmini öyrənirlər. Təcrübənin gedişinin düzgünlüyünə əmin olurlar. Nəticəni aldıqda isə onların təcrübənin gedişinə, gözlənilən nəticəyə inamını artırır. Onlar təcrübələri aparmağa təşəbbüs göstərir, beləliklə deyilənlərin doğruluğunu sübut etdiklərindən fənni öyrənmək marağı artır, təlimin keyfiyyəti və mənimsəmə faizi yüksəlir (2, s.56).

Laboratoriya işlərinin yerinə yetirilməsi, həyata keçirilməsi üçün virtual laboratoriyanın tətbiq olunmasına yer vermək lazımdır. Fizika və kimya kimi digər fənlərin tədrisində tətbiq olunan virtual laboratoriya təlim keyfiyyətinə müsbət təsir edir. Virtual laboratoriyanın biologiyanın tədrisində də istifadə olunması müsbət nəticələr verə bilər. Bu zaman laboratoriya işlərinin həyata keçirilməsi ilə əlaqədar olan bir çox problemlər aradan qalxacaq.

Ümumtəhsil məktəblərinin qarşısında duran əsas vəzifələrdən biri də şəxsiyyətyönlü təhsil verməklə şagirdləri öyrəndikləri nəzəri bilikləri həyatda tətbiq edə bilər şəxsiyyət kimi formalaşdırmaqdır. Belə ki, laboratoriya işlərinin aparılması zamanı, həmçinin şagirdlərdə tərbiyədə formalaşır. Əsasən əmək tərbiyəsinin formalaşmasına daha çox əhəmiyyət verilir. Şagirdlər laboratoriya işlərini və digər müstəqil işləri icra edərkən bir çox əmək vərdişlərinə yiyələnir. Əyani vasitələrlə davranış qaydalarını öyrənməklə gələcək həyatları üçün zəruri olan bacarıqlar qazanırlar. Eyni zamanda onların əşyalara qarşı da xüsusi qayğı və diqqətlə yanaşmağı təmin edir. Şagirdlərdə ilk əmək mədəniyyəti məktəb otaqlarına və avadanlıqlarına aşılanmalıdır. Sonra isə praktik və laboratoriya işlərində fərdi işləri icra etmək, cihazlarla davranmaq və ona münasibət kimi tərbiyə olunmalıdır. Düzgün müşahidə aparmaq, təcrübəni yoxlama ilə müqayisə etmək, herbari hazırlamaq, tədris təcrübə sahəsindəki işlər və s. bunlar uşaqda əmək tərbiyəsi aşılamaq üçün çox yaxşı imkanlardır (1.s.116).

Biologiyanın tədrisində, laboratoriya dərslərində biologiya müəllimi həm də tərbiyəçidir, tərbiyənin aşağıdakı formalarından istifadə olunur. Mənəvi tərbiyə, estetik tərbiyə, ekoloji tərbiyə, əmək tərbiyəsi, gigiyenik cinsi tərbiyə, vətənpərvərlik tərbiyəsi, özünün və ətrafdakıların sağlamlığına düzgün yanaşma (2.s.224).

Ümumtəhsil məktəblərində biologiyadan laboratoriya işlərinin aparılması ən mühüm məsələlərdən biridir. Hər bir biologiya müəllimi müasir dərs imkanlarından istifadə etməklə və dərsi mükəmməl şəkildə qurmaqla öz məqsədinə çata bilər. Lakin dərsi interaktiv formada qurmaq və sinfə tam nəzarət etməklə şagirdlərin fəallığını təmin edib onların hər birini dərsə cəlb etmək və prosesdə aktiv mövqe tutmaları üçün tədris saatı kifayət etməyə bilər. Bu vəziyyət laboratoriya dərslərində özünü daha qabarıq şəkildə büruzə verir, belə ki, müəllim həm dərs deməli, laboratoriya təcrübəsini şagirdlərə nümayiş etdirməli, şagirdlərin apardıqları işə nəzarət etməlidir. Şagirdlərdən hər hansı biri təcrübəni aparmaqda çətinlik çəkdikdə və ya hər hansı səhvə yol verdikdə onu digər şagirdlərin də iştirakı ilə düzəltməlidir. Bütün bu prosesləri müəllim tək apara bilməz, bunun üçün müəllimə laboratoriya otağına təhkim olunmuş laborant kömək etməlidir. Təəssüf olsun ki, hal-hazırda ümumtəhsil məktəblərimizin əksəriyyətində təcrübəli laborant çatışmazlığı yaranır, təlimin keyfiyyəti aşağı düşür. Şagirdlər mövzunu öyrənsələr də, onu tam dərk edə bilmirlər. Təcrübəli laborant çatışmazlığı problemini aradan qaldırmaq üçün biologiya laborantları üçün təlimlər təşkil olunmalı, laborantlar həmin təlimlərə cəlb olunmalıdır. Əksər mövzuların tədrisində lazım olan vasitələr ilin əvvəlində hazırlanmalı, il boyu təkmilləşdirilməlidir. Tədris ilinin əvvəlindən müəllim əyani, texniki vasitələri siniflər üzrə çevik şəkildə onlardan istifadə vaxtına görə planlaşdırmalıdır. Çatışmayan əyaniliklərin və avadanlıqların, aparatların siyahısını çıxartmalıdır. Həmin avadanlıqların əldə edilməsinə səy göstərməlidir. Vəsaitlərin və əyaniliklərin hazır-

lanması prosesinə müəllim məktəbin öz imkanlarından başqa, şagirdləri, valideynləri də cəlb etməlidir. Bu problemləri aradan qaldırmaq üçün ilk növbədə məktəbin maddi təminatı yaxşı səviyyədə olmalıdır.

Məktəb rəhbərliyi laboratoriya otağının təlim prosesində istifadəyə yararlığına ciddi nəzarət etməlidir. Eyni zamanda biologiya müəllimi də bu avadanlıqların şagirdlərin "oyuncaq" vasitəsinə çevrilməsinə yol verməməli və bütün avadanlıqlarla, onlardan istifadə edilməsi üsulu və işləmə prinsipləri ilə şagirdləri yaxından tanış etməlidir. Beləliklə, şagirdlər də əyani vasitələrlə və laboratoriya avadanlıqları ilə işləmə vərdişlərinə yiyələnir, müstəqil surətdə tədqiqat işi və təcrübə apara bilirlər.

Ümumtəhsil məktəblərində laboratoriya işləri şagirdlərin daha çox marağına səbəb olur. Hər hansı bir təcrübəni yerinə yetirdikdə şagirdlərdə özünə inam hissi formalaşır və biologiya fənnini bir elm kimi öyrənməyə daha da həvəs göstərirlər. Laboratoriya dərslərinin nə dərəcədə zəruri olduğunu aşağıdakı dərs nümunəsi əsasında göstərmək olar.

Mövzu: Hüceyrənin ümumi quruluşu.

Laboratoriya işi: Soğanın dəricik hüceyrələri preparatına mikroskopda baxılması.

Təchizat: Soğan dəricik hüceyrələrindən hazırlanmış preparat.

İşin gedişi:

1. Müəllim tərəfindən hazırlanmış soğanın dəricik hüceyrələrinin yodla rənglənmiş preparatına əvvəl mikroskopun kiçik, sonra böyük böyüdücüsü altında baxın.

2. Gördüklərinizi dəftərinizə çəkin.

3. Çəkdiyiniz şəkildə hüceyrənin əsas hissələrinin adını yazın.

Nəticələri müzakirə edək:

- Soğan pərdəsindən düzəldilmiş preparatda (yodla rənglənmiş) hüceyrələrin hansı hissəsi daha yaxşı görünür?
- Bu hissəcik hüceyrədə hansı funksiyaları yerinə yetirir? (4.s.80).

Hüceyrənin ümumi quruluşu. Əksər orqanizmlərin hüceyrəsi qılaf, sitoplazma və nüvədən təşkil olunmuşdur. Şagirdlər mövzu, məqsəd və iş zamanı istifadə ediləcək təchizatla məlumatlandırıldıqdan sonra şagirdlərin sayına müvafiq olaraq qruplara bölür və hər bir qrupa tapşırıq verir. Eyni zamanda müəllim hər bir qrupa işin mərhələlərini və iş zamanı nələrə diqqət edəcəklərini onlara izah edir. Laboratoriya işlərini şagirdlər laborantın və müəllimin nəzarəti altında sərbəst yerinə yetirirlər.

Laboratoriya işləri tamamlandıqdan sonra şagirdlər nəticələrini qrup şəklində təqdim edirlər. Səhvlər aydınlaşdırılır. Müəllim qrupların işlərini qiymətləndirir. Nəticə etibarı ilə şagirdlər mikroskopun quruluşu, materialın mikroskopda görünüşü haqqında nəzəri cəhətdən öyrəndiklərini laboratoriya işlərini icra etməklə praktik cəhətdən tətbiq edirlər. Onlarda tədqiqatçılıq bacarıqları formalaşır və inkişaf edir. Bununla da bir daha aydın olur ki, biologiya fənninin tədrisini laboratoriyasız təsəvvür etmək və onu yalnız nəzəri biliklər əsasında tədris etməyi düşünmək səhv olardı. Tədrisdə fəal təlim metodlarının həyata keçirilməsində fəal təlim metodlarının tətbiqinə diqqət yetirilməlidir (5. s.5).

Araşdırmamıza nəzərən demək olar ki, biologiya fənn proqramına daxil olan laboratoriya işləri interaktiv təlim metodlarının tətbiqi ilə aparılarsa, bu daha səmərəli olar. Laboratoriya işlərinin aparılması tələbələrdə bilik, bacarıq və vərdişlərə istinad edilərsə, bioloji anlayışların asan, sadə yollarla mənimsənilməsi, öyrənənlərdə fənnə marağın artmasına səbəb olmaqla dərs prosesində yeni təlim texnologiyalarını tətbiq etməyə də şərait yaradır.

- Biologiya fənləri üzrə aparılan laboratoriya işlərinin təlim keyfiyyətinə çox böyük təsiri olur.
- Keçirilən materiallar asan və tez mənimsənilir, uzun müddət yadda qalmasına şərait yaranır.
- Biologiyanın çətin öyrənilən və çətin başa düşülən, mənimsənilən mövzuları, hadisələri mənimsənilir, yada salınır və ümumiləşdirilir.

Müstəqil olaraq-müxtəlif sxem və cədvəllərlə işləmək, belə cədvəllər tərtib etmək bacarığı formalaşır.

Yeni təlim texnologiyalarından istifadə etməklə yaradıcı tətbiqetmə genişlənir, tədris prosesi asanlaşır. Nəticədə belə bir fikrə gəlmək olar ki, biologiya fənləri üzrə aparılan laboratoriya işlərində qarşıya qoyulan məsələlərin həlli müasir tələblərə uyğun həyata keçirilərsə, təlimdə yüksək keyfiyyət əldə etmək olar.

Problemin aktuallığı. Biologiya fənlərinin tədrisində laboratoriya işlərinin təlimin keyfiyyətinə təsirinin müəyyən olunması, şagirdlərdə tədqiqatçılıq bacarıqlarının inkişaf etdirilməsi tədris prosesi

üçün vacib amillərdəndir. Ümumtəhsil məktəblərində laboratoriya işlərini aparmaq üçün lazımı əyaniliklərdən, resurslardan istifadə edilib edilməməsi bundan əlavə biologiya müəllimlərinin, laborantların öz işlərinə nə dərəcədə məsuliyyətlə yanaşması baxımından mövzu aktualdır. Hal-hazırda biologiya fənləri üzrə laboratoriya işləri dərsliklərin fəaliyyət bölməsində verilir. Mövzularda laboratoriya işlərinə (fəaliyyət bölməsi) geniş yer verilməsi, şagirdlərdə praktik bilik, bacarıq və vərdişləri formalaşdırmaqla yanaşı onların tədqiqatçı kimi yetişməsinə zəmin yaradır. Bütün bunların araşdırılması məqalənin aktuallığını bir daha göstərir.

Problemin elmi yeniliyi. Məqalənin elmi yeniliyi aşağıdakı cəhətlərlə müəyyən olunur:

- Laboratoriya işlərinin təlimin keyfiyyətinə təsiri daha geniş araşdırılır.
- Şagirdlərin biologiya dərslərində marağının artması məsələsi ön plana çəkilir, laboratoriya işlərinin aparılması ilə əlaqədar çatışmazlıqlar araşdırılmışdır.

Problemin praktik əhəmiyyəti. Məqalədən laborator işləri ilə əlaqədar proqram, dərs vəsaiti, metodik vəsaitin yazılmasında, təlimin səmərəli təşkilində, kadr hazırlığında, elmi tədqiqat işlərində istifadə oluna bilər.

Ədəbiyyat

1. Ə.M. Hüseynov, M.Ş. Babayev, Ə.M. Məhərrəmov. Biologiya tədrisinin ümumi metodikası. -Bakı, 2003. -138 s.
2. Pərvin Qafarova. Biologiyanın tədrisi metodikası (İKT materialları ilə). Dərs vəsaiti. -Bakı, 2019. -160 s.
3. Gülşən Hacıyeva. Biologiyanın tədrisi metodikası. -Bakı, 2022. -424 s.
4. G.N. Hacıyeva, E.F. Səfərova, S.M. Axundova. Biologiyanın tədrisi metodikasından laboratoriya və seminar məşğələlər. -Bakı, 2020. -204 s.
5. H.M. Hacıyeva, T.Q. Abdullayeva, X.Q. İbrahimova. Biologiyadan laboratoriya və praktik işlərin fəal təlim metodları ilə təşkili. -Bakı, 2004. -153 s.

Redaksiyaya daxil olub: 04.06.2025

UOT 372.857

Elnurə Fazil qızı Səfərova,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-4151-1750
E-mail:seferovaelnure@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(4).97-100

Zərifə Rəsul qızı İsmayılova,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-9700-0116

BİOLOGİYANIN TƏDRİSİNDƏ YENİ DƏRS MODELLƏRİNİN TƏTBİQİ VƏ MANEƏLƏR

Elnura Fazil Safarova,
associate professor of Azerbaijan State Pedagogical University,
doctor of philosophy in biology

Zarifa Rasul Ismayilova,
associate professor of Azerbaijan State Pedagogical University,
doctor of philosophy in biology

IMPLEMENTATION OF NEW LESSON MODELS AND CHALLENGES IN BIOLOGY EDUCATION

Эльнура Фазиль гызы Сафарова,
доцент Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по биологии

Зарифа Расул гызы Исмайлова,
,доцент Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по биологии

ВНЕДРЕНИЕ НОВЫХ МОДЕЛЕЙ УРОКОВ И ПРЕПЯТСТВИЯ В ПРЕПОДАВАНИИ БИОЛОГИИ

Xülasə. Yeni dərs modelləri təhsildə innovasiyaların tətbiqi ilə əlaqədar olaraq son illərdə geniş yayılmışdır. Yeni dərs modelləri ənənəvi tədris metodlarından fərqli olaraq daha interaktiv və şagirdyönlüdür. Lakin bu yanaşmaların tətbiqi zamanı müəllimlər müxtəlif çətinliklərlə üzləşirlər. Ən çox rast gəlinən problemlərdən biri resurs çatışmazlığı və metodiki dəstəyin yetərsizliyidir. Eyni zamanda, müəllimlərin bu modellər üzrə təlim almaması tətbiqi çətinləşdirir. Təhsil müəssisələrində texnoloji infrastrukturun zəifliyi də əsas maneələrdəndir. Bütün bu çətinliklərə baxmayaraq, yeni dərs modellərinin tətbiqi tədrisin keyfiyyətini artırmaq üçün mühüm imkanlar yaradır.
Açar sözlər: *Biologiya, model, dərs, müasir, maneə*

Abstract. In recent years, new lesson models have become widespread in connection with the implementation of innovations in education. Unlike traditional teaching methods, these models are more interactive and student-centered. However, teachers face various challenges in the process of applying these approaches. One of the most common problems is the lack of resources and insufficient methodological support. Additionally, the absence of teacher training in these models complicates their implementation. Weak technological infrastructure in educational institutions is also among the major obstacles. Despite all these difficulties, the application of new lesson models creates significant opportunities for improving the quality of education.

Key words: *Biology, model, lesson, modern, obstacle*

Аннотация. В последние годы новые модели уроков получили широкое распространение в связи с внедрением инноваций в образовании. В отличие от традиционных методов обучения, данные модели являются более интерактивными и ориентированными на ученика. Однако при их внедрении учителя сталкиваются с различными трудностями. Одной из наиболее распространённых проблем является нехватка ресурсов и недостаточная методическая поддержка. Кроме того, отсутствие подготовки учителей по данным моделям затрудняет их применение. Слабая технологическая инфраструктура в образовательных учреждениях также является серьёзным препятствием. Несмотря на все эти трудности, внедрение новых моделей уроков создаёт значительные возможности для повышения качества образования.

Ключевые слова: *биология, модель, урок, современный, препятствие*

Yeni dərs modellərinə aşağıdakılar aiddir: [4]

Flipped Classroom (Çevrilmiş sinif). Şagirdlər dərs materialını evdə öyrənir, sinifdə isə praktik məşğələlər aparılır.

Problem-based Learning (Problem bazlı öyrənmə). Real həyatda rast gəlinən problemlər əsasında öyrənmə həyata keçirilir.

Project-based Learning (Layihə əsaslı öyrənmə). Şagirdlər konkret layihələr üzərində çalışaraq bilik və bacarıqlarını inkişaf etdirirlər.

Blended Learning (Hibrid öyrənmə). Ənənəvi sinif dərsləri ilə onlayn dərslər birlikdə istifadə olunur.

Game-based Learning (Oyun əsaslı öyrənmə). Dərs prosesində oyun elementlərindən istifadə olunur.

E-dərs modelləri texnologiya vasitəsilə öyrənməni təmin edir. Bunlara aiddir: *Video dərslər və platformalar (Zoom, Teams, Google Classroom və s.), Moodle, Edmodo, LMS sistemləri, Mobil tətbiqlər və interaktiv məzmun, Virtual sinif otaqları və süni intellekt əsaslı platformalar.*[3]

Təhsildə 3E modeli – Explore (Araşdır), Explain (İzah et), Extend (Genişləndir) mərhələlərindən ibarət olan konstruktivist təlim modelidir. Bu model şagirdin fəal öyrənmə prosesinə cəlb olunmasına və bilikləri öz təcrübəsi əsasında qurmasına imkan yaradır. Bu model xüsusilə təbiət elmlərinin (biologiya, fizika, kimya və s.) tədrisində effektiv sayılır.[6]

Tədqiqata əsaslanan təlim metodu ilə keçilən dərslər 5E modelinə (5E/ing: engage, explore, explain, elaborate və evaluate sözlərinin baş hərflərinin sayını ifadə edir) görə planlaşdırılır. 5E modeli şagirdlərin problem formalaşdırmaq, müşahidə aparmaq, analiz, nəticə çıxararaq problemin həll yollarını müəyyənləşdirmək və nəticələri yoldaşları ilə kommunikasiya etmək bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır. 5E dərs modeli təlim prosesində müəyyən ardıcıllığa əməl etməyin daha effektiv olduğunu nəzərə alır və aşağıdakı mərhələlərdən ibarətdir:

Maraqoyatma (Engage). Bu mərhələdə şagirdlərə tanış olan bir situasiyadan istifadə edərək suallar verilir və onlar müzakirəyə dəvət olunurlar. Məqsəd şagirdlərin ilkin bilikləri ilə dərsin təlim nəticələri arasında əlaqə qurmaq, mövzuya maraq oyadaraq onları tədqiqata yönəltməkdir. Təbiət fənni dərsliyində hər bölmə şagirdlərin gündəlik həyatlarından tanış bir situasiya ilə başlayır və müvafiq suallar əsasında verilmiş situasiya ilə öyrənəcəkləri anlayışlar arasında körpü yaradılır.[2]

Araşdırma (Explore). İkinci mərhələ olan araşdırma mərhələsində şagirdlər fəaliyyətlərdə iştirak edir, nəticələri müzakirə edir və konkret nəticələrdən daha ümumi anlayışa keçid üçün hazırlıqlı olurlar.

İzahetmə (Explain). Bu mərhələdə müəllim şagirdlərin araşdırma mərhələsində öyrəndiklərini sintez edib ümumiləşdirir, təlim nəticələrində nəzərdə tutulan anlayışları birbaşa təqdim edir.

Möhkəmləndirmə (Elaborate). Əvvəlki mərhələnin davamı olaraq dərinləşdirmə mərhələsində müəllim yeni misallar və nümunələr təqdim edir, anlayışın tətbiq olunduğu əhatə dairəsini genişləndirir.

Qiymətləndirmə (Evaluate). Sonuncu mərhələdə "Biliklərin yoxlanılması" başlığı altında verilmiş sualların köməyi ilə şagirdlərin məzmunu mənimsəmə dərəcələri ölçülür.

Təbiət fənlərinin tədrisinin müasir 7E modeli 5E modelinin təkmilləşdirilmiş variantıdır. Bu konstruktivist yanaşmaya əsaslanır. Konstruktivist yanaşmada məqsəd, şagirdin özünü aktiv etmək, etmək, yaşamaq və onu zehnində qurmaq üçün

bilik əldə etməyə imkan verməkdir. Təhsildə 7E Model yeddi mərhələdən ibarətdir: [7]

Elicit - yadasalma. Yadasalma mərhələsi təhsilalanın öncədən olan biliklərini yada salmaq, aşkar olmayan bilikləri aktivləşdirərək yeni biliklərin əldə edilməsində əvvəlki biliklərə əsaslanmağı nəzərdə tutur. Bunu necə edirik: təhsilalana mövzu ilə bağlı suallar veririk, onun fikir və düşüncələrini götürüb onu dərsə hazırlayırıq.

Engage - cəlbetmə. Şagirdlərdən bir problem üçün sərbəst, məhdudiyyətsiz düşünmələri istənir. Bütün sinif müzakirə mühiti içərisində həll etmək üçün çıxarılan fikirləri müzakirə edir. Şagirdlər burada da öz düşüncələrini soruşurlar. Bu fikir bu problemin həllində işləyirmi, davamlı olaraq bu həll ideyası həddən artıq şişirdilmiş kimi sual verir və ən yaxşı həllini tapmağa çalışır. Şagirdlər öyrənmə prosesini özləri idarə etdikləri, yəni planlaşdırma, qərarvermə və icraetmə proseslərini özləri həyata keçirdikləri üçün yüksək motivasiya ilə öyrənmə prosesinə cəlb olunurlar.

Explorer – tədqiqat. Şagirdlər qrup işlərində və müəllimin rəhbərliyi altında fərqli anlayışları birlikdə müəyyənləşdirməyə və anlamağa çalışırlar. Sonra müəllim, fəaliyyətləri nəticəsində öyrəndikləri və öyrənilmədikləri barədə sual verərək öyrəndiklərini izah edə bilməsi kimi bir testlər edərək tədrisin davamlı olmasına çalışır. Bu mərhələdə müəllim suallar verir və şagirdlərə düzgün cavab verməyə kömək edir və rəhbər vəzifəni yerinə yetirir.

Explain – izahat. Müəllim şagirdlərdən araşdırma aparmağı, anlayışları öyrənməyi və istifadə etmələrini xahiş edir. Digər tərəfdən, tələbələr köhnə bilik və yeni bilik arasında əlaqə qurur və şüurlarında qururlar. Bu mərhələdə tələbələr problemin həlli yollarını axtarır və bu həll yollarını sınayırlar. Müəllim hələ rəhbərlik etmək üçün buradadır.

Elaborate – təkmilləşdirmə. Təkmilləşdirmə mərhələsində müəllim təlimat tapşırığını yerinə yetirərkən şagirdlərə yeni biliklər əldə etməyə kömək edir və şagirdlər yeni bilik və köhnə bilik arasındakı əlaqəni daha yaxşı başa düşürlər.

Evalute – dəyərləndirmə. Şagirdin müəllimin verdiyi konsepsiyanı bölüşdürərək, məlumatı bölüşdürərək, işləri öz aralarında bölüşdürməklə məlumatın çatması və ya fikirlərini dəyişdirməsi gözlənilir.

Extend – genişləndirmə. Genişləndirmə mərhələsi yeni qazanılmış bilik və bacarıqların yeni situasiyalarda sınaqdan keçirilməsini nəzərdə tutur. Bu mərhələdə müəllim şagirdlərdə meydana çıxan yeni məlumatları yoxlayır, məlumatların davamlılığını yoxlayır və tələbələrin tətbiq etdiyi problemin həllini qiymətləndirir.[4]

Nəticə: Biologiyanın tədrisində yeni dərs modellərinin tətbiqi zamanı təhsilalanlarda elmi savadlılıq özünü aşağıdakı formalarda biruzə verir:

İnduktiv və deduktiv düşüncənin olması;

Məlumat və xüsusiyyətlərin təqdim edilməsi;

Fikrinin sərbəst ifadəsi;

Müzakirə nəticələrini ümumiləşdirərək təqdim etmək;

Məzmunun aktiv şəkildə mənimsənilməsi;

Problemlərin həllinə məsuliyyətli yanaşma və s. [5]

Bu modellərin tətbiqi zamanı yaranan maneələr:

✓ Zaman məhdudiyyəti- 5E və 7E modelləri daha çox zaman tələb edir, ənənəvi 45 dəqiqəlik dərslər üçün bəzən uyğun olmur.

✓ Müəllim hazırlığı- Müəllimlərin bu modelləri effektiv tətbiq etməsi üçün təlimlərə və metodik biliklərə ehtiyacı var.

✓ Resurs çatışmazlığı- Tədqiqat, müşahidə və təcrübə mərhələləri üçün lazımi avadanlıq və vəsaitlər bəzən olmur.

✓ Şagirdlərin passivliyi- Bəzi şagirdlər aktiv iştirakdan çəkinə bilər, xüsusilə “explore" mərhələsində.

✓ Qiymətləndirmədə çətinlik - "Evaluate" mərhələsində fərdi və ya qrup işi zamanı obyektiv qiymətləndirmə aparmaq çətin ola bilər.

✓ Şagirdlərarası fərqlər - Bütün şagirdlər eyni dərəcədə aktiv və maraqlı olmaya bilər – fərdi yanaşma tələb olunur.

✓ Dil və ifadə bacarıqları - “Explain” və “Elaborate” mərhələlərində şagirdlər öz fikirlərini düzgün ifadə etməkdə çətinlik çəkə bilər.[1]

Problemin aktuallığı. Biologiyanın tədrisində yeni dərs modellərinin tədris prosesində tətbiqi təhsilalanlarda elmi savadlılıq, yəni öyrəndiyi sahənin məzmununu dərk etməklə tətbiq edə bilmək bacarıqlarının formalaşmasına təkan verir.

Problemin elmi yeniliyi. Biologiya dərslərində yeni dərs modellərinin tətbiqi imkanları müəyyənləşdikdən sonra ortaya çıxan çətinliklər təhlil

olunur. Bu da müəllimlərin dərsi planlaşdırdıqda nəzərə almaqlarını təmin edir.

Problemin praktik əhəmiyyəti və tətbiqi. Biologiyanın tədrisində yeni dərs modellərinin tətbiqi zamanı şagirdlər öyrəndikləri bilikləri real həyatla əlaqələndirir və müxtəlif situasiyalarda tətbiq etmə bacarığı əldə edir. Şagirdlər anlayışları daha dərindən mənimsəyir və fərqli kontekstlərdə istifadə etməyi öyrənirlər. Məqalədən ümumi təhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

Ədəbiyyat

1. Babayev, M.Ş. Biologiyanın tədrisi metodikası. / M.Ş. Babayev, M.M. Məcidov. -Bakı, 2005. - 184 s.
2. Bayramova L.B. Kurikulum və pedaqogika. (Ali məktəb tələbələri və müəllimlər üçün nəzərdə tutulmuş vəsait) / . -Bakı: Nurlar nəşriyyatı, -2020. -s. 110-115.
3. Balaxanova Q.V. Məmmədova, G. Orta məktəblərdə ekosistemlər və ekoloji biliklərin formalaşdırılması. Elmi Tədqiqat Beynəlxalq Elmi Jurnal, 5(2). - Bakı, 2025. -s. 125–128.
4. Cavadov, E.M. Steam interaktiv təhsil. / E.M. Cavadov R. Məmmədova. – Bakı: Müəllim, - 2024. - 284 s.
5. Hacıyeva G.N. Biologiyanın tədrisi metodikası(dərslik) / G.N. Hacıyeva. -Bakı: Müəllim. - 2019. - 380 s.
6. Hacıyeva G.N. Biologiyanın tədrisi metodikasından laborator və seminar məşğələlər: Dərs vəsaiti / G.N. Hacıyeva. E.F. Səfərova, S.M. Axundova. -Bakı: Müəllim, -2020. - 204s.
7. Mahmudova K.F. Biologiyanın tədrisinə yeni baxış // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri,.- Bakı, 2017, № 3. -s. 112-118.

Redaksiyaya daxil olub: 05.06.2025

UOT 372.857

Təranə Mayıl qızı Əkbəri,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Şamaxı filialının baş müəllimi,
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-9293-4561
E-mail:akbarietmp@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(4).101-104

HƏYAT BİLGİSİ DƏRSLƏRİNDƏ ŞAGİRD FƏALLIĞINI ARTIRAN YANAŞMALARIN ŞAGİRDYÖNÜMLÜLÜK BAXIMINDAN TƏHLİLİ

Tarana Mayil Akbari,
senior lecturer of the Shamakhi branch of Azerbaijan State Pedagogical University,
doctor of philosophy in biology,

ANALYSIS OF APPROACHES TO INCREASE STUDENT ACTIVITY IN WORLD KNOWLEDGE LESSONS FROM THE POINT OF VIEW OF STUDENT ENGAGEMENT

Тарана Майил гызы Акбари,
старший преподаватель
Шамахинского филиала Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по биологии

АНАЛИЗ ПОДХОДОВ, ПОВЫШАЮЩИХ АКТИВНОСТЬ УЧАЩИХСЯ НА УРОКАХ ПО ПРЕДМЕТУ «ПОЗНАНИЕ МИРА», С ТОЧКИ ЗРЕНИЯ ОРИЕНТАЦИИ НА УЧАЩЕГОСЯ

Xülasə. Məqalədə ibtidai siniflərdə Həyat bilgisi fənninin tədrisində şagird fəallığını artıran yanaşmalar, xüsusilə şagirdyönlü təlim prinsipi çərçivəsində təhlil edilir. Şagirdyönlülük müasir pedaqoji sistemdə əsas istiqamət olaraq qəbul edilir və tədris prosesində şagirdin fəal iştirakını təmin etməyə xidmət edir. Məqalədə şagirdyönlü təlimin mahiyyəti, tətbiq metodları və bu yanaşmanın Həyat bilgisi dərslərində yaradıcı, tənqidi və araşdırmayönlü düşüncə bacarıqlarının inkişafına təsiri araşdırılır. Müəllimlərin rolu, interaktiv metodlardan istifadə, layihə və oyun əsaslı yanaşmaların tətbiqi ilə bağlı nümunələr və təkliflər verilir.
Açar sözlər: *Həyat bilgisi, şagirdyönlü təlim, fəal təlim, layihə əsaslı öyrənmə, interaktiv metodlar, ibtidai sinif*

Abstract. The article analyzes approaches that increase student activity in teaching Life Sciences in primary grades, especially within the framework of the principle of student-centered learning. Student-centered learning is accepted as a main direction in the modern pedagogical system and serves to ensure the active participation of students in the educational process. The article examines the essence of student-centered learning, its application methods, and how this approach affects the development of creative, critical, and research-oriented thinking skills in Life Sciences lessons. Examples and suggestions are given regarding the role of teachers, the use of interactive methods, and the application of project- and game-based approaches.
Key words: *world knowledge, student-centered learning, active learning, project-based learning, interactive methods, primary school.*

Аннотация. В статье анализируются подходы, повышающие активность учащихся при преподавании предмета «Познание мира» в начальных классах, особенно в рамках принципа обучения, ориентированного на учащегося. Ориентация на учащегося рассматривается как основное направление в современной педагогической системе и служит обеспечению активного участия школьников в учебном процессе. В статье исследуется суть обучения, ориентированного на учащегося, методы его применения, а также влияние данного подхода на развитие у школьников творческого, критического и исследовательского мышления на уроках «Познание мира». Приводятся примеры и рекомендации по роли учителя, использованию интерактивных методов, проектного и игрового подходов в обучении.

Ключевые слова: *Познание мира, обучение ориентированное на учащихся, активное обучение, проектное обучение, интерактивные методы, начальные классы*

Müasir dövrdə təhsil sisteminin inkişafı, tədris prosesinə yeni yanaşmaların tətbiqini zəruri edir. İbtidai siniflərdə tədris olunan Həyat bilgisi fənni şagirdlərin ətraf mühitlə bağlı ilkin təsəvvürlərini formalaşdırmaqla yanaşı, onların sosiallaşma və fəal öyrənmə bacarıqlarını da inkişaf etdirir. Bu baxımdan, şagirdyönlü yanaşmaların tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Bu məqalədə Həyat bilgisi dərslərində şagird fəallığını artırmaq məqsədilə istifadə edilə bilən şagirdyönlü yanaşmalar təhlil olunur .

Şagird fəallığının artırılmasında şagirdyönlü yanaşmalar xüsusi rol oynayır. Şagirdyönlülük prinsipinə əsaslanan təlim modeli, şagirdin dərs prosesində aktiv iştirakını təmin edir. Bu yanaşmada müəllim yönləndirici funksiyanı yerinə yetirir, əsas diqqət isə şagirdin bilikləri öz müşahidələri, təcrübəsi və düşüncə fəaliyyəti ilə qazanmasına yönəlir. Şagirdyönlü yanaşmada, şagirdlər passiv dinləyici deyillər, onlar təlim prosesində fəaldırlar. Bu zaman "şagird fəaldır" dedikdə şagirdin dərsdə fiziki və ya emosional fəallığı ilə yanaşı, idraki fəallığı nəzərdə tutulur. Bu modeldə müəllimin əsas rolu materialın anlaşılması üçün şagirdi yönəltməkdən, ona yaxından kömək etməkdən, bir sözlə, şagirdə materialı hazır şəkildə verməkdən yox, öyrənməyin yollarını öyrətməkdən ibarətdir. Şagirdyönlü təlim şagirdlərin təfəkküründün, həyati və bir sıra sosial bacarıqlarının formalaşmasına, özlərini daha düzgün şəkildə ifadə etmələrinə də şərait yaradır. Şagirdin qarşısına informasiyanı araşdırma, təhliletmə, arqument gətirmə, konflikt həlletmə, vaxtın səmərəli idarə olunması, fikrini əsaslandırma kimi mühüm fəaliyyətlərin icrası çıxır ki, bunlar da öz növbəsində onlarda müəyyən bacarıq və vərdişlərin formalaşmasına xidmət edir. Şagirdlər əldə etdikləri bilikləri tətbiq edərək inkişaf etdirir və bu da bacarığa çevrilir. Bu yanaşmada əsas məqsəd idraki fəallıq və təfəkkürün inkişafına yönəlik olmasıdır.

Şagirdyönlülük prinsipinə əsaslanan təlim modeli, tədris metodları, üsulları və strategiyaları ilə zəngindir. Layihə əsaslı öyrənmə, problem əsaslı öyrənmə, əməkdaşlığa əsaslanan öyrənmə, interaktiv təlim texnologiyaları, təqdimat-poster-video hazırlanması, panellər, ekspert rəylərindən faydalanmaq, beyin həmləsi, müzakirə, qruplarla iş, öyrənmə mərkəzlərinin yaradılması, təcrübələr, rol oyunu, simulyasiyalar, nümayiş, tədqiqat əsaslı öyrənmə, , diferensiallaşdırılmış tədris, layihə əsaslı öyrənmə, problem əsaslı öyrənmə, kəşf, sual-cavab, sosial mediadan istifadə, xəritələr üzərində iş, aktiv öyrənmə, həmyaşıdlarla öyrənmə, komanda qurmaq, oyuna əsaslanan öyrənmə və yarışlar şagird mərkəzli metod, texnika və strategiyalarından bəzilərıdir.

Layihə əsaslı öyrənmə (Project-Based Learning – PBL) – şagirdlərin bilik və bacarıqları real və maraqlı bir layihənin planlaşdırılması, həyata keçirilməsi və nəticələrinin təqdim olunması yolu ilə əldə etdiyi təlim modelidir. Bu üsul şagirdlərə tənqidi düşünmək, əməkdaşlıq etmək, qərar qəbul etmək və yaradıcı olmaq imkanı verir. Tədqiqatlar göstərir ki, PBL yanaşması şagirdlərdə daha yüksək motivasiya və davamlı öyrənmə nəticələri ilə nəticələnir .

Həyat bilgisi fənninin tədrisində istifadə edilən aktiv təlim metodları şagirdin marağını artırmaqla yanaşı, onun dərslərə fəal qoşulmasını təmin edir. Məsələn, təcrübəyə əsaslanan öyrənmə, müşahidə və tədqiqat üsulları, qrup və cüt işləri, müzakirələr, rollu oyunlar və təbiət müşahidələri bu fənn üçün səmərəli hesab olunur. Bu metodlar vasitəsilə şagirdlər öz fikirlərini sərbəst ifadə etməyi, arqumentləşdirməyi və əməkdaşlıq etməyi öyrənirlər.

Məsələn, "Mənim ailəm" mövzusunun tədrisində şagirdlər ailə üzvləri haqqında təqdimat hazırlayır, şəkillər çəkir və ya ailə üzvləri ilə müsahibə aparır. Bu cür tapşırıqlar şagirdin tədqiqat aparmaq, məlumat toplamaq və təqdim etmək bacarıqlarını inkişaf etdirir. Eyni zamanda, real həyatla əlaqələndirilmiş layihələr onların öyrənməyə olan marağını artırır .

Problem əsaslı öyrənmə biliyin formalaşdırılması prosesində şagirdin aktiv, əvvəlki biliklərini nəzərə alaraq, real həyat problemlərini həll etmək üçün həm qrup, həm də fərdi araşdırmaların aparıldığı, effektiv ünsiyyət bacarıqlarının istifadə edildiyi ömür boyu öyrənməni dəstəkləyən bir tədris metodudur. Problem əsaslı öyrənmədə tələbələr öyrənməklə əldə etdikləri yeni bilikləri qarşılaşdıqları problemlərə tətbiq edirlər. Problemin həlli prosesində nə öyrəndiklərini əks etdirirlər. Bundan əlavə, problem əsaslı öyrənmə zamanı təhlil, sintez və qiymətləndirmə və s. səviyyəli koqnitiv bacarıqlar inkişaf etdirilir.

Qeyd edək ki, fəallığı artıran yanaşmaların üstünlükləri və müəyyən çətinlikləri mövcuddur. Şagirdyönlü yanaşmaların üstünlükləri sırasında aşağıdakılar qeyd edilə bilər: şagirdin öyrənməyə motivasiyası artır, onun müstəqil düşünmə və qərarvermə bacarığı formalaşır, sosial və kommunikativ bacarıqları inkişaf edir. Lakin bəzi hallarda bu yanaşmaların tətbiqi çətinliklərlə müşayiət oluna bilər. Məsələn, böyük siniflərdə bütün şagirdlərin eyni dərəcədə fəal iştirakı təmin olunmaya bilər və ya müəllimlər bu metodları tətbiq etmək üçün əlavə təlimə ehtiyac duya bilərlər.

Şagirdyönlü təlimin əsas prinsiplərindən biri də tədrisin şagirdlərin maraq və ehtiyaclarına uyğunlaşdırılmasıdır. Həyat bilgisi dərslərində bu, onların gündəlik həyatı, ailəsi, məktəb mühiti, ətraf mühiti və cəmiyyətlə əlaqəli məsələləri əhatə edən mövzulara əsaslanaraq təmin edilə bilər. Şagirdlərin maraq göstərdiyi mövzularda tapşırıqlar hazırlamaq onların motivasiyasını və fəallığını artırır. Bu zaman müəllim fərdi yanaşmanı və diferensial təlimi tətbiq etməlidir .

Texnologiyanın sürətlə inkişaf etdiyi müasir dövrdə təhsildə rəqəmsal resursların tətbiqi təlimin keyfiyyətini artırır. Həyat bilgisi dərslərində videoçarxlar, interaktiv təqdimatlar, animasiyalar və onlayn testlərdən istifadə şagirdlərin öyrənmə prosesinə daha fəal qoşulmasına imkan yaradır. Rəqəmsal platformalarda yaradılan layihələr və təqdimatlar vasitəsilə şagirdlər biliklərini yaradıcı şəkildə ifadə edə bilirlər .

Şagirdyönlü təlimdə qiymətləndirmə yalnız nəticəyə deyil, həm də prosesə əsaslanmalıdır. Formativ qiymətləndirmə üsulları – müşahidə, portfoliolar, özünüqiymətləndirmə və həmyaşıd qiymətləndirməsi şagirdin inkişaf dinamikasını izləməyə imkan verir. Müəllimin davamlı əks əlaqəsi isə şagirdə özünü təkmilləşdirməyə şərait yaradır. Ədalətli və fərdi xüsusiyyətləri nəzərə alan qiymətləndirmə şagirdin motivasiyasını artırır.

Həyat bilgisi dərslərində valideynlərin təlim prosesində iştirakı mühüm rol oynayır. Ailə mühiti ilə dərs mövzularının əlaqələndirilməsi şagirdin dərsi mənimsəməsinə kömək edir. Müəllimlər valideynlərlə əməkdaşlıq edərək ev tapşırıqlarının daha səmərəli yerinə yetirilməsinə, layihələrin hazırlanmasına və öyrənmə mühitinin dəstəklənməsinə nail ola bilərlər. Valideynin iştirak etdiyi dərslər və ya açıq dərslər bu baxımdan faydalıdır.

İbtidai siniflərdə Həyat bilgisi dərslərində şagirdyönlü yanaşmaların tətbiqi, təlimin effektivliyini və şagirdlərin fəallığını artırmaq baxımından mühüm rol oynayır. Bu baxımdan təklif olunur ki, müəllimlər müasir pedaqoji texnologiyalarla mütəmadi tanış olsunlar, interaktiv metodlardan istifadə etsinlər və şagirdlərin fəallığını stimullaşdıran mühit yaratsınlar. Eyni zamanda, dərsliklər və tədris resursları da bu istiqamətdə təkmilləşdirilməlidir.

Problemin aktuallığı. Müasir dövrdə təhsil sistemində əsas məqsədlərdən biri şagirdin şəxsiyyət kimi formalaşmasına, onun yaradıcılıq, tənqidi düşüncə və qərarvermə bacarıqlarının inkişafına şərait yaratmaqdır. Xüsusilə ibtidai siniflərdə Həyat bilgisi dərsləri bu bacarıqların təməlini qoyur. Lakin ənənəvi tədris üsullarının tətbiqi zamanı şagirdlər passiv dinləyici rolunda qalır və fəal öyrənmə mühiti formalaşmır. Bu səbəbdən, şagirdyönlü yanaşmalara keçid zərurət təşkil edir və bu məsələ pedaqoji cəhətdən aktuallığını qoruyur.

Problemin yeniliyi. Bu mövzu çərçivəsində aparılan təhlil şagirdyönlülüyün konkret olaraq Həyat bilgisi dərslərinə necə inteqrasiya oluna biləcəyini və bunun üçün hansı metodik yanaşmaların daha səmərəli olduğunu göstərməklə fərqlənir. Məqalədə müasir pedaqoji texnologiyalarla yanaşı, yerli kontekstə uyğun tətbiq edilə biləcək interaktiv və layihə əsaslı metodlara diqqət yetirilmişdir. Bu da mövzu-

nun pedaqoji praktikada daha məqsədyönlü tətbiqi üçün yeni baxış bucağı formalaşdırır.

Problemin praktik əhəmiyyəti. Tədqiq olunan mövzu praktik olaraq müəllimlər üçün dərs prosesini daha effektiv və şagirdyönlü təşkil etmək baxımından əhəmiyyətlidir. Məqalədə təqdim olunan metod və yanaşmalar vasitəsilə müəllimlər şagirdlərin dərs prosesinə daha fəal qoşulmasını təmin edə, onların maraq və motivasiyasını artıra bilərlər. Həmçinin bu yanaşmalar şagirdlərin real həyatla əlaqəli biliklər əldə etməsinə və öz müstəqil fikirlərini ifadə etməsinə imkan verir. Beləliklə, əldə edilən nəticələr təhsil siyasəti və pedaqoji praktikada tətbiq oluna biləcək tövsiyələr xarakteri daşıyır.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Azərbaycan Respublikasının Təhsil İnstitutu //Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün "Həyat Bilgisi" fənni üzrə Təhsil Proqrami (Kurikulum) (I-IV Siniflər).- Bakı –2023.- 40 s..
2. Akdemir, E., & Özçelik, C. (The investigation of the attitudes of teachers towards using student centered teaching methods and techniques.//- Universal Journal of Educational Research,-2019. № 7, s. 1147-1153.
3. Yeşilpınar-Uyar, M., & Doğanay, A. Öğrenci merkezli strateji, yöntem ve tekniklerin akademik başarıya etkisi: Bir meta-analiz çalışması.// -Mersin Üniversitesi Eğitim Fakültesi Dergisi,- 2018. № 14, -s.186-209.
4. Miller J. J. Student-Centered Classroom, The: Transforming Your Teaching and Grading Practices (A guide for student-centered learning through interactive teaching practices and individualized assessment)- Softcover, - USA, Publisher: Solution Tree Press, 2021. -s.20
5. Yağan, S. A. Öğrenci merkezli yöntem, teknik ve stratejilerin öğrenci tutumuna etkisi: Bir meta analiz çalışması,//- Bayburt Eğitim Fakültesi Dergisi,- 2021. № 17,- s. 294-323.
6. Taşkesenligil, Y., Şenocak, E. ve Sözbilir, M. Probleme dayalı öğrenme teorik temelleri.// -Milli Eğitim Dergisi, -2008. № 177, -s. 50-64.

Redaksiyaya daxil olub: 10.06.2025

UOT 796.325

Arzu Elşad qızı Cəfərova,
Azərbaycan İdman Akademiyasının
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0009-8328-8495
E-mail: arzu.cafarova2020@sport.edu.az
https://doi.org/10.69682/arti.2025.92(4).105-109

MİLLİ OYUNLARDAN İSTİFADƏ ETMƏKLƏ YENİYETMƏ VOLEYBOLÇULARIN FİZİKİ HAZIRLIQLARININ İNKİŞAF ETDİRİLMƏSİ

Arzu Elshad Jafarova,
doctorial student in the program of doctor of philosophy
at the Azerbaijan Sports Academy

DEVELOPING THE PHYSICAL FITNESS OF YOUNG VOLLEYBALL PLAYERS THROUGH THE USE OF NATIONAL GAMES

Арзу Эльшад гызы Джафарова,
докторант по программе доктора философии
Азербайджанской Академии Спорта

РАЗВИТИЕ ФИЗИЧЕСКОЙ ПОДГОТОВКИ ЮНЫХ ВОЛЕЙБОЛИСТОВ С ИСПОЛЬЗОВАНИЕМ НАЦИОНАЛЬНЫХ ИГР

Xülasə. Məqalə voleybol məşğələlərində yeniyetmə voleybolçu şagirdlərin fiziki hazırlıqlarının inkişaf etdirilməsi zamanı milli oyunlardan istifadə bacarıqlarının formalaşdırılması probleminə həsr olunmuşdur. Məqalədə milli oyunların yaranma tarixi və onlardan istifadə yolları ilə bağlı nəzəri məlumatlar verilir. Məqalədə milli oyunlara dair praktik nümunələr barədə də məlumatlar verilir.
Açar sözlər: *voleybol məşğələləri, yeniyetmə voleybolçular, fiziki hazırlıq, fiziki inkişaf, fiziki tərbiyə, milli oyunlar, mütəhərrik oyunlar, idman təlimi, idman oyunları*

Abstract. The article is dedicated to the issue of developing the skills to use national games during the physical training of young volleyball players in volleyball sessions. It provides theoretical information about the origin of national games and the ways they can be used. The article also includes practical examples related to national games.
Keywords: *volleyball sessions, young volleyball players, physical training, physical development, physical education, national games, active games, sports training, sports games*

Аннотация. Статья посвящена проблеме формирования навыков использования национальных игр в процессе развития физической подготовки юных волейболистов на занятиях по волейболу. В статье представлены теоретические сведения о происхождении национальных игр и способах их применения. Также приводятся практические примеры, связанные с использованием национальных игр.
Ключевые слова: *занятия по волейболу, юные волейболисты, физическая подготовка, физическое развитие, физическое воспитание, национальные игры, подвижные игры, спортивная подготовка, спортивные игры*

Azərbaycanda təhsilin inkişafı üzrə Dövlət Strategiyasının əsas istiqamətlərindən biri yetişən nəslin fiziki cəhətdən sağlam böyümələrinin qayğısına qalınması ilə bağlıdır. Bu sahədə qəbul edilən direktiv sənədlərdə voleybol idman növü üzrə görüləcək işlərin prioritet istiqamətlə-

rinin düzgün müəyyənləşdirilməsi qarşıya vəzifə kimi qoyulmuşdur. Bu vəzifələrin müvəffəqiyyətlə icra edilməsindən ötrü isə milli oyunların gücündən yerli-yerində istifadə etmək tövsiyə edilir. Bu mənada voleybol məşğələlərində yeniyetmə voleybolçuların fiziki hazırlıqlarının inkişaf etdirilməsi zamanı milli oyunlarından istifadənin yollarının düzgün müəyyənləşdirilməsi məqsədəmüvafiq sayılır. Bunun üçün ümumtəhsil məktəblərində və eləcə də idman təmayüllü təhsil müəssisələrində yeniyetmə voleybolçuların fiziki hazırlıqlarının artırılması üçün milli oyunların təlim prosesinə inteqrasiyası vacib hesab edilir. Əsas məqsəd milli oyunların fiziki hazırlıqda təsirli bir vasitə kimi rolunu müəyyənləşdirmək və onların voleybol məşğələlərində tətbiqi üçün yollar təklif etməkdən ibarətdir. Məlum olduğu üzrə milli oyunların yeniyetmələrin çeviklik, sürət, dözümlülük və koordinasiya kimi əsas fiziki keyfiyyətlərinin inkişafına təsiri fiziki tərbiyənin prioritet istiqamətlərindən hesab olunur.

Məhz bu mənada milli oyunların təbii rəqabət mühiti yaratması, eyni zamanda qrup işlərinin və komanda şəklində görülən işlərin ruhunun gücləndirilməsilə bağlı tədqiqatların aparılması zəruri sayılır. Hansı ki bu tədqiqatların nəticəsində milli oyunların voleybol məşğələlərinin müxtəlif mərhələlərində – isinmə, məşqin əsas hissəsi və bərpa proseslərində istifadəsi üçün tövsiyələr verilməsinə xüsusi ehtiyac duyulur. Bu iş yeniyetmə idmançılarla iş aparan məşqçilər, bədən tərbiyəsi müəllimləri və idman təşkilatçıları üçün faydalı olacaq və milli idman ənənələrinin qorunub saxlanılması ilə yanaşı onların müasir idman sistemlərinə inteqrasiyasını təşviq edəcəkdir. Bu təşviqetmə proseslərinin isə təkmilləşdirilməsinə deyərdik ki modernləşdirilməsinə zəruri ehtiyac duyulur.

Ümumiyyətlə desək yeniyetmə voleybolçuların fiziki hazırlıqlarının inkişaf etdirilməsi müasir idman təliminin əsas istiqamətlərindən biridir. Ona görə ki, gənc idmançılarda fiziki keyfiyyətlərin təkmilləşdirilməsi onların ümumi idman bacarıqlarını artırmaqla yanaşı onların, gələcək idman nailiyyətləri üçün də möhkəm təməl, bünövrə və baza yaratmış olur. Bununla yanaşı, milli oyunların idman təliminə inteqrasiyası həm fiziki, həm də psixoloji hazırlıq üçün innovativ və motivasiyaedici bir yanaşma kimi dəyərləndirilir.

Onu da qeyd etmək lazımdır ki milli oyunlar əsrlər boyu xalqın mədəni irsini, fiziki fəaliyyət vərdişlərini və komanda işinə olan meylini özündə əks etdirmişdir. Məhz bu mənada belə oyunların yeniyetmələrin voleybol hazırlığına daxil edilməsi idman prosesinə yaradıcı bir yanaşmanı təmin etməklə bərabər, milli mədəniyyətin qorunub saxlanılmasına da xidmət göstərilməsi kimi dəyərləndirilməlidir. Bu həm də idmançıların motivasiyasını artırmaq, onlarda müsbət rəqabət ruhu formalaşdırmaq və məşq prosesini daha maraqlı və effektiv etmək zərurətindən irəli gəlir.

Belə yanaşma müasir təlim metodikalarının zənginləşdirilməsinə töhfə verərək, voleybol məşqlərinin milli-mənəvi dəyərlərlə uzlaşdırılmasını təmin edir və idmançılar arasında milli şüurun gücləndirilməsinə səbəb olur.

Qeyd olunduğu kimi mütəhərrik oyunlar hər xalqın milli mədəniyyətinin tərkib hissəsidir. Ona görə də bir xalqın milli mütəhərrik oyunları həmin xalqa məxsus hərəkət və vərdişlərlə bağlıdır. Bu cür milli oyunlar voleybolçu qızların fiziki və şəxsi keyfiyyətlərinin tərbiyə olunmasında mühüm rol oynayır. Daima dəyişən oyun şəraiti voleybolçuların fiziki hazırlığıyla yanaşı psixoloji hazırlıqlarının da inkişafı üçün əlverişli şərait yaradır. Fiziki hazırlığın inkişaf etdirilməsi zamanı seçilmiş hərəkətlər əsasən bir əzələ qrupunun inkişafına yönəlmiş olur lakin oyun fəaliyyəti zamanı bütün əzələ qrupları fəaliyyətə başlayır ki, bu da dayaq-hərəkət aparatının inkişafına kömək edir. Oyun prosesində voleybolçular daima yeni vəziyyətlərə uyğunlaşmağa çalışırlar, bu vəziyyət onlarda çeviklik hərəki keyfiyyətinin inkişaf etdirilməsinə səbəb olur. Bir çox oyunlar yarış xarakterli olduğu üçün bu oyunlar voleybolçularda əzmkarlıq və iradəlilik kimi şəxsi keyfiyyətlərinin inkişafında böyük rol oynayır.

Onu da qeyd etməliyik ki, Milli oyunlar əsrlər boyu nəsillərdən-nəsillərə keçərək inkişaf etmişlər. Azərbaycanın milli mütəhərrik oyunlarının da yaranma tarixi qədim dövrlərə aiddir. Fiziki hərəkətləri əks etdirən qayaüstü rəsmlərdən belə nəticəyə gəlmək olar ki, Azərbaycanda hələ bizim eradan bir neçə min il əvvəl milli oyunlar mövcud olmuşdur.

Bəzi mənbələrdə oyunların yaranma tarixinə də rast gəlirik. İbn-Əl-Əsif «Əl-kamil fi-t-tarix» əsərində) yazır: “Hələ 113-cü ildə (731-

732-ci illərdə) Azərbaycanın qadın döyüşçüləri xalq oyunlarında çox həvəslə iştirak edirdilər". Buradan aydın olur ki, Azərbaycanda xalq oyunlarında kişilərlə bərabər qadın və qızlar da iştirak etmişlər. N. Gəncəvinin "Xəmsə"sinə XVI əsrdə çəkilmiş bir miniatürdən də bunu görmək olur. Həmin miniatürdə başda Şirin olmaqla, Azərbaycan qadınları Xosrov şahla çovkan oyununda yarışırlar. Burada oyunçulardan yüksək ustalıq tələb edən keyfiyyətlərdə – əla at çapmaq, topu yoldaşa ötürmək, yarış vaxtı tamaşaçılara və oyunçulara toxunmamaq və s. kimi qaydalardan bəhs olunur. (3. s. 471)

Milli mütəhərrik oyunların təsnifatı oyunların quruluşu və qaydalarına görə aşağıdakı qruplara bölmək olar:

Mübarizə aparan iki tərəfin rəhbərsiz (bəysiz) oyunları. Oyunda iştirak edən bütün uşaqlar bərabər hüquqa malikdir. Bu qrupa "Bənövşə", "Göyçəkmələk" kimi oyunlar daxildir;

Hər bir oyunçu özünə cavabddeh olduğu və öz bacarığını göstərməyə çalışdığı rəhbərsiz (bəysiz) oyunlar. Bu qrupa "Uçurma", "Ənzəli" və s. oyunlar daxildir;

Rəhbərlə (bəylə) idarə olunan oyunlar. Bu oyunlarda rəhbərlər və tabe olanlar – sıravi iştirakçılar olur. "Bəylər" burada hərtərəfli hakimiyyətə malikdir. Hakim siniflərin meydana gəlməsinin təsiri ilə yaranan "Xan-xan", "Gizir" "Qara qazan" kimi oyunları və məişət bayramlarında oynanılan "Nənə can" oyununu nümunə göstərmək olar. Bu oyunlar yüksək poetik formalarla, şerlə müşayiət olunur. (3. s 473-474).

Milli oyunların təşkili zamanı yeniyetmə voleybolçuların fiziki hazırlıqlarının inkişaf etdirilməsinə təsir göstərən belə faktlardan yararlanmaq faydalı sayılır. Milli oyunlardan istifadə etməklə yeniyetmə voleybolçuların fiziki hazırlıqlarının inkişaf etdirilməsindən ötrü bir sıra yazılı materiallardan və bədii yaradıcılıq nümunələrindən yararlanmaq da məsləhət görülür. Lakin belə yazılı materiallardan, bədii yaradıcılıq nümunələrindən istifadə edərək onların düzgün seçilməsi də mühüm əhəmiyyət kəsb edir. Ona görə ki seçilən nümunələr yeniyetmə voleybolçuların fiziki tərbiyəsilə yanaşı onların estetik-bədii zövqlərinin birgə formalaşdırılmasını təmin etmək imkanına malik olmalıdır.

Belə nümunələrdən biri kimi professor Fərahim Sadıqovun "Ümumi pedaqogika" (Bakı, Maarif, 2024) adlı dərs vəsaitini göstərmək olar. Ona görə ki, dərs vəsaitində professor "Komandalar", "Kosmonavtlar", "Topu qonşuna ötər", "İdmançılar-atlılar", "Hoppanan sərçələr", "Tülkü və toyuqlar", "Qur dərədə", "Bənövşə", "Çağırış", "Durma, qaç", "Götürqaç", "İki ayaqlılar komandası", "Ağ ayılar", "Boş", "Kim tez yüyürər", "Paraşütçülər", "Toppuzqaçırma", "Topu al, qaç", "Yoldaş komandir", "Daban balığı və durna balığı", "Ovçular və ördəklər", "Dəsmalaldı qaç", "Saxta və günəş", "Dırmanmaq", "Motal-motal", "Tez tərpəş", "Üzəngi", "Dairədə", "Xəttin arxasını çək", "Bayraqlar uğrunda", "Yoldaşı xilas etmək üçün", "Dalbadal hoppanma", "Nömrələrin çağırılması", "İp ayaq altında" kimi milli oyunları qeyd etmişdi. Bunlardan əlavə "Dirədöymə", "Atbeli", "Bənövşə", "Dədəboyu", "Gizlənpaç", "Xoruzdöyüşü", "Gözübbağlıca", "Üzük-üzük", "Yaylıqbağladı", "Gecə və gündüz", "Siçan-pişik" və "Qıyqıy" kimi Azərbaycan xalq oyunlarının mövcudluğunu dərsliyin fiziki tərbiyə bölməsində təsnif etmişdir. Bu təsnifata uyğun olaraq qeyd etməliyik ki Azərbaycanda milli oyunlar zəngin mədəni irsi əks etdirir və müxtəlif yaş qrupları üçün həm əyləncə, həm də fiziki inkişaf vasitəsi kimi istifadə olunur. Bu oyunlar bədən tərbiyəsi və idman üçün faydalı vasitə olmaqla yanaşı, sosial və mənəvi dəyərlərin ötürülməsinə də xidmət edir.

Azərbaycanda məşhur milli oyunlar arasında müxtəlif maraqlı və faydalı oyunlar da mövcuddur. Çilingağac oyunu çeviklik, sürət və dəqiqlik tələb edən bir fəaliyyət növüdür. Bu oyunda iştirakçılar uzun taxta və ya çubuq vasitəsilə yerə qoyulmuş hədəfi vurmağa çalışırlar. Arxalıqa qaç oyunu isə komandalar arasında keçirilir və çeviklik, sürət, həmçinin strateji düşünmə qabiliyyətlərini inkişaf etdirir. Bu oyunda iştirakçılar müəyyən bir məsafəni qaçaraq keçməli və tapşırıqları yerinə yetirməlidirlər.

Dəsmal aldı, qaç oyunu qədim oyunlardan hesab edilsə də yeniyetmələr arasında çox məşhurdur. Oyunun qaydalarına görə uşaqlar dairə formasında yerdə otururlar. Uşaqlardan biri əlində dəsmal dairənin ətrafında qaçaraq istədiyi bir uşağa dəsmalı atıb qaçmağa davam edir. Dəsmal atılan uşaq dəsmalı əlinə götürərək dəsmal atanın arxasıyca qaçaraq onu tutmağa çalışır. Dəsmal atan oyunçu isə bir dövrə vuraraq dəsmal atdığı oyunçunun yerində oturmağa çalışır. Əgər dəsmal atılan oyunçu dəsmal atan oyunçunu tutmağa

nail olarsa həmin oyunçu dairənin mərkəzində oturaraq oyundan kənarlaşdırılır. Belə milli oyunlar barədə yeniyetmə voleybolçu qızlara verilən məlumatlar da onların fiziki keyfiyyətlərinin artırılmasında rol oynaya bilir.

Bəzi milli oyunlar ənənə şəklini almasalar da yaddaşlarda qalmaqda davam edirlər. Onlardan biridə "Xoruz döyüşü" oyunudur. Əsasən bayram şənliklərində gənclərin və böyüklərin keçirdikləri "Xoruz döyüşü" oyunu da böyük maraq doğurur. Baxmayaraq ki bu oyun qədimdən bayram və əkin-biçim zamanı oynanılardı. Lakin bu oyunun voleybolçuların fiziki hazırlığında da istifadə edilməsi effektli hesab edilir. Bu onlarda koordinasiya və qüvvə hərəki keyfiyyətinin inkişafına səbəb olur. Oyunun qaydalarına əsasən oyunçular iki komandaya bölünür. Komandanın birinə "Gecə" digərinə "Gündüz" adı verilir. Komandalar yerdə çəkilmiş dairənin içinə daxil olurlar və məşqçinin işarəsiylə rəqiblər bir-birini çiyinləri ilə vurub dairədən çıxarmağa çalışırlar. Hansı komanda dairədən daha çox adam çıxarırsa, o komanda qalib hesab edilir. Voleybolçu qızlara verilən belə məlumatlar onların fiziki tərbiyəsini və qələbə əzmini inkişaf etdirir.

"Dirədöymə" oyunu Naxçıvanda "Cızıq tutması", Muğan bölgəsində "Cızıqdançıxma", Bakıda "Qayışçapdı" ("Qayışaldı"), Göyçayda "Turaoynu" adlarıyla məşhurdur. Oyunun qaydalarına görə uşaqlar iki komandaya bölünür. Komandalardan biri mərəyə yəni dairəyə daxil olur. Onlar hərəsi ayağının altına bir toqqa qoyur (toqqanı digər vasitələrlə əvəz etmək mümkündür), kənarda olan oyunçular isə toqqanı götürməyə çalışırlar. Dairənin içərisində olan oyunçular ayaqla vurub, toqqaları götürməyə yol vermirlər. Əgər onlar kənardakılardan birini ayaqla vurmağa nail olsalar, dairədəki uşaqlar kənara çıxır, kənardakılar dairəyə girirlər. Kənardakı oyunçu içəridəkilərdən birini əli ilə tutub dairədən çıxara bilsə, onu bir nəfərə həvalə edib saxladır və yiyəsiz qalmış toqqanı götürməyə cəhd edir. Bu zaman içəridəkilər həm öz toqqalarını, həm də çöldəki yoldaşlarının toqqasını qorumalı olurlar. Hansı dəstə toqqaları tamam ələ keçirsə qələbə qazanır.

Voleybolçuların fiziki hazırlıqları prosesində "Kim topa çatacaq" oyunundan istifadə etməklə voleybolçularda cəldlik və çeviklik kimi hərəki qabiliyyətlərin inkişaf etdirilməsinə nail olmaq mümkündür. Oyunun qaydalarına əsasən oyunu idarə edən hakim oyunçuları meydançada çəkilmiş düz xəttin arxasında saxlayır. Özü onların qarşısında qalır. Oyunçulardan təqribən 18-20m aralı yerə üç rəngli bayraq sancır. Hakim oyunu başlatmaq məqsədilə əlindəki topu bayrağa tərəf diyirləndirir və oyunçulardan birinin adını çəkir. Adı çəkilən oyunçu top bayrağa çatmamış ona çatmağa çalışır. Əgər top bayrağa çatsa həmin oyunçu oyundan uzaqlaşdırılır, əgər oyunçu top bayraq xəttinə çatmamış ona çatmağa nail olarsa ona 5,4,3,2 və ya 1 xal verilir. Xalların verilməsi onun topa çatma məsafəsindən asılı olaraq verilir. Ən çox xal qazanan oyunçu qalib gəlir. Belə milli oyunlar voleybolçu qızların fiziki hazırlıqları üçün stimul rolunu oynamış olur.

Milli oyunlardan biri də "Qıy-qıy" oyunudur. Bu oyununu əsasən aşağı ətraf əzələ qüvvəsinin və koordinasiyanın inkişafı üçün faydalı hesab etmək olar. Oyunun qaydalarına görə uşaqlar sıra ilə bir-birinin ardınca iki komanda olaraq düzülürlər. Məşqçinin işarəsi ilə hər sıradan bir uşaq öncədən işarəlinmiş yerə tək ayağı üzərində hoppana-hoppana çatmağa çalışır. Burda əsas diqqət edilməsi lazım olan məqam bir ayaqdan digər ayağa keçməyin qadağan olmasıdır. Hər iki ayağını yerə qoyan oyunçu məğlub hesab edilir. Digər oyunçu qalib sayılır.

Nəticə etibarilə qeyd etməliyik ki milli oyunlardan istifadə etməklə yeniyetmə voleybolçuların fiziki hazırlıqlarının günün tələbləri səviyyəsində inkişaf etdirərək formalaşdırmaq və modern səviyyəyə yüksəltmək olar.

Problemin aktuallığı. Yeniyetmələrin fiziki inkişafı və idmana marağının artırılması müasir pedaqogikanın və idman təliminin əsas prioritetlərindən biridir. Bu baxımdan, milli mütəhərrik oyunların məşq prosesinə inteqrasiyası mövzusu aktualdır. Belə ki, bu oyunlar həm bədən tərbiyəsi dərslərinin məzmununu zənginləşdirir, həm də gənc nəslin milli-mənəvi dəyərlərlə tanış olmasına və onlara bağlılıq hissinin formalaşmasına şərait yaradır.

Problemin yeniliyi. Mövzunun elmi yeniliyi ondan ibarətdir ki, ilk dəfə olaraq milli mütəhərrik oyunların voleybol məşğələlərinin müxtəlif mərhələlərinə inteqrasiya imkanları sistemli şəkildə təhlil edilir. Bu yanaşma ənənəvi məşq modellərini innovativ üsullarla birləşdirməyə və idman təliminin keyfiyyətini yüksəltməyə yönəlmişdir.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın nəticələri məşqçilər, müəllimlər və idman sahəsində fəaliyyət göstərən mütəxəssislər üçün praktiki əhəmiyyət daşıyır. Milli mütəhərrik oyunların tətbiqi

fiziki hazırlığı yalnız fiziki göstəricilər baxımından deyil, həm də psixoloji davamlılıq, komanda ruhu və mədəni kimlik baxımından gücləndirə bilər.

Ədəbiyyat

1. Ağayev O.M., Qədəşov E.N. Voleybol. -Bakı: İKF, -2003. -260 s.
2. Əliyev A.Ə., Azərbaycan milli idman oyunlarının tarixi. –Bakı: Şərq-Qərb, -2001. -124 s.
3. Quliyev B.S., Fiziki tərbiyənin nəzəri-metodik və praktik işlərinin əsasları. –Bakı: ADPU-nun nəşri, -2009. – 676s.
4. Sadıqov F.B. Ümumi pedaqogika (fiziki tərbiyə bölməsi). -Bakı: Maarif, -2023. -841s.

Redaksiyaya daxil olub: 04.06.2025

UOT 372.881.111.1

Aytən Fizuli qızı Kazımova,
Azərbaycan Dillər Universitetinin baş müəllimi
https://orcid.org/0009-0003-6624-9335
E-mail: kazimovaaytan91@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(4).110-115

İŞGÜZAR İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ MƏDƏNİYYƏTLƏRARASI KOMMUNİKASİYA BACARIQLARININ İNKİŞAF ETDİRİLMƏSİ

Aytan Fizuli Kazimova,
senior lecturer at Azerbaijan University of Languages

DEVELOPING INTERCULTURAL COMMUNICATION SKILLS IN BUSINESS ENGLISH TEACHING

Айтен Физули кызы Казымова,
старший преподаватель Азербайджанского университета языков

РАЗВИТИЕ МЕЖКУЛЬТУРНЫХ КОММУНИКАТИВНЫХ НАВЫКОВ В ПРЕПОДАВАНИИ ДЕЛОВОГО АНГЛИЙСКОГО ЯЗЫКА

Xülasə. Müasir dünya kommersiya əlaqələrinin intensiv inkişafı, mədəni müxtəliflik və ölkələrarası kommunikasiya ilə xarakterizə olunur. Beynəlxalq işgüzar ünsiyyət zamanı dil maneələrinin aradan qaldırılması və mədəniyyətlərarası qarşılıqlı əlaqənin xüsusiyyətlərinin nəzərə alınması zərurəti meydana çıxır. Müasir dövrdə ingilis dili beynəlxalq işgüzar ünsiyyətin əsas vasitəsi kimi çıxış edir ki, bu da uğurlu kommunikasiya üçün müvafiq dil hazırlığının vacibliyini göstərir. Eyni zamanda, beynəlxalq biznesdə uğurlu əlaqələrin qurulması məqsədilə ingilis dilində fərdlərarası ünsiyyət bacarıqlarına yiyələnmək xüsusi əhəmiyyət kəsb edir. Bu məqalədə səmərəli mədəniyyətlərarası işgüzar ünsiyyətin formalaşma şərtləri, beynəlxalq işgüzar ingilis dilinin istifadə xüsusiyyətləri, kommunikativ uğursuzluqların qarşısının alınması yolları, həmçinin verbal və qeyri-verbal ünsiyyətin təkmilləşdirilməsi və kommunikativ səhvlərin düzəldilməsi yolları araşdırılır.
***Açar sözlər**: mədəniyyətlərarası ünsiyyət, işgüzar ingilis dili, beynəlxalq ünsiyyət, şifahi və şifahi olmayan ünsiyyət, ünsiyyət bacarıqları*

Abstract. The modern world is characterized by the intensive development of commercial relations, cultural diversity, and international communication. In the process of international business interaction, the elimination of language barriers and consideration of intercultural communication features become essential. Today, English serves as the primary means of international business communication, highlighting the need for appropriate language training to ensure successful interaction. Furthermore, acquiring interpersonal communication skills in English is of great importance for establishing effective relationships in global business contexts. This article explores the conditions for effective intercultural business communication, the specific features of using international business English, methods for preventing communication failures, and ways to improve both verbal and non-verbal communication while addressing communicative errors.
***Keywords:** intercultural communication, business English, international communication, verbal and non-verbal communication, communicative skills*

Аннотация. Современный мир характеризуется интенсивным развитием коммерческих связей, культурным разнообразием и международной коммуникацией. В процессе международного делового общения возникает необходимость устранения языковых барьеров, а также учета особенностей

межкультурного взаимодействия. В настоящее время английский язык выступает в роли основного средства международного делового общения, что подчеркивает важность соответствующей языковой подготовки для успешной коммуникации. Одновременно с этим овладение навыками межличностного общения на английском языке приобретает особое значение для установления эффективных связей в международной деловой среде. В данной статье рассматриваются условия формирования эффективной межкультурной деловой коммуникации, особенности использования международного делового английского языка, пути предотвращения коммуникативных неудач, а также способы совершенствования вербального и невербального общения и устранения коммуникативных ошибок.

***Ключевые слова**: межкультурная коммуникация, деловой английский язык, международное общение, вербальное и невербальное общение, коммуникативные навыки*

Müasir dövrdə beynəlxalq əlaqələrin bütün insan fəaliyyət sahələrində sürətlə artması müşahidə olunur ki, bu da qloballaşma və yüksək hərəkətlilik (mobilite) əsasında formalaşan yeni ictimai şəraitin yaranmasına səbəb olur. Xüsusilə işgüzar mühitdə qlobal səviyyədə fəaliyyət göstərən şirkətlərin sayı artır, onlar müxtəlif ölkələrdən olan işgüzar tərəfdaşlarla qarşılıqlı əlaqə qurur, beləliklə, beynəlxalq əməkdaşlıq müasir yüksək ixtisaslı mütəxəssislər üçün gündəlik reallığa çevrilir. Bu şəraitdə isə yalnız xarici dil biliklərinin mövcudluğu kifayət etməyib, həm də qarşı tərəfin maddi və mənəvi mədəniyyətini, onun dini inanclarını, dəyərlər sistemini, əxlaqi-prinsiplərini və dünya görüşünü dərindən bilmək zərurəti yaranır, çünki bütün bu komponentlər birgə olaraq kommunikasiya tərəfdaşlarının davranış modelini müəyyən edir və qarşılıqlı anlaşmanın əsasını təşkil edir [3,4]. Məhz buna görə də, müasir dövrdə qarşılıqlı mədəniyyətlərarası işgüzar kommunikasiya təkcə dil bacarıqları deyil, eyni zamanda kompleks mədəniyyətlərarası səriştələr tələb edən xüsusi bacarıqlar toplusu kimi qəbul edilir. Bu bacarıqlar, interkultural kommunikasiya konsepsiyasının tərkib hissəsi olaraq, fərqli mədəniyyətlərin nümayəndələri ilə səmərəli ünsiyyəti təmin etmək məqsədilə əldə edilməli və inkişaf etdirilməlidir. Onların peşəkar sahələrdə – elm, təhsil, mədəniyyət və işgüzar sahədə – tətbiqi xüsusi əhəmiyyət daşıyır, bu da müvafiq sahələrdə aparılan tədqiqatlarda, o cümlədən R. Lyuis, E.N. Malyuga, E.A. Sokur, T.A. Yaşina kimi mütəxəssislərin işlərində öz əksini tapmışdır [4, 5, 7, 9].

Son 60 il ərzində müxtəlif elmi sahələrdən olan tədqiqatçılar beynəlxalq işgüzar kommunikasiya sahəsində fərqli ölkələrin nümayəndələri arasında uğurlu ünsiyyət strategiyalarını müəyyənləşdirmək məqsədilə səylərini birləşdirmişlər. Bu prosesdə mədəniyyətlərarası fərqliliklərin anlaşılmaması və onların nəzərə alınmaması tez-tez kommunikasiya iştirakçıları arasında konfliktlərin yaranmasına səbəb olur ki, bu da beynəlxalq işgüzar danışıqların effektivliyinə mənfi təsir göstərir [2]. Bu səbəbdən, qarşılıqlı mədəniyyətlərarası işgüzar ünsiyyətin uğurlu aparılması üçün danışıq tərəfdaşlarının mədəniyyəti və dünya görüşü haqqında öncədən kifayət qədər məlumat toplamaq vacibdir. Bu hazırlıq mərhələsi təkcə mümkün anlaşılmazlıqların və informasiyanın ötürülməsi zamanı baş verə biləcək səhvlərin qarşısını almaqla kifayətlənmir, həm də milli mentalitetin, mədəni xüsusiyyətlərin və davranış modellərinin düzgün anlaşılmasını təmin edir, beləliklə, istənilən mədəniyyətlərarası qeyri-dəqiqliklərdən və ehtimal olunan təhqirlərdən qaçmağa imkan yaradır [6].

Bundan əlavə, səmərəli işgüzar kommunikasiya yalnız dil bilikləri ilə məhdudlaşmır, həmçinin şəxslərarası ünsiyyət bacarıqlarının yüksək səviyyədə inkişafını tələb edir ki, bu da vasitəçilik, danışıqlar aparmaq, müxtəlif maraqlı tərəfləri prosesə cəlb etmək, problemləri və konfliktləri birgə həll etmək kimi mühüm prinsiplərlə bağlıdır. Qeyd etmək lazımdır ki, xarici dil bilikləri beynəlxalq işgüzar kommunikasiya üçün əsas şərt kimi çıxış edir, çünki dil bəzən fərqli mədəniyyətlər arasında ən ciddi kommunikasiya baryeridir, buna görə də, beynəlxalq şirkətlər əməkdaşlarının interpersonallıq bacarıqları ilə yanaşı, yüksək dil bacarıqlarına malik olmasını tələb edir [8].

Hal-hazırda qlobal işgüzar və peşəkar kommunikasiya sahələrində ingilis dilinin artan rolu aydın görünür. İngilis dili beynəlxalq ünsiyyətin universal dili kimi qəbul olunur, qlobal iqtisadiyyatın, qabaqcıl elmin və yüksək texnologiyaların dili olaraq önəm qazanır, işgüzar sahədə isə tərəflərin qarşılıqlı məqsədlərə nail olması üçün vacib vasitədir. Bu səbəbdən də, beynəlxalq səviyyədə uğurlu işgüzar fəaliyyəti üçün kifayət qədər yüksək səviyyədə ingilis dili bilik-

ləri tələb olunur [9]. Xüsusilə ingilis dili ana dili olmayanlar üçün interpersonallıq bacarıqlarının ingiliscə inkişaf etdirilməsi işgüzar ünsiyyətində uğurun açarıdır.

Mədəniyyətlərarası işgüzar kommunikasiya həm sosial, həm də stereotipik davranış modelləri ilə müəyyən olunur. İşgüzar danışıqlar iştirakçıları xarici dili öyrənməklə yanaşı, digər ölkə mədəniyyətini, onun mentalitetini anlamq bacarığını da inkişaf etdirirlər ki, bu da effektiv kommunikasiya üçün vacib şərtdir [5]. Müasir dilçilikdə mədəniyyətlərarası kommunikasiya üç əsas növə bölünür: verbal, qeyri-verbal və paralinqvistik kommunikasiya. Verbal ünsiyyət dil vasitəsilə ideyaların, informasiyanın və duyğuların ötürülməsi prosesidir. Qeyri-verbal kommunikasiya isə bədən dili, mimika, jestlər və ətraf mühitdəki maddi əşyalar vasitəsilə mesajların ötürülməsidir. Paralinqvistik ünsiyyət isə intonasiya, ritm və səslərin xüsusiyyətləri ilə xarakterizə olunur [3]. Mədəniyyətlərarası ünsiyyətdə iki fərqli mədəniyyətin qarşılıqlı təsiri araşdırılarkən, onların fərqliliklərinə xüsusi diqqət yetirilir, çünki mədəni fərqliliklərin dərk olunması milli stereotipləri aşmağa və qarşılıqlı anlaşmanı artırmağa kömək edir [7]. İşgüzar kommunikasiya sahəsində çoxsaylı janrlar mövcuddur ki, bu janrlar işgüzar tərəfdaşların görüşləri, seminarlar, təqdimatlar, brifinqlər kimi müxtəlif formalarını əhatə edir və adətən bu tədbirlərdə çoxmədəniyyətli iştirakçılar olduğundan, ingilis dili əsas vasitə kimi istifadə olunur [8].

Dövlət və peşəkar səviyyədə ingilis dili işgüzar kommunikasiya sahəsində ümumi (General Business English) və ixtisaslaşmış (Professional Business English) olmaqla iki əsas kateqoriyaya bölünür. Ümumi işgüzar ingiliscəsi peşəkar və qeyri-peşəkarlar tərəfindən istifadə olunur, ixtisaslaşmış işgüzar ingiliscəsi isə müəyyən sahədə çalışan mütəxəssislər üçün nəzərdə tutulub və xüsusi terminologiyanı əhatə edir. Səmərəli kommunikasiya üçün danışıqda iştirak edən şəxslər mövzunun və tədbir iştirakçılarının xüsusiyyətlərini nəzərə almalı, hörmət mühiti yaratmalı və ədəblilik prinsiplərinə ciddi riayət etməlidirlər ki, bu da uğurlu işgüzar əlaqələrin əsas şərtidir. İngilis dilində məşhur deyim var: "People buy from people they like" – yəni insanlar özlərinə xoş gələn şəxslərlə əməkdaşlıq etməyə üstünlük verirlər, bu isə hörmətsiz davranışın işgüzar əlaqələrə ciddi zərər vurduğunu göstərir [4].

İşgüzar ingilis dilində mədəniyyətlərarası kommunikasiya bacarıqlarının inkişaf etdirilməsi üçün ilk növbədə tələbələrə fikirlərini düzgün və nəzakətli ifadə etməyi öyrətmək vacibdir. Mədəniyyətlərarası işgüzar mühitdə fikir və tələblərin çatdırılmasında istifadə olunan dil vasitələrinin seçimi, qarşı tərəfin onları qəbul etməsinə və anlaşılmasına birbaşa təsir göstərir. Məsələn, digər iştirakçılardan müəyyən hərəkətlərin həyata keçirilməsini istədikdə "to want" felindən istifadə etməkdən çəkinmək lazımdır, çünki bu ifadə çox vaxt qeyri-nəzakətli və tələbkar təsir bağışlaya bilər. Bu cür hallarda daha uyğun ifadə forması kimi "would like" strukturu tətbiq olunmalıdır: "I would like to hear you talk about that first point again". Bu misal, ifadə tərzinin seçilməsində mənanın yumşaq və nəzakətli olması zərurətini əks etdirir [5].

İşgüzar kommunikasiya zamanı may, might, could, would kimi modallardan istifadə etmək xüsusi əhəmiyyət kəsb edir. Bu modal fellər fikri çatdırarkən qeyri-müəyyənlik, ehtiyat və hörmət hissi yaradır və beləliklə, qarşı tərəfdə müsbət münasibətin formalaşmasına kömək edir. Məsələn, geribildirim zamanı: "Your presentation was good. Well done. You may just want to review your introduction to make it more concise.", ya da təklif verərkən: "If I were you, I would contact the suppliers today rather than leave it till tomorrow.", eləcə də icazə istəyəndə: "Could I have access to the mail server to carry out the necessary changes?" kimi ifadələr işgüzar danışıqlarda münasibətin səmərəli qurulmasını təmin edir [11].

Uğurlu işgüzar kommunikasiya üçün göstəriş və əmrlər nəzakətli formada verilməlidir. Sual formasında ifadə olunan göstərişlər qarşı tərəfin müqavimətini azaldır və qarşılıqlı anlaşmaya şərait yaradır. Məsələn, "Could I have that report by 5pm tomorrow?" ifadəsi "Get me that report by 5pm tomorrow" cümləsindən daha effektiv nəticə verir. Bu yanaşma mədəniyyətlərarası işgüzar kommunikasiya üçün xarakterik xüsusiyyətdir, çünki sual formasındakı ifadələr daha yumşaq, daha az diktatorluq tonunda olur və buna görə də danışıqların müvəffəqiyyətini artırır.

Xüsusilə mürəkkəb işgüzar danışıqlar zamanı diplomatik dilin tətbiqi böyük əhəmiyyət kəsb edir. Tənqidi fikirlər, rədd etmələr və xoşagəlməz xəbərlərin bildirilməsi zamanı modallar-

dan istifadə etmək işgüzar münasibətlərin pozulmaması və kommunikasiya uğurunun təmin olunması üçün önəmlidir. Məsələn, “I am afraid that would still be out of our price range” ifadəsi “This is still too expensive” deyimindən daha az qətiyyətli və daha hörmətli səslənir. Eyni zamanda, konstruktiv tənqid və tərifin birgə istifadə olunması işgüzar münasibətlərin müsbət inkişafına təsir edir: “I think you've captured the essence of the message really well, but you may want to make the summary a little clearer” [11]. İşgüzar danışıqlarda təklif verərkən “I think”, “maybe”, “perhaps” kimi sözlərin və ifadələrin istifadə olunması tərəfdaşlara hörmət göstərməyi və ünsiyyətin yumşalmasını təmin edir. Təkliflər bəzən sual formasında verilir ki, bu da qarşı tərəfin fikrini soruşmaqla onun hörmətini nümayiş etdirir: “Have we finished discussing this? Let me go to the next” [4]. Ümumiyyətlə, işgüzar ingilis dilində kommunikasiya zamanı qətiyyətli, tələbkar ifadələrdən uzaq olmaq, yumşaq və hörmətli ifadələrdən istifadə etmək, həmçinin emosional yüklənməni minimuma endirmək zəruridir. Çünki işgüzar görüşlərin məqsədi ümumi razılıq və problemlərin həllidir, emosiyalar isə danışıqların gedişatına mənfi təsir göstərə bilər. Buna görə də emosional və qiymətləndirici sözlərdən uzaq durmaq, məsələn, “awful” kimi kəskin ifadələri daha neytral “not so good” ilə əvəz etmək məsləhətdir. Emosiyaların tamamilə aradan qaldırılması mümkün deyil və hətta arzuolunandır, lakin onlar balanslaşdırılmış şəkildə, ölçülü olmalıdır. Mədəniyyətlərarası işgüzar kommunikasiya zamanı tənqidi fikirlər mütləq kommunikasiya felləri ilə ifadə olunmalıdır. Məsələn, “to respond”, “to evaluate”, “to review”, “It was noted that”, “It was decided that”, “Sb. was assigned/asked to” kimi fellər işgüzar mövzuda fikir mübadiləsini, rəylərin yumşaq şəkildə çatdırılmasını və müsbət reaksiya yaradılmasını təmin edir [6].

Mədəniyyətlərarası kommunikativ kompetensiyanın inkişaf etdirilməsinin və təkmilləşdirilməsinin əsas şərtlərindən biri tələbələrin auditoriya və müstəqil şəkildə yerinə yetirdikləri tapşırıqlar zamanı müasir ixtisaslaşmış dərsliklərdən məqsədyönlü istifadə etmələridir. Bu baxımdan, J. Allison və P. Emmerson tərəfindən tərtib olunmuş “The Business 2.0” və Ian Mackenzienin müəllifi olduğu “English for the Financial Sector” dərslikləri mühüm əhəmiyyət daşıyır [1].“The Business 2.0” dərsliyi yalnız nitq praktikasını deyil, eyni zamanda biznesin fundamental anlayışlarını elmi müstəvidə təqdim edən kompleks tədris vəsaitidir. Bu dərsliyin əsas məqsədi öyrənənləri iqtisadiyyat və biznesin əsas anlayışları ilə ingilis dilində tanış etmək, bu anlayışları müstəqil şəkildə formalaşdırmaq, müqayisə və ümumiləşdirmək bacarıqlarını inkişaf etdirməkdən ibarətdir. Dərsliyin mühüm özəlliklərindən biri də təqdim olunan mövzuların beynəlxalq biznes kontekstində, müxtəlif ölkələrin milli xüsusiyyətləri və mədəni ənənələri nəzərə alınmaqla təhlil edilməsidir. Bu xüsusiyyətlər dərsliyin strukturuna və məzmununa birbaşa təsir göstərmişdir. Belə ki, dərsliyin bölmələri aşağıdakı istiqamətləri əhatə edir: Business Fundamentals (Biznesin əsasları), Internship Abroad (Xaricdə təcrübə), Supply Chain Management (Təchizat zəncirinin idarə olunması), Marketing and Selling (Marketinq və satış), Entrepreneurship (Sahibkarlıq), Business Costs (Biznes xərcləri), Global Trade (Qlobal ticarət) və s. Bundan əlavə, dərslikdə işgüzar görüşlər və danışıqlar (Business Meetings and Negotiations) kimi səciyyəvi altmövzulara da xüsusi yer ayrılmışdır. Dərslikdə təqdim olunan mətnlərin və sonrakı tapşırıqların əsas ideyası – biznes problemlərinin təhlili, müxtəlif idarəetmə modelləri və korporativ etika məsələləri, şirkət daxilindəki şaquli və üfüqi münasibətlər, fərqli biznes etikası nümunələri ilə tələbələri tanış etməkdir. Beləliklə, bu tədris materialı tələbələrə yalnız ingilis dilində leksik və qrammatik bilikləri mənimsəməyə deyil, eyni zamanda mədəniyyətlərarası kommunikasiya bacarıqlarını inkişaf etdirməyə, təhlil və qərarvermə, natiqlik və dialoq aparmaq, tərəfdaşın mövqeyini anlamaq kimi peşəkar keyfiyyətləri formalaşdırmağa xidmət edir. [1]. Dil, mədəniyyətlərarası işgüzar kommunikasiya prosesində ciddi maneə ola bilər. Buna görə də, işgüzar ingilis dili dərslərində tələbələrə peşəkar terminologiya və leksikanın düzgün istifadəsi öyrədilməlidir. Bu, həm də onların peşəkar hazırlığını, eləcə də mədəni fərqləri nəzərə almaqla ünsiyyət bacarıqlarını inkişaf etdirir. Qısa, aydın, sadə cümlələr qurmaq, qarışıqlıq yarada biləcək mürəkkəb qrammatik strukturlardan qaçmaq əsas prinsip kimi qəbul edilməlidir. Dilin müvafiq istifadə olunması mədəniyyətlərarası səhvlərin qarşısını alır. Sözün sadə və anlaşılan formaları, eləcə də

qlobal işgüzar kontekstdə məlum olan ifadələr üstünlük təşkil etməlidir. Məsələn, sleng, idiomatik ifadələr və kolloquializmlər işgüzar dialoqlarda anlaşılmazlıq və gərginlik yarada bilər. Bu səbəbdən belə ifadələrdən çəkinmək və onların yerinə universal, hər kəsə aydın olan ifadələrdən istifadə etmək zəruridir [4], [10]. Mədəniyyətlərarası kommunikasiya zamanı mədəniyyətə xas səciyyəvi ifadələrə ehtiyatla yanaşmaq vacibdir. Məsələn, Böyük Britaniya və ABŞ işgüzar mühitində fərqli idman terminologiyası əsasında yaradılmış metaforik ifadələr anlaşılmazlığa səbəb ola bilər. Belə hallarda kommunikasiya tərəfdaşlarının fərqli mədəni fonunu nəzərə alaraq dil sadələşdirilməlidir [10].

Müvəffəqiyyətli işgüzar kommunikasiya üçün nitqdə aydınlıq və məntiqi ardıcıllıq təmin edilməlidir. Bunun üçün "and", "because", "therefore", "however", "but", "firstly", "secondly", "finally" kimi əlaqələndiricilərdən istifadə etmək tövsiyə olunur. Qısa və konkret ifadələr, tez-tez yekunlaşdırma və nəticə çıxarma işgüzar danışıqların səmərəliliyini artırır.

Nəhayət, işgüzar ingilis dilində mədəniyyətlərarası kommunikasiya zamanı açıq sualların (open-ended questions) istifadəsi xüsusilə əhəmiyyətlidir. Bu suallar tərəfdaşların fikirlərini geniş şəkildə ifadə etməsinə şərait yaradır, dialoqun axıcılığını təmin edir və əməkdaşlıq mühitini gücləndirir. "How do you know our host?", "What was the traffic like this morning?", "When can we start working on the new project?" kimi suallar qarşılıqlı anlaşmanı artırır və işgüzar mühitdə səmərəli ünsiyyətə təkan verir [11].

İşgüzar ingilis dilində mədəniyyətlərarası kommunikasiya zamanı dil və mədəniyyət fərqlilikləri nəzərə alınmalıdır. Standart beynəlxalq işgüzar ingilis dilinin istifadəsi, dilçiliklə bağlı lüğətin əvvəlcədən zənginləşdirilməsi, həmçinin görüş mövzusuna uyğun terminologiyanın mənimsənilməsi qarşılıqlı anlaşma səviyyəsini yüksəldir. Həmçinin, milli xüsusiyyətləri, stereotipləri, milli mentalitetin davranış modellərini, eləcə də milli atalar sözləri və deyimlərini öyrənmək işgüzar ünsiyyətdə ortaq mədəni kontekst yaratmağa kömək edir və qarşı tərəflə dil birliyini təmin edir.

Ünsiyyət zamanı yalnız sözlərin mənası deyil, həmçinin nitqin tərzi, vurğu və intonasiya da önəmlidir. Xarici dil kimi ingiliscəni öyrənənlərin tez-tez ana dillərinə uyğun olmayan səslər, vurğular və intonasiyalar yaratması nəticəsində yanlış anlaşıla biləcək hallara rast gəlinir. Məsələn, Almaniyalı həmkar "My husband is eunuch and impotent man" ifadəsini istifadə edərək, əslində "My husband is a unique and important man" demək istəyə bilərdi. Bu nümunə vurğunun və tələffüzün düzgün öyrənilməsinin nə qədər vacib olduğunu göstərir. Buna görə də, işgüzar ingilis dili tədrisi zamanı tələbələrə səslərin düzgün tələffüzü, vurğuların və intonasiyanın mənalı fərqləndirilməsi istiqamətində təlimlər verilməli, mümkün səhvlər dilçi-mütəxəssislərlə məsləhətləşmə yolu ilə aradan qaldırılmalıdır.

Həmçinin, etibarlı kommunikasiyanın vacib tərkib hissəsi olaraq, tələbələrdə diqqətli dinləmə bacarığının formalaşdırılması mühümdür. Yalnız danışan deyil, həm də dinləyici rolunda olan tərəfin ünsiyyət prosesinə fəal cəlb olunması, onun fikir və niyyətlərini düzgün başa düşməsi qarşılıqlı əlaqənin effektivliyini artırır.

Nəticə etibarilə, işgüzar ingilis dilində mədəniyyətlərarası kommunikasiya bacarıqlarının inkişafı üçün: açıq sualların məqsədyönlü istifadəsi, diskursiv ifadələrin tətbiqi, milli mədəniyyət və dil xüsusiyyətlərinin nəzərə alınması, düzgün tələffüz və vurğunun mənimsənilməsi, diqqətli dinləmə bacarıqlarının təkmilləşdirilməsi zəruridir. Bu yanaşmalar işgüzar kommunikasiya zamanı yaranan yanlış anlaşılmaların, məna təhriflərinin və konfliktlərin qarşısını almağa, həmçinin beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq əlaqələrinin möhkəmlənməsinə şərait yaradır.

Problemin aktuallığı. Müasir qloballaşma şəraitində beynəlxalq işgüzar əlaqələrin sayı sürətlə artmaqdadır ki, bu da mədəniyyətlərarası kommunikasiya bacarıqlarının inkişafını zəruri edir. İşgüzar ingilis dili vasitəsilə səmərəli ünsiyyət qurmaq bacarığı, xüsusən fərqli mədəniyyətlərdən olan tərəfdaşlarla qarşılıqlı anlaşmanı təmin etmək baxımından önəm daşıyır. Bu səbəbdən, işgüzar ingilis dili tədrisində mədəniyyətlərarası kommunikasiya bacarıqlarının sistemli şəkildə inkişaf etdirilməsi mövzusu aktuallığını qoruyur.

Problemin elmi yeniliyi. Məqalədə işgüzar ingilis dilinin tədrisi kontekstində mədəniyyətlərarası kommunikasiya bacarıqlarının inkişaf etdirilməsi yeni yanaşma və metodlarla tədqiq edilir. Xüsusilə, diskursiv leksikanın və açıq sualların istifadəsi kimi nitqin səmərəliliyini artıran vasitələrin rolu elmi şəkildə analiz olunur. Bundan əlavə, mədəniyyətlərarası kommunikasiya prosesində dilin fonetik aspektlə-

rinin (tələffüz, vurğu) təsiri elmi novator yanaşma kimi təqdim edilir.

Problemin praktik əhəmiyyəti. İşgüzar ingilis dilində mədəniyyətlərarası kommunikasiya bacarıqlarının inkişaf etdirilməsi beynəlxalq biznes mühitində qarşılıqlı anlaşmanı və əməkdaşlığı gücləndirir. Bu bacarıqlar işgüzar görüşlərdə yaranan anlaşılmazlıqların və konfliktlərin qarşısını almağa kömək edir. Nəticədə, tədris prosesində bu sahəyə xüsusi diqqət yetirilməsi praktik olaraq biznes tərəfdaşları arasında effektiv əlaqələrin qurulmasına şərait yaradır.

Ədəbiyyat

1. Allison J. The Business 2.0. B 1. Pre-Intermediate: Student's Book. London: Macmillan Publishers Limited, 2014.
2. Габец А.А. Функции прецедентных феноменов в деловом дискурсе // Вестник Самарского университета. История, педагогика, филология. - 2016. - № 3.- С. 114-117.
3. Габуниа З.М., Улимбашева Э.Ю. Межкультурная коммуникация кА к миросозидаю-щий факт языка: учеб. пособие по спецкурсу «Межкультурная коммуникация». - Нальчик, 2005. - 176 с.
4. Льюис Р.Д. Деловые культуры в международном бизнесе. От столкновения к взаимопониманию. - М.: Дело, 1999. - 432 с.
5. Малюга Е.Н. К вопросу о языке деловых переговоров как жанре межкультурной деловой коммуникации // Вестник РУДН. Серия: Лингвистика. - 2009. - №3. - С. 52-60.
6. Паршутина Г.А. О функциональном потенциале глаголов коммуникации в английском деловом дискурсе // Вестник Самарского университета. История, педагогика, филология. - 2016. - № 1. - С. 239-241.
7. Сокур Е.А. Межкультурная коммуникация и английский язык // Символ науки. -2016. - № 2-3. - С. 96-98.
8. Шевелева С.А. Деловой английский: учебное пособие для вузов. - 2-е изд. - М.: ЮНИТИ-ДАНА, 2017. - 382 с.
9. Яшина Т.А. English for Business Communication. Английский язык для делового общения: учеб. пособие / Т.А. Яшина, Д.Н. Жаткин. - М.: ФЛИНТА, 2016. - 110 с.
10. Ken Taylor. Cross-Cultural Communication - The Vital Link, Professional Communication in English. Stockholm: The Vital Link, 2002. Second edition. - 48 p.
11. Shanthi Cumaraswamy Streat. 10 Proven Ways to Help You Communicate Better at Work in English // English with a Twist. 2016 Edition. - 18 p.

Redaksiyaya daxil olub: 07.07.2025

UOT 372.881.111.1

Mətanət Mirfayaz qızı Məmmədova,
Azərbaycan Dillər Universitetinin baş müəllimi
https://orcid.org/0000-0002-5019-4718
E-mail: matanat.mammadova@yahoo.com
https://doi.org/10.69682/arti.2025.92(4).116-121

MÜASİR İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ VİDEO RESURSLARIN KOMMUNİKATİV KOMPETENSİYANIN FORMALAŞMASINDA ROLU

Matanat Mirfayaz Mammadova,
senior lecturer at Azerbaijan University of Languages

THE ROLE OF VIDEO RESOURCES IN THE DEVELOPMENT OF COMMUNICATIVE COMPETENCE IN MODERN ENGLISH LANGUAGE LESSONS

Матанат Мирфаяз кызы Мамедова,
старший преподаватель Азербайджанского университета языков

СОВРЕМЕННАЯ РОЛЬ ВИДЕОРЕСУРСОВ В ФОРМИРОВАНИИ КОММУНИКАТИВНОЙ КОМПЕТЕНЦИИ НА УРОКАХ АНГЛИЙСКОГО ЯЗЫКА

Xülasə. Məqalədə ingilis dili tədrisində internet üzərindən əldə olunan video resursların istifadəsinin səmərəliliyi araşdırılır. Video materiallar şagirdlərin nitq və təfəkkür fəaliyyətini aktivləşdirir, eşitmə və tələffüz bacarıqlarını inkişaf etdirir, həmçinin əvvəlki biliklərin möhkəmləndirilməsinə xidmət edir. Dərsin məqsədinə və şagirdlərin səviyyəsinə uyğun seçilmiş videolar müsbət nəticələr verir. Bununla belə, təkcə video resurslarla dili müstəqil öyrənmək mümkün deyil; müəllim dəstəyi və əlavə mənbələrin istifadəsi zəruridir. Video materialların məqsədyönlü və sistemli tətbiqi səmərəli təlim üçün vacib amildir.
Açar sözlər: *informasiya-kommunikasiya texnologiyaları, video resurslar, kommunikativ kompetensiya, autentik materiallar*

Abstract. This article explores the effectiveness of using online video resources in English language teaching. Video materials help activate students' speaking and thinking skills, develop listening and pronunciation abilities, and reinforce previously learned material. Videos selected according to the lesson's objectives and students' language proficiency contribute to positive learning outcomes. However, independent language learning through video resources alone is not feasible; teacher guidance and supplementary materials are essential. The purposeful and systematic use of video materials is a key factor in organizing effective instruction.
Keywords: *information and communication technologies, video resources, communicative competence, authentic materials*

Аннотация. В статье рассматривается эффективность использования видеоресурсов, полученных через интернет, в процессе обучения английскому языку. Видеоматериалы активизируют речевую и мыслительную деятельность учащихся, способствуют развитию навыков аудирования и правильного произношения, а также укрепляют ранее усвоенные знания. Использование видеоматериалов, подобранных в соответствии с целями урока и уровнем владения языком учащихся, способствует достижению положительных результатов. Однако овладение иностранным языком исключительно с помощью видеоресурсов невозможно; необходима поддержка преподавателя и использование дополнительных источников. Целенаправленное и систематическое применение видеоматериалов является важным условием эффективного обучения.
Ключевые слова: *информационно-коммуникационные технологии, видеоресурсы, коммуникативная компетенция, аутентичные материалы*

Müasir təhsil sistemində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sürətlə artmaqdadır və bu proses xarici dilin tədrisinə də öz təsirini göstərmişdir. Bu baxımdan, ingilis dili dərslərində video resurslardan istifadə şagirdlərin dil bacarıqlarının inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Müasir cəmiyyətin tələbləri fonunda xarici dili praktiki bilmək hər bir təhsilli şəxs üçün zərurətə çevrilmişdir. Xarici dilin öyrənilməsi insanların ümumi mədəni səviyyəsinə müsbət təsir göstərir, ünsiyyət bacarığının inkişafına şərait yaradır. Xarici dilin tədrisinin əsas məqsədi tələbələrdə kommunikativ kompetensiyanın formalaşdırılması və inkişaf etdirilməsidir. Tədris prosesinə inteqrasiya olunmuş videomateriallardan istifadə isə ingilis dili dərslərində bu kompetensiyanın inkişafına dəstək olur. İnternet üzərindən əldə olunan video materiallar vasitəsilə aparılan tədris prosesində şagirdlərin eşitmə və danışıq bacarıqları inkişaf edir, onların təfəkkür fəaliyyəti aktivləşir, eyni zamanda keçilən mövzuların təkrar olunması və möhkəmləndirilməsi təmin edilir. Bu fikirlər P.V.Sısoyevi tərəfindən dəstəklənir və o qeyd edir ki, xarici dilin tədrisində informasiyalaşdırma, tədris prosesinin texnoloji vasitələrlə təmin olunması, müəllim hazırlığı və yeni metodologiyaların tətbiqinə əsaslanır ki, bu da şagirdin həm dil, həm də mədəniyyət kontekstində kompetensiyasının formalaşmasına kömək edir [8, s. 83-95]. Bu istiqamətdə video resurslar autentik dil nümunələrinin təqdim olunması baxımından da xüsusi əhəmiyyət kəsb edir, çünki real həyatdan götürülmüş dialoqlar və situasiyalar şagirdlərin təbii dil mühitinə daxil olmasına və ünsiyyətə hazırlıq səviyyələrinin yüksəlməsinə səbəb olur.

Tədqiqatçı O.V.Kryaxtunovanın araşdırmalarına əsasən, video materialların tətbiqi yalnız texniki vasitənin istifadəsi kimi yox, həm də pedaqoji baxımdan planlı və məqsədyönlü şəkildə həyata keçirilməlidir. Onun fikrincə, həftədə ən azı bir dəfə, qısa – 3-5 dəqiqəlik intensiv informasiya yüklü videolarla işləmək dərsin bütün müddətində şagirdlərin diqqətinin və fəallığının yüksək səviyyədə qalmasına səbəb olur və bu zaman müəllim dəstəyi, təhlil və müzakirə prosesi ilə müşayiət olunmalıdır [5, s. 45-60]. Video resurslardan istifadə zamanı şagirdlərdə kommunikativ bacarıqlarla yanaşı, dil təxminetmə qabiliyyəti də inkişaf edir, çünki vizual və səsli informasiya vasitələri kontekstdə təqdim olunduqda söz və ifadələrin mənalarının çıxarılması daha asan və təbii olur. T.P. Leontyeva bu prosesi idarə edən əsas prinsip kimi məqsədyönlü təlimi, materialın ardıcıl hissələrə bölünməsini, operativ geribildirim imkanlarını və müəllim rəhbərliyi ilə tədrisin təşkilini qeyd edir [6, s. 61-74].

Digər tərəfdən, müəllimlərin üzərinə düşən vəzifə təkcə videonu göstərməklə məhdudlaşmır. Onlar eyni zamanda materialın şagirdlər tərəfindən mənimsənilməsini təmin etmək, müzakirələr təşkil etmək, əsas fikir və detalları ayırd etmək, söz ehtiyatını genişləndirmək və mədəni elementləri izah etmək kimi metodiki fəaliyyətləri də yerinə yetirməlidirlər. Bu cür yanaşma videoların sadəcə vizual vasitə deyil, tam hüquqlu tədris resursu kimi istifadəsini şərtləndirir. L.M.Fedorova və T.İ.Ryazantsevanın araşdırmalarında da qeyd olunur ki, müasir dil tədrisində autentik materiallardan istifadə dilin yalnız strukturunu deyil, onun sosial və mədəni kontekslərini də mənimsəməyi təmin edir və bu, xüsusilə kommunikativ və mədəni kompetensiyaların formalaşması baxımından vacib hesab olunur [9, s. 138-142]. O.İ.Barmenkova isə hesab edir ki, müəllimin əsas vəzifələrindən biri təlim zamanı müxtəlif texniki və metodiki üsullarla dərsdə kommunikativ situasiyaları yaratmaq və şagirdləri bu mühitə cəlb etməkdir. Video materiallar bu baxımdan real və təxəyyülə əsaslanan situasiyaların qurulmasında geniş imkanlar yaradır [2, s. 20-25].

Müəllim videodan istifadə etməklə və onu müxtəlif fəaliyyət növlərinə inteqrasiya etməklə şagirdlərin kommunikativ bacarıqlarının inkişafına xidmət edən dərs mühiti yaradır. Bu yanaşma video materialların yalnız vizual təqdimat vasitəsi deyil, eyni zamanda şagirdin dinləmə, anlama, fikir bildirmə və danışıq bacarıqlarını inkişaf etdirən kompleks metodik vasitə kimi tətbiq olunmasını nəzərdə tutur. Jim Skrivenerin qeyd etdiyi kimi, videodan istifadə zamanı müəllimlərin əsaslandığı fəaliyyət növləri ümumilikdə üç əsas kateqoriyaya bölünür: ilkin baxış (preview activities), baxış (viewing activities) və baxışdan sonrakı fəaliyyətlər (follow-up activities). Bu mərhələlərin hər biri dərsin ümumi məqsədlərinə uyğun şəkildə planlaşdırılır və həyata keçirilir. Beləliklə, videoyla işləməyə əsaslanan hər bir dərs məhz bu fəaliyyətlərin uyğun ardıcıllıqla və sistemli tətbiqinə əsaslanır [7].

C.Kanninq video materialını dəyərli bir tədris aləti kimi belə xarakterizə edir: "Video ən yaxşı halda audio-vizual kontekstdə mesajların seçimi və ardıcıllığı kimi müəyyən olunur" [3]. Video materialların əsas üstünlüklərindən biri ondan ibarətdir ki, tələbələr birbaşa vizual görüntülərlə ünsiyyətdə olduqları üçün eşitdikləri sözləri və ifadələri təqdim olunan təsvirlərlə asanlıqla əlaqələndirə bilirlər. Bu isə onların yeni leksik vahidlərin mənimsənilməsi, hədəf dilin fonetik və intonasiya xüsusiyyətlərinin öyrənilməsi, real kontekstdə dilin istifadə qaydalarının təhlil olunması, eyni zamanda mədəni komponentlərin dərk edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Video materiallar, xüsusilə də autentik dil nümunələri ilə zəngin olanlar, tələbələrə danışıqda istifadə olunan struktur və forma ilə yanaşı, nitq sürətinin və ritminin müxtəlif kommunikativ situasiyalarda necə dəyişdiyini müşahidə etməyə imkan verir. Beləliklə, video materiallar xarici dilin diskurs xüsusiyyətlərini əvvəlindən sonuna qədər izləməklə, tələbələrə dilin funksional və kommunikativ aspektlərini daha dərindən mənimsəmək üçün effektiv imkan yaradır [3].

Video materialların bu cür effektiv istifadəsi şagirdlərin öyrənməyə motivasiyasını artırır, onların dərsə marağını gücləndirir və passiv dinləyicidən aktiv iştirakçıya çevrilməsini təmin edir. Bu vasitələr şagirdlərin öz fikirlərini sərbəst ifadə etməyə təşviq edir, onlarda ünsiyyət mədəniyyəti və mədəniyyətlərarası anlayışın formalaşmasına töhfə verir. Şagirdlər təkcə dili deyil, həmin dili daşıyan xalqın həyat tərzi, davranış normaları və ünsiyyət modeli ilə də tanış olur və bu, onların interkultural kompetensiyalarının inkişafına xidmət edir. Tədris prosesində video-materiallarla işləmənin metodik əsaslarını nəzərdən keçirdikdə, bir çox tədqiqatçılar bu fəaliyyəti üç əsas mərhələyə ayırmağı məqsədəuyğun hesab edirlər: ilkin və ya əvvəlcədən hazırlıq mərhələsi, birbaşa demonstrasiya mərhələsi və videomaterialın baxışından sonrakı mərhələ. Bu mərhələlər bir-biri ilə əlaqəli şəkildə həyata keçirilir və şagirdin dinləmə, anlama, təhlil etmə və danışıq bacarıqlarının inkişafına xidmət edir. İlk mərhələdə müəllim tərəfindən şagirdlərə video ilə bağlı öncədən məlumat verilir, onları mövzuya köklәyən tapşırıqlar təqdim olunur və müəyyən leksik və ya qrammatik çətinliklər izah olunur. İkinci mərhələdə isə şagirdlər videonu izləyir və eyni zamanda müəllimin hazırladığı müşahidə suallarına diqqət yetirirlər. Üçüncü mərhələ isə diskussiya, nitq fəaliyyəti və dil konstruksiyalarının təkrarı ilə tamamlanır. Qeyd olunmalıdır ki, dərsdə videofilmdən istifadə sadəcə əlavə bir informasiya mənbəyinin tətbiqi deyil, eyni zamanda tələbələrin zehni fəaliyyətinin – xüsusilə diqqət və yaddaş kimi əsas komponentlərinin inkişafına yönəlmiş bir üsuldur. Videoya baxış zamanı sinifdə birgə idraki fəaliyyət mühiti formalaşır, bu isə təlim prosesinə daha fəal iştirak və dərindən qavrama qazandırır. Xarici dil dərslərində videomaterиallardan istifadə tələbələr üçün öyrənməyə güclü stimul yaradır. Onlar tanımadıqları, lakin autentik olan materiallarla işləməklə həm mövcud biliklərini tətbiq etmək, həm də onları genişləndirmək imkanı əldə edirlər. Tələbələr xarici dildə orijinal danışıq nümunələrini anladıqlarını dərk etdikdə, onların özünəinamı artır və fənnə qarşı marağı, motivasiyası yüksəlir. Eyni zamanda, videomateriallar tələbələrin əldə etdikləri bilikləri praktikada tətbiq etməyə təşviq edən mühüm didaktik vasitə kimi çıxış edir.

Video-resursların təsnifatına gəldikdə, elmi mənbələr bu materialları əsasən üç qrupa ayırırlar: tədris məqsədli videolar, autentik videomateriallar və müəllim və ya şagirdlər tərəfindən hazırlanmış videolar. Tədris məqsədli videolar əsasən xarici dil öyrənmək üçün nəzərdə tutulur, strukturlaşdırılmış, didaktik baxımdan səmərəli hazırlanmışdır və qısa fraqmentlərdən ibarət olur. Bu materiallar adətən müəyyən qrammatik mövzulara və ya lüğət sahələrinə həsr olunur və onlara əlavə tədris materialı da daxil edilir. Autentik video materiallar isə ana dil daşıyıcıları üçün nəzərdə tutulmuş filmlər, reklamlar və televiziya proqramlarını əhatə edir və müxtəlif nitq tiplərinin, sosial danışıq formalarının və məişət ünsiyyətinin təqdimində mühüm rol oynayır. Onlar real dil mühitini modelləşdirdiyinə görə şagirdin təbii danışıq mətnlərini anlama qabiliyyətini inkişaf etdirir. Müəllim və ya şagirdlər tərəfindən hazırlanan videolar isə xüsusi metodik məqsədlərə yönəldildiyindən, konkret tədris tapşırıqlarının yerinə yetirilməsinə daha uyğun olur, lakin bu cür materialların hazırlanması texniki bacarıq, zaman və resurs tələb edir [5, s. 45-60].

Xarici dil dərslərində video materiallardan istifadə müəllim və tələbələr üçün yalnız dili de-

yil, həm də xarici mədəniyyəti mənimsəmək baxımından bir sıra unikal imkanlar yaradır. Əlbəttə ki, audio və çap olunmuş mətnlər yüksək informativ, tədrisedici və inkişafetdirici dəyərə malik ola bilər. Lakin videomətnin üstünlüyü ondadır ki, o, yalnız kommunikativ məzmunla kifayətlənməyərək, həm də vizual məlumat ehtiva edir. Vizual informasiya vasitəsilə öyrənənlər konkret kontekstdə həm məzmunu, həm də nitqin dil xüsusiyyətlərini daha dərindən qavrama və yadda saxlama imkanına malik olurlar. Eyni zamanda, xarici dildə səsləndirilən informasiyanın ekranda vizual müşayiəti onun mənasının daha dolğun və dəqiq başa düşülməsinə kömək edir. Bu tip öyrənmə fəaliyyəti tələbələrin diqqətini və yaddaşını aktivləşdirir, onların dünyagörüşünü genişləndirir, həmçinin dinləmə və danışıq bacarıqlarının inkişafına və təkmilləşdirilməsinə əhəmiyyətli rol oynayır.

Video materialların istifadəsinin üstünlükləri yalnız onların vizual effektlər və canlı nitq nümunələri ilə zənginləşdirilməsi ilə məhdudlaşmır, eyni zamanda onlar dərsə motivasiyanın artırılması, şagirdlərin maraq dairəsinin genişləndirilməsi və dilin kontekst daxilində mənimsənilməsi üçün əlverişli imkanlar yaradır. Xüsusilə, autentik materiallardan istifadə şagirdlərin kommunikativ kompetensiyalarının inkişafı baxımından daha effektiv sayılır, çünki burada təqdim olunan danışıq situasiyaları real həyatla uzlaşır və şagirdin həyatla əlaqəli təcrübəsinə uyğun gəlir. Eyni zamanda, şagirdlər yeni leksik və qrammatik materialı real kontekstdə mənimsəməklə dil strukturunun funksional tətbiqinə yiyələnirlər. Bu baxımdan, hər bir videodərs konkret məqsədyönlü tapşırıqlarla müşayiət olunmalıdır və təqdim olunan materiallar şagirdlərdə müvafiq bacarıq və vərdişlərin formalaşmasına şərait yaratmalıdır [8, s. 83-95].

İnternet resurslarında yerləşdirilən tədris videoları da müxtəlif formatda təqdim olunur və bu materiallar əsasən üç kateqoriyaya bölünür: qrammatik izahlı videolar, lüğətyönlü videodərslər və bu iki komponentin sintezindən ibarət olan kompleks videodərslər. Qrammatik videolar, məsələn, *twominenglish.com, learnamericanenglishonline.com, engvid.com, puzzle-english.com* saytlarında təqdim olunur və burada qısa videoçarxlarla qrammatik mövzular sadə və anlaşıqlı şəkildə izah edilir. Leksikyönlü videolar isə danışıq frazalarının, gündəlik ifadələrin, deyimlərin və tələffüz qaydalarının təqdim olunduğu materiallardır ki, bu cür dərslər *englishcentral.com, english03.ru, real-english.com, learnenglishfeelgood.com* kimi platformalarda geniş yer alır. Kompleks videodərslər isə həm qrammatika, həm də leksikanın eyni zamanda təqdim olunduğu dərslərdir və learnenglishteens.britishcouncil.org saytı bu baxımdan əhəmiyyətli resurs hesab olunur.

Bu video materiallardan istifadə prosesində müəllim dərsə hazırlıq zamanı texniki vasitələri əvvəlcədən yoxlamalı, şagirdlərə baxışdan öncə tapşırıqlar verməli, baxış zamanı diqqət yönləndirici suallarla müşayiət etməli və dərsdən sonra müzakirə və tapşırıqlarla şagirdlərin anlama səviyyəsini artırmalıdır. Ən uğurlu nəticə əldə etmək üçün videoların qısa, yəni 3-7 dəqiqəlik olması tövsiyə edilir, çünki bu zaman şagirdin diqqəti daha uzun müddət aktiv qalır və informasiyanın həddindən artıq yüklənməsinin qarşısı alınır. Eyni zamanda, videomateriallar əsasında müxtəlif növ tapşırıqlardan istifadə olunur: imitasiya xarakterli, diferensial, transformasiya, sual-cavab və situasiyayönlü tapşırıqlar. Bu tapşırıqlar şagirdin eşitdiklərini təkrarlamasına, struktur fərqlərini ayırd etməsinə, yeni informasiya ilə işləməsinə və müstəqil danışıq bacarığını inkişaf etdirməsinə şərait yaradır [9, 10, s. 138-142].

Müasir dövrdə video materialların ingilis dili dərslərində istifadəsi tədris prosesinin ayrılmaz hissəsinə çevrilmiş və tələbələrin kommunikativ kompetensiyasının inkişafını stimullaşdıran mühüm amillərdən biri kimi çıxış edir. Video resursların istifadəsi yalnız dil öyrənməyə marağın artmasına deyil, həm də tələbələrin dünyagörüşünün genişlənməsinə, onların dərs prosesinə daha fəal şəkildə cəlb olunmasına şərait yaradır. Autentik məzmunlu videoların izlənməsi öyrənilən materialın daha rahat mənimsənilməsi və yadda saxlanmasına xidmət edir ki, bu da onların tədris prosesində istifadəsini zəruri edir. Ümumiləşdirilmiş şəkildə demək olar ki, videomaterialların xarici dil öyrədilməsində tətbiqi bir sıra mühüm didaktik və pedaqoji vəzifələrin həllinə imkan yaradır: video ilə işləyərkən dörd əsas dil bacarığı – dinləmə, danışma, oxu və yazı bacarıqlarının inkişafı mümkün olur; autentik materiallar əsasında danışıq nümunələri təqdim olunaraq, tələbələrin dinləyib-anlama və nitq bacarıqları inkişaf etdirilir, bu isə dil öyrənmənin ən çətin aspektlərindən biri hesab olunan

dinləmə fəaliyyətinə fokuslanma imkanı verir; video materiallar tələbələrin dil təxmin etmə qabiliyyətini inkişaf etdirir və onların biliyini real kontekstdə tətbiq etməyə təşviq edir; tələbələr autentik danışığı başa düşdüklərini hiss etdikdə, bu onların özünəinamını və motivasiyasını artırır; dərsdə video dəstəyinin tətbiqi tələbələrin sonrakı mərhələdə sərbəst işinə stimul verir və onların təlimə daha fəal yanaşmasına səbəb olur. Beləliklə, kommunikativ kompetensiyanın formalaşdırılması və inkişafı mürəkkəb proses olsa da, video materiallar bu prosesin daha məhsuldar şəkildə təşkili üçün əlverişli imkanlar yaradır. Tədris videosu resursları tələbələrin nitq vərdişlərinin formalaşdırılması və inkişaf etdirilməsi istiqamətində geniş imkanlar açır, dərsi daha maraqlı və interaktiv hala gətirir, həmçinin ingilisdilli ölkələrin həyat tərzi, mədəniyyəti və dil reallıqları ilə tanışlıq imkanı yaradaraq tədrisin keyfiyyətini əhəmiyyətli dərəcədə artırır. Müəllim video materiallar və innovativ texnologiyalar vasitəsilə interaktiv dərslər təşkil etməklə, tələbələrin dinləmə və danışma bacarıqlarını aktivləşdirə və dil mühitinin yaradılmasına nail ola bilər. Tədris məqsədli videomateriallar tələbələrin nitq bacarıqlarının formalaşması və inkişaf etdirilməsi istiqamətində geniş imkanlar yaradır və xarici dilin mənimsənilməsi prosesini daha maraqlı və cəlbedici edir. Dərslərin interaktiv şəkildə təşkili, videomateriallar və innovativ texnologiyaların tətbiqi vasitəsilə tələbələrin dinləyib-anlama və danışıq bacarıqlarının stimullaşdırılmasına, eləcə də dərsdə ingilis dili mühitinin yaradılmasına xidmət edir. Videomateriallardan istifadə xarici dil dərslərində tədrisin keyfiyyətini yüksəldir, tələbələrə ingilisdilli ölkələrin həyat tərzini, adət-ənənələrini və dil reallıqlarını vizual şəkildə qavrama imkanı verir, bununla da onların nitq fəaliyyəti inkişaf etdirilir.

Beləliklə, müasir dövrdə xarici dilin öyrədilməsi prosesində video-resursların istifadəsi yalnız texniki vasitə kimi deyil, həm də pedaqoji-metodiki baxımdan düşünülmüş və məqsədyönlü tədris strategiyası kimi qiymətləndirilir. Şagirdlərin dil vərdişlərinin formalaşdırılması ilə yanaşı, onların sosial və mədəni biliklərinin də inkişafına şərait yaradan bu resurslar XXI əsr təhsilinin ayrılmaz komponentinə çevrilmişdir.

Problemin aktuallığı müasir dövrdə təhsil sistemində geniş vüsət almış kompüterləşmə və informasiya-kommunikasiya texnologiyalarının tədris prosesinə inteqrasiyası ilə sıx bağlıdır. Tədrisin keyfiyyətinin artırılması baxımından informasiya texnologiyalarının, xüsusilə də video materialların xarici dilin öyrədilməsi prosesinə tətbiqi zəruri amil kimi çıxış edir. Son illərdə bir sıra tədqiqatçılar xarici dil öyrənilməsində informasiya texnologiyalarının rolu, o cümlədən video resursların əhəmiyyəti ilə bağlı dəyərli araşdırmalar aparmışlar. Bununla belə, mövcud elmi ədəbiyyatlarda konkret müasir internet video resurslarının təhlili və onların didaktik potensialı yetərincə əhatə olunmur.

Problemin yeniliyi. Müasir texnologiyaların sürətlə inkişafı xarici dil tədrisində videomaterialların istifadənin aktuallığını artırmışdır. Ənənəvi metodlardan fərqli olaraq, autentik videoresurslar tələbələrin dil bacarıqlarını kompleks şəkildə inkişaf etdirmək üçün daha effektiv vasitə kimi çıxış edir. Bu məqalədə videomaterialların kommunikativ kompetensiyanın formalaşmasında necə sistemli şəkildə tətbiq oluna biləcəyi elmi-metodik aspektdən ilk dəfə bu qədər əhatəli təhlil olunur.

Problemin praktik əhəmiyyəti. Videomateriallardan düzgün istifadə dil bacarıqlarının, xüsusilə dinləmə və danışma qabiliyyətlərinin inkişafını sürətləndirir. Müəllimlər üçün bu yanaşma interaktiv dərs mühitinin yaradılması və şagirdlərin motivasiyasının artırılması baxımından geniş imkanlar açır. Həmçinin, autentik videolar vasitəsilə tələbələr ingilis dilində real ünsiyyət mühitini modelləşdirərək mədəniyyətlərarası kommunikasiya bacarıqlarını inkişaf etdirirlər.

Ədəbiyyat

1. Андреева Н.В. Компьютерные технологии в обучении иностранному языку. Калининград: Издательство Калинингр. гос. ун-та, 2002. 101 с.
2. Барменкова О.И. Видеозанятия в системе обучения иностранной речи // Иностранные языки в школе. 1999. № 3. С. 20-25.
3. Canning, C. Practical Aspects of Using Video in the Foreign Language Classroom. The Internet TESL Journal, 2000. No. 11.
4. Дубровская Е.В. Методика преподавания иностранных языков. Электронное учебно-методическое пособие для студентов 4-5 курсов специальности «Современные иностранные языки». Минск: БГУ, 2014. 142 с.

5. Кряхтунова О.В. Методика работы с видеоматериалами в иностранной аудитории. Астрахань: АГТУ, 2011. 136 с.
6. Леонтьева Т.П. Нетрадиционные методы обучения иностранным языкам в вузе. Сборник «Материалы Республиканской конференции». Минск: ТетраСистемс, 1995. С. 61-74.
7. Scrivener, J. Learning teaching: a guide book for English language teachers. Oxford: Macmillan Publishers, 2005.
8. Сысоев П.В. Направления и перспективы информатизации языкового образования // Вестник Московского Государственного Гуманитарного Университета им. М.А. Шолохова. Филологические науки. 2013. №4. С. 83-95.
9. Федорова Л.М., Рязанцева Т.И. Современные теории и методики обучения иностранным языкам. Москва: Изд-во «Экзамен», 2004. 320 с.
10. Шестаков С.А. Цифровые образовательные ресурсы и их использование в практике средней школы // ito.edu.ru [Электронный ресурс]. 2006. Режим доступа: http://ito.edu.ru/2006/Moscow/VII/VII-0-6028.html. Дата доступа: 20.03.2016.

Redaksiyaya daxil olub: 08.07.2025

UOT 372.881.111.1

Qönçə Xanlar qızı Hacıyeva,
Azərbaycan Dillər Universitetinin müəllimi
https://orcid.org/0000-9169-122X
E-mail: gonchahajiyeva86@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(4).122-127

ALİ MƏKTƏBLƏRİN AŞAĞI KURSLARINDA İNGİLİS DİLİNDƏ SORĞU-ƏSASLI DİL TƏDRİSİNDƏN İSTİFADƏ METODİKASI

Goncha Khanlar Hajiyeva,
lecturer at Azerbaijan University of Languages

METHODOLOGY OF USING INQUIRY-BASED LANGUAGE TEACHING IN ENGLISH IN THE LOWER COURSES OF HIGHER SCHOOLS

Гончя Ханлар кызы Гаджиева,
преподаватель Азербайджанского университета языков

МЕТОДИКА ИСПОЛЬЗОВАНИЯ ОПРОСНО-ОРИЕНТИРОВАННОГО ОБУЧЕНИЯ АНГЛИЙСКОМУ ЯЗЫКУ НА МЛАДШИХ КУРСАХ ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЙ

Xülasə. Məqalədə ali məktəblərin aşağı kurslarında ingilis dilinin tədrisində sorğu-əsaslı öyrənmə (IBL – Inquiry-Based Learning) yanaşmasının metodik əsasları araşdırılır. Sorğu-əsaslı təlimin konstruktivist nəzəriyyəyə əsaslanan prinsipləri, tələbələrin təşəbbüskarlığını, fəal iştirakını və müstəqil düşünmə bacarıqlarını inkişaf etdirmə potensialı nəzərdən keçirilir. Məqalədə sorğu növlərinin (strukturlaşdırılmış, nəzarət olunan, istiqamətləndirilmiş və sərbəst sorğu) tətbiqi imkanları, dil bacarıqlarının formalaşdırılmasında rolu və müəllim-tələbə qarşılıqlı fəaliyyətinin təşkili kimi məsələlərə dair praktik və nəzəri yanaşmalar təqdim olunur. Təhlillər göstərir ki, bu metodika tələbələrin yalnız dil biliklərini deyil, eyni zamanda kommunikativ kompetensiyalarını və XXI əsr bacarıqlarını inkişaf etdirmək baxımından mühüm əhəmiyyətə malikdir.
Açar sözlər: *sorğu-əsaslı təlim, müstəqil öyrənmə, strukturlaşdırılmış sorğu, kommunikativ kompetensiya, təlim strategiyaları*

Abstract. This article explores the methodological foundations of applying inquiry-based learning (IBL) in teaching English to lower-year students in higher education institutions. The study examines the constructivist principles underlying IBL, emphasizing its potential to foster students' initiative, active participation, and independent thinking skills. It also presents theoretical and practical perspectives on the use of various types of inquiry (structured, controlled, guided, and free) and their role in the development of language skills and teacher-student interaction. The findings indicate that this approach is not only effective in enhancing students' language proficiency but also plays a crucial role in developing their communicative competence and 21st-century skills.
Keywords: *inquiry-based learning, independent learning, structured inquiry, communicative competence, teaching strategies*

Аннотация. В статье исследуются методические основы применения подхода обучения на основе исследования (IBL – Inquiry-Based Learning) при преподавании английского языка студентам младших курсов высших учебных заведений. Рассматриваются принципы исследовательского обучения, основанные на конструктивистской теории, а также его потенциал в развитии инициативности, активного участия и навыков самостоятельного мышления у студентов. В статье представлены теоретические и практические подходы к применению различных типов исследовательской деятельности (структурированное, контролируемое, направляемое и свободное исследование), их роль в формировании языковых навыков, а также в организации взаимодействия между преподавателем и

студентом. Анализ показывает, что данный метод не только способствует овладению языком, но и играет важную роль в развитии коммуникативной компетенции и навыков XXI века.

Ключевые слова: *исследовательское обучение, самостоятельное обучение, структурированное исследование, коммуникативная компетенция, стратегии обучения*

Sorğuəsaslı öyrənmə (inquiry-based learning – IBL) pedaqoji metod kimi, tələbələrin təbii maraq və öyrənmə istəklərindən qaynaqlanaraq onların biliyə yiyələnmə prosesini daha aktiv və məqsədyönlü şəkildə təşkil etməyə imkan verir. Parkerin fikrincə, sorğu prosesi insanın dünyaya baxış tərzi və daim suallar verməklə yeni biliklərə can atması kimi xarakterizə olunur. İnsanın təbii marağı və öyrənməyə qarşı daxili motivasiyası onu axtarışa sövq edir, bu zaman əldə edilən məlumatlar daha yaxşı yadda qalır və mənimsənilir. Beləliklə, tələbənin şəxsi marağı və daxili öyrənmə ehtiyacı tədris prosesində əsas hərəkətverici qüvvə kimi çıxış edir. [17, s.17]

Ali məktəblərin aşağı kurslarında ingilis dilinin tədrisində sorğu-əsaslı yanaşmanın tətbiqi tədris prosesinin tələbəyönlü, şəxsiləşdirilmiş və yadda qalan olmasına şərait yaradır. Bu metodika tələbələrin yalnız məlumatı əzbərləməsini deyil, eyni zamanda həmin bilikləri dərk etməsini və istifadə etməsini hədəfləyir. Sorğuəsaslı öyrənmədə müəllimlər məlumatı birbaşa təqdim etməkdənsə, tələbələri yönləndirir, onların müstəqil şəkildə bilikləri araşdırmasına və əldə etməsinə dəstək olurlar. Bu isə həm tələbələrin tənqidi təfəkküründü inkişaf etdirir, həm də öyrənmənin mənalı və davamlı olmasına imkan yaradır [1, s. 480]. Sorğuəsaslı tədris yanaşması öyrənməni yalnız müəllim mərkəzli təqdimatlardan uzaqlaşdıraraq tələbə mərkəzli və interaktiv bir prosesə çevirir. Li bu tədris formasını həm pedaqoji yanaşma, həm də öyrənmə strategiyası kimi qiymətləndirir [14, s. 1236]. Gomez isə əlavə edir ki, bu metod tələbələrə real həyatda qarşılaşacaqları problemləri həll etmə bacarığını inkişaf etdirməyə imkan yaradır və təkrarlanan, şablon biliyin yığılmasına əsaslanan ənənəvi metodlara qarşı alternativ təqdim edir. Ənənəvi təlim metodları adətən müəllim tərəfindən biliklərin açıq şəkildə təqdim olunmasına əsaslandığı halda, sorğu əsaslı təlim tələbənin özünün biliyi kəşf etməsinə şərait yaradır [11, s. 21-36].

Çiarotto qeyd edir ki, sorğuəsaslı öyrənmə sadəcə metod deyil, həm də məktəb mühitində əməkdaşlıq və düşünmə mədəniyyətini formalaşdıran ümumi bir yanaşmadır [8, s.65]. Bu yanaşma öyrənmənin dövri və mərhələli strukturunu əhatə edir: tələbə və ya müəllim maraq doğuran sual və ya mövzu seçir, bu mövzu müxtəlif mənbələr vasitəsilə araşdırılır, əldə edilən nəticələr digər tələbələrlə bölüşülür və yekunda təhlil və əks əlaqə əsasında yeni suallar və mövzular yaranır [4].

Sorğuəsaslı dil tədrisinin metodikasının mühüm üstünlüklərindən biri də odur ki, bu yanaşmada istifadə olunan fəaliyyətlər təkcə öyrənmə bacarıqlarını deyil, eyni zamanda ömürboyu öyrənmə vərdişlərini və metakoqnitiv fərqliliyi inkişaf etdirir [6]. Metakoqnitiv fərqlilik insanın öz düşüncə proseslərini dərk etməsi və bu proseslərə nəzarət etmə bacarığıdır ki, bu da tələbəyə nə etdiyini və niyə etdiyini anlamaqda kömək edir. Nəticə etibarilə, tələbə öyrəndiyi bacarıqları müxtəlif kontekstlərdə tətbiq etməyi öyrənir [13, s. 165-172]. Beləliklə, sorğu-əsaslı öyrənmə tələbələrin təşəbbüskarlığını təşviq edir, öyrənilən məzmunun daha dərindən mənimsənilməsini stimullaşdırır, əldə olunan biliklər arasında məntiqi əlaqələr qurmağa təşviq edir və tələbələrdə müstəqil öyrənmə vərdişlərinin formalaşmasına imkan yaradır. Bu yanaşma tələbələrin tənqidi təfəkküründü və həyat üçün vacib olan bir sıra bacarıqlarını inkişaf etdirməyə yönəlib. Qlobal dövrün tələblərinə cavab verən problem həll etmə, praktik əməkdaşlıq, qərar qəbuletmə, rəqəmsal savadlılıq, motivasiya, öyrənmə və tədqiqat bacarıqları bu modelin vacib komponentlərindəndir.

Sorğuəsaslı təlimin metodikası ingilis dilində "5E" modelinə əsaslanır: Cəlbetmə (Engage), Araşdırma (Explore), İzah (Explain), Qiymətləndirmə (Evaluate) və Genişləndirmə (Elaborate). Bu model çevik və mərhələli öyrənmə dövriyyəsini təqdim edir və təlim-tərbiyə sahəsində islahatlara əsaslanan müasir və səmərəli pedaqoji təcrübələri əks etdirir [5, s. 10-13]. Bu mərhələlər bir-birini tamamlayan ardıcıllıqla tətbiq olunur:

Cəlbetmə (Engage) – Tələbələrin marağını oyatmaq, mövzuya qarşı daxili motivasiyasını artırmaq məqsədi daşıyır. Bu mərhələdə tələbələrin əvvəlki bilik və bacarıqları ilə yeni mövzu arasında əlaqə qurulur.

Araşdırma (Explore) – Tələbələr müstəqil şəkildə və ya qrup şəklində yeni bilikləri araşdırır, müşahidələr aparır, fərziyyələr irəli sürürlər. Bu mərhələdə praktik (hands-on) fəaliyyətlər həyata keçirilir və müəllim tərəfindən istiqamətləndirici dəstək göstərilir.

İzah (Explain) – Tələbələr tapdıqları nəticələri təqdim edir və müəllimin köməyi ilə bu nəticələr elmi əsaslarla izah olunur.

Qiymətləndirmə (Evaluate) – Tələbələrin əldə etdikləri bilik və bacarıqların yoxlanılması, həm müəllim, həm də tələbə tərəfindən refleksiya aparılması mərhələsidir. Fəaliyyətlər həm tələbə inkişafının, həm də dərsin səmərəliliyinin qiymətləndirilməsinə şərait yaradır.

Genişləndimə (Elaborate) – Tələbələr öyrəndikləri bilikləri yeni vəziyyətlərə tətbiq edir, alternativ yanaşmalar təklif edir və öz biliyini daha da dərinləşdirir.

Bu model sorğu-əsaslı öyrənmənin mərhələli və sistemli şəkildə tətbiqini təmin edir və ali məktəblərin aşağı kurslarında ingilis dilinin effektiv öyrədilməsinə təkan verir.

Xüsusilə dil öyrənmənin kommunikativ və funksional bacarıqlarla inteqrasiyası baxımından sorğu əsaslı öyrənmə modeli tələbələrin aktiv iştirakını və öyrənməyə qarşı məsuliyyət hissini artırır. Ali məktəblərin aşağı kurslarında ingilis dili tədrisinin ilkin mərhələlərində bu metodikanın tətbiqi tələbələrdə marağın artmasına, müstəqil düşüncə və tədqiqat bacarıqlarının formalaşmasına, biliklərin daha məqsədyönlü və dərindən mənimsənilməsinə şərait yaradır. Sorğu-əsaslı öyrənmə prosesi tələbələrin yalnız dil strukturunu deyil, həm də bu bilikləri ünsiyyət kontekstində tətbiq etməyi, mövcud məlumatları təhlil və qiymətləndirməyi öyrənməsinə imkan verir. Bu metodika eyni zamanda tələbələrə əvvəlki biliklərini yeni alternativlərlə müqayisə etməyə, həmin bilikləri yenidən quraraq fərqli situasiyalarda tətbiq etməyə şərait yaradır. Bu yanaşma əməkdaşlığa əsaslanan öyrənmə mühitini və təhlükəsiz, müsbət tədris şəraitini təşviq etməklə yanaşı, tələbələrin tənqidi və analitik təfəkküründü inkişaf etdirir. Nəticə etibarilə, tələbələr öyrəndiklərini yalnız yadda saxlamır, həm də fərqli kontekstlərdə tətbiq etməklə daha davamlı və mənalı öyrənməyə nail olurlar. Sorğu-əsaslı öyrənmənin məqsədlərinə nail olmaq üçün müəllimlər tərəfindən tətbiq edilə biləcək bir sıra metodik tədbirlər vardır ki, bunlar bu yanaşmanın effektivliyini artırmaq məqsədi daşıyır. Freysen və Skot bu kontekstdə aşağıdakı fəaliyyətləri təklif edirlər: səviyyəyə uyğunlaşdırılmış dəstək (scaffolding), formativ qiymətləndirmə, məzmunla əlaqəli güclü, tənqidi və əsaslandırılmış sualların verilməsi, həmçinin istiqamətləndirici sualların ardıcıllığı [10].

Səviyyəyə uyğunlaşdırılmış dəstək (Scaffolding):

Sorğu-əsaslı öyrənmə kontekstində scaffolding termini hələ də metodik baxımdan mübahisəli olaraq qalır. Lakin Simons və Klein bu anlayışı belə izah edirlər: tələbələrin bilik və bacarıq səviyyəsini bir qədər aşan tapşırıqların mərhələlərə bölünərək təqdim olunması və həmin tapşırıqların yerinə yetirilməsi prosesində onların istiqamətləndirilməsi [19, s. 203-228]. Bu cür dəstək tələbələrin problemi necə həll edəcəklərini müşahidə etməyə, onların strategiyalarını və tədqiqat bacarıqlarını inkişaf etdirməyə şərait yaradır. Freysen və Scot qeyd edirlər ki, bu cür dəstək fəaliyyətləri tələbələrdə problem həll etmə, refleksiya, tədqiqat vərdişləri, konseptual inteqrasiya və bilik əldəetmə bacarıqları üzərində müsbət təsir göstərir [10].

Formativ qiymətləndirmə, yəni öyrənməyə yönəlik qiymətləndirmə, summativ qiymətləndirmədən fərqli olaraq əsas məqsədi tələbələrin bilik və bacarıqları barədə geri bildirim təqdim etməkdir. Bu yanaşma tələbələrə öz zəif tərəflərini tanımaq və onların aradan qaldırılması yollarını müəyyən etmək imkanı verir. Heriteyc qeyd edir ki, bu cür qiymətləndirmənin səmərəliliyi onun tapşırıq üzərində fokuslanmasından və tələbəyə tərif və ya ümumi rəy deyil, konkret ipucları və yönəldici məsləhətlər təqdim etməsindən asılıdır[12, s. 5].

Sorğu, yaradıcı sualların rolu:

Sorğu-əsaslı öyrənmənin ayrılmaz hissəsi olan suallar tələbələrin diqqətini cəlb etmək və onları düşünməyə sövq etmək baxımından mühüm əhəmiyyət daşıyır. Barron və digərləri vurğulayırlar ki, güclü suallar tələbənin təlim fəaliyyətləri ilə konseptual biliklər arasında açıq əlaqə qurmasına kömək etməli və onların məktəbdənkənar dünya ilə inteqrasiyasını təmin etməlidir [3, s. 87]. Tənqidi suallar isə tələbədən əsaslandırılmış seçim etməyi, seçim meyarlarını tətbiq etməyi və bu nəticələri kurikulumla əlaqələndirməyi tələb edir [7]. Əsaslandırılmış (fundamental) suallar isə fənnin mahiyyətinə to-

xunmalı, səthi və bayağı olmamalıdır. Viggins və MakTige bu tip sualların öyrənməni təşviq edən, araşdırma və düşüncə doğuran, eyni zamanda fənnin əsas mövzularını açıb ortaya qoyan suallar olduğunu bildirirlər[20].

Den Heyer də bu kontekstdə qeyd edir ki, bu tip suallar yalnız dərs, mövzu və kursların məqsəd və nəticələrinə deyil, eyni zamanda tələbələrin yaşadığı real dünya ilə əlaqəli, aktual və düşünməyə sövq edən məsələlərə də fokuslanmalıdır. Beləliklə, həm müəllim, həm də tələbə tədris prosesində real həyatla bağlı məsələlərin mənşəyini və bu günə necə gəlib çıxdığını daha yaxşı anlaya bilir[9, s.75]. Tədqiqatçılar sorğunun dörd əsas növünü müəyyənləşdirmişlər: strukturlaşdırılmış sorğu, idarə olunan sorğu, yönləndirilmiş sorğu və azad sorğu [2]. Bu sorğu növləri, müəllimin tədris prosesinə müdaxiləsinin səviyyəsinə və tələbələrin öyrənmə prosesindəki müstəqilliyinə görə fərqlənir. Belə bir ardıcıllıq aşağı kurslarda sorğuəsaslı təlimə keçidin mərhələli şəkildə təşkilinə imkan yaradır.

1. ***Strukturlaşdırılmış sorğu (Structured Inquiry)***

Bu sorğu növündə müəllimin rolu maksimum səviyyədədir. Mövzu, əsas suallar və tədris resursları müəllim tərəfindən əvvəlcədən hazırlanır. Tələbələr isə bu materiallar əsasında məlum nəticələri və ya anlayışları təsdiqləmək üçün fəaliyyətlər icra edirlər [6]. Burada əsas məqsəd əvvəlki bilikləri möhkəmləndirmək və mövcud anlayışları tətbiq etməkdir. Bu model, yeni başlayan tələbələr üçün öyrənmə strukturunun dəqiq qurulması baxımından əhəmiyyətlidir.

2. ***İdarə olunan sorğu (Controlled Inquiry)***

İdarə olunan sorğuda müəllim əsas sualları və resursları təqdim edir, lakin bu mərhələdə cavablar əvvəlcədən məlum deyil. Tələbələr müəllim tərəfindən seçilmiş materiallar əsasında əsas suallara cavab tapmağa çalışırlar. Bu mərhələdə müəllim müəyyən nəzarətə malikdir, lakin tələbələr araşdırma prosesində daha fəal rol oynamağa başlayırlar[15, s. 19]. Bu model tələbələrin ilkin tədqiqat bacarıqlarını formalaşdırmaq üçün məqsədəuyğundur.

3. ***Yönləndirilmiş sorğu (Guided Inquiry)***

Bu mərhələdə müəllimin müdaxiləsi xeyli azalır. Müəllim ümumi mövzu və ya əsas sualları təqdim edə bilər, lakin tədqiqat üçün istifadə olunacaq resursları tələbələr özləri seçirlər. Onlar öyrəndiklərini təqdim etmə formalarını da sərbəst şəkildə müəyyənləşdirirlər: təqdimatlar, rəqəmsal portfellər, layihələr, blog yazıları və s. Bu yanaşma tələbələrə daha çox sərbəstlik və yaradıcılıq imkanı verir. Xarici dilin tədrisində bu mərhələ tələbələrin fərdi maraqlarına əsaslanan öyrənməni təşviq edir.

4. ***Azad sorğu (Free Inquiry)***

Azad sorğu tələbənin tam müstəqil şəkildə tədqiqat apardığı mərhələdir. Tələbələr öz maraqlarına uyğun olaraq mövzu, əsas suallar, resurslar və təqdimetmə formalarını seçirlər. Müəllimin rolu burada əsasən müşahidəçi və bələdçi funksiyası daşımaqdan ibarətdir. Bu model tələbələrə "araşdırmaçı" kimi davranmağa imkan verir [2]. Lakin bu tip sorğuya keçid yalnız tələbələr lazımi bacarıqları (məsələn, sual formalaşdırma, resurs seçimi, öyrənməni sənədləşdirmə və refleksiya etmə) qazandıqdan sonra məqsədəuyğun hesab olunur [16]. Əks halda tələbələrdə təşviş və qeyri-müəyyənlik hissləri yarana bilər.

Ali məktəblərin aşağı kurslarında sorğuəsaslı dil tədrisinin tətbiqi zamanı sorğu növlərinin mərhələli şəkildə təqdim olunması tələbələrin öyrənmə prosesinə uyğunlaşmasını və bacarıqlarının ardıcıl inkişafını təmin edir. Bu metodika tələbələrin müstəqil düşünmə və araşdırma aparma bacarıqlarını formalaşdırır, xarici dili yalnız informasiyanı qəbul etmək üçün deyil, həm də bilik yaratmaq vasitəsi kimi istifadə etməyə imkan verir. Müəllimin rolu bu prosesdə dəyişkən olub, əvvəlcə istiqamətləndirici və rəhbər, daha sonra isə müşahidəçi və dəstəkçi kimi həyata keçirilir. Tədris prosesi zamanı tələbələrin təşəbbüskarlığı və müstəqil öyrənmə bacarığı əsas pedaqoji istiqamətlərdən hesab olunur. Bu metodikada yalnız müəllim deyil, eyni zamanda tələbənin də suallar formalaşdırması, bu sualların onun şəxsi maraqları və müşahidələri ilə əlaqəli olması vacibdir. Eyni zamanda, tələbələr təqdim olunan materiallar və fəaliyyətlərlə bağlı araşdırma yollarını təklif etməli, nəticələri müzakirə edərək öz fikirlərini ifadə etməlidirlər. Bu cür fəaliyyətlər təkcə tədqiqat vərdişlərini deyil, həm də dil bacarıqlarını – xüsusilə də sual formalaşdırmaq və fikir bildirmək qabiliyyətini inkişaf etdirir. Qeyd edilməlidir ki, yeni bir dilin mənimsənilməsində sualvermə bacarığı ilkin mərhələdə öyrənilən əsas komponentlərdən biridir.

Sorğu-əsaslı dil dərslərində tətbiq olunan fəaliyyətlər əsl (autentik) və açıq sonlu prob-

lemlərə əsaslanır. Belə problemlərin bir çox mümkün həlli ola bilər və tələbələr cavabları müəllimdən passiv şəkildə almaq əvəzinə, onları özləri araşdıraraq tapmalıdırlar [18, s.135]. Bu isə tədqiqat bacarıqlarının, məntiqi təfəkkürün və dil strukturlarının daha dərindən mənimsənilməsinə şərait yaradır. Tədris materiallarının müxtəlifliyi və çoxcəhətliliyi də vacib şərtdir. Aşağı kurs tələbələri üçün hazırlanmış sorğuəsaslı dil mühitində dərsliklə yanaşı ilkin mənbələrlə, orijinal audio və video materiallarla, eyni zamanda qrupdaxili qarşılıqlı fəaliyyətlərlə (peer interaction) işləmək zəruridir. Liyə görə, yaxşı seçilmiş vizual və eşidilən autentik materiallar xüsusilə zəif və orta səviyyəli tələbələrin oxu və dinləyib-anlama bacarıqlarının inkişafında mühüm rol oynayır[14, s.1236].

Nəticə olaraq, məqalədə ali məktəblərin aşağı kurslarında ingilis dilinin tədrisində sorğuəsaslı öyrənmə yanaşmasının tətbiqi geniş şəkildə nəzərdən keçirilmiş və bu metodikanın dil bacarıqlarının inkişafında səmərəliliyi vurğulanmışdır. Müxtəlif sorğu növlərinin mərhələli şəkildə tətbiqi tələbələrin müstəqil öyrənmə vərdişlərini formalaşdırmağa və onların kommunikativ kompetensiyalarını artırmağa şərait yaradır. Bu metodikanın əsas üstünlüyü ondan ibarətdir ki, o, tələbələri yalnız bilik alan deyil, eyni zamanda araşdıran, düşünən və nəticə çıxaran aktiv iştirakçılara çevirir.

Problemin aktuallığı. Müasir dövrdə ingilis dilinin effektiv öyrədilməsi ali təhsilin prioritet istiqamətlərindən biri kimi çıxış edir. Ənənəvi tədris modelləri tələbələrin müstəqil düşünmə və tətbiqetmə bacarıqlarını kifayət qədər inkişaf etdirmədiyi üçün yeni pedaqoji yanaşmalara ehtiyac duyulur. Bu baxımdan, sorğu-əsaslı öyrənmə tələbəyönlü və fəal öyrənmə mühitinin yaradılması baxımından aktuallığını qoruyur.

Problemin elmi yeniliyi. Məqalədə sorğu-əsaslı təlimin konstruktivist nəzəriyyə əsasında dil tədrisinə inteqrasiyası kontekstində yeni metodik baxışlar təklif olunur. Əvvəllər əsasən təbiət elmlərində tətbiq edilən bu yanaşmanın ali məktəblərdə xarici dil öyrədilməsində istifadəsi yeni tədqiqat istiqaməti kimi çıxış edir. Tədqiqatda sorğu növlərinin təsnifatı və onların dil bacarıqlarının inkişafına təsiri kontekstində sistemli elmi əsaslandırma təqdim olunur.

Problemin praktik əhəmiyyəti. Sorğuəsaslı təlimin tətbiqi tələbələrin müstəqil öyrənmə bacarıqlarını inkişaf etdirməklə yanaşı, onların kommunikativ kompetensiyasının formalaşmasına da şərait yaradır. Bu metodika müəllimlərin interaktiv və reflektiv tədris strategiyalarından istifadə etməsinə imkan verir. Nəticədə, ali məktəblərdə daha səmərəli, motivasiyaedici və öyrənənlərin maraqlarına uyğunlaşdırılmış dil tədrisi təmin olunur.

Ədəbiyyat

1. Arauz, P. E. Inquiry-Based Learning in an English as a Foreign Language Class: A Proposal. Revista de Lenguas Modernas). – 2014. 480 p.
2. Banchi, H., & Bell, R. The Many Levels of Inquiry. Science and Children, 46(2). – 2008. pp. 26–29
3. Barron, B. et al. Doing with Understanding: Lessons from Research on Problem- and Project-Based Learning. Phi Delta Kappan. – 1998
4. Bowen, C., & Smith, H. Curiosité: Inquiry-Based Instruction and Bilingual Learning. Journal of Curriculum and Teaching. – 2016. № 5.
5. Bybee, R. W. Guest Editorial: The BSCS 5E Instructional Model: Personal Reflections and Contemporary Implications. Science and Children. – 2014. № 51. pp. 10–13
6. Caputo, L. Using Inquiry-Based Learning to Teach Additional Languages in a High School Context. In Inquiry-Based Learning for Arts, Humanities and Social Sciences Programs: A Conceptual and Practical Resource for Educators. Emerald Publishing. – 2014
7. Case, R., & Wright, I. Critical Thinking: A Curriculum Model. The Critical Thinking Consortium. – 1997
8. Chiarotto, L. Natural Curiosity: A Resource for Teachers: Building Children's Understanding of the World through Environmental Inquiry. Ontario Institute for Studies in Education, University of Toronto. – 2011
9. Den Heyer, K. Not Learners, but Citizens: Transforming Education. Canadian Journal of Education. – 2009
10. Friesen, S., & Scott, D. Inquiry-Based Learning: A Review of the Research Literature. Galileo Educational Network. – 2013
11. Gomez, R. Learning by Teaching: Training EFL Pre-Service Teachers through Inquiry-Based Learning. Electronic Journal of Foreign Language Teaching. – 2017. № 14. pp. 21–36
12. Heritage, M. Formative Assessment: Making It Happen in the Classroom. Corwin. – 2010

13. Jaleel, S. A Study on the Metacognitive Awareness of Secondary School Students. Universal Journal of Educational Research, 4. – 2016. pp. 165–172
14. Lee, H. Y. Inquiry-Based Teaching in Second and Foreign Language Pedagogy. Journal of Language Teaching and Research. – 2014. № 5. pp. 1236–1244
15. MacKenzie, T., & Bathurst-Hunt, R. Inquiry Mindset. Elevate. – 2019
16. Murdoch, K. The Power of Inquiry. Seastar Education. – 2015
17. Parker, D. Planning for Inquiry: It's Not an Oxymoron! National Council of Teachers of English. – 2007
18. Rejeki, Sri. Approach and Methods on TEFL: Inquiry-Based Language Learning (IBLL). ENGLISH FRANCA: Academic Journal of English Language and Education. – 2017. № 1. p. 135
19. Simons, K., & Klein, J. Scaffolding in Instructional Design: A Literature Review. Educational Technology Research and Development. – 2006. pp. 203–228
20. Wiggins, G., & McTighe, J. Understanding by Design (Expanded 2nd ed.). ASCD. – 2005

Redaksiyaya daxil olub: 03.07.2025

UOT 372.881.111.1

Şəhla Nazim qızı Balacayeva,
Azərbaycan Dillər Universitetinin baş müəllimi
https: //orcid.org/ 0009-0001-4402-5467
E-mail: b.shahla1983@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(4).128-133

VİDEO MATERİALLARIN FƏRQLİ YAŞ VƏ SƏVİYYƏLƏRƏ UYĞUN İNGİLİS DİLİ TƏDRİSİNƏ İNTEQRASİYASI

Shahla Nazim Balachayeva,
senior lecturer at Azerbaijan University of Languages

INTEGRATION OF VIDEO MATERIALS INTO ENGLISH LANGUAGE TEACHING ACCORDING TO DIFFERENT AGE GROUPS AND PROFICIENCY LEVELS

Шахла Назим кызы Балачаева,
старший преподаватель Азербайджанского университета языков

ИНТЕГРАЦИЯ ВИДЕОМАТЕРИАЛОВ В ОБУЧЕНИЕ АНГЛИЙСКОМУ ЯЗЫКУ С УЧЁТОМ ВОЗРАСТНЫХ И УРОВНЕВЫХ ОСОБЕННОСТЕЙ

Xülasə. Məqalədə video materialların müxtəlif yaş və dil səviyyəsində olan şagirdlər üçün ingilis dili tədrisinə inteqrasiyasının əhəmiyyəti və metodoloji əsasları təhlil olunur. Video resursların fonetik, leksik və mədəni komponentlərin mənimsənilməsində rolu, onların seçimi və tətbiqi zamanı nəzərə alınmalı meyarlar ətraflı şəkildə izah edilir. Müasir texnoloji imkanlar və autentik videolar tədris prosesini daha dinamik və təsirli edir, şagirdlərin kommunikativ bacarıqlarının formalaşmasına şərait yaradır.
Açar sözlər: *video materiallar, audiovizual vasitələr, inteqrasiya, texniki resurslar, dilin tədrisi, inkişaf səviyyəsi*

Annotation. The article analyzes the significance and methodological foundations of integrating video materials into English language teaching for students of different ages and proficiency levels. It provides a detailed explanation of the role of video resources in the acquisition of phonetic, lexical, and cultural components, as well as the key criteria to consider when selecting and using such materials. Modern technological tools and authentic videos make the learning process more dynamic and effective, creating favorable conditions for the development of students' communicative skills.
Keywords: *video materials audiovisual tools integration technical resources language teaching proficiency level*

Аннотация. В статье анализируется значимость и методологические основы интеграции видеоматериалов в преподавание английского языка учащимся разных возрастов и уровней владения языком. Подробно рассматривается роль видеоресурсов в усвоении фонетических, лексических и культурных компонентов, а также критерии, которые необходимо учитывать при их выборе и применении. Современные технологические возможности и аутентичные видеоматериалы делают учебный процесс более динамичным и эффективным, способствуют формированию коммуникативных навыков у учащихся.
Ключевые слова*: видеоматериалы аудиовизуальные средства, интеграция, технические ресурсы, преподавание языка, уровень развития*

Müasir dövrdə ingilis dili ümumtəhsil məktəblərinin tədris proqramında aparıcı fənlərdən biri kimi çıxış edir və bu fənnin tədrisi uzunmüddətli və sistemli yanaşma tələb edir. Xarici dilin mənimsənilməsi yalnız linqvistik bacarıqlarla məhdudlaşmır, eyni zamanda xüsusi metodikanın və peşəkar pedaqoji yanaşmanın tətbiqini də zəruri edir. İngilis dilinin öyrənilmə-

si, xüsusilə də dil mühitindən kənar bir şəraitdə həyata keçirildikdə, əlavə çətinliklərlə müşayiət olunur. Bu çətinliklərdən biri də şagirdlərin təbii ünsiyyət mühiti ilə məhdud təmas imkanlarının olması və nəticə etibarilə danışıq bacarıqlarının məktəb divarları çərçivəsində məhdud inkişaf etdirilməsidir.

Bu baxımdan, dil müəlliminin əsas vəzifələrindən biri ingilis dili dərslərində müxtəlif ünsiyyət situasiyalarını süni və ya real formada modelləşdirməkdən ibarətdir. Şagirdlərin dili daha effektiv şəkildə mənimsəməsi üçün kommunikativ situasiyaların yaradılması və bu prosesdə müxtəlif metod və texnologiyalardan istifadə edilməlidir. Bununla yanaşı, şagirdlərin yalnız dili deyil, həm də həmin dilin daşıyıcılarının mədəniyyəti ilə tanış olmaları və mədəni dəyərlərə inteqrasiya olunmaları xüsusi əhəmiyyət daşıyır.

Bu məqsədlərin reallaşdırılmasında autentik tədris vasitələrinin, xüsusilə də video materialların istifadəsi mühüm rol oynayır. Video məzmunlu materiallar – sənədli və bədii filmlər, animasiyalar, müsahibələr, televiziya proqramları və digər vizual-audio vasitələr – tədris prosesində həm mədəni kontekstə inteqrasiyanı təmin edir, həm də şagirdlərin nitq fəaliyyətinə marağını artırır. Belə materiallar vasitəsilə şagirdlər öyrəndikləri dilin daşıyıcılarının həyat tərzi, düşüncə tərzi və mədəni normaları ilə bilavasitə tanış olurlar ki, bu da dilin funksional tətbiqini asanlaşdırır.

Hazırda texnoloji vasitələrin tədris prosesinə inteqrasiyası geniş yayılmış bir tendensiyadır. Müəllimlərə müxtəlif texniki resurslar, o cümlədən videomaterialların istifadəsini təmin edən avadanlıqlar təqdim olunur. Bu texnoloji imkanlar şagirdlərə eyni anda həm eşitmə (auditive), həm də vizual qavrayış imkanlarını təklif etməklə, təlim prosesini daha canlı və interaktiv formaya gətirir. Belə yanaşma ənənəvi dil dərsinin strukturuna dinamika və maraq qatır, təlimin effektivliyini artırır.

İngilis dilinin tədrisində videomateriallardan istifadənin effektivliyi onların mərhələli və məqsədyönlü şəkildə tətbiqi ilə sıx bağlıdır. Müəllimlər videomaterialın nə zaman və hansı miqdarda təqdim olunacağını düzgün müəyyən etməlidirlər. Xarici metodistlərin fikrincə, videomaterialların tədris prosesində bir və ya iki həftədən bir istifadəsi məqsədəuyğundur. Ən yaxşı nəticə verən materiallar isə 30 saniyədən 10 dəqiqəyə qədər davam edən qısa videoçarxlardır. Belə videoların, xüsusilə 4-5 dəqiqəlik fraqmentlərin bir dərs saatı boyu şagirdlərin aktivliyini təmin etdiyi sübut olunub [6, s.61].

Tədqiqatçılar qeyd edirlər ki, 3 dəqiqədən artıq davam edən videomətnlər qısa müddətli yaddaşı yükləyərək informasiyanın qavranmasını çətinləşdirə bilər. Bu, videolardakı informasiya sıxlığı və vizual zənginliklə izah olunur. Buna görə də, intensiv öyrənmə üçün qısa fraqmentlər, ekstensiv öyrənmə üçün isə daha uzun materiallar tövsiyə olunur [6, s.61]. Digər tərəfdən, daha uzun – 20-60 dəqiqəlik videoçarxlar və ya bədii filmlər orta və yüksək səviyyəli qruplarda auditoriya şəraitində istifadə oluna bilər. Belə halda video materialın bədii bütövlüyünün qorunması vacib sayılır [10, s.67]. M.V.Baranova videomaterialın ssenarisinin dərsin mövzusu ilə uzlaşdırılmasının zəruri olduğunu vurğulayır. Bundan əlavə, təqdim olunan video material təlim məqsədlərinə uyğun sual-cavablar, müzakirələr, leksik və qrammatik tapşırıqlarla müşayiət olunmalıdır [4, s.130]. Videomaterial seçimi zamanı beynəlxalq tədqiqatçılar bir sıra mühüm meyarlar təklif edirlər. Məsələn, J. Vang qeyd edir ki, müəllimlər Hollivud filmləri və seriallarını seçərkən onların məzmununa həssas yanaşmalı, zorakılıq və əxlaqsız səhnələrdən çəkinməlidirlər. Əvəzində, gündəlik həyatı, tarixi hadisələri və mədəni dəyərləri əks etdirən videolar üstünlük təşkil etməlidir. Realist süjetlər, aydın dialoqlar və mənəvi mesajlar isə şagirdlərin marağını artırır [14, s.24].

Videomaterialların semantik və dil baxımından şagirdlər üçün anlaşılmaz olması mənfi təsir göstərə bilər. Nəticədə, müəllimlər video mətnin dil səviyyəsini (tələffüz, intonasiya, autentiklik) və şagirdlərin səviyyəsini nəzərə almalıdırlar [9]. Əgər videoda qeyri-standart, xüsusən də slenq ifadələr varsa, müəllimlər bu sözlərin istifadəsini düzgün izah etmədikdə, şagirdlər yanlış təsəvvürlər qazanaraq onları ünsiyyətdə səhv şəkildə tətbiq edə bilərlər [8, s.99].

Tədqiqatçılar vurğulayırlar ki, materialın dil səviyyəsi şagirdlərin bilik səviyyəsinə uyğun olmalıdır. Əks halda, maraq azalacaq və motivasiya zəifləyəcək. Başlanğıc mərhələdə və çətinlik hallarında subtitrlərdən istifadə tövsiyə olunur.

R. Berk videomaterial seçimində üç əsas meyar irəli sürür:

a) Şagirdlərin xüsusiyyətləri (yaş, dil bacarığı, sosial-demoqrafik faktorlar);

b) Videonun potensial təhqiramiz məzmunu (irqi, etnik, gender ayrıseçkiliyi, zorakılıq);

c) Videonun strukturu (qısa, məqsədyönlü, kontekstə uyğun səhnələr, məhdud sayda personaj) [11, s.15-18].

Təhqiredici məzmun şagirdin emosional vəziyyətinə mənfi təsir göstərərək tədris prosesini çətinləşdirə bilər. Buna görə də, müəllimlər belə videolardan imtina etməli və ya şagirdləri əvvəlcədən məlumatlandırmalıdırlar [2, s.7].

R. Berkin təklif etdiyi struktur meyarlarına əsasən, video:

- mümkün qədər qısa olmalı (maksimum 3 dəqiqə);
- gündəlik dil nümunələri ilə zəngin olmalı;
- hərəkət və vizual işarələr təlim məqsədinə xidmət etməli;
- personaj sayı az olmalıdır [11, s.18].

Azərbaycanlı metodistlər də videomaterialların seçimində oxşar meyarlara əsaslanırlar. A.V.Bondareva aşağıdakıları vurğulayır:

- video material yaşa uyğun olmalıdır;
- dərs planı dəqiq və sistemli qurulmalıdır;
- şagirdlərə videoaçıq və rahat şəkildə təqdim olunmalıdır;
- əsas məqamlara diqqət yetirilməlidir;
- izahlar düşünülmüş olmalı;
- video dərsin mövzusu ilə tam uyğun olmalıdır;
- şagirdlər maraqlı mövzu seçiminə cəlb edilməlidir [5, s.523].

Digər tədqiqatçılar videomaterialların seçimi zamanı bir sıra əlavə prinsipləri də zəruri hesab edirlər. Belə ki, istifadə olunan videoşəkilli materiallar şagirdlərin ümumi inkişaf səviyyəsinə uyğun olmalı, həmçinin yeni informasiya və gözlənilməz elementlər ehtiva etməlidir. Videoda yer alan situasiyalar şagirdlərin kommunikativ bacarıqlarının inkişafına xidmət etməli, onun dərs strukturuna inteqrasiyası isə əvvəlcədən dəqiq planlaşdırılmalıdır. Eyni zamanda, təqdim olunan material leksik və qrammatik baxımdan şagirdlər üçün çətin olmamalı, faydalı izafilik (pauzalar, təkrarlar, mimika, jestlər və s.) kimi elementlərlə zəngin olmalıdır. Danışıq tempi optimal seçilməli, video aktual mövzularda olmalı, həm informativ, həm də bədii dəyəri yüksək olmalıdır. Videomaterialda müəyyən problematik məqamların olması, leksik cəhətdən zənginlik, janr müxtəlifliyi və etik-mənəvi prinsiplərə uyğunluq da əsas meyarlar sırasındadır [3, s.55].

Video materialların tətbiqi eyni zamanda şagirdlərin ümumi dünyagörüşünün genişlənməsinə, leksik ehtiyatının zənginləşməsinə və ölkəşünaslıq biliklərinin artmasına xidmət edir. Filmlərin izlənilməsi prosesində isə yaddaş, diqqət və müşahidə bacarığı kimi psixoloji proseslər stimullaşdırılır. Bundan əlavə, dərsdə filmin birgə izlənilməsi və müzakirəsi kollektiv fəaliyyət hissi yaratmaqla, dərsdə passiv iştirak edən şagirdlərin də fəallaşmasına səbəb olur və onların tədrisə marağını artırır.

Audiovizual vasitələr sırasında autentik videomateriallar (bədii filmlər, sənədli və cizgi filmləri, xəbərlər, müsahibələr, tok-şoular, videobloqlar) xüsusi yer tutur. Bu materiallar real həyat situasiyalarını əks etdirir, emosional və məzmun baxımından zəngindir, lakin əsasən hazırlıqlı şagirdlər üçün nəzərdə tutulmuşdur və dərslik və tapşırıqların olmaması onların əsas çatışmazlığıdır. Autentik videolar şagirdlərin danışıq və tələffüz bacarıqlarını inkişaf etdirmək, canlı və ifadəli nitq qurmaq baxımından faydalıdır. Digər bir növ isə xüsusi olaraq dil öyrənmək məqsədilə hazırlanmış tədris videolarıdır. Bu materiallar müəyyən leksik və qrammatik məqsədlərə yönəlib, onlara uyğun dərslik və tapşırıqlarla təmin olunmuşdur. Lakin bu tip videolarda real situasiyaların və təbii danışığın əksikliyi, həmçinin məzmunun tez köhnəlməsi müşahidə olunur [13, s.5].

YouTube platformasında təqdim olunan "Maple Leaf Learning", "Elf Learning", "Dream English Kids" kimi kanallardakı tədris videoları, şagirdlərin söz ehtiyatını artırmaq və nitq vərdişlərini inkişaf etdirmək üçün geniş imkan yaradır. Bloglar isə şagirdlərə fərdi fikirlərini ifadə edərək yeni leksik vahidləri aktiv şəkildə istifadə etmək imkanı verir. "TedTalks", BBC sənədli filmləri, "Modern Family", "Friends", "Young Sheldon" kimi seriallardan fraqmentlər, eləcə də "London Central", "Extra" kimi tədris serialları, Britaniya və Amerika xəbər və tokşouları (məsələn, "The Ellen DeGeneres Show", "The Tonight Show", "Travel Man") dərslərdə istifadə üçün əlverişli sayılır. Bundan əlavə, britishcouncil.org, engvid.com və digər resurslardakı materiallar müxtəlif mövzularda istifadəyə yararlıdır [12, s.97].

Videomaterialların seçimi aşağıdakı meyarlara əsaslanmalıdır: mövzunun tədris məqsədinə uyğunluğu, ölkəşünaslıq və milli-mədəni elementlərin əks olunması, tədris olunan mövzu üzrə yeni və gözlənilməz informasiya təqdim etməsi, şagirdlərin bilik və hazırlıq səviyyəsinin nəzərə alınması [7, s.67].Video materialların pedaqoji prosesə daxil edilməsi yalnız öyrənilən dilin effektiv mənimsənilməsini deyil, həm də şagirdin şəxsiyyət kimi inkişafını, onun emosional-intellektual bacarıqlarının formalaşmasını və mədəni üfüqlərinin genişlənməsini təmin edən çoxşaxəli və inteqrasiyalı bir yanaşmadır. Buna görə də ingilis dili müəllimlərinin müasir texnologiyalardan və autentik video resurslardan məqsədyönlü şəkildə istifadə etməsi müasir tədris strategiyalarının ayrılmaz tərkib hissəsi kimi dəyərləndirilməlidir.

Müasir pedaqoji prosesdə autentik video materialların istifadəsi yalnız biliklərin təqdim olunması baxımından deyil, həm də şagirdlərin emosional-intellektual inkişafı və dil öyrənməyə motivasiyasının gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Filmin məzmununu dərk etmək üçün təkcə passiv izləmə deyil, eyni zamanda şagirdlərin əqli və emosional səviyyədə aktiv iştirakı zəruridir. Bu baxımdan, eyni vaxtda iki əsas qavrama kanalının – vizual və eşitmə yollarının istifadəsi informasiyanın daha effektiv yadda saxlanılmasına və həm dil, həm də mədəniyyətlə bağlı biliklərin dərin mənimsənilməsinə şərait yaradır.

Video materialların təqdim etdiyi emosional fon, vizual təsvirlərin rəngarəngliyi, səslərin uyğunluğu, musiqi müşayiəti və tanış obrazlar öyrənənin diqqətini cəlb edərək onların dərsə marağını artırır. Bu elementlər öyrənəni ekran qarşısında baş verənlərə cəlb etməklə təbii dil mühitinə yaxın şəraitin formalaşdırılmasına səbəb olur. Təbii dil mühiti dedikdə, danışıq və qeyri-danışıq amillərinin vəhdəti başa düşülür ki, bu da dilin daşıyıcılarının gündəlik həyatını, tarixini, mədəniyyətini və adət-ənənələrini özündə əks etdirir [1, s. 220-221]. Əlbəttə ki, audio və çap materiallarının da informativ və tədris baxımından əhəmiyyəti böyükdür. Lakin videomətnlər bu vasitələrdən fərqli olaraq danışıq prosesinin kompleks modelini təqdim edir. Buraya nəinki semantik məzmun, həm də hadisələrin baş verdiyi məkan, iştirakçıların zahiri görünüşü, jest və mimikaları, danışıq tempinə və emosional vəziyyətə bağlı olaraq dəyişən ünsiyyət xüsusiyyətləri daxildir. Bu aspektlər şəxslərin yaşı, cinsi, psixoloji və ünsiyyət üslubu ilə birbaşa əlaqəlidir [2, s. 13].

Beləliklə, dərslərdə videoçarx və ya bədii film nümayişi şagirdlərin dərsə münasibətini dəyişir, diqqət və yaddaş kimi psixi prosesləri stimullaşdırır və onların ümumi bilik səviyyəsinin yüksəlməsinə səbəb olur. Bu zaman müəllimlər həm fərdi, həm də qrup formasında təlim fəaliyyətini təşkil edə bilirlər ki, bu da təlimin sosial xarakterini gücləndirir.Dərslərdə təqdim olunan videomateriallar müxtəlif janr və formatlarda ola bilər – reklam çarxlarından tutmuş tammetrajlı filmlərə qədər. Lakin video material seçimi zamanı mütləq şəkildə şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmalıdır. Məsələn, ibtidai siniflərdə animasiya filmlərinin göstərilməsi daha məqsədəuyğun olduğu halda, yuxarı sinif şagirdləri üçün müasir bədii filmlərin istifadəsi daha effektiv ola bilər.

Autentik video materialların əsas üstünlüklərindən biri onların dil və ünsiyyət nümunələrinin geniş spektrini təqdim etməsidir. Bu materiallar regional dialektləri, danışıq leksikasını, frazeoloji vahidləri, ünsiyyət klişelərini və yumoru özündə əks etdirir. Bu nümunələr şagirdə həmin vahidlərin real ünsiyyət kontekstində necə istifadə edildiyini müşahidə etmək imkanı yaradır ki, bu da dilin təbii şəkildə mənimsənilməsinə kömək edir. Lakin nəzərə almaq lazımdır ki, bu cür materiallar əsasən yaxşı dil bazasına malik olan öyrənənlər üçün nəzərdə tutulub. Yeni başlayanlar üçün bu filmlər müəyyən çətinliklər yarada bilər: sürətli danışıq tempi, dialekt xüsusiyyətləri, fon səslərinin mövcudluğu və fərdi danışıq tərzləri dilin qavranmasını çətinləşdirə bilər.

Video materiallar yalnız məlumatverici deyil, həm də mədəni inteqrasiya vasitəsi kimi çıxış edir. Tədqiqatlar göstərir ki, vizual və eşitmə sintezi nəticəsində, yəni eyni zamanda həm səslərin, həm də görüntülərin qəbul edilməsi prosesində dilin eşitmə qabiliyyəti və nitq bacarıqları daha effektiv inkişaf edir. Şagirdlər video izlədikdən sonra öz fikirlərini ifadə etməyə, mövzuya münasibət bildirməyə və arqumentlər gətirməyə təşviq olunurlar. Bu isə onların şifahi nitq fəaliyyətini aktivləşdirir və real kommunikativ mühitə inteqrasiyanı asanlaşdırır. Təcrübə sübut edir ki, insan gördüyü və eşitdiyi informa-

siyanı yalnız eşitdiyindən beş dəfə artıq yadda saxlayır [4]. Bu isə video materialların tədrisdə tətbiqini metodoloji cəhətdən əsaslandırır və onların dil öyrənmədə effektivliyini bir daha təsdiqləyir.

Hazırda ingilisdilli filmlər, seriallar və videobloqlar gənc nəsil arasında ən populyar mənbələrdəndir. Buna görə də, onları xarici dil lüğətinin tədrisində istifadə etmək məqsədəuyğundur. Bu tip videomaterialların nümayişi şagirdlərə müəyyən ifadə və sözlərin konkret kontekstlərdə necə və nə zaman işlədilməli olduğunu anlamağa imkan yaradır. Belə materiallar həmçinin sinonimlərin yerli-yerində istifadəsini və düzgün leksik seçim etməyi də öyrədir.

Video vasitələrinin tətbiqi keçilən materialın daha yaxşı yadda saxlanmasına şərait yaradır. Bu, onların emosional təsiri və dərs prosesinə rəngarənglik qatması ilə bağlıdır. Videolar fonetik, qrammatik və leksik materialın mənimsənilməsinə yardım edir. Həmçinin real həyatda baş verə biləcək situasiya və dialoqları nümayiş etdirdiyindən, şagirdlər söz və ifadələrin praktik istifadəsini aydın şəkildə qavrayırlar. Videomateriallar həm yeni, həm də öncədən öyrənilmiş leksikanın kontekstdə təqdim edilməsi baxımından faydalıdır. Onlar şagirdlərin şifahi nitq bacarıqlarını inkişaf etdirməklə yanaşı, monoloji və dialoji çıxışlarının formalaşmasında dayaq rolunu oynayır.

Tədrisdə istifadə olunan videomateriallar mövzuya uyğun olmalı və ölkəşünaslıq baxımından zəngin informasiya təqdim etməlidir. Videolar milli mədəniyyətin xüsusiyyətlərini əks etdirməli, öyrənilən mövzu üzrə yeni və aktual məlumatları təqdim etməlidir. Materialın seçimi zamanı şagirdlərin mövcud biliyi, təcrübəsi və dil səviyyəsi nəzərə alınmalıdır.

Müxtəlif mövzular üzrə uyğun videomaterialları YouTube platformasından tapmaq mümkündür. Məsələn, "TedTalks" silsiləsindən olan məruzələr müasir cəmiyyətin müxtəlif problemlərinə dair nüfuzlu şəxslərin baxışlarını təqdim edir. BBC-nin sənədli filmləri planetimiz və müxtəlif xalqlar haqqında maraqlı məlumatlar təqdim edir. Geniş və aktual dialoqlarla zəngin olan, yumor və süjet baxımından cəlbedici "Young Sheldon" kimi populyar seriallardan fraqmentlər şagirdlərin diqqətini cəlb edə bilər. YouTube-dan əlavə olaraq, Britaniya və ABŞ telekanallarının xəbər proqramları, axşam şoularından fraqmentlər, eləcə də xüsusi tədris serialları və səyahət mövzusunda verilişlər də dərslərdə uğurla istifadə oluna bilər.

Nəticə etibarilə, videomaterialların ingilis dili dərslərində istifadəsi şagirdlərin lüğət ehtiyatını zənginləşdirməyə, fonetik və qrammatik biliklərini möhkəmləndirməyə əhəmiyyətli dərəcədə kömək edir. Belə materiallar real ünsiyyət situasiyalarını əks etdirdiyindən, şagirdlərin danışıq bacarıqlarının təbii və funksional şəkildə inkişafına şərait yaradır. Eyni zamanda, videoların emosional və mədəni zənginliyi dərslərin motivasiyaedici və maraqlı olmasına xidmət edir.

Problemin aktuallığı. Müasir dövrdə ingilis dili beynəlxalq ünsiyyət vasitəsi kimi əhəmiyyət kəsb etdiyindən, onun effektiv tədrisi aktual məsələlərdən birinə çevrilmişdir. Ənənəvi üsullarla dil öyrənmək şagirdlərin marağını azaltdığı halda, video materiallar dərsə motivasiya və dinamizm qatır. Şagirdlərin dil mühitindən kənarda olmaları, onların autentik ünsiyyət imkanlarının məhdudluğunu artırır və bu, problemin aktuallığını daha da gücləndirir.

Problemin elmi yeniliyi. Məqalədə müxtəlif yaş və səviyyələr üçün video materialların inteqrasiyasının metodoloji əsasları sistemli şəkildə təqdim olunur. Videonun seçimi və tətbiqi zamanı nəzərə alınmalı konkret elmi meyarların müəyyənləşdirilməsi məsələnin elmi yeniliyini təşkil edir. Əldə olunan nəticələr dil tədrisində audiovizual vasitələrin istifadəsinin nəzəri modellərinin zənginləşdirilməsinə imkan yaradır.

Problemin praktik əhəmiyyəti. Tədrisdə video materiallardan məqsədyönlü istifadə şagirdlərin dinləmə, danışma və ümumi nitq bacarıqlarını effektiv şəkildə inkişaf etdirməyə imkan verir. Müxtəlif formatlı videoresurslar sayəsində dərslər daha maraqlı və interaktiv keçirilir. Bu, müəllimlərin resurs bazasını genişləndirərək dərs prosesinin keyfiyyətini artırır və tədrisin nəticəliliyinə müsbət təsir göstərir.

Ədəbiyyat

1. Азимов Э.Г. Новый словарь методических терминов и понятий (теория и практика обучения языкам): учебное пособие. – Москва: Икар, 2015. – 448 с.
2. Ариас А.М. Художественный фильм как средство формирования лингвосоциокультурной компетенции на занятиях по иностранному языку в вузе // Ученые записки университета имени П.Ф. Лесгафта. – 2016. – № 8. –С. 7-13.

3. Бабинская П.К. Практический курс методики преподавания иностранных языков: английский, немецкий, французский: учеб. пособие. – Минск: Тетра Системс, 2015. – 288 с.
4. Баранова М.В. Совершенствование грамматической стороны диалогической речи учеников старших классов и студентов в процессе работы над видеофильмом (Немецкий язык как вторая специальность): дис. канд. пед. наук. – СПб, 2016. – 506 с.
5. Бондарева А.В. Использование видеоматериалов на уроках английского языка с целью активизации грамматических навыков // Молодой ученый. – 2016. – № 14. – С. 521-524.
6. Леонтьева Т.П. Опыт и перспективы применения видео в обучении иностранным языкам // Нетрадиционные методы обучения иностранным языкам в вузе: материалы респ. конф. – 2015. – № 5. – С. 61-74.
7. Носонович Е.В. Настольная книга преподавателя иностранного языка: учебное пособие. – Минск: Изд-во Выш. шк., 2004. – 522 с.
8. Рогова Г.В. Методика обучения иностранным языкам в средней школе: учебное пособие. – М.: Просвещение, 1991. – 287 с.
9. Соловьева И.В. Использование онлайн-ресурсов на уроках английского языка [Электронный ресурс] // Мир лингвистики и коммуникации: электрон.научн. журн. 2018. № 4. URL: http://www.macmillan.ru/upload/ Catalogue/comment/Gateway-online-St-P.pdf (дата обращения: 10.05.2020).
10. Щукин А.Н. Обучение иностранным языкам: Теория и практика:учебное пособие. – М.: Филоматис, 2006. – 480 с
11. Berk R.A. (Eds.). Multimedia teaching with video clips: TV, movies,YouTube, and mtvU in the college classroom // R.A. Berk. – International Journal of Technology in Teaching and Learning. – 2009. – Vol.5(1). – P. 1-21
12. Gilmore A. Authentic materials and authenticity in foreign language learning // Language Teaching. – 2007. – Vol. 40(2). – p. 97-118.
13. Talaván N. Learning vocabulary through authentic video and subtitles / N.Talaván // “TESO -SPAIN” New letter. – 2007. – P. 5-8.
14. Wang Zh. An Analysis on the Use of Video Materials in College English Teaching in China / Zh. Wang // International Journal of English Language Teaching. – 2015. Vol. 2(1). – p. 23-28.

Redaksiyaya daxil olub: 03.07.2025

UOT 372.881.111.1

Türkan Etibar qızı Əliyeva,
Azərbaycan Dillər Universitetinin müəllimi
https://orcid id: 0009-0004-2176-4365
E-mail: Aliyevaturkan11@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(4).134-139

ÇOXDİLLİLİYİN FORMALAŞMASINDA İNGİLİS DİLİNİN TƏDRİS METODLARININ SƏMƏRƏLİLİYİ

Türkan Etibar Aliyeva,
lecturer at Azerbaijan University of Languages

THE EFFECTIVENESS OF ENGLISH LANGUAGE TEACHING METHODS IN THE FORMATION OF MULTILINGUALISM

Тюркан Этрибар кызы Алиева,
преподаватель Азербайджанского университета языков

ЭФФЕКТИВНОСТЬ МЕТОДОВ ПРЕПОДАВАНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА В ФОРМИРОВАНИИ МНОГОЯЗЫЧИЯ

Xülasə. Bu məqalədə müasir çoxdilli və mədəni müxtəlif siniflərdə ingilis dili tədrisinin səmərəliliyi üçün ənənəvi metodların kifayət etmədiyi, metodoloji çeviklik, pedaqoji empatiya və mədəniyyətlərarası kompetensiyanın vacibliyi vurğulanır. Fərqləndirilmiş tədris, kommunikativ yanaşma, texnologiyanın inteqrasiyası və "scaffolding" strategiyalarının sinerjisi uğurlu nəticələrin əldə olunmasına şərait yaradır. Nəticə olaraq, müəllimlərin adaptiv və inklüziv yanaşmalara əsaslanan hazırlığı çoxdilli siniflərdə tədrisin keyfiyyətini müəyyən edən əsas amildir.
Açar sözlər: *çoxdillilik, fərqləndirilmiş tədris, pilləli öyrənmə, mədəniyyətlərarası kommunikasiya, texnologiya əsaslı tədris, çoxdilli siniflərdə metodoloji yanaşmala*

Abstract. This article emphasizes that traditional methods alone are insufficient for effective English language teaching in modern multilingual and culturally diverse classrooms. The synergy of differentiated instruction, communicative approaches, technology integration, and scaffolding strategies creates favorable conditions for successful outcomes. As a result, teachers' preparation based on adaptive and inclusive approaches is identified as a key factor in ensuring the quality of instruction in multilingual settings.
Keywords: *multilingualism, differentiated instruction, scaffolding, intercultural communication, technology-based teaching, methodological approaches in multilingual classrooms*

Аннотация. В данной статье подчёркивается, что традиционные методы преподавания недостаточны для эффективного обучения английскому языку в современных многоязычных и культурно разнообразных классах. Успешные результаты достигаются за счёт синергии дифференцированного обучения, коммуникативного подхода, интеграции технологий и стратегий «scaffolding» (поэтапного обучения). В результате подготовка учителей на основе адаптивных и инклюзивных подходов рассматривается как ключевой фактор повышения качества преподавания в многоязычной среде.
Ключевые слова*: многоязычие, дифференцированное обучение, поэтапное обучение (scaffolding), межкультурная коммуникация, обучение с использованием технологий, методологические подходы в многоязычных классах*

Müasir dövrdə qloballaşmanın və miqrasiyanın təsiri ilə təhsil mühitində çoxdillilik fenomeni getdikcə aktuallaşır. Xüsusilə də ingilis dilinin beynəlxalq kommunikasiya vasitəsi kimi qəbul olunması, bu dili öyrənən öyrəncilərin dil və mədəni müxtəlifliyini artırmışdır. Belə bir kontekstdə ingilis dilinin tədrisi çoxdilli siniflərdə yeni metodoloji yanaşmaların tətbiqini zəruri

edir. Bu tədris mühitlərində dil öyrənənlər fərqli ana dillərə və mədəniyyətlərə mənsub olduqlarından, ənənəvi tədris modelləri əksər hallarda yetərli olmur. Nəticə etibarilə, müəllimlər çoxdilli siniflərdə uğurlu dil öyrənməni təmin etmək üçün innovativ və tələbəyönlü strategiyalar tətbiq etməlidirlər.

Ədəbiyyatda bu istiqamətdə aparılan araşdırmalar göstərir ki, fərqləndirilmiş tədris (Tomlinson, 2014), kommunikativ dil tədrisi (Littlewood, 2004), kod dəyişdirmə strategiyaları (Creese & Blackledge, 2010), texnoloji vasitələrin istifadəsi (Stockwell, 2012), mədəniyyətlərarası yanaşmalar (Gay, 2010) və əməkdaşlığa əsaslanan öyrənmə metodları (Johnson & Johnson, 1999) çoxdilli siniflərdə ingilis dili tədrisinin səmərəliliyini artırmaqda mühüm rol oynayır [12, 7, 1, 11, 3]. Kod dəyişdirmə (ing. code-switching) çoxdilli fərdlərin və ya dil öyrənənlərin kommunikasiya zamanı iki və ya daha çox dili bir-biri ilə növbəli şəkildə istifadəsi fenomenidir. Bu strategiya sinif kontekstində xüsusilə çoxdilli və ya ikidilli tədris mühitlərində didaktik məqsədlərlə istifadə olunduqda, həm dilin öyrənilməsinə, həm də məzmunun mənimsənilməsinə əhəmiyyətli dərəcədə dəstək olur. Creese və Blackledge (2010) kod dəyişdirməni yalnız bir ünsiyyət vasitəsi kimi deyil, həm də mədəni, sosial və pedaqoji bir strategiya kimi dəyərləndirirlər. Onların tədqiqatlarında göstərilir ki, kod dəyişdirmə müəllim və şagird arasında anlamanın dəqiqləşdirilməsi, məzmunun aydınlaşdırılması və şəxsiyyətin təsdiqi məqsədilə istifadə olunur [1].

Kod dəyişdirmə strategiyası xüsusilə dil səviyyələri fərqli olan şagirdlərin tədris prosesinə bərabər şəkildə qoşulmasını təmin etmək, metaforik və terminoloji çətinlikləri aradan qaldırmaq, təlimə marağı artırmaq və emosional rahatlıq yaratmaq məqsədilə səmərəli vasitə kimi çıxış edir. Bu yanaşma anadili və öyrənilən dil arasında müvəqqəti körpü rolunu oynayaraq, şagirdin akademik dilə mərhələli və məqsədyönlü şəkildə inteqrasiyasına şərait yaradır. Fərqləndirilmiş tədris öyrəncilərin fərdi ehtiyaclarına və dil səviyyələrinə uyğun tədris materiallarının hazırlanmasını nəzərdə tutur. Kommunikativ dil tədrisi dil öyrənənləri dilin gündəlik və real həyat kontekstlərində istifadəsinə təşviq edərək praktiki dil bacarıqlarını inkişaf etdirir. Kod dəyişdirmə isə anadildən dəstəkləyici vasitə kimi istifadə edilərək anlamanı gücləndirir və mərhələli şəkildə tam dil immersiyasına keçidi asanlaşdırır.

Bununla yanaşı, rəqəmsal texnologiyaların tədris prosesinə inteqrasiyası fərdiləşdirilmiş və interaktiv öyrənməni təşviq edir. Mədəniyyətlərarası pedaqogika isə tələbələrin mədəni kimliyinə hörmətlə yanaşaraq inklüziv və motivasiyaedici tədris mühiti formalaşdırır. Eyni zamanda, qrup işi, bərabərhüquqlu öyrənmə və sinif daxili əməkdaşlıq kimi strategiyalar tələbələr arasında sosial qarşılıqlı əlaqəni gücləndirərək dil bacarıqlarının formalaşmasına dəstək olur. Tədris prosesində psixoloji təhlükəsizlik və emosional dəstək mühüm əhəmiyyət daşıyır; bu cür mühitlər şagirdlərin özünüifadə bacarıqlarını artırmaqla yanaşı, öyrənməyə qarşı müsbət münasibət yaradır.

Qloballaşmanın sürətlənməsi və transsərhəd mobilliyin artması nəticəsində dünyada dil müxtəlifliyi ilə xarakterizə olunan təhsil mühitlərinin sayı sürətlə artır. Bu proses təhsil sisteminə birbaşa təsir göstərərək, fərqli ana dillərə mənsub olan öyrəncilərin tədris dili həmin ölkənin rəsmi dili olan məktəblərdə təhsil almasını zəruri edir. Belə tədris mühitlərində effektiv ingilis dili tədrisinin əhəmiyyəti daha da aktuallaşır, çünki bu, həm şagirdlərin akademik uğuru, həm də onların sosial inteqrasiyası baxımından vacib amildir [4, s. 62].

Dil biliklərinin artırılması yalnız fərdi inkişaf üçün deyil, eyni zamanda etniklərarası dialoqun möhkəmləndirilməsi, qarşılıqlı anlaşmanın təşviqi, sosial-iqtisadi sabitliyin təmin olunması və savadlılıq səviyyəsinin yüksəldilməsi baxımından da xüsusi əhəmiyyət daşıyır. Bu səbəbdən, interkultural kommunikasiya üçün innovativ strategiyaların inkişaf etdirilməsi və çoxdilli siniflərdə tətbiqi günümüzdə zəruri bir tələbə çevrilmişdir. Məktəb auditoriyalarında müşahidə olunan mədəni və dil müxtəlifliyi müəllimlərdən fərqli kommunikasiya strategiyalarından istifadə etməyi və bütün şagirdlərin öyrənmə ehtiyaclarını qarşılamağı tələb edir. Etnik və dil müxtəlifliyi olan siniflərdə effektiv ünsiyyət və qarşılıqlı anlaşma mühitinin formalaşdırılması üçün bütün pedaqoji vasitələrdən istifadə olunması vacibdir.

Tədqiqatlar göstərir ki, tədris dili üzrə kifayət qədər anlayışa malik olmayan şagirdlərin akademik nailiyyətləri risk altında olur [8]. Bu isə o deməkdir ki, tədris dili kimi ingilis dilinin

istifadə olunduğu siniflərdə şagirdlərin həmin dildə məktəb tapşırıqlarını mənimsəməsi və tətbiq etməsi bu sahədə iştirak edən ölkələrin qarşısında duran əsas vəzifələrdən biridir [15,]. Təəssüf ki, müəllimlərin çoxdilli və mədəni müxtəlifliklə xarakterizə olunan siniflərdə effektiv ünsiyyət qurmaq bacarığı hələ də pedaqoji fəaliyyətin adi və ümumi bir tərkib hissəsi kimi qiymətləndirilməkdə çətinlik çəkir.

Sosioloji və antropoloji baxımdan şəhərlərdə əhali sıxlığının artması, yaşayış və məskunlaşma imkanları, iş yerlərinin mövcudluğu, biznes və əyləncə sektorlarının inkişafı kimi cazibə faktorları ilə əlaqələndirilir. Bu isə çoxdilli təhsil mühitlərinin yaranmasının obyektiv və sosial əsaslarının mövcud olduğunu göstərir [8, 9, 15].

İngilis dili bu gün beynəlxalq ünsiyyət vasitəsi kimi qəbul olunur və bir çox ölkələrdə ikinci və ya xarici dil kimi öyrədilir. Onun qlobal əhəmiyyəti təkcə kommunikativ bacarıqları artırmaqla məhdudlaşmır, həm də fərdlərə təhsil, məşğulluq və sosial inteqrasiya sahələrində geniş imkanlar təqdim edir [6, 2, 15]. Belə bir kontekstdə, çoxdilli siniflərdə ingilis dilinin tədrisi, həm çətinliklər, həm də tədris baxımından unikal imkanlar yaradır.

Ənənəvi dil tədrisində tətbiq olunan metodlar, əsasən eyni dil və təhsil fonuna malik şagirdlərə yönəlmişdir. Məsələn, ana dili ingilis dili olan şagirdlərə qrammatikanın tədrisi adətən konkret strukturların təqdim olunması, praktiki tapşırıqlar və son olaraq yaradıcı yazı tapşırıqları vasitəsilə həyata keçirilir. Lakin çoxdilli siniflərdə bu model hər zaman effektiv olmur, çünki burada tələbələr təkcə müxtəlif dillərə deyil, eyni zamanda fərqli tədris metodlarına və təhsil ənənələrinə də malikdirlər. Bəzi şagirdlər üçün əzbərləmə əsaslı tədris daha tanış və effektiv hesab olunur. Belə hallar müəllimləri daha çevik və adaptiv tədris strategiyalarına yönəldir.

Bu kontekstdə "pilləli öyrənmə" və ya "dəstəkləyici tədris" (scaffolding) nəzəriyyəsi xüsusilə əhəmiyyətli hesab olunur [8]. Bu yanaşma çərçivəsində müəllimlər yeni məlumatların təqdimatını mərhələli şəkildə təşkil edərək, şagirdlərin əvvəlki bilikləri üzərində yeni strukturların mənimsənilməsinə imkan yaradırlar. Pilləli öyrənmə strategiyalarının şagirdlərin alışdıqları metodlarla (məsələn, əzbərləmə və modelləşdirilmiş nümunələrlə öyrənmə) birgə tətbiqi qrammatikanın daha effektiv öyrədilməsinə səbəb olur. Bu, pedaqoji məzmun biliyi çərçivəsində müəllimin həm fənn üzrə bilikləri, həm də öyrətmə bacarıqları arasında balans yaratmasını tələb edir [6].

1. ***Fərqləndirilmiş tədris yanaşması***

Fərqləndirilmiş tədris (Differentiated Instruction) müasir pedaqoji yanaşmalardan biri olaraq, sinifdəki şagirdlərin fərdi ehtiyaclarına uyğun tədris strategiyalarının formalaşdırılmasını nəzərdə tutur. Bu yanaşmanın əsas fəlsəfəsi ondan ibarətdir ki, bütün şagirdlər eyni yolla və tempdə öyrənmir; buna görə də tədris prosesi məzmun, proses və nəticə baxımından fərdiləşdirilməlidir [13].

Fərqləndirilmiş tədris modeli şagirdlərin hazırki bilik səviyyələri, maraqları və öyrənmə üslubları nəzərə alınmaqla, onların potensialına uyğun öyrənmə mühiti yaradır. Beləliklə, müəllimlər bütün şagirdlərə uğur qazanmaq imkanı vermək üçün müxtəlif tədris vasitələrindən və resurslardan istifadə edirlər. Bu yanaşma, xüsusilə çoxdilli siniflərdə daha funksional hesab olunur, çünki şagirdlər arasında dil bacarıqları, öyrənmə təcrübəsi və mədəni fərqlər çox böyük fərqlilik göstərə bilər .

Fərqləndirilmiş tədris strategiyalarına aşağıdakılar aid edilə bilər:

1. *Məzmunun fərdiləşdirilməsi* – Tədris materialları şagirdlərin dil səviyyəsinə uyğunlaşdırılır;

2. *Prosessual fərqləndirmə* – Tapşırıqların icra yolları müxtəlif təqdim olunur;

3. *Materialın fərdiləşdirilməsi* – Şagirdlər bilik və bacarıqlarını müxtəlif yollarla ifadə etməyə təşviq olunurlar.

Bu strategiya ingilis dili kimi xarici bir dilin tədrisində xüsusi əhəmiyyət daşıyır, çünki bu yanaşma hər bir şagirdin öyrənmə imkanlarını maksimum dərəcədə reallaşdırmağa yönəlmişdir.

2. Müəllim Dəstəyi və Tədris Resurslarının Rolu

Çoxdilli siniflərdə uğurlu tədris prosesi təkcə pedaqoji strategiyaların seçilməsi ilə deyil, həm də müəllimlərin davamlı peşəkar inkişafı və metodik dəstəklə təmin olunması ilə sıx bağlıdır. Təcrübələr göstərir ki, tədris dili ilə bağlı ardıcıl və məqsədyönlü diqqət göstərilməyən tədris mühitlərində şagirdlərin akademik uğurları ciddi şəkildə zəifləyə bilər [13].

Monodilli məzmunun interaktiv danışıq fəaliyyətinə çevrilməsi prosesi "mövzunun didaktik transpozisiyası" adlanan nəzəri çərçivə-

nin mərkəzində dayanır [10]. Bu yanaşma müəllimdən yalnız söz ehtiyatını təqdim etmək deyil, həmçinin akademik məzmunu şagirdlərə dil baxımından uyğunlaşdırmaq üçün müəyyən əqli çevrilmələr tələb edir. İngilis dilini yeni öyrənənlər üçün effektiv tədris strategiyası yalnız leksik vahidlərin deyil, həm də funksional dil bacarıqlarının – müqayisə aparmaq, fikir bildirmək, problem qeyd etmək və s. – açıq şəkildə öyrədilməsini tələb edir.

Hal-hazırda bir çox çoxdilli uşaqlar ingilisdilli ölkələrdə monodilli pedaqogika çərçivəsində tədris alırlar. Bu yanaşma həmin şagirdlərin hələ kifayət qədər dil bacarıqları əldə etmədiyi şəraitdə tədris məzmununa məhdud çıxış imkanları ilə nəticələnə bilər. Bu problem kontekstində, şagirdlərin dil repertuarına və mədəni kimliyinə əsaslanan, onu tanıyan və inkişaf etdirən tədris formalarına ehtiyac getdikcə daha çox vurğulanır.

Bu aspektdən, iki və çoxdilli kurikulumların hazırlanmasında dil dəstəyi şagirdlərin təqdim olunan dərs materialı ilə əlaqə qurmasına yardım etmək məqsədi daşıyır. Burada məqsəd kurikulumun sadələşdirilməsi deyil, əksinə, akademik məzmunun mənimsənilməsini asanlaşdırmaq üçün əlavə dil resurslarının və strategiyalarının tətbiqidir. Dil dəstəyi dedikdə yalnız sözlərin asanlaşdırılması deyil, həm də şagirdlərin akademik diskursda iştirakına imkan verən strategiyaların yaradılması nəzərdə tutulur .

Müasir cəmiyyətin sosial mürəkkəbliyi məktəb sistemləri qarşısında yeni çağırışlar yaratmışdır. Tədris və öyrənmə proseslərinin təşkili zamanı multikultural və çoxdilli reallıqlar, habelə fərqliliklərin tanınması və inklüziv məqsədlərin nəzərə alınması zəruridir. Multidilli və mədəni müxtəlifliyi olan siniflərdə dil tədrisi yalnız didaktik baxımdan deyil, həm də sosial və emosional ölçülər baxımından əlavə çətinliklər yaradır.

İnklüziv tədris yanaşmaları yalnız fərdi öyrənmə fərqlərinə cavab vermək deyil, həm də bütün şagirdlərin şəxsiyyətinin və mənlik dəyərlərinin tanınması ilə bağlı emosional mühitin yaradılmasını nəzərdə tutur [10]. Emosional rifah təhsil mühitində əsas komponentlərdən biridir. Şagirdin məktəbdə qarşılaşdığı münasibət, uğur və uğursuzluqla bağlı sosial qənaətlər, habelə tədris strategiyalarına qoşulması onun emosional vəziyyətini və tədris motivasiyasını birbaşa təsir edə bilər.Sosial qarşılıqlı əlaqə və dialoq əsaslı didaktik münasibətlər sinifdə pozitiv emosional mühitin yaranmasına xidmət edir. Belə bir iqlim şagirdin özünə və başqalarına olan münasibətini möhkəmləndirir, özünəinamı artırır və öyrənməyə motivasiya yaradır. Üstəlik, aşağı intensivlikli neqativ emosiyalar (narahatlıq, tərəddüd və s.) müəyyən hallarda diqqət və səy səviyyəsini artırmaqla tədris prosesinə fayda verə bilər [14].

Tədris prosesində emosional faktorların nəzərə alınması inklüziya, motivasiya və koqnitiv inkişaf arasında qarşılıqlı əlaqənin gücləndirilməsinə şərait yaradır. Tədris mühitində yaradılan pozitiv emosional çərçivə şagirdlərin akademik nəticələrinə bilavasitə təsir göstərir. Beləliklə, dil öyrənməsində sosial və emosional dəstək, xüsusilə çoxdilli və mədəni cəhətdən müxtəlif siniflərdə uğurlu tədrisin ayrılmaz hissəsinə çevrilir [16].

Təhlillər nəticəsində məlum olmuşdur ki, çoxdilli siniflərdə ingilis dili tədrisi müəllimlər üçün xüsusi peşəkar hazırlıq və çevik metodoloji yanaşma tələb edir. Çoxdilli tədris mühiti, müəllimlər üçün həm didaktik, həm də sosial-emosional baxımdan bir sıra çağırışlar doğurur və bu sahəyə dair mövcud tədqiqatların və akademik mənbələrin hələ də məhdud olduğu qeyd olunur [8].

Tədrisin səmərəliliyinin artması üçün aşağıdakı amillər əsas rol oynayır: müəllimin peşəkar hazırlığının yüksək olması, şagirdlərin fərdi xüsusiyyətlərini yaxşı tanıması və bu xüsusiyyətlərə uyğun olaraq dərs prosesini planlaması. Belə dərs mühitlərində tətbiq edilən metod və strategiyalar təlim prosesinin uğurlu təşkilinə əhəmiyyətli töhfə verir.

A. Omeri (2014) tərəfindən aparılmış tədqiqatda vurğulanır ki, müəllimlər şagirdlərin fərqli dil və mədəni mənsubiyyətlərini nəzərə alaraq təlim planlarını qurmaqda ciddi çətinliklərlə üzləşirlər və bu, onların iş yükünü gündəngünə artırır. Bu səbəbdən, müəllimlərin çoxmədəniyyətli və çoxdilli sinif mühitlərinə dair strategiyalarla tanış olması və onları dərs prosesində tətbiq edə bilməsi vacibdir.[8]

Tədqiqatlar nəticəsində müəllimlər üçün praktik bələdçi xarakteri daşıyan strategiyalar aşağıdakı kimi ümumiləşdirilə bilər:

- Müəllim-şagird qarşılıqlı əlaqəsini artıraraq bütün şagirdlərlə əlaqə qurmaq və münasibət yaratmaq;

- Mədəniyyətlərarası ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi və şagirdlərə emosional yaxınlıq göstərilməsi;

- Ortaq ana dilin mövcud olmadığı vəziyyətlərdə ünsiyyət baryerlərinin tanınması və aradan qaldırılması üçün alternativ üsullardan istifadə;

- Şifahi nitqə üstünlük verməklə şagirdlərin danışıq bacarıqlarını stimullaşdırmaq;

- Şagird maraqlarına uyğun, motivasiyaedici və interaktiv fəaliyyətlər təşkil etmək;

Tədris zamanı, xüsusilə başlanğıc səviyyəsində öyrənməyə kifayət qədər vaxt ayırmaq və tədris prosesində vizual dəstək vasitələrindən (yazılı əsas fikirlər, ana dilə tərcümə olunmuş cümlələr) istifadə etmək.

Bu strategiyaların tətbiqi həm dil öyrənməsinin keyfiyyətini artırır, həm də şagirdlərin sinifdə özlərini rahat və dəyərli hiss etmələrinə şərait yaradır. Eyni zamanda, qeyd olunmalıdır ki, bu cür strategiyalar yalnız müəyyən şagird qrupları üçün deyil, bütün şagirdlər üçün inklüziv və balanslı tədris mühitinin yaradılmasına xidmət edir.

Bununla belə, bu sahədə təkcə müəllimlərin üzərinə düşən məsuliyyətlə məhdudlaşmaq olmaz. Belə ki, müəllim hazırlığı proqramlarının yenidən qurulması vacibdir. Müasir pedaqoji proqramlar müəllimləri yalnız fənn bilikləri ilə təmin etməməli, həm də onların çoxdilli və çoxmədəniyyətli siniflərdə təlimə hazırlığını təmin etməlidir. 2014-cü ildə aparılan araşdırmalarda qeyd olunur ki, müəllim hazırlığı proqramlarında orta məktəb səviyyəsində çoxdilli şagirdlərlə işləyə bilmək üçün xüsusi hazırlıq bloklarına ehtiyac vardır.

Eyni zamanda, ana dillərin xarici dilin öyrənilməsində oynadığı rol da bu kontekstdə xüsusi əhəmiyyət daşıyır. Dil transferi, mənimsəmə prosesində ana dilin təsiri və bu istiqamətdə gələcək tədqiqat ehtiyacları müvafiq elmi ədəbiyyatda ayrıca vurğulanır.

Beləliklə, çoxdilli siniflərdə ingilis dili tədrisi üzrə uğurlu təcrübə üçün təkcə metodoloji çeviklik kifayət deyil; burada müəllimlərin pedaqoji empatiya, inkluziyaya yönəlmiş yanaşma, adaptiv öyrənmə strategiyaları və innovativ texnologiyalardan istifadə bacarığı həlledici rol oynayır. Bu kontekstdə müəllim hazırlığı proqramlarında çoxdilli və mədəni müxtəlifliklə işləməyə yönəlik komponentlərin artırılması, həmçinin təcrübə əsaslı metodoloji təlimlərin təşviq edilməsi vacibdir.

Problemin aktuallığı. Qloballaşma prosesinin sürətlənməsi, transsərhəd əməkdaşlıq və beynəlxalq miqrasiyanın artması nəticəsində təhsil sistemlərində çoxdillilik və mədəni müxtəliflik artıq normaya çevrilmişdir. Belə şəraitdə ingilis dili yalnız kommunikasiya vasitəsi deyil, həm də sosial inteqrasiya, akademik uğur və əmək bazarına çıxış üçün əsas alət kimi çıxış edir. Müasir sinif otaqlarında şagirdlərin fərqli dil və mədəniyyət fondan gəlməsi, müəllimlərin pedaqoji fəaliyyətini daha da mürəkkəbləşdirir və ənənəvi tədris modellərinin səmərəliliyini sual altına alır. Bu səbəbdən, çoxdilli təhsil mühitlərində ingilis dili tədrisinin metodoloji əsaslarının yenidən nəzərdən keçirilməsi və yeni strategiyaların tətbiqi zəruri məsələ kimi aktuallaşır.

Problemin elmi yeniliyi çoxdilli siniflərdə ingilis dili tədrisinin effektivliyini artırmaq məqsədilə fərqləndirilmiş tədris, kommunikativ metodika, kod dəyişdirmə, rəqəmsal texnologiyalar və mədəniyyətlərarası pedaqogika arasında qarşılıqlı əlaqənin qurulmasındadır. Ənənəvi metodlarla yanaşı, pilləli öyrənmə və sosial-emosional dəstək əsasında yeni pedaqoji model təklif olunur. Kod dəyişdirmənin kommunikativlə yanaşı pedaqoji və şəxsiyyətyönlü funksiyaları da araşdırılaraq yeni konseptual yanaşma irəli sürülür.

Problemin praktik əhəmiyyəti ondan ibarətdir ki, təqdim olunan metod və strategiyalar real sinif şəraitində istifadə oluna biləcək pedaqoji alətlər kimi təklif olunur. Adaptiv metodologiyalar müəllimlərə müxtəlif dil səviyyələrində şagirdlərlə səmərəli işləmək imkanı yaradır. Təklif olunan modellər müəllim hazırlığı proqramlarına daxil edilərək çoxdilli tədris mühitinə adaptasiyanı asanlaşdırır və şagirdlərin sosial inteqrasiyası ilə akademik nailiyyətlərinə müsbət təsir göstərir.

Ədəbiyyat

1. Creese, A., & Blackledge, A. Translanguaging in the bilingual classroom: A pedagogy for learning and teaching? The Modern Language Journal, 94(1), 2010, 103–115. https://doi.org/10.1111/j.1540-4781.2009.00986.x
2. Fakhrurriana, R., Nisa, A., & Noni, N. The perceptions of using Duolingo application in learning English for student's vocabulary mastery. BATARA DIDI: English Language Journal, 2024, № 3. Pp. 45-54.
3. Gay, G. Culturally responsive teaching: Theory, research, and practice (2nd ed.), 2010, pp. 21-45. Teachers College Press.

4. Jankova Alagjozovska, N. Teaching English in a multicultural classroom. [PDF], 2018, p. 62.
5. Johnson, D. W., & Johnson, R. T. Learning together and alone: Cooperative, competitive, and individualistic learning (5th ed.), 1999, pp. 67-89. Allyn and Bacon.
6. Lim, T. M., & Yunus, M. M. Teachers' perception towards the use of Quizizz in the teaching and learning of English: A systematic review. Sustainability, 2021.
7. Littlewood, W. The task-based approach: Some questions and suggestions. ELT Journal. 2004, № 58. pp. 319-326.
8. Omeri, A. Teaching a foreign language in a multicultural context. [PDF], 2014.
9. Ramzan, M., Bibi, R., & Khunsa, N. Unraveling the link between social media usage and academic achievement among ESL learners: A quantitative analysis. Global Education Studies Review, VIII, 2023, pp. 407-421.
10. Robles Garrote P. Second language learning in a multilingual classroom: Didactic interaction development. 2014
11. Stockwell, G. Using mobile phones for vocabulary activities: Examining the effect of the platform. Language Learning & Technology, 14(2), 2012, pp. 95-110.
12. Tomlinson, C. A. The differentiated classroom: Responding to the needs of all learners (2nd ed.), 2014, pp. 1-26. ASCD.
13. Tomlinson, C. A., & Jarvis, J. M. Differentiation: Making curriculum work for all students through responsive planning & instruction. In Systems and models for developing programs for the gifted and talented, 2023, pp. 599-628. Routledge.
14. Tuimebayeva, G., Shagrayeva, B., Kerimbayeva, K., Shertayeva, N., Bitemirova, A., & Abdurazova, P. Developing multilingual competence in future educators: Approaches, challenges, and best practices. Open Education Studies. 2024, № 6. article 0020. Available from: degruyter.com
15. Vadivel, B., Alam, S., Nikpoo, I., & Ajanil, B. The impact of low socioeconomic background on a child's educational achievements. Educational Research International, 2023 (1), 2023, article 6565088.
16. Vdovina, E., & Khalyapina, L. Issues of training multilingual professionals in higher education. In International Conference on Professional Culture of Specialists of the Future, 2022, pp. 346-358. Cham: Springer International Publishing.

Redaksiyaya daxil olub: 04.07.2025

UOT 372.881.116.11

Şəhla Mustafa qızı İbrahimova,
Bakı Dövlət Universitetinin Qazax filialının Dil, ədəbiyyat və onların tədrisi metodikası kafedrasının baş müəllimi
https://orcid.org/0009-0005-5311-154
E-mail: shahlaibrahimova1965@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(4).140-144

MƏDƏNİYYƏTLƏRARASI ÜNSİYYƏTİN QURULMASINDA RUS DİLİNİN ROLU

Shahla Mustafa İbrahimova,
senior lecturer of the department of teaching methods of Language and literature of Gazakh branch of Baku State University

THE ROLE OF THE RUSSIAN LANGUAGE IN BUILDING INTERCULTURAL COMMUNICATION

Шахла Мустафа гызы Ибрагимова,
старший преподаватель кафедры язык, литература и методика их преподавания Газахского филиала Бакинского Государственного Университета

РОЛЬ РУССКОГО ЯЗЫКА В ПОСТРОЕНИИ МЕЖКУЛЬТУРНОЙ КОММУНИКАЦИИ

Xülasə. Məqalədə rus dilinin mədəniyyətlərarası ünsiyyətdə rolu təhlil edilir. Onun dəyərinə mədəniyyətə təsir vasitəsi, peşəkar və akademik ünsiyyət qurma üsulu, təhsil və diplomatiyadakı rolu kimi araşdırılır. Tədqiqat rus dilinin mədəniyyətlərarası körpü kimi dəyərini vurğulayır və onun qloballaşan dünyada geniş yayılmasına maneələr, məsələn, ingilis dili ilə rəqabət və öyrənmə çətinliklərini araşdırır. Əsas diqqət rəqəmsal əsrdə rus dilinin potensialına və onun fərqli mədəni fikirlərin çatdırılmasında funksiyasına yönəldilir.

Açar sözlər: *mədəniyyətlərarası, rus dili, ünsiyyət, qlobal vasitə, interaktivlik*

Abstract. The article analyzes the role of the Russian language in intercultural communication. Its value as a means of influencing culture, a method of professional and academic communication, and its role in education and diplomacy are examined. The study emphasizes the value of the Russian language as an intercultural bridge and examines the obstacles to its widespread use in a globalized world, such as competition with English and learning difficulties. The main focus is on the potential of the Russian language in the digital age and its function in conveying different cultural ideas.

Keywords: *intercultural, Russian language, communication, global medium, interactivity*

17. Bennett, R. E. Educational assessment: What to watch in a rapidly changing world. Educational Measurement: Issues and Practice, -2018, -37(2), -pp.7–15.
18. Firuza A.R. Independent work of students in the process of learning the english language / A.R. Firuza // Педагогика и психология в современном мире: теоретические и практические исследования: сб. ст. по материалам XXV Международной научно-практической конференции «Педагогика и психология в современном мире: теоретические и практические исследования». – № 7(25). – М., Изд. «Интернаука», -2019, – стр. 98-102.
19. Firuza A.R. “Conceptual approaches to the organization of independent work of students in higher educational institutions”. -Studies in English Language Teaching 8 (№3), -2020, -pp.157-165.

Redaksiyaya daxil olub: 10.06.2025

UOT 004

Əsmət İdris qızı İsmayılxanova,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/ 0000-0002-1151-4440
E-mail: a.ismayilxanova@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(4).155-158

İNTERAKTİV TƏLİM PROSESİNDƏ PEDAQOJİ TEXNOLOGİYALARDAN İSTİFADƏ İMKANLARI VƏ YOLLARI

Asmet Idris Ismayilkhanova,
associate professor
of Azerbaijan State Pedagogical University
doctor of philosophy in pedagogy

OPPORTUNİTİES AND METHODS OF IMPLEMENTİNG PEDAGOGİCAL TECHNOLOGİES İN INTERACTİVE EDUCATİON

Асмет Идрис гызы Исмаилханова,
доцент Азербайджанского Государственного Педагогического Университета, доктор философии по педагогике

ПУТИ И ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ ПЕДАГОГИЧЕСКИХ ТЕХНОЛОГИЙ В ИНТЕРАКТИВНОМ ОБУЧЕНИИ

Xülasə. Müəllif bu məqalədə interaktiv təlim prosesində pedaqoji texnologiyalardan istifadə imkanları və yollarını araşdırmış və qeyd etmişdir ki, təlim prosesində pedaqoji texnologiyalar təhsilin məqsədi, məzmunu, nəticəsi kimi çıxış edir. Eyni zamanda təlim texnologiyaları elmi, ardıcıl və sistemli şəkildə tətbiq edilərsə təhsilin əsas hissəsinə çevrilir. Şagirdlərin yaradıcılıq qabiliyyətlərinin formalaşmasına yardım edir. Müəllif qeyd edir ki, təhsil o zaman səmərəli hesab olunur ki, tədris prosesini inkişaf etdirən, təkmilləşdirən fənn müəllimlərinin bilikləri müasir tələblərə cavab vermiş olsun.

Ümumtəhsil müəssisələrində təhsilin keyfiyyətinin yüksəldilməsi ilə bərabər tərbiyə sisteminin inkişafı da diqqət mərkəzində saxlanılmalıdır. Təhsil sistemində milli-mənəvi dəyərlərimizə üstünlük verilməli, məktəblərdə demokratiklik bərqərar olmalı, müsbət psixoloji mühit yaradılmalı, həm müəllimlər, həm də şagirdlər öz hüquq və vəzifələrini başa düşməlidirlər.

Açar sözlər. *pedaqoji texnologiyalar, interaktiv metodlar, layihələr metodu, şagird çantası, demokratiklik, keyfiyyət, diferensiallaşma*

Abstract. Author explores the opportunities and methods of implementing pedagogical technologies in the interactive education process. She notes that such technologies serve as the purpose, content, and outcome of the teaching process. At the same time, the scientific, consistent, and systematic implementation of pedagogical technologies transforms them to a fundamental element of education and helps develop students' creative abilities.

The author's understanding of effective education emerges from the convergence of the knowledge of subject teachers, who develop and improve the teaching process, and modern requirements. Along with improving the quality of education in general education institutions, the author draws attention to the development of the upbringing system, with national and moral values prioritised within the education system, upholding democracy in schools, a positive psychological environment created. Also, both teachers and students must understand their rights and responsibilities.

Keywords: *pedaqoqical technoloqies, interactive methods, project method, student baq, democracy, quality, differentiation*

Аннотация. Автор исследует пути и возможности внедрения педагогических технологий в интерактивный образовательный процесс. Отмечает, что такие технологии выступают в качестве цели, содержания и результата учебного процесса. В то же время научное, последовательное и систематическое применение педагогических технологий превращает их в фундаментальный элемент образования, способствуя развитию творческих способностей учащихся.

Автор отмечает, что образование становится эффективным тогда, когда знания учителей-предметников, которые развивают и совершенствуют учебный процесс, совпадают с требованиями современности. Наряду с повышением качества образования в общеобразовательных учреждениях автор обращает внимание на развитие системы воспитания, где приоритет отдаётся национальным и нравственным ценностям, поддерживается демократия в школах и создаётся позитивная психологическая атмосфера. Кроме того, как учителя, так и учащиеся должны осознавать свои права и обязанности.

Ключевые слова: *педагогические технологии, интерактивные методы, проектный метод, портфель студента, демократия, качество, дифференциация*

Təhsil sahəsində islahatın əsas məqsədi həm təhsilin keyfiyyətini yüksəltmək, həm də XXI əsrdə respublikamızın iqtisadi-sosial və siyasi tələbatını təmin etməkdən ibarətdir.

Təhsil o zaman səmərəli hesab olunur ki, tədris prosesini inkişaf etdirən, təkmilləşdirən fənn müəllimlərinin bilikləri müasir tələblərə cavab vermiş olsun. Elə buna görə də pedaqoji texnologiyalar Azərbaycan təhsil islahatının mühüm sahəsi olmaqla müəllim hazırlığında aparıcı rola malikdir.

Bildiyimiz kimi, pedaqoji texnologiyalar təhsilin məqsədi, məzmunu, nəticəsi kimi çıxış edir. Eyni zamanda təlim texnologiyaları elmi, ardıcıl və sistemli şəkildə tətbiq edilərsə təhsilin əsas hissəsinə çevrilir. Şagirdlərin yaradıcılıq qabiliyyətlərinin formalaşmasına yardım edir. "Texnologiya" yunan sözü olub, sənətə sistemli yanaşma mənasını verir. Yanaşma dedikdə qarşıya çıxan problemlərin həllinə istiqamətlənən, müəyyən prinsip əsasında idarə edilən metodlar, vasitələr və yollar başa düşülür.

Hal-hazırda ölkəmizin Təhsil sahəsində İslahat Proqramı qabaqcıl təcrübəyə əsaslanaraq milli təhsil quruculuğumuzun inkişaf yollarını müəyyən etməklə yanaşı, nəzərdə tutulan problem sahələrdə əsas vəzifələrin yerinə yetirilməsinə əlverişli şərait yaradıb. Müasir dövrdə istənilən şəxslər fəal təfəkkür tərzinə, qabiliyyət sisteminə, ideal savada malik olmalı, sürətlə düşünməyi bacarmalı, intellektual vərdişlərə sahib olmalıdır.

Ümumtəhsil müəssisələrində təhsilin keyfiyyətinin yüksəldilməsi ilə bərabər tərbiyə sisteminin inkişafı da diqqət mərkəzində saxlanılmalıdır. Təhsil sistemində milli-mənəvi dəyərlərimizə üstünlük verilməli, məktəblərdə demokratiklik bərqərar olmalı, müsbət psixoloji mühit yaradılmalı, həm müəllimlər, həm də şagirdlər öz hüquq və vəzifələrini başa düşməlidirlər. Nəyə cavabdeh olduqlarını dərk etməlidirlər.

Müəllimlərlə şagirdlər arasında qarşılıqlı hörmət və ünsiyyət formalaşdırılmalı, şagird təlim-tərbiyənın mərkəzində dayanmalı, özünün interaktiv fəaliyyəti ilə ön planda olmalıdır. Fənn müəllimi isə təlimin istənilən mərhələsində şagirdlərin qrup və ya kollektiv işləmələrinə şərait yaratmalı, özü isə yol göstərən bələdçi, fasilitator rolunda fəaliyyət göstərməlidir.

Təlim prosesində fənn müəllimi yeni pedaqoji texnologiyaları tətbiq edərkən şagirdlərin fəaliyyəti aktivləşir, interaktiv bilikləri və bacarıqları dərinləşir, intellektual səviyyələri və düşünmə qabiliyyətləri yüksəlir.

Aparılımış tədqiqatların nəticələri onu deməyə əsas verir ki, təhsil sisteminin inkişaf istiqamətlərinin əsas strategiyası şagirdlərin daima diqqət mərkəzində saxlanmasından, təlim prosesində istər pedaqoqun, istərsə də psixoloqun şagirdə müsbət münasibətindən, şagirdi daima mərkəzdə dayanan subyekt kimi görməsindən ibarət olmalıdır.

Xarici ölkələrin təhsil sisteminə nəzər salsaq görərik ki, orada təhsil şagird-dərslik-müəllim münasibətləri üzərində qurulmuşdur. Odur ki, aparılan elmi tədqiqat işləri, xarici ölkələrin qabaqcıl təcrübələrinin öyrənilməsi ilk öncə təlimin keyfiyyətinin yüksəldilməsinə, təlimə verilən yeni pedaqoji tələblərin tətbiqinə istiqamətlənməlidir. Belə olduğu təqdirdə yeni təlim texnologiyalarının tətbiq edilməsi dərsin yenilənməsini sürətləndirəcəkdir.

Görkəmli alim-pedaqoq S.P. Kapitsa təhsili gələcəyə yönələn sənaye sahəsi adlandırmışdır.

Qeyd edək ki, keçən əsrin 60-cı illərindən artıq Amerika və Avropa ölkələrinin ümumtəh-

sil müəssisələrində təhsil islahatları aparılmış və təlimin texniki vasitələrinin tətbiq olunması diqqət mərkəzində saxlanılır. Təlim prosesində təlimin texniki vasitələrindən istifadə şəraitində öncə təlim texnologiyası anlayışı yarandı, daha sonra tərbiyə sahəsinə nüfuz edərək pedaqogikaya texnologiya şəklində daxil edildi.

Odur ki, texnologiyanın pedaqogikaya daxil olması həm pedaqoji texnologiyaların, həm də təhsil texnologiyalarının yaranmasına gətirib çıxardı. V.T. Lixaçovun fikrincə pedaqoji texnologiyalar təlim-tərbiyə vasitələrinin pedaqoji-psixoloji quruluşunun formalarının, metodlarının və yollarının məcmusu olmaqla pedaqoji prosesin təşkilati-metodik aləti hesab edilir. Ayrı-ayrı tədqiqatçıların fikrinə nəzər salsaq görərik ki, pedaqoji texnologiyaya aid faktlar fərqli olsalar da, ümumi cəhət ondan ibarətdir ki, pedaqoji texnologiya birbaşa təlim prosesi ilə bağlıdır. Pedaqoji texnologiyaların üç səviyyəsi mövcuddur ki, onlar da bir-biri ilə qarşılıqlı əlaqədədir. Bu səviyyələrin məqsədi, məzmunu araşdırılımalıdır:

- ümumpedaqoji texnologiya;
- xüsusi metodiki (fənn) texnologiya;
- lokal (modul) texnologiya.

1. Ümumpedaqoji texnologiya ümumtəhsil məktəblərində təlimin istənilən mərhələsində təhsilin layihələşdirilməsinin elmi əsasını aşkara çıxarır.

2. Xüsusi metodiki (fənn) texnologiya bir fənnin, sinfin, müəllimin əhatəsində təlim prosesinin layihələşdirilməsini əhatə edir.

3. Lokal (modul) texnologiya isə təlim prosesinin müəyyən hissəsinin (yeni biliklərin şagirdlər tərəfindən mənimsənilməsinin, müstəqil işin, verilmiş materialın təkrarının, yaxud bir dərsin) texnologiyası şəklində təzahür edir.

Artıq təhsil sistemində bir çox yeni texnologiyalar müəyyən edilmişdir ki, bunlar hal-hazırda təlim prosesinə tətbiq edilməkdədir. Bu texnologiyaların ən əsası şəxsiyyətə yönəlmiş texnologiyadır ki, bu zaman təlim prosesinə və şagirdə müəllim özü öz münasibətini dəyişir. Həmin prosesdə şagird mərkəzi fiqur kimi qəbul edilir. Müasir dövrdə dünyanın bir çox ölkələrində uzun illərdir ki, aktuallığını təsdiq edən layihələr metodu, "şagird çantası", əməkdaşlıq şəraitində təlim, müxtəlif səviyyəli təlim texnologiyaları təlim prosesinə tətbiq edilir.

Layihələr metodu Amerika pedaqoqu Con Dyui tərəfindən 1920-ci illərdə "problemlər metodu" kimi işlənmiş, şagirdlərin müstəqil işləmələrinə xidmət edərək fərdi, cütlərlə, qrup şəklində müəyyən vaxt ərzində həyata keçirilirdi.

Əməkdaşlıq şəraitində təlim bir metod kimi qəbul edilmişdir ki, bu vaxt təlim prosesi kiçik yaşlı uşaqlardan təşkil edilən qruplarda aparılır. Kiçik qruplarda təlim texnologiyası 1970-ci ildən etibarən işlənir. Bu təlim texnologiyasının əsas məqsədi şagirdlərin verilmiş materialı bir yerdə öyrənmələri və ayrılıqda yerinə yetirmələrindən ibarətdir.

Müxtəlif səviyyəli təlim hər bir şagirdin yaş və psixoloji xüsusiyyətlərini nəzərə nəzərə alaraq tətbiq edilən texnologiyadır.

Aparılmış tədqiqatların nəticələrindən aydın olur ki, X-XI sinif şagirdləri artıq öz profillərini müəyyənləşdirə bilirlər, istədikləri fənni seçə bilirlər və hazırlıq səviyyələrini müəyyən etmək bacarığına yiyələnirlər.

Bildiyimiz kimi müxtəlif səviyyəli təlimlər diferensiallaşdırma ilə bağlıdır, belə ki, əgər şəxsiyyətə yönələn texnologiyalardan istifadə etmək vacibdirsə təlim hökmən diferensiallaşdırılmalıdır. Bu o deməkdir ki, xüsusi qabiliyyətə malik olan şagirdlər fənnləri özləri seçir və diferensiallaşdırır. Elə şagirdlər vardır ki, dəqiq fənləri və yaxud humanitar fənləri seçirlər. Belə olduğu halda bu şagirdləri ayrı-ayrı qrupda birləşdirmək və xüsusi proqram üzrə onlarla məşğul olmağı bacaran savadlı, bacarıqlı müəllim kadrları hazırlanmalıdır. "Şagird çantası" təlimi əsas pedaqoji texnologiya kimi qiymətləndirilməlidir. Şagirdin yaradıcı fəaliyyəti bu texnologiyadan istifadə zamanı tədris prosesinin mərkəzində dayanmalı, bu prosesdə müəllim aparıcı rola malik olmalıdır. Bu cür təlimin əsas qayəsi şagirdlərin yaradıcılıq qabiliyyətlərini və intellektual səviyyəsini inkişaf etdirməkdir. Şagird elə formalaşdırılmalıdır ki, o, məktəbi qurtardıqdan sonra müstəqil fikir yürütməyi, özünü cəmiyyətə təqdim etməyi bacarsın və özünə lazım olan vacib qərarları müstəqil şəkildə qəbul etsin. Təlim prosesinə yeni təlim texnologiyalarının tətbiqində əsas məqsəd odur ki, bir metod olmaqla şagird məntiqi ardıcıllığı nəzərə alsın, qısa yollarla səhv buraxmadan özünün düzgün cavabı ilə istədiyi nəticəyə yaxınlaşsın. Şagirdlə fənn müəllimi arasında olan ünsiyyətin, psixoloji mühitin dəyişdirilməsi yeni təlim metodlarının tət-

biqində əsas şərtdir. Hər bir şagirdə qayğı ilə yanaşma, etibar etmə, verdiyi cavabların "pis" və ya "yaxşı" qiymətləndirilməsindən asılı olmayaraq şagirddə müəllimə hörmət, məhəbbət, özünə isə inam yaradır.

İnteraktiv təlim şagirddə mexaniki yaddaşın deyil, fəal dərketmə mövqeyinə, onların təfəkkürünün inkişafına, eyni zamanda, elmi biliklərin sərbəst şəkildə əldə edilməsi, biliklərin yaradıcılıqla tətbiqinə, dərk edilməsi üçün münbit şəraitin yaradılmasına, digər yoldaşları ilə əməkdaşlıq etməklə istənilən problemin həll edilməsinə imkan verir. Bir sözlə, interaktiv təlim metodları təlim prosesinə tətbiq edilərsə bu şagird passivliyini aradan qaldırar, onlarda təfəkkür xüsusiyyətləri formalaşar, təlimin keyfiyyəti yüksələr.

Məktəb təcrübəsi onu göstərir ki, bir çox fənn müəllimləri öz dərsini təhsil məqsədləri əsasında təşkil etməyə can atırlar. Belə olduqda isə təhsilin tərbiyəedici və inkişafetdirici məqsədlərini müəyyən edə bilmir və yaxud buna çalışdıqda formal nəticələr alınır. Bu səbəbdən də təhsili idarəetmənin bütün orqanları və bu orqanların yaradıcılıq fəaliyyəti 45 dəqiqə davam edən təlim prosesinin bələdçisi olan fənn müəllimləri hazırlanmasına və onların işlərinin səmərəli təşkil edilməsinə yönəldilməlidir.

Hal-hazırda ölkəmizin ümumtəhsil müəssisələrində interaktiv təlim prinsiplərinin tətbiq edilməsi işi geniş vüsət almışdır. Təlim prosesində şagirdlər kiçik qruplar şəklində bölünməklə verilən mövzunun mənimsənilməsində yaxından iştirak edirlər, eyni zamanda digər şagirdlərlə əməkdaşlıq edərək bir-birini öyrədirlər. Bu zaman şagirdlərin həm qabiliyyətləri və idrak maraqları tədricən inkişaf edir, həm də yeni nəslin nümayəndəsi olaraq formalaşırlar. Ümumtəhsil müəssisələrində hal-hazırda ənənəvi təlim metodlarından can qurtarmaq və şagird təfəkkürünü fəallaşdırmaq məqsədilə bir çox texnoloji nəzəriyyələr işlənərək təlim prosesinə tətbiq edilir. Ən geniş yayılan texnoloji nəzəriyyələrdən biri kooperativ təlim adlanır. Bu təlim ilk dəfə amerikalı alim-pedaqoq H. Spenser tərəfindən yaradılaraq uğurla təcrübədən çıxmışdır. Kooperativ təlim konsepsiyasının əsas istiqamətləri bunlardır: komandalar, bacarıq, prinsiplər, idarəetmə, quruluşlar. Bu istiqamətlər isə bir-biri ilə sıx əlaqədədir. Kooperativ təlimdə komandanın hər bir üzvünün öz vəzifəsi və fərdi rolu var.

Burada hər bir komanda üzvünə hansı vəzifəni yerinə yetirəcəyi haqda əvvəlcədən təlimat verilir. Komanda üzvlərinin hər biri bir-biri ilə əlaqəli şəkildə öz işlərini yerinə yetirərək qiymətləndirilir. Komandalar üzrə kooperativ təlimdə şagirdlərdə sosial vərdişlər və bacarıqlar inkişaf edir.

İdarəetmədə sinif elə təşkil edilməlidir ki, şagirdlər həm özlərini sərbəst hiss etsinlər, həm də istənilən problemin həll olunmasında bərabərhüquqlu olduqlarını bilsinlər.

Kooperativ təlim prosesində şagirdlərdə sosial bacarıq vərdişləri formalaşır. Onu da qeyd edək ki, kooperativ təlimin əsas prinsipləri bunlardır: qarşılıqlı bağlılıq, fərdi məsuliyyət və müsbət qarşılıqlı əlaqə. Bu prosesdə dərsin əsas quruluşunu "Rollu oyunlar", "İkipilləli müsahibə", "Komandada iş" təşkil edir.

Sonda onu qeyd edək ki, bütün pedaqoji kollektivlər təlim-tərbiyə işini düzgün idarə edə bilməli, psixoloji hazırlıqları ilə interaktiv təlim texnologiyalarını qəbul etməyə daima hazır olmalıdırlar.

Problemin aktuallığı. Problemin aktuallığı haqda deyə bilərik ki, pedaqoji texnologiyalar Azərbaycan təhsil islahatının mühüm sahəsi olmaqla müəllim hazırlığında aparıcı rola malikdir və pedaqoji texnologiyalar təhsilin məqsədi, məzmunu, nəticəsi kimi çıxış edir.

Problemin elmi yeniliyi. Təlim prosesində fənn müəllimi yeni pedaqoji texnologiyaları tətbiq edərkən şagirdlərin fəaliyyəti aktivləşir, interaktiv bilikləri və bacarıqları dərinləşir, intellektual səviyyələri və düşünmə qabiliyyətləri yüksəlir.

Problemin praktik əhəmiyyəti. Pedaqoji texnologiyaların tətbiqi bütün pedaqoji kollektivləri təlim-tərbiyə işini düzgün idarə etməyə, psixoloji hazırlıqları ilə interaktiv təlim texnologiyalarını təlim prosesinə tətbiq etməyə daima hazır olacaqlar.

Ədəbiyyat

1. İsmixanov, M.A. Məktəbin idarə edilməsi. (Dərs vəsaiti). / R.Ə. Bəxtiyarova - Bakı, -2012. -235 s.
2. Mehrabov, A.O. Təhsildə səriştəli yanaşma: mahiyyəti və əsas xüsusiyyətləri // -Bakı: Azərbaycan məktəbi, - 2007. №1, -112 s.
3. Nəzərov, A.M. Müasir təlim texnologiyaları. (Dərs vəsaiti). / A.M. Nəzərov, -Bakı: ADPU, - 2012.-103 s.

Redaksiyaya daxil olub: 04.06.2025

UOT 004

Xumar Tofiq qızı Novruzova,
Bakı Slavyan Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru,
https://orcid.org/0009-0007-1415-8457
E-mail: novruzovaxumar@gmail.com
- https://doi.org/10.69682/arti.2025.92(4).159-163

UYĞUNLUQ VƏ FUNKSİYA ANLAYIŞLARININ ÖYRƏDİLMƏSİNDƏ İKT-NİN TƏTBİQİ

Novruzova Khumar Tofiq,
associate professor
of Baku Slavic University,
doctor of philosophy in pedagogy

APPLICATION OF ICT IN TEACHING THE CONCEPTS OF COMPATIBILITY AND FUNCTION

Хумар Тофиг гызы Новрузова,
доцент
Бакинского Славянского Университета,
доктор философии по педагогике,

ПРИМЕНЕНИЕ ИКТ В ОБУЧЕНИИ ПОНЯТИЯМ СООТВЕТСТВИЕ И ФУНКЦИЯ

Xülasə. Məqalədə məktəblərdə və ali təhsil müəssisələrində riyaziyyat dərslərinin keçirilməsi ilə bağlı məsələlər araşdırılır. Riyaziyyatın əsas vəzifəsi praktika ilə bağlı məsələləri konkretləşdirmək və sistemləşdirmək, onları ən səmərəli şəkildə həll etməkdir.

Uyğunluq və münasibət anlayışları riyaziyyatın formal olaraq müəyyən edilə bilməyən vacib anlayışlarındandır. İstənilən riyazi nəzəriyyənin verilməsi bəzi əsas anlayışların tərifsiz qəbul edilməsi ilə başlayır. Funksiya anlayışının mahiyyətini izah etmək üçün biz əsas anlayış kimi qəbul etdiyimiz çoxluq anlayışına istinad edirik. Məqalədə müasir riyaziyyatda çox vacib olan funksional asılılığın mənasını anlamağa kömək edə biləcək praktik tapşırıqlar verilmişdir. Məqalədə göstərilir ki, müasir riyaziyyat dərsi İKT alətlərindən, xüsusən Geogebra, MathCad, Mathematica, MatLab və Maple riyazi paketlərindən istifadə etməklə daha səmərəli formada təşkil edilə bilər.
Açar sözlər: *riyaziyyat, cəbr, İKT, GeoGebra, uyğunluq, funksiya*

Abstract. The article examines issues related to conducting mathematics classes in schools and higher education institutions. The main task of mathematics is to concretize and systematize tasks related to practice, to solve them in the most effective way.

The concepts of correspondence and relation are key concepts of mathematics, not subject to formal definition. The presentation of any mathematical theory begins with the fact that some basic concepts are accepted without definition. In order to explain the essence of the concept of a function, we rely on the concept of a set, which we accept as the basic concept. The article provides examples from life situations, with the help of which one can understand the meaning of functional dependence, which is very important in modern mathematics. A modern mathematics lesson can be organized using ICT tools, in particular the mathematical packages GeoGebra, MathCad, Mathematica, MatLab and Maple.
Keywords: *mathematics, algebra, ICT, GeoGebra, compatibility, function*

Аннотация. В статье рассматриваются вопросы, связанные с проведением занятий по математике в школах и высших учебных заведениях. Основная задача математики состоит в том, чтобы конкретизировать и систематизировать задачи, связанные с практикой, решать их с помощью наиболее эффективных путей.

Понятия соответствие и отношение являются ключевыми понятиями математики, не подлежащие к формальному определению. Изложение любой математической теории начинается с того, что какие-либо основные понятия принимаются без определения. Чтобы объяснить сущность понятия функции, мы основываемся на понятие множество, которое принимаем за основное понятие. В статье приведены примеры из жизненных ситуаций, с помощью которых можно понять смысла функциональной зависимости, что очень важно в современной математике. Организовать современный урок математики можно с помощью средств ИКТ, в частности математических пакетов Geogebra, MathCad, Mathematica, MatLab и Maple.

Ключевые слова: *математика, алгебра, ИКТ, GeoGebra, соответствие, функция*

İnformasiya və kommunikasiya texnologiyaları (İKT) təhsilalanlara riyaziyyatı öyrənmək üçün geniş imkanlar yaradır. Məqalədə orta məktəb şagirdləri və tələbələr üçün riyaziyyatın həyatla, praktik məsələlərlə bağlı həllində İKT-nin rolu araşdırılır. İKT-dən istifadə başlanğıc mərhələdə müəllimlər üçün də praktiki çətinliklər və texniki problemlər yarada bilər. Bundan əlavə, İKT-dən istifadə həm şagirdlərin, həm də müəllimlərin rollarında müəyyən dəyişikliklər tələb edir. Müəllimlər sinif və auditoriyanın potensial tələblərini nəzərə almalı və İKT-dən istifadənin nə vaxt məqsədəuyğun olduğu barədə düşünməyə hazır olmalıdırlar. Məqalədə müəllimlərin tədris prosesində İKT-dən istifadəsini daha səmərəli formada qurmaq şərti ilə şagird və tələbələrin bu prosesdən zövq alaraq öyrənməsi ilə bağlı tövsiyələr verilir.

Riyaziyyat müəlliminin başlıca vəzifəsi həm rəqəmsal, həm də qeyri-rəqəmsal formadan istifadə edərək öyrənmənin strukturlaşdırılması və dəstəklənməsi texnologiyasını müəyyənləşdirməkdir. Yalnız İKT-dən istifadə etməklə riyazi anlayışların öyrədilməsi tələbələrin daha çox və daha keyfiyyətli öyrənməsinə zəmanət verə bilməz. Riyaziyyat dərslərində ənənəvi kağız və qələmdən istifadə etmək riyazi qabiliyyətlərin inkişafı üçün daha məqsədəuyğundur. Müəllimlər texnologiyadan özgüvən hissinin artırılması, nəticələrin təhlili və yoxlanılması, ənənəvi üsulla əldə edilmiş biliklərin dərinləşdirilməsi üçün istifadəni təşkil etməlidirlər.

Riyaziyyatda uyğunluq, münasibət, inikas anlayışları fundamental xarakter daşımaqla yanaşı, abstrakt təfəkkür tərzi və güclü riyazi məntiqə əsaslanan anlayışlardır. Bu anlayışların öyrədilməsində müəllim müxtəlif priyomlardan və İKT vasitələrindən istifadə edə bilər.

Məsələn, müəllim şagirdlərə eyni bir prosesin, məsələnin simvolik, cədvəl və qrafik həllini tapşırır və tələbələrə onlar arasında əlaqə yaratmağa kömək edir. Belə keçidlər uyğunluq və münasibət anlayışlarının aydınlaşdırılmasına imkan yarada bilər.

Funksiyanın qrafikinin qurulması funksional münasibətləri başa düşmək üçün ümumi yanaşmadır. Simvolik dil vasitəsilə funksiyaların öyrənilməsi üçün qiymətlər cədvəli yaradılmalı və bu cədvəllər təhlil edilməlidir.

Bu, tələbələrə funksiyalarla bağlı daha aydın və hərtərəfli informasiya verə bilər və qrafikləri kompüter proqramları vasitəsilə (GeoGebra, Mathematica, Maple, MatLab və s.) quraraq funksiyanın tədqiq olunan xassələrini bir daha nəzərdən keçirməyə imkan yaradar.

Təəssüf ki, hələ də həm orta məktəblərdə, həm də ali təhsil müəssisələrində riyaziyyat dərslərində İKT təminatı ilə bağlı konkret, strukturlaşmış proqram mövcud deyil.

Cəbrin əsas tədqiq etdiyi məsələlərdən biri çoxluqlar arasında müxtəlif uyğunluqların öyrənilməsidir. Belə uyğunluqlar hələ orta məktəb riyaziyyat kursundan öyrənilir, lakin şagirdlər bunu uyğunluq adı ilə deyil, konkret misallarla öyrənirlər. Məsələn, həndəsi fiqurların xassələrini tədqiq edərkən, şagirdlər müstəvi üzərində yerləşən düz xətlər və çevrələri iki fərqli X və Y kimi çoxluqlara aid edirlər. X və Y çoxluqlarının hər birindən bir element, yəni bir düz xətt və bir çevrə götürsək, onların qarşılıqlı vəziyyətini aşağıdakı hallardan biri ilə təsvir etmək olar [1; 2]:

1) x düz xətti y çevrəsini iki müxtəlif nöqtədə kəsir;

2) x düz xətti çevrəyə toxunur – bu halda onların yalnız bir ortaq nöqtəsi olur;

3) x düz xətti ilə çevrənin heç bir ortaq nöqtəsi yoxdur.

X və Y çoxluqları olaraq N natural ədədlər çoxluğunun iki müxətlif altçoxluğunu götürək. Əgər x€X, y€Y olarsa, onda:

1) x=y, 2) x<y, 3) x>y, 4) D(x, y)=1 və s. kimi müxtəlif uyğunluqlar düzəldə bilərik.

Həmçinin eyni bir çoxluğun öz elementləri arasında da uyğunluq düzəltmək olar. Məsə-

lən, toplama, çıxma, vurma və bölmə əməllərinin hər birində eyni bir ədədlər çoxluğunun 3 elementindən istifadə edilir və ya onlar arasında uyğunluq yaradılır. Başqa sözlə desək, N çoxluğundan götürülmüş ixtiyari iki x və y ədədlərinə qarşı başqa bir z ədədini qoyuruq. Həmçinin iki a və b ədədləri üçün üçüncü bir c ədədi elə qarşı qoyulur ki, c=K(a, b) olsun. Bütün bu misallarda uyğunluq anlayışı ilə qarşılaşırıq.

Uyğunluq anlayışını izah etmək üçün Dekart hasil anlayışından istifadə edə bilərik [1]. Belə ki, aşağıdakı kimi iki çoxluğa baxaq:

A={10, 13, 21, 45}, B={20, 26, 30, 34, 42}

A×B={(10, 20), (10, 26), (10, 30), (10, 34), (10, 42), (13, 20), (13, 26), (13, 30), (13, 34), (13, 42), (21, 20), (21, 26), (21, 30), (21, 34), (21, 42), (45, 20), (45, 26), (45, 30), (45, 34), (45, 42)}

Bu çoxluqlar arasında elə uyğunluq yaradaq ki, b=2a münasibəti ödənilsin. Onda: D={(10, 20), (13, 26), (21, 42)} altçoxluğunu alarıq.

a<b uyğunluğunu yaratsaq, S={(10, 20), (10, 26), (10, 30), (10, 34), (10, 42), (13, 40), (21, 26), (21, 30), (21, 34), (21, 42)} altçoxluğunu alarıq.

Beləliklə, aydın olur ki, çoxluqlar arasında uyğunluq yaratdıqda, verilmiş çoxluqların Dekart hasilinin altçoxluqlarını alırıq.

Uyğunluq münasibətinin praktika və həyatla bağlı əlaqəsini göstərmək üçün aşağıdakı məsələlərdən istifadə etmək olar:

Məsələ 1. Azərbaycan dilində yazılmış mətndə hər bir sözə qarşı həmin sözün hərflərini axırdan əvvələ yazmaqla alınan sözü qoyuruq. Bu qayda ilə alınan uyğunluğun funksiya olub-olmadığını müəyyənləşdirin.

Aydındır ki, burada funksional asılılıq verilmişdir. Sözlərin müxtəlif hərflərlə yazıldığı şərti daxilində bu uyğunluğun qarşılıqlı birqiymətli asılılıq olduğunu və tərs funksiyanın varlığını hökm edə bilərik.

Məsələ 2. Auditoriyada hər partanın arxasında maksimum iki tələbə əyləşib. Belə bir uyğunluq yaradaq: hər tələbə ilə onun yanında oturan tələbə arasında və ya parta arxasında tək oturan tələbə ilə onun özü arasında. Bu uyğunluğun funksiya olub-olmadığını müəyyənləşdirin [3].

Bu uyğunluq da funksiyadır: auditoriyadakı tələbələr çoxluğunun iki altçoxluğu arasında yaradılmışdır.

Məsələ 3. Aşağıdakı həndəsi fiqurlar nömrələnmişdir:

x	Çevrə	kvadrat	kub	ellips	tetraedr	kuboid
f(x)	1	2	3	4	5	6

Alınmış uyğunluğun funksiya olduğunu tədqiq edin və f(x) funksiyasının tərs funksiyasını qurun.

Bu funksiyanın təyin oblastı həndəsi fiqurlar çoxluğu D(f)={çevrə, kvadrat, kub, ellips, tetraedr, kuboid}, qiymətlər oblastı isə ilk altı natural ədəddir.

Həndəsi fiqurları qiymətlər oblastı, natural ədədlər çoxluğunu isə təyin oblastı qəbul etsək, verilən funksiyanın tərs funksiyasını alarıq.

Məsələ 4. Üç nəfər (A, B, C) qaldıqları mənzildə həftəlik növbətçilik cədvəlini aşağıdakı şəkildə qurdu:

	1	2	3	4	5	6	7
A	■				■		
B			■			■	
C		■		■			■

Bu cədvələ əsasən, qurulan uyğunluğun funksiya olduğunu araşdırın.

Aydındır ki, burada X çoxluğu olaraq, həftənin günləri, Y çoxluğu olaraq həmin günün növbətçisini qeyd etsək, hər bir günə qarşı yalnız bir nəfər növbətçinin uyğun olduğu aydın olar. Deməli, növbətçilər çoxluğu ilə həftənin günləri çoxluğu arasında funksional asılılıq qurulmuşdur: f(x)=y. Cədvələ əsasən asılılıq nəzərdən keçirilməli, X çoxluğunun hər bir elementinə Y çoxluğunun yalnız və yalnız bir elementinin uyğunluğunun funksiya olduğu aydın olur. Lakin eyni adam həftənin iki, hətta üç günündə növbətçi olduğundan, bu funksiyanın tərs

funksiyasının qurulmasının qeyri-mümkün olduğunu qeyd etmək lazımdır.

Uyğunluq və funksiya anlayışları haqqında bilikləri möhkəmlətdikdən sonra, İKT tətbiqindən istifadə etmək olar. GeoGebra tətbiqi əlçatanlılıq baxımından münasib riyazi proqram vasitəsi olub, özündə bütün riyazi funksiyaları, qrafiklərin qurulmasını, ehtimal nəzəriyyəsinə, cəbrə, həndəsəyə, diskret riyaziyyata aid məsələləri və hesablamaları birləşdirir [4].



Şəkil 1

Proqramın köməyilə $f(x)=-\sqrt{x}$ $(x\geq 0)$ funksiyasının qrafikini quraq. Qrafikə əsasən funksiyanın xassələri, tərs funksiyasının varlığı, təyin və qiymətlər oblastı və digər mülahizələri söyləmək olar. Mobil tətbiq vasitəsilə qrafikin qurulması ona görə əlverişlidir ki, şagirdlər asanlıqla qrafiki böyüdüb nöqtələrin koordinatlarına baxmaq və qrafikin ekranda görünməyən hissəsini izləmək imkanına malik olur. Funksiyanın tərsi $g(x)=x^2$, $(x\leq 0)$ olacaq (şəkil 1).

Qeyd edək ki, tərs funksiyanın tapılması üçün qrafik üsul daha münasibdir. Bu halda şagird və tələbələr əyani şəkildə funksiyanın tərsinin olub-olmadığını müəyyən edir, asanlıqla onun qrafikini qura bilirlər. Kompüter texnikasının imkanlarından istifadə edilməsi bu məsələdə ən effektiv üsuldur. Funksiyanın qrafikinin dəqiq və vaxt itkisi olmadan qurulması riyaziyyat dərsinin keyfiyyətinin yüksəldilməsinə səbəb olur. İKT riyazi proqram paketləri imkan yaradır ki, müəllim qeyd olunan anlayışların izahını vizuallaşdırsın. Məsələn, kompüter proqramında əyani olaraq aşağıdakı funksiyaların öz-özü ilə tərs olduğunu nümayiş etdirmək olar (şəkil 2):

$$y=x;\ y=\frac{1}{x};\ y=\frac{x}{x-1}$$



Şəkil 2

Aktuallıq. İnformasiya cəmiyyəti təhsil sisteminin İKT əsasında qurulmasını, biliklərin praktik əhəmiyyətinin artırılmasını tələb edir. Bu baxımdan riyazi anlayışların öyrədilməsində müasir təlim texnologiyalarından, riyazi paketlərdən istifadənin düzgün qurulması problemi yaranır. Məqalədə bu problemlə bağlı metodik tövsiyələr verilmiş, uyğunluq, münasibət, funksiya kimi mühüm riyazi anlayışların öyrədilməsi məsələlərində İKT tətbiqlərindən istifadə yolları göstərilmişdir. Bu da məqaləni aktual edən əsas göstəricidir.

Problemin elmi yeniliyi. Məqalədə ali təhsil müəssisələrində riyaziyyat müəllimi hazırlığında İKT-dən istifadə ilə bağlı yeni metodik yanaşma təklif edilir.

Problemin praktik əhəmiyyəti. Riyazi anlayışların öyrədiməsində həyatla, praktika ilə bağlı məsələlərin həlli və bu məsələlərin İKT ilə vizuallaşdırılması dərsin əyaniliyini artıraraq, tədris prosesində daha yüksək nəticələr əldə edilməsinə imkan yaradacaq.

Ədəbiyyat

1. Ağayev, H.N. Riyaziyyata giriş (xüsusi kurs) / H.N. Ağayev. – Bakı: APİ, - 1993. – 128 s.
2. Cabbarov, İ.Ş. Ali cəbr kursu. Dərs vəsaiti. / İ.Ş. Cabbarov, M.M. Hümmətov. – Bakı: Mütərcim, - 2018. – 384 s.
3. Колмогоров, А.Н. Что такое функция // - МЦМНО: Квант, №1, - 1970. – с.27-62.
4. Абдуррахманов, А.Г. Применение математических пакетов в образовании на примере математического пакета Maple // - Саратов: Экономика и социум, - 2021. №3(82). –с. 761-768.

Redaksiyaya daxil olub: 04.06.2025

UOT 681.3:378

Lalə Sabir qızı Sadıxova,
Azərbaycan Dillər Universitetinin
Psixologiya kafedrasının baş müəllimi
https://orcid.org/: 0009-0006-1976-8628
E-mail: lala.sadixova31@inbox.ru
https://doi.org/10.69682/arti.2025.92(4).164-167

TƏLƏBƏLƏRİ ÖYRƏNMƏYƏ HƏVƏSLƏNDİRMƏK ÜÇÜN RƏQƏMSAL TEXNOLOGİYALARDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİ PROBLEMİ

Lala Sabir Sadıkhova,
senior lecturer of the department of Psychology at
Azerbaijan University of Languages

THE PROBLEM OF THE EFFECTIVENESS OF USING DIGITAL TECHNOLOGIES TO MOTIVATE STUDENTS TO LEARN

Лала Сабир гызы Садыхова,
старший преподаватель кафедры Психологии
Азербайджанского Университета Языков

ПРОБЛЕМА ЭФФЕКТИВНОСТИ ИСПОЛЬЗОВАНИЯ ЦИФРОВЫХ ТЕХНОЛОГИЙ ДЛЯ МОТИВАЦИИ СТУДЕНТОВ К ОБУЧЕНИЮ

Xülasə. Elmi məqalədə tələbələri öyrənməyə həvəsləndirmək üçün rəqəmsal texnologiyalardan istifadənin səmərəlilik problemi araşdırılır. Bunlarla yanaşı tələbələri öyrənməyə həvəsləndirmək üçün rəqəmsal texnologiyalardan istifadə imkanları, rəqəmsallaşma kontekstində universitet tələbələrinin təhsil və peşə motivasiyasının inkişaf xüsusiyyətləri nəzərdən keçirilir. Rəqəmsal texnologiyaların ali təhsildə tətbiqi ilə bağlı mövcud vəziyyətdə yaranan ziddiyyətlərin elmi şərhi verilir.
Açar sözlər: *universitet tələbəsi, ali təhsil, təhsil ehtiyacları, öyrənmə motivasiyası, rəqəmsal öyrənmə texnologiyaları*

Abstract. The scientific article considers the problem of the effectiveness of using digital technologies to motivate students to study. In addition, the possibilities of using digital technologies to motivate students to study, the features of the development of educational and professional motivation of university students in the context of digitalization are considered. A scientific interpretation of the contradictions arising in the current situation regarding the use of digital technologies in higher education is given.
Keywords: *university student, higher education, educational needs, learning motivation, digital learning technologies*

Аннотация. В научной статье рассматривается проблема эффективности использования цифровых технологий для мотивации студентов к обучению. Кроме того, исследуются возможности использования цифровых технологий для мотивации студентов к обучению, особенности развития учебной и профессиональной мотивации студентов вузов в условиях цифровизации. Дается научная интерпретация противоречий, возникающих в современной ситуации относительно применения цифровых технологий в высшем образовании**.**
Ключевые слова: *студент вуза, высшее образование, образовательные потребности, учебная мотивация, цифровые технологии обучения*

Proqram təminatının təkamülü və universitet təhsilinə yeni yanaşmalar rəqəmsal texnologiyalardan istifadəni xüsusilə vacib edir. Rəqəmsal texnologiyalar getdikcə daha geniş yayılır və bu da onların istifadəsinin cari təhsil fəaliyyətinin aparılması üçün zəruri ola-

cağı məqama gətirib çıxarır. Bu baxımdan, universitet tələbələrinin təhsil motivasiyasının stimullaşdırılmasında rəqəmsal texnologiyaların imkanları məsələsinin öyrənilməsinə tələbat vardır.

Bu imkanları dərk etmək və onların köməyi ilə universitetin təhsil rəqəmsal resurslarından istifadə edərək tələbələrin öyrənməyə marağını dəstəkləmək, onların müstəqilliyini inkişaf etdirmək lazımdır. Rəqəmsal məzmunun məxfilik, təhlükəsizlik və əlçatanlıq məsələləri də az əhəmiyyət kəsb etmir. Rəqəmsallaşmanın universitet müəllimlərinin motivasiyasına, tədrisdə innovativ yanaşmalar üçün yeni yolların açılması imkanlarına təsiri nəzərə alınmalıdır. Universitetlərdə yeni texnologiyalardan mümkün qədər səmərəli istifadə etmək ali təhsildə tədris prosesinin rəqəmsallaşdırılması problemi ilə bağlı tədqiqatların aktuallığını bir daha göstərir.

Rəqəmsal texnologiyaların ali təhsildə tətbiqi ilə bağlı mövcud vəziyyət bir sıra ziddiyyətlərlə mürəkkəbləşir:

1) ***Tələbələrin maraqları və ehtiyacları arasında ziddiyyət.*** XXI əsrdə doğulan gənclərin nəsli süni intellekt və artırılmış reallıqsız dünyanı təsəvvür edə bilməz. Rəqəmsal texnologiyalar tələbə gəncləri daha çox cəlb edir, onların peşə tələbatlarının qarşısını alır. Rəqəmsal məkanda ünsiyyət, təhsil məlumatlarının mübadiləsi məqsədilə tələbələrin əsas ehtiyacına çevrilir, gənclər gündə bir neçə saat sosial şəbəkələrdə vaxt keçirirlər. Universitetlər tərəfindən istifadə edilən rəqəmsal texnologiyalar heç də həmişə bu ehtiyacı nəzərə almır, onların həyata keçirilməsi təhsil motivasiyasını stimullaşdıra bilər.

2) ***Şəxsi məlumatların məxfiliyi ilə onların mühafizəsinin aşağı səviyyəsi arasında ziddiyyət.*** Ali təhsil müəssisələrində rəqəmsal texnologiyalardan istifadə tələbələrin şəxsi məlumatlarının təhlükəsizliyi ilə bağlı narahatlıq yaradır. Onlayn məxfiliyin qeyri-kafi təmin edilməsi də tələbələrin rəqəmsal öyrənmə alətlərinə inamını azalda bilər.

3) ***Yenilik və ənənə arasındakı ziddiyyət.*** Ali təhsil müəssisələrində rəqəmsal alətlər ənənəvi təhsili tamamlaya və gənc texnologiyayönlü nəslin keyfiyyətli təhsilə olan ehtiyaclarını ödəyə bilər. Bu müəllimlərin və universitet rəhbərliyinin müqavimətinə səbəb ola bilər.

Belə ki, rəqəmsal texnologiyalar vasitəsilə tələbələrin təlim motivasiyasının formalaşdırılması üzrə tədqiqatların aparılması bu texnologiyalardan istifadə zamanı yarana biləcək ziddiyyətlərin öyrənilməsi və aradan qaldırılması üçün zəruridir. Bu da, öz növbəsində, müasir universitetlərdə tədris prosesinin səmərəliliyinin artmasına səbəb olar. Təhsil motivasiyası və onun formalaşması pedaqogika və psixologiyada hərtərəfli öyrənilmiş problemdir, çünki o, təlim prosesinin effektivliyini böyük ölçüdə müəyyən edir. *V. P. Kaşirin* motivi insanı hərəkətə keçməyə stimullaşdıran ehtiyac və ya ehtiyaclar toplusu kimi müəyyən edir [3]. O, yazır ki, motivlər insanın müəyyən ehtiyaclarının yaranması nəticəsində yaranan fəaliyyət və davranış üçün daxili stimullardır.

Mahiyyət etibarilə, motivlər insanın ehtiyaclarının ifadə olunduğu üsula çevrilir. *P.M. Yacobson* şəxsiyyətlərarası ünsiyyət kontekstində motivləri başa düşməyin vacibliyini qeyd edir. İnsanlar arasındakı bütün qarşılıqlı əlaqələrin əsasını onların həm aşkar, həm də şüursuz ola bilən daxili istəkləri və məqsədləri təşkil edir. Onun fikrincə, insan fəaliyyətinin istənilən formasında uğur bu motivləri dərk etməkdən başlayır.

P.M. Yacobson təhsil prosesində motivasiyanın rolunu xüsusilə vurğulayır. O, iddia edir ki, öyrənmənin effektivliyi əsasən tələbənin yeni şeyləri öyrənmək üçün daxili istəyindən asılıdır. *N. V. Bordovskaya* motivi insanın iş, ünsiyyət, davranış kimi müxtəlif fəaliyyət növlərinə daxili istəyi kimi təsvir edir. Bu istək konkret şəxsi ehtiyacların ödənilməsi prosesində yaranır. *N.V. Bordovskayanın* fikrincə, motivasiya həyati, bioloji və sosial ehtiyaclar da daxil olmaqla geniş spektrli ehtiyacları ödəmək istəyinə əsaslanır [1].

Rəqəmsal texnologiyalar tələbələrin cəmiyyətdə dominant ideyaları ilə müəyyən edilən yeni təhsil ehtiyaclarını formalaşdırır – maddi artım, statusun yüksəlməsi, mənəvi baxımdan özünütəsdiqləmə, sosial uyğunlaşma, özünüreallaşdırma. Mövcud şəraitdə ***obyektiv ehtiyaclar*** İKT səriştələri, onların tətbiqi ilə bağlı fəaliyyət sahələri, fərdi təhsilin innovativ formaları sahəsində müəyyən bilik və bacarıqlara ehtiyac kimi görünür. ***Subyektiv ehtiyaclara*** ünsiyyət ehtiyacı (məsələn, müəllimlər və digər tələbələrlə həm oflayn, həm də onlayn),

yerinə yetirilən tapşırığa tez cavab almaq ehtiyacı, xüsusi olaraq rəqəmsal təhsil mühitində dəstək və təşviq (tez cavab və müəyyən təbliğat) daxildir.

Müasir ali təhsil müəssisələrinin müəllimlərinin vəzifələrindən biri də müasir tələbələrin idrak ehtiyaclarını bilmək və onları təhsilə həvəsləndirmək üçün rəqəmsal texnologiyaların imkanlarından istifadə etməkdir. Rəqəmsal texnologiyaların təhsilə təsirini təhlil edən müasir xarici və yerli nəşrlər rəqəmsal vasitələrin müsbət motivasiya təsirini aydın şəkildə qeyd edir.

Tələbələrin akademik intizamının öyrənilməsinin başlanğıcından rəqəmsal alətlərdən istifadədə fəal iştirakı və cəlb edilməsi öyrənməyə marağı inkişaf etdirmək və saxlamaq üçün əsas elementlər kimi təqdim olunur. Tələbələri rəqəmsal məkanda potensial məxfilik və təhlükəsizlik problemləri haqqında məlumatlandırmaq, onlara mümkün mənfi ssenarilərin qarşısını almaq üçün strategiyalar təklif etmək vacibdir. Bu tövsiyələr rəqəmsal texnologiyaların seçimi və istifadəsinin əsas rol oynadığı daha dərin və cəlbedici tədris prosesinin təşkilinə xidmət edir. Rəqəmsal təhsil mühitinin təhlükəsizliyi problemi əhəmiyyətinə görə öyrənmə motivasiyasının əbədi problemindən zəif deyil [5].

Yerli alimlər rəqəmsal texnologiyaların tələbələrin təhsil motivasiyasını stimullaşdıra biləcəyi yolları diqqətlə öyrənirlər. Xüsusilə, *E.V. Şibanova və K. A. Ziminanın* bu mövzuda apardıqları reprezentativ tədqiqatlarda müxtəlif ixtisaslar üzrə 139 tələbə iştirak etmişdir. Nəticələr göstərmişdir ki, tələbələrin 65%-ə qədəri rəqəmsal alətlərə maraq göstərir və bu, onların istifadəsinin müntəzəmliyindən asılı olaraq artır. Müvafiq olaraq uzunmüddətli perspektivdə koqnitiv marağı və təhsil motivasiyasının artımını stimullaşdırır [7].

V.Q. Konyuxovun tədqiqatı rəqəmsal texnologiyaların təhsil prosesində tələbələrin müstəqilliyinin və məsuliyyətinin inkişafına verdiyi töhfəni vurğulayır. Burada texnologiyalardan istifadənin onların motivasiyasını artırmağa necə kömək etdiyi göstərilir. Müxtəlif rəqəmsal vasitələrin, o cümlədən oyun elementləri, media texnologiyaları və onlayn öyrənmənin effektivliyi və onların tələbələrin öyrənməyə marağının stimullaşdırılmasına müsbət təsiri təsvir edilmişdir [4].

Q.S. Məmmədovanın işində müasir tədris prosesi üçün informasiya-kommunikasiya texnologiyalarının (İKT) əhəmiyyəti və onların qeyri-standart şəkildə tətbiqi imkanları araşdırılır. Qeyd olunur ki, İKT tələbələrdə müstəqil öyrənmə vərdişlərinin aktivləşməsinə və əldə olunan biliklərin sistemləşdirilməsinə kömək edir. İKT sayəsində tələbələr müxtəlif tədris metodlarına çıxış əldə edirlər: şifahidən tutmuş axtarışa və yaradıcılığa qədər materialın öyrənilməsində müstəqillik və yaradıcılıq nümayiş etdirməyə imkan verir [6].

Müasir ali təhsil müəssisələrində tələbələrin təlim motivasiyasının inkişaf etdirilməsi probleminə baxılarkən qeyd olunur ki, təcrübəli və yetkin müəllimin canlı iştirakı ilə gənci təlim prosesinə cəlb etmək və təhsil motivasiyasını inkişaf etdirmək mümkündür.

Yüksək ixtisaslı və motivasiyalı universitet müəllimi tələbə ilə rəqəmsal öyrənmə vasitəsi arasında canlı rəyin təminatçısıdır. Bu da, öz növbəsində, ali təhsil zamanı peşəkar bacarıqların formalaşmasına təminat rolunu oynayır. Məqalədə rəqəmsallaşma kontekstində universitet tələbələrinin təhsil və peşə motivasiyasının inkişaf xüsusiyyətləri nəzərdən keçirilir. Yeni imkanlardan istifadə edərək tələbələrin müstəqil işini təşkil etmək üçün motivasiyanın inkişafı üçün ən təsirli üsullara diqqət yetirilir [2].

Tələbələrə texnologiyadan uğurlu və uğursuz istifadə nümunələri göstərmək, onları prosesə fəal cəlb etmək, ümumi marağı təşviq etmək və bu mövzuların müntəzəm müzakirəsinə dəstək vermək vacibdir. Hər hansı yeni rəqəmsal texnologiyanı tətbiq etməzdən əvvəl tələbələrə potensial məxfilik, təhlükəsizlik və əlçatanlıq problemləri haqqında məlumat verilməli və onların həlli üsulları müzakirə edilməlidir.

Rəqəmsal məkanda risklər haqqında tələbələri məlumatlandırmaq üçün bir neçə üsul mövcuddur. Bunlara daxildir:

1. Müəllimlər və ya ekspertlər tərəfindən verilən mühazirələr və təqdimatlar İnternetdə müxtəlif növ təhlükələri vurğulaya bilər. Bu cür sessiyalar real həyat nümunələri ilə dəstəklənən kiber zorakılıq və kiber cinayəti əhatə edə bilər.

2. İnternet təhlükəsizliyi üzrə qısa onlayn kurslar və ya vebinarlar həm tələbələr,

həm də rəqəmsal texnologiyaları öyrənən müəllimlər üçün faydalı ola bilər.

3. İnternet təhlükəsizliyinə dair məlumat kitabçalarının və ya vərəqlərin hazırlanması və yayılması da effektiv üsuldur. Əhəmiyyətli cəhət tələbələrin onlayn dizayn alətlərindən istifadə edərək bu materialların yaradılmasına cəlb edilməsidir. Hazır resurslar kitabxanalarda və ya əlçatan ictimai yerlərdə yerləşdirilə bilər.

4. Müzakirə qruplarının və ya onlayn forumların təşkili (məsələn, MOODLE sistemi vasitəsilə) tələbələr və müəllimlər arasında rəqəmsal mühitdə təhlükəsizlik məsələlərinin müzakirəsini və təcrübə mübadiləsini asanlaşdırır.

5. Təhlükəsizliyə dair fərdi məsləhətlərin verilməsi fərdi dəstəyə ehtiyacı olan tələbələrə şəxsi məlumatlarını necə qorumaq barədə məsləhətlərə kömək edir.

Bu üsullar xüsusi ehtiyaclardan və mövcud resurslardan asılı olaraq ya kombinasiyada, həm də fərdi şəkildə istifadə edilə bilər.

Problemin aktuallığı. Tədqiqatın aktuallığı tələbələri öyrənməyə həvəsləndirmək üçün rəqəmsal texnologiyalardan istifadənin effektivlik problemini araşdırmaqdır.

Problemin elmi yeniliyi. Elmi məqalədə tələbələri öyrənməyə həvəsləndirmək üçün rəqəmsal texnologiyalardan istifadə imkanları, rəqəmsallaşma kontekstində universitet tələbələrinin təhsil və peşə motivasiyasının inkişaf xüsusiyyətləri nəzərdən keçirilir.

Problemin praktik əhəmiyyəti. Məqalədə ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

Ədəbiyyat

1. Бордовская Н. В. Учебная мотивация как фактор развития терминологической компетентности студентов / Н. В. Бордовская, М. А. Тихомирова // Человек и Образование. 2017, №1 -с.9–13.
2. Ганичева И.А. Развитие учебно-профессиональной мотивации студентов в условиях цифровой трансформации образования // Человеческий фактор: Социальный психолог. 2023. № 4, -с.81–87.
4. Каширин В.П. Мотивация учебно-познавательной деятельности // Вестник Российского нового университета. Серия: Человек в современном мире. 2013. № 1. -с. 44–48.
5. Конюхов В.Г. О применении цифровых технологий для повышения познавательной активности студентов // Инновации. Наука. Образование. 2022. № 51. с.149–151.
6. Лазарева Л.В. Как цифровые технологии мотивируют студентов к обучению / Л. В. Лазарева, Н.М. Стяжкова // Вопросы журналистики, педагогики, языкознания. 2023. Т. 42, № 4. с. 658–671. DOI
7. Мамедова Г.С. Организация самостоятельной работы магистров с использованием информационных и коммуникационных технологий // Мир науки, культуры, образования. 2022, № 5. -с. 137–139.
8. Шибанова Ю.В. Цифровые технологии как средство развития учебной мотивации студентов среднего профессионального образования/ Ю.В. Шибанова, К.А. Зимина // Modern Science. -2021.№ 1-2, с.- 335–338.

Redaksiyaya daxil olub: 10.06.2025

UOT 681.3:378

Kənan Tacəddin oğlu Allahverdiyev,
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0005-2379-4725
E-mail: kenan.allahverdi.0@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(4).168-173

PEŞƏ TƏHSİLİ İXTİSASLARINDA ELEKTRON TƏHSİLİN İSTİFADƏSİ: MÖVCUD NƏZƏRİ YANAŞMALARIN SİSTEMLƏŞDİRİLMƏSİ

Kanan Tajaddin Allahverdiyev,
doctoral student in the program
of doctor of philosophy of the
Institute of Education of the Republic of Azerbaijan

USE OF E-LEARNING IN VOCATIONAL EDUCATION SPECIALTIES: SYSTEMATIZATION OF EXISTING THEORETICAL APPROACHES

Кянан Таджеддин оглы Аллахвердиев,
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики

ИСПОЛЬЗОВАНИЕ ЭЛЕКТРОННОГО ОБУЧЕНИЯ В СПЕЦИАЛЬНОСТЯХ ПРОФЕССИОНАЛЬНОГО ОБРАЗОВАНИЯ: СИСТЕМАТИЗАЦИЯ СУЩЕСТВУЮЩИХ ТЕОРЕТИЧЕСКИХ ПОДХОДОВ

Xülasə. Peşə təhsili son dövrlərdə dünyanın gedişatına təsir göstərən geostrateji dəyişiklərin yol açdığı problemlərlə üzləşir. Müasir texnoloji inkişaf, dünyada iqtisadi gücün ölkələr arasında yenidən paylanması, şəhərlərin sürətlə genişlənməsi və demoqrafik dəyişiklər peşə təhsilinə əmək bazarının və cəmiyyətin ehtiyaclarına daha yaxşı cavab verməsi daha vacib hala gəlmişdir. Getdikcə daha geniş vüsət almaqda olan elektron təhsil peşə təhsili müəssisələrində tədris fəaliyyəti keyfiyyətinin yüksəldilməsində əhəmiyyətli bir yol kimi qəbul edilir. Bu haqda kifayət qədər tədqiqatların olmasına baxmayaraq, hələ də elektron təhsil vasitələrinin istifadəsi ilə öyrənmənin mənfi və müsbət cəhətləri arasında fikir ayrılıqları mövcuddur. Bundan başqa, aparılmış bəzi tədqiqatlar şirkətlərdə elektron təhsilə olan marağın getdikcə azaldığını göstərir. Peşə təhsili sahəsində elektron təhsilin təsirlərini nələrə yol açdığını öyrənmək və mənfi və müsbət cəhətlərini müəyyən edərək, ondan daha səmərəli istifadəni təmin etmək üçün müxtəlif ədəbiyyatları nəzərdən keçirdik. Mənbələri araşdırandan sonra belə bir nəticəyə gəldik ki, öyrənənlər və elektron təhsil təminatçıları üçün bu olduqca səmərəli bir üsuldur, sadəcə, riskləri minimuma endirmək üçün elektron və əyin təhsil formalarından hibrid formada istifadə edilə bilər və daha effektiv olması üçün e-təhsil üçün hazırlanmış konsepsiyalar inkişaf etdirilməlidir.

Açar sözlər: *Peşə təhsili, elektron təhsil, rəqəmsallaşma, onlayn öyrənmə, distant təhsil, təhsil texnologiyaları, e-təhsilin üstünlükləri, e-təhsilin çatışmazlıqları*

Abstract. Vocational education has recently been facing challenges caused by geostrategic changes that have affected the course of the world. Modern technological development, the redistribution of economic power among countries in the world, the rapid expansion of cities and demographic changes have made it more important for vocational education to better respond to the needs of the labor market and society. E-learning, which is becoming increasingly widespread, is considered an important way to improve the quality of teaching activities in vocational education institutions. Despite the lack of sufficient research on this topic, there are still disagreements about the negative and positive aspects of using e-learning tools and learning. In addition, some studies have shown that interest in e-learning in companies is gradually decreasing. We reviewed various literature to find out what the effects of e-learning on vocational education are and to identify its negative and positive aspects and ensure its more effective use. After reviewing the

sources, we came to the conclusion that this is a very effective method for learners and e-learning providers, but to minimize risks, electronic and e-learning forms can be used in a hybrid form, and concepts designed for e-learning should be developed to make it more effective.

***Keywords**: Vocational education, e-learning, digitalization, online learning, distance learning, educational technologies, advantages of e-learning, disadvantages of e-learning*

Аннотация. В последнее время профессиональное образование сталкивается с проблемами, вызванными геостратегическими изменениями, которые повлияли на ход развития мира. Современное технологическое развитие, перераспределение экономической мощи между странами мира, быстрое расширение городов и демографические изменения сделали профессиональное образование более важным для лучшего реагирования на потребности рынка труда и общества. Электронное обучение, которое становится все более распространенным, считается важным способом повышения качества преподавательской деятельности в учреждениях профессионального образования. Несмотря на отсутствие достаточных исследований по этой теме, все еще существуют разногласия относительно отрицательных и положительных сторон использования средств электронного обучения. Кроме того, некоторые исследования показали, что интерес к электронному обучению в компаниях постепенно снижается. Мы изучили различную литературу, чтобы выяснить, каково влияние электронного обучения на профессиональное образование, а также выявить его отрицательные и положительные стороны и обеспечить его более эффективное использование. Изучив источники, мы пришли к выводу, что это очень эффективный метод для учащихся и поставщиков услуг электронного обучения, но для минимизации рисков электронные и электронные формы обучения могут применяться в гибридной форме, а концепции, предназначенные для электронного обучения, должны быть разработаны, чтобы сделать его более эффективным.

***Ключевые слова:** профессиональное образование, электронное обучение, цифровизация, онлайн-обучение, дистанционное обучение, образовательные технологии, преимущества электронного обучения, недостатки электронного обучения*

Davamlı qloballaşma və bazarlar arasındakı sərhədlərin getdikcə aradan qalxması bir çox şirkətlərə bacarıqlı kadrların tapılmasında, xərc və innovasiyaların düzgün idarə edilməsində çətinliklər yaradır. Bundan başqa, Kompüter, smartfon və digər bu kimi alətlərin artması ilə rəqəmsallaşma və elektron şəbəkələr həyatımızın demək olar ki, hər sahəsini əhatə edir. Sürətli rəqəmsallaşma və texnoloji inkişaf şirkətlər daxilində təlimə olan ehtiyacların artmasına yol açması ilə onların xərclərinin artmasına və işlərinin ləngiməsinə səbəb olduğu üçün ölkənin davamlı inkişafını təmin etmək üçün peşə təhsil müəssisələri əmək bazarında istifadə olunan texnoloji cihazların istifadəsini öyrənə biləcəkləri alətlərlə təmin olunmalıdırlar. Bununla belə, qeyd etməliyik ki, sinif otaqları nə qədər yaxşı təchiz olunsa da, dünyada baş verən dəyişikliklərdən xəbərdar olmaq üçün elektron təhsil formalarında istifadə etmək günün tələbidir.

Son on il ərzində elektron təhsil ali, peşə, ibtidai və orta məktəb səviyyəsində təhsil keyfiyyətinin yüksəlməsində mühüm öyrənmə alətinə çevrilmişdir. Öyrənmək üçün məkan qavramını aradan qaldırması, öyrənmə vaxtının, yerinin və müddətinin öyrənən tərəfindən seçilməsi imkanı kimi üstünlüklər tanıyan e-təhsil bu gün və gələcək üçün aktualdır. Təlimçilərə və öyrənənlərə zaman və məkan anlayışını aradan qaldırmasıyla bərabər, eyni zamanda, elektron medianın təlim prosesində istifadə edilməsi öyrənmə motivasiyasının artmasına, öyrənmə prosesinin yaxşılaşmasına və təlim xərclərinin azalmasına şərait yaradır. Bütün sadalananlara baxmayaraq, bir çox tədqiqatlar elektron təhsilin peşə təhsilində öyrənməni yaxşılaşdıracağını göstərsə də, onun hazırkı peşə ixtisaslarına inteqrasiyasının müəllim fəaliyyəti, onun elektron təhsilə münasibəti, eləcə də peşə təhsili müəssisələrindəki müasir infrastruktura ehtiyac kimi müxtəlif maneələr səbəbilə zaman alacağını göstərir. Bəzi şirkətlərin e-təhsillə yaşadıqları uğursuz təcrübələr ona qarşı olan marağın azalmasına səbəb olub. Bunun əsas səbəblərindən biri də müəllim və təlimçilərin elektron təhsil sahəsində kifayət qədər təcrübə və səriştəyə sahib olmaması, təhsil ənənələri və mədəni meyllər daxildir.

Bu problemlərin aradan qaldırılması üçün bu tendensiyaların ardında duran səbəblər müəyyən edilməli, təhsilin növ və formaları təhlil olunmalı və e-təhsilə qarşı baxış və konsepsiyalar sistemləşdirilməlidir. Bu yolda ənənəvi

təhsillə elektron təhsilin müsbət və mənfi cəhətlərinin tədqiq edilməsi də elektron təhsilin effektiv və uğurlu istifadəsinə nail olmaqda mühüm məsələlərdəndir.

Bu məqaləni yazmaqla elektron təhsil haqqında aparılmış tədqiqatlar haqqında məlumat vermək və onun peşə təhsili ixtisaslarında daha yaxşı istifadəsi üçün məsləhətlər verməyi hədəfləyirik. Bu tapşırığı yerinə yetirmək üçün dörd istiqamətə – e-təhsil nədir, formaları, üstünlükləri və çatışmazlıqları – diqqət yetirəcəyik. Əvvəlcə e-təhsilin nə olduğunu müəyyən etmək, daha sonra isə onun nəzəri əsasları haqqında ətraflı məlumat vermək lazımdır. Ədəbiyyatlara nəzər yetirərkən, e-təhsili izah edən müxtəlif təriflərlə qarşılaşdıq. Məsələni konkret araşdıra bilmək və müxtəlif tədris formalarını müəyyən meyarlara uyğun təsnif etmək üçün peşə təhsili çərçivəsində bir tərif tapmaq lazımdır. Üçüncü fəsildə peşə təhsili müəssisələrində klassik üsulda istifadə olunan formatlarla müqayisədə elektron təhsilin mənfi və müsbət tərəfləri haqqında bəhs etmişik. Bəhs olunan mənfi və müsbət cəhətləri müəyyən etmək məqsədilə elmi ədəbiyyatda mövcud olan yanaşmalar, konsepsiyalar və müxtəlif elmi fikirlərə dayanaraq elektron təhsilin üstünlükləri və çatışmazlıqları müqayisə olunur.

Elektron təhsil ilk dəfə ilk dəfə 1990-cı illərin ikinci yarısından sonra ortaya çıxmasına baxmayaraq, geniş istifadəçi kütləsinə çata bilmədi. Elektron təhsil, veb-əsaslı təlim, distant təlim, mobil təlim, onlyan öyrənmə kimi bir çox formada olduğu üçün ona ümumi tərifl izah etmək olduqca çətindir. Lehmann və Bloh bildirirlər ki, e-təhsil dedikdə bütün növ virtuallaşdırılmış təhsil nəzərdə tutulmalıdır. Şnekenburger elektron təhsili elektron medianın istifadəsilə informasiya almaq kimi qiymətləndirir. Hər iki tərifdə əsas fərq "virtuallaşdırılmış" və "elektron" sözlərində olmaqla demək olar ki, eyni fikri izah edirlər. Döringin fikrincə, e-təhsil öyrənmə və tədrisin bir forması deyil, əksinə sadəcə ümumi, qısa məlumatların alına biləcəyi bir ssenarini əhatə edir. Reinmann-Rothmeier düşünür ki, e-təhsil internet əsaslı da daxil olmaqla, media mərkəzli öyrənmənin bütün formaları üçün ümumi termin kimi istifadə oluna bilər. Bütün qeyd olunan təriflərdən belə bir nəticəyə gələ bilərik ki, e-təhsil strategiyası və ya metodu deyil, lakin internet əsaslı mediadan istifadə edərək təlim proseslərinin dəstəklənməsinə əhəmiyyətli rol oynayır. Bununla belə, elmi ədəbiyyatda terminologiya haqqında bir-birinə bənzəyən müxtəlif fikirlərin mövcud olmasına baxmayaraq elektron təhsil haqqında tərifləri iki əsas qrupa bölmək olar. Onlardan birincisində elektron təhsil geniş çərçivədə, kompüter əsaslı öyrənmənin bütün mümkün formalarını ümumi termin kimi əhatə olunur (1. Durchführung der Studie). Bu zaman elektron media deyiləndə, sadəcə kompüter deyil, eyni zamanda televiziya, radio, və CD/DVD player də daxil edilə bilər. İkinci qrupdakı tərifl isə elektron təhsil anlayışını konkret bir sahədə izah etmək istəyir. E-ticarət və ya e-biznes sözlərindəki "e" prefiksi e-təhsil sözündəkilə eyni olub, internet əsaslı bir hadisəni izah etmək üçün istifadə edilir. Lenz (2. s. 36) dissertasiyasında e-təhsil termini haqqında üçüncü növ bir tərif verərək, onun zamandan və ya məkandan asılı olmayan bir təhsil modeli kimi qeyd edir. Burada öyrənmə prosesinin onlayn və ya offline olması, hansı növ mediadan istifadə olunması heç bir əhəmiyyət daşımır. Təriflərin üç əsas qrupda toplanmasına baxmayaraq, e-təhsil terminin mənası hələ də qeyri-müəyyən və geniş olaraq qalır. Kompüter əsaslı təlim, təhsil kanalları, vebinarlar, onlayn kurslar, videokonfranslar, YouTube, sosial media, bloqlar, e-poçt, Skype, chat, xəbər bülletenləri və s. kimi müxtəlif vasitəsilə məlumatların paylaşılmasında nəzərə çarpan bir fərq yoxdur. Şnekenburger ideyaları və texniki inkişaflar olduqca müxtəlif olduğu üçün e-təhsili izah edəcək konkret bir konsepsiya mövcud deyil. Günü-gündən rəqəmsal medianın yeni növləri, məlumat və məlumat mübadiləsi formaları ortaya çıxır və onlarla birlikdə bu mövzu ətrafında yeni terminlər meydana gəlir, ona görə də artıq e-təhsilin nə olduğundan daha çox onun peşə təhsilində səmərəli istifadəsini araşdırmalıyıq.

Yuxarıda qeyd etdiyimiz kimi e-təhsil istifadə formasına görə, onlayn və oflayn və ya veb-əsaslı və kompüter əsaslı olaraq iki əsas kateqoriyaya bölünür. Onlayn öyrənmə yalnız internet bağlantısı mümkün olan cihazlarda qoşulmanı təmin edir, oflayn öyrənmədə isə internet olmayan cihazlarda da istifadə oluna bilən media nəzərdə tutulur.

Bəzi alimlər elektron təhsildə rəsmi və qeyri-rəsmi təlimlər arasında fərq olduğunu qeyd edir. Bunu fərqləndirmək olduqca sadədir.

Rəsmi təlimlərdə rəsmi şəkildə qeydiyyatdan keçmə tələb olunur, provayderlər tərəfindən planlaşdırılır və əvvəlcədən müəyyən edilmiş tarixdə həyata keçirilir. Bu cür təlimlərdə adətən ödəniş tələb olunur və prosesin keyfiyyətinin yüksəldilməsi üçün virtual müəllimlər və texniki işçilər tərəfindən professional xidmət göstərilir. Sadalananlardan başqa, rəsmi elektron təhsil konkret məqsəd və ixtisaslarla əlaqəli olub, imtahan və ya sertifikatla başa çatır. Qeyri-rəsmi təhsil isə təlimçilik sertifikatına sahib olub-olmaması bilinməyən "təlimçilər" tərəfindən youtube, X, Facebook və s. müxtəlif sosial şəbəkələrdə yayılır.

Elektron təhsilin funksional və məqsədyönlü formasını da qeyd edən tədqiqatlar var. Funksional e-təlim əsasən iş zamanı baş verir və burada konkret bir problem ortaya qoyulmaqla, onun həlli ətrafında baş tutur. Bunu peşə təhsili tələbələri üçün praktika müddətində etmək mümkündür. Məqsədyönlü təlim isə didaktik və metodik şəkildə əvvəlcədən hazırlanmış proqramın şagirdlərə ötürülməsidir. Son qeyd olunan təlim anlayışı müəllim mərkəzli, yəni müəllim tərəfindən sistemləşdirilən və idarə olunan formadır.

De Vittin fikirnə görə elektron təhsil mobil öyrənmə, sosial öyrənmə və oyun əsaslı öyrənmə olmaqla üç əsas tendensiyaya əsaslanır. Mobil öyrənmə sensor ekranlı telefonlar, kompüterlər və planşetlər kimi mobil cihazlarda baş tutur. Elektron təhsilin asan əlçatan olması ilə getdikcə populyarlaşır. Sosial öyrənmə müəyyən bir maraq ətrafında toplanan qrupların iştirakını tələb edən öyrənmə formasıdır. Belə oyunlar adətən Facebook, Twitter, forumlar, LinkedIn, Xing və s. kimi sosial şəbəkələrdə baş tutur. Belə öyrənmədə iştirak edən hər kəs maraqlı olduğu üçün qrupun dinamikasının hesabına tez zamanda müvəffəq olmaq mümkündür. Üçüncü forma isə oyun əsaslı öyrənmədir. Burada söhbət simulyasiya oyunları, kompüter oyunları və s. kimi öyrədici xarakter daşıyan oyunlardan gedir. Bu prosesdə əvvəlcədən qəbul edilən qaydalar əsasında real həyatdakı müxtəlif vəziyyətlər şagird üçün simulyasiya edilir. Oyuna əsaslanan öyrənmə adətən stress yaradan elementləri və ya əyləncəni deyil, eyni zamanda xüsusi təlim məqsədləri daşıyan yetkin didaktik konsepsiyaları da özündə cəmləşdirir.

Zinkeyə görə elektron təhsil müəllim, öyrənən və komanda mərkəzli olmaqla üç əsas halda baş tutur (3 s. 44). Birincidə bütün sistem müəllim tərəfindən idarə olunur, ikincidə öyrənən tərəfindən kortəbii şəkildə başlanan və problemyönlü öyrənmədir. Üçüncü isə qrup halında öyrənmədir ki, burada tələbələr kiçik qruplar halında bir problemin həlli üçün çalışırlar. Öyrənmənin üç əsas forması var. İlkin olaraq fərdi dərsə nəzər salaraq bildirməliyik ki, burada yalnız məlumat alına biləcək materiallar olur. Bunlardan ikincisi, dərslik dəstəkli öyrənmədir. Burada şagirdlərə müəllim tərəfindən birbaşa nəzarət olunur. Üçüncüsü isə, əməkdaşlıq əsaslı öyrənmədir ki, burada tələbələr dərslərini birlikdə həll edə və həll yollarını qrup şəklində müzakirə edə bilərlər. Yekun olaraq belə bir nəticəyə gələ bilərik ki, yuxarıda qeyd olunan bütün təlim formalarının özlərinə xas müsbət və mənfi tərəfləri var. Yaxşı olar ki, təlim prosesində bütün təlim formalarından istifadə edilsin.

Qısaca, elektron təhsil vebinarlar, virtual siniflər, podkastlar, çatlar, forumlar, sosial media, oyunlar, dərs videoları kimi müxtəlif formalarla izah oluna bilər. Təsnifat xüsusiyyətlərinə elektron təhsili öyrənmənin növü (formal, qeyri-formal) öyrənmənin məqsədi (funksional və məqsədyönlü), öyrənmə meylləri (mobil öyrənmə. sosial öyrənmə və oyun əsaslı öyrənmə), öyrənmə fəaliyyəti (fərdi, əməkdaşlıq, tutorial) və öyrənmə mühiti (onlayn və oflayn və ya veb-əsaslı və kompüter əsaslı) adı altında sistemləşdirə bilərik.

Elektron təhsilin öyrənənləri, müəllimləri və provayderləri (şirkətlər, təlim mərkəzləri, PTT məktəbləri) bir çox üstünlüklərlə təmin etsə də, bəzi çatışmazlıqları da var. Yeni-yeni məşhurlaşdığı zamanlarda elektron medianın istifadəsi böyük həvəs yaratsa da, zamanla bu özünü tam doğrultmadı (4 s.1). Buna görə də tədqiqat aparan zaman sadəcə müsbət cəhətləri deyil, gələcəkdə baş verə biləcək problemlərin qarşısının alınması üçün mənfi cəhətləri, riskləri, problemləri də tədqiq etmək vacibdir.

Ənənəvi təhsillə müqayisə də elektron təhsil bir çox üstünlüklərə sahibdir. E-təhsil uzaq məsafələrdəki insanları çatması və zamansız şəkildə fəaliyyət göstərməsi onu təhsil maşını kimi qiymətləndirməyimizə imkan verir. Provayderlər vasitəsilə insanların vaxtlarına qənaət etməsi, xərclərinin azalması və s kimi səbəblərə görə bu sahədəki istifadəçilərin sayı dayanma-

dan artır. Elektron təhsildə siniflər olmadığı üçün sinif yoldaşları da yoxdur, bu da o deməkdir ki, istifadəçilər öz öyrənmə sürətlərinə əsas irəliləyərək daha yaxşı inkişaf sərgiləyə bilərlər. Elektron təhsil yaradıcılıq qabiliyyətinin inkişafına imkan verməklə, interaktiv təlim ssenariləri və didaktik konsepsiyalar təklif etməklə öyrənmə mədəniyyətinin transformasiyasını təmin edir, dərs zamanı məktəblilərin əldə etdikləri bilik, bacarıq və vərdişləri daha da zənginləşdirir və həyata tətbiq etmələrinə şərait yaradır.

Nəzər saldığımız ədəbiyyatlardan yola çıxaraq deyə bilərik ki, üstünlüklər və çatışmazlıqlar öyrənənlər və kurs təminatçıları üçün olduqca fərqlidir. Öyrənənlər üçün elektron təhsilin üstünlüklərin aşağıdakılar olduğu olduğu qənaətindəyik.

1. Məkanın, öyrənmə sürətinin və məzmun seçiminin asanlıqla dəyişəbilən olması.

2. Vizualizasiya, animasiya, simulyasiya, oyun əsaslı öyrənmə, multimedia alətlərindən istifadə.

3. Sonsuz öyrədici materiallar (linklər, axtarış funksiyaları, lüğətlər, onlayn kitabxanalar və s.)

4. Şagirdlər və müəllimlərarası asan kommunikasiyanın təmin edilməsi.

5. Nəticələrin gizli olması.

6. Pula qənaət

Kursu təşkil edənlər üçün üstünlüklər.

1. Məzmunun sürətli və asan hazırlanması.

2. Məzmunun asanlıqlar yenilənməsi və yayılması.

3. İşçi və səyahət xərclərinə qənaət edilməsi.

4. Müxtəlif ölkələrdən işçi qəbulunun asanlaşması.

5. Fənlərarası inteqrasiyanın asanlaşması.

Elektron təhsil platformalarında təlimçilər sadəcə satışlardan yox, eyni zamanda, ən çox satış edən, ən yüksək reytinq alan təlimçilərə əlavə bonuslardan da qazanc əldə edirlər.

Elektron təhsil şirkətlər üçün də olduqca əlverişli təlim metodlarından biridir. İşçilərinin təliminə maddi vəsait ayıran şirkətlər elektron təhsildən faydalanmaqla həm çox xərcin qarşısını alırlar, həm də işçilərinə müəssisə daxilində təlim almalarına şərait yaratmaqla zamandan qənaət etmiş olurlar.

Elektron təhsili düzgün analiz etmək üçün müsbət cəhətlərlə yanaşı mənfi cəhətlərini də adekvat şəkildə qeyd etməyi uyğun gördük.

1. Yüksək səviyyədə intizamı olmayanların nəticə alması çətindir.

2. Vaxtı idarə etmək heç də asan deyil.

3. Öyrənənin dərsə konsentrasiyası və təlimçinin pedaqoji texnologiyalardan istifadəsi çətinləşir.

4. Fənn biliklərinin yanı sıra texnoloji biliklərə də sahib olunmalıdır.

Öyrənənlər təqdim olunan materiallar müxtəlif formatda olduğundan təlim resurslarından istifadə edə bilmək üçün rəqəmsal bacarıqlarını təkmilləşdirməlidirlər. Dünyada aparılan tədqiqatlar kiçik və orta sahibkarlıq işçilərinin kifayət qədər rəqəmsal bilikləri yoxdur deyə öyrənmədə çətinlik çəkirlər. Bu da, öz növbəsində elektron təhsilin asanlığı məsələsini sual altında qoyur. Elektron təhsildə kompüter və internetdən həddindən çox istifadə olunması "masabaşı" xəstəliklərinə, vərdişlərə və psixi problemlərə səbəb ola bilər. "Həddindən çox" sözünün konkret olaraq nə qədər olması müəyyən olmadığı üçün bu təhlükələr hər zaman diqqət mərkəzində saxlanılmalıdır. Elektron təhsildəki ən ciddi problemlərdən biri də sinif otaqlarının idarə olunmasıdır. Virtual siniflərdəki tədris prosesi ənənəvi tədris prosesindən fərqlənir. Burada üzbəüz ünsiyyət olmadığından və tənəffüslərdəki boş vaxtlarda danışıb sosiallaşma olmadığından iştirakçılar sosial bacarıqlarını inkişaf etdirməkdə və qrup dinamikasından faydalanmaqdan çətinlik çəkirlər. Dərs müddətində diqqət və təsdiq siqnalları öyrənməyə təkan verən amillərdəndir. Elektron təhsildə çox zaman insanlararası münasibət olmadığından iştirakçıların çoxu təcrid olunmada və anonimləşmədən əziyyət çəkirlər ki, bu da, onların motivasiyasının azalmasına səbəb olur (5. s. 203). İştirakçılar virtual sinif otaqlarında düzgün ünsiyyət qurma yollarını öyrənməsələr, onların öyrənmə uğurlarına mənfi təsir göstərən çətinliklər ortaya çıxa bilər.

Elektron təhsildəki kurslarda öyrənmə imkanlarının layihələndirilməsi və həyata keçirilməsində texniki, didaktik və təşkilati məsələlərdə problemlər yaşanır. Provayderlər əvvəlcə təlim materialları, dizayn və tətbiqlər kimi təlimin keyfiyyətinə təsir edən resurslara sərmayə qoymalıdırlar ki, təlim interaktiv elementlərə malik olmaqla, iştirakçılar arasında ünsiyyəti təmin etsin. Bundan başqa, problem həll etmə, komandada işləmə, şəxsi bacarıqlar kimi iş həyatında yüksək

əhəmiyyətə sahib olan bacarıqların elektron təhsildə öyrədilməsi bu gün çətin məsələdir.

Nəticə

Nəticə olaraq deyə bilərik ki, elektron təhsil ənənəvi təhsil forması ilə birlikdə daha çevik və səmərəli təhsil şəraiti yaradır. Fərdi öyrənmə sürətini seçməyə imkan vermə və hər üslubda dərs keçən təlimçi tapmağın asanlığı peşə təhsili ixtisası üzrə təhsil alan tələbələrin əmək bazarına adaptasiyasını asanlaşdırır. Lakin əmək bazarında kifayət qədər yetərli texnoloji biliklərə sahib olan pedaqoji kadrların olmaması məzunların əmək bazarına uyğunlaşmasına təsir edən əsas amil kimi əngəl yaratmaqla, gələcək üçün müəllimlərin bu bacarıqları öyrənməsinin vacibliyini bildirir. Bu sahədə tədqiqat aparmaqla, peşə təhsili müəssisələri üçün çalışan əməkdaşları yuxarıda qeyd etdiyimiz məsələlərdən xəbərdar etməyi düşünürük. İnanrırıq apardığımız tədqiqatlar elektron təhsilin potensialını artıracaq və peşə təhsili müəssisələri məzunlarının əmək bazarında daha yaxşı nəticə göstərməsinə zəmin yaradacaq.

Problemin aktuallığı. Rəqəmsallaşmanın bütün sahələri əhatə etdiyi dövrdə peşə təhsilində elektron təhsilin tətbiqi vacib məsələlərdən biridir.

Problemin praktiki əhəmiyyət. Elektron təhsil vasitələrindən istifadə peşə təhsili alanlara biliklərini asan yolla təkmilləşdirməyə imkan tanıyır.

Problemin elmi yeniliyi. Mövcud ədəbiyyata sistemli şəkildə yanaşma və təhlil bu sahədə yeni tədqiqat istiqamətlərinin formalaşmasına yol açır.

Ədəbiyyat

1. Riekhof, H. Schüle, H. E-Learning und Wissensmanagement in deutschen Großunternehmen/ H, Schüle. - Göttingen: PRIVATE FACHHOCHSCHULE GÖTTINGEN, - 2002. - 27 s.
2. Lenz, C. Akzeptanz von E-Learning in KMU: / Pedaqogika üzrə fəlsəfə doktorluğu dis. / - Leipzig, 2009. - 214 s.
3. E-Learning am Arbeitsplatz – Eine Herausforderung an die Bildungstechnologieforschung - 2001
4. e-learning: Eine Zwischenbilanz/ U. Dittler, J. Kramaretisch, N. Nistor [və b.] - München: Wachmann, - 2009. - 344 s.
5. Berestova, A. Academic Motivation of University Students and the Factors that Influence it in an E-Learning Environment / G. Burdina, L. Lobuteva, A. Lobuteva. // The Electronic Journal of e-Learning, Moscow: - 2022. №2, - s. 201-210

Redaksiyaya daxil olub: 04.06.2025

UOT 373.67

Şəfiqə Veyis qızı Zülfüqarova,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Ümumi pedaqogika kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-1272-3682
E-mail: safiqazulfuqarova@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(4).174-177

İNKLÜZİV TƏHSİLDƏ MÜƏLLİMLƏRİN EMPATİ BACARIQLARININ ARTIRILMASI YOLLARI

Shafiga Veyis Zulfugarova,
associate professor
of the department of General pedagogy of Azerbaijan State Pedagogical University, doctor of philosophy in pedagogy

WAYS TO IMPROVE TEACHERS' EMPATHY SKILLS IN INCLUSIVE EDUCATION

Шафига Вейс гызы Зульфугарова,
доцент кафедры Общей педагогики Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике

ПУТИ УЛУЧШЕНИЯ НАВЫКОВ ЭМПАТИИ УЧИТЕЛЕЙ В ИНКЛЮЗИВНОМ ОБРАЗОВАНИИ

Xülasə. Elmi məqalədə inklüziv təhsildə müəllimlərin empati bacarıqlarının artırılması yolları təhlil edilib. Müasir təhsildə müəllimin sosial və tibbi modelə olan münasibəti göstərilmişdir. Müəllimlər üçün empati bacarığının vacibliyi vurğulanmışdır.
Açar sözlər: *müəllim şəxsiyyəti, empati bacarığı, sosial model, tibbi model, müasir təhsil*

Abstract. In the scientific article, the ways of increasing the empathy skills of teachers in inclusive education were analyzed. In modern education, the attitude of the teacher towards the social and medical model is shown. The importance of empathy skills for teachers was emphasized.
Keywords: *Teacher personality, empathy skills, social model, medical model, modern education*

Аннотация. В научной статье проанализированы пути повышения навыков эмпатии учителей в инклюзивном образовании. В современном образовании показано отношение педагога к социальной и медицинской модели. Подчеркнута важность навыков эмпатии для учителей**.**
Ключевые слова: *личность учителя, навыки эмпатии, социальная модель, медицинская модель, современное образование*

Azərbaycan və dünya təhsil sistemində əlliliyi olan şagirdlərlə bağlı müxtəlif qərarlar olub. Sparta tərbiyə sistemini yadımıza salmaq kifayətdir ki, əlilliyi olan uşaqların cəmiyyətə yük olaraq qəbul olunduğu bir dövrdən inklüziv cəmiyyətə gəlməyimizin nə qədər uzun bir yol olduğunu anlaya bilək. Cəmiyyətin əlilliyi olan uşaqlara qarşı münasibəti həmişə birmənalı olmayıb. Onlar ya valideynləri tərəfindən qəbul edilməyib ya da pedaq1oji kollektivlərdə arzu-olunmaz şagird olublar. Bəs inklüziv təhsil nə-dir? İnklüziv təhsil şagirdlərin fiziki, emosional-

psixi, əqli-intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, onların öz yaşıdları ilə məktəbdə eyni sinifdə təhsilə cəlb edilməsidir. Bunun əsas səbəbi son illərdə inklüziv cəmiyyətdə tibbi modelin sosial model ilə əvəz edilməsidir. Yeni əlilliyi olan uşaqların əlilliyi olmayan həmyaşıdları ilə birlikdə təhsili hamı üçün məqsədəmüvafiq formada tədris formasıdır. Bu nə deməkdir? Gəlin bunu aydınlaşdıraq. Hər bir şagirdin sinfə adaptasiya olunması üçün gözlə görünən və ya gözlə görünməyən müxtəlif problemləri ola bilər. Bunlardan bəziləri tibbi problemlər olsa da, bəziləri sosial problemlər olduğu üçün müəllimlər bunu görməməzlikdən gəlməməlidir. Belə ki, bütün uşaqların eyni sinifdə həyata keçirilən tədris prosesində iştirakı müəllimlərin şagirdlərə fərdi yanaşmağa sövq edir. Bundan başqa müxtəlif araşdırmaların nəticələri göstərir ki, əlilliyi olan şagirdlər əlilliyi olmayan şagirdlərlə birgə inklüziv sinifdə oxuması fərqliliyə münasibəti dəyişməyə, onların özünə hörmətin və həmyaşıdların qəbulunun yaxşılaşdırılmasına ciddi səbəb olur ki, bu, sosial-mənəvi yöndən ədalətli və ayrı-seçkiliyə yol verməyən cəmiyyətin qurulmasına imkan verir.

Əlilliyi olan şagirdlərin məktəbə adaptasiyasının qarşısını nə alır? Onların özlərini düzgün ifadə etməməsindəki ən böyük faktlar nələrdir? Valideynlər nəyə görə bu cür uşaqları gizlədirlər?

İnklüziv uşaqları ta qədimdən cəmiyyətdə birmənalı qarşılamaması bir neçə səbəbdən qaynaqlanır. Biz bu səbəbləri araşdırdıq. Bunlar əsasən:

1. Sosial

2. Mədəni və maarifləndirmə səviyyələri ilə sıx bağlıdır.

Əgər tibbi modeldə "günah" şagirdə görünürdüsə, sosial modeldə isə "günah" cəmiyyətin bu sahədəki savadsızlığında görünür. Yəni maariflənmənin azlığında bu isə bir çox insanı inklüzivlik və xüsusi ehtiyaclar mövzusunda kifayət qədər məlumatlı olmadığını ortaya qoyur. Onlar bu uşaqların geniş imkanlarını və özünəməxsus potensiallarını başa düşmürlər.[2]

Gələn ikinci məsələyə – Sosial stereotiplər: Cəmiyyətdə bəzi köhnə və yanlış inanclar hələ də davam edir, buna misal olaraq "xüsusi ehtiyacı olan uşaq digərlərindən geri qalır", "onlardan heç nə olmayacaq, əziyyət çəkməyə dəyməz" və s. Lakin əlverişli infrastrukturun olmaması: məsələn məktəblər, ictimai yerlər və xidmətlər xüsusi ehtiyaclı şagirdlər üçün tam uyğunlaşdırılmadıqda, bu uşaqlar cəmiyyətdən zaman zaman təcrid olurlar. Və bu da ayrı-seçkiliyə səbəb olur. Valideyn və müəllim hazırlığının çatışmazlığı: Bəzən müəllimlər və valideynlər inklüziv təhsilə hazır olmur, bu da uşağın sosiallaşmasını çətinləşdirir və ətrafdakılar tərəfindən qəbulunu azaldır. Qarşı tərəfdə olan empati çatışmazlığı: yəni bəzi insanlar fərqlilikləri qəbul etməkdə çətinlik çəkirlər, ya da həddindən ardıq reaksiya verir. Məsələn bu şagirdlərə xüsusi münasibət göstərir. Hamıdan ayırır, ona xüsusi sevgi göstərir, ancaq o şagird içəri girəndə ayağa qalxıb üstünə gedir. Bunlar isə həmin uşaqları digərlərindən yenə də ayırır. Müəllim "hamıya eyni" metodları seçməlidir. Əks halda bu da inklüziv uşaqlara qarşı soyuqluq və ya anlayışsızlıq yaradır. Xüsusilə ibtidai sinif şagirdləri öz müəllimlərini sevdikləri üçün onlar arasında qısqanclıq hissi baş qaldıra bilər. Bu səbəbdən də müəllim bunu son dərəcə pedaqoji ustalıqla etməlidir. Pedaqoji ustalığın təməlində müəllimin şəxsi və pedaqoji peşə keyfiyyətləri dayanır.

İnklüziv təhsil aşağıdakıları özündə ehtiva edir:

1. İnsanın dəyəri onun qabiliyyət və nailiyyətlərindən asılı deyildir;

2. Hər kəs hiss etmək və düşünmək qabiliyyətinə malikdir;

3. Hər kəs ünsiyyət hüququna malikdir və o dinlənilməlidir;

4. Bütün insanlar biri-birinə lazımdır;

5. Həqiqi təhsil yalnız real münasibətlərin kontekstində mövcud ola bilər;

6. Bütün insanlara öz həmyaşıdlarının dəstək və dostluğu lazımdır;

7. Bütün uşaqların inkişafı onların bilik və bacarıqlarından asılıdır;

8. İnsanların müxtəlifliyi həyatın bütün sahələrini inkişaf etdirir. [4]

Buna əsaslanaraq, milli və beynəlxalq öhdəliklərin yerinə yetirilməsi istiqamətində təhsil sistemində ciddi əhəmiyyətli işlər görülür. Azərbaycanda ciddi keyfiyyətli inklüziv təhsili təmin etmək məqsədilə aşağıdakı işlər görülmüşdür:

1. İnklüziv sinif təşkil edilən ümumi təhsil müəssisələrinin şəbəkəsi genişləndirilir

2. Azərbaycanda əlilliyi olan uşaqların təhsil hüququnun təminatına dəstək verilməsi

3. İnklüziv təhsilin keyfiyyətinin artırılması və məktəblərdə kadr potensialının gücləndirilir.

Məsələyə beynəlxalq tərəfdən baxsaq Birləşmiş Millətlər Təşkilatının (BMT) Konvensiyası əlilliyi olan şəxslərin təhsil hüquqlarının "Əlillərin hüquqları haqqında" bir çox tərəflərini əhatə edir və inklüziv təhsilin hər kəs üçün ən yaxşı təhsil mühiti olduğunu israrla təşviq edir. Eynilə, BMT-nin "Uşaq Hüquqları Konvensiyası"sının 28-ci maddəsi də hər bir uşağın təhsil hüququnu tam şəkildə tanıyır və bərabər imkanlar əsasında bu hüququn həyata keçirilməsini dəstəkləyir. Maddə bildirir ki, təhsil mühiti uşağın şəxsiyyətinin, istedadının və eləcə də əqli və fiziki bacarığının inkişaf etdirilməsini, insan hüquqlarına və əsasən azadlıqlara, azad cəmiyyətdə sülh, qardaşlıq, dostluq, anlaşma, tolerantlıq və bərabərlik içində həyata və ətraf mühitə hörmət tərbiyə edilməsinə istiqamətlənmişdir.

Bunun əsasında, əlilliyi olan uşaqların əlilliyi olmayan uşaqlarla birlikdə təhsilə cəlb edilməsi xüsusilə nəzərə alınmalıdır.

İnklüziv təhsildə müəllimlərin empati bacarıqlarının artırılması eyni zamanda şagirdlərin fərqli ehtiyaclarını anlamaq onlara uyğun münasibət göstərmək baxımından çox vacibdir. Bunun üçün aşağıdakı addımlar atıla bilər:

1. İnklüziv təhsildə müəllimlərin empati bacarıqlarının artırılması məqsədilə təlim və seminarlar təşkil etmək – Yəni müəllimlər üçün empati, emosional zəka eyni zamanda inklüziv təhsil mövzularında peşəkar inkişaf təlimləri təşkil olunmalıdır. Bu günün real vəziyyəti üzərində qurulan praktik nümunələr, video çarxlar vasitəsilə empati qurma bacarıqları təcrübədən keçirilə bilərlər.

2. Rollu oyunlar, rolu dəyişmə və ya simulyasiya fəaliyyətləri – Müəllimlər şagirdlərin yerində olaraq, uşaqların yaşadığı çətinlikləri hiss edə biləcək simulyasiya oyunlarında iştirak edərək. Buna misal olaraq fiziki məhdudiyyətləri olan bir uşağın məktəbdə qarşılaşdığı çətinlikləri canlandıran fəaliyyətlər empati hissini gücləndirə bilər.

3. Fərqli inklüziv şagird hekayələri ilə tanışlıq – Müəllimlərə müxtəlif xüsusi ehtiyacı olan uşaqların real həyatda olan yaşadıqları təcrübələri əks kitab və məqalələr təqdim olunmalıdır. Bu hekayələr müəllimlərin şagirdlərə qarşı anlayışlı və həssas yanaşmasını gücləndirə bilər.

4. Psixoloji dəstək və refleksiyanın gücləndirilməsi. Müəllimlərin öz emosiyalarını idarə etmə (ani sinir krizlərini idarə etmə) və refleksiya bacarıqları inkişaf etdirilməlidir. Psixoloq və ya mentor, pedaqoqların dəstəyi ilə müəllimlər təcrübələrini bölüşə və empati davranışlarını təhlil edə bilərlər.

5. Müəllimin əsas bacarıqlarından biri də komanda işinə təşviq, komandada işləmə bacarığıdır. Bu müəllimlər arasında əməkdaşlıq və təcrübə mübadiləsi üçün imkanlar yaradılmalıdır. Müxtəlif müəllimlərin yanaşmalarını görmək empati baxımından perspektivləri genişləndirir.

6. İş fəaliyyətində şagirdlərin rəyinə yer verməklə müəllimlər inklüziv şagirdlərin ehtiyaclarını və hisslərini birbaşa onlardan öyrənə bilərlər. Bu, müəllimə öz yanaşmasını uyğunlaşdırmaq üçün real əsaslar verir.

Azərbaycan Respublikasının Təhsil İnstitutu (ARTİ) 2018-ci ildən etibarən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və BMT-nin Uşaq Fondu (UNICEF) ilə əməkdaşlıqda bir sıra fəaliyyətlər həyata keçirir. Bu minvalla 2018-2020-ci illərdə əlilliyi olan uşaqların ümumi təhsil müəssisələrində keyfiyyətli təhsil almaq imkanlarını dəstəkləmək məqsədilə bəzi tədbirlər həyata keçirilmişdir. Müəllim İnkişafı Mərkəzləri (bəzən Resurs Mərkəzləri adlandırılır) yaradılıb. 7 region üzrə Bakı, Gəncə, Sumqayıt, Quba, Şəki, Ağcabədi və Qazax seçilmiş 9 məktəbdə iş prosesi qurulmuşdur.

İnklüziv təhsildə istifadə olunan terminologiyanın olduqca vacib olduğu bütün tədqiqatlarda göstərilmişdir. Bir müəllimin danışığında "əlil, qüsurlu, xəstə, məhdudiyyətli, anormal, defektiv, əlilliyi olan, atipik, kor, görmə qüsurlu, lal, eşitmə qüsurlu, əngəlli " və s bu kimi söz birləşmələri bu şagirdlər üçün təhsil mühitini çətinləşdirə bilir.

Müəllimlər üçün aşağıdakı tövsiyələrimiz var:

- Şagirdin inkişaf səviyyəsini müəyyənləşdirmək
- Onun səviyyəsinə uyğunlaşdırmaq;
- Tapşırığı kiçik hissələrə bölmək;
- Ünsiyyət bacarıqları inkişafına diqqət yetirmək;
- Sosial bacarıqlar üzərində işləmək;
- Materialın daima təkrarlanmasına;
- Arzu olunan davranış üçün mükafatlandırmaq;

- Valideyn, digər müəllim və mütəxəssislərlə əməkdaşlıq etmək;

-Fərdi təlim planının hazırlanmasında iştirak etmək;

- Şagirdin xoşbəxtliyini, özünə inamını, özünü qiymətləndirməsini diqqətdə saxlamaq;

Eyni zamanda istedadlı uşaqlar da müəllimlərin daima diqqət mərkəzində olmalıdır. İntellektual baxımdan yaşıdlarından çox fərqlənən şagirdlərdə bəzilərin inam olur, özünü ifadə etməkdə çətinlik çəkir. Əslində əlilliyi olan uşaqlara aid deyil, öz potensiallarının böyük olmasına baxmayaraq akademik göstəriciləri orta səviyyədə ola bilər, lakin digərləri üçün məktəb darıxdırıcı olduğuna və ya həmyaşıdları ilə çətin uyuşduğuna görə davranış pozuntuları kimi bunu görə bilirik.

Əlilliyi olan uşaqların 60%-i heç bir uyğunlaşma (adaptasiya) olmadan, 80-90%-i cüzi uyğunlaşma ilə (məs: tədris strategiyası təhsili, uşaq-uşağa dəstək və ətraf mühitə uyğunlaşma) məktəbəqədər və ümumi təhsil müəssisələrində" təhsil ala bilərlər.[4]

Problemin elmi yeniliyi ondan ibarətdir ki**,** müasir dövrdə təhsil sistemində əsas prioritetlərdən biri də orta məktəblərdə müəllim empatiya bacarığının inklüziv təhsildə təmin edilməsidir. İnklüziv təhsildə empati bacarığı olan müəllim şagirdlərin fərdi xüsusiyyətlərini daha dərindən dərk edir, onların ehtiyaclarını və çətinliklərini anlayır və uyğun yanaşmalar tətbiq edə bilir. Empati müəllimin yalnız şagirdlərlə deyil, valideynlərlə və digər mütəxəssislərlə də effektiv ünsiyyət qurmasına kömək edir. İnklüziv təhsildə valideyn-müəllim-məktəb əməkdaşlığı olduqca vacibdir. Müəllim ailələrin narahatlıqlarını anlamalı, onlarla sıx əməkdaşlıq mühiti yaratmalıdır. Bu isə inklüziv təhsilin kompleks şəkildə həyata keçirilməsini asanlaşdırır.

Problemin aktuallığı. İnklüziv təhsil – müxtəlif qabiliyyət və ehtiyaclara malik olan bütün şagirdlərin eyni təhsil mühitində bərabər hüquqla təhsil almalarını nəzərdə tutur. Bu yanaşma təkcə fiziki imkanları məhdud uşaqları deyil, həm də psixoloji, emosional və sosial baxımdan fərqlənən bütün uşaqları əhatə edir. Belə bir sistemdə müəllimlərin rolu olduqca vacibdir. Xüsusilə də onların empati bacarıqlarının inkişaf etdirilməsi inklüziv təhsilin uğurla həyata keçirilməsi baxımından xüsusi aktuallıq kəsb edir.

Problemin praktik əhəmiyyəti ondan ibarətdir ki, irəli sürülən ideya və təkliflərdən məktəbdə təhsil işçiləri, pedaqoq-müəllimlər və məktəb təlimtərbiyə sahəsində təhsil alan bakalavrları bəhrələnə bilərlər. Müəllimlərin inklüziv sahədəki empati bacarığının inkişaf etdirilməsi inklüziv təhsilin uğurlu tətbiqi üçün əsas şərtlərdən biri olacaqdır. Bu səbəbdən də ali məktəblərdə müəllim hazırlığı proqramlarında və ixtisasartırma kurslarında empatiya ilə bağlı ciddi təhsil və təlimlərin təşkili zəruridir.

Ədəbiyyat

1. Nəzərov, A. Müasir təlim texnologiyaları (Mühazirə xülasələri): Dərs vəsaiti. / A. Nəzərov. -Bakı: ADPU, -2012, -103 s
2. https://eudi.az/meqale/etrafli/849
3. https://static.inkluzivtehsil.edu.az/book/files/M%C9%99lumat%20kitab%C3%A7as%C4%B1.pdf
4. https://www.arti.edu.az/noduploads/book/maktabahazirliq-qruplarinda-inklu-ziv-talimin-tas-kili.pdf

Redaksiyaya daxil olub: 10.06.2025

UOT 37.1

Gülgün Sərxan qızı Novruzova,
Azərbaycan Dillər Universitetinin Pedaqogika kafedrasının müəllimi
https://orcid.org/0009-0003-9066-5830
E-mail:gulgun.qenberova.94@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(4).178-182

Fidan Zəmani qızı Əskərova,
Azərbaycan Dillər Universitetinin Pedaqogika kafedrasının müəllimi
https://orcid.org/0009-0004-4587-6302
E-mail: fidan.askerova.90@mail.ru

TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İNKLÜZİV TƏLİMİN TƏŞKİLİ YOLLARI

Gulgun Sarkhan Novruzova,
teacher of the department of Pedagogy at Azerbaijan University of Languages

Fidan Zamani Askerova,
teacher of the department of Pedagogy at Azerbaijan University of Languages

WAYS OF ORGANIZING INCLUSIVE TRAINING IN EDUCATIONAL

Гульгюн Сархан гызы Новрузова,
преподаватель кафедры Педагогики Азербайджанского Университета Языков

Фидан Замани гызы Аскерова,
преподаватель кафедры Педагогики Азербайджанского Университета Языков

ПУТИ ОРГАНИЗАЦИИ ИНКЛЮЗИВНОГО ОБУЧЕНИЯ В ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЯХ

Xülasə. İnklüziv təhsil təkcə pedaqoji yanaşma deyil, həm də sosial ədalətə və cəmiyyətin davamlı inkişafına xidmət edən sistem kimi çıxış edir. O, fərdi potensialı üzə çıxararaq tolerant və inteqrasiya olunmuş cəmiyyətin formalaşmasına zəmin yaradır. Bu yanaşma bütün şagirdlərin təhsil prosesində bərabər şəkildə iştirakını təmin edir və onları cəmiyyətin fəal üzvünə çevirir. Fiziki, zehni və ya sosial fərqliliklərə malik olan uşaqlar üçün yaradılan bərabər imkanlar onların özlərini dəyərli və qəbul olunmuş hiss etmələrinə şərait yaradır. Belə bir mühitdə təhsil alan uşaqlar bir-birlərini olduğu kimi qəbul etməyi, əməkdaşlıq etməyi və fərqliliklərə hörmətlə yanaşmağı öyrənirlər.

Məqalədə inklüziv təlimin təşkili yolları təsvir olunur.

***Açar sözlər**: İnklüziv təhsil, sosial ədalət, davamlı inkişaf, fərdi yanaşma, xüsusi təhsil ehtiyacları, tolerantlıq, inteqrasiya*

Abstract. Inclusive education is not only a pedagogical approach, but also a system that serves social justice and sustainable development of society. It creates the basis for the formation of a tolerant and integrated society by revealing individual potential. This approach ensures equal participation of all students in the educational process and turns them into active members of society. Equal opportunities created for children with physical, mental or social differences create conditions for them to feel valuable and accepted. Children studying in such an environment learn to accept each other as they are, to cooperate and to respect differences.

The article describes the ways of organizing inclusive education.

***Key words:** Inclusive education, social justice, sustainable development, individual approach, special educational needs, tolerance, integration,*

Аннотация. Инклюзивное образование - это не только педагогический подход, но и система, служащая социальной справедливости и устойчивому развитию общества. Создает основу для формирования толерантного и интегрированного общества, раскрывает потенциал личности. Такой подход обеспечивает равноправное участие всех учащихся в образовательном процессе и делает их активными членами общества. Равные возможности, созданные для детей с физическими, умственными или социальными отличиями, помогают им чувствовать себя ценными и принятыми. Дети, воспитывающиеся в такой среде, учатся воспринимать друг друга такими, какие они есть, сотрудничать и уважать различия.

В статье описаны способы организации инклюзивного образования.

Ключевые слова: *инклюзивное образование, социальная справедливость, устойчивое развитие, индивидуальный подход, особые образовательные потребности, толерантность, интеграция*

Müasir dövrdə sosial-iqtisadi inkişafın və davamlı tərəqqinin təmin olunmasında insan kapitalının, xüsusilə də təhsilin rolu danılmazdır. Təhsil təkcə bilik və bacarıqların ötürülməsi ilə məhdudlaşmır, o həm də cəmiyyətin bütün üzvlərinin fəal, məsuliyyətli və bərabər hüquqlu iştirakçılar kimi formalaşmasına şərait yaradan əsas sosial institutlardan biridir. Bu baxımdan, təhsilin bərabərlik və inklüzivlik prinsipləri əsasında təşkili müasir dövrün tələblərinə cavab verən strateji prioritetlərdən biri kimi çıxış edir.

İnklüziv təhsil – fiziki, əqli, psixoloji və ya sosial fərqliliklərdən asılı olmayaraq, bütün şəxslərin ümumi təhsil sisteminə daxil edilməsini və digər şagirdlərlə bərabər şəraitdə təhsil alma imkanının təmin olunmasını nəzərdə tutur. Bu yanaşma, müasir beynəlxalq təhsil siyasətində əsas prioritetlərdən biri kimi qəbul olunur. Birləşmiş Millətlər Təşkilatının "Dayanıqlı İnkişaf Məqsədləri"ndə inklüziv, ədalətli və keyfiyyətli təhsilin təmin edilməsi və hamı üçün ömürboyu təhsil imkanlarının yaradılması əsas prioritetlərdən biri kimi müəyyənləşdirilmişdir (1, s. 286-294).

İnklüziv təhsilin məqsədi təkcə fiziki məhdudiyyətləri olan şəxslərin deyil, həm də müxtəlif mədəni, etnik, sosial-iqtisadi və digər xüsusiyyətlərə malik fərdlərin təhsil hüququnun təmin edilməsidir. Bu yanaşma onların cəmiyyətə tam inteqrasiyası baxımından mühüm rol oynayır. Konsepsiya, eyni zamanda, tolerantlıq, müxtəlifliyə hörmət və sosial ədalət kimi fundamental dəyərlərin təşviqinə əsaslanır. Son illərdə Azərbaycan Respublikasında inklüziv təhsilin inkişafı istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Azərbaycan Respublikasının Konstitusiyası, "Təhsil haqqında" Qanun, "Uşaq hüquqları haqqında" Qanun və digər normativ hüquqi sənədlər ölkədə inklüziv təhsilin hüquqi əsaslarını müəyyənləşdirir. Həmçinin, 2018-ci ildə təsdiqlənmiş "Azərbaycan Respublikasında inklüziv təhsilin inkişafı üzrə Milli Fəaliyyət Planı (2018-2024)" bu sahədə kompleks tədbirlərin həyata keçirilməsinə zəmin yaratmışdır (2).

Bu fəaliyyət planına əsasən, təhsil müəssisələrinin fiziki mühitinin inklüzivliyə uyğunlaşdırılması, müəllimlərin inklüziv pedaqogika sahəsində peşəkar inkişafı, fərdi təhsil planlarının hazırlanaraq tətbiq olunması, həmçinin psixoloji və sosial dəstək xidmətlərinin gücləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Paralel olaraq, ictimai maarifləndirmə tədbirləri vasitəsilə inklüzivliyin əhəmiyyəti cəmiyyətə çatdırılır, stereotiplərin və ayrı-seçkiliyin aradan qaldırılması istiqamətində təşəbbüslər həyata keçirilir (3, s. 60).

Ümumilikdə, inklüziv təhsil müasir dövrdə yalnız təhsil sektorunun deyil, bütövlükdə cəmiyyətin transformasiyasına xidmət edən fundamental bir strategiyadır. Bu yanaşmanın uğurla həyata keçirilməsi üçün dövlət siyasəti, təhsil sistemi, ailə və ictimaiyyət arasında qarşılıqlı əməkdaşlıq və sistemli yanaşma mühüm rol oynayır. İnklüziv təhsilin təmin edilməsi ilə hər bir öyrənən öz potensialını tam reallaşdıra, cəmiyyətin bərabərhüquqlu və dəyərli üzvünə çevrilə bilər. Bu da nəticə etibarilə daha ədalətli, inteqrasiya olunmuş və sabit sosial quruluşun formalaşmasına zəmin yaradır.

İnklüziv təhsil müasir pedaqoji konsepsiyalarda yalnız fiziki və ya əqli məhdudiyyətləri olan uşaqların ümumi təhsil mühitinə inteqrasiyasını nəzərdə tutmaqla məhdudlaşmır. Bu anlayış daha geniş məna kəsb edir və təhsildə hər bir şəxsin fərdi ehtiyac və imkanlarının nəzərə alınmasını, eləcə də hər kəs üçün bərabər hüquq və imkanların yaradılmasını qarşıya məqsəd qoyur. İnklüziv təhsil sistemi, təhsilalanların mədəni, etnik, sosial-iqtisadi mənsubiyyəti, fiziki və intellektual xüsusiyyətlərindən asılı olmayaraq, onla-

rın ümumi təhsil prosesinə daxil edilməsini və bu prosesdə fəal iştirakını təmin etməyə çalışır.

Bu yanaşma təhsilin yalnız bilik ötürmə funksiyası ilə kifayətlənməyib, eyni zamanda şəxsiyyətin hərtərəfli inkişafına və cəmiyyətin humanist dəyərlər üzərində qurulmasına xidmət etdiyini ortaya qoyur. İnklüziv təhsil mühiti müxtəlifliklərı qəbul və təşviq edən, müxtəlif bacarıqları və dünyagörüşlərini dəyər kimi qiymətləndirən, fərdi inkişaf üçün əlverişli şərait yaradan pedaqoji model olaraq çıxış edir. Bu model təhsilalanlar arasında qarşılıqlı öyrənməni, əməkdaşlıq və dəstək münasibətlərini gücləndirir, bununla da sosial uyğunlaşma və vətəndaş məsuliyyətinin inkişafı üçün əlverişli şərait yaradır. Əlavə olaraq, inklüziv təhsil yanaşması tədris prosesində müxtəlif təlim metodlarının və diferensiallaşdırılmış strategiyaların tətbiqini zəruri edir. Bu, müəllimlərin yalnız akademik bilikləri deyil, həm də psixoloji-pedaqoji hazırlıqları və empatik münasibətləri ilə təchiz olunmasını tələb edir. Müxtəlif imkanlara malik uşaqların bir sinif mühitində təhsil almaları, müəllimlərin həm peşəkar bacarıqlarını, həm də sosial-emosional kompetensiyalarını inkişaf etdirməsini qaçılmaz edir. Bu isə inklüziv təhsil yanaşmasının keyfiyyətli insan resurslarına əsaslanan bir sistem olduğunu bir daha göstərir. Eyni zamanda, inklüziv təhsil cəmiyyətin mənəvi və sosial strukturlarına da təsir göstərən bir anlayışdır. Belə ki, müxtəlif mədəni və sosial mənsubiyyətə malik fərdlərin birgə təhsil alması, tolerantlığın, qarşılıqlı hörmətin, empatiyanın və sosial məsuliyyətin formalaşmasına təkan verir. Bu isə gələcəkdə daha ədalətli, dəyərlərə əsaslanan və qarşılıqlı anlaşmaya əsaslanan bir cəmiyyətin qurulması baxımından strateji əhəmiyyət kəsb edir (4, s. 18).

Buradan belə bir qənaətə gəlmək olar ki, inklüziv təhsil sadəcə bir pedaqoji model deyil, həm də sosial dəyişiklik və islahat prosesinin əsas tərkib hissəsidir. O, fərdlərin potensialının reallaşdırılması ilə yanaşı, cəmiyyətin sosial kapitalının artırılmasına və ümumi rifahın yüksəldilməsinə xidmət edən mühüm mexanizmdir. Bu baxımdan, inklüzivlik prinsiplərinin təhsil siyasətində və praktikada sistemli şəkildə tətbiqi cəmiyyətin dayanıqlı inkişafının təmin olunmasında əhəmiyyətli rol oynayır.

Müasir dövrdə inklüziv təhsilin tətbiqi yalnız pedaqoji deyil, həm də sosial və etik bir zərurət kimi qiymətləndirilir. Bu yanaşma təhsildə ədalətliliyin və insan hüquqlarının təminatına yönəlmişdir. İnklüziv təlimin effektiv təşkili üçün təhsil müəssisələrinin struktur və məzmun baxımından yenilənməsi, insan resurslarının təkmilləşdirilməsi və bütün iştirakçıların əməkdaşlığı mühüm əhəmiyyət kəsb edir. Aşağıda inklüziv təlimin təşkilinə dair əsas istiqamətlər geniş şəkildə izah olunur.

Təhsil müəssisələrində inklüziv təlimin təşkili yolları

1. Fiziki mühitin uyğunlaşdırılması;
2. Müəllimlərin ixtisasının artırılması;
3. Fərdi təhsil planlarının (FTP) hazırlanması;
4. Multidissiplinar komandanın fəaliyyəti;
5. Valideynlərlə əməkdaşlıq;
6. Diferensial tədris metodlarının tətbiqi;
7. Məktəb rəhbərliyinin dəstəyi (5, s. 22).

1. Fiziki mühitin uyğunlaşdırılması. İnklüziv təhsilin uğurla reallaşdırılması üçün ilkin və əsas şərtlərdən biri təhsil müəssisələrinin fiziki mühitinin universal dizayn prinsiplərinə uyğun şəkildə təşkil olunmasıdır. Bu, müxtəlif fiziki məhdudiyyətlərə malik şagirdlərin təhlükəsiz və sərbəst şəkildə məktəb mühitinə inteqrasiyasını təmin edir. Bu istiqamətdə aşağıdakı tədbirlər vacib hesab olunur:

Hərəkət məhdudiyyətli şagirdlər üçün binaya giriş-çıxış rampalarının, liftlərin və geniş keçidlərin mövcudluğu mühüm əhəmiyyət kəsb edir.

Görmə və eşitmə imkanları məhdud olan şagirdlər üçün xüsusi texniki vasitələrdən – brayl əlifbası ilə hazırlanmış dərs materialları, səsləndirilmiş audio və video mənbələr, həmçinin işarə dili təlimatçıları – istifadə olunmalıdır. Sinif otaqları təhlükəsizlik, işıqlandırma, temperatur və akustik rahatlıq baxımından uyğunlaşdırılmalıdır. Məkan şagirdlərin hərəkət sərbəstliyini təmin etməli, narahatlıq doğuran amillər minimuma endirilməlidir.

2. Müəllimlərin ixtisasının artırılması. İnklüziv təlimin səmərəli şəkildə təşkili birbaşa olaraq müəllimlərin bu sahədəki peşəkar hazırlıq səviyyəsindən asılıdır. Müasir tədris sistemində müəllim yalnız bilik ötürücüsü deyil, həm də fərdi tədrisə yönəlik strategiyaları tətbiq edə bilən, psixoloji dəstək verə bilən pedaqoq olmalıdır. Bu kontekstdə aşağıdakı məsələlər aktualdır:

- Müəllimlər üçün inklüziv təhsil konsepsiyası, diferensial təlim metodları, şagird mərkəzli yanaşmalar və psixopedaqoji dəstək texnikaları üzrə mütəmadi təlim proqramları təşkil edilməlidir.

- Tədrisdə fərdi yanaşmanı tətbiq edə bilən, müxtəlif bacarıq və öyrənmə səviyyələrini tanıyaraq, dərs prosesini uyğun şəkildə qura bilən müəllimlərin hazırlanması zəruridir (6, s. 15).

3. Fərdi Təhsil Planlarının (FTP) hazırlanması. İnklüziv təhsilin səmərəli təşkilinin mühüm mexanizmlərindən biri də Fərdi Təhsil Planlarının hazırlanması və tətbiqidir. Bu planlar hər bir şagirdin fərdi potensialına və inkişaf tempinə uyğun olaraq tərtib edilir. FTP-lər şagirdin maraqları, öyrənmə tərzi, mövcud bacarıqları və çətinlikləri nəzərə alınmaqla hazırlanır və ona uyğun təlim strategiyaları müəyyənləşdirilir. Bu planların hazırlanması və icrasında müəllimlə yanaşı, psixoloq, loqoped, sosial işçi və valideynlərdən ibarət multidissiplinar komanda iştirak etməlidir. Bu, şagirdin təhsil həyatına kompleks yanaşmanı təmin edir.

4. Multidissiplinar komandanın fəaliyyəti. İnklüziv təlimin yalnız müəllimlərin fəaliyyəti ilə məhdudlaşması mümkün deyil. Bu prosesdə müxtəlif sahələrin mütəxəssislərindən ibarət komandaların iştirakı zəruridir.

Multidissiplinar komanda şagirdin inkişafı üçün diaqnostik qiymətləndirmə aparır, təlimdə uyğunlaşdırma metodlarını təklif edir və tətbiqin nəticələrini monitorinq edir.

Psixoloqlar, sosial işçilər, defektoloqlar və loqopedlər şagirdin sosial-emosional, kommunikativ və koqnitiv inkişafına yönəlik dəstək fəaliyyətlərini həyata keçirir, müəllim və valideynlərlə sıx əməkdaşlıq qurur.

5. Valideynlərlə əməkdaşlıq. İnklüziv təhsilin səmərəli həyata keçirilməsində valideynlərin rolu əsasdır. Onların dəstəyi uşaqların təhsil prosesinə uyğunlaşmasını asanlaşdırmaqla yanaşı, həm də onların sosial və emosional inkişafının təşviqinə əsaslı təsir göstərir. İnklüziv təhsil mühitinin davamlı inkişafı üçün valideynlərin inklüziv təhsilin mahiyyəti, peşə hazırlığı və təhsil müəssisələri ilə səmərəli əməkdaşlığı haqqında kifayət qədər məlumatlandırılması vacibdir. Bu məqsədlə valideynlərlə mütəmadi əlaqələrin qurulması və onların iştirakı ilə maarifləndirmə istiqamətində seminarların təşkil olunması valideynlərin tədris prosesində fəallığını artırır və bu zəmində inklüziv təhsilin məqsədlərinə nail olunmasına şərait yaradır. Belə ki:

Valideynlərin inklüziv təhsilin mahiyyəti, məqsədləri və əhəmiyyəti barədə məlumatlandırılması üçün məqsədyönlü maarifləndirmə işləri aparılmalı, bu məqsədlə seminarlar, təlimlər və informasiya sessiyaları təşkil olunmalıdır. Bu cür tədbirlər valideynlərin prosesə fəal şəkildə qoşulmasına, övladlarının təhsilində dəstəkçi rolunu daha səmərəli yerinə yetirməsinə imkan yaradır.

Onların tədris prosesinə cəlb olunması, qərarvermə proseslərində fikirlərinin nəzərə alınması və ailə-məktəb əməkdaşlığının inkişaf etdirilməsi inklüziv təhsil mühitinin dayanıqlığını təmin edir.

6. Diferensial tədris metodlarının tətbiqi. inklüziv siniflərdə tədris prosesi şagirdlərin fərdi bacarıq və inkişaf səviyyələrinə uyğunlaşdırılmış, çevik və müxtəlif metodoloji yanaşmalar əsasında həyata keçirilməlidir. Bu, hər bir təhsilalanın potensialının maksimum səviyyədə reallaşdırılması məqsədilə zəruri hesab edilir. Bu kontekstdə diferensial tədris əsas baza hesab olunur. Müxtəlif öyrənmə üslublarına (vizual, eşitmə, kinestetik və s.) uyğun metod və vəsaitlərin tətbiqi, tədris prosesini daha səmərəli və inklüziv edir. Tapşırıqların şagirdin təlim nəticələrinə uyğun fərdiləşdirilməsi, geribildirim mexanizmlərinin təkmilləşdirilməsi və adaptiv qiymətləndirmə metodlarından istifadə, öyrənmədə motivasiyanı və iştirakçılığı artırır.

7. Məktəb rəhbərliyinin dəstəyi. İnklüziv təhsilin uğurla tətbiqi və davamlı inkişafı üçün məktəb rəhbərliyinin aktiv və sistemli dəstəyi böyük önəm daşıyır. Rəhbərlik bu prosesin strateji planlaşdırılması və təşkilati koordinasiyasını effektiv şəkildə həyata keçirməlidir. Təhsil müəssisəsinin rəhbərliyi inklüzivlik prinsipini məktəb strategiyasına inteqrasiya etməli, müəllim heyətinin peşəkar inkişafına şərait yaratmalı və tələb olunan maddi-texniki bazanı təmin etməlidir. Rəhbərlik inklüziv təhsilin monitorinqi və qiymətləndirilməsi üçün uyğun mexanizmlər formalaşdırmalı, əldə olunan nəticələri dəyərləndirməli və ehtiyac yaranarsa islahatların həyata keçirilməsinə təşəbbüs göstərməlidir.

Beləliklə, inklüziv təlimin təhsil müəssisələrində effektiv təşkili çoxşaxəli və sistemli yanaşma tələb edir. Bu prosesdə fiziki mühitin uyğunlaşdırılması, pedaqoji kadr hazırlığı, fərdi

təhsil planları, multidissiplinar əməkdaşlıq və valideyn dəstəyi qarşılıqlı şəkildə əlaqələndirilməlidir. Təhsildə bərabərliyin və sosial ədalətin təmin olunması üçün inklüziv yanaşmanın tətbiqi müasir dövrün vacib tələblərindəndir və bu istiqamətdə atılan hər bir addım cəmiyyətin daha humanist və inklüziv gələcəyinə xidmət edir.

Problemin aktuallığı. Müasir dövrdə hər kəsin bərabər təhsil hüququnun təmin olunması inklüziv təlimin vacibliyini gündəmə gətirir. Təhsil müəssisələrində fərqli ehtiyacları olan şagirdlərin tədris prosesinə inteqrasiyası, cəmiyyətin tolerantlıq və sosial ədalət prinsipləri əsasında inkişafının təmin edilməsində mühüm amil kimi çıxış edir.

Problemin yeniliyi. İnklüziv təlimin təşkili ilə bağlı müasir yanaşmaların və texnologiyaların tətbiqi, pedaqoji metodların fərdiləşdirilməsi təhsil sistemində yeni tələblər və imkanlar yaradır. Mövzu bu sahədə aparılan son tədqiqatlara əsaslanaraq yenilik baxımından əhəmiyyət kəsb edir.

Problemin praktik əhəmiyyəti. Məqalə, təhsil müəssisələrində inklüziv təlimin səmərəli təşkili üçün rəhbər şəxslər, müəllimlər və təhsil mütəxəssisləri üçün zəruri praktiki tövsiyələr təqdim edir. Belə ki, irəli sürülən tövsiyələr təhsilalanların tədris prosesinə bərabərhüquqlu və aktiv şəkildə iştirakını təmin edərək inklüziv təhsil mühitinin formalaşması və onun davamlı inkişafı üçün zəmin yaradır.

Ədəbiyyat

1. Florian, L. *What counts as evidence of inclusive education?* // European Journal of Special Needs Education, № 29 (3), - 2014, - p. 286-294.
2. 2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı // (Azərbaycan 39 Respublikası Prezidentinin 14 dekbar 2017-ci il tarixli, 3498 nömrəli Sərəncamı). – Bakı, - 2017.
3. UNESCO. A Guide for Ensuring Inclusion and Equity in Education // UNESCO Publishing. - Paris, - 2017, - p. 60.
4. Salas-Pilco, S., et al. Inclusive Education Through Technology: A Systematic Review of Types // Frontiers in Education, - 2025, - p.18
5. Zhang, Y., et al. Towards a Sustainable Future in Education: A Systematic Review of Inclusive Education Research // Sustainability, №17(9), 3837, - 2025, - p.22
6. Cook-Sather, A., Suresh, A., & Nguyen, E. D. (2025). Developing an Inclusive, Student-Led Approach to Scaling Up the Benefits of Pedagogical Partnership for Social Justice in Higher Education // Social Sciences, № 14(2), № 79. - 2025, - p.15
7. Mondal, R. K. Inclusive Education and Social Justice for Sustainable Development // Bluerose Publications, - 2024, - p. 4

Redaksiyaya daxil olub: 22.05.2025

UOT 373.67

Milanə Valeh qızı Həsənova,
Bakı Dövlət Universitetinin fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0009-9601-3175
E-mail: milanahasan97@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(4).183-187

İNKLÜZİV TƏHSİLİN PSİXOPEDAQOJİ ƏSASLARI

Milana Valeh Hasanova,
doctorial student in the program of doctor of philosophy of
Baku State University

PSYCHOPEDAGOGICAL FOUNDATIONS OF INCLUSIVE EDUCATION

Милана Валех гызы Гасанова,
докторант по программе доктора философии
Бакинского Государственного Университета
координатор Центра дополнительного образования поддержки инклюзивного развития

ПСИХОПЕДАГОГИЧЕСКИЕ ОСНОВЫ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ

Xülasə. Bu məqalə inklüziv təhsilin psixopedaqoji əsaslarını ətraflı şəkildə təhlil edir. İlk hissədə inklüziv təhsilin nəzəri əsasları, o cümlədən Vıqotskinin sosial-mədəni nəzəriyyəsi, Qardnerin çoxşaxəli intellekt nəzəriyyəsi, Brunerin konstruktiv öyrənmə nəzəriyyəsi və Bronfenbrennerin bioekologiya nəzəriyyəsi müzakirə olunur. Daha sonra inklüziv təhsilin psixoloji aspektləri – emosional və sosial inkişaf, özünüqiymətləndirmə və identiklik formalaşması, psixoloji rifah kimi mövzular işıqlandırılır. Məqalə həmçinin inklüziv təhsilin pedaqoji aspektlərini (tədris metodları, kurikulum adaptasiyası, qiymətləndirmə strategiyaları, sinif idarəetməsi) və uğurlu tətbiqi üçün zəruri olan psixopedaqoji şərtləri (müəllimlərin hazırlığı, multidisiplinar əməkdaşlıq, valideyn iştirakı, dəstəkləyici məktəb mühiti) araşdırır. Son hissədə Azərbaycanda inklüziv təhsilin inkişafı üçün qanunvericilik və siyasət səviyyəsində dəyişikliklər, müəllim hazırlığının təkmilləşdirilməsi, məktəb infrastrukturunun yaxşılaşdırılması və ictimai maarifləndirmə kimi tövsiyələr təqdim edilir.
Açar sözlər: *inklüziv təhsil, psixopedaqoji əsaslar, fərdiləşdirilmiş təlim, müəllim hazırlığı, multidisiplinar əməkdaşlıq*

Abstract. This article thoroughly analyzes the psycho-pedagogical foundations of inclusive education. The first section discusses the theoretical foundations of inclusive education, including Vygotsky's sociocultural theory, Gardner's multiple intelligences theory, Bruner's constructivist learning theory, and Bronfenbrenner's bioecological theory. The psychological aspects of inclusive education are then highlighted, focusing on emotional and social development, self-esteem and identity formation, and psychological well-being. The article also explores the pedagogical aspects of inclusive education (teaching methods, curriculum adaptation, assessment strategies, classroom management) and the necessary psycho-pedagogical conditions for its successful implementation (teacher preparation, multidisciplinary collaboration, parental involvement, supportive school environment). The final section presents recommendations for developing inclusive education in Azerbaijan, including legislative and policy changes, improving teacher preparation, enhancing school infrastructure, and raising public awareness. The article concludes that a deep understanding and application of the psycho-pedagogical foundations of inclusive education is essential for meeting the educational needs of all children and enabling them to realize their full potential.
Keywords: *inclusive education, psycho-pedagogical foundations, individualized learning, teacher training, multidisciplinary collaboration*

Аннотация. В данной статье подробно анализируются психопедагогические основы инклюзивного образования. В первой части рассматриваются теоретические основы инклюзивного образования, включая социокультурную теорию Выготского, теорию множественного интеллекта Гард-

нера, конструктивистскую теорию обучения Брунера и биоэкологическую теорию Бронфенбреннера. Далее освещаются психологические аспекты инклюзивного образования, с акцентом на эмоциональное и социальное развитие, формирование самооценки и идентичности, психологическое благополучие. В статье также исследуются педагогические аспекты инклюзивного образования (методы обучения, адаптация учебной программы, стратегии оценивания, управление классом) и необходимые психопедагогические условия для его успешной реализации (подготовка учителей, междисциплинарное сотрудничество, участие родителей, поддерживающая школьная среда). В заключении представлены рекомендации по развитию инклюзивного образования в Азербайджане, включая изменения в законодательстве и политике, улучшение подготовки учителей, совершенствование школьной инфраструктуры и повышение общественной осведомленности.

Ключевые слова: *инклюзивное образование, психопедагогические основы, индивидуализированное обучение, подготовка учителей, мульцидисциплинарное сотрудничество*

İnklüziv təhsilə "sağlamlıq imkanları məhdud olan uşaqların ümumi təhsil müəssisəsində xüsusi şərait yaratmaqla xüsusi təlim vasitəsilə sağlam şagirdlərlə eyni sinifdə təhsilə cəlb edilməsi" kimi tərif verilir. Pedaqoji ədəbiyyatlarda isə inklüziv təhsilə daha ümumi planda tərif verilir: İnklüziv təhsil əlilliyi olan və olmayan, zəngin və yoxsul uşaqların, eləcə də cinsi, etnik, dini və mədəni statusundan asılı olmayaraq bütün uşaqların öz icmaları daxilində onların potensialını aşkara çıxara bilən məktəblərdə təhsil almasıdır. Bu anlayış müasir təhsil sisteminin əsas prinsiplərindən birinə çevrilmişdir və müxtəlif fiziki, əqli, sosial-iqtisadi və mədəni xüsusiyyətlərindən asılı olmayaraq, hər bir şəxsin keyfiyyətli təhsil almaq hüququna əsaslanır.

İnklüziv təhsilin psixopedaqoji əsasları, bu təhsil modelinin nəzəri və praktiki istiqamətlərini müəyyən edən fundamental prinsipləri, konsepsiyaları və yanaşmaları əhatə edir. Bu əsaslar uşaqların inkişaf xüsusiyyətlərinin, psixoloji ehtiyaclarının və öyrənmə proseslərinin dərindən anlaşılmasına əsaslanır və pedaqoji müdaxilələrin səmərəli şəkildə planlaşdırılması və həyata keçirilməsi üçün zəruri olan biliyi təmin edir.

Bu məqalədə inklüziv təhsilin psixopedaqoji əsasları, bu sahədə aparılan elmi tədqiqatlar, qabaqcıl təcrübələr və müasir yanaşmalar işığında təhlil ediləcəkdir. İnklüziv təhsilin uğurla həyata keçirilməsi üçün zəruri olan psixoloji və pedaqoji prinsiplər müzakirə olunacaq və Azərbaycan təhsil sistemi kontekstində bu prinsiplərin tətbiqinə dair tövsiyələr irəli sürüləcəkdir.

İnklüziv təhsilin nəzəri əsasları

İnklüziv təhsilin nəzəri əsasları bir sıra psixoloji və pedaqoji nəzəriyyələrə, konsepsiyalara və yanaşmalara əsaslanır. Bu nəzəriyyələr arasında Vıqotskinin sosial-mədəni nəzəriyyəsi, Qardnerin çoxşaxəli intellekt nəzəriyyəsi, Brunerin konstruktiv öyrənmə nəzəriyyəsi və Bioekologiya nəzəriyyəsi xüsusi yer tutur.

Lev Vıqotskinin sosial-mədəni nəzəriyyəsi, uşaqların inkişafının və öyrənməsinin sosial kontekstdə baş verdiyini və uşaqların potensialının tam realizə olunması üçün sosial qarşılıqlı əlaqələrin vacib olduğunu vurğulayır. Vıqotskiyə görə, öyrənmə prosesi "yaxın inkişaf zonası" (Zone of Proximal Development) adlanan bir sahədə baş verir ki, bu da uşağın müstəqil şəkildə edə biləcəyi və bir yetişkinin və ya daha təcrübəli yaşıdın köməyi ilə edə biləcəyi şeylər arasındakı fərqdir. Bu anlayış inklüziv təhsildə fərdi yanaşmanın vacibliyini və uşaqların potensialının reallaşdırılması üçün müvafiq dəstəyin təmin edilməsinin zəruriliyini vurğulayır.

Hovard Qardnerin çoxşaxəli intellekt nəzəriyyəsi, intellektin yalnız verbal-linqvistik və məntiqi-riyazi qabiliyyətlərlə məhdudlaşmadığını, həm də musiqi, məkan, bədən-kinestetik, şəxsiyyətlərarası, özünüdərk və təbiətşünaslıq kimi müxtəlif intellekt növlərini əhatə etdiyini iddia edir [10]. Bu nəzəriyyə inklüziv təhsildə fərdi öyrənmə üslublarının və güclü tərəflərin nəzərə alınmasının vacibliyini vurğulayır və müəllimlərə uşaqların müxtəlif qabiliyyətlərini və bacarıqlarını tanımağa və inkişaf etdirməyə kömək edir.

Cerom Brunerin konstruktiv öyrənmə nəzəriyyəsi, öyrənmənin aktiv bir proses olduğunu və uşaqların öz biliklərini mövcud bilik və təcrübələrinə əsaslanaraq qurduğunu vurğulayır [5]. Bu nəzəriyyə, inklüziv təhsildə uşaqların fərdi təcrübələrinin və kontekstlərinin nəzərə alınmasının, həmçinin öyrənmə prosesində onların aktiv iştirakının təmin edilməsinin vacibliyini vurğulayır.

Uri Bronfenbrenner tərəfindən təklif edilən Bioekologiya nəzəriyyəsi, uşaqların inkişafı-

nın müxtəlif səviyyəli ekoloji sistemlərdə – mikrosistem (ailə, məktəb), mezosistem (bu mikrosistemlərin qarşılıqlı əlaqəsi), ekzosistem (uşağın birbaşa iştirak etmədiyi, lakin onun inkişafına təsir edən mühitlər) və makrosistem (mədəniyyət, qanunlar, adət-ənənələr) – baş verdiyini göstərir (Bronfenbrenner, 1979). Bu nəzəriyyə, inklüziv təhsildə uşaqların inkişafına təsir edən bütün ekoloji sistemlərin nəzərə alınmasının və müxtəlif sistemlər arasında əməkdaşlığın təşviq edilməsinin vacibliyini vurğulayır.

İnklüziv təhsilin psixoloji aspektləri

İnklüziv təhsilin psixoloji aspektləri, uşaqların emosional və sosial inkişafına, özünüqiymətləndirmə və identiklik formalaşmasına, həmçinin psixoloji rifahına təsir edən amilləri əhatə edir.

Emosional və sosial inkişaf inklüziv təhsilin mühüm komponentlərindən biridir. Ətrafındakılarla səmərəli qarşılıqlı əlaqə qurmaq, emosiyaları tanımaq və idarə etmək, həmçinin empatiya göstərmək qabiliyyəti uşaqların həm akademik, həm də sosial uğurları üçün vacibdir [11]. İnklüziv təhsil mühitində bütün uşaqlar bir-birlərinin fərqli xüsusiyyətlərini qəbul etmək, hörmət etmək və qiymətləndirmək imkanı əldə edirlər ki, bu da onların emosional və sosial inkişafına müsbət təsir göstərir.

Özünüqiymətləndirmə və identiklik formalaşması da inklüziv təhsilin psixoloji aspektlərindən biridir. Əlilliyi olan uşaqlar və digər azlıq qruplarına aid olan uşaqlar çox vaxt mənfi stereotiplərlə, ayrı-seçkiliklə və sosial təcrid ilə üzləşirlər ki, bu da onların özünüqiymətləndirməsinə və identikliyinə mənfi təsir göstərir [2]. İnklüziv təhsil mühiti bütün uşaqların özlərini dəyərli, qəbul edilmiş və hörmət edilmiş hiss etmələri üçün imkan yaradır və beləliklə onların pozitiv özünüqiymətləndirmə və identiklik formalaşdırmasına kömək edir.

Psixoloji rifah inklüziv təhsilin digər mühüm psixoloji aspektidir. Təhsil prosesindən kənarlaşdırılan və ya ayrı-seçkiliyə məruz qalan uşaqlar stress, təşviş və depressiya kimi psixoloji problemlərlə üzləşə bilərlər (Seligman, 2011). İnklüziv təhsil mühiti bütün uşaqların psixoloji rifahını təmin etməyə yönəlmiş dəstəkləyici bir mühit yaradır və onların emosional və psixoloji ehtiyaclarını qarşılayır.

İnklüziv təhsilin pedaqoji aspektləri

İnklüziv təhsilin pedaqoji aspektləri, tədris metodları, kurikulum adaptasiyası, qiymətləndirmə strategiyaları və sinif idarəetməsi kimi pedaqoji praktikalarla bağlıdır.

Tədris metodları inklüziv təhsilin mühüm pedaqoji aspektlərindən biridir. Müxtəlif öyrənmə üslublarına və ehtiyaclarına malik uşaqlar üçün səmərəli tədrisi təmin etmək üçün müəllimlər müxtəlif tədris metodları və strategiyaları istifadə etməlidirlər. Bu metodlara interaktiv təlim, kooperativ öyrənmə, layihə əsaslı öyrənmə, problem əsaslı öyrənmə və fərdiləşdirilmiş təlim daxildir.

Kurikulum adaptasiyası inklüziv təhsilin digər mühüm pedaqoji aspektidir. Müxtəlif qabiliyyətlərə və ehtiyaclara malik uşaqların eyni kurikuluma əlçatanlığını təmin etmək üçün kurikulumun uyğunlaşdırılması və modifikasiyası vacibdir. Bu, məzmunun sadələşdirilməsi, alternativ tədris materiallarının təmin edilməsi, təqdimat formalarının uyğunlaşdırılması və uşaqların ehtiyaclarına uyğun olaraq tədris sürətinin tənzimlənməsi kimi strategiyaları əhatə edə bilər.

Qiymətləndirmə strategiyaları da inklüziv təhsilin mühüm pedaqoji aspektlərindən biridir. Ənənəvi qiymətləndirmə metodları çox vaxt əlilliyi olan uşaqlar və digər azlıq qruplarına aid olan uşaqlar üçün uyğun olmaya bilər. İnklüziv təhsildə qiymətləndirmə müxtəlif qabiliyyətlərə və öyrənmə üslublarına malik uşaqlar üçün əlçatan olmalı və onların bilik və bacarıqlarını obyektiv şəkildə ölçməlidir. Bu, portfolio qiymətləndirməsi, performans əsaslı qiymətləndirmə, özünüqiymətləndirmə və həmyaşıd qiymətləndirməsi kimi alternativ qiymətləndirmə metodlarının istifadəsini nəzərdə tutur.

Sinif idarəetməsi inklüziv təhsilin digər mühüm pedaqoji aspektidir. İnklüziv sinif mühitində müəllimlər müxtəlif ehtiyacları, bacarıqları və davranışları olan uşaqlarla işləmək üçün effektiv sinif idarəetmə strategiyalarına malik olmalıdırlar [8]. Bu strategiyalara pozitiv davranış dəstəyi, müsbət sinif iqliminin yaradılması, açıq və aydın gözləntilərin müəyyən edilməsi və fərdi davranış planlarının hazırlanması daxildir.

İnklüziv təhsilin uğurlu tətbiqi üçün zəruri olan psixopedaqoji şərtlər

İnklüziv təhsilin uğurla həyata keçirilməsi üçün bir sıra psixopedaqoji şərtlərin təmin edilməsi vacibdir. Bu şərtlər arasında müəllimlərin hazırlığı və professional inkişafı, multidisiplinar əməkdaşlıq, valideyn iştirakı və dəstəkləyici məktəb mühiti xüsusi yer tutur.

Müəllimlərin hazırlığı və professional inkişafı inklüziv təhsilin uğurla həyata keçirilməsi üçün vacib şərtlərdən biridir. Müəllimlər inklüziv təhsil prinsipləri, müxtəlif əlillik növləri və xüsusi təhsil ehtiyacları, fərdiləşdirilmiş təlim strategiyaları və davranış idarəetməsi metodları haqqında biliklərə malik olmalıdırlar [6]. Bundan əlavə, müəllimlər müntəzəm olaraq professional inkişaf imkanlarına malik olmalı və özlərinin inklüziv təhsil praktikalarını təkmilləşdirmək üçün dəstək almalıdırlar.

Multidisiplinar əməkdaşlıq inklüziv təhsilin uğurla həyata keçirilməsi üçün digər vacib şərtdir. Müxtəlif peşə sahiblərinin – müəllimlər, psixoloqlar, sosial işçilər, loqopedlər və digər mütəxəssislərin – əməkdaşlığı uşaqların müxtəlif ehtiyaclarını qarşılamaq və onlara hərtərəfli dəstək göstərmək üçün vacibdir [9]. Bu əməkdaşlıq uşaqların qiymətləndirilməsi, fərdi təhsil planlarının hazırlanması və həyata keçirilməsi, həmçinin müdaxilə strategiyalarının planlaşdırılması və tətbiqi mərhələlərində xüsusilə əhəmiyyətlidir.

Valideyn iştirakı inklüziv təhsilin uğurla həyata keçirilməsi üçün vacib şərtlərdən bir digəridir. Valideynlər uşaqlarının təhsil prosesində aktiv iştirak etməli və müəllimlər və digər mütəxəssislərlə sıx əməkdaşlıq etməlidirlər [7]. Valideynlərin iştirakı uşaqların təhsil ehtiyaclarının daha yaxşı anlaşılmasına, evdə və məktəbdə ardıcıl dəstəyin təmin edilməsinə və uşaqların akademik və sosial inkişafının təşviq edilməsinə kömək edir.

Dəstəkləyici məktəb mühiti inklüziv təhsilin uğurla həyata keçirilməsi üçün vacib şərtlərdən sonuncusudur. Dəstəkləyici məktəb mühiti müsbət məktəb mədəniyyətini, inklüziv dəyərlərə və prinsiplərə sadiqliyini, həmçinin bütün uşaqların təhsil ehtiyaclarını qarşılamaq üçün zəruri olan resursları və dəstəyi nəzərdə tutur [3]. Dəstəkləyici məktəb mühiti həm də fiziki mühitin əlçatanlığının təmin edilməsi, müvafiq öyrənmə materiallarının və texnologiyalarının təmin edilməsi, həmçinin bütün uşaqlar üçün təhlükəsiz və uyğun bir mühitin yaradılmasını əhatə edir.

Azərbaycanda inklüziv təhsilin inkişafı üçün tövsiyələr

Azərbaycanda inklüziv təhsilin inkişafı üçün bir sıra tövsiyələr təklif etmək olar. Bu tövsiyələr arasında qanunvericilik və siyasət səviyyəsində dəyişikliklər, müəllim hazırlığı və professional inkişafının təkmilləşdirilməsi, məktəb infrastrukturunun və resurslarının yaxşılaşdırılması, həmçinin ictimai maarifləndirmə və stereotiplərlə mübarizə xüsusi yer tutur.

Qanunvericilik və siyasət səviyyəsində dəyişikliklər Azərbaycanda inklüziv təhsilin inkişafı üçün vacib tövsiyələrdən biridir. Azərbaycan qanunvericiliyində inklüziv təhsil prinsiplərinin və hüquqlarının daha aydın şəkildə əks olunması və bu prinsiplərin və hüquqların həyata keçirilməsi üçün konkret mexanizmlərin müəyyən edilməsi vacibdir. Bundan əlavə, inklüziv təhsilin maliyyələşdirilməsi üçün adekvat büdcə ayrılmalı və bu vəsaitlərin səmərəli şəkildə istifadəsi üçün nəzarət mexanizmləri yaradılmalıdır.

Müəllim hazırlığı və professional inkişafının təkmilləşdirilməsi Azərbaycanda inklüziv təhsilin inkişafı üçün digər vacib tövsiyədir. Müəllim hazırlığı proqramlarına inklüziv təhsil prinsipləri və praktikalarına dair daha çox məzmun daxil edilməli və fəaliyyətdə olan müəllimlər üçün davamlı professional inkişaf imkanları təmin edilməlidir. Bundan əlavə, müəllimlərə məsləhət və dəstək xidmətləri təklif edilməli və onların inklüziv təhsil praktikalarını təkmilləşdirmək üçün innovativ yanaşmalar və metodlar haqqında məlumat verilməlidir.

Məktəb infrastrukturunun və resurslarının yaxşılaşdırılması Azərbaycanda inklüziv təhsilin inkişafı üçün vacib tövsiyələrdən bir digəridir. Məktəb binalarının fiziki əlçatanlığının təmin edilməsi, müvafiq tədris materiallarının və texnologiyalarının təmin edilməsi, həmçinin əlilliyi olan uşaqlar üçün yardımçı texnologiyaların və adaptiv avadanlıqların təmin edilməsi vacibdir. Bundan əlavə, məktəblərdə psixoloji dəstək xidmətlərinin gücləndirilməsi və müvafiq mütəxəssislərin – psixoloqlar, loqopedlər və digərlərinin – sayının artırılması da vacibdir.

İctimai maarifləndirmə və stereotiplərlə mübarizə Azərbaycanda inklüziv təhsilin inkişafı üçün vacib tövsiyələrdən sonuncusudur. Əlilliyi olan uşaqlar və digər azlıq qruplarına aid olan uşaqlar haqqında mənfi stereotiplərin və miflərin aradan qaldırılması üçün ictimai maarifləndirmə kampaniyalarının keçirilməsi vacibdir. Bundan əlavə, uşaqlar, valideynlər və icma üzvləri arasında müxtəliflik, inklüzivlik və tolerantlıq dəyərlərinin təşviq edilməsi də vacibdir. Bu, media, sosial şəbəkələr, təhsil proqramları və icma tədbirləri vasitəsilə həyata keçirilə bilər.

Nəticə

İnklüziv təhsilin psixopedaqoji əsasları bu təhsil modelinin səmərəli şəkildə həyata keçirilməsi üçün zəruri olan nəzəri və praktiki bilik və bacarıqları təmin edir. Bu əsaslar müxtəlif psixoloji və pedaqoji nəzəriyyələrə, konsepsiyalara və yanaşmalara əsaslanır və inklüziv təhsilin həm psixoloji, həm də pedaqoji aspektlərini əhatə edir.

İnklüziv təhsilin psixoloji aspektləri uşaqların emosional və sosial inkişafına, özünüqiymətləndirmə və identiklik formalaşmasına, həmçinin psixoloji rifahına təsir edən amilləri əhatə edir. İnklüziv təhsilin pedaqoji aspektləri isə tədris metodları, kurikulum adaptasiyası, qiymətləndirmə strategiyaları və sinif idarəetməsi kimi pedaqoji praktikalarla bağlıdır.

İnklüziv təhsilin uğurla həyata keçirilməsi üçün bir sıra psixopedaqoji şərtlərin təmin edilməsi vacibdir. Bu şərtlər arasında müəllimlərin hazırlığı və professional inkişafı, multidisiplinar əməkdaşlıq, valideyn iştirakı və dəstəkləyici məktəb mühiti xüsusi yer tutur.

Azərbaycanda inklüziv təhsilin inkişafı üçün qanunvericilik və siyasət səviyyəsində dəyişikliklər, müəllim hazırlığı və professional inkişafının təkmilləşdirilməsi, məktəb infrastrukturunun və resurslarının yaxşılaşdırılması, həmçinin ictimai maarifləndirmə və stereotiplərlə mübarizə kimi tövsiyələr təklif edilir.

Ümumiyyətlə, inklüziv təhsilin psixopedaqoji əsaslarının dərindən anlaşılması və tətbiqi bütün uşaqların təhsil ehtiyaclarının qarşılanması və onların potensialının tam realizə olunması üçün vacibdir. Bu, təhsil sisteminin daha ədalətli, inklüziv və səmərəli olmasına və bütün uşaqların keyfiyyətli təhsilə çıxışının təmin edilməsinə kömək edəcəkdir.

Problemin aktuallığı. Tədqiqatın aktuallığı müasir Azərbaycan təhsil sistemində inklüziv təhsilin həyata keçirilməsi üçün psixopedaqoji şərtlərin müəyyənləşdirilməsi və bu sahədə qanunvericilik, müəllim hazırlığı və məktəb infrastrukturunun təkmilləşdirilməsinə dair konkret tövsiyələrin verilməsi ilə bağlıdır.

Problemin elmi yeniliyi. Bu tədqiqatın elmi yeniliyi Vıqotskinin sosial-mədəni nəzəriyyəsi, Qardnerin çoxşaxəli intellekt nəzəriyyəsi ilə Bronfenbrennerin bioekologiya nəzəriyyəsinin sintez edilərək inklüziv təhsilin psixopedaqoji əsaslarının multidisiplinar əməkdaşlıq modelində kompleks təqdim olunmasıdır.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın praktiki əhəmiyyəti təhsil işçiləri üçün inklüziv təhsilin səmərəli həyata keçirilməsində istifadə oluna bilən psixopedaqoji strategiyalar, kurikulum adaptasiyası metodları və multidisiplinar əməkdaşlığın təklif edilməsindədir.

Ədəbiyyat

1. Bandura, A. Self-efficacy: The exercise of control / A. Bandura. – New York: Freeman, – 1997. – 604 p.
2. Booth, T. Index for inclusion: Developing learning and participation in schools / T. Booth, M. Ainscow. – Bristol: Centre for Studies on Inclusive Education, – 2011. – 86 p.
3. Bronfenbrenner, U. The ecology of human development: Experiments by nature and design / U. Bronfenbrenner. – Cambridge, MA: Harvard University Press, – 1979. – 330 p.
4. Bruner, J. Toward a theory of instruction / J. Bruner. – Cambridge, MA: Harvard University Press, – 1966. – 176 p.
5. Epstein, J.L. School, family, and community partnerships: Preparing educators and improving schools / J.L. Epstein. – New York: Routledge, – 2018. – 584 sp
6. Evertson, C.M. Handbook of classroom management: Research, practice, and contemporary issues / C.M. Evertson, C.S. Weinstein. – Mahwah, NJ: Lawrence Erlbaum Associates, – 2006. – 1151 p.
7. Friend, M. Interactions: Collaboration skills for school professionals / M. Friend, L. Cook. – Boston: Pearson, – 2017. – 416 p.
8. Gardner, H. Frames of mind: The theory of multiple intelligences / H. Gardner. – New York: Basic Books, – 1983. – 440 p.
9. Goleman, D. Emotional intelligence / D. Goleman. – New York: Bantam Books, – 1995. – 352 s.
10. İnklüziv təhsil / Q. Hüseynov, L. Şərəfxanova, S. Məmmədova [və b.] – Bakı: – 2010.
11. Darling-Hammond, L. Teacher education around the world: What can we learn from international practice? // European Journal of Teacher Education, – 2017. № 40(3), – pp. 291-309.
12. Xələfov, A. İnklüziv siniflərdə tətbiq olunan pedaqoji metodların təhlili // Azərbaycan məktəbi. Elmi nəzəri pedaqoji jurnal, – 2023. № 3.

Redaksiyaya daxil olub: 11.06.2025

UOT 159.9

Məhərrəm Sabir oğlu Əliyev,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrasının dosenti,
psixologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-3762-8745
E-mail: dos.m.aliyev@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(4).188-194

İNTİHARLARIN TƏSNİFATI PROBLEMİ: YANAŞMALAR VƏ PERSPEKTİVLƏR

Maharram Sabir Aliyev,
associate professor of the department of General psychology at Azerbaijan State Pedagogical University,
doctor of philosophy in psychology

THE PROBLEM OF SUICIDE CLASSIFICATION: APPROACHES AND PERSPECTIVES

Магеррам Сабир оглы Алиев,
доцент кафедры Общей психологии Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по психологии

ПРОБЛЕМА КЛАССИФИКАЦИИ САМОУБИЙСТВ: ПОДХОДЫ И ПЕРСПЕКТИВЫ

Xülasə. İntihar sosioloji, psixoloji, bioloji və fəlsəfi yanaşmalar daxil olmaqla, müxtəlif aspektlərdən təsnif edilən mürəkkəb və multidissiplinar hadisədir. İntiharın təsnifatı müxtəlif sahələr üzrə tədqiqatçılara suisidin qarşısının alınması və ona müdaxilə strategiyalarını təqdim etməklə, intiharın əsas səbəbləri və risk amillərini anlamağa kömək edir. Bu məqalədə fərqli nəzəri yanaşmalara və empirik tədqiqatlara söykənərək intiharın təsnifatı üçün müxtəlif yanaşmalar nəzərdən keçirilir. Suisidologiya sahəsində ən tanınmış müəlliflərin (E. Durkheim, K. Menninger, Edwin S. Shneidman və b. kimi) intihar davranışı ilə bağlı təsnifatları təhlil edilir.
Açar sözlər: *intihar, təsnifat, fərdi intihar, kütləvi intihar, ritual intihar*

Abstract. Suicide is a complex and interdisciplinary phenomenon that is classified from various points of view, including sociological, psychological, biological and philosophical approaches. Classification of suicides helps researchers in various fields to understand the main causes and risk factors of suicide, offering strategies for prevention and intervention in the suicide situation. The article considers various approaches to the classification of suicides, based on various theoretical approaches and empirical studies. Classifications of suicidal behavior of the most famous authors in the field of suicidology (such as E.Durkheim, K.Menninger, Edwin S. Shneidman, etc.) are analyzed.
Key words: *suicide, classification, individual suicide, mass suicide, ritual suicide*

Аннотация. Самоубийство – сложное и междисциплинарное явление, которое классифицируется с различных точек зрения, включая социологический, психологический, биологический и философский подходы. Классификация самоубийств помогает исследователям в различных областях понять основные причины и факторы риска самоубийства, предлагая стратегии профилактики и вмешательства в ситуацию самоубийства. В статье рассматриваются различные подходы к классификации самоубийств, опирающиеся на различные теоретические подходы и эмпирические исследования. Проанализированы классификации суицидального поведения наиболее известных авторов в области суицидологии (таких как Э.Дюркгейм, К.Меннингер, Эдвин С. Шнейдман и др.).

Ключевые слова: *самоубийство, классификация, индивидуальное самоубийство, массовое самоубийство, ритуальное самоубийство*

Giriş

İntiharların səbəblərini, profilaktika və sosial təsir imkanlarını anlaya bilmək üçün onların təsnif edilməsi zəruridir. Daha sonra görəcəyimiz kimi intiharların müxtəlif adda və sayda təsnifatı vardır. İntihar davranışının təsnif edilməsinin zəruriliyini əsaslandırmağın bir neçə arqumentini qeyd etmək məqsədəuyğun olar.

İlk arqument *risk amillərinin anlaşılma səviyyəsinin artırılması* ilə əlaqədardır. Belə ki, təsnifat sosioloji, psixoloji, bioloji və b. bu kimi amillərlə şərtlənən intiharların müxtəlif səbəblərini fərqləndirməyə kömək edir. Bu fərq risk qrupundan olan şəxsləri daha yaxşı identifikasiya etməyə imkan verir və gərəkli ardıcıl müdaxiləni asanlaşdırır (1).

İkinci arqument məhz *məqsədli müdaxilənin işlənilməsi* ilə əlaqədardır. Hər tip intihar (eqoist, altruistik, anomik və b.) ayrı-ayrı müdaxilə strategiyaları tələb edir (2). İntihar davranışı ilə əlaqədar təsnifatlar psixi sağlamlıq mütəxəssislərinə müxtəlif risk qruplarına uyğun xüsusi profilaktik proqramlar işləyib hazırlamağa şərait yaradır.

Üçüncü arqument kimi *müalicənin keyfiyyəti* ilə bağlı məsələni göstərə bilərik. Klinik psixologiya nöqteyi-nəzərindən psixi sağlamlığın müxtəlif halları (məsələn, güclü depressiv pozuntu və b.) intihar davranışının müxtəlif formaları ola bilər, hansı ki, onlar arasındakı fərqlərin anlaşılması müalicənin daha effektiv sxemlərini seçməyə kömək edir.

Dördüncü arqument *intiharla bağlı araşdırmalar* üçün məlumatların toplanmasına zəmin hazırlamaqla bağlıdır. İntiharların vahid təsnifatı olmasa da, ayrılıqda hər bir təsnifat intiharla əlaqəli göstəricilərin qiymətləndirilməsində istinad rolunu oynayır.

Beşinci arqument *kross-mədəni yanaşma* ilə əlaqəlidir, belə ki, bəzi mədəniyyətlər özünəməxsus intihar davranışı ilə fərqlənir. Bəzi mədəniyyətlərdə intihar şərəfli davranış nümunəsi (məsələn, Yaponiyada *seppuku* – yaponca "qarın nahiyəsinin yarılması") sayılarkən, digər mədəniyyətlərdə sərt şəkildə qınanır. Mədəniyyət kontekstində intiharların təsnifatı onun sosial əhəmiyyətini daha yaxşı başa düşməyə və mədəni-həssas profilaktik strategiyalar işləyib hazırlamağa kömək edir (3).

Altıncı arqument *stiqma və yanlış təsəvvürlərlə mübarizə* anlamında intihar təsnifatlarının önəmli olduğuna işarə edir. Sistemli quruluşa malik təsnifatlar insanlar arasında dolaşan intihar haqqında miflərlə (məsələn, intiharlar həmişə psixi xəstəliklərlə əlaqədardır) mübarizə aparmaqda bizə yardımçı olur. Müəyyən meyarlar əsasında qurulan təsnifatlar müxtəlif motivləri ayırd etməklə, cəmiyyətdə insanların maariflənmə səviyyəsinin artmasına şərait yaradır (1).

Metod

İntihar (suisid) haqqında ədəbiyyatların, o cümlədən elektron resursların, intiharın təsnifatı ilə bağlı müxtəlif tədqiqatçıların fikir və yanaşmalarının təhlili metodundan istifadə edilmişdir. Təhlil nəticəsində əldə olunan məlumatların sistemləşdirilməsi, təsnif edilməsi və interpretasiyası həyata keçirilmişdir.

Nəticə

İntiharların vahid təsnifatı olmasa da, müxtəlif tədqiqatçılar fərqli meyarlara istinadən ayrı-ayrı vaxtlarda intihar davranışının formalarını, tiplərini, növlərini ayırd etməyə cəhdlər etmişlər.

J. Moreau de Tours (1804-1884) intiharın 4 formasını ayırd etmişdir: *maniakal, avtomatik yaxud impulsiv, melanxoliklərdə intihar* və *sarışan ideyalara mübtəla olanlarda intihar* (4, s. 42).

K. Menningerin (1893-1990) əsərində intiharların 3 forması izah olunur:

1. Xroniki intiharlar – asketizm və əzabkeşlik, nevrasteniya, alkoqolizm, cəmiyyət əleyhinə davranış (nevrotik xarakter, cinayətə meyllilik, cinsi pozğunluqlar), psixoz.

2. Lokal intiharlar – özünə zərərvermə (nevrotik, dini, psixopatik, üzvi xəstəliklərlə əlaqəli, gündəlik və adəti formaları), simulyasiya, policərrahiyyə, niyyətli bədbəxt hadisələr, impotensiya, frigidlik.

3. Üzvi intiharlar – özünüdağıdıcı elementləri (özünü cəzalandırma, aqressiya, erotik tərkibli) daşıyan xəstəliklər (5).

A.T. Beck (1921-2021) və əməkdaşlarına görə, *"intihar davranışını üç geniş kateqoriyada sxemləşdirmək olar: Tamamlanmış intiharlar, intihara cəhdlər və intihar ideyaları"* (6, s. 7-8). Müəlliflərin fikrincə, *"öz növbəsində, bu kateqoriyalardan hər biri altkateqoriyaya malikdir: ölüm sayı, niyyət, yumşaldıcı şərtlər (şəraitlər), metod və müəyyənlik dərəcəsi"* (6, s. 7-8).

Cədvəl 1.

İntihar davranışının təsnifatı

I.Tamamlanmış intihar (CS)	A. Qiymətləndir-mənin müəyyən-liyi (0-100%)	B. Ölümcüllük (həyat üçün tibbi təhlükə) (sıfır, aşağı, orta, yüksək)	C. Niyyət (ölmək üçün) (sıfır, aşağı, orta, yüksək)	D. Yumşaldıcı şərtlər (çaşqınlıq, intoksikasiya, və b.)	E.Metod (sıfır, aşağı, orta, yüksək)
II.İntihara cəhd (SA)	A. Müəyyənlik (0-100%)	B. Ölümcüllük (həyat üçün tibbi təhlükə) (sıfır, aşağı, orta, yüksək)	C. Niyyət (ölmək üçün) (sıfır, aşağı, orta, yüksək) Subyektin ifadələrinin, sağ qalma ehtimalının, xəstəlik tarixinin və digər sübutların nəzərə alınması daxildir; qiymətləndiricidən nəticə və mühakimə tələb edir.	D. Yumşaldıcı şərtlər (sıfır, aşağı, orta, yüksək)	E.Metod
III. İntihar ideyaları (SI) İntihara cəhd və ya tamamlanmış intihar kimi təsnif edilən aydın əməllər istisna olmaqla, bütün aydın intihar davranışı və məlumatları daxil edir. İntihar təhdidləri, intiharla qayğılı olmaq, ölmək arzusunun ifadələri və intihar planlaşdırması-nın dolayı göstəriciləri və s. daxildir.	A. Müəyyənlik (0-100%)	B. Ölümcüllük (həyat üçün tibbi təhlükə) (qeyri-müəyyən, aşağı, orta, yüksək) Həyat üçün təhlükə yaradan planın həyata keçirildiyi təqdirdə nəticələrə istinad edir.	C. Niyyət (ölmək üçün) (sıfır, aşağı, orta, yüksək) Subyektin cari ifadələrinin, onun əvvəlki ifadələrinin və başqaları tərəfindən edilən hərəkətlərin hesabatlarının, keçmiş tarixinin və digər sübutların nəzərdən keçirilməsi daxildir; qiymətləndirici-dən nəticə çıxarmağı və mühakimə etməyi tələb edir.	D. Yumşaldıcı şərtlər (intihar düşüncələrinin yaranması zamanı çaşqınlıq, intoksikasiya və digər müvəqqəti dəyişdirici amillər)	E. Метод (Metodu adlandırın. Bir neçə üsul sadalana bilər. Bəzi hallarda üsul naməlum ola bilər. Sıra şkalası deyil)

L.N. Yuryeva öz kitabında tarixi aspekt-dən yola çıxaraq intiharların 3 səviyyəsini ayırd edərək təsnifat qurur:

1. İntihar – dərk olunmayan davranış aktı kimi. İntiharın bu tipi insanın inkişafında keçdiyi ilk səviyyə olan psixofizioloji "öz" mo-dallıqlı orqanizm səviyyəsinə uyğundur və ar-xaik (mistik) şüurun dominant olması, mənlik şüurunun və özünüidentifikasiyanın isə olma-

ması ilə xarakterizə olunan primitiv mədəniyyətlər üçün xarakterikdir.

2. İntihar – cəmiyyət tərəfindən sanksiyalaşdırılmış davranış aktı kimi. İntiharın bu tipi sosial "öz" modallıqlı fərd səviyyəsinə uyğundur və yaranmasının əsasında (sosial) mənlik şüurunun formalaşması durur. Bu səviyyədə intiharın bir neçə variantı ayırd edilir: sosiosentrik, teosentrik və antroposentrik.

3. İntihar – dərk olunmuş davranış aktı kimi. Şəxsiyyət yönümlü intihara eqo-modallıq uyğundur və mənlik şüuru ilə özünüidentifikasiyanın olması ilə xarakterizə olunur (4).

Digər təsnifata görə, intiharlar, adətən, iki formada özünü göstərə bilər**: sosial və fərdi.** Sosial intihar insanın müvafiq cəmiyyətdə üzvlük üçün ödəmə timsalında həmin cəmiyyət tərəfindən tələb olunan özünü məhvetməsi olmuşdur. Məsələn, başqası üçün öz həyatını qurban vermək kimi (yaşlı və xəstələrdən qrupun sağ qala bilməsi üçün özlərini qurban verməsini gözləmək)... Həmçinin intihar bəzi primitiv mədəniyyətlərdə qəzəb və intiqamın sərt təyin olunmuş şəkildə ifadəsi olmuşdur. Məsələn, qəbilə üzvü tabunu pozmaqla ittiham ediləndə, o, palma ağacının təpəsinə dırmaşıb, öz ittihamçısının adını çəkib, sonra ağacdan başı aşağı önə doğru tullana bilərmiş. Fərdi intihar isə, adətən, şərəfin qorunması, qorxaqlığın kəffarəsi, ağrının kəsilməsi, iffətin qorunması, şəxsi rüsvayçılıqdan xilas (düşmənin əlinə düşməklə əlaqəli olan), yaxud yaxınların ayrılığı və ya itkisi səbəbindən güclü ümidsizlik üsulu kimi həyata keçirilirmiş (7, s. XVI).

Başqa təsnifata görə, intiharlar **fərdi** və **ritual** ola bilər. İnsan sonrakı mövcudluğunun onun prinsiplərinə, ideallarına və inanclarına əsaslı şəkildə zidd olan müəyyən həyat şəraiti ilə bir araya sığmadığını dərk etdikdə, belə intihar fərdi sayıla bilər. Ritual intihar tam əks səbəbə görə baş verir – o zaman baş verir ki, cəmiyyət müəyyən situasiyalarda və şəraitdə insanın mövcudluğunu davam etdirmək hüququna malik deyil və bu yaxud digər üsulla intihar etməlidir və şəxsin törətməli olduğu əmələ münasibətinin heç bir əhəmiyyəti yoxdur (8, s. 38).

Daha fərqli təsnifata görə, öz həyatına son qoymağa cəhdə istiqamətlənmiş istənilən daxili yaxud xarici aktivliyi suisidal adlandırmaq olar. Bu anlamda, intihar təzahürləri 2 yerə bölünür:

1. Daxili intihar təzahürləri: intihar düşüncələri, ölüm mövzusunda fantaziyalar (məsələn: "yatmaq və oyanmamaq yaxşı olar" və b.), intihar planları (intihar üsullarının düşünülməsi, vasitələrin və vaxtın seçilməsi), intihar niyyətləri (plana iradə komponenti qoşulur, insan özünü əmələ kökləyir).

2. Xarici intihar təzahürləri: suisidal cəhdlər (ölümlə bitməyən öz həyatına son qoymağa istiqamətlənmiş məqsədyönlü davranış aktları), tamamlanmış intihar (əməllər insanın ölməsi ilə yekunlaşır) (8, s. 82).

Məhkəmə tibbi praktikasında daha çox aşağıdakı intihar növlərinə rast gəlinir:

1. Sıxılma (asma) nəticəsində yaranan mexaniki asfiksiya.
2. Kəskin zəhərlənmələr (dərman vasitələri).
3. Kəskin qan itkisi.
4. Hündürlükdən düşmə.
5. Odlu silahdan zədələnmə (güllə yarası) (8, s. 83).

Kəmiyyət göstəricilərinə görə, **fərdi** və **kütləvi** intiharları fərqləndirirlər. Fərdi intihar deyəndə, konkret bir insanın öz həyatına bu və ya digər üsulla son qoyması nəzərdə tutulur. Kütləvi intiharlarda isə, xeyli sayda insanın eyni vaxtda və ya ard-arda öz həyatını sonlandırması nəzərdə tutulur (məsələn, bir ideya rəhbərinin ölümə çağırışı ilə davamçıların öz həyatlarına son verməsi kimi) (8, s. 83).

E. Durkheim (1858-1917) "İntihar. Sosioloji etüd" əsərində (1897) intiharların 3 tipini fərqləndirmişdir; bu təsnifat intihar davranışlarında sosial strukturların və inteqrasiyanın rolunu vurğulayır:

1. Eqoistik intihar – öz sosial qrupu ilə bütünlük hissini itirmiş insanlar üçün xarakterikdir;

2. Altruistik intihar – öz sosial qrupunun xeyrinə həyatını qurban vermə aktıdır;

3. Anomik intihar – köklü sosial dəyişikliklər yaxud siyasi böhran keçirməsi səbəbilə "kollektiv nizam"ın çatışmadığı cəmiyyətdə yaşayan insanlar arasında müşahidə olunur (iş qabiliyyətinin itirilməsi, yaxın insanın ölümü, bədbəxt sevgi və b.) (2).

Bu 3 tipdən əlavə, **"fatalistik" intihar** da fərqləndirilir. Bu intihar o insanlar tərəfindən həyata keçirilir ki, öz şəxsi xüsusiyyətləri ucbatından müəyyən yaşam mərhələsində öz inkişaflarının sonrakı yollarını görmürlər və intiharı öz həyatlarının təbii sonu kimi qavrayırlar (8, s. 84-85).

E. Durkheim'in təsnifatına daha sonralar intiharların 2 tipi də əlavə olunmuşdur:

1."Affektiv" intihar – şüurun qeyri-mütəşəkkilliyi və daralması ilə müşayiət olunur. Özünənəzarəti kifayət qədər olmayan impulsiv adamlar böhran anlarında tənha qalanda bu intihara məruz qalırlar.

2. "İmmunoloji" intihar – Valideynlərin problemlərini (boşanma, xəstəliklər, işdən çıxma və b.) yaşayan uşaqlara xasdır. Uşaq başa düşür ki, evdə artıqlıq edə, anasının xoşbəxtliyinə maneə ola bilər və getməsinin situasiyaya yardımçı ola biləcəyini hesab edir, nəticədə intihara cəhd edir (8, s. 85-86).

Bununla yanaşı, Edwin S. Shneidman (1918-2009) intiharların öz tipologiyasını yaradır: **eqotik, diadik və agenerativ.**

1. Eqotik intiharlarda əsas səbəb "Mən"in hissələri arasında intrapsixi dialoqdur, xarici şərtlər isə əlavə rol oynayır. Bu, əsasən, eşitmə hallüsinasiyaları olan psixi xəstələrə aiddir.

2. Diadik intiharlarda əsas səbəb əhəmiyyətli yaxın adama aid olan tələbat və arzuların həyata keçməməsi durur. Burada xarici faktorlar aparıcıdır.

3. Agenerativ intiharlarda səbəb nəslə yaxud ümumən insanlığa mənsubluq hissinin itirilməsi üzündən yox olmaq istəyi ilə bağlıdır. Yaşlı adamlarda özünü göstərir (9).

İntiharların ən çox yayılmış təsnifatlarından biri də onun həyata keçirilməsi xarakterinə əsaslanır:

1. Həqiqi (real, rasional, soyuq) intihar. Onun məqsədi, perspektivin itirilməsi səbəbindən öz canını almaqdır, insan həqiqətən yaşamaq istəmir və ölümə can atır. Həqiqi intihara hazırlıq üçün özünəməxsus test – insanın həyatın mənası haqqında düşüncələridir. Böyüklərdə daha çox rast gəlinir, uşaqlar üçün bu, kifayət qədər nadir intihar hadisəsidir.

2. Nümayişkar (nümayişçi-şantajçı, şantajçı, dialoji) intihar. İnsan xilas olunacağına tam əmin olduğu zaman intiharın müəyyən oyun kimi ön plana çıxdığı aktdır. Onun məqsədi cana qəsd etmək deyil, bu niyyəti nümayiş etdirməkdir. Nümayişin məqsədi müxtəlif ola bilər: diqqəti özünə cəlb etmək, münaqişənin həllində müəyyən fayda əldə etmək, başqaları ilə mübahisədə müəyyən arqument əldə etmək, qohumlara psixoloji təzyiq göstərmək. Müxtəlif müəlliflərin fikrincə, nümayişkara intiharlar ümumi intiharların təxminən 50%-ni təşkil edir.

3. İntihar həyati problemlərdən qaçmaq üsulu kimi.

4. Gizli intihar (dolayı intihar). Öz əlamətlərinə ciddi anlamda uyğun gəlməyən, lakin eyni istiqamətə və nəticəyə malik intihar davranışı növüdür. Bu, ölüm ehtimalı yüksək olan hərəkətlərdir. Bu davranış daha çox risk almağa, həyatı tərk etməyə yox, ölümlə oynamağa yönəlib. İntiharın problemi həll etmək üçün ən layiqli yol olmadığını başa düşən, lakin buna baxmayaraq başqa çıxış yolu tapa bilməyənlərin taleyi belədir. Belə insanlar həyatı açıq şəkildə "öz istəkləri ilə" tərk etməyi deyil, daha çox sözdə intiharla şərtlənmiş davranışı seçirlər (8, s. 83-84).

İntiharın *məqsədinə və fəaliyyətin motivinə* görə, onlar aşağıdakı şəkildə təsnif edilir:

1. Etiraz, qisas. İntihar davranışının etiraz formaları konflikt vəziyyətində, onun obyektiv halqası subyektə qarşı düşmənkar və ya aqressiv olduqda yaranır və intiharın anlamı obyektiv halqaya mənfi təsirdən ibarətdir.

2. Çağırış. "Çağırış" tipli intihar davranışının məqsədi situasiyanı dəyişdirmək məqsədilə xaricdən gələcək yardımı aktivləşdirməkdir.

3. Yayınmaq (cəzadan, əzabdan). İntihardan "yayınma"da konfliktin mahiyyəti şəxsi və ya bioloji mövcudluğa təhlükədir, hansına ki, yüksək özdəyərlilik qarşı durur. İntiharın anlamı özünü kənarlaşdırma yolu ilə dözülməz şəxsi təhlükədən qaçmaqdır.

4. Özünü cəzalandırma. "Özünü cəzalandırma" şəxsiyyətdaxili etiraz kimi müəyyən edilə bilər; "Mən"in özünəməxsus bölünməsi və iki rolun ("hakim Mən" və "müttəhim Mən") birgə mövcudluğu ilə intrapsixi konflikt:. Özünü cəzalandırma intiharlarının mənası "öz içindəki düşməni məhv etmək" ("hakimin qərarı ilə intihar", "yuxarıdan qərar vermək") və "günahın yuyulması" ("müttəhimin intiharı", "aşağıdan təşəbbüs") hallarında müxtəlif çalarlara malikdir.

5. İmtina. Əgər əvvəlki dörd növdə intiharın məqsədi ilə fəaliyyət motivi üst-üstə düşmürdüsə, intihar davranışını əməl (hərəkət) kimi təsnif etməyə əsas verirdisə, "imtina" intiharlarında məqsədlə motiv arasında nəzərə çarpacaq uyğunsuzluğu aşkar etmək mümkün deyil. Başqa sözlə desək, motiv mövcudluqdan imtina, məqsəd isə öz həyatına son verməkdir (8, s. 86).

İntihar cəhdlərinin təhlili yolu ilə intihar davranışının təsnifatı perspektivini əsas götürsək, V.A. Tixonenkonun, ölümün arzuolunan dərəcəsini nəzərə alaraq, intihar cəhdləri nəzəriyyəsini bir neçə əlaqəli davranış növü ilə tamamlamasını misal çəkə bilərik:

I, *nümayişkar-şantajçı xarakterli intihar davranışı*, hansı ki, məqsədi ölmək niyyətini nümayiş etdirməkdir.

II, *özünə xətər yetirmə və ya özünə zərərvermə*, hansılar ki, ümumiyyətlə ölüm haqqında təsəvvürlərlə yönləndirilmirlər və yalnız bu və ya digər orqanın zədələnməsi ilə məhdudlaşırlar.

III, bu cür davranış sadəcə *bədbəxt hadisənin nəticəsi* ola bilər (8, s. 87).

A. Lavrin (1958) Şirixevə istinadən yazır ki, intihar davranışının üç növü müəyyən edilir: I növ – *həqiqidir* (insan özünü öldürmək istəyəndə); II növ – *affektivdir* (emosional anın üstünlüyü ilə seçilir); III növ – *nümayişkardır* (diqqəti cəlb etmək üsulu kimi) (10, s. 273).

R.W. Marisin təsnifatında intihar davranışının tiplərini müəyyən etmək üçün bir neçə ox müəyyən edilmişdir. *I ox* davranış tipini (intihar düşüncələri, intihara cəhd, intihar) müəyyən edir. *II ox* intihar əməlinin özünə münasibətdə ikinci dərəcəli olan (onun ölümcülliyi, əvvəlcədən düşünülmüş olması, müşayiətedici şərtlər, seçilmiş metod, habelə sosial xarakteristikalar: cinsi, yaşı, etnik mənsubiyyəti, ailə vəziyyəti və məşğuliyyət növü) aktın xarakteristikalarının üzə çıxarılmasına xidmət edir. Nəhayət, *III ox* xroniki, dolayı, özünü məhv edən davranışların (psixoaktiv maddələrin istifadəsi, alkoqol, anamnezdə özünə zərərvermə və ya yemə davranışı pozuntularının mövcudluğu) olması yaxud olmaması ilə əlaqəlidir (11, s. 50).

Yuxarıda sadalanan bütün təsnifatlar bir daha onu deməyə əsas verir ki, intihar davranışının həqiqi mexanizmləri tam izah edilməyənə qədər meyarların çoxluğundan dolayı intiharla bağlı təsnifatlar da az olmayacaqdır. Bu isə, tədqiqatçı olaraq bizim diqqətimizi ortaq nöqtəyə, başqa sözlə, əksəriyyətin qəbul etdiyi vahid təsnifata mərkəzləşdirməyə əngəl yaradır.

Müzakirə

İntiharın sosioloji, psixoloji, bioloji (tibbi) və b. bu kimi müxtəlif sahələrdə işlənilmiş təsnifatları bu faciəli hadisənin çoxölçülü başa düşülməsini təmin edir. Hər bir perspektiv fənlərarası yanaşmaların zəruriliyini vurğulayaraq, intiharın hərtərəfli qarşısının alınması strukturuna töhfə verir. Effektiv müdaxilə strategiyaları hazırlamaq üçün nəzərdə tutulan sonrakı tədqiqatlar və perspektivlərin düşünülməsi bu anlayışları inteqrasiya etməli və öz növbəsində, yeni daha mükəmməl və vahid təsnifatın formalaşdırılmasına təkan verməlidir.

Problemin aktuallığı. İntihar davranışının motivlərinin dəqiqləşdirilməsi və risk amillərinin müəyyən edilməsi baxımından intiharların təsnifatının formalaşdırılması böyük aktuallıq kəsb edir.

Problemin elmi yeniliyi. İntihar (suisidal) davranışının tipləri, növləri və formalarının müxtəlif aspektlərdən, fərqli yanaşmalar və konsepsiyaların müəllifləri tərəfindən təklif olunmuş təsnifatları şərh edilir.

Problemin praktik əhəmiyyəti. İntihar (suisidal) davranışının bir çox təsnifatının təhlili perspektivdə maarifləndirici və profilaktik istiqamətdə strategiyaların hazırlanmasına şərait yaradır.

Ədəbiyyat

1. Preventing suicide: A global imperative: [Electronic resource] / Luxembourg: World Health Organization; – 2014. – 92 p. URL:https://www.who.int/publications/i/item/9789241564779
2. Durkheim, Émile. Suicide A study in sociology: [Electronic resource] / Translated by John A. Spaulding and George Simpson. Edited with an introduction by George Simpson. – London: Taylor & Francis e-Library, – 2005. – 427 p. URL:https://www.gacbe.ac.in/images/E%20books/Durkheim%20-%20Suicide%20-%20A%20study%20in%20sociology.pdf
3. Камю, А. Творчество и свобода: [Electronic resource] / Сборник. Пер. с франц. / Составление и предисловие К. Долгова. Комментарий С. Зенкина. – М.: Радуга, – 1990. – 608 с. URL:https://vk.com/doc-123642573_442182802
4. Юрьева, Л.Н. Клиническая суицидология: Монография: [Electronic resource] / – Днепропетровск: Пороги, – 2006. – 472 с., s.42 URL: https://www.klex.ru/as4

5. Меннингер, К. Война с самим собой: [Electronic resource] / Пер. с англ. Ю. Бондарева. Серия: Психология. XX век. – Москва: Издательство ЭКСМО-Пресс, – 2000. – 481 с. URL:https://www.klex.ru/j1e
6. Suicide prevention in the 70's: [Electronic resource] / Edited by H.L.P.Resnik, M.D. and Berkley C.Hathorne, Th.D., M.P.H. National Institute of Mental Health Center for Studies of Suicide Prevention (now Mental HealHi Emergencies Section) 5600 Fishers Lane Rockville, Maryland: 1973. – 109 p. URL: https://dn721102.ca.archive.org/0/items/suicidepreventio1973resn/suicidepreventio1973resn.pdf
7. The Encyclopedia of Suicide: [Electronic resource] / Second Edition Glen Evans Norman L. Farberow, Ph.D. Kennedy Associates Foreword by Alan L. Berman, Ph.D. Executive Director, American Association of Suicidology, – 2003. – 369 p. URL:https://epdf.pub/the-encyclopedia-of-suicidea029f5d1628f995ae68798e869a7268485899.html
8. Шелехов, И.Л, Каштанова, Т.В., Корнетов, А.Н., Толстолес, Е.С. Суицидология: учебное пособие: [Electronic resource] / И.Л.Шелехов, Т.В.Каштанова, А.Н.Корнетов, Е.С.Толстолес. – Томск: Сибирский государственный медицинский университет, – 2011. – 203 с. URL:https://psv4.userapi.com/s/v1/d/a1Kia0Ia5MK1dI7S5w_Zn49ip0Fm4kIpP-1y_Zs3MjvLMY8y6w--DLTVt3D9bAMglvvJ0Hve4M6c2CBHmsMLp8R59k7ataKBWtf3-PvFgy4B0RlB/Shelekhov_I_L_Kashtanova_T_V__Kornetov_A_N__Tolstoles_E_S_Suitsidologia_uchebnoe_posobie.pdf
9. Шнейдман, Эдвин С. Душа самоубийцы: [Electronic resource] / Пер.с англ. – М.: Смысл, – 2001. – с. 319. URL:https://psv4.userapi.com/s/v1/d/35G9kRT_3bqlpmPtJ5eSUOixOHYYG-ruArjarYvorTgpBOr51-Q33N2sr4UnZoyvPsyPIl0BoKnwzSYLDgUiDLpPO3-MesOk4Ib1jxgfB7tQBOyk/Edvin_S_Shneydman_-_Dusha_samoubiytsy_-_2001_Teoria_i_praktika_psikhologicheskoy_pomoschi.pdf
10. Лаврин, А. Хроники харона. Энциклопедия смерти: [Electronic resource] / А. Лаврин. – М.: Московский рабочий, – 1993. – 511 с. URL:https://vk.com/doc268054930_669524254?hash=mHXOImTgo8NxC11PJAifBM3lDHvqsDXXggsUWlqz2fw
11. Попов, Ю.В., Пичиков, А.А. Суицидальное поведение у подростков: [Electronic resource] / Ю.В.Попов, А.А.Пичиков. – Санкт-Петербург: СпецЛит, – 2017. – 366 с. URL:https://bekhterev.ru/wp-content/uploads/2020/10/monografija-suicidalnoe-povedenie-u-podrostkov-2017.pdf

Redaksiyaya daxil olub: 05.05.2025.

UOT 159.9

Rəna Nüsrəddin qızı Cəbrayılova,
B.H. Arakelovun fikrincə, kəskin, tənzimlənməmiş həyəcan hissi zahiri olaraq uşağın müstəqil şəkildə öhdəsindən gələ bilmədiyi narahatlıq əlaməti kimi özünü göstərir [3, s. 32]. Bəzi uşaqlar həyəcan hissini onlarda məsuliyyəti və təşkilatçılığı canlandıran amil kimi qəbul edirlər. Məsələn, uşaq qarşıdan gələn müstəqil işdən həyəcan hissi keçirirsə, o zaman məktəb çantasını xüsusi diqqətlə yığır, iş üçün lazım olanları unutmamağa çalışır, dərsləri daha diqqətlə hazırlayır, qaydaları təkrarlayır. Mütəmadi olaraq xəstələnən şagirdlərdə həyəcan hissi sanki xəstəliyə yüklənmiş şəkildə özünü göstərə bilər ki, bu da onun orqanizmə yorucu təsiri ilə bağlıdır. Beləliklə, uşaq daha çox həyəcan hissi keçirməyə başlayır, rifahına onun yaratdığı psixosomatika əlavə olunur.

Həyəcanlı məktəblilərin davranışı həyəcanlı olmayan uşaqların davranışından müəyyən mənada fərqlənir. Həddindən artıq həyəcanlı olan uşaqlar uğursuzluğa, məsələn, pis qiymətə daha emosional reaksiya verirlər, çarəsiz şəkildə özlərini pis hiss etməyə başlayırlar. Həyəcanlı uşaqlar çətin və vaxt aparan işləri təxirə salırlar. İşə başlamaqdan qorxduqlarından, öhdəsindən gələ bilməyəcəklərindən və ya bütün enerji və vaxtlarını bu işə sərf edəcəklərindən bunu edirlər. Belə vəziyyət çox vaxt məktəbdə dostlarla və ya evdə problemlərə səbəb olur.

Müasir təhsilin ən çətin vəzifəsi şagirdlərdə özünütənzimləmə bacarıqlarının formalaşdırılmasıdır. Bu bacarıqlar təhsil və oyun fəaliyyətinin həyata keçiril- məsini asanlaşdırır. N.İ. Spiridonovun fikrincə, özünütənzimləmənin formalaşması ibtidai məktəb yaşında səmərəli şəkildə baş verir. Bütün məktəb dövründə uşaq öz davranışını idarə etməyi, fəaliyyətini təşkil etməyi öyrənir [4, s.85]. Həyəcan hissi yüksək olan uşaqlarla özünütənzimləmə üsullarından istifadə etmək səmərəlidir.

V.V. Şişkovun fikrincə, özünütənzimləmə insanın öz psixoloji və fizioloji vəziyyətlərini, eləcə də hərəkətlərini idarə etməsi prosesidir. Psixi obrazların köməyi ilə özünə təsir etməklə, nəfəsini idarə etməklə və ya başqa üsullardan istifadə etməklə insan kifayət qədər tez özünə gələ bilir [5,s.105]. Həmçinin özünütənzimləmə prosesi insanın fərdi inkişafı ilə paralel olaraq inkişaf edir. 7 yaşlı uşaqlarda öz hərəkət və əməllərini tənzimləməyə imkan verən yeni bir formalaşma yaranır. Bu, beyin strukturlarının fəaliyyətinə dair neyropsixologiya və neyrofiziologiya məlumatları ilə təsdiqlənir.

Beləliklə, özünütənzimləmə prosesi kiçik yaşlı məktəblinin mövcud gərginlikdən qurtulmasına və psixikasının düzəldilməsinə kömək edəcəkdir. V.M. Kotelnikovun fikrincə, təlimdə

özünütənzimləmənin inkişafı təhsil fəaliyyətinin kənardan idarə edilməsi sistemindən özünüidarəetmə sisteminə keçiddən başqa bir şey deyil. Belə bir keçid yaş inkişafının aparıcı nümunəsidir. Tədris fəaliyyətinin özünüidarəetmə mexanizmi şagirdin həm özü üçün bir obyekt, öz hərəkətlərini planlaşdıran, təşkil edən və təhlil edən idarəetmə subyekti kimi öz ifadəsini tapır [6, s.53].

N.İ. Spiridonov belə hesab edirdi ki, kiçik məktəb yaşında psixi inkişafda ən mühüm olanı yaddaşın ixtiyari xarakteri, uşağın diqqət və təfəkküründün formalaşmasıdır. Bu zaman uşaqda qarşısında duran vəzifələrə uyğun olaraq mütəşəkkil hərəkət etmək bacarığı meydana çıxır, davranışına nəzarət etməyi öyrənir. Bu kimi hallar uşağın məktəbdə oxumağa başlaması ilə izah olunur.

Məktəblinin mövqeyi və onun təhsil fəaliyyəti könüllü davranışa kifayət qədər yüksək tələblər qoyur. Psixoloq Z.V. Manuylenko ibtidai məktəb dövründə uşaqların özünütənzimləməsini öyrənmişdir, eksperimental tədqiqat zamanı o, 3-4 yaşlı uşaqların hələ öz davranışlarına kifayət qədər nəzarət edə bilmədiklərini aşkar etmişdir [7, s.58].

Bu nəzarət forması uşaqlarda 5-6 yaşda təzahür edir. Ancaq bu yaşda belə uşaqlar uzun müddət özlərini izləməkdə çətinlik çəkirlər. Maraqlıdır ki, bu yaşda olan uşaqlar əvvəlcə onların diqqətini yayındırmamağa imkan verən bəzi üsullardan istifadə etməyə başlayırlar, məsələn, aşağı və ya birbaşa eksperimentatora baxırlar. Nəhayət, 6-7 yaşda uşaqlar lazımi pozanı kifayət qədər uzun müddət saxlaya bilirlər. Uşaqlarda 6-8 yaş fəaliyyətin ixtiyari təşkilinin inkişafında dönüş nöqtəsidir.

6-7 yaşlılar artıq öz hərəkətlərini şüurlu şəkildə tənzimləyə bilirlər. Bir çox E.İ. Roqov qeyd edirdi ki, III sinifdə zəif oxuyan kiçik yaşlı məktəblilərin təlim tapşırığını qəbul etmək və yerinə yetirilməsi üsulunu müəyyənləşdirmək, onu digər materiala köçürmək qabiliyyəti zəif formalaşır. Özünütənzimləmənin inkişafı həm də xarici, həm də daxili stimullaşdırmanın nisbətinin dəyişməsi ilə əlaqələn- dirilir. Kiçik məktəb yaşı dövründə uşaqlarda davranışın tənzimlənməsi böyüklər tərəfindən xarici stimullaşdırma yolu ilə həyata keçirilir. Yaş artdıqca daxili stimullaşdırmanın rolu artır, uşaqlar özləri vəziyyətlərini düzəldirlər [1,s.159].

Bu yaş dövründə şagirdlər təlim prosesində iradi səy göstərməyə başlayırlar. Onlarda ixtiyari əqli fəaliyyət, tədris materialını yadda saxlamaq, ixtiyari diqqəti, davamlı müşahidəni mərkəzləşdirmək, psixi problemlərin həllində əzmkarlıq göstərmək bacarığı formalaşır.

Kiçik yaşlı məktəblilərdə özünüidarə və hisslərinə sahib olmaq qabiliyyəti artır. Əvvəlcə o, böyüklər tərəfindən tənzimləmə nəticəsində yaranır, sonradan uşağın özünütənzimləməsindən asılı olmağa başlayır. Kiçik yaşlı məktəblilərdə özünütənzimləmənin əsas xüsusiyyətlərinə iradi keyfiyyətlərin inkişafı, ixtiyari davranış formalarının inkişafı, müstəqilliyə cəhd aid edilir. Tənzimləmə anlayışı ilk dəfə P. Jane tərəfindən təqdim edilmişdir. Onun fikrincə, özünütənzimləmək bacarığı şəxsiyyətin inkişafı üçün ən yüksək meyardır. Özünütənzimləmə insanı fəal subyektə çevirən daxili tələblər sistemi kimi sosial norma və dəyərlərin vasitəçiliyi prosesidir.

Özünütənzimləmə mürəkkəb iyerarxik quruluşa, şüurlu-iradi tənzimləmə səviyyəsinə və müxtəlif dərəcədə avtomatlaşdırılmış situasiya səviyyələrinə malikdir. B.B. Aysmontosa görə, ixtiyari özünütənzimləmə psixi və şəxsi xassələri, qabiliyyətləri subyektin qarşısında duran problemlərin həllinə yönəldir, proseslərin keyfiyyətlərini peşə qabiliyyətlərinin bir hissəsi kimi dəyişdirir, həmçinin müxtəlif fəaliyyətlərin optimal həyata keçirilməsi üçün bütün psixi imkanlardan istifadə edir [8, s.92].

S.L. Rubinşteynin fikrincə, özünütənzimləmənin ən yüksək səviyyəsi uşağın dünyaya, başqalarına və özünə olan şüurlu dəyər münasibətləri ilə bağlıdır [9, s.114]. A.V. Svetkov hesab edirdi ki, xüsusi məşqlər özünütənzimləmə və özünü təşkiletmə bacarıqlarının inkişafında mühüm rol oynayır, onun köməyi ilə uşağın psixikası təsirlərə həssas olur ki, bunlar əzələlərin rahatlaması, nəfəs alma və diqqəti cəmləşdirmək üçün məşqlərdir.

Kiçik yaşlı məktəblilərə özünütəşkiletmə üsullarını öyrədərkən bir-biri ilə sıx əlaqəli iki vəzifəni nəzərə almaq lazımdır. Bunlardan, *birincisi,* şagirdlərin idrak fəaliyyətində müstəqilliyini inkişaf etdirmək, onlara müstəqil bilik əldə etməyi öyrətmək, dünyagörüşünü formalaşdırmaq; *ikincisi,* onlara mövcud bilikləri müstəqil surətdə təlimdə və praktik fəaliyyətdə tətbiq etməyi öyrətməkdir [2,s.89].

Özünütənzimləmənin inkişafı çətin və çox uzun sürən bir prosesdir. Səbirlə nəticələri gözləmək və özünütənzimləmə üsullarını uşaqlara öyrətməyi dayandırmaq olmaz. Özünütənzimləməni inkişaf etdirmək vəzifəsi uşaqlara davranışlarını şüurlu şəkildə idarə etməyi öyrətmək və bunun üçün tələb olunan şəxsi keyfiyyətləri inkişaf etdirməkdir. Ona görə də, uşaqların məktəbə qəbulunun ilk günlərindən başlayaraq onlarda məktəblinin roluna müsbət münasibət bəsləmək, o cümlədən kiçik yaşlı şagirdlərdə biliyə marağı inkişaf etdirmək lazımdır.

Beləliklə, ibtidai sinif şagirdlərində özünütənzimləmənin səmərəli və uğurlu inkişafı yalnız müəllim və valideynin birgə işi ilə mümkündür. Uşaqlara özünütənzimləmə üsullarını öyrətmək üçün həssas dövr məhz ibtidai məktəb yaş dövrüdür. Bu dövrü qaçırmamaq və onlara təlim və praktik fəaliyyətlərini necə təşkil etməyi öyrənməyə kömək etmək vacibdir.

Həyəcan hissi yalnız digər psixoloji vəziyyətlər şəklində özünü göstərə bilər. Belə aqressiv vəziyyət ibtidai sinif şagirdlərində tez-tez günahkarlıq hissi yaradır ki, bu da düşmənçilik fəaliyyətini artırır. Uşaqda həyəcan hissinin başqa bir forması passivlik, süstlük, fəaliyyətə marağın olmaması ola bilər. Kiçik yaşlı məktəbli bu davranış modelindən o zaman istifadə edir ki, onun öz səyləri ilə həyəcan hissini aradan qaldırmaq cəhdləri uğursuzluqla başa çatır.

Problemin aktuallığı. Tədqiqatın aktuallığı kiçik yaşlı məktəblilərdə özünütənzimləmə prosesində həyəcan hissinin aradan qaldırılması üçün daha effektli metodlar axtarışına yönəlməsi ilə müəyyən olunur.

Problemin elmi yeniliyi. Elmi məqalədə özünütənzimləmə prosesində həyəcan hissinin psixoloji xüsusiyyətləri açıqlanır.

Problemin praktik əhəmiyyəti. Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

Ədəbiyyat

1. Рогов, Е.И. Настольная книга практического психолога в 2 ч. Часть 2. Работа психолога со взрослыми. Коррекционные приемы и упражнения: практич. пособие / Е.И.Рогов.- 4-е изд., перераб. и доп.-Москва: Издательство Юрайт, -2015. - 507 с.
2. Цветков А.В. Гиперактивный ребенок. Развиваем саморегуляцию.-Москва: Спорт и культура. - 2017. -104 с.
3. Аракелов В.Н. Тревожность: методы её диагностики и коррекции.- Москва: Вестник МУ, сер. Психология. -2019. -357 с.
4. Спиридонов Н.И. Психическая саморегуляция, движение, здоровье. -Москва: Ставропольское, - 2016. -110 с.
5. Шишков В.В. Выше стресса! Практическое руководство по саморегуля- ции. -Москва: Весь, - 2018. -192 с.
6. Котельников В.М. Займитесь собой. Пособие по саморегуляции и самосовершенствованию. - Москва: Издательский Дом МСП, -2021.- 624 с.
7. Мануйленко З.В. Роль игры в воспитании дошкольника.- Москва: Учпедгиз, - 2020. -342 с.
8. Айсмонтос Б.Б. Общая психология. -Москва: Владос-пресс, -2018. - 288 с.
9. Рубинштейн С.Л. Основы общей психологии. Учебник. Издательство Санкт-Петербург: Питер, -2018.-713с.

Redaksiyaya daxil olub: 12.06.2025

UOT 159.9.2.316.37

Günel Oqtay qızı Şahinzadə,
Bakı Dövlət Universitetinin
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0004-2575-7920
E-mail: abbasovagunel@inbox.ru
https://doi.org/10.69682/arti.2025.92(4).212-215

UŞAQ EVLƏRİNDƏ BÖYÜYƏN UŞAQLARIN ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ PROBLEMİ

Gunel Ogtay Shahinzade,
doctorial student in the program of doctor of philosophy
at
Baku State University,

THE PROBLEM OF SELF-ESTEEM OF CHILDREN GROWING UP IN ORPHANAGES

Гюнель Октай гызы Шахинзаде,
докторант по программе доктора философии
Бакинского Государственного Университета

ПРОБЛЕМА САМООЦЕНКИ ДЕТЕЙ, ВОСПИТЫВАЮЩИХСЯ В ДЕТСКИХ ДОМАХ

Xülasə. Ölkəmizdə uşaq evlərində böyüyən uşaqların say göstəricisinə nəzər saldıqda məlum olur ki, illər üzrə göstəricilər davamlı olaraq artmaqdadır. Belə ki, 1991-ci ildə ölkəmizdə 9, 2001-ci ildə 10, 2021-ci ildə 13, 2023-cü ildə isə 16 uşaq evi vardır, həmin illərə müvafiq olaraq uşaqların sayı isə 633 nəfərdən 846 nəfərədək artmışdır. 2023-cü ilin statistik qeydlərində bu uşaqların 792 nəfərini isə valideyn himayəsindən məhrum olan uşaqlar təşkil edir (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2023) [7].

İnsan təkcə bioloji deyil eyni zamanda sosial varlıqdır. Buna görə də hər bir insanın sosial münasibətlərə və mühitə tələbatı var. İnsan doğulduğu andan etibarən içində olduğu cəmiyyətin normalarını mənimsəməyə başlayır, cəmiyyət normaları ilə yanaşı insan eyni zamanda öz mənliyini də öyrənməyə və başa düşməyə başlayır. Öz mənliyini, hisslərini, düşüncələrini və şəxsiyyətini öyrəndikcə onu normalara uyğunlaşdırır. Hər bir insan özünü normalara uyğun gəlməsinə görə şəxsiyyət kimi qiymətləndirir. Öz davranışlarını, düşüncə və hisslərini məhz bu kontekstdən şərh edir. İnsanın davranışları uşaq yaşlarından ailəsi tərəfindən normalara uyğun nizamlanır. Məhz özünü qiymətləndirmə də ilk öncə ətrafın bizi necə qiymətləndirməsi ilə formalaşır.

Uşaq evlərində yaşayan uşaqların say göstəricilərin tədricən artması bu uşaqların özünüqiymətləndirmə mövzunun araşdırılmasının əhəmiyyətini vurğulayır. Məhz bu tədqiqatın məqsədi uşaq evlərində olan uşaqların psixi sağlamlıq sferası, özünüqiymətləndirməsinin təhlili, bu istiqamətdə ölkəmizdə və xaricdə dərc edilmiş məqalələrin təhlilinin aparılması təşkil edir.

Açar sözlər: *uşaq evləri, valideyn himayəsindən məhrum olmaq, özünüqiymətləndirmə, şəxsiyyət, psixi sağlamlıq*

Abstract. Analyzing number of children growing up in orphanages in our country, it becomes clear that the indicators are constantly increasing over the years. Thus, in 1991, there were 9 orphanages in our country, in 2001 - 10, in 2021 - 13, and in 2023 - 16, and the number of children increased from 633 to 846 in those years. In the statistical records of 2023, 792 of these children were children deprived of parental care (State Statistical Committee of the Republic of Azerbaijan, 2023) [7].

A person is not only a biological but also a social being. Therefore, every person has a need for social relationships and the environment. From the moment a person is born, he begins to assimilate the norms of the society he is in, and along with the norms of society, a person also begins to learn and understand his own self. As he learns his own self, feelings, thoughts and personality, he adapts it to the norms. Each person

evaluates himself as a person according to the norms. He interprets his behavior, thoughts and feelings from this context. A person's behavior is regulated by his family from childhood according to the norms. Self-esteem is first of all formed by how the environment evaluates us.

The gradual increase in the number of children living in orphanages emphasizes the importance of studying the self-esteem of these children. The purpose of this study is to analyze the mental health sphere of children in orphanages, their self-esteem, and to analyze articles published in this direction in our country and abroad.

Keywords: *orphanages, deprivation of parental care, self-esteem, personality, mental health*

Аннотация. Если посмотреть на количество детей, воспитывающихся в детских домах в нашей стране, то станет ясно, что показатели с годами неуклонно растут. Так, в 1991 году в нашей стране было 9 детских домов, в 2001 году –10, в 2021 году –13, в 2023 году –16, а количество детей за эти годы увеличилось с 633 до 846. По статистическим данным 2023 года, 792 из этих детей –дети, лишенные родительской опеки (Государственный статистический комитет Азербайджанской Республики, 2023).

Человек – существо не только биологическое, но и социальное. Поэтому у каждого человека есть потребность в социальных отношениях и окружающей среде. С момента рождения человек начинает усваивать нормы общества, в котором живет. Наряду с нормами общества он также начинает познавать и понимать свою собственную идентичность. По мере того, как он узнает больше о себе, своих чувствах, мыслях и личности, он адаптирует их к нормам. Каждый человек оценивает себя как личность на основе своего соответствия нормам. Он интерпретирует свое собственное поведение, мысли и чувства из этого контекста. Поведение человека с детства регулируется семьей в соответствии с нормами. Самооценка в первую очередь формируется на основе того, как нас оценивают другие.

Постепенный рост числа детей, живущих в детских домах, подчеркивает важность изучения самооценки этих детей. Целью данного исследования является анализ психического здоровья и самооценки детей, воспитывающихся в детских домах, а также анализ статей, опубликованных по этой теме в нашей стране и за рубежом.

Ключевые слова: *детские дома, лишение родительской опеки, самооценка, идентичность, психическое здоровье*

Ədəbiyyat nümunələrinin təhlili:

Özünüqiymətləndirmə nədir? Özünüqiymətləndirmə şəxsiyyətin özünü, öz imkanlarını, keyfiyyətlərini, qabiliyyətlərini, özünün başqa adamlarla münasibət sistemindəki yerini qiymətləndirməsindən ibarətdir. Özünüqiymətləndirmə insanın özünüdərketməsi ilə sıx bağlıdır. Bu baxımdan insanın mənlik şüurunun formalaşmasında özünüqiymətləndirmə xüsusi yer tutur. Özünüqiymətləndirmə zamanı adətən əxlaqi, estetik, intellektual, emosional və s. növlərindən istifadə olunur [1, s.21].

Ədəbiyyat nümunələrinin təhlili və aparılmış tədqiqatlar göstərir ki, bütün hallarda onların içərisində emosional qiymətlər əsas yer tutur.

Bütün hallarda özünüqiymətləndirmədə emosional çalar üstünlük təşkil edir. Özünüqiymətləndirmə səviyyəsində qiymətverən və qiymətləndirilən eyni şəxs olduğuna, mən-mənə qiymət verdiyinə görə burada özünüsevmə, özünəhörmət, ləyaqət hissi özünə geniş yer edir. Ona görə də burada subyektiv amillərin təsiri qaçılmaz olur. Psixoloji tədqiqatlar özünüqiymətləndirmənin üç səviyyəsini müəyyənləşdirməyə imkan vermişdir [2; 3]:

1) *Adekvat özünüqiymətləndirmə.* Bu cür özünüqiymətləndirmə zamanı insan özünün bütün keyfiyyətlərini olduğu kimi, imkanlarına uyğun qeyd etməklə özünü düzgün qiymətləndirir.

2*) Qeyri-real yüksək özünüqiymətləndirmə*. Bu cür özünüqiymətləndirmə zamanı insan özünü onda olan keyfiyyətlərdən, imkanlardan yüksək qiymətləndirir.

Adətən bu cür özünüqiymətləndirmə şişirdilmiş xarakter daşıyır, insanın özündən bədgümanlığı ilə nəticələnir. Ona görə də bu cür adamlar başqaları tərəfindən rəğbətlə qarşılanmırlar.

3) *Qeyri-real aşağı özünüqiymətləndirmə***.** Bu cür özünüqiymətləndirmə zamanı insan özünün keyfiyyətlərini, imkanlarını layiq olduğundan aşağı qiymətləndirir [6].

Qeyri-real yüksək və qeyri-real aşağı özünüqiymətləndirmə eyni dərəcədə ziyanlıdır. Məsələn, öz imkanlarını qeyri-real yüksək qiymətləndirən şagird və ya tələbələrdə çox vaxt özünəarxayınçılıq hissi yaranır. Nəticədə nəzərdə tutduqları məqsədlərinə nail ola bilmirlər. Öz

imkanlarını qeyri-real aşağı qiymətləndirən şagird və ya tələbələrdə isə mümkün olacaq nailiyyətə çatmaq hissi və cəhdi olmur, nəticədə onlar mövcud imkanlarını təzahür etdirə bilmirlər. Ona görə də ən cüzi nailiyyətlə kifayətlənməli olurlar.

Özünüqiymətləndirmədə şəxsiyyətin *iddia səviyyəsi* ilə də sıx bağlıdır. İddia səviyyəsi dedikdə bu və ya digər fəaliyyət zamanı şəxsiyyətin seçdiyi və qarşısına qoyduğu məqsəd və vəzifələrin çətinlik dərəcəsi ilə müəyyən olunan xarakteristikası nəzərdə tutulur.

Özünüqiymətləndirmə ilə bağlı olaraq kiçik məktəblilərdə özünə, öz gücünə inam da formalaşır. Təcrübələr göstərir ki, təlimdəki çətinliklərdən, müəllimin və valideynlərin tənqidi qeydlərindən asılı olaraq kiçik məktəblilərdə öz gücünə inamsızlıq, frustrasiya vəziyyəti, təlimə marağın itməsi, "məktəb nevrozlarının" meydana gəlməsi halları da müşahidə olunur. Müəllimin bu cəhətləri nəzərə alması kiçik məktəblilərdə şəxsiyyətin müvafiq əlamətlərinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

Özünüqiymətləndirmə uşaq evlərində böyüyən uşaqlarda necə təzahür edir? sualına cavab verməzdən əvvəl onların psixi inkişafına və ətraf mühit amilinə nəzər salmaq lazımdır.

Ədəbiyyatların təhlili zamanı bu uşaqlarda aşağıdakı vacib amillər fərqləndirilir:

- cəmiyyətə daha az uyğunlaşma;
- deviant davranışa meyllilik;
- əqli və psixi inkişafın ləngiməsi;
- əsas sosial və ünsiyyət bacarıqlarının zəif inkişafı;
- motivasiya sferasında problemlərin yaşanması;
- gələcəkdə şəxsiyyətlərarası münasibətlərin zəif inkişafı.

Uşaq evlərinin uşaqları ailələrdə böyüyən uşaqlardan fiziki və əqli inkişafda fərqlənir və bir sıra mənfi xüsusiyyətlərə malikdir ki, bu da sonradan uşağın inkişafına və cəmiyyətə uyğunlaşmasına təsir göstərir [4; s.54].

Məktəbəqədər yaş dövründə bu uşaqlar üçün isə ünsiyyət prosesində üstünlük təşkil edən motiv diqqət cəlb etməyə və xoş rəftara olan motivdir. Həmin uşaqların bu yaş periodunda psixi inkişafının ləngiməsinin əsası simpatiya, empatiya və hisslərini və təcrübələrini başqa bir insanla bölüşmək bacarığının olmamasıdır. Məktəbəqədər yaşdan valideyn himayəsindən məhrum olan bu uşaqlar nə öz yaşıdlarına, nə də böyüklərə bağlılıq hiss etmirlər. Uşaq evində böyüklər və həmyaşıdları ilə təmaslar monoton, emosionaldır və sadə müraciət və istəklərlə bağlıdır. Bu yaş dövründə uşaqlarla üçün birbaşa fiziki təmas, davamlı ünsiyyət vacibdir.

Ədəbiyyatların təhlili göstərir ki, uşaq evlərindən olan kiçik məktəblilər, bir qayda olaraq, təhsil fəaliyyəti üçün formalaşmış motivə malik deyillər və obyektləri və hadisələri sistemli şəkildə araşdırmaq və onların xüsusiyyətlərini müəyyən etmək bacarığı kifayət qədər inkişaf etməmişdir [5; s.75-77]. Qavrama problemləri təkcə məktəbdə öyrənmə üçün deyil, həm də uşağın ümumi zehni inkişafı üçün nəticələrə səbəb ola bilər. Tədris fəaliyyətində bir tapşırığı yerinə yetirərkən şagirdlərdə müəyyən bir ümumi fəaliyyət metoduna diqqət yetirmək bacarığı inkişaf etməmişdir. Məktəbəqədər yaşlı uşaqlar kimi kiçik məktəbli uşaqlarda da təxəyyül və təxəyyül təfəkkürü kifayət qədər inkişaf etmir. Uşaq evinin şagirdləri böyüklərlə və həmyaşıdları ilə ünsiyyətdə münaqişələrin həllində o qədər də uğurlu deyillər. Onlar daha aqressivdirlər, daha tez-tez başqalarını günahlandırmağa çalışırlar və günahlarını etiraf etmək iqtidarında deyillər və istəməzlər, yəni mahiyyətcə bütün vəziyyətlərdə müdafiə xarakterli davranış formalarının üstünlük təşkil edir. Aşağı siniflərdə şagirdlər diqqəti cəlb etmək üçün mümkün olan hər şeyi edirlər. Uşaqlar müəllimlərlə bəzən ünsiyyətə girir, bəzən bu ünsiyyətdən də qaçırlar. Yetkinlərlə ünsiyyətdə bu cür çətinliklər uşaq evində olan uşağın erkən yaşlarından çoxlu sayda təsirlərə məruz qalması, nəticədə sabit emosional əlaqələr qurmaması, eqosentrizm və sosial maraqsızlıq inkişaf etdirməsi ilə müşahidə oluna bilər.

Yetkinlərlə ünsiyyət ehtiyacı və onun tam narazılığı şagirdlərdə iki simptom kompleksinin – "böyüklərə qarşı narahatlıq" və "böyüklərə qarşı düşmənçilik" meydana gəlməsinə səbəb olur. Birincisi, uşağın narahatlığını və müəllimin onunla maraqlı olub-olmaması, onu qəbul etməsi, sevməsi ilə bağlı qeyri-müəyyənliyini əks etdirir.

İkinci simptom kompleksi uşağın böyüklərdən imtina etməsinin müxtəlif formalarını göstərir və düşmənçilik, depressiya və aqressivliyin başlanğıcı ola bilər. Böyüklərdən xeyirxah münasibətə ehtiyac onunla şəxsi ünsiyyətdə də-

rin məyusluqla birləşir. Beləliklə, uşaq evinin şagirdlərinin böyüklərlə ünsiyyətində iki cəhəti qeyd edə bilərik: bir tərəfdən bu ehtiyacın intensivliyi, digər tərəfdən ünsiyyət formalarının primitivliyi və inkişaf etməməsi [2;5]

Yeniyetməlik dövründə uşaq evlərində olan uşaqların özünəməxsus problemləri izlənilir. Yeniyetmə uşaq evindən olduğu üçün utanmağa başlayır, özünü uşaqlar qrupundan ayırmağa çalışır. Onla dərin, sabit hisslərin olmaması ilə xarakterizə olunur – səthi hisslər, həm də emosiyaların partlaması – şiddətli sevinc, qəzəb kimi hallar izlənilir. Hisslərin təzahürü, bir tərəfdən, yoxsulluq, digər tərəfdən, kəskin affektiv çalarlarla xarakterizə olunur. Belə uşaqların da sevgi və diqqətə ehtiyacı var; eyni zamanda "bağlanmalara dərinləşməmək qabiliyyəti" formalaşır. Onlar, bir qayda olaraq, əxlaqi dəyərlərlə əlaqəli yüksək hissləri inkişaf etdirmirlər, asılı və həyasızdırlar. Bu uşaqlar üçün ünsiyyətdə "biz" əvəzliyi üstünlük təşkil edir, bu xüsusi psixoloji formalaşmadır, onlar bütün dünyanı "biz" və "yadlar"a bölürlər. Uşaq evində böyüyən uşaq uşaq evində yaşayan bütün uşaqlara uyğunlaşmağa məcbur olur. Onlarla təmasları səthi, əsəbi və tələsikdir: o, eyni zamanda diqqət tələb edir və onu rədd edir, təcavüzə və ya passiv özgəninkiləşdirməyə çevrilir. Sevgi və diqqətə möhtac olduğu üçün ona düzgün şəkildə necə cavab verəcəyini bilmir. Yanlış formalaşan ünsiyyət təcrübəsi mənfi nəticələrə səbəb olur. Beləliklə, yeniyetməlik uşaqlar üçün çətin bir dövrdür. Ümumiyyətlə, uşaq evinin müəllimlərinin işində əsas məqam valideyn himayəsindən məhrum uşağın böyüklərin sevgisi və diqqəti ilə əhatə olunmasıdır. Və yalnız uşaq kiminsə ona ehtiyacı olduğunu, kiminsə qayğısına qaldığını və qayğısına qaldığını hiss etdikdən sonra, yalnız bundan sonra islah və inkişaf işləri aparmaq faydalı ola bilər.

Son dövrlərdə bir sıra tədqiqatlar uşaq evlərində böyüyən yeniyetmələrin sinir sisteminin vəziyyətini və dəyərlər oriyentasiyasının araşdırılmasına yönəlmişdir. Həmin tədqiqatlarda dəyərlər oriyentasiyası səviyyəsini əvvəlcə valideynləri, sonra isə digər insanlar tərəfindən təsirə məruz qalmış yeniyetmələr öyrənilmişdir. Tədqiqatlar göstərir ki, bu uşaqlar kəskin emosional aclıq yaşayır, eyni zamanda onlara göstərilən diqqətdən heç vaxt yetərli olmayacaqlar. Belə uşaqla işləyən müəllimlər üçün bir tərəfdən hər zaman mehriban əlaqə saxlamalı, digər tərəfdən heç bir halda qıcıqlanmamalı, vəziyyəti həmişə uşağın maraqları nöqteyi-nəzərindən də qiymətləndirməyi bacarmalıdır. Uşağın ən yaxşı hisslərinə, onun mehribanlığına, rəğbətinə, obyektivliyinə əsaslanmağa çalışmalıdır [5; s.125]. Bu hisslər nə qədər tez inkişaf etməyə başlayırsa, uşaq özünü daha güclü, daha xoşbəxt, firavan hiss etməyə başlaya bilər.

Problemin aktuallığı. Uşaq evlərində böyüyən bu uşaqların psixoloji vəziyyətinin öyrənilməsi, şəxsiyyət probleminin təhlili, onların gələcək həyata reinteqrasiya məsələlərinin öyrənilməsi istiqamətli təhlillərin aparılması mühüm əhəmiyyət daşıyır.

Problemin elmi yeniliyi. Məqalədə valideyn himayəsindən məhrum olan uşaq evlərində böyüyən uşaqların özünüqiymətləndirmə məsələlərinə toxunulmuşdur.

Problemin nəzəri və praktik əhəmiyyəti. Məqalə bu sahədə çalışan pedaqoqlar, psixoloqlar, eləcə də mövzuyla bağlı təhlillər aparmaq istəyən tələbələr üçün əhəmiyyətli ola bilər.

Ədəbiyyat

1. Дубровиной, И.В. Психическое развитие воспитанников детского дома (текст) / под ред.– М.: педагогика, 1990. – 264 с.
2. Прихожан, А.М., Толстых Н.Н.. Психология сиротства. (текст). Изд.3-е. – СПб.: Питер, 2007. – 416 с.
3. Тагил, Н. Социализация личности и образования: от теории к практике. – НТФ ИРРО, 2002. – 47 с.
4. Шапарь, В.Б. Новейший психологический словарь (текст); под общей ред. В.Б.Шапаря. – Изд.3-е – Ростов н/Д.: Феникс, 2007. – 806 с.
5. Шипицына, Л.М. Психология детей-сирот (текст); Изд-во СПб. Ун-та, 2005. – 628 с.
6. Эльконин, Д.Б. Детская психология: Учебное пособие / Ред. – сост. Д.Б. Эльконин. – М.: Издательский центр «Академия», 2004. – 384 с.
7. https://www.stat.gov.az/
8. https://psyinst.moscow/article/detiizdetdoma/

Redaksiyaya daxil olub: 12.06.2025

UOT 159.9 (091)

Turanə Fazil qızı İsmayılova,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
https://orcid.org//0000-0001-6462-7759
E-mail: turanaismayilova1122@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(4).216-218

ALİ MƏKTƏBLƏRDƏ İDRAK FƏALLIĞININ YÜKSƏLDİLMƏSİ: AKTİV ÖYRƏNMƏ VƏ TƏNQİDİ, MƏNTİQİ VƏ YARADICI TƏFƏKKÜRÜN İNKİŞAF STRATEGİYALARI

Turana Fazil Ismayilova,
lecturer of Azerbaijan State Pedagogical University,

IMPROVING COGNITIVE ACTIVITY IN HIGHER SCHOOLS: ACTIVE LEARNING AND STRATEGIES FOR THE DEVELOPMENT OF CRITICAL, LOGICAL AND CREATIVE THINKING

Турана Фазиль гызы Исмаилова,
преподаватель Азербайджанского Государственного Педагогического Университета

ПОВЫШЕНИЕ ПОЗНАВАТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ В ВЫСШИХ ШКОЛАХ:СТРАТЕГИИ РАЗВИТИЯ АКТИВНОГО ОБУЧЕНИЯ, КРИТИЧЕСКОГО, ЛОГИЧЕСКОГО И ТВОРЧЕСКОГО МЫШЛЕНИЯ

Xülasə. Bu məqalədə ali məktəblərdə tələbələrin idrak fəallığının artırılması yolları araşdırılır. Tədqiqatda aktiv öyrənmə metodları və tələbələrin tənqidi, məntiqi və yaradıcı təfəkküründün inkişaf etdirilməsi məqsədilə tətbiq olunan strateji yanaşmalar təhlil olunur. Müəlliflər idrak prosesinin dərinləşdirilməsində tələbənin mərkəzləşdirildiyi təlim modellərinin rolunu vurğulayır və müxtəlif pedaqoji yanaşmaların səmərəliliyini müqayisə edir. Məqalə təhsil sistemində innovativ metodların tətbiqinin tələbələrin intellektual potensialının üzə çıxarılmasına və idrak fəallığının yüksəldilməsinə necə töhfə verdiyini nümayiş etdirir.
Açar sözlər: *Ali təhsil, tədris, innovativ texnologiyalar, idrak fəaliyyəti, aktiv öyrənmə*

Abstract. This article explores strategies for enhancing cognitive engagement among university students. It focuses on the implementation of active learning approaches and methods aimed at developing critical, logical, and creative thinking. The authors emphasize the importance of student-centered teaching models in deepening cognitive processes and compare the effectiveness of various pedagogical strategies. The study illustrates how the integration of innovative educational methods contributes to the activation of students' intellectual potential and the enhancement of their cognitive activity.
Keywords: *Higher education, teaching , innovative technologies, cognitive activity, active learning*

Аннотация. В данной статье рассматриваются пути повышения когнитивной активности студентов в высших учебных заведениях. Анализируются стратегии развития критического, логического и креативного мышления посредством активного обучения. Авторы подчеркивают значимость студенто-ориентированных моделей преподавания для углубления познавательной деятельности и проводят сравнительный анализ педагогических подходов. Работа демонстрирует, как внедрение инновационных методов в образовательную систему способствует раскрытию интеллектуального потенциала студентов и усилению их познавательной активности.
Ключевые слова: *Высшее образование, преподавание, инновационные технологии, познавательная деятельность, активное обучение*

Giriş: Ali məktəblərdə tələbələrin dərindən öyrənmə qabiliyyətlərinin inkişaf etdirilməsi və onların tənqidi, məntiqi və yaradıcı təfəkkür bacarıqlarının artırılması müasir təhsilin əsas hədəflərindən biridir. Azərbaycan Respublikasında konseptual xarakterli sənədin - ümumi təhsilin Konsepsiyası – Milli Kurikulumunun qəbulu da Prezident ilham Əliyevin məqsədyönlü inkişaf strategiyası sayəsində milli təhsilimizin əldə etdiyi ən ciddi nailiyyətlərindən biridir. Milli Kurikulum çərçivə sənədi olub ümumi təhsil üzrə təlim nəticələrini və məzmun standartlarını, ümumi təhsilin hər bir pilləsində nəzərdə tutulan fənləri, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nailiyyətlərinin qiymətləndirilməsi və monitorinqi üzrə əsas prinsipləri, fənn kurikulumlarının strukturunu əhatə edir. Milli Kurikulum ictimai-siyasi, mədəni və sosial həyatın qloballaşdığı və universallaşdığı, informasiya-kommunikasiya texnologiyalarının rolunun artdığı, rəqabətin gücləndiyi müasir dövrdə hər bir şəxsin istedad və qabiliyyətinin müstəsna əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq, müstəqil qərarlar qəbul etməsi üçün onun zəruri təhsil səviyyəsinə və bacarıqlara malik olmasına, cəmiyyətin inkişafının əsas hərəkətverici qüvvəsi olan insanın formalaşdırılmasma və problemlərin həllinə yönəlmişdir. Müasir dünyada hər bir ölkənin uğurlu gələcəyi həmin ölkədə elm və təhsilin səviyyəsi ilə müəyyən olunur. Təcrübə göstərir ki, təbii sərvətlərin bolluğu dövlətin inkişafının əsas göstəricisi deyil, başlıcası, bu sərvətlərin cəmiyyətin hərəkətverici qüvvəsi olan insan kapitalına çevrilməsini təmin etməkdir. Bu, indiki mərhələdə təhsil sisteminin ən zəruri vəzifəsidir. ABŞ, Yaponiya, Cənubi Koreya və digər inkişaf etmiş ölkələr malik olduqları maddi resurslardan daha çox təhsil sisteminin yetişdirdiyi insan kapitalından böyük gəlirlər əldə etmişlər.

Ənənəvi tədris metodları, tələbələrin passiv iştirakını təşviq edərək, onların fəal öyrənmə və yüksək səviyyəli düşünmə bacarıqlarının inkişafını məhdudlaşdırır. Bu məqalə, aktiv öyrənmə metodlarının tətbiqi ilə tələbələrin idrak fəallığının artırılması və onların tənqidi, məntiqi və yaradıcı təfəkküründün inkişaf etdirilməsi yollarını araşdırır. İnnovativlik tədrisdə mühüm əhəmiyyət kəsb edir. V.İ. Zaqvyanskinin fikrincə, "innovasiya" müəllimlərin pedaqoji təcrübəsinə "yeni fikir", "yeni texnologiya gətirən" predmet kimi dəyərləndirilir [3, s. 62].

Rus pedaqoq alimləri P.T. Qalperin [2, s. 3-9], A.K. Markova [5, s. 232], V.A. Slastenin [7, s. 8], V.S. Tolstoy, V.B. Sazanova, A.İ. Priqojin [6, s. 32-51], V.İ. Zaqvazinskiy [3, s. 110], İ.V. Bestujeva Ladı [1, 2-7 s.], M.V. Klarinin tədqiqatlarında pedaqogikada innovativ proseslər ətraflı təhlil olunur və ümumiləşdirilir [4, s. 32-39]. V.İ. Zaqvyanskinin pedaqoji innovasiya anlayışına dair nəzəriyyəsi, müəllimlərin pedaqoji fəaliyyətinə yeni ideyaların və texnologiyaların daxil edilməsini təklif edir. O, "innovasiya"nı müəllimlərin pedaqoji təcrübəsinə "yeni fikir" və "yeni texnologiya gətirən" bir predmet kimi dəyərləndirir . Rus pedaqoq alimləri də pedaqogikada innovativ prosesləri ətraflı təhlil edərək ümumiləşdirmişlər. P.T. Qalperin, A.K. Markova, V.A. Slastenin, V.S. Tolstoy, V.B. Sazanova, A.İ. Priqojin, V.İ. Zaqvazinskiy, İ.V. Bestujeva-Ladı və M.V. Klarin kimi alimlər, pedaqoji innovasiyaların müxtəlif aspektlərini araşdırmışlar. Onların tədqiqatlarında pedaqoji innovasiya anlayışı, tədris və tərbiyə proseslərində yeniliklərin tətbiqi və bu yeniliklərin effektivliyini artırmaq məqsədilə tədris və tərbiyə texnologiyasının məzmununa yönəlmiş kompleks dəyişikliklər kimi izah olunur . Bu alimlərin fikirlərindəki ortaq cəhət ondan ibarətdir ki, pedaqoji innovasiya yalnız yeni ideyaların tətbiqi ilə məhdudlaşmır, həm də bu ideyaların tədris və tərbiyə prosesində effektivliyini artırmaq məqsədilə sistemli və kompleks şəkildə həyata keçirilməsini tələb edir. Bu yanaşma, pedaqoji fəaliyyətin inkişafı və təkmilləşdirilməsi üçün vacib bir istiqamət təşkil edir. Bu nəzəriyyələrin tətbiqi, ali məktəblərdə tələbələrin idrak fəallığının artırılması və onların tənqidi, məntiqi və yaradıcı təfəkkür bacarıqlarının inkişaf etdirilməsi üçün effektiv strategiyaların hazırlanmasına zəmin yaradır. Bu yanaşmaların praktiki tətbiqi, təhsil prosesinin keyfiyyətini artırmaq və tələbələrin akademik inkişafını dəstəkləmək məqsədini güdür.

İdrak fəallığı və aktiv öyrənmə: İdrak fəallığı, tələbələrin öyrənmə prosesinə nə dərəcədə fəal şəkildə qatıldığını və bu prosesdə nə qədər səy göstərdiklərini ifadə edir. Aktiv öyrənmə metodları, tələbələri dərs prosesində fəal iştirak etməyə, məlumatı tətbiq etməyə və öz düşüncələrini inkişaf etdirməyə təşviq edir. Bu metodlar arasında problem əsaslı öyrənmə (PBL), koope-

rativ öyrənmə, yaradıcı yazı və müzakirələr kimi yanaşmalar mövcuddur. Araşdırmalar göstərir ki, aktiv öyrənmə metodları tələbələrin akademik performansını artırır və onların dərindən öyrənmə qabiliyyətlərini inkişaf etdirir.

Tənqidi, məntiqi və yaradıcı təfəkkürün inkişafı: Tənqidi, məntiqi və yaradıcı təfəkkür, tələbələrin məlumatları analiz etmə, qiymətləndirmə və yeni ideyalar yaratma qabiliyyətlərini əhatə edir. Bu bacarıqların inkişaf etdirilməsi üçün aşağıdakı metodlar tövsiyə olunur:

Sokrat dialoqu: Tələbələrə açıq suallar verərək, onların düşünmə proseslərini dərindən analiz etmələrini təmin edir.

Debatlar və müzakirələr: Tələbələrə müxtəlif mövzularda fikirlərini müdafiə etmələri və digər perspektivləri qiymətləndirmələri üçün mühit yaradır.

Yaradıcılıq və innovasiya fəaliyyətləri: Tələbələrə yeni ideyalar inkişaf etdirmələri və mövcud problemlərə yaradıcı həllər tapmaları üçün imkanlar təqdim edir.

Bu üsulların hər birinin özünəməxsus xüsusiyyətləri mövcuddur. Onlardan bəzilərinin xüsusiyyətlərini nəzərdən keçirək:

Fundamentalist metod. Bu üsul ifadə etmək, fikir irəli sürmək və ya cavabı əsaslandırmaq bacarığını inkişaf etdirir. Bu metodun mahiyyəti ondan ibarətdir ki, güclü səbəbləri, tədqiq edilən fikirləri axtarmaqdır. Bu, mahiyyətcə tələbələrdə dərsə inamı gücləndirir, daha güclü, onları daha möhkəm ideyalara bağlayır, məlum bilikləri səfərbər edir, tələbələrin ideyaların mükəmməlliyini dərk etmələrini gücləndirir [9, s.21-26].

Beyin fırtınası metodu. Bu metodun məqsədi problemləri həll etmək üçün innovativ yollar tapmaq istiqamətində kollektiv düşüncə fəaliyyətini təşkil etməkdir. Bu üsul diqqəti, zehni səyləri konkret tapşırıqlara cəmləşdirmək bacarığını, həmçinin kollektiv düşünmə fəaliyyəti təcrübəsinin formalaşmasını və kiçik qrupda işləmək bacarığını inkişaf etdirir [8, s. 63-77].

Aktiv öyrənmə strategiyalarının tətbiqi: Ali məktəblərdə aktiv öyrənmə strategiyalarının tətbiqi aşağıdakı şəkildə həyata keçirilə bilər:

Problem əsaslı öyrənmə (PBL): Tələbələrə real dünya problemləri təqdim edilərək, onların həlli üçün tədqiqat və əməkdaşlıq etmələri təşviq edilir.

Kooperativ öyrənmə: Tələbələr kiçik qruplarda işləyərək, bir-birlərinin fikirlərini dinləyir və müzakirə edirlər, bu da onların tənqidi və yaradıcı düşünmə bacarıqlarını inkişaf etdirir.

Yaradıcılıq və innovasiya fəaliyyətləri: Tələbələrə yeni ideyalar inkişaf etdirmələri və mövcud problemlərə yaradıcı həllər tapmaları üçün imkanlar təqdim edilir.

Nəticə: Ali məktəblərdə tələbələrin idrak fəallığının artırılması və onların tənqidi, məntiqi və yaradıcı təfəkkür bacarıqlarının inkişaf etdirilməsi üçün aktiv öyrənmə metodlarının tətbiqi əhəmiyyətlidir. Bu yanaşmalar tələbələrin dərindən öyrənmə qabiliyyətlərini artırır və onların akademik performansını yaxşılaşdırır.

Problemin elmi yeniliyi: Səmərəli fikirlər irəli sürülmüş, aparılan araşdırmalar və tədqiqatlar məqalədə öz əksini tapmışdır.

Problemin aktuallığı: Ali məktəblərdə innovativ texnologiyalardan istifadənin imkanlarının araşdırılması mühüm əhəmiyyət kəsb edir. Problem baxımından aktuallıq təşkil edir.

Problem in praktik əhəmiyyəti: Pedaqoqlar bu mövzu ilə bağlı tədqiqatlarında materialdan istifadə edə bilər.

Ədəbiyyat

1. Бестужев-Лада, И.В. Социальное прогнозирование / И.В. Бестужев-Лада, - Москва, -2002. – с. 9.
2. Гальперин, П.Я., Талызина, Н.Ф. Современное состояние теории поэтапного формирования умственных действий / П.Я. Гальперин, Н.Ф. Талызина. -Москва: - 1979.
3. Загвязинский, В.И. Педагогические творчество учителя / В.И. Загвязинский. - Москва:- 1987. - 160 с.
4. Кларин, М.В. Инновационное образование: Дидактический анализ. –Москва, - 2014. № 6, -32-39 с.
5. Маркова, А.К. Психология профессионализма / А.К. Маркова. - Москва: - 1996. - 312 с.
6. Пригожин, А.И. Нововведения: стимулы и препятствия / А.И. Пригожин. – Москва, - 1989. - 271 с.
7. Сластенин, В.А. Педагогика: инновационная деятельность / В.А Сластенин. - Москва:- 1997. - 308 с.
8. Pedagogy and psychology of higher education: a Training manual. – Rostov-on-don: Phoenix, 2012 - p. 63 - 77.
9. Verbitsky A. A. Active learning in higher education: a Context approach:. allowance. – M.: Higher school, 2011. – p. 127 - 130.

Redaksiyaya daxil olub: 10.06.2025

UOT 372.864

Reyhan Tapdıq qızı Hacızadə,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: reyhan.hacizad@mail.ru
https://orcid.org/ 0000-0002-2287-2905
https://doi.org/10.69682/arti.2025.92(4).219-222

KİMYAÇI ƏHMƏD QARAYEV – ÖMRÜNÜ ELMƏ HƏSR EDƏN ALİM

Reyhan Tapdig Hajizade,
lecturer at Azerbaijan State Pedagogical University,
doctor of philosopy in pedagogy

CHEMIST AHMED GARAEV – A SCIENTIST DEDICATED TO SCIENCE

Рейхан Тапдыг гызы Гаджизаде,
преподаватель Азербайджанского Государственного
Педагогического Университета,
доктор философии по педагогике

ХИМИК АХМЕД ГАРАЕВ – УЧЁНЫЙ, ПОСВЯТИВШИЙ ЖИЗНЬ НАУКЕ

Xülasə. Məqalədə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin Təbii Ehtiyatlar İnstitutunun kimyaçı alimi Əhməd Qarayevin həyatı, elmi əsərləri, yaradıcılığı, apardığı tədqiqatları, araşdırmaları və s. haqqında danışılır. Eyni zamanda Əhməd Qarayevin kimya sahəsində apardığı araşdırmalarla bağlı əldə olunan müsbət nəticələrdən, Azərbaycan elminə verdiyi töhfələrdən bəhs edilir.
Açar sözlər: *kimya, yaradıcı qabiliyyət, tədqiqat işləri, təbii ehtiyatlar.*

Abstract. The article tells about the life, scientific activity and creativity of Akhmed Garayev, a chemist at the Institute of Natural Resources of the Nakhchivan Branch of the National Academy of Sciences of Azerbaijan, his research work, studies, etc. At the same time, information is given about Akhmed Garayev's research in the field of chemistry and the positive results achieved.
Key words: *Chemistry, creativity, research work, natural resources*

Аннотация. В статье повествуется о жизни, научных работах, творчестве, проведенных исследованиях и разработках химика Ахмеда Гараева из Института природных ресурсов Нахичеванского отделения Национальной академии наук Азербайджана. Также рассматриваются положительные результаты исследований, проведенных Ахмедом Гараевым в области химии, и его вклад в азербайджанскую науку.
Ключевые слова: *химия, творческие способности, исследовательская работа, природные ресурсы*

Kimya – zəngin eksperimental materiallar və tutarlı nəzəriyyələrə əsaslanan fundamental elmlər sistemidir və fantastik yaradıcılıq gücünə malikdir. Kimyaçılar təkcə təbii maddələrin xassələrini dəyişmir, həm də əvvəlcədən verilmiş xassəli yeni maddələr sintez edirlər. Bəşəriyyətin min illər boyu mövcudluğunu kimyasız və kimyəvi texnologiyaların köməyi ilə hazırlanmış geniş spektrli məhsullarsız təsəvvür etmək mümkün deyildir.

Görkəmli kimyaçı alimlərin səyi və tükənməz əməyi sayəsində ölkəmizdə kimya sahəsi fundamental və praktiki əhəmiyyətli elmi istiqamət kimi yaranmış və inkişaf etmişdir. Alim və

mütəxəssislərimizin uzun müddət qazandıqları uğurlar Azərbaycanı dünyada kimya elminin mərkəzlərindən birinə çevirmişdir. Ölkədə kimya elminin güclü inkişafı nəticəsində bu sahədə dəyərli elmi kəşflər edilmiş, alimlər ordusu yetişmişdir. O dövrdə Moskva, Sankt-Peterburq universitetlərinin məşhur elm xadimləri D.İ.Mendeleyev, V.Y.Tişşenko, A.Y.Favorski və başqaları da istedadlı gənclərin əsl kimyaçı alim kimi yetişmələrinə böyük kömək göstərmişlər [1].

Azərbaycanda isə kimya elminin zəngin ənənələri və nailiyyətləri ilk növbədə bu sahədə elmi məktəblərin yaradıcıları olan akademiklər: Yusif Məmmədəliyevin, Murtuza Nağıyevin, Əli Quliyevin, Vahab Əliyevin, Həbib Şahtaxtinskinin, Sultan Mehdiyevin və başqalarının adı ilə bağlıdır. Bu görkəmli alimlər Azərbaycan elminin inkişafında əvəzsiz rol oynayaraq kimya elminə böyük töhfələr vermiş və yetişən kimyaçı alimlərə örnək olmuşlar [2].

Haqqında danışacağımız insan həyatı, davranışı, bütün yaşadığı ömür yolu nümunə olan, hər zaman "yaxşı ki var olub" dediyimiz insanlardan biri, tanınmış ziyalı, böyük kimyaçı alim Əhməd Qarayevdir. Bu cür insanların hər biri bir həyat məktəbi, bir örnək kimi təkcə sözləri, hikmətləri ilə deyil, yaşadıqları ömürləri, davranışları ilə də neçə-neçə nəsillərin tərbiyəçisi olmuş və olurlar. Əhməd müəllimdə cəmləşən bir çox insani keyfiyyətlər: humanizm, xeyirxahlıq, sadəlik, təvazökarlıq, təmənnasızlıq, gözü-könlü toxluq, obyektivlik, ədalətlilik onun ucalığının bir daha göstəricisidir.

Əhməd müəllim görkəmli alim olmaqla yanaşı, həm də gözəl müəllim, böyük pedaqoq idi. Əhməd müəllim hər tələbəyə hörmətlə yanaşar, onun insani məziyyətlərini yüksək dəyərləndirərdi. Şagirdlərinin taleyi ilə yaxından maraqlanar, onların qabiliyyət və istedadlarına optimistcəsinə inanar, onları stimullaşdırmaq yolu ilə daxili motivlər yaradaraq işin, elmə maraq oyadar, onların nöqsanlarına səbirlə yanaşaraq, təkrar-təkrar mövzunu izah etməkdən yorulmazdı.

Əhməd Qarayev 01 iyul 1949-cu ildə Naxçıvan MR Babək rayonunun Şıxmahmud kəndində anadan olmuşdur. Şıxmahmud kənd orta məktəbini 1966-cı ildə bitirmiş, həmin ildə də Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinə daxil olmuşdur. Üniversiteti bitirdikdən sonra təyinatla Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin sərəncamına göndərilmiş və 01 yanvar 1973-cü il tarixində nazirliyin əmri ilə Babək rayonunun Kərimbəyli kənd orta məktəbinə kimya müəllimi təyin olunmuşdur. 1973-cü ilin oktyabr ayından Naxçıvan Qeyri-üzvi Fiziki Kimya İnstitutu Elm Mərkəzinə kiçik elmi işçi kimi, eyni zamanda Şıxmahmud kənd orta məktəbində kimya müəllimi işləmişdir. 2003-cü ildən AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutunda "Mineral xammalın kimyası və texnologiyası" laboratoriyasında elmi işçi, 2005-ci ildən isə institutun elmi katibi vəzifəsində çalışmışdır. 22 may 2006-cı ildə " Darıdağ sürmə filizindən sürmə birləşmələrinin və sürmə (III) sulfid əsasında triobirləşmələrinin su mühitində alınması" mövzusunda tədqiqat işi üzrə müdafiə edərək, kimya üzrə fəlsəfə doktoru dərəcəsi, 01 oktyabr 2014-cü ildə isə dosent elmi adı almışdır. Son illərdə üzərində işlədiyi

doktorluq işinin müdafiəsi ərəfəsində ölümün zamansız yetişməsi bu işi sonlanmasına imkan vermədi. Əhməd Qarayevin həyatdan köçməsi AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutuna böyük bir itki oldu. Əhməd Qarayev ailəli idi, onun yurdunda adını həmişə uca tutaraq yaşadacaq bir övladı var.

Əhməd müəllimin elmi yaradıcılığı onun sonsuz sayda tədqiqatlar aparması, 200-ə yaxın elmi məqalələr, xarici ölkələrdə və beynəlxalq konfranslarda təqdimatla çıxışları və s. daxildir. Əhməd müəllim kimya fənni üzrə hazırladığı abituriyentlər universitetlərə yüksək ballarla qəbul olurdular. Eyni zamanda dissertant və doktorantlara davamlı dəstək olaraq, zamanının çoxunu onlarla birlikdə laboratoriyalarda keçirirdi.

Əhməd bütün elmi əsərləri, tədqiqatları, məqalələri həmişə vacib problemlərə həsr olunurdu. Qələmindən çıxan hər bir yazı kimya elmindəki yeniliklərdən ibarət idi.

Əhməd Qarayevin tədqiqatlarında çoxşaxəli yaradıcılıq diapozonu vardır. Tədqiqatları onun Azərbaycan məktəbini və dünyada bu sistemin qabaqcıl təcrübəsini mükəmməl şəkildə bildiyini göstərir.

Onun "Nehrəm dolomitindən maqnezium sulfatın alınması şəraitinin tədqiqi" elmi əsərində Nehrəm dolomitinin nitrat turşusu ilə parçalanması şəraiti tədqiq edilmişdir. Prosesin gedişinə təsir edən amillər (hissəciklərin ölçüsü – 150 μm, temperatur – 70 oC, parçalanma müddəti – 30 dəq, nitrat turşusunun qatılıgı 30% və bərkin mayeyə nisbəti – 1:1) müəyyənləşdirilmişdir. Bu şəraitdə həllolan hissənin çıxım təxminən 90-93% təşkil etmişdir. Əmələ gələn maqnezium və kalsium nitrat məhlulları süzülərək qalıqdan ayrılmışdır. Alınmış maqnezium və kalsium nitrat məhlullarından kalsium ionları, ammonium sulfatla çökdürülərək, kalsium sulfat şəklində məhluldan ayrılmışdır. Təmizlənmiş Mg(NO3)2 məhlulundan maqnezium, ammonium oksalatla oksalat şəkilində çökdürülmüş, alınan MgC2O4 450-6000C temperaturda közərdilmiş, bu zaman əmələ gələn maqnezium karbonatın sulfat turşusu ilə işlənməsindən maqnezium sulfat alınmasından danışılır [4]. Bundan başqa "Nehrəm dolomit filizinin xlorid turşusu ilə parçalanma şəraitinin tədqiqi" adlı elmi əsərində araşdırılan məsələlər vacib addımlardandır. Dolomit mineralları bir çox sahələrində istifadə olunan texnoloji xammal kimi təbii materiallardır. Dolomitin filizindən alınan maqnezium və kalsiumun müxtəlif birləşmələri kimya, tibb, toxuculuq, aşılama və kənd təsərrüfatı sahəsində gübrə kimi, müxtəlif kimyəvi maddələrin istehsalı üçün həm də xammal mənbəyi rolunu oynayır. Bu materiallar, seçilmiş aktivatorlarla aşkarlandıqda, səmərəli luminesent xassələri meydana çıxır. Eyni zamanda dolomit sovelit və mineral yun istehsalında istifadə olunur. Bundan başqa maqnezium xloriddən hazırlanmış gellər tibbi vasitə kimi dərinin nəmləndirilməsini yaxşılaşdırır, oynaqların sərtliyini və ayaqlarda ağırlıq hissini azaldır, bu xüsusilə yaşlılar və az hərəkət edən və uzun müddət oturanlar üçün vacibdir. Əzələlərdə (ayaq, baldır, qol) ağrı və qıcolmalara qarşı faydalı təsir göstərir. İşin məqsədi Nehrəm yatağı dolomitinin xlorid turşusu ilə parçalanmasından maqnezium xloridin alınması və prosesin texnoloji sxeminin hazırlanmasıdır. Əhməd Qarayevin fikrincə, dörd mərhələdən olan proses: nümunənin turşu ilə parçalanması, yuyulma və təmizləmə, kalsiumun maqneziumdan və bərkin mayedən ayırması, nəhayət, kristallaşmadan ibarətdir. Hər bir mərhələnin səmərəliliyinə təsir edən bütün parametrlər sistemli şəkildə öyrənilmiş və optimal şərait müəyyən edilmişdir. Nəticədə işdə dolomit filizinin müxtəlif qatılıqlı xlorid turşusu ilə parçalanması şəraiti tədqiq edilmişdir. 5 q nümunə üçün xlorid turşusunun optimal miqdarı 5 ml 35 %, prosesin aparılma müddəti 30 dəqiqə, temperatur 60-70 °C müəyyən edilmişdir. Bu şərtlərdə dolomitdən məhlula keçən MgO-nin miqdarı (məhsuldarlığı) təxminən 90,0-93,0 % təşkil etmişdir. Alınmış məhluldan kalsium ionları ayrıldıqdan sonra, maqnezium xlorid heksahidratı (MgCl2·6H2O) kristallaşdırılmışdır [5].

Qeyd olunan nəticələrdən “Nehrəm dolomit filizinin xlorid turşusu ilə parçalanma şəraitinin tədqiqi” adlı elmi əsərinin aktuallığı və araşdırılan məsələlər çox faydalıdır.

Əhməd Qarayevin “Naxçıvan daş duzunun çıxarılması və istehsalı haqqında” məqaləsində lazımı məsələlər araşdırılmış, işin səmərəli yollarını va gələcək üçün faydalı tərəflərini önə çıxarmışdır.

Fəaliyyətindən də göründüyü kimi, Əhməd Qarayev daima araşdırmalar apararaq, tədqiqatlar üzərində işləmiş, yaradıcı fəaliyyətində yorulmadan çalışmışdır. Onun elmi fəaliyyəti gələcək nəsillərə bir işıq yoludur.

Əhməd Qarayev bir il əvvəl dünyasını dəyişsə də, mən elə sanıram ki, o hər zaman aramızdadır. O, ağır addımları ilə, hikmət dolu və mehriban danışığı ilə yenə də öz həmkarları, tələbələri, gələcəyin gənc kimyaçı alimləri ilə bir yerdədir.

Dünyaya gəlmək və dünyadan köçmək insanın öz əlində deyil. Bu tale qismət payıdır. Lakin bir ömür payını hərə bir cür yaşayır. Kimi şərəflə, ləyaqətlə yaşayır, kimi də pisliklərlə dolu ömür yaşayır. Kimi sağlığında ölü kimidir, kimi öldükdən sonra da daimi yaşayır. Əhməd Qarayev o adamlardandır ki, bizimlə, ailəsi ilə, sevdikləri ilə, yaxınları və onu tanıyanlarla daim yaşayacaqdır.

Problemin aktuallığı. Əhməd Qarayev onun davamçılarına və gənc nəslə kimya elmində vacib olan tədqiqatlar miras qoymuşdur. Bu gənc tədqiqatçıların gələcəkdə sərbəst şəkildə istənilən problemin öhdəsindən gəlməsi, eyni zamanda yaradıcı qabiliyyətlərinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

Problemin yeniliyi. Məqalədə gənc tədqiqatçıların müstəqil işlərin təşkili zamanı Əhməd Qarayevin kimya elmində əvəzsiz fəaliyyəti və araşdırmaları, nəticədə əldə olunan faydalı məlumatlar diqqət mərkəzinə gətirilir.

Problemin praktik əhəmiyyəti. Məqalə mütəxəssislər və gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

Ədəbiyyat

1. Həsənov A, kimya elmləri doktoru Azərbaycan. – 10.04. 2010. – s.7.
2. Tağıyev D, AMEA-nın vitse-prezidenti, akad. M. Nağıyev adına Kataliz və Qeyri-Üzvi Kimya İnstitutunun direktoru, akademik Arif Heydərov, Əlvan metal tərkibli mineral xammalın emalı laboratoriyasının müdiri, professor. www.science.gov.az
3. Qarayev Ə.M., Rzayeva A. Nehrəm dolomitinin termiki və məhlulda parçalanma şəraitinin araşdırılması” Azərbaycan Milli Elmlər akademiyası. Naxçıvan bölməsi. Elmi əsərləri, 2021, № 4.
4. Qarayev Ə. M. “Nehrəm dolomitindən maqnezium sulfatın alınması şəraitinin tədqiqi”, Azərbaycan Milli Elmlər akademiyası. Naxçıvan bölməsinin Elmi əsərləri, 2024, № 3
5. Garayev A.M. “Nehrəm dolomit filizinin xlorid turşusu ilə parçalanma şəraitinin tədqiqi”, журнал Endless light in science, област науки
6. СМИ (медиа) и массовые коммуникации, 2023.
7. Гарайев А. М. «Гидротермальный синтез наносоединения Sb2S3». Химия и химическая технология в XXI веке., 13-16 мая 2013 г. Томск, 2013.
8. Гарайев А. М «Способ окисления сульфида свинца гидрохимическим методом». Journal “SCIENCE AND WORLD” Volgograd, –№ 6, –2015.
9. Qarayev Ə.M. “Parağaçay molibdenit filizinin zənginləşdirilməsi şəraitinin tədqiqi”, Naxçıvan, NDU-nun Elmi əsərləri, 2016, № 3, –s.163.

Redaksiyaya daxil olub: 07.07.2025

UOT 37.
https://doi.org/10.69682/arti.2025.92(4).110-115
Kamil qızı Bəşirli,
Azərbaycan Dillər Universitetinin
Pedaqogika kafedrasının müəllimi
https://orcid.org/0000-0002-4575-6974
E-mail: ubeshirli@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(4).223-226

NƏRİMAN HƏSƏNZADƏNİN 'QATAR' ŞEİRİ TƏRBİYƏ VASİTƏSİ KİMİ

Ulviyya Kamil Bashirli,
lecturer of the department of Pedagogy at
Azerbaijan University of Languages

POEM BY NARIMAN GASANSADE "TRAIN" AS A MEANS OF EDUCATION

Ульвия Камиль гызы Баширли,
преподаватель кафедры Педагогики
Азербайджанского Университета Языков

СТИХОТВОРЕНИЕ НАРИМАНА ГАСАНЗАДЕ «ПОЕЗД» КАК СРЕДСТВО ВОСПИТАНИЯ

Xülasə. Nəriman Həsənzadənin "Qatar" şeiri zaman anlayışı üzərində simvolik düşüncəni əks etdirir. Şair həyatın sürətlə ötüb keçməsini hərəkətdə olan qatar obrazı ilə ifadə edir. O, xüsusilə gənclərin zamanı dəyərincə qiymətləndirmədiyini vurğulayır. Şeirdəki bədii təsvirlər oxucunu hər anın qədrini bilməyə çağırır. Qatar burada taleyin rəmzi kimi çıxış edir və heç kimi gözləmədən hərəkət edir. Həsənzadə zaman keçdikdən sonra onun geri qaytarılmasının mümkünsüzlüyünü xatırladır. O, gənc nəslə birbaşa müraciət edərək, həyatda məqsədyönlü və ayıq olmağa səsləyir. Şeirin emosional tonu onun fəlsəfi dərinliyini artırır. Şair lirik ifadələrlə həyat mərhələlərinin dəyərini çatdırır. "Qatar" şeiri nəticə etibarilə zamanın qiymətli olduğunu hamıya xatırladan ümumbəşəri bir çağırışa çevrilir.
Açar sözlər: *zaman, gənclik, həyatın keçiciliyi, taleyin qatarı, çağırış*

Abstract. Nariman Hasanzadeh's poem The Train presents a symbolic journey through the concept of time. The poem emphasizes the swift passage of life, using the image of a moving train to reflect human experiences. Hasanzadeh draws attention to how youth often take time for granted. Through rich metaphors, he urges the reader to appreciate every moment. The train becomes a metaphor for destiny that does not wait for anyone. The poet warns that once time passes, it cannot be reclaimed. He speaks to the young generation directly, encouraging mindfulness and purpose. The emotional tone of the poem deepens the message about the value of each stage in life. Hasanzadeh combines lyrical beauty with philosophical thought. The poem ultimately becomes a universal reminder of the preciousness of time.
Key words: *time, youth, transience of life, train of destiny, call to action*

Аннотация. Стихотворение Наримана Гасанзаде «Поезд» представляет собой символическое размышление о времени. Автор использует образ движущегося поезда как метафору быстротечности жизни. Поэт обращает внимание на то, как молодёжь часто не ценит время. Через яркие образы он призывает читателя жить осознанно. Поезд становится символом судьбы, которая не ждёт никого. Гасанзаде предупреждает, что упущенное время невозможно вернуть. Он напрямую обращается к молодому поколению с призывом беречь каждый миг. Эмоциональная глубина стихотворения

усиливает философское звучание. Лирическая форма помогает передать важность каждого этапа жизни. В итоге стихотворение становится универсальным напоминанием о ценности времени.

Ключевые слова: *время, молодёжь, быстротечность жизни, поезд судьбы, призыв*

Zaman insan həyatında ən qiymətli sərvətlərdən biridir. Onu nə saxlamaq, nə geri qaytarmaq, nə də artırmaq mümkündür. Azərbaycan poeziyasında bu anlayışı ən təsirli şəkildə ifadə edən şeirlərdən biri də Nəriman Həsənzadənin "Qatar" adlı poetik nümunəsidir. Şair bu şeirində zamanın axıcılığını, fürsətlərin keçiciliyini və insanın bu axın qarşısında məsuliyyətini simvolik şəkildə qatar obrazı ilə təqdim edir. Bu şeir şairin "Qatar" şeiri əsasında gənclərə ünvanlanmış dərin məna qatları ifadə edir və oxucuya bu poetik nümunənin çağırışları izah edir. Şeir yalnız bədii deyil, həm də dərin tərbiyəvi məzmun daşıyır və xüsusilə gənclər üçün həyati əhəmiyyət daşıyan mesajlar verir. Burada şairin vurğulamaq istədiyi bir neçə məqamdan bəhs etmək istəyərdim:

Zaman dayanmır, fürsətlər sonsuz deyil.

Qatarın sürəti kimi həyat da dayanmadan irəliləyir. Hər an, hər dəqiqə bir fürsət qapımızı döyür. Bu fürsətlər bəzən gözümüzün önündə olur, amma onları görməməzlikdən gəlirik, ya da ləngiyirik. Gecikdikdə isə, "sənə yer qalmadı" kimi soyuq həqiqətlə qarşılaşırıq. Buna görə də, gənc yaşlarımızda vaxtı səmərəli istifadə etmək, məqsədlərimizə doğru addımlamaq çox önəmlidir. Gənclik insan həyatının ən parlaq, ən məhsuldar çağlarından biridir. Bu dövr, yalnız fiziki enerjinin yüksək olduğu mərhələ deyil, eyni zamanda zehni və yaradıcı potensialın da zirvəyə çatdığı bir zamandır. Lakin təəssüf ki, gənclər çox zaman bu dövrün əsl dəyərini yalnız geriyə baxanda anlayırlar. Günlərin necə gəlib keçdiyini hiss etmədən, insanın həyatının ən qiymətli illəri arxada qala bilir. Halbuki gənclik – imkanların, ideyaların, iradənin və dəyişiklik gücünün cəmləşdiyi nadir bir mərhələdir. Bu illəri boş-boşuna keçirmək, gələcəyin peşmanlığına bərabərdir. Ona görə də gənc insan anlamalıdır ki, hər gün, hər an bir fürsətdir – öyrənmək, yaratmaq və həyatını inşa etmək üçün. Gələcəyin bünövrəsi məhz bu gün, bu yaşda qoyulur.

Qərar verməyi öyrənmək vacibdir.

Şeir "çantası əlində dayanan" insan obrazı ilə qərarsızlığı göstərir. Gənclər kimi biz də həyatımızda çox zaman seçim qarşısında qalırıq. Amma qərar verməkdən qorxmaq, imkanları dəyərləndirməmək bizə heç nə qazandırmır. Düşünmək və planlaşdırmaq vacib olsa da, əsl məsələ düzgün zamanda hərəkət etməkdir. Qərar verməkdən çəkinməməli, gecikmədən fürsətləri dəyərləndirməliyik. Həyatın ən mühüm mərhələlərindən biri – insanın seçim qarşısında dayanmasıdır. Bəzən bu seçimlər kiçik görünə bilər: hansı universiteti seçək, hansı işi qəbul edək, kimlə dost olaq. Amma hər biri bizim şəxsiyyətimizi, yolumuzu və gələcəyimizi formalaşdıran qovşaqlardır. Seçim – sadəcə bir variantı digərinə üstün tutmaq deyil; seçim həm də məsuliyyət daşımaq, seçdiyin yolla getmək və nəticəsinə sahib çıxmaq cəsarətidir. İnsan yaşa dolduqca anlayır ki, doğru qərar vermək yalnız ağılla deyil, həm də ürəklə bağlıdır. Çünki bəzi qərarlar var ki, yalnız cəsarət tələb edir – tanımadığın yola çıxmaq, əmin olmadığın bir gələcəyə doğru addımlamaq. Elə bu anda insanın içindəki ö"z ayaqları üstündə durmaq" ehtiyacı meydana çıxır. Kənardan dəstək gözləmədən, başqasının kölgəsinə sığınmadan, öz gücünlə bir istiqamət seçmək və bu yolda dayanmaq – həqiqi müstəqillik budur. Vaxt isə seçimlərin kontekstində ən qəddar tərəfdaşdır. Çünki vaxt heç kəsi gözləmir. Bir dəfə ötən fürsət, bir dəfə itirilən qərar bəzən illərlə təəssüf doğura bilir. Gənclik dövrü – bu imkanların, qərarların və dəyişikliklərin eyni anda mövcud olduğu bir zamandır. Bu dövrdə insan ya öz yolunu cızır, ya da başqalarının cızdığı yolla getməyə məcbur qalır. Məhz bu səbəbdən, seçim qarşısında məsuliyyətli davranmaq, zamana sayğı ilə yanaşmaq və verilən fürsətləri dəyərləndirmək həyatın açarıdır. Əslində, həyatın özü də bir növ seçimdir – kim olmaq istədiyimizin, nəyə çevriləcəyimizin və nə üçün yaşadığımızın cavabı da bu qərarlarda gizlidir.

Daxili güc və inamla hərəkət etmək.

Şeirdəki "kövrək qadına oxşamaq" metaforu göstərir ki, gecikənlər bəzən daxildən zəif və sarsılmış olur. Amma biz gənclər olaraq daxildən güclü, iradəli olmalı, həyatın çətinlikləri qarşısında zəiflik göstərməməliyik. Özümüzə inamı itirmədən, hər çətinlikdən dərs çıxararaq irəliləməliyik. Hər bir insanın içində görünməyən, amma onu ayaqda saxlayan bir güc var. Bu güc nə başqalarından gəlir, nə də təsadüfən yaranır. O, insanın içində – sakitcə, səssizcə möv-

cuddur. Sadəcə, çoxları bu gücü hiss etmir, ya da ona inanmır. Çətinliklərlə qarşılaşanda ilk olaraq ruhdan düşmək, geri çəkilmək, "bacarmaram" demək daha asan gəlir. Amma əslində, elə o anlarda daxili gücümüz bizə deyir: "Dayanma, bir də cəhd et, sən bacararsan." İnsanın özünə inanması – onu qoruyan, daşıyan, irəli aparan əsas dayaqdır. Həyatda hər şey planladığımız kimi getmir. Qəfil baş verən hadisələr, uğursuzluqlar, gözlənilməz itkilər insanı sarsıda bilər. Amma insan sınmamalıdır. Çünki hər çətinliyin içində bir çıxış, hər qaranlığın sonunda bir işıq var. Bu işığı görmək üçün insan əvvəlcə içindəki gücə, sonra isə öz iradəsinə güvənməlidir. Bəzən başqaları sənə inanmasa da, sən özünə inanmalısan. Başqalarının "yox" dediyinə sən "bəli" deməyi bacarmalısan. Öz ayaqların üstündə durmaq – yalnız fiziki deyil, mənəvi bir haldır. Bu, qərar verməkdir, bu, irəliləməkdir, bu, yıxılanda qalxmaqdır. Heç kim daim güclü olmur. Amma kim gücünü tanıyırsa, o, sınsa belə dağılmır. Özünə inanan insan həyatda tək deyil. O, özü ilə dostdur. O, bir çətinlik qarşısında dayansa belə, geri çəkilmir.

Şairin fikrinə görə öz daxili gücünə inanmayan insanlar gecikmiş qatarın dalınca baxan insanlar kimidirlər. Onlara verilən şansı, gücü dəyərləndirməyib gecikmiş arzularının arxasınca baxa-baxa qalırlar. Daxili güc – səssiz bir dayaqdır. Hər dəfə yorulanda, ruhdan düşəndə, o səni özünə qaytarır. Və sən bir daha anlayırsan: sən bacarırsan. Həmişə bacaracaqsan. Sadəcə, inanmırsansa, o güc də susur.

Həyatdakı məsuliyyətləri vaxtında dərk etmək

Həyat bir qatara bənzəyir. Sürətlə hərəkət edir, dayanmaq, gözləmək, geri qayıtmaq kimi bir adəti yoxdur. Bu qatarın hər stansiyası – zamanın bir mərhələsidir: uşaqlıq, gənclik, yetkinlik və yaşlılıq… Və bu mərhələlərin hər birində insana bir yer ayrılıb. Amma o yeri tapmaq, tutmaq və orada möhkəm dayanmaq yalnız bizim öz əlimizdədir. Vaxtında dərk edilməyən məsuliyyətlər, ötürülən fürsətlər, "hələ tezdir" deyə təxirə salınan qərarlar bizi bu qatarın arxasında qoyur. Çünki həyat heç kimi gözləmir. O, biz hazır olsaq da, olmasaq da, hərəkətini davam etdirir. Ona görə də insan öz yerini vaxtında tapmalı, öz məqsədini müəyyən etməli və həyat yoluna qətiyyətlə çıxmalıdır. Qatarda öz yerini tapan sərnişin rahat oturur, istiqamətini bilir, dayanacağına çatmağa hazırdır. Amma yersiz dolaşan, biletini itirən, ya da öz yerinə gecikən sərnişin narahat, çaşqın və narazı olur. Həyat da belədir. Öz yerini tapan insan sakit, məqsədyönlü və daxili rahatlıq içində olur. Amma məqsədsiz, gecikən və ya məsuliyyətdən yayınan insan daim narahatlıq içində yaşayır. Ona görə də şair tövsiyə edir ki, gənclik çağında, enerjimiz, gücümüz və imkanlarımız varkən bu qatara doğru addımlamalıyıq. Özümüzə sual verməliyik: "Mən bu həyatın hansı vaqonundayam? Mənim yerim haradır?" Bu sualların cavabını tapmaq – həm özümüzü tanımaq, həm də gələcəyimizi qurmaq deməkdir. Əgər yerimizi vaxtında tutmasaq, həyat qatarı bizim üçün bir ətrafa baxıb heç nə anlamadan keçib gedən mənzərəyə çevriləcək. Amma öz yerində oturan sərnişin kimi – biz də hara getdiyimizi biləcəyik. Və bu, həyatda ən vacib rahatlıqdır. Həyat qatarı sürətlə gedir və bizi gözləməyəcək. Buna görə də, hər birimiz üzərimizə düşən məsuliyyətləri vaxtında dərk etməli, gecikmədən yerimizi tutmalıyıq. Bu həm təhsildə, həm peşə həyatında, həm də şəxsi münasibətlərdə özünü göstərir. Məsuliyyətsizlik həyatımızda fürsətlərin əldən getməsinə səbəb ola bilər. Oxucusunu bir şeirlə bu qədər ilhamlandıran, onu bu günə inandırıb, gələcəyə ruhlandıran şairin səyi həqiqətən təqdirəlayiqdir.

Hər anı dəyərləndirmək, həyatı sevə-sevə yaşamaq.

Əgər biz bu qatarı – yəni həyatı dayandıra bilməyəcəyiksə, deməli, onun hər anını qiymətləndirməyi öyrənməliyik. Zaman nə dayanır, nə də geriyə qayıdır. Bu, bəzən qorxulu görünə bilər, amma əslində çox dəyərli bir mesaj daşıyır: hər anın ləzzətini çıxart, hər günün qədrini bil, hər səhvdən bir dərs götür. Həyat bizə təkrar-təkrar eyni fürsətləri vermir. Amma bizə imkan verir ki, yaşadığımızı hiss edək, düşündüyümüzü dəyişək, və ən əsası – içimizdəki o həqiqi yaşam enerjisini oyadaq. Səhv etmək pis deyil. Səhvdən bədlik çıxartmaq, peşmanlıqla donub qalmaq – bizi geriyə çəkən odur. Halbuki hər səhv – bir yol göstəricidir. "Bunu belə etmə" deyən həyatın sakit, amma dəyərli səsi. Əgər bu səsi eşidib ondan öyrənsək, səhvlərimiz bizə yük yox, təcrübə olar. Amma əgər o səhvləri içimizdə daşıyıb, daim keçmişdə ilişib qalsaq, onda bu sürətli qatarın içində yerimiz olsa belə, mənzilə çata bilmərik. Pozitivlik – sadəcə gü-

lümsəmək deyil. Pozitivlik, hər şey yaxşı getməyəndə bel“ əyenidən başlaya bilərəm” deməkdir. Bu həyat bizə yalnız bir dəfə verilib. Geriyə çəkmədən, montaj etmədən, “yenidən çəkək” demədən. O zaman hər anı dolu yaşamalı, dostluqlarımıza dəyər verməli, içimizdəki uşağı itirməməli, səhvlərimizə gülümsəməyi bacarmalıyıq. Unutma: bu qatarın nə vaxt harada dayanacağını bilmirik. Amma biz onun içində necə yol gedəcəyimizi seçə bilərik. Gözəl, mənalı, şüurlu, rəngli yaşamaq – elə bizim əlimizdədir. Qatarın sürətini dayandırmaq mümkün deyil, amma biz ona minən zaman anı dəyərləndirə, onu dolu-dolu, mənalı keçirə bilərik. Həyatı sevərək yaşamaq, özümüzü və ətrafımızdakıları dəyərləndirmək ən böyük sərvətimizdir.

Qatar – zamanın simvoludur. Şeirdəki qatar obrazı zamanın axıcılığını, dayanmadan hərəkətini və insanı gözləmədiyini simvollaşdırır. Qatar gəlir, dayanır və gedir. Əgər bu hərəkəti izləyə bilməsən, fürsəti əldən buraxarsan. Bu, gənclər üçün mühüm bir xəbərdarlıqdır: “Vaxtında düşün, vaxtında hərəkət et!” Zamanla ayaqlaşa bilməyən insan həyatın vacib anlarını itirə bilər. Burada təkcə fərdi həyat yox, həm də cəmiyyətin inkişafında iştirak etmək, sosial məsuliyyət daşımaq və zamanında qərar vermək də vacib faktorlardır. Qatar obrazı poetik baxımdan həm də həyatın ritmini təmsil edir – o dayanmaz, geriyə dönməz və hər kəsi gözləməz.

Şeir təkcə poetik fikir deyil, bir çağırışdır – zamanı dəyərləndir, tənbəllik etmə, sabaha saxlama! Gənclərə çalışqanlıq, planlı yaşamaq və məqsədə doğru qətiyyətlə getmək ideyası ötürülür. Bu çağırış yalnız fərdi inkişafa deyil, həm də milli-mənəvi dəyərlərə bağlılıq, ailəyə hörmət, cəmiyyətə faydalı vətəndaş olmağa yönəlmişdir. Nəriman Həsənzadə şeiri ilə sanki zamanın içində bir güzgü tutur və gənclərə deyir: 'Özünə bax, bu qatarın hardasındasan?' Bu sual təkcə poetik deyil, həm də fəlsəfi və psixoloji baxımdan dərin bir anlam daşıyır. Hər bir gənc bu sualı özünə verib, həyat yolunu müəyyənləşdirməlidir.

Nəriman Həsənzadənin “Qatar” şeiri yalnız poetik mətn deyil, eyni zamanda bir tərbiyə manifestidir. Zamanla yarışda qalib gəlmək üçün insan özünü tanımalı, məsuliyyət daşımalı və həyatını mənalı yaşamalıdır. Bu şeir gənc nəslə həyatın ritmini anlamağı, fürsətləri vaxtında dəyərləndirməyi və hərəkətə keçməyi öyrədir. Zamanın qatarı hərəkətdədir – onu qaçıranlar, həyatı da qaçırmış olar. Bu mesaj, gənclər üçün həm tərbiyəvi, həm də maarifləndirici dəyərə malikdir.

Problemin aktuallığı. Zamanla bağlı poetik düşüncələrin və keçmişlə gələcəyin bir nöqtə – ə “qatar” obrazında birləşməsi müasir insanın daxili dünyasına işıq saldığı üçün bu mövzu bu gün də öz aktuallığını qoruyur.

Problemin elmi yeniliyi. Nəriman Həsənzadənin “Qatar” şeirində zaman və məkan anlayışlarının poetik təcəssümü ilk dəfə olaraq fəlsəfi-metaforik yanaşma ilə şərh olunur və şeirin strukturu zamansal keçidlər kontekstində araşdırılır.

Problemin praktik əhəmiyyəti. Ədəbiyyat və şeir tədrisində zaman anlayışının bədii təqdimini analiz etməklə müəllimlərə və şagirdlərə poetik mətnləri yeni metodlarla təhlil etməyə imkan verir.

Ədəbiyyat

1. Həsənzadə, N.Ə. Mənim gecəm gündüzüm: Şeirlər və poemalar. -Bakı: Gənclik, -1973. -s. 32
2. Həsənzadə, N.Ə. Bir az möhlət istəyirəm ömürdən: Şeirlər və poemalar. -Bakı: Yazıçı, -1981. -s 61
3. Həsənzadə, N.Ə. Seçilmiş əsərləri: Poeziya. -Bakı: Şərq-Qərb, -2004. -s.12
4. Həsənzadə, N.Ə. Zümrüd quşu: Epik-dramatik poema. -Bakı: Gənclik, -1976. -s. 71

Redaksiyaya daxil olub: 10.06.2025

MÜNDƏRİCAT
CONTENTS
ОГЛАВЛЕНИЕ

BƏXTİYAR VAHABZADƏNİN 100 İLLİK YUBİLEYİNİN QEYD EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
DECREE OF THE PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN ON THE CELEBRATION OF THE 100TH ANNIVERSARY OF BAKHTIYAR VAHABZADE
РАСПОРЯЖЕНИЕ ПРЕЗИДЕНТА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ О ПРАЗДНОВАНИИ 100-ЛЕТНЕГО ЮБИЛЕЯ БАХТИЯРА ВАГАБЗАДЕ

BAŞ REDAKTORDAN
FROM THE EDITOR-IN-CHIEF
ОТ ГЛАВНОГО РЕДАКТОРА

BƏXTİYAR VAHABZADƏ – 100
BAKHTİYAR VAHABZADE – 100
БЕХТИЯР ВАХАБЗАДЕ – 100

Akif Abbasov
Bəxtiyar Vahabzadə yaradıcılığında ana mövzusu şagirdlərin tərbiyəsi vasitəsi kimi
The theme of the mother in the works of Bakhtiyar Vahabzade as a means of pupils upbringing 7
Тема матери в творчестве Бахтияра Вагабзаде как средство воспитания учащихся

Xurşud İsmayılova, Könül İbrahimova
Bəxtiyar Vahabzadə yaradıcılığında vətən sevgisi və mənəvi-əxlaqi dəyərlər
Love for the homeland and spiritual-moral values in the works of Bakhtiyar Vahabzadeh 11
Любовь к родине и духовно-нравственные ценности в творчестве Бахтияра Вахабзаде

AZƏRBAYCAN RESPUBLİKASINDA KONSTİTUSİYA VƏ SUVERENLİK İLİ
YEAR OF THE CONSTITUTION AND SOVEREIGNTY" IN THE REPUBLIC OF AZERBAIJAN
ГОД КОНСТИТУЦИИ И СУВЕРЕНИТЕТА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

Aygün Abdullayeva
Azərbaycan Xalq Cümhuriyyəti: suveren dövlətçilik ənənələrinin təməli və konstitusiya düşüncəsinin başlanğıcı
The Azerbaıjan Democratic Republic: the beginnig of sovereıgn statehood traditions and the formation of contitutional thought 15
Азербайджанская Демократическая Республика: основа традиций суверенной государственности и начало конституционного мышления

ÜMUMPEDAQOJİ PPROBLEMLƏR
GENERAL PEDAGOGICAL PROBLEMS
ОБЩЕПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ

Hikmət Əlizadə, Xalidə Hüseynzadə
Azərbaycanda tədqiqat universitetlərinin inkişaf perspektivləri: elmi potensialın gücləndirilməsi
Development prospects of research universities in Azerbaijan: strengthening scientific potential 19
Перспективы развития исследовательских университетов в Азербайджане: укрепление научного потенциала

İlham Cavadov
Təhsilin keyfiyyəti: məktəbdaxili idarəetmənin yeni prioritetləri
Quality of education: new priorities of intra-school management 27
Качество образования: новые приоритеты внутришкольного управления

Lamiyə Hacıyeva
Əsas səriştələr və onların qruplaşdırılması
Key competences and their grouping 32
Ключевые компетенции и их группирование

LAYİHƏ MƏDƏNİYYƏTİNİN TƏŞƏKKÜLÜ
FORMATION OF PROJECT CULTURE
ФОРМИРОВАНИЕ ПРОЕКТНОЙ КУЛЬТУРЫ

Arzu Məlikova-İsgəndərzadə
Tələbələrin layihə mədəniyyətinin formalaşdırılması
Formation of project culture of students
Формирование проектной культуры студентов 36

ŞAGİRLƏRİN PEŞƏYÖNÜMÜ
PUPİLS' PROFESSIONAL ORIENTATION
ПРОФОРИЕНТАЦИЯ УЧАЩИХСЯ

Ramilə İsmayılxanova
Ayrı-ayrı yaş dövrlərində şagirdlərin peşə yönümünün əsas mərhələləri
The main stages of vocational orientation of pupils at different age periods
Основные этапы профессиональной ориентации учащихся разных возрастных групп 41

METODİKA: FƏNLƏRİN TƏDRİSİ
METHODOLOGY: TEACHING SUBJECTS
МЕТОДИКА: ПРЕПОДАВАНИЕ ПРЕДМЕТОВ

Elvira Kərimova
Təlim prosesində müəllim-şagird münasibətlərinin qurulmasında əməkdaşlıq pedaqogikasının təsir üsulları
Methods of influencing collaborative pedagogy in building teacher-student relationships in the learning process
Методы воздействия педагогики сотрудничества на формирование взаимоотношений между учителем и учеником в учебном процессе 45

TƏRBİYƏ TEXNOLOGİYALARI
UPBRINGING TECHNOLOGIES
ВОСПИТАТЕЛЬНЫЕ ТЕХНОЛОГИИ

Rəqsanə Məmmədova
Əxlaqi-mənəvi dəyərlərin insan həyatına və şəxsiyyətin formalaşmasına təsiri: mütəfəkkirlərin baxışları əsasında
The impact of moral and spiritual values on human life and personality development: based on the views of thinkers
Влияние нравственно-духовных ценностей на жизнь человека и формирование личности: на основе взглядов мыслителей 50

TƏHSİLİN İDARƏOLUNMASI MƏSƏLƏLƏRİ
ISSUES OF EDUCATION MANAGEMENT
ВОПРОСЫ УПРАВЛЕНИЯ ОБРАЗОВАНИЕМ

Nigar Hüseynova
Təhsil sisteminin idarə edilməsində tətbiq olunan innovativ modellər
Innovative models applied in the management of the education system
Инновационные модели, применяемые в управлении системой образования 57

RİYAZİYYATIN TƏDRİSİ METODİKASI
METHODOLOGY OF TEACHING MATHEMATICS
МЕТОДИКА ПРЕПОДАВАНИЯ МАТЕМАТИКИ

Firidə Mustafayeva
Şəxsiyyətin formalaşmasında təfəkkür bacarıqlarının əhəmiyyəti
The importance of thinking skills in the formation of personality
Значение навыков мышления в формировании личности 61

Valeh Məmmədov, Musa Rzayev
Modul daxil olan bərabərsizliklərin öyrədilməsi təcrübəsindən
From the experience of teaching inequalities included in the module
Из опыта обучения неравенствам, входящим в модуль 66

FİZİKANIN TƏDRİSİ METODİKASI
METHODOLOGY OF TEACHING PHYSICS
МЕТОДИКА ПРЕПОДАВАНИЯ ФИЗИКИ

Sevinc Cəlilova
Fizika fənninin inteqrasiya olunmuş tədrisinin həyata keçirilməsində modullaşdırma prinspliəri
Modularity principles in the implementation of integrated physics education
Принципы модульности в реализации интегрированного обучения физике 70

Ülviyyə Nağıyeva
Şagirdlərin fizika fənninə marağının formalaşmasında pedaqoji, psixoloji və statistik amillərin rolu
The role of pedagogical, psychological and statistical factors in forming students' interest in physics
Роль педагогических, психологических и статистических факторов в формировании интереса учащихся к физике 78

COĞRAFİYANIN TƏDRİSİ METODİKASI
METHODOLOGY OF TEACHING GEOGRAPHY
МЕТОДИКА ПРЕПОДАВАНИЯ ГЕОГРАФИИ

Oqtay Alxasov
Coğrafiya tədrisində məkan-zaman təfəkküründün formalaşdırılmasının psixoloji-pedaqoji aspektləri
Psychological and pedagogical aspects of the formation of spatial-temporal thinking in teaching geography
Психолого-педагогические аспекты формирования пространственно-временного мышления в обучении географии 83

Arzu Aslanova
Coğrafiyanın tədrisində müstəqil işlərin təşkili yolları
Ways of organizıng independent work in teaching geography
Пути организации самостоятельных работ при обучении географии 88

BİOLOGİYANIN TƏDRİSİ METODİKASI
METHODOLOGY OF TEACHING BIOLOGY
МЕТОДИКА ПРЕПОДАВАНИЯ БИОЛОГИИ

Əliyənnağı Məhərrəmov
Biologiya təlimində laboratoriya işlərinin zəruriliyi, təlim keyfiyyətinə təsiri imkanları
The necessity of laboratory work in biology teaching, impact on the quality of teaching
Необходимость лабораторных работ в преподавании биологии, возможности влияния на качество обучения 92

Elnurə Səfərova, Zərifə İsmayılova
Biologiyanın tədrisində yeni dərs modellərinin tətbiqi və maneələr
Implementation of new lesson models and challenges in biology education
Внедрение новых моделей уроков и препятствия в преподавании биологии 97

HƏYAT BİLGİSİ FƏNNİNİN TƏDRİSİ METODİKASI
METHODOLOGY OF TEACHING THE SUBJECT OF KNOWLEDGE OF THE WORLD
МЕТОДИКА ПРЕПОДАВАНИЯ ПРЕДМЕТА ПОЗНАНИЕ МИРА

Təranə Əkbəri
Həyat bilgisi dərslərində şagird fəallığını artıran yanaşmaların şagirdyönümlülük baxımından təhlili
Analysis of approaches to increase student activity in world knowledge lessons from the poınt of view of student engagement
Анализ подходов, повышающих активность учащихся на уроках по предмету «Познание мира», с точки зрения ориентации на учащегося 101

FİZİKİ TƏRBİYƏNİN TƏDRİSİ METODİKASI
METHODOLOGY OF TEACHING PHYSICAL CULTURE
МЕТОДИКА ПРЕПОДАВАНИЯ ФИЗИЧЕСКОЙ КУЛЬТУРЫ

Arzu Cəfərova
Milli oyunlardan istifadə etməklə yeniyetmə voleybolçuların fiziki hazırlıqlarının inkişaf etdirilməsi
Developing the physical fitness of young volleyball players through the use of national games 105
Развитие физической подготовки юных волейболистов с использованием национальных игр

İNGİLİS DİLİNİN TƏDRİSİ METODİKASI
METHODOLOGY OF TEACHING THE ENGLISH LANGUAGE
МЕТОДИКА ПРЕПОДАВАНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА

Aytən Kazımova
İşgüzar ingilis dilinin tədrisində mədəniyyətlərarası kommunikasiya bacarıqlarının inkişaf etdirilməsi
Developing intercultural communication skills in business English teaching 110
Развитие межкультурных коммуникативных навыков в преподавании делового английского языка

Mətanət Məmmədova
Müasir ingilis dili dərslərində video resurslarin kommunikativ kompetensiyanin formalaşmasinda rolu
The role of video resources in the development of communicative competence in modern English language lessons 116
Современная роль видеоресурсов в формировании коммуникативной компетенции на уроках английского языка

Qönçə Hacıyeva
Ali məktəblərin aşağı kurslarında ingilis dilində sorğu-əsaslı dil tədrisindən istifadə metodikası
Methodology of using inquiry-based language teaching in English in the lower courses of higher schools
Методика использования опросно-ориентированного обучения английскому языку на младших курсах высших учебных заведений 122

Şəhla Balacayeva
Video materialların fərqli yaş və səviyyələrə uyğun ingilis dili tədrisinə inteqrasiyası
Integration of video materials into English language teaching according to different age groups and proficiency levels 128
Интеграция видеоматериалов в обучение английскому языку с учётом возрастных и уровневых особенностей

Türkan Əliyeva
Çoxdilliliyin formalaşmasinda ingilis dilinin tədris metodlarinin səmərəliliyi
The effectiveness of English language teaching methods in the formation of multilingualism 134
Эффективность методов преподавания английского языка в формировании многоязычия

RUS DİLİNİN TƏDRİSİ METODİKASI
METHODOLOGY OF TEACHING THE RUSSIAN LANGUAGE
МЕТОДИКА ПРЕПОДАВАНИЯ РУССКОГО ЯЗЫКА

Şəhla İbrahimova
Mədəniyyətlərarası ünsiyyətin qurulmasında rus dilinin rolu
The role of the Russian language in building intercultural communication 140
Роль русского языка в построении межкультурной коммуникации

TƏHSİLDƏ MONİTORİNG VƏ QİYMƏTLƏNDİRMƏ
MONITORING AND EVALUATION IN EDUCATION
МОНИТОРИНГ И ОЦЕНИВАНИЕ В ОБРАЗОВАНИИ

Nigar Niftəliyeva
Qiymətləndirmə prosesinin nəzəri əhəmiyyətinin təhsil sistemində rolu
The role of the theoretical importance of the assessment process in the education system 145
Теоретическая значимость оценочного процесса и его роль в образовательной системе

Gülnarə İskəndərova
Təhsildə qiymətləndirmənin yolu: keçmiş təcrübələrdən gələcəyə doğru
The educational assessment journey: through past experıences to the future
Путь оценивания в образовании: от прошлых опытов к будущему 149

İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏ
USE OF INFORMATION AND COMMUNICATION TECHNOLOGIES
ИСПОЛЬЗОВАНИЕ ИНФОРМАЦИОННЫХ И КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ

Əsmət İsmayılxanova
İnteraktiv təlim prosesində pedaqoji texnologiyalardan istifadə imkanları və yolları
Opportunities and methods of implementing pedagogical technologies in interactive education
Пути и возможности использования педагогических технологий в интерактивном обучении 155

Xumar Novruzova
Uyğunluq və funksiya anlayışlarının öyrədilməsində İKT-nin tətbiqi
Application of İCT in teaching the concepts of compatibility and function
Применение ИКТ в обучении понятиям соответствие и функция 159

Lalə Sadıxova
Tələbələri öyrənməyə həvəsləndirmək üçün rəqəmsal texnologiyalardan istifadənin səmərəliliyi problemi
The problem of the effectiveness of using digital technologies to motivate students to learn
Проблема эффективности использования цифровых технологий для мотивации студентов к обучению 164

Kənan Allahverdiyev
Peşə təhsili ixtisaslarında elektron təhsilin istifadəsi: mövcud nəzəri yanaşmaların sistemləşdirilməsi
Use of e-learning in vocational education specialties: systematization of existing theoretical approaches
Использование электронного обучения в специальностях профессионального образования: систематизация существующих теоретических подходов 168

İNKLÜZİV TƏHSİL, KORREKSİYA PEDAQOGİKASI, KRREKSİYA PSİXOLOGİYASI
INCLUSIVE EDUCATION, CORRECTIONAL PEDAGOGY, CORRECTIONAL PSYCHOLOGY
ИНКЛЮЗИВНОЕ ОБРАЗОВАНИЕ, КОРРЕКЦИОННАЯ ПЕДАГОГИКА, КОРРЕКЦИОННАЯ ПСИХОЛОГИЯ

Şəfiqə Zülfüqarova
İnklüziv təhsildə müəllimlərin empati bacarıqlarının artırılması yolları
Ways to improve teachers' empathy skills in inclusive education
Пути улучшения навыков эмпатии учителей в инклюзивном образовании 174

Gülgün Novruzova, Fidan Əskərova
Təhsil müəssisələrində inklüziv təlimin təşkili yolları
Ways to organize inclusive education in educational institutions
Пути организации инклюзивного обучения в образовательных учреждениях 178

Milanə Həsənova
İnklüziv təhsilin psixopedaqoji əsasları
Psychopedagogical foundations of inclusive education
Психопедагогические основы инклюзивного образования 183

PSİXOLOGİYA
PSYCHOLOGY
ПСИХОЛОГИЯ

Məhərrəm Əliyev
İntiharların təsnifatı problemi: yanaşmalar və perspektivlər
The problem of suicide classification: approaches and perspectives
Проблема классификации самоубийств: подходы и перспективы 188

Rəna Cəbrayılova
Tələbələrdə akademik stressin təzahür xüsusiyyətləri
Features of academic stress in students 195
Особенности академического стресса у студентов

Günel Məmmədova
Yeniyetmələrin özünüqiymətləndirməsinin gender xüsusiyyətləri və onun təlim fəaliyyətinə təsiri
Gender features of self-esteem of adolescents and its influence on learning activities 200
Гендерные особенности самооценки подростков и ее влияние на учебную деятельность

Elnarə İsazadə
Gənclik yaş dövründə internet asılılığının psixoloji aspektləri
Psychological aspects of internet addiction in youth 204
Психологические аспекты интернет-зависимости у молодежи

Leyla Səfərbəyovna Dadaş-zadə
Özünütənzimləmə prosesində kiçik yaşlı məktəblilərin həyəcan hissinin aradan qaldırılması
Relief of anxiety in primary school children in the process of self-regulation 208
Устранение чувства тревожности у школьников младшего возраста в процессе саморегуляции

Günel Şahinzadə
Uşaq evlərində böyüyən uşaqların özünüqiymətləndirmə problemi
The problem of self-esteem of children growing up in orphanages 212
Проблема самооценки детей, воспитывающихся в детских домах

Turanə İsmayılova
Ali məktəblərdə idrak fəallığının yüksəldilməsi: aktiv öyrənmə və tənqidi, məntiqi və yaradıcı təfəkkürün inkişaf strategiyaları
Improving cognitive activity in higher schools: active learning and strategies for the development of critical, logical and creative thinking 216
Повышение познавательной деятельности в высших школах:стратегии развития активного обучения, критического, логического и творческого мышления

AZƏRBAYCANIN ELM VƏ MƏDƏNİYYƏT XADİMLƏRİ
SCIENTIFIC AND CULTURAL FIGURES OF AZERBAIJAN
ДЕЯТЕЛИ НАУКИ И КУЛЬТУРЫ АЗЕРБАЙДЖАНА

Reyhan Hacızadə
Ömrünü elmə həsr edən alim – Əhməd Qarayev
A scientist who dedicated his life to science – Akhmed Garayev 219
Ученый, посвятивший свою жизнь науке – Ахмед Гараев

MÜƏLLİMİN ÖZÜNÜTƏHSİLİ
TEACHER'S SELF-EDUCATION
САМООБРАЗОВАНИЕ УЧИТЕЛЯ

Ülviyyə Bəşirli
Nəriman Həsənzadənin "Qatar" şeiri tərbiyə vasitəsi kimi
Nariman Hasanzade's poem "Train" as an educational tool 223
Стихотворение Наримана Гасанзаде «Поезд» как воспитательное средство

TƏQDİM OLUNAN MƏQALƏLƏRƏ TƏLƏBLƏR

1. Digər redaksiyalara təqdim olunmamış məqalələr qəbul edilir.
2. Məqalələr son tədqiqatların nəticələrini əks etdirməli, yeni ideyalarla zəngin olmalı, elmi məqalələrin yazılışına qoyulan tələblər gözlənilməlidir.
3. Məqalələrdə öz əksini tapan fikirlər müəlliflərə aid olmalıdır. İstifadə edilmiş fotolar açıq mənbələrdən götürülməlidir. Antiplagiat və digər tədqiqat etikasının tələblərinin təmin olunması məqalə müəlliflərinin məsuliyyətindədir.
4. Plagiatlıq faktları aşkar edildikdə həmin məqalənin nəşri dayandırılır.
5. Təqdim olunan məqalələrdə müəlliflərə aid Orcid öz əksini tapmalıdır.
6. Məqalələr Azərbaycan, rus və ingilis dillərində qəbul edilir Hər məqaləyə adları çəkilən dillərdə xülasələr və açar sözlər yazılır.
7. Məqalələr Azərbaycan. dilində latın əlifbası (Times New Roman), rus dilində krill əlifbası və ingilis dilində ingilis (ABŞ) əlifbası ilə Times New Roman - 14 şrift ilə 1,5 intervalla yığılmalı, elektron variantı ilə birlikdə (filəşkartda) təqdim olunmalıdır.
8. Məqalələr üç dildən - Azərbaycan, rus və ingilis dillərindən birində çap olunur. 3 dildə (Azərbaycan, rus və ingilis) məqalənin xülasəsi təqdim edilir. Xülasədə irəli sürülən başlıca elmi müddəalar, tədqiqatdan alınan nəticələr, problemin nəzəri və praktik əhəmiyyəti öz əksini tapmalıdır.
9. Məqalə aşağıdakı ardıcıllıqla yazılır: birinci sətirdə müəllif(lər)in adı, atasının adı və soyadı; ikinci sətirdə elmi dərəcəsi və elmi adı (yaxud doktorant də dissertant olması və s.); üçüncü sətirdə iş yeri, vəzifəsi; dördüncü sətirdə böyük hərflərlə məqalənin adı. Daha sonra bu qaydada həmin məlumatlar rus və ingilis dillərində təkrar edilir.
10. Həmmüəlliflərin üç nəfərdən artıq olması məqsədəuyğun deyildir.
11. Redaksiya məqalədə zəruri dəyişiklər və ixtisarlar, redaktə aparrmaq hüququna malikdir. Məqalələrə iki mütəxəssisin rəyi, şöbə və ya kafedranın, həmçinin ali məktəbin Elmi Şurasının və ümumtəhsil, yaxud orta ixtisas təhsili müəssisəsinin pedaqoji şurasının iclas protokollarından çıxarışlar əlavə olunur.
12. Məqalədəki faktların, məlumatların dürüstlüyünə müəlliflər cavabdehdir. İrəli sürülən elmi müddəalar müəllifin özünə məxsus olmalı, istifadə edilmiş nəzəri fikirlərin mənbəyi göstərilməlidir.
13. Məqalədə son 5-10 ildə çap olunan əsərlərə istinadlara üstünlük verilməlidir. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, (1) və ya (1, s. 119) kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.
14. Jurnal öz profilinə uyğun məqalələri dərc edir.
15. Elmi məqalələrin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq aktuallıq əsaslandırılmalı, elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.
16. Daha sonra istinad olunmuş ədəbiyyatın siyahısı verilir.
17. Məqalə müəlliflərinin hüquqları qorunur.
18. Jurnalda "ardı növbəti nömrədə" adı altında seriya məqalələr dərc olunmur.
19. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun gəlməlidir.
20. Məqalənin sonunda rəyçilərin adı, atasının adı və soy adı, elmi dərəcəsi və elmi adı; sonrakı sətirdə məqalə müəllifinin elektron ünvanı (E-mail) göstərilməlidir.
21. Məqaləyə müəllif haqqında aşağıdakı məlumatlar əlavə olunur: məqalə müəllif (lər)inin adı, atasının adı soyadı, işlədiyi müəssisə (hansı müəssisədə doktorant və dissertant olması) və müəssisənin ünvanı, müəllif(lər)in vəzifəsi, elmi dərəcəsi və adı, iş və ev telefonları, ev ünvanı, elektron poçt ünvanı (Email).

REQUIREMENTS FOR SUBMITTED ARTICLES

1. Submitted articles should not be published or accepted for publication in other editions.
2. Articles should reflect the results of recent research, be rich in new ideas and they must comply with the requirements for writing scientific articles.
3. The opinions reflected in the articles should belong to the authors. The used photo materials must be taken from open sources. Ensuring compliance with anti-plagiarism and other research ethics requirements is the responsibility of the article authors.
4. When the facts of plagiarism are discovered, the publication of the article is stopped.
5. The text of the article should be about 6-8 pages. Keywords for the article should be presented in three languages: Azerbaijani, Russian and English.
6. The text of the article should be presented on the flash card together with the electronic version, with an interval of 1.5; 14 point Times New Roman font - Latin alphabet in Azerbaijani, Cyrillic in Russian, and English alphabet (USA) in English.
7. Articles are published in one of three languages - Azerbaijani, Russian and English. A summary of the article is provided in 3 languages (Azerbaijani, Russian and English). The article should reflect the main scientific provisions presented in the summary, the conclusions drawn from the study, the theoretical and practical significance of the problem should be presented.
8. The article is written in the following order: on the first line the name, surname and patronymic of the author (s); the second line contains the academic degree and academic title (doctoral student or candidate for a degree, etc.); the third line indicates the place of work, position; the fourth line represents the title of the article in capital letters. Then in this order the same information is repeated in Russian and English.
9. It is undesirable to have more than three co-authors.
10. The Editorial Board has the right to make changes and reductions in the article.
11. Two expert reviews should be provided together with the article: heads of department or chair, as well as extract from the protocol of Academic Council of the higher school and the Pedagogical Council of general or secondary special education institutions.
12. The authors of the article are responsible for the accuracy of the facts and information provided in the article. The proposed scientific provisions should belong to the author and the source of used theoretical ideas must be indicated.
13. The articles should refer to works published in the last 5-10 years. The list of references given at the end of the article should not be numbered in alphabetical order, but in the order in which the indicated literature appears in the text, for example (1) or (1, p. 119). If the same literature is repeated elsewhere in the text, then the same literature should be indicated under the previous number.
14. The journal publishes articles related to its profile.
15. At the end of a scientific article, the relevance should be justified according to the nature of the article and the area of science, scientific novelty, importance of its application, economic efficiency, etc. should be clearly indicated.
16. Then a list of references is provided.
17. The rights of the authors of the article are protected.
18. The journal does not publish a series of articles under the heading “continued in the next issue”.
19. Summary of articles in different languages should be the same and consistent with the content of the article.
20. At the end of the article the name, patronymic and last name of the reviewers, their academic degree and academic title should be indicated; the next line should contain the email address of the author of the article.
21. The following information about the author is added to the article: name, surname, patronymic of the author (authors), the institution where he works (doctoral student or candidate for a degree), address of the institution, position, academic degree and the title of the author (s), home and work phones, home address, email address.

ТРЕБОВАНИЯ К ПРЕДСТАВЛЕННЫМ СТАТЬЯМ

1. Принимаются статьи, не представленные в других редакциях.
2. Статьи должны отражать результаты последних исследований, быть богатыми новыми идеями, в них должны быть соблюдены требования, предъявляемые написанию научных статей.
3. Идеи, отраженные в статьях, должны принадлежать авторам. Используемые фотоматериалы должны быть взяты из открытых источников. Авторы статьи несут ответственность за соблюдение антиплагиатных и других требований исследовательской этики.
4. При обнаружении фактов плагиата публикация статьи прекращается.
5. Текст статьи должен составлять около 6-8 страниц. Ключевые слова для статьи должны быть представлены на трех языках: азербайджанском, русском и английском.
6. Текст статьи должен быть представлен на флеш-карте вместе с электронным вариантом, с интервалом 1,5; шрифтом 14 Times New Roman - латинского алфавита на азербайджанском языке, кириллицы на русском языке, и английским алфавитом (США) на английском языке.
7. Статьи публикуются на одном из трех языков - азербайджанском, русском и английском. Резюме статьи предоставлено на 3 языках (азербайджанском, русском и английском). В статье должны быть отражены основные научные положения, изложенные в резюме, выводы, сделанные из исследования, должна быть представлена теоретическая и практическая значимость проблемы.
8. Статья должна быть написана в следующем порядке: на первой строке имя, фамилия и отчество автора (авторов); вторая строка содержит ученую степень и ученое звание (диссертант или докторант и т. д.); третья строка указывает место работы, должность; на четвертой строке представлено название статьи прописными буквами. Затем эта же информация повторяется на русском и английском языках.
9. Нежелательно иметь более трех соавторов.
10. Редакция имеет право вносить изменения и сокращения в статью.
11. Вместе со статьей должно быть предоставлено два отзыва специалистов: заведующих кафедрой или отделом, а также выписка из протокола Ученого совета вузов и педагогического совета общеобразовательного или среднего специального образования.
12. Авторы статьи несут ответственность за достоверность приведенных в статье фактов и информации. Предлагаемые научные положения должны принадлежать автору и должен быть указан источник используемых теоретических идей.
13. Ссылки следует давать на работы, опубликованные за последние 5-10 лет. Список литературы, приведенный в конце статьи, должен быть пронумерован не в алфавитном порядке, а в том порядке, в котором указанная литература появляется в тексте, например (1) или (1, стр. 119). Если та же самая литература повторяется в другом месте в тексте, то эта же литература должна быть указана под предыдущим номером.
14. Журнал публикует статьи, имеющие отношение к его профилю.
15. В конце научной статьи должна быть обоснована актуальность в соответствии с характером статьи и областью науки, четко указана научная новизна, важность ее применения, экономическая эффективность и т.д.
16. Затем предоставляется список использованной литературы.
17. Права авторов статьи защищены.
18. Журнал не публикует серии статей под заголовком «продолжение в следующем номере».
19. Резюме статей на разных языках должны быть одинаковыми и соответствовать содержанию статьи.
20. В конце статьи должно быть указано имя, отчество и фамилия рецензентов, их ученая степень и ученое звание; следующая строка должна содержать адрес электронной почты автора статьи.
21. В статью добавляется следующая информация об авторе: имя, фамилия, отчество автора (авторов), учреждение, где он работает (докторантом или диссертантом которого является) адрес учреждения, должность, ученая степень и звание автора(ов), домашний и рабочий телефоны, домашний адрес, электронная почта (E-mail).

Çapa imzalanıb: 18.06.2025
Format: 84x108 1/8. Qarnitur: Times.
Həcmi: 12,75 ç.v. Tiraj: 200. Sifariş № 105.

MÜTƏRCİM TƏRCÜMƏ VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
(012) 596 21 44;
e-mail: mutarjim@mail.ru
www.mutercim.az